QABİL ƏLİYEV

# QAFQAZ TARİXİ

**(ən qədim çağlardan XVIII əsrin sonunadək)**
**I hissə**

***Ali məktəblər üçün dərslik***

Azərbaycan Respublikası Təhsil Nazirinin 15 noyabr 2006-cı il tarixli 838 saylı əmri ilə dərslik kimi təsdiq edilmişdir.

6337

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZIDENT KİTABXANASI

**Bakı – «Elm» – 2009**

**Elmi redaktorlar:** **akademik *Teymur Bünyadov***
**tarix elmləri doktoru,**
**professor *Əsməd Muxtarova***

**Rəyçilər:** **əməkdar elm xadimi,**
**tarix elmləri doktoru,**
**professor *Süleyman Əliyarlı***
**tarix elmləri doktoru,**
**professor *Nisbət Mehdiyeva***

**Əliyev Q.Ə. Qafqaz tarixi (ən qədim çağlardan XVIII əsrin sonunadək). I hissə.** Dərslik. Bakı, «Elm», 2009, 448 s.

İSBN 078-9952-453-49-2

Dərslik universitetlərin Tarix və Qafqazşünaslıq ixtisasları üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Dərsliyin birinci cildində Qafqazda ilk insanların yaşamağa başlaması, əkinçilik və sənətkarlıq mərkəzləri, qədim cəmiyyətlərin yaranması, quldarlığın səviyyəsi, Qafqaza yadelli basqınları haqqında bilgi verilmiş, feodal münasibətlərinin yaranması və xüsusiyyətləri, Xristianlıq və İslam dinlərinin yayılması və yerli xalqların mədəni inkişafına təsiri, Sasani, Bizans, ərəb və monqol işğalları və ağalığına qarşı mübarizə, regionda yaranmış dövlətlərin qarşılıqlı münasibətləri, Səfəvi-Osmanlı rəqabətinin nəticələri, Rusiyanın müstəmləkəçi siyasətinə qarşı milli-azadlıq mübarizəsinin başlanması və s. bu kimi məsələləri mənbələrin və tarixi araşdırmaların imkan verdiyi səviyyədə şərh edilmişdir.

Müəllif regionda qədim çağlarda və orta yüzilliklərdə yaşamış tayfaların və xalqların etnik mənşəyi, yerli və gəlmə xalqlar məsələsi, siyasi tarixlə bağlı faktlara daha geniş yer vermiş, konyuktur, ehkamçı baxışları tənqid edərkən elmi obyektivliyi qoruyub saxlamağa çalışmışdır. Qafqaz regionunda uzun tarixi dövr ərzində baş verənlər haqqında oxucunun öz baxışlarının formalaşmasına yardım etməyə səy göstərmişdir.

$Ə\frac{0503020907}{655(07)-2009}$

© *Q.Ə.Əliyev, 2009*



*Görkəmli tarixçi, prinsipial alim, paklıq və təmizlik mücəssiməsi, təmənnasız yaxşılıqlar etməyi həyat devizinə çevirmiş sevimli müəllimim tarix elmləri doktoru, professor Əli Pirəli oğlu Əliyevin əziz xatirəsinə ithaf edirəm.*

*Müəllif*

# GİRİŞ

**Kursun mövzusu.** Qafqaz tarixi bu bölgədə – Xəzər dənizi ilə Qara dəniz arasında, Böyük və Kiçik Qafqaz dağlarının hər iki tərəfində yaşayan xalqların, onların yaratdıqları cəmiyyət və dövlətlərin ən qədim çağlardan bizim günlərə qədərki inkişaf mərhələlərini öyrənir. Kursun başlıca məqsədlərinə qədim zamanlardan üzü bəri Qafqazda baş vermiş ictimai-siyasi, sosial-iqtisadi, etnik dəyişikliklərin təhlil edilməsi, Qafqaz xalqlarının bir-biri ilə, yaxın və uzaq qonşuları ilə qarşılıqlı münasibətlərinin araşdırılması aiddir. Qafqaza yadelli hücumları və onlara qarşı regionun yerli tayfa və xalqlarının uzun əsrlər boyu apardıqları qəhrəmanlıq mübarizəsi, həmçinin bölgə xalqlarının qədim, özünəməxsus və çox zəngin mədəni irsi haqqında məlumat verilməsi də mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

**Qafqaz termininin etimologiyası haqqında.** Qafqaz adının yaranması haqqında uzun tarixi dövr ərzində müxtəlif fikir və fərziyyələr irəli sürülmüşdür. Hazırda da bununla bağlı müxtəlif yozumlar mövcuddur. Geniş yayılmış bir mülahizəyə görə, Qafqaz ifadəsi Qara dənizdən cənubda yaşamış het tayfalarından birinin – ***kas (qaz)*** tayfasının adı ilə bağlıdır. Bu regionun adının qədim yunan mifologiyasındakı allahların birinin adı ilə bağlı olmasını iddia edənlər də vardır. Görkəmli Azərbaycan tarixçisi A.Bakıxanova görə isə, Qafqaz adı Qaf dağı və Qaspi adlı tayfanın adından

alınmışdır. Bizim fikrimizcə, Qafqaz termininin bu cür şərhi daha ağlabatandır. Çünki, *"qaf"* və *"qaz"* kompanentləri daha öncədən, uzun müddət ərzində ayrı-ayrılıqda işlənmiş və bu regionun bir hissəsini ifadə etmişdir.

*Qaf (kap, kav)* türk dillərində baş, dağ, hündür yer mənasını bildirir. Günümüzdə Türkiyə türkləri "kafa" - baş, Azərbaycan türkləri "qafa tası" - kəllə sümüyü ifadələri işlətməkdədirlər. "Qaf" ayrılıqda dağ mənasında orta əsr qaynaqlarında işlədilibdir. III əsrə aid Suriya qaynağı Sasani şahənşahı I Şapura tabe olan ölkələri sadalayarkən Aturpat Ermənistanı, İberiya, Albaniya və Balasakanın adlarını çəkir və ərazisinin Kap (Qafqaz - Q.Ə) dağına və Alban qapılarına qədər uzandığını göstərir. Son orta əsrlərə aid "Koroğlu" dastanında Aşıq Cunun Koroğlunun "Haradan gəlmisən?" sualına "Qafın (dağın - Q.Ə.) o biri tərəfindən" - cavabını vermişdir.

*Qaz (kaz, kas)* adı ilə e.ə. II minilliyin əvvəlində Xəzər dənizinin cənub-qərb sahili boyunda yaşamış kassi tayfalarının adı ilə bağlıdır. Mixi kitabələrdə bu tayfaların İkiçayarasına köçmələri və 500 ilə qədər orada hökmranlıq etmələri haqqında xeyli sayda məlumat vardır. Kassilərin bir hissəsi isə Qafqazın cənub-şərq bölgələrində yaşamını davam etdirmiş, sonrakı yüzilliklərdə isə şimala və qərbə doğru daha geniş əraziyə yayılmışlar. E.ə. I minilliyin ortalarından Şərqi Qafqazda kaspilərin yaşaması, Kaspiana ölkəsi, Kaspi dənizi haqqında yazılı mənbələrdə çeşidli məlumat qalmışdır. Müasir Gürcüstanda Kaspi şəhərinin, Cənubi Azərbaycanda Qəzvin (Kaz - vin) şəhərinin adları bu tayfaların yayıldığı nəhəng areal haqqında təsəvvür yaradır.

Qədim yunan dramaturqu **Esxil** ***"Zəncirlənmiş Prometey"*** əsərində ilk dəfə Kavkaz (Qafqaz) dağları ifadəsini işlətmişdir. O, Qafqazı "bütün dağların hökmdarı" adlandırmış və onun "dünyanın qurtaracağında, vəhşi skiflərin çölü" yaxınlığında yerləşdiyini, uca dağlar silsiləsindən ibarət ol-





duğunu, orada "amazonkalar qoşunu"nun varlığını, həmin yerlərdən solda "dəmirçi xaliblər"in yaşadığını qeyd etmişdir. Esxilin ardınca digər antik müəlliflər də Qara dənizdən şərqdəki dağları və bütün regionu Qafqaz adlandırmışlar. Orta əsr ərəb coğrafiyaşünasları da daha çox Qafqaz ifadəsini işlətməyə üstünlük vermiş və beləcə Qafqaz bu regionun adı kimi qəti möhkəmlənmişdir.

**Qafqazın hüdudları, müasir etnik mənzərəsi və inzibati quruluşu.** Qafqaz tarixi-coğrafi baxımdan şərqdə ***Xəzər dənizi***, qərbdə ***Qara və Azov dənizləri ilə***, şimalda ***Kuma-Manıç çökəkliyi ilə*** hüdudlanır, cənubda isə ***Urmiya və Van göllərinə qədərki ərazini*** əhatə edir. Ümumi sahəsi **600 min km²-dən** artıqdır. Taman yarımadasından Dərbəndə kimi uzanan ***Böyük Qafqaz dağları silsiləsi*** Qafqaz regionunu iki yerə - ***Şimali Qafqaza*** və ***Cənubi Qafqaza*** ayırır. Rusiya, Sovet tarixşünaslığında qəsdən bu bölgü qabardılmış, Şimali Qafqaz və Cənubi Qafqaz ayrıca, tamamilə fərqli bölgələr kimi təqdim edilmiş, onlar arasındakı tarixi, etnik, siyasi, iqtisadi və mədəni əlaqələrin əhəmiyyəti isə əksinə, kiçildilmişdir. Bundan güdülən məqsəd Rusiyanın Şimali Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətinə, yerli xalqlara qarşı zorakılıq aktlarına qarşı Cənubi Qafqaz xalqlarının etiraz etmələrini önləməkdir.

Sovet tarixşünaslığında həmçinin Qafqazın cənub hüdudları təhrif edilmiş və Sovet İttifaqının Türkiyə və İranla dövlət sərhəddi həm də, Qafqazın cənub qurtaracağı kimi təqdim edilmişdir. Əslində isə tarixi və coğrafi baxımdan Qafqaz regionunun cənub hüdudlarının cənubda Urmiya gölündən cənuba, cənub-qərbdə Van gölünə qədər uzandığını qəbul etmək lazımdır. Məhz belə yanaşma Qafqaz regionunda minilliklər boyu cərəyan etmiş siyasi prosesləri, xüsusən də qədim və orta yüzilliklərdə mövcud olmuş siyasi qurumları, baş vermiş tarixi hadisələri bütöv bir tam kimi anlamağa kömək edir.

Hazırda Qafqaz regionunda böyüklü-kiçikli 50-dən çox xalq və etnik qrup yaşayır ki, onlar da 3 böyük dil ailəsinə mənsubdurlar:

**Altay** dil ailəsi – buraya ***azərbaycanlılar, qumuqlar, qaraçaylılar, balkarlar, noqaylar, tatarlar, türkmənlər*** aiddirlər. Bu dil ailəsinə mənsub xalqların çoxu, o cümlədən azərbaycanlılar çox qədim çağlardan Qafqazda davamlı yaşamaqdadırlar.

**Qafqaz** dil ailəsi – buraya ***Kartvel*** (gürcü, acar, meqrel, svan, laz, xevsur, tuşin, pşav, gürcü dağlıları), ***Abxaz-adıgey*** (kabardin, adıgey, abxaz, çərkəz, abazin), ***Nax*** (çeçen, inquş), ***Dağıstan*** qrupları aiddirlər. Dağıstan qrupuna 30-a qədər xalq: avarlar, darginlər, laklar, qaytaqlar, ləzgilər və azsaylı etnoslar, o cümlədən rutullular, tabasaranlılılar, andilər, arçilər, aqullar, axvaxtsilər, beytinlər, qünziblər, didoylar, saxurlar, xınalıqlılar, buduqlar və digərləri daxildirlər. Qafqaz dil ailəsinə aid xalqlar da regionun avtoxton əhalisi hesab edilirlər.

**Hind-Avropa** dil ailəsinə mənsub xalqlar Qafqaza sonrakı tarixi dövrlərdə köçmüşlər. Bunlara ***rus, Ukrayna, erməni, osetin, kürd xalqları, tat, talış, dağ yəhudiləri*** və s. etnik qruplar aiddirlər.

Müasir dövrdə Qafqazda 3 müstəqil dövlət mövcuddur. Bunlara Cənubi Qafqazda yerləşən **Azərbaycan Respublikası** (sahəsi 86,6 min kv. km., əhalisi 8730 min (2009-cu ilin başlanğıcı)), **Gürcüstan Respublikası** (sahəsi 69,7 min kv. km., əhalisi 4630 min (2008-ci ilin başlanğıcı)) və **Ermənistan Respublikası** (sahəsi 29,8 min kv. km., əhalisi 3238 min (2009-cu ilin başlanğıcı)) aiddir. Şimali Qafqazda isə **Rusiya Federasiyasına daxil olan muxtar respublikalar:** ***Dağıstan*** (sahəsi 50,3 min kv. km., əhalisi 2687 min (2008-ci ilin başlanğıcı)), ***Çeçenistan*** (sahəsi 15,3 min kv. km., əhalisi 865,1 min (2008-ci ilin başlanğıcı)), ***İnquşetiya*** (sahəsi 4,0 min kv. km., əhalisi 499,5 min (2008-ci ilin başlanğıcı)), ***Şimali Osetiya – Alaniya*** (sahəsi 8,0 min kv.km., əhalisi 704,4 min (2005-ci ilin başlanğıcı)), ***Kabarda-Balkar*** (sahəsi 12,5 min kv. km., əhalisi 896,9 min (2005-ci ilin başlanğıcı)), ***Qaraçay-Çərkəz*** (sahəsi 14,1 min kv. km., əhalisi 434,5 min (2005-ci ilin başlanğıcı)), ***Adıgey*** (sahəsi 7,6 min kv. km., əhalisi 444,1 min (2005-ci ilin başlanğıcı)), həmçinin ***Krasnodar diyarı*** (sahəsi 75,5 min kv. km., əhalisi 5121 min (2008-ci ilin başlanğıcı)) və ***Stavropol diyarı*** (sahəsi 66,1 min kv. km., əhalisi 2705 min (2008-ci ilin başlanğıcı)) mövcuddur.





**Kursun öyrənilməsi əhəmiyyəti.** Qafqaz Şərqlə Qərb, Şimal ilə Cənub arasında yerləşən nəhəng körpü, yolların qovuşduğu mühüm geostrateji, geopolitik əhəmiyyətə malik bölgə kimi ən qədim zamanlardan dünyada baş verən sosial-iqtisadi, ictimai-siyasi və etnik proseslərdə fəal rol oynamışdır. Ona görə də, Qafqaz tarixinin həm ayrı-ayrı problemlərinin araşdırılması, həm də kursun özünün bütövlükdə və tam şəkildə öyrənilməsi və tədris edilməsi Ümumdünya tarixinin tərkib hissəsi kimi böyük əhəmiyyətə malikdir.

Bu, ilk növbədə onunla əlaqədardır ki, Dünya tarixinin qədim dövrə və orta yüzilliklərə aid əsas hadisələrinin əhəmiyyətli bir hissəsi Qafqaz bölgəsində baş vermiş və ya onunla bağlı olmuşdur. Məsələn, Qədim dünya tarixinin: kuti, lullubi, kassi və hurri tayfalarının İkiçayarası (Mesopotamiya) ilə əlaqələri, Assuriya və Urartu dövlətlərinin işğalçı yürüşləri, kimmer, iskit və sak axınları, Midiya və Əhəməni imperiyalarının yaranması, Yunan-İran müharibələri, Makedoniyalı İsgəndərin Şərqə yürüşü, Selevki-Parfiya və Roma-Parfiya müharibələri, Böyük ipək yolu üzərindəki ölkələrin iqtisadi və mədəni əlaqələri və s. bu kimi problemləri yalnız Qafqaz tarixi ilə sıx bağlı şəkildə araşdırıldıqda bitkin mənzərə yaradıla bilər. Həmçinin Orta əsrlər tarixinin Sasani, Bizans, Ərəb xilafəti, Xəzər xaqanlığı, Elxani, Qızıl Ordu, Osmanlı və Səfəvi dövlətlərinin yaranması və genişlənməsi, Sasani-Bizans, Ərəb-Xəzər, Elxani-Qızıl Ordu, Sə-

fəvi-Osmanlı müharibələri bilavasitə Qafqazla bağlıdır. Həmçinin feodal münasibətlərinin yaranması və xüsusiyyətləri, Xristianlığın və İslamın yayılması, dinin mənəvi dəyərlərin formalaşmasına, mədəni inkişafa təsiri, Müsəlman İntibahı kimi problemlərinin şərhi zamanı Qafqaz tarixinə müraciət edilmədən keçinmək mümkün deyildir.

Qafqazda baş verən proseslərin araşdırılmasının əhəmiyyətini artıran digər önəmli cəhət Azərbaycanın bu bölgədə yerləşməsindən qaynaqlanır. Çünki qonşu ölkələrdə və bilavasitə Qafqaz diyarında baş verən ictimai-siyasi və etnik prosesləri aydınlaşdırmadan, Vətən tarixinin bir çox problemlərini tam obyektiv şərh etmək çətindir. Xüsusən də, qədim və orta əsrlərdə Qafqaz xalqlarının həyatında ciddi dəyişikliklərə səbəb olmuş hadisələri bütöv bir tam halında, kompleks şəkildə araşdırmadan, gerçək tarixi bərpa etmək, sadəcə olaraq, mümkün deyildir.

Qafqaz tarixinin öyrənilməsini aktual edən problemlərindən biri də bölgənin köklü sakinlərinin, buradakı qədim mədəniyyətin yaradıcılarının etnik mənsubiyyətinin müəyyən edilməsidir. Bu baxımdan, Qafqazda məskunlaşmış ən qədim tayfalar və tayfa birlikləri, bölgədə yüzilliklər boyunca baş vermiş etnik proseslər haqqında araşdırmaların böyük elmi əhəmiyyəti vardır. Məhz bu araşdırmalar müasir qafqazşünaslıqda haqqında çox bəhs edilən, siyasi ambisiyalar xatirinə qəsdən dolaşdırılan və təhrif edilən Qafqazın köklü və gəlmə sakinləri haqqında mülahizələrə aydınlıq gətirməyə imkan verir.

Müasir dövrdə Qafqazın dünyanın ən qaynar bölgələrindən biri olması, çoxlu sayda münaqişə ocaqlarının mövcudluğu da regionun tarixi keçmişinə marağı artırmaqdadır. Çünki son onilliklərdə Qafqaz regionunda etnik, milli zəmində baş verən qarşıdurmaların, ərazi iddialarının doğru-düzgün aydınlaşdırılması üçün yüz illər öncə baş verənlərin obyektiv araşdırılması olduqca zəruridir. Məhz belə yanaşma həm də bu problemlərin ədalətli həll yollarını tapmağa imkan verər. Nəzərə almaq lazımdır ki, Sovet dövründə mövcud olmuş ideoloji konsepsiyaya görə Sovet İttifaqında yaşayan xalqlar arasında dostluq əlaqələrinin bilərəkdən süni şəkildə şişirdilməsi, proletar beynəlmiləlçiliyinin təbliğ edilməsi, Rusiyanın müstəmləkəçilik siyasətinin ört-basdır edilməsi, qonşular arasında zaman-zaman yaranmış problemlərin üzərindən sükutla keçilməsini şərtləndirmiş, bununla da həmin problemlərin həllinə yardım etmək əvəzinə, onların daha ağrılı davam etməsinə səbəb olmuşdur.





Qafqazda müxtəlif dilə, dinə, adət-ənənələrə malik 50-dən çox xalqın və etnik qrupların minilliklər boyu əsasən dinc, mehriban qonşuluq şəraitində yaşamaları, öz etnik varlıqlarını, dillərini, dinlərini, adət-ənənələrini qoruyub saxlamaları da bu regionun tarixi keçmişinə marağı artıran digər önəmli faktordur. Qafqazda mövcud olan bütün dövlətlərin və muxtar qurumların, Ermənistan istisna olmaqla, çoxmilli tərkibə malik olmaları və hətta azsaylı etnik qrupların da öz milli mədəniyyətlərini sərbəst şəkildə inkişaf etdirmələri üçün geniş imkanlar yaratmaları dünya miqyasında çox da rast gəlinməyən haldır. Ona görə də, bu unikal regionun tarixinin obyektiv araşdırılması və təqdim edilməsi çox əhəmiyyətli, həm də olduqca məsuliyyətli bir vəzifədir.

## Qafqaz tarixi üzrə əsas mənbələr

Qafqaz tarixi üzrə mənbələri əhəmiyyətinə görə *iki əsas qrupa* bölmək məqsədəuyğundur: *yazılı qaynaqlar* və *digər mənbələr*: arxeoloji tədqiqatların nəticələri, etnoqrafik materiallar, antropologiya, numizmatika, heraldika, linqvistika, geologiya və digər elmlərin nailiyyətləri.

Yazılı mənbələrə mixi yazılar və daş kitabələr, antik müəlliflərin əsərləri, Bizans, Suriya və Sasani qaynaqları, ərəb və fars dilində olan əsərlər, Avropa səyyah və diplomatlarının qeydləri və hesabatları, rus hərbçi və məmurları-

nın hesabat xarakterli yazıları, Rusiya işğallarından sonraya aid rəsmi sənədlər və statistik toplular və s. aiddir. Yazılı mənbələrin çox əhəmiyyətli bir hissəsini yerli dillərdə olan materiallar təşkil edir. Buraya tarixçi və coğrafiyaşünasların əsərləri, hökmdarların fərmanları, dastanlar və digər bədii ədəbiyyat nümunələri, həmçinin hüquqi aktlar və dini ədəbiyyat daxildir.

**Daş kitabələr və mixi yazılar.** Qayaüstü daş kitabələr və gil lövhələr üzərindəki mixi yazılar çox qısa və fraqmentar xarakter daşısalar da, özlərində əks etdirdikləri informasiyalar uzaq keçmişin bir çox qaranlıq məsələlərini aydınlaşdırmaq üçün çox böyük əhəmiyyətə malikdirlər. Şumer, Akkad mixi yazıları e.ə. III-II minilliklərdə Qafqazda yaşamış tayfalar və tayfa birlikləri, Assuriya və Urartu kitabələri e.ə. II minilliyin sonu – I miniliyin ilk əsrlərində regionda yaranmış dövlət qurumları, bütövlükdə regionun etnik-siyasi mənzərəsi haqqında təsəvvür yaratmağa imkan vermişdir. Məsələn, Assuriya şahı I Tiqlatpalasara aid Dəclə çayı mənbəyi yaxınlığında aşkar edilmiş mixi kitabədən e.ə. XII əsrdə Van gölü hövzəsində Nairi ölkəsinin yaranması, digər Assuriya hökmdarı II Adadnerariyə (e.ə. 911-891-ci illər) aid kitabədən Van ətrafında Urartu və Urmiya gölü sahilində Lullubi ölkələrinin varlığı haqqında, eləcə də bu ölkələrə Assuriya hökmdarlarının basqınları haqqında, Van gölü sahilində qaya üzərində aşkar edilmiş kitabədən Urartu hökmdarı II Sardurun (e.ə. 760-730-cu illər) Kulxa ölkəsinə hücum etməsi haqqında bilgi əldə edilmişdir.

Assuriya və Urartu kitabələrinin tədqiqi və müasir dillərə tərcüməsi sahəsində Q.A.Melikişvili, İ.M.Dyakonov, S.M.Qaşqayın xidmətləri böyükdür. Adları çəkilən müəlliflər, həmçinin B.B.Piatrovski, İ.H.Əliyev, N.B.Arutunyan, E.A.Qrantovski və digər alimlər bu materiallar əsasında Qafqazın qədim tayfa birlikləri və dövlət qurumları haqqında maraqlı əsərlər yazmışlar.





**Antik mənbələr.** Qafqaz tarixinin e.ə. I minilliyin ortalarından sonrakı dövrü haqqında antik mənbələrdən daha çox məlumatlar əxz etmək mümkündür. Bu baxımdan Herodotun "Tarix" əsəri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu əsərdə saspirlər (müasir Gürcüstanın cənub-şərqində yaşamış tayfalar), alarodilər (Van gölü hövzəsində yaşamış tayfalar), kaspilər və digər tayfalar haqqında, Qafqazda Midiya və Əhəməni ağalığı haqqında çox dəyərli məlumatlar verilmişdir. Digər yunan müəllifi Ksenofont "Anabasis" əsərində e.ə. IV əsrin başlanğıcında Qafqazın cənub-qərb bölgələrində yaşayan tayfalar, o cümlədən ermənilər haqqında məlumat vermiş, onların yalançı və xəsis olmalarını qeyd etmişdir. Ksenofont həmçinin erməni vilayətində heç bir şəhər və ya qalaya rast gəlmədiyini, başqa sözlə, ermənilərin qonşularına nisbətən daha aşağı inkişaf səviyyəsində olmalarını xüsusi vurğulamışdır.

E.ə. II əsrdə yaşamış Arrian Makedoniyalı İsgəndərin Şərqə yürüşü haqqında yazdığı 7 cildlik əsərdə Qafqazın o dövr tarixi haqqında maraqlı informasiyalar vermişdir.

Qafqazın antik dövr tarixi haqqında daha geniş məlumata Strabonun (e.ə.64-cü il – y.e.-nın 24-cü ili) e.ə. 7-ci ildə yazdığı "Coğrafiya" əsərində rast gəlmək mümkündür. Kiçik Asiyanın Amasiya şəhərində anadan olmuş müəllif Qafqazın qədim sakinləri və dövlətləri haqqında Roma sərkərdələri Lukull, Q.Pompey və M.Antoninin Qafqaza yürüşlərində iştirak etmiş legionerlərin məlumatlarından, həmçinin Makedoniyalı İsgəndərin və Selevki hökmdarı Nikatorun tapşırığı ilə Xəzər dənizi sahillərini tədqiq etmiş Heraklid (e.ə. 323-cü il) və Patroklun (e.ə.283-cü il) hesabatlarından, Eratosfen, Polibi və digər müəlliflərin əsərlərindən götürdüyü faktlar əsasında bilgi vermişdir. Ona görə də, onun əsərindəki bir çox faktlar ziddiyyətlidir və çoxlu mübahisələr doğurmuşdur. Məsələn, müasir dövrdə antik dövr tarixi mütəxəssislərinin əksər hissəsinin qənaətinə görə, Strabonun

İberiya və Albaniyanın dövlət quruluşu haqqında məlumatları e.ə. I əsri deyil, daha əvvəlki dövrü əks etdirir.

Erkən orta əsrlərdə yaşamış Qeysəriyyəli Prokopi, Aqafiya, Feofilakt Samokotta kimi Bizans müəllifləri öz əsərlərində Qafqazın qeyd olunan dövr tarixi haqqında xeyli qiymətli faktlardan bəhs etmişlər.

Qədim yunan, Roma, Bizans və Suriya müəlliflərinin Qafqaz haqqında məlumatlarının sistemləşdirilməsi, müasir dillərə tərcüməsi, araşdırılması, şərh edilməsi və bu mənbələr əsasında dövr üzrə dəyərli əsərlər yazılması istiqamətində V.V.Latışev, Q.A.Stratanovski, P.K.Juze, Z.İ.Yampolski, N.V.Piqulevskaya, O.D.Lordkipanidze, S.T.Yeremyan, A.P.Novoseltsev, F.Ə.Əliyev, K.Q.Əliyev böyük rol oynamışlar.

**Şərq qaynaqları.** Qafqazın qədim və erkən orta əsrlər dövrü tarixinin öyrənilməsində *Şərq mənbələrinin:* "Avesta", Bisütun kitabəsi, Sasani dövrü qaynaqlarının əhəmiyyəti böyükdür. Qafqazın qədim cəmiyyətlərinin ictimai quruluşu, yerli sakinlərin dini təsəvvürləri, mənəvi mədəniyyəti, eləcə də erkən orta yüzilliklər dövründə baş verən hadisələr haqqında bu mənbələrdə xeyli məlumat saxlanmışdır. Bu qaynaqların əsasında M.Ə.Dandamayev, V.Q.Lukonin, A.O.Makavelski, E.İ.Doroşenko, S.Y.Qasımova, A.Q.Perxinyan və s. müəlliflər maraqlı tədqiqat əsərləri nəşr etdirmişlər.

Qafqaz tarixinin orta yüzilliklər dövrünün öyrənilməsində *ərəb mənbələrinin* əhəmiyyəti olduqca böyükdür. Ərəb tarixçisi Ubeyd ibn Şəriyyə əl-Cürhumi (828-ci ildə ölmüşdür) ərəb işğalı ərəfəsində Qafqazın etnik mənzərəsi haqqında qiymətli məlumat vermiş, o cümlədən Azərbaycanın türk torpağı olduğunu qeyd etmişdir. Əl-Kufi (926-cı ildə ölmüşdür) "Kitab əl-fütuh" əsərində Qafqazın ərəblər işğalından bəhs etmişdir. Ət-Təbəri (823-923) "Tarix ər-rəsul vəl-mülük" ("Peyğəmbərlərin və padşahların tarixi") əsərində Qafqazın ərəblər tərəfindən işğalı və yerli xalqların ərəb ağalığına qarşı mübarizəsi, xüsusən də Xürrəmilər hərəkatı və Ba-





bək haqqında geniş məlumat vermişdir. Həmin dövrdə yaşamış digər ərəb müəllifi Əl-Bəlazuri (892-ci ildə ölmüşdür) "Kitab fütuh-əl-buldan" ("Ölkələrin fəthi kitabı") adlı əsərində Qafqazda ərəb işğalları və idarəçilik üsulu, vergilər, Azərbaycana və Dağıstana ərəb tayfalarının köçürülməsi məsələlərindən bəhs etmişdir. X əsr ərəb coğrafiyaşünası Əl-Məsudi Qafqaz haqqında yazmışdır: "Kabk dağı böyük dağdır, nəhəng ərazini əhatə edir, çoxlu dövlətləri və xalqları vardır". O, Xəzər dənizinin qərb sahilləri boyunda yerləşən ölkələrə səyahət etmiş, öz şəxsi müşahidələri əsasında IX-X əsrlərdə bu regionda baş verən siyasi proseslər haqqında qiymətli bilgilər vermişdir. Daha sonrakı dövr haqqında ərəb tarixçisi İbn əl-Əsirin (1160-1233) "Əl-kamil fit-tarix" əsərindən çeşidli məlumatlar əldə etmək mümkündür. Onun IX-XIII əsrlərdə, xüsusən də monqol yürüşləri ərəfəsində və ilk dövründə Qafqazda baş verən hadisələr haqqında məlumatları xüsusilə qiymətlidir. A.Y.Kraçkovski, M.İ.Artamonov, P.K.Jüze, Z.M.Bünyadov, N.M.Vəlixanlı, S.T.Yeremyan, Ş.A.Mesxia və digər tədqiqatçılar ərəb dilində olan qaynaqlardan Qafqaz ölkələri ilə bağlı məlumatların araşdırılması sahəsində mühüm işlər görmüş, bu mənbələr əsasında qiymətli əsərlər yazmışlar.

XI əsrdən etibarən *fars dilli qaynaqlarda* Qafqaz tarixi üzrə daha çox məlumatlara rast gəlmək mümkündür. Bunların içərisində Səlcuq dövlətinin yaranması və dövlət quruluşu və idarəçilik qaydaları haqqında Nizam-ül-mülkün "Siyasətnamə", monqol yürüşləri və Elxani dövləti, Qazan xanın islahatları haqqında Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix", XIV əsrdə Qafqazda baş verən hadisələr haqqında Həmdullah Qəzvininin "Nüzhətül-qülub", Səfəvi dövlətinin XVI əsr dövrü haqqında Həsən bəy Rumlunun "Əhsən ət-təvarix", İsgəndər bəy Münşinin "Tarixi aləmarayi Abbasi", Parsadan Qorqicanidzenin "Gürcüstan tarixi" əsərləri xüsusi yer yutur. Bu mənbələrin araşdırılması və onlar əsasında

sanballı tədqiqat əsərləri yazan müəlliflərdən V.V.Bartold, A.Y.Krımski, V.F.Minorski, Ə.Ə.Əlizadə, İ.P.Petruşevski, O.A.Əfəndiyev, A.A.Rəhmani, Q.M.Musəvi, Ş.F.Fərzəliyev, A.D.Papazyan, K.Q.Tabatadze və V.S.Puturidzenin xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Qafqazın qərb hissəsi orta yüzilliklərdə uzun müddət Osmanlı dövləti tərkibində qaldığı və bu region uğrunda Səfəvi imperatorluğu ilə davamlı rəqabət apardığı üçün bu dövrün öyrənilməsində *Osmanlı mənbələrinin* böyük əhəmiyyəti vardır. Bu mənbələrə rəsmi sənədlər, maliyyə məmurlarının tərtib etdikləri müfəssəl dəftərlər, Övliya Çələbi və digər səyyahların əsərləri və s. aiddir. Bu qaynaqlarda siyasi, sosial-iqtisadi proseslərə, mədəni həyata dair çoxlu sayda dəyərli məlumatlar vardır. Bu məlumatların toplanması, araşdırılması, şərhi, eləcə də onlar əsasında Qafqaz və Azərbaycan tarixinin müvafiq dövrünə dair tədqiqat əsərləri yazılması sahəsində A.Y.Krımski, T.H.Nəcəfov, B.Əziz, Z.X.Bayramov böyük xidmət göstərmişlər.

**Orta əsr Avropa müəlliflərinin əsərləri.** Qafqazın orta yüzilliklər dövrünün öyrənilməsi üçün *Qərbi Avropa qaynaqları:* qərbli səyyah, tacir və elçilərin əsərləri, yol qeydləri və gündəlikləri də çox qiymətlidir. Bu mənbələr əsasən XIII əsrin ortalarından sonrakı dövr tarixini öyrənmək üçün dəyərli informasiyalarla zəngindir. Venesiyalı səyyahlar Marko Polo və Ambroco Kontarini, Kastiliya elçisi Klavixo, ingilis taciri Antoni Cenkinson, Venesiya elçisi V.Alessandri, alman səyyahı Adam Oleari, hollandiyalı Yan Streys və digər müəlliflər Qafqaz haqqında digər mənbələrdə rast gəlinməyən xeyli məlumatlar vermişlər. Avropa müəlliflərinin əsərlərindəki məlumatların toplanması, sistemləşdirilməsi və tədqiqi sahəsində M.A.Polievktov, S.P.Karpov, V.B.Şklovski, Ə.M.Şahmalıyev, Y.M.Mahmudov, Z.M.Həsənəliyev, A.B.Baxşəliyev böyük əmək sərf etmişlər.

XVI əsrin ortalarından etibarən Rusiyanın Volqaboyunu işğal edib Xəzər dənizi sahillərinə çıxması və Qafqaz hüdudlarına yaxınlaşması ilə əlaqədar *rus dilində olan mənbələrdə* Qafqaz regionu ilə bağlı məlumatlar artıb çoxalmağa başlayır. Xüsusən XVII-XVIII əsrlərdə rus səyyah və diplomatlarının, hərbçilərin Qafqazda baş verən ictimai-siyasi proseslər, sosial-iqtisadi vəziyyət haqqında çeşidli məlumatları böyük əhəmiyyətə malikdir. Bu haqda sənədlərin mühüm bir qismi "Qafqaz Arxeoqrafiya Komissiyasının aktları" adlı çoxcildlik sənədlər toplusunda nəşr edilmişdir. A.P.Novoseltsev, P.P.Buşev, A.N.Hüseynov, H.B.Abdullayev, T.T.Mustafazadə, T.Q.Tivadze, Ş.A.Mesxia bu sənədlərin toplanıb nəşr edilməsində, eləcə də onlar əsasında Qafqaz-Rusiya münasibətlərinin araşdırılması sahəsində əhəmiyyətli işlər görmüşlər.

**Yerli tarixi əsər və digər mənbələr.** Mənbələrin çox əhəmiyyətli bir hissəsini yerli tarixi əsər və salnamələr təşkil edir. Qafqazın erkən orta əsrlər dövrü tarixi, xüsusən də regionun cənub-qərb hüdudlarında baş verən hadisələr haqqında erməni dilli qaynaqlarda xeyli material vardır. Onların içərisində V əsrdə yaşamış Aqatangelin, Pavstos Buzandın, Eqişenin (Elişenin), VI əsr müəllifləri Lazar Perpetsinin və Movses Xorenatsinin əsərləri bu baxımdan xarakterikdir. Ermənistanda "erməni tarixinin atası" sayılan M.Xorenatsi "Ermənistan tarixi" adlı əsərində ən qədim ermənilərin mənşəyindən 428-ci ilə qədərki dövr əks olunmuş və tarixi faktlardan daha çox əfsanələrə yer vermişdir. Yepiskop Sobeosun və Ovxan Mamikonyanın əsərlərində isə ermənilərin və qonşu xalqların ərəb dövrü tarixinə aid xeyli fakt əks olunmuşdur. Erməni qaynaqlarında Qədim Albaniya və Atropatena haqqında məlumatların sistemləşdirilməsi və tədqiqi sahəsində T.M.Məmmədovun böyük xidməti olmuşdur.

Gürcüstan tarixinə dair ən qədim yerli ilk mənbə ***"Moksevay kartlisay"*** salnaməsidir. VII-VIII əsrlərdə tərtib edildiyi ehtimal edilən bu mənbədə Sasani ağalığı dövrü,

Kartli (Şərqi Gürcüstan) əhalisinin xristianlığı qəbul etməsi haqqında çox maraqlı bilgilər vardır. Gürcüstanda XI-XII əsrlərdə isə daha böyük bir salnamə - ***"Kartlis sxovreba"*** ("Gürcüstan tarixi") tərtib edilmişdir. Burada gürcülərin ulu babası Tarqamasdan IV Davidin hakimiyyətinin sonuna qədərki dövr əks olunmuşdur. Bu mənbələri K.Kekelidze, Q.Melikişvili, O.Lordkipanidze, Q.Mamulia, S.Canaşia tədqiq etmiş və sübut etmişlər ki, tənqidi yanaşma yolu ilə bu toplulardan Gürcüstan tarixinə dair qiymətli faktlar üzə çıxarmaq mümkündür. Gürcü mənbələrində Azərbaycan tarixi üzrə faktların toplanıb nəşr edilməsində L.M.Melikset-bekovun mühüm xidmətləri olmuşdur.

Yerli mənbələrin əhəmiyyətli bir hissəsini *dini ədəbiyyat və hüquq aktları* təşkil edir. V əsrdə erməni, gürcü və alban əlifbalarının yaradılması və "Bibliya"nın bu dillərə tərcüməsi ("Bibliya"nın alban dilinə tərcüməsi zəmanəmizə qədər gəlib çatmasa da, VIII əsr erməni müəllifi Levond (Gevond) bu haqda məlumat vermişdir – Q.Ə.) dini əsərlərin yazılmasına imkan verdi. Bu mənbələrdəki terminlər, ictimai quruluş haqqında süjetlər o dövrün ictimai-siyasi mənzərəsi haqqında müəyyən təsəvvürlər yaradır. Bəhs olunan dövrdə yerli kilsə məclislərinin sənədləri, qəbul etdikləri qanunlar da bu baxımdan əhəmiyyətlidir. Xüsusən də erməni dövləti çox erkən dövrdə müstəqilliyini itirdiyindən, erməni qriqorian kilsəsi öz xüsusi vəziyyətindən, yəni Sasani dövləti daxilində yarımmüstəqil dini-ictimai təşkilat olmasından yararlanmışdır. Erməni kilsəsinin toplantılarında qəbul edilən sənədlər həm də siyasi xarakter daşımış, kilsə isə erməni cəmiyyətini birləşdirən və təmsil edən quruma çevrilmişdi. Bu qanunlar VIII əsrdə tərtib edilmiş "Kononagirk hayos" adlı topluda saxlanmışdır.

Albaniyada isə müstəqil dövlət daha uzun müddət mövcud olduğu üçün, burada kilsə qanunları həm də hökmdarların mənafeyini əks etdirmiş, kilsə də dövlətin himayə-





sində fəaliyyət göstərmişdi. Bu, alban hökmdarı III Vaçaqanın V əsrin sonunda verdiyi qərarlardan, Bərdə kilsə məclisinin qəbul etdiyi qanunlarından aydın görünür.

Gürcüstanda erkən orta əsrlərdə qəbul edilmiş kilsə qanunları zəmanəmizə kimi çatmamışdır. Görünür ki, X əsrdə vahid gürcü dövləti yarandıqdan sonra hökmdar hakimiyyəti kilsə üzərində öz təsirini gücləndirdiyi üçün, məhkəmə proseslərində kilsə qanunları öz əhəmiyyətini itirmişdi. Ona görə də, bu qanunların saxlanılmasına ehtiyac qalmamışdı. Bu dövrdə Gürcüstanda *sculi* (adət hüququ) əsas rol oynayırdı. XIII-XIV əsrlərdə onun yerini mülki hüquq aktları tutmağa başladı. *Kveknis tsesi* (ölkənin qanunu) sonrakı dövrdə hüquqi aktların yaranmasında mühüm rol oynadı.

Erməni cəmiyyətində isə orta yüzilliklər dövründə *sovor* (adət), *karq hayranis* (ata-baba qaydası) mövcud idi. Hətta Suriyalı müəllif Efesli Yakov yazmışdır ki, ermənilərin qədim zamanlardan qanunları olmamışdır. Erməni hüquq aktlarının əsas tədqiqatçısı X.Samvelyan da belə fikir irəli sürmüşdür ki, XII əsrə qədər erməni cəmiyyətində hüquq abidələri olmamışdır və ya bu haqda məlumatlar qalmamışdır.

Gürcüstanda bu ölkənin tarixi ilə bağlı bütün mənbələr sovet dövründə sistemli, ardıcıl surətdə tərcümə edilmiş və ***"Georgika"*** adlı seriya üzrə nəşr olunmuşdur. Ermənistanda da sovet dövründə mənbələrin sistemli araşdırılması və tərcümə edilməsi sahəsində böyük iş görülmüşdür. ***"Xarici ölkələrin qaynaqları Ermənistan və ermənilər haqqında"*** adlı seriya ilə bütün mənbələr erməni dilində nəşr edilmişdir. Azərbaycanda isə ayrı-ayrı dövrlər üzrə mənbələrin əhəmiyyətli hissəsi sovet hakimiyyəti illərində rus, qismən də Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur. Bu baxımdan Bakı Dövlət Universiteti Azərbaycan tarixi kafedrasının kollektivi tərəfindən prof. S.S.Əliyarlının rəhbərliyi ilə tərtib edilmiş ***"Azərbaycan tarixi üzrə qaynaqlar"*** xüsusi qeyd edilməlidir. Bununla belə, Azərbaycan tarixi üzrə bütün mənbələrin ardıcıl və

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



6337

sistemli şəkildə, seriya ilə nəşri sahəsində hələ çox iş görülməlidir. Şimali Qafqaz respublikalarında da mənbələrin araşdırılması və nəşri sahəsində də sovet dövründə əhəmiyyətli nailiyyətlər qazanılmışdır. Lakin bu respublikalarda da tarixi mənbələrin toplanması, obyektiv araşdırılması və nəşri istiqamətində səyləri artırmağa ehtiyac vardır.

**Arxeoloji və etnoqrafik materialların əhəmiyyəti.** Qafqaz tarixinin ayrı-ayrı dövrlərinin öyrənilməsi, bir çox problemlərin doğru-düzgün araşdırılması, faktların dəqiqləşdirilməsi üçün digər mənbələrin məlumatları da çox önəmlidir. Xüsusən də ibtidai icma dövrünün öyrənilməsi üçün başlıca olaraq *arxeoloji tədqiqatların* nəticələrindən istifadə olunur. Arxeoloji qazıntılar zamanı aşkar edilən əmək alətləri, silahlar, məişət əşyaları və digər maddi mədəniyyət nümunələri ən qədim çağlarda Qafqazda yaşamış insanların təsərrüfat həyatı, insan kollektivlərinin daxilində ictimai münasibətlər haqqında çox dəyərli bilgilər verir. Məsələn, arxeoloji tədqiqatlar Erkən Tunc dövründə Cənubi Qafqazda yaradılmış Kür-Araz mədəniyyəti, əkinçiliyin və sənətkarlığın yüksək inkişaf etməsi haqqında çox detallı məlumatlar əldə etməyə imkan yaradır. Lakin arxeoloji araşdırmaların məhdud cəhəti bu yüksək mədəniyyətin daşıyıcılarının kimliyi, hansı etnoslar tərəfindən yaradılması haqqında dəqiq bilgi verə bilməməsidir.

Qafqazın qədim sakinlərinin etnik mənsubiyyəti haqqında müəyyən təsəvvürü *etnoqrafik araşdırmalar* yarada bilir. Qeyd etmək lazımdır ki, bu məsələ qafqazşünaslıqda daha çox dolaşdırılmış, yerli və gəlmə etnoslar məsələsi uzun müddət ərzində spekulyasiya mövzusu olmuşdur. Yazılı mənbələrdə, arxeoloji tədqiqatlarda bununla bağlı dəqiq informasiyaların son dərəcə az olması da müxtəlif fərziyyə və ehtimalların irəli sürülməsinə imkan yaratmışdır. Bu, çox ciddi problemin həllinə etnoqrafik materiallar yardım edə bilir. Çünki adət və ənənələr, xüsusən də toy və dəfn mərasimləri, məişət həyatı ilə bağlı vərdişlər uzun əsrlər boyu çox





az dəyişikliklərə uğramış, davamlı yaşadılmışdır. Ona görə də, Qafqaz xalqları haqqında etnoqrafik tədqiqatlar qədim və orta yüzilliklər dövrünün bir çox dolaşıq məsələlərini aydınlaşdırmağa, qədim tayfalar və dövlət qurumları haqqında daha dəqiq fikir söyləməyə imkan verir.

**Antropologiya, numizmatika və linqvistika üzrə araşdırmaların mənbə kimi dəyəri.** Qafqazın qədim sakinləri ilə bağlı bir çox qaranlıq məqamlara *antropoloji tədqiqatların* nəticələri də aydınlıq gətirə bilir. Çünki, Qafqazın müxtəlif bölgələrindən çox qədim zamanlardan başlayaraq müxtəlif dövrlərə aid çoxlu sayda insan qalıqları aşkar edilmişdir. Onların obyektiv antropoloji tədqiqi əsasında ən azı Erkən Tunc dövründən bu regionda hansı antropoloji tipin daşıyıcılarının davamlı yaşadığını müəyyənləşdirmək mümkündür. Məlum olduğu kimi, insanların xarici görünüşü, antropoloji xüsusiyyətləri minilliklər ərzində, demək olar ki, hər hansı bir dəyişikliyə uğramadan nəsildən nəslə keçir.

Qafqazın qədim və orta əsrlər dövrü haqqında *numizmatik materiallar* da qiymətli mənbədir. Qafqaz regionunun müxtəlif guşələrindən aşkar edilən dəfinələrdəki sikkə nümunələrinin təhlili müxtəlif zamanlarda yaranmış dövlətlər, hakimiyyətdə olmuş sülalələr və hökmdarlar haqqında bir çox hallarda digər mənbələrdə rast gəlinməyən unikal informasiya əldə etməyə imkan verir. Y.A.Paxomov, Ə.M.Rəcəbli, M.A.Seyfəddini, T.S.Kutelia, X.A.Muşeqyan və digər müəlliflərin Azərbaycan, Gürcüstan, Ermənistan və digər ölkələrin numizmatikasına dair tədqiqatları böyük əhəmiyyətə malikdir.

*Linqvistika* üzrə araşdırmalar Qafqazın qədim sakinlərinin dil mənsubiyyəti, etnik yaxınlığın miqyası, yerli xalqların tarixi inkişafın müxtəlif mərhələlərində digər etnoslarla təmasları, mədəniyyətlərin qarşılıqlı təsiri məsələləri haqqında fikir və mülahizələri dəqiqləşdirməyə imkan verir. Qafqaz xalqlarının dillərinin öyrənilməsi istiqamətində T.Hacıyev, A.Şanidze, Q.A.Melikişvili, İ.M.Dyakonov, S.A.Starostin, M.Abeqyan və

digər müəlliflərin tədqiqatları bu baxımdan böyük əhəmiyyətə malikdir.

Qafqaz tarixi haqqında müxtəlif mənbələrdəki məlumatların bütöv bir tam halında, obyektiv şəkildə araşdırılması regionun tarixi keçmişinin doğru-düzgün bərpasına imkan verir. Bu baxımdan, region tarixini tədqiq edənlərin qarşısında böyük, həm də çox çətin vəzifələr durur.

### Qafqaz tarixinin öyrənilməsi vəziyyəti

**Qafqaz tarixşünaslığında yeni dövr.** Müasir Qafqazşünaslıqda belə hesab edilir ki, Qafqaz tarixinin yeni əsaslarla öyrənilməsi XVIII əsrin ikinci yarısından başlanmışdır. XVIII əsrin 80-ci illərində Moskva Universitetinin professoru **Vaxuşti Baqrationi** ***"Gürcüstan tarixi və coğrafiyası"*** adlı üç cildlik əsərini çap etdirmişdir. Bu əsərdə Gürcüstanın və qismən də qonşu bölgələrin tarixi qədim dövrdən etibarən ardıcıl şəkildə şərh edilmişdir. Erməni tədqiqatçısı **Mikael Çamçan** isə həmin dövrdə Venesiyada üç cildlik ***"Ermənistan tarixi"*** əsərini nəşr etdirmişdir. Hər iki müəllif orta əsr gürcü və erməni tarixçilərindən fərqli olaraq tarixi hadisələrə daha əsaslı yanaşmış, tənqidi üsullardan istifadə etmişlər.

Azərbaycan tarixşünaslığında isə bu missiyanı çox böyük müvəffəqiyyətlə **Abbasqulu ağa Bakıxanov** yerinə yetirmişdir. Onun ***"Gülüstani-İrəm"*** əsərində Azərbaycanın və Dağıstanın tarixi müxtəlif mənbələr əsasında dövrlər üzrə araşdırılmışdır. **Mirzə Kazımbəyin** ***"Dərbəndnamə"*** əsəri də bu baxımdan qiymətlidir. M.Kazımbəy ümumi xarakter daşıyan bu əsərlə yanaşı, ***"Müridizm və Şamil"***, ***"Bab və babilər"*** adlı konkret problemlərə həsr olunmuş tarixi əsərlər də yazmışdır.

Qafqaz tarixinin ayrı-ayrı problemlərinin dərindən araşdırılması sahəsində XIX əsrin sonu – XX əsrin başlanğıcında ciddi addımlar atıldı. Peterburq şərqşünaslıq məktəbinin görkəmli nümayəndəsi N.Y.Marr qədim gürcü və erməni yazılı mənbələrinin tədqiqi sahəsində böyük uğurlar





qazandı. Bu məktəbin istedadlı davamçıları olan **İ.A.Cavaxişvili** ***"Qədim Gürcüstanın və Qədim Ermənistanın dövlət quruluşu (SPb., 1905)"***, **N.G.Adons** ***"Ermənistan Yustinianın dövründə (SPb., 1908)"*** adlı fundamental əsərləri bu baxımdan dəyərli idi. Bu dövrdə **Rəşid bəy İsmayılov** ***"Müxtəsər Qafqaz tarixi (Bakı, 1904)"*** adlı əsəri ilə bütövlükdə Qafqaz regionu tarixinin ardıcıl şəkildə yazılması ənənəsinin başlanğıcını qoydu.

**Erməni müəllifləri tərəfindən Qafqaz tarixinin saxtalaşdırılması.** Qeyd etmək lazımdır ki, məhz bu dövrdə ayrı-ayrı erməni müəllifləri tərəfindən Qafqaz tarixinin qədim dövrünün saxtalaşdırılması, qonşulara qarşı ərazi iddiaları irəli sürülməsi geniş miqyas almağa başlamışdı. Qafqazda uzun müddət yaşamış və yerli xalqları yaxından müşahidə etmiş rus publisisti **B.L.Veliçko** ***"Qafqaz. Rus məsələsi və tayfalararası məsələlər (SPb., 1904)"*** adlı əsərində İ.Emin, Xudobaşov, Q.Ezov, Q.Arsruni və digər erməni müəlliflərinin saxtakarlıqlarını, hər addımda tarixi faktları təhrif etmələrini hiddətlə qeyd etmişdi. O, belə təhriflərə bariz nümunə kimi, erməni dini məktəblərində tədris edilən dərsliklərdə "paytaxtı Tiflis olan və ərazisi az qala Voronejə qədər çatan Böyük Ermənistan" haqqında bəhs olunduğunu bildirmişdi (s.107). Görkəmli gürcü şairi və publisisti **İ.Çavçavadze** də ***"Erməni müdrikləri və dilə gələn daşlar"*** adlı əsərində erməni "tarixçilərinin" yalanlarını hiddətlə ifşa etmişdi.

Maraqlıdır ki, erməni ictimai dairələrində də belə kobud təhriflər pislənirdi. Məsələn, Bakıda 1906-cı ildə nəşr edilmiş "Erməni tarixi oçerkləri" adlı əsərlə əlaqədar erməni bolşeviki Stepan Şaumyan yazmışdır: "Bizim tarixçilər Ermənistandan daim nə isə bütöv bir dövlət orqanizmi, ictimai orqanizm kimi bəhs edirlər. Oxucuda belə təsəvvür yaranır ki, guya qədim Ermənistan, məsələn Rusiya, Almaniya kimi müasir, bütöv dövlətlərə bənzəyirmiş. Lakin bu, tarixi həqiqətə uyğundurmu? Tarix o zaman nağıl olmaqdan, sadəcə

əhvalat olmaqdan çıxıb, həqiqət olur ki, burada bəhs edilən hadisələr, tarixi şəxsiyyətlərin fəaliyyəti ciddi tənqidi şəkildə işıqlandırılsın, hadisələrin və insanların hərəkətlərində səbəbiyyət əlaqəsi və qanunauyğunluq aşkara çıxarılsın. ... Onların ... irs aldıqları "vətənpərvərlik", keşiş təfəkkür tərzi ilə kifayətlənib sadəlövhcəsinə təkəbbürlənmək və köhnə nağıllara bəzək-düzək verib bunları oxucuya tarix kimi təqdim etməkdir." (S.G.Şaumyan. Seçilmiş əsərləri. I c. Bakı, 1978, s. 392-393, 400).

**Qafqaz tarixinin öyrənilməsinin müasir vəziyyəti.** Qafqaz tarixinin sistemli və dərindən öyrənilməsi istiqamətində XX əsrin 20-30-cu illərində çox böyük işlər görüldü. Keçmiş dövrdə baş verənlərin akademik araşdırılması üçün elmi mərkəzlər, elmi-tədqiqat institutları yaradıldı. Tarixi mənbələrin öyrənilməsi və nəşrinə diqqət artırıldı. Respublikaların və muxtar qurumların çoxcildlik tarixlərinin yazılmasına başlandı. Bu dövrdə həmçinin qədim və orta yüzilliklər dövrünün ayrı-ayrı problemlərinə həsr olunmuş əsərlər yazıldı. İ.Cavaxişvili etnogenez və tarixi etnoqrafiya üzrə, **K.S.Kekelidze** qədim gürcü ədəbiyyatı, **V.V.Bartold** Qafqazın Sasani və ərəb dövrü, feodal münasibətlərinin yaranması, **V.V.Struve, İ.İ.Meşşaninov, S.N.Canaşia** və **A.Y.Manandyan** qədim cəmiyyətlərin yaranması və ictimai təbiəti, quldarlıq quruluşu ilə bağlı diskussiya doğuran monoqrafiyalar çap etdirdilər. **Leo – Arakel Babaxanyan** isə 30-cu illərin başlanğıcında çoxcildlik "Erməni tarixi" əsəri üzərində işi başa çatdırdı.

**K.S.Kekelidze** Gürcüstanda qədim dövrün V əsrə qədər davam etməsini irəli sürmüş, feodalizm cəmiyyətini də mərhələlərə bölmüşdür. Onun fikrinə görə, V əsrdən X əsrin 80-ci illərinə kimi dövrü erkən feodalizm, X əsrin 80-ci illərindən XIII əsrin ikinci yarısına kimi olan dövrü inkişaf etmiş feodalizm, XIII əsrin ikinci yarısından XVI əsrə kimi feodal monarxiyasının süqutu dövrü kimi adlandırmaq gərəkdir. XVI əsrdən isə son feodalizm mərhələsinin başlandığını və XIX əsrin 30-





cu illərinə qədər davam etdiyini, bu dövrdə gürcü ədəbiyyatının dirçəliş dövrü keçirdiyini qeyd etmişdir.

30-cu illərdə sovet tarixşünaslığında Qədim Şərq cəmiyyətlərinin ictimai quruluşu məsələsi ətrafında ciddi mübahisələr gedirdi. Bu diskussiyanın sonunda **V.V.Struvenin** Qədim Şərq ölkələrinin hamısını quldar dövləti hesab etmək fikri əsas götürüldü və qədim cəmiyyətlərin tarixi inkişafının ümumi qanunauyğunluqlarını üzə çıxarıb tədqiq etmək səyləri çoxaldı. Sovet tarixşünaslığında V.V.Struvenin konsepsiyasına əsasən quldarlıq quruluşu bütün erkən sinifli cəmiyyətlərin zəruri inkişaf mərhələsi hesab edilməyə başlandı. Bununla bağlı, **İ.Cavaxişvili** Gürcüstanda, **X.Samvelyan** Ermənistanda köləliyin olması haqqında bəhs etməyə başladılar. Lakin heç bir tədqiqatçı Qafqazda qədim dövrdə quldarlığın hökmran olmasını irəli sürüb əsaslandıra bilmədi. İ.Cavaxişvili isə ilkin mənbələrin məlumatlarını təhlil etməklə belə bir mülahizə irəli sürdü ki, Gürcüstanda qədim və erkən orta əsrlərdə kölələik mövcud olsa da, qul heç bir zaman əsas istismar obyekti olmamışdır.

XX əsrin 40-50-ci illərində tarixi tədqiqatların səviyyəsinin daha da yüksəlməsi ilə yanaşı, sovet ideologiyasının təzyiqinin artması müşahidə edilirdi. Bu, həmin dövrdə işıq üzü görən çoxcildlik "Gürcüstan tarixi" və "Erməni xalqının tarixi" kimi nəşrlərdə aydın görünürdü. **İ.A.Hüseynovun** rəhbərliyi altında Azərbaycan alimlərinin hazırladıqları üçcildlik "Azərbaycan tarixi"nin birinci cildi də çoxsaylı yoxlamalardan və düzəlişlərdən sonra yalnız 1958-ci ildə çap edilə bildi.

Bəhs olunan dövrdə Qafqazda qədim və orta yüzilliklərdə mövcud olmuş dövlətlərin ictimai təbiəti ilə bağlı diskussiyalar davam etdirildi. 40-cı illərdə **S.N.Canaşia** qədim gürcü cəmiyyətlərinin quldar xarakteri daşımasını irəli sürdü. Onun fikrincə, bu quruluş IV əsrə kimi davam etmiş və bu zamandan etibarən feodalizmə keçid baş vermişdir. Bu dövrdə **S.T.Yeremyan** da qədim erməni cəmiyyətində qul-

darlıq quruluşunun hakim olmasını müxtəli xarakterli faktik materiallara istinad etməklə əsaslandırmağa cəhd göstərdi. Onun bu mövqeyi 40-50-ci illərdə nəşr edilən ümumi xarakterli əsərlərdə (SSRİ tarixi oçerkləri, Ümumdünya tarixi və s.) bütün Cənubi Qafqaz üçün əsas götürüldü. Azərbaycan tarixinin bu dövrdə işıq üzü görən birinci cildində də Qədim Albaniyada quldarlığın olması, lakin məhdud xarakter daşıması öz əksini tapmışdır.

50-ci illərdə həmçinin Şimali Qafqazdakı muxtar respublikaların ikicildlik tarixi oçerkləri nəşr edildi. Bu nəşrlərdə Qafqazın türk, müsəlman xalqlarının etnik mənşəyi qəsdən dolaşdırılmış, Rusiyanın regionu işğal etməsi könüllü birləşmə kimi təqdim edilmiş, çarizmin müstəmləkəçilik siyasəti ört-basdır edilmiş, əksinə diyarın mənimsənilməsi tədbirləri "böyük rus xalqının mədəni missiyası" kimi qələmə verilmişdir.

60-80-ci illərdə Gürcüstan və Ermənistanda müvafiq elmi-tədqiqat institutları tərəfindən yeni, daha dərin araşdırmalara əsaslanan çoxcildlik tarixlər hazırlanıb nəşr edildi. Azərbaycanda da Tarix institutunun kollektivi tərəfindən yeddicildlik hazırlandı, lakin onun nəşri 90-cı illərin sonunda mümkün oldu. 60-cı illlərdə həmçinin dörcildlik "Dağıstan tarixi" işıq üzü gördü. 80-ci illərin sonunda isə Moskva və Leninqrad alimlərinin səyi ilə "Şimali Qafqaz xalqlarının tarixi" adlı ümumiləşdirilmiş əsərin ilk iki cildi çap olundu.

Sovet hakimiyyəti illərində Cənubi Qafqazın ortaq tarixini yazmaq üçün bir sıra təşəbbüslər olsa da, bu cəhdlər uğurla nəticələnmədi. Çünki, xüsusən qədim və orta yüzilliklər dövründə Qafqazda baş verən etno-siyasi proseslər, yaranmış dövlətlər, onların hüdudları haqqında gürcü və erməni tədqiqatçıları öz əsərlərində tarixi reallığa uyğun olmayan iddialar irəli sürməklə müştərək çalışmaları əslində mümkünsüz hala gətirmişdilər. Eyni zamanda bu dövrdə Qafqazın qədim və orta əsrlər dövrünün ictimai quruluşu haqqında diskussiyalar da davam etməkdə idi.





60-cı illərdə **Q.A.Melikişvili** Qafqazın və Qədim Şərqin əksər cəmiyyətlərində quldarlığın olmasının ilkin mənbələrdə sübut edilmədiyi və ilkin sinifli cəmiyyətlərin feodalizmə doğru inkişaf etdiyini göstərdi. Erməni tədqiqatçıları da Qədim Ermənistanda quldarlığın hökm sürməsi fikrindən geri çəkilərək, qədim erməni cəmiyyətinin özünəməxsus cəhətlərə malik olmasından bəhs etməyə başladılar. Bu problemdən bəhs edən müəlliflər, bir tərəfdən Qafqazda qədim cəmiyyətlərin quldar xarakteri daşımasını inkar edir, digər tərəfdən isə köləliyin bütün regionda spesifik formada mövcud olmasını əsaslandırmağa çalışırdılar. Sonuncu fikrin daşıyıcıları Qədim Ermənistanda quldarlığın xüsusi, ellin tipinin olduğunu və bu tipin həm antik cəmiyyətlərdən, həm də Qədim Şərq cəmiyyətlərindən fərqləndiyini iddia edirdilər. Bu dövrdə hətta V.V.Struve də "Asiya istehsal üsulu" haqqında danışmağa başlamış və Yaxın Şərqdə köləlik probleminin tam həll olunmadığını etiraf etmişdir.

70-ci illərdə quldarlıq cəmiyyətləri haqqında **İ.M.Dyakonovun** irəli sürdüyü mülahizələr də böyük marağa səbəb oldu. Görkəmli tədqiqatçının düşüncəsinə görə, ibtidai icma quruluşundan sonra bütün regionlar quldarlıq mərhələsini keçmişlər. İbtidai icma quruluşunun dağılması nəticəsində yaranan ilkin sinifli cəmiyyətlər arxaik elementlərlə zəngin idilər və orta əsr (feodal) cəmiyyətlərindən əsaslı şəkildə fərqlənirdilər. İ.M.Dyakonov daha çox "qədim cəmiyyət" deyə bəhs etdiyi bu qurumların klassik quldar dövlətlərdən kəskin şəkildə fərqləndiyini də qeyd etmişdir.

Qədim İran və İkiçayarası haqqında fundamental tədqiqat əsərlərinin müəllifi **M.A.Dandamayev** də 70-ci illərdə bu məsələyə xüsusi məqalə həsr edərək, Ön Asiyanın qədim cəmiyyətlərinin ictimai quruluşunu müəyyən etməyin çətin olduğunu bildirdi. Onun düşüncəsinə görə, faktik materialın nisbətən çox olduğu İranda da qədim cəmiyyət dövründən feodalizm quruluşuna keçidin həm Sasani sülaləsinin hakimiyyətə gəlməsi dövründən, həm də VI əsrdən götürülməsi

mümkündür. Rus sovet tarixçisi **A.P.Novoseltsev** isə 80-ci illərə qədərki tədqiqatları kompleks şəkildə təhlil edərək, Qədim Qafqazda y.e.-nın ilk əsrlərində müxtəlif ukladların mövcud olmasını və onların içərisində ən əhəmiyyətlilərinin quldarlıq və protofeodal və ya feodalizmə qədərki ukladın olması qənaətini bildirmişdir.

Qafqazın qədim və orta əsrlər dövrü problemləri ilə qərb tarixçilərindən D.M.Lenq, U.E.Allen, Q.D.Videnqren, M.L.Şamon daha çox məşğul olmuşlar. Sonuncu tədqiqatçı Ermənistanda arşakilərin hakimiyyəti dövründən parf-erməni feodalizminin yarandığını və bunun satrap (naxarar) təşkilatlarında özünü büruzə verdiyini qeyd etmişdir. Q.Videnqren isə qədim cəmiyyətlərin hamısında feodalizm elementləri olduğunu və İran feodalizminə bənzər qaydaların Qafqaza irandilli tayfalar gələnə qədər yerli sakinlərin ictimai quruluşunda mövcud olduğunu bildirmişdir.

SSRİ-nin dağılması ilə Qafqaz miqyasında ümumi xarakterli əsərlər yaradılması istiqamətində səylər əhəmiyyətli dərəcədə azalmışdır. Eyni zamanda, müstəqilliyin qazanıldığı illərdə xalqların öz tarixi keçmişinə təbii marağının artması ilə bağlı xeyli sayda mənbələrə əsaslanmayan, qonşularla bağlı yersiz iddiaların üstünlük təşkil etdiyi populist xarakterli əsərlərin yazılması geniş miqyas almışdır. Bütün Cənubi Qafqaz respublikalarında müşahidə edilən bu təhlükəli meyl ciddi, obyektiv araşdırmalar əsasında ümumi xarakter daşıyan əsər və dərsliklər yazılması zəruriliyini daha da aktual etmişdir.

Bu sətirlərin müəllifi uzun müddət ərzində Bakı Dövlət Universiteti auditoriyalarında oxuduğu mühazirələr əsasında Qafqaz regionunun tarixini yazmağı qarşısına məqsəd qoymuş, çox çətin və məsul missiyanı yerinə yetirməyə səy göstərmişdir. Həm də ayrı-ayrı məsələlərin, xüsusən də mübahisə doğuran problemlərin şərhi zamanı daha çox tarixi qaynaqlara, qədim və orta yüzilliklərin müəlliflərinin əsərlərinə istinad edilməsini daha məqsədəuyğun saymışdır.





# QAFQAZ ƏN QƏDİM ÇAĞLARDA

## Qədim daş dövrü abidələri

**Qafqaz dünyada ilk insan məskənlərindən biridir.** Qafqazın müasir relyefinin formalaşması prosesi 10 milyon il öncədən başlanmışdır. İlk vaxtlar Qafqaz böyük bir adaya bənzəmiş, onun səthi isə düzənlik və kiçik təpələrdən ibarət olmuşdur. O dövrdə tez-tez baş verən vulkan püskürtüləri dağlıq relyefin formalaşmasını şərtləndirmişdir. Daha sonrakı dövrlərdə Böyük Qafqaz ensiz quru zolağı vasitəsi ilə Kiçik Qafqazla birləşmiş, həmçinin regionun mərkəzi hissəsində hündürlüyü 2000-2500 metrə çatan yüksək dağ silsiləsi, dağlıq bölgələr formalaşmışdır. Dağların hündürlüyünün artması prosesinin davam etməsi və iqlimin tədricən soyuması nəticəsində Qafqaz dağlarının ən uca zirvələrində buzlaqlar yaranmışdır.

Dağ əmələ gəlməsi, buzlaşma, güclü vulkan püskürmələri, dənizlərin qabarması və çəkilməsi kimi proseslərin davam etdiyi mürəkkəb şəraitdə Qafqazın çox qədim florası və faunası formalaşmış, tədricən ilk insanlar məskunlaşmağa başlamışlar. Alim və mütəxəssislərin fikrincə, təqribən **3,5-3 milyon il öncə** Afrikada, Cənubi Avropada, Ön və Cənubi Asiyada fiziki quruluşu və həyat tərzi gələcək insanların formalaşması üçün əsas olan driopitek, ramapitek və çoxlu sayda müxtəlif avstraliopiteklər yaşayırdılar. Bu paleoantropoloji tapıntıların çoxu, o cümlədən qalıqları Gürcüstanın Azərbaycanla sərhəddi yaxınlığında ***Udabno*** adlı yerdə aşkar edilmiş məxluq – ***udabnopitek*** insanın yaranışında barsız budaq oldular. Bununla belə, bu fakt insanabənzər məxluqların ən qədim çağlardan Qafqazda yaşadığını göstərən ilk maddi dəlil kimi qiymətlidir.

Tarixi inkişaf prosesində insanabənzər məxluqların

yalnız çox az bir qismi ət yemək, ov etmək qabiliyyətini inkişaf etdirmişlər. İbtidai insanların ən qədim əcdadları iki ayaqla yerimək, əmək aləti düzəltmək vərdişlərini tədricən möhkəmlətmiş və inkişaf etdirmişlər.

İnsanların nə zaman yaranması və ilkin vətəni haqqında əsrlər boyu davam edən çoxsaylı mübahisələrə son onilliklərdə Şərqi Afrikadakı arxeoloji kəşflər müəyyən qədər aydınlıq gətirmişdir. 1960-ci ildə amerikan arxeoloqu Luis Liki Tanzaniyada Olduvey dərəsində insanabənzər məxluqun qalıqlarını və çoxlu daş alətlər aşkar etmişdir. **Homohabilis** (bacarıqlı insan) adlandırılan bu canlının kalium-arqon metodu ilə 1,85-1,75 milyon il öncə yaşadığı məlum olmuşdur. Lakin daha sonrakı elmi araşdırmalara görə, yer üzərində ilk insanlar **3-2,5 milyon il əvvəldən** yaşamağa başlamışlar. Efiopiyada ***Vest-Qona*** düşərgəsindən 2,8 milyon il öncəyə aid insan qalıqları aşkar edilməsi belə qənaətə gəlməyə imkan vermişdir.

Cənubi Qafqazın mərkəz hissəsində, ***Borçalıda*** (müasir Gürcüstanın Dmanisi bölgəsində) XX əsrin 90-cı illərində aşkar edilən **2,0-1,8 milyon il öncəyə aid** insan qalıqları belə bir fikir irəli sürməyə əsas vermişdir ki, Kür və Araz çayları arasındakı ərazi Şərqi Afrika və Şərqi Aralıq dənizi hövzəsi ilə birlikdə ən qədim insanların ilkin yaşadıqları regionlardan biri olmuşdur. Hazırda Qafqazda və bütövlükdə bütün postsovet məkanında elm aləminə bəlli olan ən qədim daş dövrü abidəsi məhz ***Dmanisi*** bölgəsində (Gürcüstanın şərqində) aşkar edilmiş ibtidai insanların məskənidir.

Gürcü və alman arxeoloqlarının apardıqları tədqiqatlar nəticəsində 2 milyon il öncə bu bölgədə ibtidai insanın yaşaması üçün münasib şərait – savanna tipli landşaft, dağətəyi və çay dərələri boyu enliyarpaq meşə massivi olduğu, mülayim quru və isti iqlimin mövcud olması müəyyən edilmişdir. Şərqi Afrikadakı ən qədim insan məskənləri ilə bir dövrə aid edilən bu abidədən tədqiqatçılar **2,0-1,8 milyon il**





**öncəyə** aid 6 mindən çox daş alət, çoxlu sayda müxtəlif heyvanın, o cümlədən qılıncdişli pələngin sümüklərini tapmışlar. Lakin buradan aşkar edilən tapıntıların ən başlıcası, heç şübhə yoxdur ki, həmin dövrdə yaşamış insanın qalıqlarının: qafa tası, alt çənə, ayaq darağının müəyyən edilməsidir.

Mütəxəssislərin **homo-erektus** (dik qamətli insan) adlandırdıqları bu varlıqlar homo-habiles adı ilə təqdim edilən məxluqlardan düz qamətli və beyin tutumlarının daha böyük olması ilə fərqlənmişlər. Bu tapıntı insanın uzunmüddətli təkamül prosesi nəticəsində yaranması və müasir formasını alması haqqında elmdə qərarlaşmış baxışları yenidən dəyərləndirmək zərurətini ortaya qoymuşdur.

**Alt Paleolit abidələri.** Qafqazda nisbətən yaxşı tədqiq edilmiş digər ən qədim daş dövrü – Alt Paleolit abidəsi ***Azıx mağarasıdır***. Azərbaycanın ***Qarabağ*** bölgəsində ***Quruçay dərəsinin*** sol sahilində, dəniz səviyyəsindən 90 m yüksəklikdə yerləşən bu mağarada və çayın vadisində aparılmış arxeoloji axtarışlar **1,5 milyon il əvvəldən** bu bölgədə insanların davamlı yaşadıqlarını sübut edir. Quruçay dərəsindən və Azıx mağarasının ən qədim təbəqələrindən aşkar edilmiş adi çay daşından düzəldilmiş kobud alətlər insan cəmiyyəti tarixinin ilkin çağlarına – Aşeldən əvvəlki dövrə (1,2 milyon – 700 min il bundan əvvələ) aiddir. Azıxın ilk sakinləri əvvəlcə Quruçay dərəsində yaşamış, mağaraya köçdükdən sonra isə həmin dərə ilə sıx bağlı olmuşlar. Oradan götürdükləri daşlardan əmək alətləri hazırlamış, Quruçay dərəsində və ona yaxın ərazilərdə yığıcılıqla məşğul olmuş, ov etməyə çıxmışlar. Azıx mağarasının alt qatlarından (X-VII təbəqələrdən) tapılmış bu dövrə aid maddi mədəniyyət nümunələri: çay daşından hazırlanmış kobud çapma alətləri, ərsinlər, qoşovlar, 4-5 kq ağırlığında olan iri çoppervari alətlər formasına və hazırlanma texnikasına görə Şərqi Afrikadakı Olduvey düşərgəsindən aşkar edilmiş əmək alətləri ilə müəyyən uzlaşmaya, bənzərliyə malik olsa da, çoxlu sayda özünəməxsus xüsusiyyətlər daşıdığı üçün tədqiqatçılar tərəfindən ***Quruçay mədəniyyəti*** adlandırılmışdır.



**Şəkil.** Azərbaycan. Azıx mağarası.
Quruçay mədəniyyəti dövrünün əmək alətləri.





Azıx mağarasının X-VII təbəqələrindən aşkar edilmiş əmək alətləri Quruçay mədəniyyətinin 700 min il əvvələ kimi davam etdiyini təsdiqləyir. Bu mədəniyyətin daşıyıcıları ovçuluq və toplayıcılıqla məşğul olmuş, oddan istifadə etməyi bacarmışlar. Alt qatlardakı sümük yanıqları və kömür qırıntıları Azıx sakinlərinin təbii oddan istifadə etdiklərindən xəbər verir.

Azıx mağarasının VI təbəqəsindən 2 mindən çox daş alət, çoxlu heyvan sümükləri aşkar edilmişdir. Erkən Aşel dövrünə (700 min - 500 min il əvvəl) aid edilən bu təbəqədən tapılan alətlər tipoloji cəhətdən daha alt təbəqələrin alətləri ilə uzlaşsa da, daha təkmil olmaları ilə seçilirlər. Bu dövrdə yeni alətlər: əl çapacaqları, dişli-gəzli alətlər meydana çıxmış, ovlanan heyvanların çeşidi genişlənmişdir. Quruçay mədəniyyəti təbəqələrindən yalnız məhdud sayda maral, antilop, qaban sümükləri aşkar edildiyi halda, Erkən Aşel dövrünə aid təbəqədən çoxlu sayda mağara ayısı, vəhşi at, kərgədan, bizon və s. iri heyvanların qalıqlarına rast gəlinmişdir. Bu da bəhs olunan dövrdə bu heyvanların ovlanmasının geniş miqyas almasını göstərir.

Azıx mağarasının Aşel təbəqələrindən aşkar edilmiş bu heyvanların sümüklərinin çoxu iliyi çıxarılması üçün qırılmışdır, həm də çoxunun üzərində yanıq izləri vardır. Bu da oddan daha geniş miqyasda istifadənin göstəricisidir. Azıx sakinlərinin uzun müddət ərzində davamlı surətdə oddan istifadə etmələri Aşel qatlarında 4 ocaq yerinin üzə çıxarılması ilə də təsdiqlənir. Ən qədim ocağın yaşı **700 min ilə yaxındır** və bu, bütün dünyada elmə məlum olan ilkin ocaq yerlərindən biridir.

Mağaranın V təbəqəsi Orta Aşel dövrünə (400 min-200 min il əvvəl) aiddir. Bu təbəqədən tapılan alətlərin çeşidi daha geniş, hazırlanması texnikası daha yüksəkdir. Bu təbəqədən 45 növ müxtəlif heyvanın və quşun, o cümlədən sürətlə qaçan ceyran, cüyür, dağ keçisi sümüklərinin aşkar edil-

məsi ovçuluğun daha da inkişaf etdiyini əyani göstərir.

Azıx mağarasının V təbəqəsindən aşkar edilən çox qiymətli tapıntı ibtidai insanın alt çənəsidir. Çənə sümüyü **400-350 min il öncə** yaşamış 18-22 yaşlı qadına aiddir. Tədqiqatçıların *Azıxantrop* – Azıx adamı adı verdikləri bu çox qədim insan çənəsinin quruluşundakı spesifik cəhətlərə görə Fransanın *Araqo* mağarasından aşkar edilmiş *preneandertallara* yaxındır. Həmin təbəqədə divarların arasında xəlvəti yer qeydə alınmış və ayı kəllələri aşkar edilmişdir. Kəllələrin biri üzərində 8 xətt cızılmışdır ki, bu da həmin dövrdə Qafqazın qədim sakinlərinin ibtidai dini təsəvvürlərlə bağlı ola bilər.

Azıxantropun öz sələflərinə nisbətən daha bacarıqlı və düşüncəli olmasını başqa dəlillər də göstərir. Bu baxımdan, V təbəqədəki ocaq yerinin yanında əhəngdaşı parçaları və maral buynuzları ilə hörülmüş divar qalıqları diqqəti çəkir. Bu da öz növbəsində qədim insanların tədricən tikinti vərdişlərinə yiyələndiklərini düşünməyə əsas verir.

Yuxarı Aşel dövründə (200-100 min il əvvəl) Azərbaycanla yanaşı Qafqazın başqa yerlərində: Ermənistan, Gürcüstan, Qara dəniz sahili boyu və Kubanda da ibtidai insanların yaşamasının çoxlu sayda izləri aşkar edilmişdir. ***Cənubi Osetiyada*** Aqcori çayının sol sahilində, çayın yatağından 260 m yüksəklikdə yerləşən *Kudaro-1* və *Kudaro-3* mağaralarında insanlar min illər boyu davamlı yaşamışlar. Kudaro-1 mağarasında professor V.P.Lubinin rəhbərliyi altında 1955-1990-cı illərdə arxeoloji qazıntı işləri aparılmış və buradakı Yuxarı Aşel dövrünə aid təbəqədən 5 mindən artıq müxtəlif təyinatlı daş alətlər aşkar edilmişdir. Tapılan əmək alətləri içərisində əsas yeri kobud çapma alətləri, əl çapacaqları, qaşov tipli alətlər tutur. Kudaro-1 mağarasından həmçinin Yuxarı Aşel dövründə yaşamış qədim insanın – *arxantropun dişi* aşkar edilmişdir.

*Kudaro-1* və *Kudaro-3* mağaralarında insanlar min illər boyu davamlı yaşamışlar. Mağara sakinlərinin əsas məşğu-





liyyəti ayı ovu olmuşdur. Tədqiqatçıların fikrincə, bütövlükdə Qərbi Qafqazın dağətəyi meşəlik bölgələrində mağara ayısı ovu, Cənubi Qafqazın dağətəyi və meşə-çöl zonalarında isə bizon, vəhşi at və keçi ovu mühüm yer tuturdu. Kudaro-1 mağarasında bir təbəqədən və *Axtır* mağarasından (Adler yaxınlığında) çoxlu qızıl balıq sümükləri də tapılmışdır. Bu isə Qafqazın qədim sakinlərinin ovçuluq və yığıcılıqla yanaşı, balıqçılıqla da məşğul olmalarını göstərir.

Həm bu mağaralardan, həm də Azərbaycan ərazisindəki *Tağlar*, Gürcüstanda *Tsona* mağaralarından, Tamandakı Simbal karxanasından, Maykop yaxınlığında Xacox adlı yerdən, Ermənistanda *Satani-Dar* təpəsindən çoxlu daş alətlər tapılmışdır. Bu dövrə aid aşkar edilmiş əmək alətləri Cənubi və Mərkəzi Qafqazda əsasən dəvəgözü, bazalt və andezitdən, Qərbi və Şimali Qafqazda isə başlıca olaraq çaxmaqdaşı, şist və qumdaşından düzəldilmişdir. Maraqlıdır ki, həm Qafqazın cənub və şimal bölgələrindən, həm də Cənubi Azərbaycandan, Qars vilayətindən aşkar edilmiş daş alətlər: andezit və obsidiandan düzəldilmiş əl çapacaqları bir-biri ilə çox oxşardır. Bu da Yuxarı Aşel dövründə bütün Qafqaz regionunda eyni maddi mədəniyyət daşıyıcılarının yaşadıqlarını göstərir.

Alimlərin fikrincə, qədim daş dövrünün bu mərhələsində ibtidai insanlarda artıq nitq formalaşmağa başlamış, ilkin dini təsəvvürlər yaranmışdı.

**Orta Paleolit dövrü.** ***Orta Paleolit – Mustye mədəniyyəti*** (100 min - 40 min il qabaq) dövründə insanların daha geniş ərazidə yaşaması Böyük və Kiçik Qafqazın bütün dağətəyi bölgələrində, Kür və Araz çayları vadilərində yayılmış mağara düşərgələrindən aşkar edilmiş maddi mədəniyyət nümunələri ilə təsdiqlənir. Bu dövrdə Böyük Qafqazın şimal ətəklərində və Qara dəniz sahili boyunda insanların məskunlaşması geniş miqyas aldı. Həm də insanlar təbii mağaralarla yanaşı çoxlu sayda süni yaşayış yerləri: ağac budaq-

ları, iri heyvan sümükləri və dərilərindən istifadə edərək koma və ya daxmalar da düzəldirdilər.

Azıx mağarasının III təbəqəsindən, onun yaxınlığındakı *Tağlar* mağarasından, *Damcılı və Daşsalahlı* mağaralarından (Qazax ərazisində), *Qazma* (Naxçıvan), *Zar* (Kəlbəcər) və *Buzeyir* (Lerik) düşərgələrindən, müasir Ermənistan ərazisində *Artin dağındakı* düşərgədən, Soçi yaxınlığında *Ovçular* mağarasından Mustye mədəniyyətinə aid minlərlə əmək alətləri, heyvan sümükləri aşkar edilmişdir. Bu abidələr içərisində ən möhtəşəmi Tağlar düşərgəsidir. Burada ibtidai insanlar davamlı yaşamış, yeni, daha təkmil əmək alətləri düzəltməyi bacarmışlar. Tağlar sakinləri çaxmaqdaşı və dəvəgözü (obsidian) qəlpələrindən itiuclu, dişli, gəzli ərsinlər, lövhəvari bıçaqlar hazırlamışlar. İtiuclulardan nizə ucluğu kimi istifadə edilmişdir.

Arxeoloji tədqiqatlar nəticəsində Tağlar düşərgəsinin çox böyük areal üçün mühüm maddi mədəniyyət mərkəzi olması, burada hazırlanmış əmək alətlərinin hələ Orta Paleolit dövründə Cənubi Qafqazın digər bölgələrinə, həmçinin qonşu Yaxın Şərq ölkələri ərazisində yayılması müəyyən olunmuşdur.

Şimali Osetiya və Dağıstanda da Mustye dövrünə aid əmək alətləri aşkar edilmişdir. Bu alətlərin əsas hissəsi andezit və obsidiandan hazırlanmışdır və əvvəlki dövrlərdə olduğu kimi, Cənubi Qafqazdan, Qarsdan aşkar edilən alətlərə uyğun gəlir.

Bu dövrdə insanların həyatında ovçuluq əhəmiyyətli rol oynayırdı. Məsələn, arxeoloji tədqiqatlar nəticəsində aydınlaşdırılmışdır ki, Soçi yaxınlığında sahilboyunda *Ovçular* mağarasının sakinləri ayı ovu üzrə ixtisaslaşmışdılar. Mustye dövründə Qafqaz sakinləri həmçinin bizon, at, maral, muflonabənzər qoyunlar və dağ keçiləri kimi iri otyeyən heyvanları ovlayırdılar.







**Şəkil**. Dağıstan.
Mustye mədəniyyəti dövrünün əmək alətləri.

Orta Paleolit dövründə **Neandertal adamı** – yeni tipli insanlar yaşamışdır. Dikqamətli və beyin tutumu homohabilisdən 2 dəfəyə qədər böyük olan bu insanlar fiziki görünüşünə və həyat tərzinə görə müasir insana daha yaxın olmuşlar. Onların şüurunun daha da inkişaf etməsinin mühüm göstəricilərindən biri rəngləri, rəng çalarlarını qavraya bilmələridir. Tağlar mağarasından qırmızı, sarı, yaşıl, qəhvəyi, qara, ağ rəngli və bu rənglərin 20-dən çox çalarında daş məmulatları aşkar edilməsi bunu açıqca göstərir.

Bütün Qafqazda ilk dəfə Neandertal adamın qalığı - bud sümüyü Urmiya gölü yaxınlığında *Tamtama* mağarasından aşkar edilmişdir. Bu tapıntı 40-50 min il əvvələ aiddir və ibtidai insanların Azərbaycan ərazisində, deməli bütövlükdə Cənubi Qafqazda ən qədim çağlardan üzü bəri fasiləsiz yaşamlarını davam etdirdiyini sübut edir. Mağara sakinləri əsasən ovçuluqla məşğul olmuşlar. Buradan çoxlu maral, öküz, at sümükləri tapılması bunu təsdiqləyir.

Mustye dövründə kortəbii sürü münasibətləri tədricən arxada qalmış, nəsil, qəbilə icması yaranmağa başlamışdı. Neandertal qəbirləri həmin dövrdə uzunmüddətli birgə yaşayış nəticəsində xəstənin, şikəst olanın qayğısına qalınmasını, ümumilik münasibətlərinin qərarlaşmasını göstərir. Bu,

qarşılıqlı yardım elementlərinin formalaşmasını, dəstə üzvlərinin bir-birinin qayğısına qalmasını düşünməyə ciddi əsas verir. Hər halda, bu dövrdə «qəbilə ərəfəsi» birliklərinin yaranması şübhə doğurmamalıdır.



**Şəkil.** Azərbaycan. Tağlar mağarası.
Mustye mədəniyyəti dövrünün əmək alətləri.





Orta Paleolit dövrünün sonunda insanın bədən quruluşunun təbii şəraitin, iqlimin, uzunmüddətli əmək proseslərinin təsiri ilə dəyişib müasir fiziki şəklini alması başa çatdı, **Homo sapiyens** – ağıllı insan yarandı.

**Nəsil icmasının yaranması.** ***Üst Paleolit*** (40 min-14 min il əvvəl) dövründə ***nəsil icması*** qəti şəklini aldı, qan qohumluğuna və əmlak ümumiliyinə əsaslanan bu ibtidai insan kollektivi sabit, davamlı və mütəşəkkil hala çatdı. Nəsil icmasının ilk mərhələsində ***ana xaqanlığı – matriarxat*** mövcud idi. İcmanın idarə olunmasında, təsərrüfat işlərində qadın aparıcı rol oynayırdı. Bu, qəbilə üzvlərinin ərzaqla təmin olunmasında yığıcılıqla məşğul olan qadınların əsas yer tutması, qohumluğun ana xətti ilə müəyyən edilməsi, uşaqların qayğısına anaların qalması kimi amillərlə bağlı idi.

Üst Paleolit dövründə insanların əmək alətləri hazırlaması, təsərrüfat işi, həyat tərzi, dünyaya baxışı inkişaf edir, mühüm dəyişikliklər baş verirdi. Bu dövrdə daşdan və sümükdən daha təkmil, universal əmək alətləri hazırlanması çoxalır. İbtidai incəsənət nümunələrinin yaranması, sümük, daş və buynuzdan müxtəlif fiqurlar düzəldilməsi, mağara divarı və qaya parçaları üzərində rəsmlər çəkilməsi bu dövrdən başlamışdır. Üç böyük irqin formalaşması da Üst Paleolit dövrünə təsadüf edir.

Dağıstanda bu dövrün mühüm abidəsi Çox mağarasıdır. Buradan və Çumus-Unis, Usişa, Ruquca abidələrindən tapılan əmək alətləri göstərir ki, Üst Paleolitin sonunda arxaik daş alətləri, yeni, daha yaxşı işlənmiş kiçik ölçülü alətlər əvəz etməyə başlamışdı.

## İlkin əkinçilik və sənətkarlıq məskənləri

**Mezolit dövrünün əsas yenilikləri.** Mezolit dövründə (e.ə. XII-VIII minilliklər) buzlaşma dövrü əsasən başa çatdı. İqlimin mülayimləşməsi ilə nəbatət və heyvanat aləmi də

dəyişərək, təxminən müasir dövrə uyğun şəklini aldı. Bu dövrdə kiçik ölçülü (mikrolit) alətlərin: ox ucluqları, bıçaqlar, bizlər, çeşidli qaşov və kəsicilərin hazırlanması geniş miqyas aldı, ox və kaman ixtira edildi, daş balta düzəldilməsinə başlandı. Qobustanda bu dövrə aid qayaüstü rəsmlər içərisində ox və kamanla silahlanmış adi insan böyüklüyündə təsvirlər ovçuluğun insanların həyatında çox mühüm rol oynamasına işarədir.

Bu dövrün çox mühüm yeniliklərindən biri insanların balıqçılıqla geniş miqyasda məşğul olmağa başlamalarıdır. Qobustan qaya rəsmləri içərisində çoxlu qayıq, balıq və balıq toru təsvirləri olması bununla əlaqədardır. Arxeoloji qazıntılar zamanı Qobustandakı yaşayış məskənlərindən tor toxumaq üçün işlədilən sümük alətlər, qarpunlar, balıq və suiti sümükləri, Kudaro-1 və Axştır mağaralarından çoxlu qızıl balıq sümükləri tapılması da bunu aydın göstərir.

Mezolit dövrünə aid Qobustanda aşkar edilmiş erkən qayaüstü rəsmlərin başlıca mövzusu həmin ərazidə ovlanan heyvanlarla bağlıdır. Bir neçə rəsmdə isə keçi və maral təsvirləri üzərində nal şəkilli daşla zərbə endirilməsi və onların yaralanması əks olunmuşdur. Alimlərin fikrincə, bu, ovdan qabaq heyvanları ovsunlamaq inancı ilə bağlıdır. Etnoqrafik müşahidələrə görə son zamanlara kimi Oğuz rayonunda ovçular dağ keçisinin ləpirinə mismar çalır, bununla ovun uzağa getməməsi üçün ovsunlama etdiklərinə inanırdılar. Dağıstanın Çuval-xvarab-noxo və Çinna-xitta kahalarının divarlarında da bu dövrə aid keçi, zebr və digər heyvanların təsvirləri aşkar edilmişdir.

Bəhs olunan dövrdə Qafqazın dağətəyi bölgələrində, çay vadilərində, Xəzər dənizi sahili boyunda düzənlik ərazidə əhalinin məskunlaşması intensiv şəkil almışdı. Bu dövrə aid daha çox yaşayış məskənlərinin tədqiq edilməsi də bununla əlaqədardır.

Mezolit dövründə mənimsəmə təsərrüfatı formaları in-





sanların ərzaqla təmin edilməsində başlıca yer tutmaqda davam edirdi. Bununla bərabər, ibtidai əkinçilik və maldarlıq vərdişləri də yaranmaqda idi. İqlim və landşaft kompleksində baş verən dəyişikliklər, ovlanan heyvanların sayının azalması insanların çıxış yolları aramasını şərtləndirdi. Yığıcılıqla məşğul olmaqla ərzaq ehtiyatını artırmaq cəhdləri dənli bitkilər becərilməsinə gətirib çıxardı. Azərbaycanda və Qafqazın digər bölgələrində yabanı dənli bitkilərin mövcudluğu buna imkan verdi.

1928-ci ildə Ümumittifaq Tətbiqi Botanika İnstitutunun direktoru, prof. N.İ.Vavilov Böyük və Kiçik Qafqazın dağətəyi bölgələrində çöl tədqiqat işləri apararkən ən qədim buğda növü – *Triticum dicoccum* adlı növlə tanış olmuş və Osetiya, müasir Ermənistan ərazisində həmin dövrdə bu buğda növünün becərilməkdə olduğunu müşahidə etmişdi. Bu növ digər buğda növlərindən sünbüldən dənin çətin çıxması, sünbülün isə qısa boylu və xırda dənəli olması ilə seçilirdi. Yabanı buğda növlərinin Azərbaycanın müxtəlif bölgələrində aşkar edilməsi bu bitkinin çox qədim çağlardan yerli sakinlərə bəlli olduğunu göstərir. Yabanı arpa növü isə Biləsuvar-İmişli bölgəsində günümüzə qədər qalmaqdadır.

Bu dövrdə regionda iri və xırda buynuzlu heyvanların vəhşi növləri mövcud idi. Bunu qədim insan məskənlərindən aşkar edilmiş çoxsaylı heyvan sümükləri aydın göstərir.

İnsanlar uzun müddət ərzində onları əhatə edən mühiti müşahidə etmiş, bitki və heyvanların necə artıb çoxaldığını izləmişdilər. Bu müşahidələr əkinçilik və maldarlığa keçməyə zəmin hazırladı. Mezolit dövründə bu sahələr üzrə biliklərin toplanması daha intensiv xarakter almış və əkinçilikdən, maldarlıqdan getdikcə çox ərzaq əldə edilməsi mümkün olmuşdu.

Homo sapiyensin Şərqi Qafqazda aşkar edilmiş ilk qalıqları Mezolit dövrünə aiddir. Qobustanda *«Firuz» düşərgəsində* açılmış qəbirdən 10 nəfər yaşlı və 1 nəfər uşaq skeleti

qalıqları tapılmışdır. Antropoloji baxımdan bu insanlar müasir azərbaycanlılar kimi dolixokran (uzun başlı) olub, avropoid irqinin cənub şaxəsinə aiddirlər.

Orta daş dövründə ibtidai insanlar tərəfindən Qafqazın daha geniş hissəsi mənimsənilmişdir. Arxeoloji qazıntılar zamanı çoxsaylı yaşayış yerlərinin, əmək alətləri və ev heyvanı sümüklərinin aşkar edilməsi bunu sübut edir. Həm də bu zaman daş alətlərlə yanaşı, sümükdən və buynuzdan alətlər hazırlanması da geniş miqyas almışdı. Kaman və oxun kəşfi, daha təkmil və kiçik ölçülü daş alətlər: qaşov, bıçaq, biz, nizə və ox ucluqları düzəldilməsi, ovçuluğun, balıqçılığa və yığıcılığa nisbətən, təsərrüfat həyatında daha mühüm yer tutmasını göstərir. Bu, Orta daş dövrünün – Mezolitin xarakterik cəhəti olmuşdur. Qobustanda, Dağıstanın Çuval-xvarab-noxo və Çinna-xitta adlı yerlərində Mezolit dövrünə aid qayaüstü təsvirlərin, sümük və buynuzdan hazırlanmış bəzək əşyalarının tapılması həmin dövrdə incəsənətin də inkişaf etməyə başladığını göstərir.

**«Neolit inqilabı».** *Neolit* – Yeni daş dövrü əkinçiliyin və maldarlığın əsas məşğuliyyətə çevrildiyi, toxuculuğun və dulusçuluğun meydana gəldiyi dövrdür. Qafqazın, o cümlədən Azərbaycanın ayrı-ayrı bölgələrində aşkar edilən bir sıra abidələr məhz Neolit dövrü ilə bağlıdır. Bu dövrdə Qafqazın sakinləri qonşu regionların, xüsusən Kiçik Asiyanın, İkiçayarasının əhalisi ilə əlaqələr saxlayırdılar.

Neolit dövründə (e.ə.VII-VI minilliklər) əkinçilik və maldarlığın əsas məşğuliyyət sahələrinə çevrilməsi ilə istehsal təsərrüfatına keçid baş verdi. İnsan ilə təbiət arasında münasibətlərdə köklü dəyişikliklər başlandı ki, bu da ***«Neolit inqilabı»*** adlanır. Dağıstanın Çox yaşayış məskənindən e.ə. VI minilliyin birinci yarısına aid təbəqədən bir və iki dənli buğda sünbülü dənlərinin aşkar edilməsi taxıl becərilməsinin artıq bu dövrdə geniş əraziyə yayıldığını göstərir.

Yuxarıda qeyd edildiyi kimi, görkəmli rus alimi





N.İ.Vavilov Cənubi Qafqazı və Dağıstanı *buğda, arpa və paxlalı bitkilərin* ilk becərildiyi regionlara aid etmişdir. Gürcü alimi N.A.Breqadze isə N.İ.Vavilovun fikirlərinin bir qədər dəqiqləşdirilməyə ehtiyacı olduğunu bildirmiş və buğdanın mədəni bitki kimi becərilməsinin başlanğıcını orta dağlıq zonalarda – Gürcüstanda axtarmaq lazım gəldiyini iddia etmişdir. Onun fikrincə, Gürcüstan həmçinin, Misir, İkiçayarası və Hindistanla yanaşı, *kətanın* ilkin vətənlərindən biridir. Strabon Kolxidada (Qərbi Gürcüstanda) yaşayan əhalinin çox qədimdən kətandan parça hazırladığını, burada toxunan kətan paltarların çox yerlərdə bəyənildiyini qeyd etmişdir. Rus tədqiqatçısı P.M.Jukovskinin fikrincə, qədim dövrdə kətançılığın tarixində Kolxidanın böyük rolu olmuşdur. Qədim Mingəçevir yaşayış yerindən Tunc dövrünə aid təbəqədən kətan lifindən sap, parça qalıqları aşkar edilməsi bu bitkinin çox qədim dövrdən Qafqazın müxtəlif bölgələrində becərildiyini göstərir.

Neolit dövründə dulusçuluq və toxuculuq kimi sənət sahələri yarandı, əzmək, parçalamaq və qazmaq üçün işlədilən daş alətlərin nisbətən iri ölçüdə düzəldilməsinə başlandı. İnsanlar daşı burma üsulu ilə deşmək, novçalı etmək, cilalamaq texnikasına yiyələndilər.

Bu dövrdə insanların oturaq həyata keçməsi baş verirdi. Qafqazın qədim sakinləri tədricən mağaraları tərk edir, çay vadilərində, təpələrdə daimi yaşayış məskənləri yaradırdılar. Bu əkinçilik məskənləri anbarı, ocağı, həyəti, möhrədən və çiy kərpicdən hörülmüş bir otaqlı daxmaları olan yaşayış yerləri idi. Neolit dövrünə aid ilk əkinçilik məskənləri Cənubi Azərbaycanda Urmiya gölü hövzəsində *Həsənli, Yanıqtəpə,* Təbriz yaxınlığında *Hacı Firuz,* Şimali Azərbaycanda Qobustandakı *Ana zağa, Kənizə, Ovçular* zağası, Dağıstanda Çox mağarası, Tarnair, Saqa-Tuka abidələridir. Onların Neolitə aid mədəni təbəqələrindən çoxlu sayda daş toxalar, sürtgəclər, dənəzənlər, bıçaqvari lövhələrdən düzəl-

dilmiş biçin alətləri tapılmışdır.

Qobustanın Neolit dövrünə aid qayaüstü rəsmlərində boğazına çatı salınmış öküz təsviri, həmçinin buradakı yaşayış məskənlərindən əhliləşdirilmiş keçi sümüklərinin tapılması oturaq əhalinin maldarlıqla da məşğul olmalarını açıqca göstərir. Cənubi Qafqazın bu dövrə aid yaşayış yerlərindən, Kubanboyundan çoxlu öküz, keçi, qoyun və donuz sümüklərinin tapılması bu heyvanların artıq ev heyvanları kimi saxlanılmasının geniş miqyas almasını düşünməyə əsas verir.

Bu dövrdə insanlar ümumi təsərrüfata malik nəsil icmaları şəklində yaşamaqda idilər. Nəslin davam etdiricisi kimi ana icmada yüksək mövqe tutmaqda davam edirdi. Ana icmanın əsası, ənənələri qoruyan, evi quran, yaradan idi. Qobustan qayalarındakı qadın təsvirləri, oradakı Kənizə düşərgəsindən tapılmış 2 qadın heykəli qadına – anaya məhsuldarlıq rəmzi kimi sitayiş edilməsini göstərir.

Kənizə düşərgəsindən tapılmış qadın kəlləsi isə Azərbaycanda Neolit dövrünə aid yeganə paleoantropoloji nümunədir. Bu kəllə də avropoid irqinin cənub şaxəsinə aiddir və Mezolit, Neolit dövrlərində Qafqazın şərq hissəsində eyni nəsillərin davamlı olaraq yaşamalarını göstərir.

**Eneolit dövrü abidələri.** Neolit inqilabını şərtləndirən kəşflər sonrakı mərhələdə – ***Eneolit dövründə*** (e.ə. V-IV minilliklər) istehsal təsərrüfatının daha da inkişafına, əhalinin sayının artmasına və daha geniş əraziyə yayılmasına, qəbilə quruluşunun möhkəmlənməsinə gətirib çıxardı. Cənubi Qafqazda bütövlükdə Eneolit dövrünə aid 150-dən çox yaşayış yeri aşkar edilməsi artıq bu dövrdə Kür və Araz çayları boyunda əhalinin intensiv məskunlaşdığını göstərir. Naxçıvanda *(Kültəpə)* və Qazaxda *(Qarğalar təpəsi)* bu dövrə aid yaşayış məskənlərində mədəni təbəqənin 10 m qalınlığında olması bu yerlərə insanların minillər boyu yaşadıqlarını sübut edir.





Eneolit dövründə toxa əkinçiliyi daha da inkişaf etmişdi. O dövrə aid yaşayış məskənlərindən çoxlu sayda torpağın becərilməsi, taxılın biçilməsi, dənin döyülməsi üçün istifadə edilən alətlər, 10 növdən artıq buğda, arpa, darı və digər taxıl məhsulları nümunələri tapılması, taxılı saxlamaq üçün çiy kərpicdən tikilmiş anbarlar, iri saxsı qablar, quyular aşkar edilməsi bununla əlaqədardır. Tapılan taxıl dənlərinin iri olması, Mil düzündə Şahtəpə yaxınlığında arx izləri burada süni suvarmadan istifadə edildiyini göstərir. E.ə. V minillikdə Qafqaz sakinləri şum alətlərindən istifadə etməyə başlamışdılar. Müasir Ermənistan ərazisində Aruxlo-1 adlı yaşayış məntəqəsindən bu dövrə aid şum aləti aşkar edilməsi ibtidai insanların təsərrüfat həyatında əhəmiyyətli dəyişikliklər baş verdiyini sübut edir.

Bu dövrdə əhali üzümçülüklə də məşğul olmağa başlamışdı. Qazaxda *(Şomutəpə)* və Muğanda *(Əlikömək təpəsi)* üzüm tumları tapılması belə nəticə çıxarmağa əsas verir.

Eneolit dövründə maldarlıq təsərrüfatı da yüksək inkişaf səviyyəsinə çatmışdı. Yaşayış məskənlərindən toplanmış heyvan sümükləri həmin dövrdə insanların indiki ev heyvanlarının, demək olar ki, hamısını: inək, camış, qoyun, keçi və donuzun bir neçə cinsini saxlayıb istifadə etdiklərini göstərir. Əlikömək təpəsindən isə həmçinin 2 növ ev atının müxtəlif sümükləri aşkar edilmişdir. Bu tapıntılar atın Eneolit dövründə əhliləşdirildiyini və Azərbaycanın dünyada atın ev heyvanı kimi bəsləndiyi ən qədim bölgə olduğunu göstərir.

Bu dövrdə toxuculuq və dulusçuluq daha da inkişaf etmiş, yeni sənət sahələri yaranmışdı. Eyni zamanda daşişləmə və sümükişləmə sənətləri öz ənənəvi əhəmiyyətini saxladığı üçün daş və sümük alətlər hazırlanması texnikası təkmilləşirdi. Saxsı qablara tələb kəskin surətdə artdığına görə dulusçuluq xüsusən sürətlə inkişaf edirdi. Əlikömək təpəsi, Leylatəpə və Çalağantəpə (Ağdam) yaşayış məskənlərində sadə və iki qatlı dulus kürələri tapılması, Eneolit dövrünün sonunda

qulplu və rənglənmiş saxsı qablar aşkar edilməsi bu sənətkarlıq sahəsinin böyük inkişaf yolu keçdiyini açıqca göstərir. Bu abidələrdən tapılmış saxsı qabların bir hissəsi sadə quruluşlu dulus çarxında hazırlanmışdır. Bu tapıntılar e.ə. IV minilliyin əvvəllərindən dulus çarxının tətbiq edildiyini göstərir.

Qafqazın digər bölgələrindən də e. ə. VI-IV minilliklərə aid çoxlu erkən əkinçilik abidələri aşkar edilmişdir. Onların müəyyən qismi bir neçə metr qalınlığında mədəni təbəqəsi olan təpələrdən ibarətdir. Bu da əhalinin daimi oturaq həyata keçdiyini göstərir. Naxçıvan yaxınlığında *Kültəpə* abidəsi belə abidələrin ən məşhurudur. Buradan və digər abidələrdən – *Şulaverisqora* (Gürcüstan) və *Texut* (Ermənistan) yaşayış yerlərindən aşkar edilmiş tapıntılar bütün Qafqazda vahid erkən əkinçilik mədəniyyətinin mövcud olmasını sübut edir. Bu dövrdə yaşayış məskənləri çay vadilərinə yaxın yerlərdə, təbii müdafiə imkanı olan təpələrdə salınırdı. Gildən və çiy kərpicdən tikilmiş dairəvi formalı daxmalarda kiçik ailələr yaşayırdı.

Yaşayış məskənləri yaxınlığındakı əkin sahələri buynuz və daşdan hazırlanmış toxalarla işlənilirdi. Quraqlıq bölgələrində süni suvarmadan da istifadə olunmasına başlanmışdı. *Aruxlo-1* (Ermənistan) və *İmrisqora* (Gürcüstan) abidələrindən tarlaları suvarmaq üçün hətta ibtidai arx izləri tapılmışdır. Süni suvarma izləri həmçinin *Naxçıvanda* (Kültəpə yaxınlığında) və *Qarabağın cənubunda* (Yedditəpə yaxınlığında) aşkar edilmişdir.

Qafqaz bu dövrdə taxıl bitkilərinin dünyada geniş miqyasda mədəni bitki kimi becərilib istifadə olunduğu başlıca mərkəzlərdən biri idi. Dağıstanda ***Çox*** adlı yaşayış yerindən arxeoloji qazıntılar zamanı, əkinçilik alətləri ilə bərabər, buğda və arpa toxumları da aşkar edilmişdir. E.ə. VI minilliyin birinci yarısına aid olan bu tapıntılar Qafqazın şərq hissəsində artıq həmin dövrdə istehsal təsərrüfatına ke-





çildiyini göstərir. Qafqaz sakinləri ***buğda*** və ***arpa*** ilə yanaşı, *darı, çovdar, paxlalı bitkilər və üzüm* də becərirdilər. Taxıl məhsulları yaşayış yerlərində qazılmış quyularda və ya iri saxsı qablarda saxlanılırdı.

Əkinçiliklə bir vaxtda maldarlıq təsərrüfatı da meydana gəlmiş və əsas məşğuliyyət sahəsinə çevrilmişdi. Kültəpə, Çox və s. yaşayış yerlərindən aşkar edilmiş ev heyvanlarının: keçi, qoyun, donuz, inək sümükləri Qafqazda bəhs olunan dövrdə maldarlığın da əsas yer tutduğunu və inkişaf etməkdə olduğunu göstərir. E.ə. V minilliyin sonunda isə bütün Cənubi Qafqazda atların əhliləşdirilməsinə başlanmışdı. Bu gümanı Əlikömək təpəsi (Azərbaycan) ilə yanaşı *Aruxlo-1* yaşayış yerindən tapılmış at sümükləri də təsdiqləyir. Maldarlığın xarakterik forması yaylaqdan istifadə olunması, yəni malları yayda dağ çəmənliklərində otarmaq idi.

Qafqazda Eneolit dövründə əkinçilik və maldarlıq təsərrüfatı öz inkişaf səviyyəsinə görə, sivilizasiyanın ən qədim mərkəzlərindən olan İkiçayarasının e.ə. V-VI minilliklərdəki səviyyəsinə uyğun gəlirdi.

**Metaldan istifadə edilməsinə başlanması.** Eneolit dövrünün ən böyük yeniliyi isə insanların metalla - mislə tanış olması idi. Alimlərin fikrincə, *metaldan* ilk dəfə e.ə. VIII-VII *minilliklərdə* Anadolu ilə Huzistan arasındakı ərazidə istifadə edilməsinə başlanmışdır. Bunu Çatal-Uyuk və Çayönü təpəsi adlı yerlərdəki yaşayış yerlərindən aşkar edilən və e.ə. VIII-VII minilliklərə aid mis əşyaları – muncuq və bizlər təsdiq edir. Bir çox araşdırmaçılara görə, metal və metalişləmə haqqında bilgilər buradan qonşu ərazilərə, o cümlədən də Qafqaza yayılmışdır. Lakin son dövrlərin arxeoloji tədqiqatları Qafqazın özündə metalla tanışlığın bilavasitə yerli zəmin əsasında başlandığını göstərmişdir. Qafqazın cənubunda zəngin mis filizi yataqları olduğundan, ilk metal əşyalar məhz bu regionda aşkar edilmişdir. Bu bölgələrdə qədimdən bəlli olan mis filizi yataqlarından əldə edilən misin

arsenlə qarışıq olması üzündən, tapılan metal əşyaların tərkibində də həmin elementlər vardır. Başqa sözlə, Qafqazın müxtəlif yaşayış yerlərindən aşkar edilən metal əşyalar yerli istehsalın məhsuludur.

Cənubi Qafqazda ən qədim mis məmulatı Azərbaycanda (Kültəpə, Qarğalar təpəsi, Əliköməktəpə, Şomutəpə təpəsi, Göytəpə, Çalağantəpə) tapılmışdır. Bunların içərisində misdən hazırlanmış 20-dən çox əşya: biz, qıyıq, muncuq, bıçaq tiyəsi, ox ucluğu, bilərzik vardır. Soyuqdöymə üsulu ilə hazırlanmış bu əşyalar Eneolitin ilk dövrünə aiddir. Çünki, insanlar ilk vaxtlar metal əşyaları yalnız soyuq döymə üsulu ilə düzəltməyi bacarırdılar. Lakin e.ə. V minillikdən etibarən insanlar metalı əritməyi öyrənmiş və daha çox metal alətlər düzəltməyə başlamışdılar. Leylatəpədən mis ərintisi qırıqları, mis-nikel qarışıqlı metaldan hazırlanmış bizlər, Kültəpədən mis-mərgümüş qatışıqlı əşyalar, Xantəpədən (Füzuli) mis əridilməsi üçün gildən hazırlanmış butə və saxsı çömçə tapılması göstərir ki, qədim azərbaycanlılar artıq bu dövrdə metalişləmə, metal əridilməsi işi ilə tanış idilər.

Eneolit dövründə toxuculuq və hörməçilik sənətləri də inkişaf etməkdə idi. Bu dövrə aid edilən gil qabların bəzilərinin üzərində parça izlərinin aşkar edilməsi, yaşayış yerlərindən çoxlu sayda əl iyi tapılması Qafqazda toxuculuq sənətinin müəyyən inkişaf səviyyəsinə çatdığını göstərirdi. Bəhs olunan dövrdə gön-dəri emalı, ağacişləmə sənətləri də insanların həyatında mühüm yer tutmağa başlamışdı.

Tədqiqatçıların əksər hissəsi belə hesab edir ki, Böyük Qafqaz dağlarından şimala doğru düzənlik bölgələrdə insanlar Son Paleolit dövründən etibarən məskunlaşmağa başlamışdılar. Həm də bu regionlara əhali əsasən Cənubi Qafqazdan köç etməkdə idilər. Eneolit dövründə geniş miqyas alan bu proses Aqubey yaşayış məskənindən və Nalçikin mərkəzindəki kurqandan aşkar edilən materiallarda aydın izlənir. Aqubeyin mədəni təbəqələrindən tapılmış dəvəgözü





və çaxmaq daşından hazırlanmış əmək alətləri, saxsı qablar, divarları bərkitmək üçün hörmə qalıqları bu baxımdan səciyyəvidir. Nalçikdəki yastı kurqanın altından isə 147 qəbir aşkarlanıb tədqiq edilmişdir ki, bu zaman mis üzük, daş muncuq və bilərziklər, toxa və dən daşları tapılmışdır. Belə maddi mədəniyyət nümunələrinə Çeçenistan və İnquşetiyada da rast gəlinmişdir.

**Qonşu regionlarla qarşılıqlı əlaqələr.** Eneolit dövrü abidələrindən aşkar edilən maddi nümunələr Qafqazın qonşu regionlarla, xüsusən də İkiçayarası ilə geniş qarşılıqlı əlaqələrə malik olduğunu göstərmişdir. Əmək alətləri, dulusçuluq məmulatları hazırlanması, evlərin inşası sahəsində oxşarlıqlar, gətirilmə tapıntıların təhlili Kür və Araz çayları boyundakı abidələrlə Şimali İkiçayarasındakı e.ə. V minilliyə aid Xələf mədəniyyəti və e.ə. IV minilliyin birinci yarısında yenə orada yaranmış Übeyd mədəniyyəti ilə bağlılıq olması fikrini möhkəmlədir. Cənubi Azərbaycanın Eneolit abidələrində (Göytəpə, Yanıqtəpə), Əlikömək təpəsi və Leylatəpədə tapılan boyalı qablar Übeyd mədəniyyətinin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir, bu mədəniyyətin məhəlli variantı təsirini bağışlayır. Bu da İkiçayarasından Azərbaycana və ya əksinə eyni mədəniyyət daşıyıcılarının köçməsi mülahizəsini irəli sürməyə əsas vermişdir.

Eneolit dövründə insanların sosial-ictimai həyatında və dünyagörüşündə ciddi dəyişikliklər baş verirdi. Bu dövrün yaşayış məskənləri təsərrüfat və məişət tikililərinin sıxlığı ilə səciyyələnir. Yaşayış otağı, ərzaq anbarı, həyətyanı sahəsi olan belə tikililər hasarla bir-birindən ayrılırdı. Otaqlar çiy kərpicdən və gil möhrədən hörülmüşdür, dairəvi və ya dördkünc formadadır. Bu bir otaqlı evlərdə tərkibi 5-6 nəfərdən ibarət ailə yaşayırdı. Ailələrdən ibarət icmalar həmin dövrün cəmiyyətlərinin ictimai əsasını təşkil edirdi. Ailələr təsərrüfatla birgə məşğul olurdu, əkin yerləri, mal-qara, otlaqlar icmanın ümumi mülkiyyətində idi. Toplanan məhsul ailələr

arasında illik pay kimi bölünürdü.

Əkinçilik və maldarlığın sürətli inkişafı, metalişləmə sənəti və ibtidai metallurgiyanın yaranması ilə əlaqədar ailədə və icmada kişinin mövqeyi tədricən güclənirdi. Lakin Eneolit dövründə təsərrüfatda və ictimai həyatda qadının aparıcı rol oynaması hələ də qalmaqda idi. Bu dövr abidələrindən tapılan çoxsaylı qadın heykəlcikləri aydın göstərir ki, ana məhsuldarlıq, bərəkət rəmzi, təmizlik, paklıq nümunəsi kimi öz yüksək mövqeyini saxlamaqda idi.

Bu dövrdə insanların dünyagörüşü xeyli genişlənmiş, yeni ayinlər yaranmış, dəfn adətləri mürəkkəbləşmişdi. İbtidai insanların əcdadlara pərəstiş ayini ilə bağlı ölülərin bilavasitə yaşayış yerlərində dəfn edilməsi geniş yayılmışdı. Ölüləri torpağa gömməzdən öncə üzərinə qırmızı boya (oxra) çəkilir, sifətinin qarşısına su qabı qoyulurdu. Tədqiqatçılar belə dəfnetmə adətinin insanların o dünyaya olan inamla bağlı olduğunu, yenidən həyata qayıtma haqqında təsəvvürlərindən qaynaqlandığını güman edirlər. Eneolit abidələrindən gildən düzəldilmiş qadın fiqurlarının tapılması bu dövrdə qadın ilahələrə inancın da geniş yayıldığını göstərir. Təkcə Urbnisidən (Gürcüstan) 100-dən çox qadın heykəlcikləri aşkar edilməsi bununla bağlı idi.

Eneolit dövrünə aid paleoantropoloji materiallar fraqmentar olsa da, bu dövrdə Cənubi Qafqazın şərq və mərkəz hissəsində, yəni müasir Azərbaycan və Ermənistan ərazisində yerli əhalinin avropoid irqinin cənub qrupuna, dolixokran, ensizsifət, uzunburun kaspi tipinə aid olması müəyyən edilmişdir. Qafqazın qərb hissəsində yaşayan əhali isə kavkasion və Qara dəniz hövzəsi üçün xarakterik olan ponta tipinə mənsub idilər.





## Tunc dövrü abidələri

**Tuncun kəşfi.** Eneolit dövrünün sonunda ibtidai metallurgiyanın yaranması tamamilə yeni və fərqli mərhələ – **Tunc dövrünə** keçməyə şərait yaratdı. Misdən hazırlanan alətlər daş alətlərə nisbətən məhsuldarlığı dəfələrlə artırsa da, yumşaq və kövrək olduğu üçün tez sıradan çıxırdı. E.ə. IV minilliyin ikinci yarısından başlayaraq bu alətlərin davamlılığını artırmaq üçün müxtəlif yollara baş vuran Qafqazın qədim sakinləri misin tərkibinə *sürmə, mərgümüş, nikel, qurğuşun* qatmaqla təbiətdə rast gəlinməyən və misə nisbətən daha möhkəm və davamlı olan yeni bir metalın istehsalına başlamışdılar. İbtidai metallurqların uzun sürən təcrübələri nəticəsində alınan bu, daha möhkəm ərinti - xəlitə *tunc* adlanırdı və davamlılığı ilə seçilirdi. Sonrakı dövrlərdə isə misin tərkibinə qalay qatmaqla daha yüksək keyfiyyətli tunc almağa başladılar.

Ona görə də, alimlərin Tunc dövrü adlandırdıqları bu mərhələ metal alətlərdən daha geniş miqyasda istifadə edilməsi ilə seçilirdi. Mütəxəssislərin qənaətinə görə, Qafqazda Tunc dövrü e.ə. IV minilliyin sonundan e.ə. II minilliyin sonuna kimi davam etmişdir və bir-biri ilə sıx bağlı olan, eyni zamanda yetərincə özünəməxsus cəhətlərə malik olan 3 mərhələyə: Erkən, Orta və Son Tunc dövrlərinə bölünür.

E.ə. III minillikdə mis filizinin əridilməsi, mərgümüş qarışıqlı tunc alınması, metal istehsalı üçün kürələr, qəliblər düzəldilməsi sahəsində mühüm irəliləyişlər baş vermişdi. Təcrübi biliklərin toplanması yolu ilə tunc əldə etməyin daha səmərəli yolları tapılmışdı. Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Erkən Tunc dövrü abidələrinin çoxunda: Şortəpə, Kültəpə, Qaraköpəktəpə, Mişarçay, Sərkartəpə və digər yaşayış məskənlərində odadavamlı gildən hazırlanmış borulu tunc balta qəlibləri, filizin əridilməsi, əridilmiş metalın götürülməsi üçün butələr aşkar edilməsi tunc istehsalının geniş miqyas aldığını göstərir.



**Şəkil.** Azərbaycan. Kültəpə.
Kür-Araz mədəniyyəti nümunələri.





**Kür-Araz mədəniyyəti.** Qafqazda təqribən min il davam etmiş ***Erkən Tunc dövrü*** (e.ə. IV minilliyin ikinci yarısı – III minilliyin sonu) üçün xarakterik cəhət maddi mədəniyyət nümunələrinin bütün Qafqaz miqyasında, o cümlədən Azərbaycan, Gürcüstan və Ermənistan ərazilərində çox oxşar olmasıdır. Bu dövrün maddi mədəniyyəti arxeoloji ədəbiyyatda ***Kür-Araz mədəniyyəti*** adlanır. Bu, həmin dövr abidələrinin ilk dəfə Kür-Araz ovalığında aşkar edilməsi, maddi mədəniyyət sahəsindəki çox əhəmiyyətli yeniliklərin burada təşəkkül tapması və buradan digər bölgələrə yayılması ilə əlaqədardır. Kür-Araz mədəniyyəti adlanan bu mədəni ümumiliyin izləri Şimali Qafqazın çox yerində: düzən, dağətəyi və hətta Çeçenistanın və Şimali Osetiyanın yüksək dağlıq rayonlarında da aşkar edilmişdir. Bu dövrdə Qafqaz həm də Şərqi Avropanın qədim sakinlərini metalla təchiz etmişdir.

Tunc dövrünün başlanğıcında iqlimdə dəyişikliklərlə bağlı quraqlaşma baş vermiş, kiçik çayların, bulaqların bir qismi qurumuşdu. Qafqazın qədim sakinləri əvvəlki yaşayış yerlərini tərk edərək əkinçilik üçün daha əlverişli olan yeni yerlərə: Kür və Araz çayları boyuna, Quruçay və Kondələnçay vadisinə, Mil, Muğan, Qarabağ düzlərinin bol sulu bölgələrinə, Quba-Xaçmaz zonasına, Kəlbəcər, Şəmkir və Cəlilabadın dağlıq və dağətəyi hissələrinə köçməli olmuşdular. Kültəpə, Babadərviş, Göytəpə və Yanıqtəpə kimi Eneolit kəndlərində isə müəyyən fasilədən sonra insanlar yenidən məskunlaşmışdılar.

Dağıstanda isə Erkən Tunc dövrü abidələri Qayakənd, Vəlikənd, Serjenyurd adlı məntəqələrdə, Sulak çayı sahilində Çirkey məskənində aşkar edilib öyrənilmişdir.

Erkən Tunc dövrü yaşayış məskənlərində tikinti işi Eneolit dövrü ənənələrinin davam və inkişaf etdirilməsi ilə əlamətdardır. Dairəvi və ya düzbucaqlı evlər çiy kərpic və möhrə ilə tikilmişdir. Tikililərin özülü çox vaxt daşdan inşa

edilmiş, bəzi otaqların divarları çubuqla hörülüb suvanmışdır. Otağı qızdırmaq, yemək hazırlamaq üçün saxsı manqal, gil altlığı olan ocaq və dördkünc sobalardan istifadə edilmişdir. Xüsusi quruluşu olan ocaq qurğuları Kür-Araz mədəniyyətinin səciyyəvi cəhətlərindən biridir.

Görkəmli sovet arxeoloqu, uzun müddət Qafqazda və İkiçayarasında arxeoloji qazıntılar aparmış R.M.Munçayevə görə, Kür-Araz mədəniyyətinin yaradılmasında İkiçayarasında Uruk mədəniyyətini yaratmış tayfalar mühüm rol oynamışlar. Onun fikrincə, Uruk mədəniyyətinin daşıyıcıları e.ə. IV və III minilliklərin qovuşuğunda və ya e.ə. III minilliyin lap başlanğıcında Mil-Muğan, Qarabağ bölgələrinə və Dağıstanın dənizboyu ərazisinə, oradan da Şimali Qafqazın mərkəz hissəsinə yayılmış və Maykop mədəniyyətinin əsasını qoymuşlar.

Erkən Tunc dövrünün başlanğıcında əkinçilikdə çox böyük dəyişikliklər baş vermişdi: toxa əkinçiliyindən xış əkinçiliyinə keçilmiş, *iribuynuzlu heyvanlardan* qoşqu qüvvəsi kimi istifadə edilməsinə başlanmışdı. Bu dövrə aid yaşayış yerlərindən qoşquya qoşulmuş öküz və arabanın əks olunduğu gil fiqurlar, təkər nümunələri həm də Qafqazda təkərli nəqliyyat vasitələrinin kəşf olunduğunu göstərir. Gürcü arxeoloqu Q.Mirsxilavanın araşdırmalarına görə, ikitəkərli araba e.ə. III minilliyin əvvəlində, dördtəkərli araba e.ə. III minilliyin ikinci yarısında işlədilməyə başlanmışdı. Dördtəkərli araba kurqan mədəniyyəti ilə birgə yaranmışdı. Görünür, bu kəşfdə məhsuldarlığın artması ilə bağlı çoxlu məhsul daşımaq zərurəti də əhəmiyyətli rol oynamışdı. İkitəkərli araba modeli Gürcüstanda Kür-Araz mədəniyyətinə aid Badaani adlı yaşayış məskənindən aşkar edilmişdir.

Bəhs olunan dövrdə sadə süni suvarma şəbəkələri yaradılması, səpin üçün daha münasib buğda, arpa dənləri seçilib əkilməsi geniş miqyas almışdı. Bütün bunlar isə öz növbəsində məhsuldarlığın artmasına imkan yaratmışdı. Baba-





dərviş yaşayış yerindən 20-dən çox taxıl quyusunun tapılması taxıl istehsalının əhəmiyyətli dərəcədə artmasını əyani şəkildə sübut edir. Tunc oraqlardan istifadəyə başlanması taxılın tez və itkisiz toplanmasına imkan verirdi.



**Şəkil.** Şimali Qafqaz.
Maykop mədəniyyəti nümunələri.

Bu dövrdə taxılçılığın yüksək inkişafını taxıl döyümü üçün qoşqu qüvvəsi ilə vəllərdən istifadəyə başlanması da təsdiq edir. Əgər ilk vaxtlarda taxıl döyümü zamanı ibtidai üsullardan: sünbülün iki əl arasında ovuşdurulması və ya taxılın xüsusi meydançada çubuqla döyülməsindən istifadə olunurdusa, Erkən Tunc dövründə taxıl məhsulu istehsalının artdığı bir şəraitdə taxıl döyümü üçün vəllərdən istifadəyə keçilmişdi.

Kür-Araz mədəniyyəti daşıyıcılarının təsərrüfat həyatında maldarlıq da mühüm yer tuturdu. Atdan istifadə maldarlıqda böyük əhəmiyyətə malik yeniliyə – köçmə, yaylaq maldarlığına keçilməsinə şərait yaratmışdı. Mal və qoyun sürülərinin yayda dağ çəmənliklərində bəslənməsi maldarlığın sürətlə inkişaf etməsinə və bu zəmində *birinci böyük icti-*

*mai əmək bölgüsünə* – əkinçiliyin maldarlıqdan ayrılmasına gətirib çıxarmışdı.

Maldarlığın sürətli inkişafı həmçinin zəruri tələbatdan artıq məhsul istehsalına, mübadilənin genişlənməsinə, maldar tayfaların varlanmasına səbəb olmuşdu. Bu da maldar tayfalar içərisində əmlak bərabərsizliyi yaranmasına və tədricən dərinləşməsinə, sərvətin icma, tayfa başçılarının əlində cəmləşməsinə gətirib çıxarmışdı. Tayfa başçılarının təmtəraqla dəfn edilməsi və qəbri üzərində kurqanlar ucaldılması əmlak və sosial bərabərsizliyin əlamətləri idi. Belə kurqanlar Azərbaycanda Üçtəpə, Qəbələ və Xankəndində, həmçinin Dağıstanda Utamış adlı məntəqədə aşkar edilib öyrənilmişdir.

Erkən tunc dövründə saxsı qablar istehsalı daha yüksək inkişaf mərhələsinə çatmışdı. Simmetrik ölçülərin diqqətlə nəzərə alınması, qabların səthinin yüksək peşəkarlıqla cilalanması və parıltı verilməsi, oyma, cızma naxışlarla bəzədilməsi, çox zərif qab-qacaq hazırlanması dulusçuluq sənətinin yüksək səviyyəyə çatdığını göstərirdi. Yaylaq maldarlığına keçilməsi saxsıdan köçürmə ocaqlar, süd və süd məhsulları saxlamaq üçün qab-qacaq istehsalını artırmağa gətirib çıxardı. İlk saxsı nehrələrin düzəldilməsinə də bu dövrdə başlanmışdı.

Kür-Araz mədəniyyəti daşıyıcılarının təsərrüfat həyatındakı yeniliklər ictimai münasibətlərə də ciddi təsir göstərmişdi. Ərzaq istehsalının sürətlə artması əhalinin sayının çoxalmasına, icmaların böyüyərək qohumluğun saxlanıldığı yeni nəsil icmalarına bölünməsinə və nəticədə daha böyük etnik birliklərin – *tayfa və tayfa ittifaqlarının* yaranmasına gətirib çıxardı. Təsərrüfat işlərində, icmanın və tayfanın idarə olunmasında kişinin – ağsaqqalın rolu gücləndi, ***ata xaqanlığına*** keçildi. Bu dövr abidələrindən kişi heykəllərinin tapılması, kişiyə pərəstişin oda sitayişlə əlaqələndirilməsi, gil manqalların və sac ayaqların kişi təsvirlərilə bəzədilməsi bunu aydın göstərir. Bu dövrdə insanların dini görüşlərində günəşə, ocağa sitayiş mühüm yer tutmağa başlamışdı. Qafqazın qədim sakinləri odun sehrli qüvvəyə malik olmasını güman edirdilər.





Erkən Tunc dövründə dəfn adətlərində də ciddi dəyişikliklər baş vermişdi. Ölülərin yaşayış yerlərindən kənarda dəfn edilməsinə başlanmışdı. Həm də dəfn olunanlar sağlığında istifadə etdiyi əşyalarla: əmək alətləri, qab-qacaq, bəzək əşyaları ilə birlikdə qəbirə qoyulurdu. Bu dövrdə Cənubi Qafqazın çox yerində, o cümlədən Azərbaycanda ölübasdırma adəti ilə yanaşı, ölüyandırma adəti də mövcud idi. Bu dövrə aid Gəncəçay hövzəsində, Qəbələ, Tərtər bölgələrində aşkar edilmiş qəbir abidələrində ölüyandırma adəti müşahidə edilmişdir.

E.ə. III minillikdə Azərbaycanda yaşayan tayfalar Qafqazın digər bölgələrində, Kiçik Asiya və İkiçayarasında yaşayan əhali ilə sıx əlaqə saxlayır, məhsul mübadiləsi edirdilər. Şimali Qafqazda bu dövrə aid Maykop mədəniyyəti abidələrindən tapılan tunc əşyaların kimyəvi tərkibinin öyrənilməsi zamanı bəlli olmuşdur ki, bu əşyaların çoxu Cənubi Qafqaz mənşəlidir.

Erkən Tunc dövrünün son mərhələsində əkinçilik, maldarlıq, sənətkarlıq, xüsusən metalişləmə sahəsində böyük irəliləyişlər məhsul istehsalının həcmini dəfələrlə artırmış, izafi məhsulun artıb çoxalmasına şərait yaratmışdı. Bu da, öz növbəsində, həmin sərvətlərin qorunması zərurətini doğurmuşdu. Bu dövrə aid Qaraköpəktəpə, II Kültəpə (Naxçıvan), Göytəpə yaşayış məskənlərinin ətrafına qalın müdafiə divarı çəkilməsi bununla bağlı idi.

Bu dövrdə həmçinin qənimət ələ keçirmək üçün hərbi yürüşlər təşkil edilməsi çoxalmışdı. Atçılığın inkişafı, möhkəm tunc silahlar istehsalının artması buna imkan vermişdi. İri tayfa birliklərinin yaranması isə onun başçısını çoxsaylı qoşunla uzaq ölkələrə yürüşlərə başlamağa həvəsləndirməyə bilməzdi. İkiçayarasında aşkar edilmiş mixi kitabələrdə Qafqazın cənub hüdudlarında yaşamış ***kuti*** tayfalarının e.ə.

XXIII əsrdə bu ölkəyə yürüş etməsi və 100 ilə qədər orada hökmranlıq etməsi haqqında məlumat vardır. Həmin dövrə aid mixi kitabələrdə Urmiya gölündən cənubda yaşayan digər güclü tayfa birliyini yaratmış etnosların – ***lullubilərin*** adı da ciddi siyasi qüvvə kimi çəkilir. Rus alimi İ.M. Dyakonova görə, Kür-Araz mədəniyyətinin daşıyıcıları sırasında kuti və lullubi tayfaları ilə yanaşı, ***hurri (xurrit)*** tayfaları da mühüm yer tutmuşlar.

**Orta Tunc dövründə təsərrüfat həyatında əsas yeniliklər.** E.ə. III minilliyin sonunda Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Kür-Araz mədəniyyəti ümumiliyinin parçalanması, iqtisadi inkişafın sürətlənməsi ictimai münasibətlərdə ciddi dəyişikliklərə gətirib çıxardı. Bu, yeni mərhələnin - ***Orta Tunc dövrünün*** başlanğıcı idi. Bu dövr e.ə. II minilliyin ortalarına kimi davam etmişdir.

Orta Tunc dövründə əkinçilik, maldarlıq və sənətkarlığın böyük sürətlə inkişafı, əmlak və sosial bərabərsizliyin dərinləşməsi, Yaxın Şərqin mədəniyyət mərkəzləri ilə əlaqələrin genişlənməsi və bu zəmində Qafqazda ilkin şəhərlərin yaranması, sinifli cəmiyyətin formalaşması prosesləri başlanmışdı. Bu dövrə aid çoxsaylı yaşayış məskənlərinin aşkar edilib öyrənilməsi göstərir ki, əhalinin sayının sürətlə artması yaşayış məskənlərinin kəskinliklə genişlənməsinə, iri tayfa birliklərinin az-çox ***sabit etno-siyasi birliklərə*** çevrilməsinə imkan yaratmışdı. Bu da, bütün Qafqazı əhatə edən Kür-Araz mədəni ümumiliyinin tədricən pozulmasına, böyük tayfa birliklərinin yaşadıqları ərazilərə uyğun gələn və fərqli cəhətlərin daha qabarıq nəzərə çarpdığı daha məhdud əraziləri əhatə edən lokal arxeoloji mədəniyyətlərin yaranmasına gətirib çıxarmışdı.

Bu dövrdə memarlıqda inkişaf xüsusilə nəzərə çarpırdı. Dairəvi evlərin yerinə düzplanlı, dördkünc çoxotaqlı evlər inşa edilməsinə keçilmişdi. Yaşayış məskənlərinin ətrafında müdafiə divarları, bürclər tikilməsi geniş miqyas almışdı.





Urmiya gölü yaxınlığında Həftəvantəpə yaşayış məskəninin ətrafında salamat qalmış müdafiə divarının hündürlüyü 3,3 metrə çatır. Buradakı evlər küçə boyu hər iki tərəfdə sıra ilə tikilmişdir. Naxçıvanda bu dövrə aid II Kültəpə yaşayış yerinin sahəsi isə 10 hektara çatmışdı. Yaşayış məskəninin mərkəz hissəsində 3 hektar sahəni əhatə edən Narınqala yerləşirdi. Narınqala dördkünc bürc və kontrforslarla möhkəmləndirilmiş müdafiə divarı ilə əhatə edilmişdir. Yaşayış evləri düz küçə boyunca bir-birindən müəyyən məsafədə inşa edilmiş, küçələrin bəzilərinə daş döşənmişdir. Bu qala tipli yaşayış məskənləri Qədim Şərqin şəhərlərinə bənzəyirlər. Deməli, e.ə. II minilliyin birinci yarısından Cənubi Qafqazda, xüsusən də Azərbaycanda şəhərsalma mədəniyyəti yaranmaqda idi.

Qala-şəhər tipli yaşayış məskənlərinin yaranması sənətkarlığın yüksək inkişaf mərhələsinə çatması və digər məşğuliyyət sahələrindən ayrılması ilə – yəni *ikinci əmək bölgüsü* ilə bilavasitə bağlı idi. Metalişləmə sənətində bu inkişaf daha keyfiyyətli tunc – qalay qatışıqlı «əsil» tunc istehsalına başlanması, daha çox və müxtəlif çeşidli alətlər və silahlar düzəldilməsi, qızıl və gümüşdən bəzək əşyaları qayrılmasının artmasında özünü xüsusilə aydın büruzə verirdi. Gürcüstanda Trialeti kurqanından aşkar edilmiş üzəri firuzə daşlarla bəzədilmiş qızıl cam və tuncdan hazırlanmış, üzərində təsvirlər olan qab bu baxımdan səciyyəvidir.

E.ə. II minillikdə tuncdan əmək alətləri hazırlanması geniş miqyas almış, əkinçilik alətləri daha da təkmilləşmişdi. Əkinçi və maldarlar, dulusçu, toxucu və metal ustaları daha çox məhsul istehsal etməyə başlamışdılar. Tədricən ibtidai insanların zəruri tələbatından artıq qalan məhsullar meydana çıxmışdı. Təkmil alətlərdən istifadə edən ayrı-ayrı ailələr öz fərdi təsərrüfatlarını yaratmışdılar.

Dulusçuluqda inkişaf dulus çarxlarından geniş istifadə olunması və dulus kürələrinin daha mükəmməl olması, saxsı

qabların çeşidinin artması və mürəkkəb naxışlarla bəzədilməsində özünü aydın göstərirdi. II Kültəpədən aşkar edilmiş böyük dulusçuluq emalatxanası və mükəmməl quruluşlu dulus kürələri aydın göstərir ki, burada fəaliyyət göstərmiş dulusçular həmin ərazidə məskunlaşmış tayfaların tələbatını ödəməklə yanaşı, mübadilə üçün də qab-qacaq istehsal etmişlər. Bu dövrdə boyalı qablar istehsalı geniş miqyas aldığı üçün Orta Tunc dövrü həm də *«Boyalı qablar mədəniyyəti»* adlanır.

Qədim Qafqazda tunc dövründə dulusçuluq sənəti geniş yayılmışdı. Artıq e.ə. V minillikdə dulus çarxının kəşfi saxsı qablar hazırlanmasında böyük tərəqqiyə səbəb olmuşdu. Demək olar ki, tunc dövrünə aid bütün yaşayış məskənlərində dulusçuluq məmulatına rast gəlinmişdir. Urbanisi (Gürcüstan), Üzərliktəpə (Azərbaycan) və Qafqazın bir çox digər qədim yaşayış yerlərində həmçinin gildən hazırlanmış qadın fiqurları da tapılmışdır. Bu da əkinçi və maldar tayfaların qadın ilahələrə – məhsuldarlıq və bərəkət allahlarına inancları ilə bağlı idi. Tunc dövründə ibtidai insanlar Günəşə və ocağa da sitayiş edir, odun sehrli qüvvəyə malik olmasını güman edirdilər.

Tunc dövründə toxuculuq sənəti də inkişaf etmişdi. Qafqazın çox yerində əl iyi və gil qablar üzərində parça izləri aşkar edilməsi toxuculuğun geniş əraziyə yayıldığını göstərir. Bu dövrdə sadə toxuculuq dəzgahlarından istifadəyə başlanmışdı. Qoyunçuluğun inkişafı xammal ehtiyatlarının sürətlə artmasına və toxucuların icma üzvlərinin tələbatından artıq, mübadilə üçün məhsul istehsal etmələrinə imkan vermişdi.

Orta Tunc dövründə əkinçilikdə əsas yeniliklər bağçılıq və bostançılığın təşəkkül tapması, üzümçülüyün mühüm yer tutması, şərabçılığın yaranması idi. Əmək alətlərinin təkmilləşdirilməsi, süni suvarmanın tətbiqinin geniş miqyas alması məhsuldarlığı daha da artırmağa imkan vermişdi.

Maldarlıq təsərrüfatı yaylaq maldarlığının inkişafı ilə





əlaqədar daha çox məhsul verməyə başlamışdı. Həm də xırdabuynuzlu heyvanların – davarın saxlanması əsas yer tutmaqda idi. Maldar tayfalar getdikcə daha böyük sürülərə malik olurdular. Sərvətin sürətlə artması mübadilənin genişlənməsinə, həm də universal mübadilə vahidi kimi davarın işlənməsinə gətirib çıxarmışdı. Mahmud Qaşqarinin «Divani-lüğət-it-türk» əsərində türk tayfalarında *tavar* (davar) sözünün alqı-satqı vahidi mənasında işlədildiyini qeyd etməsi də bunu təsdiq edir.

Orta Tunc dövründə insanlar arasında əmlaka görə fərqlər artmış, ictimai bərabərsizlik daha da dərinləşmişdi. İbtidai icma qaydalarının dağılması, erkən dövlət qurumlarının – böyük tayfa birliklərinin yaranması sürətlənmişdi. Tayfa başçıları öz patriarxal ailələri, silahlı dəstəsi, əyanları və kahinlərlə birlikdə ətrafında möhkəm müdafiə divarları çəkilmiş yaşayış məskənlərinin mərkəzində, daha etibarlı qorunan yerdə – Narınqalada yaşayırdılar. Onların dəfn olunduqları qəbirlər də fərqli idi, onlara daha zəngin və təmtəraqlı qəbir avadanlıqları qoyulurdu. Bu dövrdə sənətkarlığın xüsusi məşğuliyyət sahəsinə çevrilməsi, yəni ikinci əmək bölgüsünün baş verməsi də sinifli cəmiyyətə keçid mərhələsinin başlandığını göstərirdi. Cənubi Qafqaz, o cümlədən Azərbaycan tayfalarının Qədim Şərq dövlətləri ilə iqtisadi-mədəni əlaqələrinin genişlənməsi də ictimai həyata öz təsirini göstərirdi.

E.ə. II minillikdə Azərbaycan tayfaları həm Qafqazın digər bölgələrində yaşayan əhali ilə, həm də Ön Asiyanın qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqə saxlayır, hazır məhsul, silah, boyalı qab, bəzək əşyaları və xammal mübadilə edirdilər. Məsələn, müəyyən edilmişdir ki, daha keyfiyyətli və davamlı tunc alınması üçün lazım olan qalay ehtiyatları Qafqazda olmadığından, onu bu regiona çoxpilləli mübadilə yolu ilə ya Cənub-şərqi Asiyadan, ya da Böyük Britaniyadan gətirdirdilər.

E.ə. II minillikdə Cənubi Qafqazda və onunla həmhüdud bölgələrdə kuti, lullubi, hurri, kassi, turukku, su tayfalarının yaşamaları haqqında mixi kitabələrdə çoxlu sayda, müxtəlif xarakterli bilgilər vardır. Bu tayfaların yaratdığı etno-siyasi birliklər – *erkən dövlət qurumları* İkiçayarası və Yaxın Şərqin digər ölkələri ilə sıx əlaqələr saxlayırdılar. Qafqazın cənub-qərb bölgələrində ***hurri (xurrit)*** tayfaları daha böyük təsirə malik idi.

Bu tayfaların etnik mənsubiyyəti haqqında müxtəlif mülahizələr mövcuddur. Onların bəzilərinin, xüsusən də hurrilərin Qafqaz dil ailəsinə, bəzilərinin isə (kutilər, turukkular və kassilər) Altay dil ailəsinə mənsub olduqları güman edilir. Bu tayfaların dillərinə aid materiallar hələlik çox azdır; ayrı-ayrı sözlər və adlar əsasında isə yalnız ehtimal irəli sürmək mümkündür. Lakin antropoloji materiallar müasir azərbaycanlıların mənsub olduqları fiziki tipin daşıyıcılarının çox qədim çağlardan Cənubi Qafqazda yaşadıqlarını sübut edir. Orta Tunc dövrünə aid paleoantropoloji tapıntılar (Naxçıvanda Xarabagilan, Urmiya gölü yaxınlığında Göytəpə abidəsindən aşkar edilmiş insan qalıqları) göstərir ki, həmin dövrdə yerli əhali antropoloji əlamətlər kompleksinə görə əsasən kaspi tipinin xüsusiyyətləri ilə səciyyələnən müasir naxçıvanlılara yaxın olmuşdur.

## İbtidai icma cəmiyyətinin dağılması

**Son Tunc və Erkən Dəmir dövrlərində ictimai bərabərsizliyin dərinləşməsi.** ***Son Tunc*** *(e.ə. XIV-XII əsrlər) və* ***Erkən Dəmir*** *(e.ə. XI-VIII əsrlər)* ***dövrləri*** Cənubi Qafqazda təsərrüfatın bütün sahələrinin, xüsusən də sənətkarlığın o vaxta qədər görünməmiş sürətlə inkişaf etməsi ilə xarakterizə olunur. Bu mərhələdə tunc emalı, metalişləmə sənəti yüksək çiçəklənmə dövrü keçirirdi. Dulusçuluqda ayaqla hərəkətə





gətirilən dulus çarxının kəşfi saxsı qab istehsalını kəskin surətdə artırmağa, dulusçuluq məmulatının keyfiyyətini daha da yüksəltməyə imkan vermişdi. Xış əkinçiliyi, süni suvarma daha da inkişaf etmiş, taxıl biçini alətləri, döyümü vasitələri xeyli dərəcədə təkmilləşdirilmişdi.

Son Tunc və Erkən Dəmir dövrlərində Qafqazda maldarlıq, xüsusən atçılıq da sürətlə inkişaf edirdi. Cənubi Qafqazın mərkəz və şərq hissəsində *köçmə (yaylaq) maldarlığı* əsas yer tutmuşdu. Bu dövrdə atçılıq və dəvəçilik mühüm nəqliyyat vasitələri kimi inkişaf etdirilərək ayrıca təsərrüfat sahəsinə çevrilmişdi. Bu da qafqazlıların Ön Asiyanın və Avropanın siyasi həyatına mühüm təsir göstərən yürüşləri ilə əlaqədar idi.

Dəmirin kəşfi həm məhsuldar qüvvələrin inkişafını, həm də bu zəmində ictimai inkişafı daha da sürətləndirdi. Dəmirin ərimə temperaturu yüksək – 1530 dərəcə olduğu üçün, yalnız metallurgiya işi müəyyən inkişaf mərhələsinə çatdıqdan, xüsusən körük kəşf olunduqdan sonra ondan istifadə edilməsi mümkün olmuşdu. Metal emalı ilə məşğul olan ustalar körük vasitəsi ilə dəmir filizini 900 dərəcəyə qədər qızdıra bilirdilər və bu istilikdə istifadəyə yararlı dəmir almaq mümkün olurdu. Dəmir başqa metallara nisbətən ucuz başa gəldiyindən və ehtiyatları daha çox yerlərdə olduğundan tezliklə Qafqazda geniş əraziyə yayıldı.

E.ə. II minilliyin sonunda Qafqazın cənubunda dəmir istehsalı və dəmirdən alətlər hazırlanmasına başlanılmışdır. Sonrakı yüzilliklərdə dəmir alətlər Qafqazın digər yerlərinə də yayılmışdır. Dəmir xış və kotanlardan, qoşqu heyvanlardan istifadə əkin sahələrini artırmağa imkan vermişdi. Bu dövrdə süni suvarmadan istifadə olunması da genişlənmişdi. Naxçıvançay, Arpaçay boyunda, Dağıstanda arx izləri artıq süni suvarmanın sistemli şəkil aldığını göstərir.

E.ə. II minilliyin sonu – I minilliyin başlanğıcında bütün Cənubi Qafqazda metallurgiya və metalişləmə sənəti

yerli xammal hesabına yüksəliş dövrü keçirirdi. Metal əşyalar hazırlanmasında ərintinin daş qəliblərə tökülməsi, isti və soyuq döymə, qaynaqlama, bənd vurma, oyma, minalama və s. üsullardan istifadə edilirdi. Dəmir nizə ucluqları, xəncərlər və qılınclar daha əvvəlki dövrlərdə tunc silahların hazırlandığı üsullarla, onların qəliblərində tökülərək hazırlanırdı. Tunc və dəmir metallarının emalı, onlardan alət və silah hazırlanması arasındakı varislik bəhs olunan dövrün arxeoloji abidələrindəki tapıntılarda aydın nəzərə çarpır. Xocalı-Gədəbəy mədəniyyəti abidələrindəki dəmir nizə ucluqları, Muğan mədəniyyəti abidələrindən tapılan dəmir tiyəli xəncər və qılınclar eyni tipli tunc silahların formasını bütünlüklə təkrar edirdi.

**Hərbi demokratiya.** Son Tunc – Erkən Dəmir dövründə təsərrüfat sahələrinin sürətli inkişafı ilə bağlı tayfalararası və bölgələrarası mübadilə daha da güclənmişdi. Maldar tayfalar alış-veriş işlərində fəal vasitəçi idilər. Bu dövrdə alış-veriş həm davarla, həm də metal əşyalarla, hətta metal parçaları ilə aparılırdı. Təsərrüfatın və mübadilənin belə güclü inkişafı da, öz növbəsində *üçüncü əmək bölgüsünə*: tacirlərin sənətkarlardan ayrılmasına səbəb olmuşdu. Əmlak bərabərsizliyi daha da dərinləşmiş, ibtidai icma qaydalarının intensiv sürətlə dağılmasına gətirib çıxarmışdı. Arxeoloji materialların təhlili göstərir ki, bu dövrdə ictimai inkişafın sürəti ayrı-ayrı bölgələrdə fərqli olmuşdur. Qafqazın şimalına nisbətən cənubunda qədim cəmiyyətlərin formalaşması daha intensiv getmiş, qul əməyindən istifadəyə daha tez başlanılmışdı.

Sərvətlərin artması fonunda həm də onu asan yolla ələ keçirmək ehtirasları güclənmişdi. Az-çox sabit hərbi dəstələrin yaranması təkcə tayfa birliyinin mal-qoyun sürülərini, əkinlərini, yaşayış məskənlərini qorumaqla bağlı olmayıb, həm də yaxın-uzaq qonşular üzərinə basqın edib qənimət ələ keçirmək məqsədi güdürdü. Bu yürüşlər tayfa başçılarının, hərbi əyanların daha da varlanmasına gətirib çıxarırdı. Çoxsaylı və müxtəlif formalı dəmir silahların (qılınc, xəncər, təbərzin, yaba, ox və nizə ucluqları) və qalxan, dəbilqə, zirehli geyim kimi müdafiə vasitələrinin istehsalının artması qarətçi yürüşlərin daimi peşəyə çevrilməsinə gətirib çıxarmışdı. İbtidai icma quruluşunun bu son mərhələsinin – ***hərbi demokratiya*** dövrü adlanması da bu proseslərlə bağlıdır.





Cənubi Qafqazda bu dövrə aid yaşayış məskənlərinin, xüsusən sərvətin daha çox toplandığı maldar tayfaların dağlıq və dağətəyi bölgələrdəki yaşayış yerlərinin çoxunun hasara alınması, iri daş, qaya parçalarından *qalaçaların – siklop tikililərinin* inşa edilməsi qarətçi basqınlarından qorunmaq məqsədi daşıyırdı. Daşkəsən, Gədəbəy, Naxçıvan bölgələrində qalıqları bizim günlərə qədər gəlib çatmış qalaçaların inşası, həmçinin həmin dövrdə memarlıq sənətinin yüksək inkişaf səviyyəsinə çatmasını göstərirdi.

Hərbi yürüşlərin, müharibələrin geniş miqyas almasını tayfa başçılarının, əyanların qəbirlərində silahların sayca dəfələrlə artması, sıravi icma üzvlərinin qəbirlərində də silahlar tapılması da sübut edir. Əksər hallarda başçı dəfn edilərkən xidmətçiləri, arvadı, qulları da öldürülüb, onunla bərabər basdırılırdı. Məsələn, Borsunlu (Qarabağ) kurqanında tayfa başçısının qızıl lövhələrlə bəzədilmiş tabutu ilə yanaşı 8 at, 9 hərbi qulluqçu (və ya xidmətçi), kəniz gömülmüşdür. Dağıstanda Xaboda, Arkas, Şaroakun qəbir abidələrində tayfa başçılarının bahalı silahlar, at və xidmətçilər ilə birgə dəfn edilməsi də hərbi demokratiya ilə bağlı idi.

Son Tunc – Erkən Dəmir dövrünə aid Sarıtəpə, Babadərviş, Göygöl rayonunda aşkar edilmiş yaşayış yerlərində yanğın və dağıntılar nəticəsində həyatın kəsilməsi də tayfalararası toqquşmaların nəticəsi idi.

Dəmirçilər şum alətləri ilə yanaşı, xüsusi möhkəmliyi olan poladdan döyüş baltası, qılınc, xəncər, nizə və ox ucları düzəltməyə başlamışdılar. Dulusçular isə zamanələrinin sənətkarlıq nöqteyi-nəzərdən çox gözəl boyalı qablarının is-

tehsalını genişləndirmişdilər. Bu dövrdə Qafqazın müxtəlif yerlərində yaşayan tayfaların təsərrüfat və məişətində ciddi fərqlər meydana çıxmışdı. Qafqazın cənubunda yaşayan sakinlərin təsərrüfatı şimal qonşularına nisbətən daha sürətlə inkişaf edirdi.



**Şəkil**. Gürcüstan. Trialeti kurqanı.
E.ə. II minilliyə aid qızıl və tunc qablar

Tayfa və icma daxilində təbəqələşmə bu dövrdə daha da güclənmiş, var-dövlət başçıların əlində cəmləşməyə başlamışdı. Daha münbit torpaqlar, otlaq sahələri onların ixtiyarına keçirdi. Bu şəxslərin böyük təsərrüfatında çalışmaq üçün əlavə işçi qüvvəsi cəlb edilirdi. Müharibələr zamanı ələ keçirilən hərbi əsirlər başçıların köləsinə çevrilir, qul kimi işlədilirdi.

**Qafqaz sakinlərinin Ön Asiya ölkələri ilə əlaqələrinin geniş miqyas alması.** Bu dövrdə Qafqaz sakinlərinin Ön Asiya ölkələri ilə əlaqələri daha geniş miqyas aldı. Müxtəlif bölgələrdə aşkar edilən silindrik möhürlər, qızıl, fil sümüyü və sədəfdən hazırlanmış bəzək əşyaları, «Ön Asiya tipli» xəncərlər, Suriya və Finikiya mənşəli rəngli şüşə muncuqlar (Dağıstandan aşkar edilmişdir), üzərində Assuriya hökm-





darlarının adı olan toppuz (Həsənlidən aşkar edilmişdir), muncuq (Xocalıdan aşkar edilmişdir) və s. bu əlaqələrin möhkəm və davamlı xarakter aldığını göstərir.

Son Tunc – Erkən Dəmir dövrünə istehsal təsərrüfatının geniş miqyas alması ilə əlaqədar həm Cənubi Qafqazda yaşayan tayfalar arasında, həm də qonşu regionlarda yaşayan tayfalarla mübadilə, alış-veriş geniş miqyas aldı. Regiondaxili iqtisadi əlaqələrdə maldar tayfalar fəal rol oynayırdılar. Bunun bir səbəbi maldar tayfaların müxtəlif bölgələrdə hansı sənətkarlıq məhsulunun yüksək keyfiyyətlə düzəldilməsindən xəbərdar olmaları, digər səbəbi isə, bu tayfa başçılarının əlində, artıq yuxarıda qeyd olunduğu kimi, universal mübadilə vasitəsinin – davarların cəmləşməsi idi. Tədqiqatçıların fikrincə, bəhs olunan dövrdə yun və digər heyvandarlıq məhsulları, müəyyən çəkiyə və ölçüyə malik metal külçələri də mübadilə vasitəsi kimi işlədilməyə başlanmışdı.

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Qərbi Azərbaycanda istehsal olunmuş tunc kəmərin Xəzər dənizi sahili boyunda, Cənubi Dağıstanda düzəldilmiş xəncərlərin Mingəçevirdə, Urmiya ətrafı bölgələrdə yayılması Qafqaz regionu daxilində mübadilənin intensiv xarakter almasını əyani şəkildə göstərirdi. Cənubi Azərbaycanda Həsənli təpəsində aşkar edilmiş qızıl cam üzərində çəkilmiş xəncərlərin bənzərlərinin Kiçik Qafqazdakı abidələrdən aşkar edilməsi, Qafqaz mənşəli təbərzin döyüş baltalarının, yabaların, dəbilqə və qalxanların Şərqi Avropa çöllərindən İranın mərkəzinə qədər geniş əraziyə yayılması, eləcə də Mitanni tipli möhürlərin, Ön Asiya tipli xəncərlərin, daha uzaq ölkələrdən gətirilmə fil sümüyü və sədəfdən hazırlanmış bəzək əşyalarının Qafqazın müxtəlif bölgələrində aşkar edilməsi alış-verişin coğrafiyasının genişləndiyinə dəlalət edirdi.

E.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində əkinçilik və maldarlıq təsərrüfatlarının intensiv inkişafı, sənətkarlıq sahələrinin, xüsusən dəmir alətlər istehsalının yük-

səlişi, qonşu bölgələrlə, ictimai inkişafın daha yüksək mərhələsinə keçmiş Yaxın Şərq (Assuriya, Het, Misir) ölkələri ilə mədəni-iqtisadi əlaqələrin daha da genişlənməsi sinifli cəmiyyətin meydana gəlməsinə imkan və şərait yaratmışdı. Artıq bu dövrə aid mixi kitabələrdə Qafqazın cənubundakı tayfa birliklərinin torpaqları ölkə, başçıları isə hökmdar adlandırıldı.

İcma üzvləri arasında əmlak bərabərsizliyi dərinləşmiş, varlı və yoxsul ailələrin arasında fərqlər meydana gəlmişdi. Ümumiliyə və bərabərliyə əsaslanan ibtidai cəmiyyətlərin dağılması, erkən siyasi qurumların – *dövlət birliklərinin* yaranması intensiv xarakter almışdı.





# QAFQAZ QƏDİM DÖVRDƏ

## Qafqazın ən qədim tayfa birlikləri və dövlət qurumları

**Kuti tayfa birliyi.** Qafqaz sakinləri haqqında ən qədim yazılı bilgilər e.ə. III minilliyin ikinci yarısına aiddir. Bu dövrdə Qafqazın cənub hissəsi və onun sakinləri haqqında Şumer-Akkad kitabələri ilkin məlumat vermişlər. Urmiya gölü ətrafında yaşayan **kuti** tayfa birliyinin e.ə. XXIII yüzilliyin sonunda İkiçayarasına yürüşləri və 100 ilə qədər orada hökmranlıq etməsi mixi yazılarında əks olunmuşdur. Kuti dilinin qədim Qafqaz dillərinə, xüsusən onun şərq qoluna – Nax-Dağıstan qrupuna yaxın olması mülahizəsi son dövrün tədqiqatlarında daha çox irəli sürülməkdədir. Həmçinin kuti adının qədim Albaniyanın və Dağıstanın uti türk tayfasının adında daha sonrakı dövrlərdə qorunub saxlanması, uti dili ilə qədim türk dillər arasında qohumluq olması fikirləri də mövcuddur. Həmçinin, kuti sözünün əsas hissəsi olan *kut* müasir dövrdə türk dilində *kutlu*, Azərbaycan dilində *qut* şəklində işlənməkdədir ki, bu da həmin adın daşıyıcılarının türk mühitində uzun əsrlər boyunca yaşamalarını düşünməyə əsas verir. Hər iki mülahizə kutilərin Qafqazla bağlılığının daha güclü və geniş olması haqqında qənaəti möhkəmləndirir.

Kuti tayfalarının güclü siyasi birlik yaratması, məhz zəngin Şumer şəhər-dövlətlərini ələ keçirmək uğrunda mübarizəyə başlaması təsadüfi deyildi. Daha öncə – Erkən Tunc dövründə Kür-Araz mədəniyyətini yaratmış Qafqaz tayfalarının həm təsərrüfat həyatındakı uğurları: əkinçiliyin və maldarlığın güclü inkişafı, tunc alətlər hazırlanması, dulusçuluq və toxuculuq sahəsində öz dövrü üçün yüksək səviyyəyə qalxmaları, həm də İkiçayarası və Ön Asiyanın di-

gər bölgələri ilə daha öncədən çeşidli əlaqələr saxlamaları haqqında arxeoloji tədqiqatlar təkzibedilməz sübutlar vermişdir. Eyni zamanda, bu mədəniyyətin daşıyıcıları Şərqi Avropa düzənliyinin qədim sakinləri ilə də təmasda olmuş, onlarla Ön Asiyanın, xüsusən də İkiçayarasının qədim xalqları arasında mübadilədə vasitəçilik etmişdilər. Bütün bunlar da Qafqazın erkən tunc dövrü tayfalarının daha yüksək inkişaf mərhələsinə keçməsi üçün maddi zəmin yaratmışdı.

Lakin kuti tayfa birliyinin yaratdığı dövlət qurumunun e.ə.III minilliyin sonunda süqut etməsi ilə bir zamanda Qafqaz sakinlərinin bölgədaxili və xüsusən də İkiçayarası ilə əlaqələrinin zəifləməsi baş vermişdi. Nəticədə, sonrakı yüzilliklərdə yerli cəmiyyətlərin sosial-iqtisadi inkişafı prosesi əsaslı surətdə zəifləmişdi ki, bu da özünü Şimali Qafqaz bölgəsində daha qabarıq büruzə vermişdi. Görkəmli tədqiqatçı L.N.Qumilyev də Xəzəryanı bölgənin e.ə. XVIII-VIII yüzilliklərini «tarixşünaslığın qaranlıq dövrü» adlandıraraq, aborigen etnosların passionarlıq fəallığının kəskin şəkildə aşağı düşdüyünü qeyd etmişdir.

**Lullubilər.** Qədim yazılı qaynaqlarda e.ə. III minilliyin ikinci yarısında kutilərlə bir zamanda Qafqazın cənub hüdudlarında, Urmiya gölü ətrafında **lullubi** və ya **lullu** (bi (pi) cəm bildirən şəkilçidir) tayfalarından bəhs edilir. Lullubilər də kutilər kimi İkiçayarası ilə fəal təmasda idilər və güclü tayfa birliyi yaratmışdılar. Lullubi tayfa birliyi sonrakı yüzilliklərdə də Cənubi Qafqazın və qonşu ölkələrin tarixində mühüm rol oynamaqda idilər. E.ə. II minilliyin əvvəlində lullubilərin Assuriyada hökmranlıq etməsi, qərb istiqamətində irəliləməsi Hett (xett) mənbələrində qeyd edilmişdir. Lullubilərin döyüşkənliyi, hurri tayfaları ilə çoxsaylı toqquşmaları haqqında da məlumatlar vardır. Lullubi dilinin Elam, Zaqros, Qafqaz və s. qədim dil ailələri ilə bağlılığı haqqında müxtəlif mülahizələr mövcuddur. Bunlarla yanaşı lullubilərin qədim türklərlə bağlı olması fikri də irəli sürülmüşdür. Lakin bu tayfaların dil mənsubiyyəti haqqında bilgilər çox azdır və qəti fikir söyləmək çətindir.





Qafqazın ən qədim sakinləri arasında e.ə. III minilliyin sonlarından etibarən **turukki** və **su** tayfalarının da adı çəkilir. Qaynaqlar Cənubi Qafqazdakı etnik proseslərdə bu qədim türk tayfalarının da mühüm yer tutduğunu qeyd edirlər.

**Mitanni dövləti.** Qafqazın yazılı qaynaqlarda adı çəkilən ən qədim sakinlərdən biri də **hurri (xurrit)** tayfalarıdır. Şumer mənbələri e.ə. III minilliyin ikinci yarısında Qafqazın cənub və cənub-qərb hüdudlarında hurrilərin yaşadığını bildirmişlər. Hurrilərin Cənubi Qafqazın ən qədim sakinlərindən biri olması mülahizəsini hazırda bütün qafqazşünaslar qəbul etmişlər. Tədqiqatçıların bir qismi isə Kür-Araz mədəniyyətinin yaradılmasını bu tayfa birliyi ilə bağlayır və hurrilərin əvvəlki dövrdə Cənubi Qafqazın daha böyük ərazisində yaşadıqlarını qeyd edirlər.

Hurri tayfaları İkiçayarasının və bütövlükdə Ön Asiyanın qədim tarixində mühüm rol oynamış, e.ə. II minilliyin ortalarında güclü **Mitanni** dövlətini yaratmışdılar. Bu dövlət Urmiya gölünün qərbindən Şimali İkiçayarasına kimi geniş ərazini əhatə edirdi. E.ə. XVI-XIII əsrlərdə ən güclü dövrünü yaşayan bu dövlət kuti və lullubi tayfa birliklərini də öz təsiri altına sala bilmişdi. Mitanni sakinlərinin – hurrilərin sənətkarlıq məhsulları: silindrvari möhürlər, Ön Asiya tipli xəncərlər bu dövrdə Cənubi Qafqazın digər bölgələrinə də yayılmışdı. Herodot "Tarix" əsərində matiyenləri (mitanniləri) hurrilərlə eyniləşdirmişdir.

Hurrilərin yazısı olmuş və zəmanəmizə onların mixi kitabələri gəlib çatmışdır. Bu materialları araşdırmış İ.M.Dyakonov hurri dilinin e.ə. I minilliyin əvvəllərində yaşamış alarodilərin (urartuluların – Q.Ə.) dili ilə, onların hər ikisinin də müasir Qafqaz dil ailəsinin Nax qrupu ilə qrammatik uyğunluğunu və qohumluğunu irəli sürmüşdür.




**Xəritə 1.** Qafqaz e.ə. III-II minilliklərdə.

**Kassi tayfaları.** Qədim qaynaqlarda e.ə. II minilliyin əvvəllərində Qafqazın cənub və cənub-şərq hüdudlarında **kassi** tayfalarının yaşaması bildirilir. Kassilərin ilkin vətəninin Xəzər dənizinin cənub-qərb sahilboyu bölgələri olduğu güman edilir. Kassilər e.ə. XVI əsrin əvvəllərində İkiçayarasını tutub orada 500 ilə qədər hökmranlıq etmişlər. Buradakı kassilər Babil mədəniyyəti və dilinin təsirinə düşmüş, tədricən yerli əhali ilə qaynayıb-qarışmışdılar. Qafqaz diyarında yaşamını davam etdirmiş kassi tayfaları isə Xəzər dənizinin qərb sahili boyunca şimala doğru yayılmaqda idilər.

Kassilər sonrakı yüzilliklərdə də Qafqazın ictimai-si-





yasi həyatında, etnik proseslərdə fəal iştirak etmişlər. Kassi adının kaspi şəklində sonrakı dövrdə Qafqazın Xəzərboyu bölgələrində (müasir Azərbaycan və Dağıstanda – Q.Ə.) geniş ərazidə yaşayan böyük tayfa birliyinin, həmçinin Qafqaz dağı, Kaspi dənizi adlarında saxlanması bu tayfaların e.ə. I minillikdə və sonrakı dövrlərdə Qafqaz tarixində önəmli rol oynadığını güman etməyə imkan verir.

Hazırki dövrdə tədqiqatlara cəlb edilən kassi sözləri və şəxs adları kassi dilinin Hind-Avropa dil ailəsi ilə, eləcə də hurri dili ilə (deməli, həm də Qafqaz dil ailəsi ilə – Q.Ə.) qohum olmadığını göstərir. Ona görə də, kassi (kaspi) tayfalarının Qafqazın qədim türk etnoslarından biri olması ehtimalını əsassız saymaq olmaz.

**Buntürklər.** Müasir Gürcüstanda Msxeti və Qori şəhərləri arasında Kaspi adlı qədim şəhər olması bu adı daşıyan etnosun Cənubi Qafqazın mərkəzi bölgələrinə də yayıldığını göstərir. "Moksevay Kartlisay"da Kaspi şəhərinin salınması haqqında aşağıdakı əfsanədən bəhs edilmişdir: "İsgəndər Lotun oğlanlarını qaçmağa məcbur edəndə və yarıqaranlıq ölkəyə sıxışdıranda, orada davakar ***buntürklər*** tayfası ilə üzləşdi. Buntürklər Kür çayının orta axarı boyunda 4 şəhərdə (Sarkine, Kaspi, Urbnisi, Ogzpaxe) və ətraf yerlərdə yaşayırdılar". Gürcüstan tarixinin qədim dövrünə aid sanballı tədqiqat əsəri həsr etmiş Q.A.Melikişvili də buntürklərin qədim gürcü tayfaları ilə qonşuluqda yaşadıqlarını qeyd etmişdir.

Qafqazın etnik siması haqqında məlumatlar e.ə. II minilliyin sonlarına doğru, xüsusən də e.ə. I minilliyin əvvəlində çoxalmağa başlayır. Bu, bilavasitə Qafqazın cənub-qərb hüdudları yaxınlığında Assuriya və Urartu dövlətlərinin yaranması və Qafqazın içərilərinə yürüşlər təşkil etmələri ilə əlaqədardır. Assuriya və Urartu qaynaqları bəhs olunan dövrdə Van gölü ətrafında **Uratru, alarodi** tayfalarının, Urmiya gölü ətrafında **lullubilərin, zamualıların, mannalıların,** Qara dənizin cənub-qərb sahilboyu bölgələrində **diauxi və**

gelx (kulx, kolx) tayfalarının, Göyçə gölü ətrafında azların, onlardan şimalda və qərbdə **saspirlərin** və gidər tayfaların yaşadıqlarını bildirirlər.

Qafqazın şimalında e.ə. III-II minilliklərdə baş vermiş etnik proseslər, yerli sakinlərin kimliyi haqqında qədim yazılı qaynaqların məlumatları hələlik elmə bəlli deyildir. Bununla belə, müasir dövrdə arxeologiya, antropologiya, etnologiya və linqvistika sahələrindəki araşdırmalara əsasən belə bir fikir irəli sürülmüşdür ki, bəhs olunan dövrdə Qafqazın şimal və şimal-şərq bölgələrinin əhalisinin əsas hissəsi qədim Qafqaz dillərinin Nax və ya Nax-Dağıstan qrupuna mənsub idi və Cənubi Qafqaz tayfaları ilə – Kür-Araz mədəniyyətinin yaradıcıları ilə sıx bağlı idi. Qafqazın şimal-qərbində isə qədim Qafqaz dillərinin qərb – Abxaz-adıq qrupuna mənsub tayfalar məskun idilər.

Tarixşünaslıqda XX əsrin 60-70-ci illərində Kür-Araz mədəniyyəti daşıyıcılarının Qafqazın cənubundan şimalına yayılaraq yerli etnoslarla qaynayıb-qarışması nəticəsində qədim Qafqaz dil ailəsinin şərq qrupuna aid tayfaların formalaşması, son dövrlərdə isə əksinə qədim Qafqaz dilinə mənsub əhalinin daha qədim çağlardan Şimali Qafqazda yaşamaları, e.ə. IV minillikdən etibarən isə bu kütlədən Nax qrupuna aid tayfaların ayrılması və bir qisminin Cənubi Qafqaza və Kiçik Asiyaya doğru yayılması mülahizələri irəli sürülmüşdür.

**Şimali Qafqazın qədim sakinləri.** Yazılı qaynaqlarda Şimali Qafqazın qədim sakinləri haqqında ilk xatırlatmalar ***kimmer (gimirri)*** tayfalarına aiddir. Assuriya və qədim yunan qaynaqları bu tayfalar haqqında qismən əfsanəvi, qismən də dəqiq və aydın məlumatlar vermişdir. Bu məlumatlara görə kimmerlər Şimali Qafqazın Qara dəniz sahili boyunun və onunla həmhüdud torpaqların köklü sakinləri olmuşlar. Sonralar şərqdən gəlmiş ***iskit*** tayfalarının bu bölgələrə axınları ilə əlaqədar kimmerlər cənuba doğru köç etməli





olmuşlar. E.ə. VIII əsrin 20-ci illərinə aid Assuriya və Urartu qaynaqları kimmerlər haqqında artıq Qafqazın cənub-qərb hüdudlarında, Kiçik Asiyada yaşayan tayfa kimi bəhs edirlər. Tədqiqatçıların çoxu kimmerlərin bu yeni ərazilərə ilk köçmələrinin e.ə. II minilliyin sonu – I minilliyin başlanğıcında baş verdiyini irəli sürmüşlər. E.ə. VII əsrin əvvəlində isə kimmer tayfalarının *Meot (Azov dənizi – Q.Ə.) – Kulxa yolu* ilə, yəni Qara dənizin Qafqaz sahili boyunca cənuba kütləvi surətdə köç etmələri baş vermişdir.




**Xəritə 2.** Qafqaz e.ə. I minilliyin ilk əsrlərində.

Kimmerlərin, eləcə də onların ardınca Cənubi Qafqaza və Ön Asiyaya böyük yürüş etmiş iskit tayfalarının kimliyi məsələsi haqqında tarixi ədəbiyyatda çoxlu, həm də bir-birini təkzib edən mülahizələr mövcuddur. Bu mülahizələr içərisində kimmer və iskit tayfalarının və ya ən azı bu ad altında qaynaqlarda adı çəkilən tayfaların bir qisminin türk olmaları daha əsaslı sayılmalıdır.

E.ə. I minilliyin əvvəlinə qədərki dövrdə Hind-Avropa dil ailəsinə aid tayfaların Qafqazda və onunla həmhüdud bölgələrdə yaşamaları haqqında yazılı qaynaqlarda heç bir məlumat yoxdur. Bir sıra tədqiqatçıların ciddi səy göstərmələrinə baxmayaraq, arxeoloji və digər sahələr üzrə araşdırmalar da bu tayfaların qeyd olunan dövrə kimi Qafqazla bağlılığı haqqında heç bir dəlil-sübut verməmişdir. İrandilli tayfaların ən qədim tarixinə dair araşdırmaların müəllifi E.A.Qrantovski belə hesab edir ki, bu tayfaların Qərbi İrana yayılması e.ə. IX-VIII əsrlərdə baş vermişdir. Qədim Qafqazın və Ön Asiyanın etnik-siyasi problemlərinə çoxsaylı əsərlər həsr etmiş İ.M.Dyakonov da hurri tayfalarını ari və ya Hind-İran tayfaları ilə bağlamaq cəhdlərinin (deməli, həm də bu tayfaların e.ə. II minilliyin sonunda Urmiya ətrafındakı bölgələrdə yaşaması iddialarının – Q.Ə.) doğru olmadığını bildirmişdir.

Solmaz xanım Qaşqay isə bu məsələ ilə bağlı mənbələri, xarici və sovet müəlliflərinin əsərlərini diqqətlə araşdıraraq irandilli tayfaların Cənubi Qafqazla həmhüdud ərazilərə daha sonra köç etməsi fikrini irəli sürmüşdür: «Yazılı mənbələrdə adı çəkilən irandilli tayfaların lokalizəsi və e.ə. IX-VIII əsrlərə aid mixi yazılı mənbələrdə qeyd edilən ... onomastik materialın təhlili göstərir ki, Urmiyayanı hövzədəki əyalətlər hələ irandilli əhali ilə məskunlaşmamışdı».

**Erməni tayfalarının Balkan yarımadasından Şərqə doğru köçü.** Erməni müəllifləri ən qədim erməni tayfalarının e.ə. II minilliyin ortalarında Balkan yarımadasında Frakiyada





Hind-Avropa dil ailəsinə mənsub digər etnoslarla birlikdə yaşadıqlarını qeyd etmişlər. "Dəniz xalqlarının" (Qədim Misir mənbələri kimmerləri bu xalqlardan biri sayır – Q.Ə.) e.ə. XIII-XII əsrlərdəki köçmələri zamanı ***frako-frigiya tayfaları*** Kiçik Asiyaya daxil oldu. Qədim erməni tayfaları da bu tayfalarla birlikdə Kiçik Asiyanın mərkəzinə, daha sonra isə onlardan ayrılaraq yarımadanın şərq hissəsinə hərəkət etdi. Assuriya mixi kitabələri e.ə. XII əsrdə ***muşku*** və ***urumi*** adlı erməni tayfalarının bu ərazidə het, hurri, luviya etnosları arasında yaşadıqlarını qeyd etmişlər. Assuriya hökmdarı I Tiqlatpalasara (e.ə.1115-1077) aid kitabədə urumeyləri, abeşlayları, Hett ölkəsinin dikbaş əhalisi ilə birlikdə tabe etməsini qeyd etmişdir. Bu kitabədə daha sonra Lulumeylər ölkəsinin bütün ərazilərinin Assuriyaya qatıldığı da əks olunmuşdur.

E.ə. I minilliyin ilk əsrlərində erməni tayfaları Kiçik Asiyanın şərqinə doğru köçməyi davam etdirmiş, Dəclə və Fərat çaylarının yuxarı axarları boyunda məskunlaşmış, daha sonra isə Van gölü hövzəsinə yayılmışlar. Miçiqan Universitetinin Erməni Araşdırmaları Proqramının yaradıcısı Ronald Suni "Erməni xalqı: qədim dövrdən bu günə kimi" adlı əsərində yazmışdır ki, "***"Tarixi Ermənistan"*** adlanan ərazilərə ermənilər 2600 il əvvəl gəlmişlər. ***"Yeni gələnlər"*** həmin dövrdə burada daha öncədən yaşayan Urartu əhalisini məhv etmişlər". Amerikan müəllifi həmçinin Dağlıq Qarabağın qədim albanların tarixi torpağı olmasını, qədim albanların isə azərbaycanlıların – türklərin əcdadı olmalarını qeyd etmişdir.

Qafqazın ən qədim sakinləri haqqında bu bilgilər tam olmasa da, e.ə. III-II minilliklərdə baş vermiş etnik proseslər, Qafqazın qədim sivilizasiyasını yaradanların kimliyi haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Müxtəlif xarakterli mənbələrin məlumatlarından aydın olur ki, bu regionda ən qədim çağlardan qafqazdilli və türkdilli tayfalar yaxın qonşuluqda, bir-birlərilə sıx təmasda yaşayıb-yaratmışlar.

## Cənubi Qafqaz Assuriya və Urartu yürüşləri dövründə

**Uratru, Nairi dövlət qurumları.** Dəmirin kəşfi, daha təkmil alətlərdən istifadə olunması, əkin sahələrinin artması, süni suvarmanın geniş miqyas alması, yaylaq maldarlığının təsərrüfat həyatında mühüm yer tutması bütövlükdə Qafqaz regionunda məhsuldar qüvvələrin inkişafına, sinfi bərabərsizliyin dərinləşməsinə səbəb oldu. E.ə. II minilliyin sonunda Qafqazın cənubunda və cənub-qərb hüdudlarında yaşayan qədim tayfalar ictimai inkişafın daha yüksək mərhələsinə qədəm qoydular.

Qafqazın cənub-qərbində, Van gölü hövzəsində e.ə. XIII əsrdə ilkin dövlət qurumlarının yaranması haqda Assuriya qaynaqları məlumat verir. Assuriya hökmdarı I Salmanasarın (e.ə. 1280-1261) öz ölkəsindən şimalda yaşayan tayfa birlikləri üzərinə yürüş etməsinə həsr olunmuş mixi kitabədə Van gölü ətrafında və Qara dənizin cənub-şərq sahili boyunda mövcud olan siyasi birliklərdən bəhs olunmuşdur. Bu kitabədə I Salmanasarın Van gölü hövzəsində **Uratru** dövlət qurumunu tabe etməsi haqqında məlumat verilmişdir.

Assuriya qaynaqlarında sonrakı yüzillikdə həmin ərazidə **Nairi** dövlət qurumunun yaranması haqqında bilgi verilmişdir. Assuriya hökmdarı I Tiqlatpalasarın (e.ə. 1115-1077) Dəclə çayının mənbəyi yaxınlığında qaya üzərinə yazdırdığı kitabədə Nairi ölkəsinə bir neçə yürüş etməsindən bəhs olunmuşdur. Bu dövrdə Van və Urmiya gölləri arasındakı ərazidə yaşayan tayfalar Assuriya təcavüzünə qarşı birgə çıxış etməyə çalışırdılar. Lakin birləşmə prosesi hələ başlanğıc mərhələsində idi. Ona görə də, I Tiqlatpalasar bir yürüşündə 23, digər yürüşündə 60 Nairi hökmdarını tabe etdiyini təntənə ilə bildirirdi.

**Urartu dövlətinin yaranması.** E.ə. IX əsrin əvvəllərində isə Van ətrafı bölgədə **Urartu** dövləti yarandı. Bu dövlət





haqqında həm Assuriya-Babil, həm də Urartu kitabələrində məlumat verilmişdir. Urartu və urartulular adı Assur-Babil qaynaqlarında işlənmişdir. Yerli əhali isə öz ölkəsini **Biaynili**, özlərini ***alarodilər*** adlandırırdı. Görkəmli qafqazşünas İ.M.Dyakonov Ön Asiyanın qədim xalqlarının dillərinə həsr etdiyi monoqrafiyasında alarodilərin dilinin Qafqaz dil ailəsinin Nax qrupuna yaxın olduğunu bildirmişdir.

Urartunun ilk hökmdarı Aramu (e.ə. 860-846) Van gölü ətrafında yaşayan tayfaları, o cümlədən Van gölündən cənub-qərbdə yaşayan hurri (xurrit) tayafalarını özünə tabe etmiş, güclü dövlət yaratmışdı. Paytaxtı Van gölü sahilində Tuşpa şəhəri idi. Urartu hökmdarları uzun müddət Assuriya ilə uğurla rəqabət aparmış, həmçinin Manna üzərinə və şimal-şərq istiqamətində (müasir Ermənistana doğru) hücumlar təşkil etmişdilər. Urartu hökmdarı Argişti (e.ə. 786-764) **e.ə. 782-ci ildə** Arazdan şimala hücum edərək ***Azlar ölkəsində*** möhkəmlənmiş, orada ***İrpuni*** qalasını inşa etdirmişdi. Bu haqda hökmdar fərmanında qeyd olunmuşdu ki, İrpuni qalası "Biaynili ölkəsinin qüdrətini nümayiş etdirmək və yad ölkəni ram etmək üçün" salınmışdır. Bu qalaya az sonra Fərat çayı boyunda yeni tabe edilmiş Xate, Supani ölkələrindən 6 mindən çox döyüşçü yerləşdirilmişdi. Van qayasının qərb tərəfində Argiştiyə aid kitabədə onun Urmani ölkəsini zəbt etməsi haqqında məlumat aşkar edilmişdir.

E.ə. 777-ci ildə isə Urartu qoşunları Göyçə gölünə kimi irəliləmiş, bu bölgədə yerləşən ***Etiuni ölkəsini*** tabe etmişdi. Urartu hökmdarı I Rusa (e.ə. 730-714) yenidən bu istiqamətdə hücum edərək 23 hökmdarı əsir almış, bu yerlərdə möhkəmlənmək üçün 2 yeni qala saldırmışdı. Bu haqda Göyçə gölünün cənub-qərb sahilində aşkar edilmiş Urartu kitabəsində məlumat verilmişdir. Kitabədə inşa edilən qalalara Urartu ilahiləri Teyşeba və Haldinin adı verildiyi qeyd olunmuşdur. Arxeoloji qazıntılar nəticəsində Zəngi çayı sahilində, İrəvan şəhəri yaxınlığında Qırmızı təpədə Teyşebai-

ni qalasının qalıqları aşkar edilmişdir. Bu qala Urartunun şimal-şərq istiqamətində ən ucqar qalası və onun Qafqazın bu hissəsində tutduğu torpaqların inzibati mərkəzi idi.

Urartu hökmdarı I Rusa Urmiya ətrafına də hücumlar etmiş, Manna vilayətlərini ələ keçirməyə cəhd göstərmişdi. O, **e.ə. 716-cı ildə** Mannanın ***Uişdiş*** vilayətinin hakimi Baqdattini və ***Zikertu*** vilayətinin hakimi Metattini öz tərəfinə çəkmiş, Manna hökmdarı Azanı onların əli ilə məhv etmiş, taxta Azanın qardaşı **Ullusununu** əyləşdirmiş və onun 22 qalasını zəbt etmişdi. Lakin Assuriya hökmdarı II Sarqon (e.ə. 721-705) bunun qarşısını almış, e.ə. 715-ci ildə yürüş edərək Urartunun 9 şəhərini ətrafındakı yaşayış məskənləri ilə birlikdə ələ keçirmiş, Mannanın 22 qalasını da geri almışdı. Bu yürüş zamanı Zikirtunun mərkəzi şəhəri Parda da ələ keçirilmişdi.

Bu hadisələrdən bir il sonra kimmerlər Urartuya hücum etmişdilər. Assuriya kitabəsində urartuluların bu yürüşdən bərk qorxuya düşmələri əks olunmuşdur. Bu dövrə aid digər Assuriya mənbəsində mannalıların Urartunun Van gölü ətrafında yerləşən ***Musasir*** və ***Karsipar*** vilayətlərinə hücum etmələri haqqında məlumat verilmişdir. E.ə. VI əsrin başlanğıcında Urartunun əsarət altına aldığı yerli tayfaların və iskitlərin birləşmiş qüvvələri bu dövlətə ağır zərbə vurdular. E.ə. 585-ci ildə isə Urartu ərazisi tamamilə Midiyaya qatıldı.

E.ə. I minilliyin ilk əsrlərində Qafqazın cənub hüdudlarında, Urartu ölkəsində alarodilərlə yanaşı, ***hurri*** tayfaları da yaşamaqda idilər. Qaynaqlarda erməni tayfalarının bu regiona köç etmələrinin daha sonrakı dövrlərdə baş verdiyi qeyd edilmişdir. Maraqlıdır ki, müasir dövrdə erməni tarixçilərinin də əksəriyyəti erməni tayfalarının Ermənistan hüdudlarına gəlməsinin Urartu hökmdarlarının dövründə baş verməsini qəbul edir, bu zaman əsas dəlil kimi İrpuni qalasında yerləşdirilən döyüşçülərin bir qisminin erməni olması fikrini irəli sürürlər. Lakin bu döyüşçülərin etnik mənsubiyyəti ilə əlaqədar mənbələrdə hər hansı bir məlumatın ol-





maması, bu iddianı ciddi qəbul etməyə imkan vermir.

**Manna dövlətinin Assuriya və Urartu hücumlarına qarşı mübarizəsi.** E.ə. IX əsrin ortalarında Qafqazın cənub hüdudlarında, Urmiya ətrafı bölgədə **Manna** dövləti yaranmışdı. E.ə. IX-VII əsrlərə aid Assuriya və Urartu mixi yazılarında Manna hökmdarları, vilayətləri, sakinləri və onların məşğuliyyətləri haqqında qiymətli məlumatlar vardır. E.ə. IX əsrin əvvəlinə aid Assuriya kitabəsində hökmdar II Aşşurnasirapalın (e.ə. 884-859) Lullu ölkəsinə, Gilzana, Zamuaya yürüş etməsindən bəhs olunmuşdur. Bu yürüş zamanı ***Zamua*** ölkəsinin mərkəzi şəhəri ***Zamri***, həmçinin möhkəmləndirilmiş şəhərləri Arazitku, Suriti və daha 150 yaşayış məskəni ələ keçirilmiş, Zamua hökmdarı Ameka xərac: qızıl, gümüş, mis, at, yun paltar, kətan, at və şərab verməyə məcbur edilmişdi.

E.ə. IX əsrin ortalarında isə Zamua ölkəsinin yerində Manna dövləti yaranmışdı. Kalxudan (müasir İraqda Nimrud şəhəri) aşkar edilmiş daş kitabədə Assuriya hökmdarı III Salmanasarın (e.ə. 858-824) hakimiyyətinin 16-cı ilində Manna ölkəsini zəbt etməsindən, 24-cü ilində Manna hökmdarı Udakinin baş şəhəri Zirtanı (İzirtunu) ələ keçirməsindən bəhs olunmuşdur. İzirtu şəhərinin xarabalıqları Azərbaycanın cənubunda Saqqız şəhərindən 40 km şərqdə Qaplantu adlı təpədə aşkar edilmişdir.

E.ə. IX əsrin sonunda digər Urartu şahı İşpuini Urmiya gölü hövzəsinə hücum etmiş, Mannanın bir sıra vilayətlərini tutmuşdu. E.ə. IX əsrin sonu – VIII əsrin əvvəllərində Urmiya gölü hövzəsində Manna dövləti güclənmiş, Assuriya və Urartu hücumlarına qarşı uğurla mübarizə aparmışdı. Hətta e.ə. 776-cı ildə mannalılar Urartu ərazisinə hücum etmiş və xeyli ərazini ələ keçirmişdilər. I Argişti bu ərazini çətinliklə geri aldığını öz kitabəsində təntənəli şəkildə bildirmişdi.

E.ə. VII əsrin 70-ci illərində isə Manna iskitlərin yardımı ilə Assuriyanı məğlub etmiş və bir neçə qalasını tutmuşdu. Assuriya bunun əvəzini yalnız e.ə. 660-cı ildə çıxa bilmişdi.

**Kulxa.** E.ə. II minilliyin sonunda Qafqazın Qara dənizin cənub-şərq sahili boyunda Assuriya mənbələrinə görə ***gelx (kolx)*** tayfaları yaşayırlar. I Tiqlatpalasara (e.ə. 1115-1075) aid kitabədə onun **Gelxlər ölkəsinə – Kulxaya** hücum etməsi və oranın 60 hökmdarını özünə tabe etməsi haqqında bilgi verir. Bu isə o demək idi ki, bəhs olunan dövrdə gelxlərin vahid dövləti hələ yaranma mərhələsində idi. Gürcü tədqiqatçılarının fikrincə, sonralar gürcü xalqının formalaşmasında iştirak etmiş ***kartli, svan, meqrel tayfaları*** da bu dövlət qurumuna daxil idilər.

"Prometey" və "Arqonavtlar" adlı qədim yunan əsatirlərində də e.ə. II minilliyin sonu – I minilliyin əvvəlində Qafqazın Qara dəniz sahillərində Kolxida ölkəsinin olması, yunanlarla əlaqələri haqqında məlumatlar vardır.

Dəmir alətlərdən istifadə e.ə. I minilliyin əvvəllərində həmin bölgələrdə sinifli cəmiyyətlərin yaranmasını daha da sürətləndirmişdi. Urartu qaynaqlarına görə, bəhs olunan dövrdə Qara dəniz sahili bölgələrdə ***Diauxi, Kulxa dövlətləri*** mövcud idi. Urartu hökmdarı I Argişti e.ə. 785-ci ildə Diauxi ölkəsinə hücum etməsi, 105 qalanı, o cümlədən hökmdar şəhəri Zuanı ələ keçirməsi haqqında öz salnaməsində məlumat vermişdir. E.ə. VIII əsrin ortalarına aid Urartu mənbəsində hökmdar II Sardurinin Kulxa dövləti üzərinə yürüş etməsi və çoxsaylı qənimətlər ələ keçirməsindən bəhs olunmuşdur. Gürcü tədqiqatçısı Q.A.Melikşviliyə görə, Kulxa dövlət qurumu e.ə. I minilliyin əvvəlində yaranmışdı və antik Kolxidadan cənub-qərbdə yerləşirdi. E.ə. VII əsrin birinci yarısına aid Urartu kitabələrində Qara dənizin cənub-şərq sahili boyu bölgədə ***Xalitu*** dövlətindən də bəhs edilmişdir.

Qafqazın şimalında Qara dəniz sahili boyu bölgələrində isə e.ə. II minilliyin sonunda kimmer tayfaları yaşamaqda idilər. Bu tayfaların bir qismi e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Qafqazın cənubuna və Kiçik Asiyaya yürüşlər etmişdilər. Qafqazın cənubuna kimmer tayfalarının





kütləvi axını e.ə. VIII əsrin sonlarında baş vermişdi. Onlar ***Meot-Kulxa yolu ilə*** yürüş etmiş, **e.ə. 714-cü ildə** urartuları ağır məğlubiyyətə uğratmışdılar. Gürcü müəllifləri Kulxa dövlətinin süqutunun bu yürüş nəticəsində baş verdiyini qeyd etmişlər. Kimmerlərin yürüşü zamanı kulxalıların bir hissəsi çətin keçilən dağlıq ərazilərə sığınmış və dağ vadilərində qapanıb qalmışdılar. Qafqazşünaslar XIX əsrin sonuna qədər belə təcrid olunmuş vəziyyətdə qalmış svanları həmin kulxalıların varisləri hesab edirlər.

**Qədim cəmiyyətlərin ictimai quruluşu.** Urartu və Manna dövlətlərinin ictimai quruluşu, köləliyin səviyyəsi məsələləri uzun muddət mübahisələr doğurmuşdur. Bununla bərabər, Urartu mənbələrinin araşdırılması belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, bu ölkənin sakinlərinin əksəriyyəti azad və yarımazad icma üzvlərindən ibarət idilər. Yarımazad əhali hökmdar, məbəd və əyanların təsərrüfatlarında yaşayırdılar. Bu ölkədə quldarlığın da uklad səviyyəsində mövcud olması mənbələrdə izlənir. Urartuda hökmdarın çox güclü hərbi və inzibati hakimiyyəti mövcud idi. Həm Urartuda, həm də Mannada hökmdar hakimiyyətinin irsən atadan oğula keçməsi, hər iki ölkədə möhkəm qala divarları ilə əhatə olunmuş hökmdar şəhərinin və çoxlu sayda qala və şəhərlərin mövcudluğu dövlətçilik ənənələrinin kifayət qədər möhkəm olduğunu düşünməyə əsas verir.

## Kimmer, iskit və sak axınlarının Cənubi Qafqaz tarixində rolu

**Kimmer tayfaları.** Qafqaz xalqlarının qədim tarixində ***kimmer, iskit (skif) və sak tayfaları*** çox mühüm rol oynamışlar. Uzun müddətdir ki, tarixşünaslıqda bu tayfaların hər birinin etnik siması, Qafqazın və bütövlükdə Ön Asiyanın siyasi tarixində tutduğu yer, yaratdığı dövlət qurumları,

maddi mədəniyyət abidələri, o cümlədən məşhur iskit kurqanları bir çox tədqiqat və araşdırmaların mövzusu olmuşdur. Bu bölmədə tarixi qaynaqlar və həmin araşdırmalardakı faktlar əsasında Qafqazın qədim tarixində kimmer-iskit-sak yürüşlərinin rolu haqqında məlumat verilməsi qarşıya məqsəd qoyulmuşdur.




**Xəritə 3.** Qafqazın cənubuna
kimmer, iskit və sak tayfalarının yürüşləri.

Kimmerlər e.ə. II minilliyin sonu – I minilliyin əvvəlində Qara dənizin şimal sahilləri boyunda, Azov dənizi ətrafında və Şimal-qərbi Qafqazda yaşayırdılar. Onlar "Bib-





liya"nın "Xalqlar lövhəsi" adlı bölməsində qmr (qamer), Assuriya kitabələrində qimmer, gimmer kimi xatırlanmışlar. E.ə. VIII əsrdə kimmerlər hərbi cəhətdən kifayət qədər güclü siyasi birlik yaratmışdılar. Mənbələrdə bu dövrdə kimmerlərin Cənubi Qafqaza və Kiçik Asiyaya yürüşləri haqqında çeşidli faktlar vardır.



**Şəkil**. İskit atlı döyüşçüsü (e.ə. VII əsr).

Kimmerlərin yürüşləri haqqında nisbətən dolğun məlumatı qədim yunan tarixçisi Herodot vermişdir. Onun yazdığına görə, Mərkəzi Asiyadan Qara dənizin şimal sahillərinə doğru hücum edən iskitlərin təzyiqi ilə kimmerlər əsasən Qara dənizin Qafqaz sahili boyunca: Meot (Azov dənizi) – Kulxa (Qərbi Gürcüstan) yolu ilə Cənubi Qafqaza yürüş etmişdilər. Kimmerlər e.ə. VIII əsrin sonunda yolları üzərin-

dəki Kulxa dövlət qurumunu məhv etmiş, Urartu ilə toqquşmuşdular. Urartu qaynaqlarına görə, kimmerlər **e.ə. 714-cü ildə** Urartu hökmdarı I Rusanı məğlub edib Şərqi Anadoludan Cənubi Qafqaza doğru geniş əraziyə yayılmışdılar. Bu toqquşmadan sonra kimmerlər iki böyük dəstəyə bölünmüşdülər. Birinci dəstə Kiçik Asiyanın cənub-qərbinə doğru getmiş, Ön Asiyadakı siyasi proseslərə fəal surətdə qoşulmuşdu. İkinci dəstə isə Manna və Midiyaya doğru yönəlmiş, onlarla birlikdə Assuriyaya qarşı müharibələrdə iştirak etmişdi.

Mənbələrdə Cənubi Qafqazla bağlı kimmerlərin adı e.ə. VII əsrin ortalarında yenidən çəkilmişdir. Kimmer hökmdarı **Tuqdamme** həm də «sak və kutium şahı» kimi xatırlanmışdır. Onu e.ə. VII əsrin 40-cı illərində İskit hökmdarı **Madi** (Prototinin oğlu) məğlub edərək Kiçik Asiyada və bütövlükdə Ön Asiyada tam ixtiyar sahibinə çevrilmişdi.

**İskitlərin Qafqazın cənubuna yürüşü.** Herodotun məlumatına görə, iskitlər kimmerlərin ardınca Qafqazın cənubuna hərəkət etmişdilər. Həm də kimmerlər Qara dəniz sahili boyunca yürüş etdikləri halda, iskitlər daha uzaq yolla – Böyük Qafqaz dağlarını sağ tərəfdən dolanaraq Dərbənd keçidindən Muğana və Urmiyaətrafı bölgələrə daxil olmuşdular. Tədqiqatçıların əksəriyyəti iskitlərin Cənubi Qafqaza e.ə. VII əsrin 70-ci illərində yürüş etdiklərini qeyd etmişlər. Assuriya mixi yazılarında ***iskitlərin – işquzayların* e.ə. 674-cü ildə** «Mannalılar ölkəsinin əyalətində» gəlib məskunlaşdığı öz əksini tapmışdır. Kitabələrin birində Manna hökmdarı **Ahşerinin** iskitlərlə Assuriyaya qarşı ittifaqa girməsindən bəhs olunur. Bu zaman iskitlərə **İşpakay** başçılıq edirdi. Assuriya qaynaqlarında onun haqqında bir sərkərdə kimi bəhs edilmişdir. Lakin 2 il sonraya aid qaynaqda İskit (İşquza) ölkəsinin hökmdarı ilə danışıqlar aparıldığı bildirilmişdir. Assuriya hökmdarı Asarxaddon (e.ə. 680-669) iskitlərin mannalılarla ittifaqını poza bilmiş, İskit ölkəsinin hökmdarı





**Bartatua (Prototi)** ilə yaxınlaşmışdı. O, öz qızını iskit hökmdarına ərə verməklə iskitlərin bir hissəsini öz tərəfinə çəkmişdi.

**İskit şahlığı.** Bütün bunlar belə nəticəyə gəlməyə imkan verir ki, artıq e.ə. VII əsrin 70-ci illərində Cənubi Qafqazda ***İskit şahlığı*** və ya Kimmer-iskit-sak dövləti yaranmışdı. Rus sovet tədqiqatçısı İ.M.Dyakonova görə iskitlərin məskəni bu dövrdə Mannanın şimalı, Araz çayı boyu və oradan şimala doğru ərazi idi. Azərbaycanın qədim dövr tarixini araşdırmış İ.H.Əliyev də İskit şahlığının Manna-Mada (Midiya) torpaqları yaxınlığında, Kür çayı boyundan (Sakasena vilayəti) başlayaraq Arazdan cənuba – Şimali Mannaya qədər geniş ərazini əhatə etdiyini qeyd etmişdir. Arxeoloji qazıntılar zamanı bu bölgədən iskit tipli ox ucluqları və tunc güzgülər tapılması, Mingəçevirdən aşkar edilmiş üzük-möhürlərin birinin üzərində başında şiş papaq, əynində səciyyəvi sak geyimi olan təsviri də iskit və sakların Cənubi Qafqazın mərkəz hissəsində məskunlaşdıqlarını sübut edir.

Bu dövr mənbələrində adı çəkilən sak tayfaları Cənubi Qafqaza təxminən kimmer və iskitlərlə bir zamanda Xəzər dənizindən şərqdəki ərazilərdən yürüş etməyə başlamışdılar. Sakların Cənubi Qafqaza haradan gəlmələri barədə mütəxəssislərin fikirləri müxtəlifdir. Bu tayfaların Mərkəzi Asiyadan Şimali İran, Xəzər dənizinin cənub sahilləri boyunca Qafqaza yürüş etmələrini qeyd edənlərlə yanaşı, onların iskitlərlə birgə Şimali Qafqazdan cənuba hərəkət etdiklərini irəli sürənlər də vardır. Sonuncular Herodot və Strabonun "iranlılar iskitləri saka adlandırırlar" mülahizəsini əsas götürərək, bu tayfaların bir olmalarını, həmişə birlikdə hərəkət etmələrini iddia edirlər. Lakin prof. S.S.Əliyarova görə, iskitlərlə saklar əsasən ayrı-ayrılıqda fəaliyyət göstərmişlər. Sakların bir hissəsi e.ə. VII əsrin ortalarında Xəzər dənizinin cənubundan dolanaraq Cənubi Qafqaza köç etmişlər. Lakin sakların əsas hissəsini təşkil edən massagetlər iskitləri savaş-

la Mərkəzi Asiyadan qovulduqdan sonra, özləri də onların ardınca Xəzər dənizinin şimalından keçərək qərbə doğru irəliləmiş, Dərbənd keçidindən alban torpaqlarına daxil olub məskunlaşmış və Strabonun qeyd etdiyi kimi, tutduqları vilayətə "öz adlarına uyğun olaraq Sakasena adı qoymuşdular."

Kimmerlər, iskitlər və saklar e.ə. VII əsrin ortalarında təkcə Azərbaycan və Qafqazın deyil, həm də bütövlükdə Ön Asiya xalqlarının həyatına ciddi təsir göstərən nüfuzlu hərbi-siyasi qüvvəyə çevrilmişdilər. Qədim dünyanın ilk atlı döyüşçüləri olan kimmerlər və iskitlər müharibələr tarixində ilk dəfə olaraq, at qoşulmuş döyüş arabalarının əvəzinə, daha yüksək sürətə və manevr imkanına malik, hər cür şəraitdə döyüş aparmağa imkan verən atlı qoşun yaratmışdılar. Məhz çoxlu sayda atlı qoşunun köməyi ilə kimmerlər və iskitlər Assuriyaya fəal mübarizəyə başladılar. E.ə. VII əsrin 70-ci illərində onlar midiyalılar və mannalılarla ittifaqda böyük uğur qazandılar, Assuriyaya güclü zərbə vurdular. İskit və kimmer qoşunlarının fəal yardımı ilə **e.ə. 674-cü ildə** Manna Assuriya tabeliyindən azad oldu, ona xərac ödəməyi dayandırdı, hətta iskitlərin köməyi ilə bir neçə Assuriya qalasını ələ keçirdi. Elə bu zaman assuriyalılar Midiyadan da qovuldular.

Kiçik Asiyanın qərb hissəsində isə bəhs olunan dövrdə kimmerlərin təzyiqi güclənmişdi. Lidiya hökmdarı Gides kimmerlərin onun ölkəsinə hücumlarının qarşısını almaq üçün Assuriya hökmdarı Aşşurbanipaldan yardım istəmişdi. Assuriya mənbələrinə görə, Lidiya bu yardımı almış və e.ə. 661-ci ildə Kimmer ölkəsinə – *Gi-mir-ra-a-a-mu-dal-li-bi nise mat-su* (onun xalqını sıxışdıran kimmerlərin ölkəsinə) hücum edib başçısını əsir almışdı.

Başqa bir Assuriya mixi kitabəsinə görə, e.ə. 655-ci ildə kimmerlər Aşşurbanipalın icazəsi ilə Lidiya üzərinə yürüş etmişdilər. Bu yürüş zamanı onlar hökmdar Tuqdamme





(yunan variantı – Liqdamis) başçılığı altında böyük uğur qazanmışdılar: Lidiyanın paytaxtı Sard şəhərini ələ keçirib yandırmış, hökmdar Gidesi öldürmüşdülər.

E.ə. VII əsrin ortalarında İskit dövləti daha da gücləndi. Məhz bu zaman İskit hökmdarı Madi kimmerləri və midiyalıları özünə tabe etmiş, Fələstin və Suriyaya yürüş edərək, Herodotun qeyd etdiyi kimi «öz hökmdarlığını bütün Asiyaya yaymışdı». İskit şahlığının ən qüdrətli dövrü **e.ə. VII əsrin 50-20-ci illəri** idi. İskitlərin Midiyada və Ön Asiyanın digər ölkələrində 28 il hökmranlıq etməsi də bu zamana təsadüf edirdi.

E.ə. VII əsrin 20-ci illərində Midiya dövlətinin güclənməsi ilə vəziyyət dəyişmişdi. Midiya hökmdarı Kiaksar ölkə daxilindəki tayfaları öz ətrafında birləşdirmiş və hərbi islahat keçirərək güclü ordu yaratmışdı. O, daha sonra iskitlərdən asılılığa son qoymuş və Assuriyaya qarşı qabiliyyətli müharibəyə başlamışdı. Nəticədə, e.ə. VII əsrin sonu – VI əsrin əvvəlində Midiya Ön Asiyada qüdrətli dövlətə çevrilmişdi. Bunun məntiqi nəticəsi, Manna və Urartu ilə yanaşı, İskit şahlığının da Midiyaya tabe edilməsi olmuşdu.

Cənubi Qafqazdakı İskit şahlığının (ŞKNZ) adı tarixi mənbələrdə sonuncu dəfə **e.ə. 593-cü ildə**, o dövr hadisələri ilə bağlı «Tövrat»da, Urartu (RRT) və Manna (MNN) ilə birlikdə xatırlanmışdır. Bundan sonra iskitlərin bir hissəsi Şimali Qara dəniz sahili boyundakı torpaqlara qayıtmış, bir hissəsi isə Cənubi Qafqazda qalmağı üstün tutmuş, 70 ildən artıq mövcud olmuş İskit şahlığı ərazisində yaşamını davam etdirmişdi. Mənbələrdə Midiyanın iskitlərin təhriki **e.ə. 585-ci ildə** Kiçik Asiyanın qərbinə – Lidiya üzərinə yürüşə başlaması və bu yürüşdə iskit döyüşçülərin iştirak etməsi faktı bu tayfaların əhəmiyyətli bir hissəsinin Midiya tabeliyində qaldıqlarını təsdiqləyir. Antik müəlliflərin çoxu, o cümlədən Herodot, Ksenofont, Strabon və başqaları da sonrakı yüzilliklərdə iskit tayfalarının: saklar, sakasenlər, saqartilər adı

ilə Cənubi Qafqazda yaşamaqda davam etdiklərini qeyd etmişlər. Bu tayfalar digər yerli tayfalarla qaynayıb qarışaraq Azərbaycan türk xalqının təşəkkülündə mühüm rol oynamışlar.

İskitlər, kimmerlər və sak tayfaları xüsusən hərb sənəti sahəsində Ön Asiya xalqlarına, o cümlədən də Qafqazın yerli əhalisinə ciddi təsir göstərmişdilər. Yerli əhali onlardan ayrıca atlı qoşun yaratmağı, at üzərində çaparaq ox atmağı öyrənmişdilər. Həmin dövrdə həmçinin iskit tipli silahlar geniş yayılmağa başlamışdı.



**Şəkil.** Assuriya hökmdarı
Aşşurbanipal ovda (e.ə. VII əsr).

Bu tayfalar, xüsusən iskitlər e.ə. I minilliyin ortalarından etibarən Şimali Qafqazın yerli tayfalarının maddi və mənəvi mədəniyyətində də ciddi dəyişikliklərə səbəb olmuşdular. Bunu Şimali Qafqazdakı iskit kurqanlarında və digər abidələrdə aparılmış arxeoloji qazıntılar və *iskit (nart) eposları* əyani şəkildə sübut edir.





**Kimmer, iskit və sak (massaget) tayfalarının etnik mənsubiyyəti məsələsi.** Kimmer, iskit və sak (massaget) tayfalarının etnik mənsubiyyəti məsələsi uzun müddətdir ki, gərgin mübahisə obyektidir. Qədim dünya tarixində çox önəmli rol oynamış, hərb sənətində çevriliş etmiş, çox zəngin mədəni irs yaratmış bu tayfaları özününküləşdirmək cəhdləri, onsuz da mürəkkəb olan bu məsələdə daha çox dolaşıqlıqlar yaratmışdır. Avropa müəlliflərinin böyük bir qismi iskitləri irandilli tayfalar hesab etmişlər. Rus sovet tarixçisi B.A.Rıbakov isə Qara dənizin şimal sahilləri boyunda yaşayan əkinçi iskitləri protoslavyanlar kimi qələmə vermişdir. Böyük yunan tarixçisi Herodot isə 15 iskit tayfasının adını çəkərkən, onların yalnız 5-ni əsil iskit saymış, qalanlarının isə fərqli dilə, fərqli geyim və məişət xüsusiyyətlərinə malik olmalarını qeyd etmişdir. Herodota görə, ***aqrippa, iirk*** (Plininin əsərində tirk – Q.Ə.) ***və budin*** tayfalarının üzvləri iskitlərdən fərqli görünüşə malik idilər. Onlar digər iskitlərdən fərqli olaraq başıqırxıq, yastıburun və enliçənəli idilər. Bu tayfaların mənbələrdə qeyd edilən şəxs adları, məişətlərindəki özəlliklər: at südündən içki və yemək hazırlamaları, əti dəriyə doldurub ocaqda bişirmələri, başların şiş papaq qoymaları, bu tayfaların türk olmaları düşüncəsinin əsaslı olmasını sübut edir.

## Qədim erməni tayfalarının Qafqaz hüdudlarına köçməsi

**Erməni tayfalarının mənşəyi.** Qədim Erməni dövləti ilə bağlı iki min il ərzində o qədər çox yazılmış, ayrı-ayrı məsələlər o qədər çox təhriflərə və uydurmalara məruz qalmışdır ki, nəyin əfsanə, nəyin tarixi reallıq olduğunu ayırd etmək çox çətin bir hala gəlmişdir. Uzun əsrlər boyu erməni tarixçiləri iddia etmişlər ki, qədimdə dənizlərdən dənizlərə kimi geniş əraziyə malik "Böyük Ermənistan" dövləti olmuşdur.

Bizim günlərdə isə erməni siyasətçiləri buna əsaslanıb, istisnasız olaraq bütün qonşularına qarşı ərazi iddiaları ilə çıxış edirlər. Ona görə də, bu dövlətin tarixi, xüsusən də ərazisi və hüdudlari ilə bağlı obyektiv və qərəzsiz, gerçək faktlara əsaslanan tədqiqatlara böyük ehtiyac vardır.

Məlumdur ki, ölkələrin bəzilərinin adı orada yaşamış əsas etnosun adı ilə, digərləri isə onun yarandığı coğrafi və ya inzibati bölgənin adlanmasına uyğun şəkildə yaranmışdır. Ermənistan məfhumu da coğrafi məna daşıyan termin kimi yaranmış və uzun yüzilliklər ərzində Kiçik Asiyanın şimal-şərqindəki bölgənin adı kimi qəbul edilmişdir. Yalnız 1828-ci ildə Rusiyanın İrəvan və Naxçıvan xanlıqlarını ləğv edib, yerində Erməni vilayəti yaratmasından sonra Azərbaycanın əzəli qərb torpaqları Ermənistan (Armeniya) adlanmağa başlanmışdır. Bir məsələni də qeyd etmək lazımdır ki, erməni əhalisi öz ölkələrini Hayastan, özlərini hay (hayk) adlandırmışlar. Erməni (armeni) adı bu xalqa qonşuları tərəfindən verilmişdir. Erməni tarixçisi Movses Xorenatsi isə Armeniya (Ermənistan) adının formalaşmasının Urartu hökmdarı Aramunun adı ilə bağlı olması fikrini irəli sürmüşdür.

Əvvəlki bölmələrdə ermənilərin əcdadlarının da daxil olduğu tayfaların e.ə. II minilliyin ortalarında Balkan yarımadasında yaşamaları, **e.ə. XIII-XII əsrlərin qovuşuğunda** *frako-frigiya dil qrupuna* mənsub olan tayfalarla birlikdə ***protoermənilərin*** də Kiçik Asiyanın mərkəz hissəsinə köç etmələri haqqında bəhs edilmişdir. Erməni xalqının qədim əcdadları ilkin miqrasiya zamanı Frigiyada – Kiçik Asiyanın bu tarixi vilayətində məskunlaşmışdı.

Əslən Kiçik Asiyadan olan Herodot da ermənilərin qərbdən gəlməsini və frigiyalıların varisləri olmalarını bildirmişdir. Erməni tədqiqatçısı Q.A.Kapantsyan erməni xalqının etnogenezinə həsr etdiyi monoqrafiyasında yazmışdır ki, ermənilərin Balkanlardan miqrasiyasından sonra ilkin





məskəni – Hayasa Kiçik Asiyanın mərkəzində yerləşirdi. İ.M.Dyakonov da bunu nəzərdə tutaraq ermənilərin erkən tarixindən bəhs edən əsərində qeyd etmişdir ki, qədim erməni dili – qrabar frigiyalıların dilidir, ermənilər də frigiyalıların bir hissəsidir.

**Erməni tayfaları Assuriya və Urartu ağalığı dövründə.** E.ə. XII əsrin 60-cı illərində erməni tayfalarının ilk dəstələri *Fərat çayının yuxarı axarı boyuna* çatmış, sonrakı bir neçə yüz il ərzində yerlərini dəyişərək Şərqi Anadoluya, İkiçayarasının şimalına dogru irəliləmişlər. Assuriya qaynaqlarında yeni tabe edilmiş ***Şupriya ölkəsinin*** həm də ***Urume (Arme)*** adlandırılması, sakinlərinin isə ***urumeli*** və ***muşku*** kimi qeyd olunması da bu zamandan başlayır. **E.ə. 1115-ci ildə** Assuriya hökmdarı I Tiqlatpalasar bu əraziyə 50 il öncə gəlmiş muşku tayfalarının 20 min döyüşçüsünü və 5 hökmdarını məğlub etmişdi. Assuriyalılar bir il sonra isə yenə də həmin bölgədə urumelilərlə toqquşmuşdular. Bu dövrdən etibarən qeyd olunan regionda daha qədim çağlardan yaşayan *hett, hurru və luviya tayfalarının* yeni köçən etnoslara qaynayıb qarışması baş vermişdi. Nəticədə e.ə. I minilliyin əvvəllərində Kiçik Asiyanın bu bölgəsində urumelərin mövqeyi daha da möhkəmlənmişdi və bu dövrə aid Urartu kitabələri yalnız ***Urme ölkəsinin*** adını çəkmişdir.

Urartu hökmdarları Minua (e.ə. 810-786), I Argişti (e.ə. 786-764), II Sarduri (e.ə. 764-730) ***Urme (Urmani)*** ölkəsini fəth etmələri haqqında dəfələrlə təntənəli yazılarında məlumat vermişlər. Elə bu dövrdə də qədim erməni tayfalarının Urartu ərazilərinə, Van ətrafı bölgələrə doğru yayılması baş vermişdi. Urartu qaynaqlarına görə, bu yerdəyişmə prosesini hökmdarlar bilərəkdən, yeni tutulmuş ərazilərdə möhkəmlənmək, itaət altına alınmış əhalini parçalamaq məqsədi ilə həyata keçirirdilər. I Argiştinin 6600 döyüşçünü yeni inşa etdiyi İrpuni qalasında yerləşdirməsi, II Sardurinin Urme ölkəsindən 10 min əhalinin Van ətrafına köçürməsi

haqqındakı məlumatlar bunu təsdiq edir.

XX əsrin son onilliklərində həm ümumdünya tarixşünaslığında, həm də nüfuzlu erməni tədqiqatçılarının əsərlərində öz əksini tapmış bu tarixi gerçəkliyi, yəni ermənilərin əcdadlarının Van ətrafı bölgələrə e.ə. I minilliyin ortalarından etibarən köç etməsini inkar edən, ermənilərin regionun yerli sakinləri olmasını əsaslandırmağa xidmət edən əsərlər yazılması çoxalmışdır. Bir sıra erməni müəllifləri artıq e.ə. XIX-XVII əsrlərdə Van gölü hövzəsində Hayasa tayfalarının yaşadıqlarını və burada dünyanın ilk əlifbasını yaratdıqlarını iddia edirlər. Guya həmin əlifba e.ə. XVII əsrdə formalaşmış Metsomar-Hiksos əlifbası idi və bütün dünya xalqlarının əlifbaları onun əsasında yaranmışdır. Müasir dünya tarixşünaslığında heç bir əsası olmayan bu iddialar qəti şəkildə rədd edilmişdir.

Erməni xalqının ən qədim tarixinə xüsusi monoqrafiya həsr etmiş İ.M.Dyakonov isə müasir erməni tarixşünaslığında heç də birmənalı qəbul edilməyən *Melid* dövlət qurumunu qədim erməni siyasi birliyi kimi təqdim etmişdir. O, e.ə. IX-VIII əsrlərdə hökmranlıq etmiş bir neçə Melid hökmdarının (Lalla, Sulumel, Tuate, Xilarundas, Qunzinanu, Tarxunasis və b.) adlarını da qeyd etmişdir. İkiçayarasından şimalda, Van gölündən cənub-qərbdə yerləşən bu əyaləti artıq e.ə. VIII əsrdə Urartu özünə tabe etmişdi. Lakin İ.M.Dyakonova görə, Melid e.ə. VII əsrdə yenidən öz müstəqilliyini bərpa etmiş və müstəqil siyasət yeritməyə başlamışdı.

E.ə. VIII-VII əsrlərdə bu ərazilər uğrunda, ümumiyyətlə Yaxın Şərqdə hegemonluq uğrunda iki güclü dövlət: Assuriya və Urartu mübarizə aparırdı. Əgər rus müəllifinin iddia etdiyi kimi olsaydı, onda Melid hər iki imperiyaya qarşı dura biləcək böyük qüvvəyə malik olmalı idi. Belə olan halda, bu dövlət haqqında qədim Assuriya və Urartu mənbələri məlumat verərdi. Lakin həmin dövrə aid mixi kitabələrdə və digər qaynaqlarda belə bilgilərə rast gəlinmir.





**Qafqazın cənub-qərb hüdudlarına köçün başlanması. E.ə. VII-VI əsrlərdə** Qafqazın cənub-qərb hüdudlarına köçüb yerləşən erməni tayfaları regionun digər, daha əvvəldən həmin ərazilərdə yaşamaqda olan tayfalarından kəskin surətdə fərqlənirdilər. Herodot "Tarix" əsərində e.ə. V əsrin əvvəlində Yunanıstana yürüş edən İran qoşunu haqqında məlumatında erməni tayfalarından olan döyüşçülərin qafqazlılardan silahına, paltarına görə tamamilə fərqləndiklərini və Kiçik Asiyanın mərkəzində yaşayan frigiyalılarla birlikdə döyüşdüklərini qeyd etmişdir. Yunan tarixçisi bu dövrdə Van ətrafı bölgədə alarodilərin yaşamaqda olduqlarını və onların digər qafqazlılar: saspirlər, kolxlar kimi silahlandıqlarını vurğulamışdır.

## Qafqaz Midiya və İran ağalığı dövründə

**Midiya dövlətinin Cənubi Qafqazı tutması.** Midiyalılar (*madalar*) haqqında ilk məlumatlar e.ə. I minilliyin başlanğıcına aiddir. Assuriya hökmdarı III Salmanasar e.ə. IX əsrin 30-cu illərinə aid kitabəsində midiyalıların üzərinə hücum etməsi və onları xərac ödəməyə məcbur etməsindən bəhs etmişdir. Assuriya qaynaqlarına görə, Midiya ölkəsi Mannadan cənub-şərqdə yerləşirdi. E.ə. IX-VIII əsrlərdə Midiyada çoxlu sayda tayfa birlikləri mövcud idi. II Sarqonun Midiyada 45 hökmdardan xərac alması haqqında məlumatı burada hələ vahid dövlət yaranmadığını göstərirdi. Herodota görə, bu istiqamətdə ilk addım e.ə. VII əsrin başlanğıcında Midiya tayfa ittifaqlarından birinin başçısı olan Deyok tərəfindən atılmışdı. O, digər tayfaları da özünə tabe edərək böyük siyasi birliyin əsasını qoymuşdu. Onun varisi Kar-Kassi (Kassilər məskəni) qalasının hakimi ***Kaştariti* e.ə. 673-cü ildə** Assuriya ağalığına qarşı üsyan qaldırdı, iskitlərin və kimmerlərin köməyi ilə ölkəsini azad etdi. Bu zaman Mi-

diyanın paytaxtı Ekbatan şəhərinin əsası qoyuldu.

Midiya hökmdarı Kaştariti ilə iskitlərin arasında e.ə. VII əsrin 50-ci illərində toqquşma oldu. Vuruşma zamanı Kaştariti öldürüldü və ölkəsi iskitlərin tabeliyinə düşdü. Yalnız ***Kiaksar*** (e.ə. 625-585) taxta çıxdıqdan sonra Midiyada 28 il davam etmiş iskit ağalığına son qoyuldu. Kiaksar hərbi islahat keçirərək iskitlərin gəlişindən sonra qoşunun təşkilində yaranmış qarışıqlığa son qoydu: piyadaları atlılardan ayırdı, nizəçiləri və oxatanları da ayrı-ayrı dəstələrə böldü. Beləliklə, çoxsaylı və möhkəm intizamlı nizami ordu yaratdı.

E.ə. VII əsrin 20-ci illərində yetərincə güclənən Midiya Assuriyaya qarşı mübarizəyə başladı. Babil dövləti də şimal istiqamətində öz ərazisini genişləndirməyə cəhd edərkən Assuriya ilə toqquşmalı oldu. E.ə. 616-cı ildə Babil qoşunu Aşşur şəhərini ələ keçirib dağıtdı. Bu haqda məlumat verən "Gedd xronikası" assuriyalıların köməyinə gəlmiş Manna əyanlarının ələ keçirildiyini də qeyd etmişdir. Bu mənbə həmçinin Aşşurun ələ keçirilməsi zamanı Kiaksarın Babil hökmdarı Nabupalasar ilə görüşüb öz aralarında "dostluq və ittifaq bağladılar" - yazmışdır. Müttəfiqlərin e.ə. 612-ci ildə Nineviya üzərinə birgə hücumu nəticəsində, assuriyalıların "Aslanlar yuvası" kimi öydükləri paytaxt şəhəri acımasızcasına, əsasına kimi dağıdıldı.

Yüzillər boyu qonşu tayfaları və ölkələri rəhmsizcəsinə qarət edib diz çökdürən Assuriya e.ə. 605-ci ildə tamamilə fəth edildi, ərazisi qalib dövlətlər arasında bölüşdürüldü. Elə bu zaman Cənubi Qafqaz ölkələri: Manna, İskit şahlığı və Urartu Midiyanın tabeliyinə keçdi. Lakin ilk vaxtlar bu dövlətlər Midiyanın müttəfiqləri kimi çıxış edirdilər və öz idarəçiliklərini saxlamışdılar. Yalnız Lidiya ilə müharibə ərəfəsində – **e.ə. 590-cı ildə** bu dövlətlər qəti şəkildə Midiyaya birləşdirildilər və onların daxili müstəqilliklərinə son qoyuldu.

Kiçik Asiyanı bütünlüklə ələ keçirmək uğrunda Mi-





diyanın Lidiyaya qarşı başladığı müharibə e.ə. 585-ci ildə may ayının 28-də gündüz döyüş zamanı Günəşin tam tutulması ilə əlaqədar dayandırıldı. Tərəflər bunu pis əlamət sayıb döyüşə son verdilər. Bağlanan sülh müqaviləsinə görə, Halis (Qızıl İrmaq) çayı bu iki dövlət arasında sərhəd müəyyən edildi. Bununla Şərqi Anadolu, eləcə də Qara dənizin cənub-şərq sahili boyu bölgələri Midiyanın nəzarətinə keçdi.

**E.ə. VII əsrdə** bu bölgələrdə yeni müstəqil dövlət qurumu yaranmışdı. Gürcü tədqiqatçılarının Yeni Kolxida adlandırdıqları bu dövlət Qərbi Gürcüstanda, Qara dəniz sahili boyunda yaranan yunan koloniyaları ilə sıx əlaqə saxlayırdı.

**Qara dənizin Qafqaz sahillərində ilk yunan məskənləri.** Qara dənizin Qafqaz sahilləri boyunda ilk yunan məskənləri **e.ə. VII əsrdən** yaradılmağa başlanmışdı. İlk vaxtlar yunanlar yerli tayfaların məskənlərinin yanında öz kiçik ticarət məntəqələrini düzəldirdilər. E.ə. VI əsrdə Milet şəhərindən çıxmış yunanlar ***Fasis*** (indiki Poti) və ***Dioskuria*** (indiki Suxumi) koloniyalarının əsasını qoydular. E.ə. I minilliyin ortalarında Qara dənizin şərq və cənub-şərq sahillərində həmçinin ***Fanaqoriya, Qorqippiya, Kerasunt, Trabuzond*** və digər yunan şəhərləri yaradılmışdı.

Bu koloniyalarda yunanlar sənətkarlıq və ticarətlə məşğul olur, yerli əhalidən zorla qopardıqları torpaqlarda əkinçiliklə məşğul olurdular. Yunanlar həmçinin qul ticarəti ilə məşğul olur, ətraf yerlərdəki tayfalardan hərbi əsirləri satın alırdılar. Tədricən yunan koloniyalarında yerli tayfaların nümayəndələri də məskunlaşırdı və getdikcə bu əhalinin sayı artırdı. Digər yunan şəhərlərində olduğu kimi, bu koloniyalarda da qul əməyindən geniş miqyasda istifadə edilirdi.

E.ə. I minilliyin ortalarından etibarən yunanlar Fasisdən Rioni çayı ilə Qafqazın içərilərinə, hətta oradan Kür çayına keçərək Xəzər dənizinə, oradan da Mərkəzi Asiyaya və Hindistana ticarətə gedirdilər. Arxeoloji qazıntılar zamanı Qərbi Gürcüstan ərazisindən çoxlu sayda yunan gümüş

sikkələri tapılması bu ticarət əlaqələrinin geniş miqyas aldığını göstərirdi. Kolxidada yunanların təsiri ilə Qafqazda ilk dəfə e.ə. VI əsrdən yerli sikkələr – *kolxidkalar* zərb edilməsinə başlanmışdı. Rus sovet tədqiqatçısı A.İ.Boltunovanın araşdırmalarına görə, ilk zamanlarda kolxidkalar Qara dəniz sahili boyundakı yunan şəhərlərində kəsilir və Kolxidaya gətirilirdi.





**Şəkil.** Kolxidadan aşkar edilmiş antik dövrə aid qızıl bəzək əşyaları.





E.ə. VI əsrin əvvəlində Cənubi Qafqazın əhəmiyyətli bir hissəsi Midiyanın tabeliyində idi. Bu, İskit və Urartu dövlətlərinin tabe edilməsindən sonra baş vermişdi. Elə ona görə də, Herodot "Kolxidadan Madaya girmək çətin deyil"– deyə yazırdı. Yenə də həmin müəllif məlumat verir ki, iskitlər "Fasis (Rioni çayının – Q.Ə.) yaxınlığında Madaya soxulmaq" niyyətində idilər. Bu məlumatlara əsasən güman etmək olar ki, müasir Gürcüstan torpaqlarının şərq hissəsi Midiya imperiyasının tərkibinə daxil edilmişdi və ya onun himayəsi altında idi.

**Şərqi Gürcüstanın qədim sakinləri.** Antik mənbələrdə Şərqi Gürcüstanda yaşayan tayfalar ümumi bir adla – ***iberlər (kartlilər)*** qeyd olunmuşlar. Bu tayfalar haqqında yazılı qaynaqlardakı ilk məlumatlara görə, daha öncə onlar ***saspirlər (saspeyrlər)*** adlanırdılar və e.ə. VII əsrdə Çorox, Fərat və Araz çaylarının yuxarı axarı boyunda yaşayırdılar. Bu regiondakı əsas tunc emalı mərkəzlərinə sahib olan saspirlər tədricən qonşu tayfaları da öz təsirləri altına alırdılar. Onlar daha sonra şərqə doğru irəliləyərək ***mosx*** tayfalarının yaşadıqları torpaqlara köçüb, yerli tayfaları assimiliyasiyaya uğratdılar. E.ə. V-IV əsrlərdə iberlər şimal-şərq istiqamətində köçməyi davam etdirərək – Kür çayının orta axarları boyunda daimi məskunlaşmağa başladılar.

E.ə. I minilliyin ortalarında Şərqi Gürcüstanda çay vadilərində, düzənlik bölgələrdə əkinçilik məskənləri sürətlə inkişaf edərək böyüyür, dəmir emalı, müxtəlif sənət sahələri, mübadilə ticarəti daha geniş ərazilərə yayılırdı. Əhali taxılçılıqla yanaşı, geniş miqyasda bağçılıq və üzümçülüklə də məşğul olmağa başlayırdı. Kür boyunca keçən ticarət yolları üzərindəki yaşayış məntəqələrində sənətkar və tacirlərin məskunlaşması intensiv xarakter alır, onların şəhərlərə çevrilməsinə zəmin hazırlayırdı.

Həmin dövrdə Əhəməni imperiyasına tabe olan saspirlər, qədim qaynaqlardakı məlumatlara görə, Midiya sat-

raplığının təsiri altında idilər. Qədim gürcü dilində bir çox sosial terminlərin, hökmdar adlarının Midiya ilə bağlı olması da tarixi Gürcüstan-Midiya yaxınlığından xəbər verir.

**Cənubi Qafqazın İran (Əhəməni) imperiyasına tabe edilməsi.** E.ə. VI əsrin ortalarında Cənubi Qafqazın daha öncədən Midiyaya tabe olan bölgələri İran (Əhəməni) imperiyasına daxil edildi.

Qədim dünyanın ən nəhəng imperiyalarından birini yaratmış olan ***Əhəməni (Haxamanişilər) sülaləsi*** Ön və Mərkəzi Asiyada 200 ilə qədər ağalıq etmişdir. Bu imperiyanın şimal sərhədləri Böyük Qafqaz sıra dağlarına qədər uzanmış, Cənubi Qafqazda yaşayan tayfalar bu imperiyaya tabe edilmiş, xərac ödəməyə və ya hədiyyələr göndərməyə məcbur edilmişdilər.

Əhəməni imperiyasının banisi II ***Kir (Kuruş)*** e.ə. 553-cü ildə Midiya hökmdarı Astiaqa qarşı qiyam qaldırmışdı. Həmin vaxt Midiya əvvəlki qüdrətini itirmişdi. Astiaqın mərkəzi hakimiyyəti gücləndirməsindən narazı olan Midiya əyanları xəyanət edərək qiyamçı farslar tərəfə keçməyi üstün tutmuşdular. Astiaqın ordusu Şimali İkiçayarasında apardığı müharibələrdə çoxlu qüvvə itirmiş və zəifləmişdi. Midiya sərkərdələrinin də bir qismi həlledici anda öz hökmdarlarına xəyanət edib düşmən tərəfə keçdilər.

**E.ə. 550-ci ildə** baş verən həlledici döyüşdə II Kir Astiaqı məğlub edib əsir aldı, paytaxt Ekbatanı ələ keçirdi, Midiya hökmdarının sarayını qarət edib bütün sərvətlərini Parsaya – paytaxt şəhəri Perspola apardı. Bununla Midiya dövlətinin varlığına son qoyuldu və onun ərazisi, həmçinin Midiyaya tabe olan tayfaların ərazisi Əhəməni imperiyasına birləşdirildi.

Bu zaman Əhəməni imperiyasına Cənubi Qafqazın bəzi əraziləri, keçmiş Urartu, İskit və Manna dövlətlərinə daxil olan torpaqlar da qatıldı. Əvvəllər Midiya hökmdarına tabe olan tayfalar bundan sonra İran şahına bac-xərac ödəməli





oldular. II Kir itaət altına aldığı ölkələr və tayfalar üzərinə çox ağır vergi və mükəlləfiyyətlər qoymuşdu. Ən ağır mükəlləfiyyət isə daima müharibələr aparan İran şahının ordusunu canlı qüvvə ilə təmin etmək idi. Hər il minlərlə gənc zorla Əhəməni ordusunda xidmət etməyə aparılırdı.

Əhəməni dövləti ***fars dövləti*** idi və fars əyanlarının mənafeyini əks etdirirdi. Ən mühüm mülki və hərbi vəzifələrə fars əyanları təyin edilirdi. Astiaqa xəyanət edib II Kir tərəfə keçmiş Midiya əyanları çox tezliklə öz xəyanətlərinin acı bəhrəsini daddılar. Midiya əyanları çox qısa zaman ərzində hakim zümrə olmaq imtiyazlarından məhrum edildilər, farslar tərəfindən sıxışdırılıb arxa plana keçirildilər. Midiyalıların bir hissəsi qula çevrildi, qalan əhali üzərinə ağır vergi və mükəlləfiyyətlər qoyuldu.

II Kir Midiya dövlətini tabe etdikdən sonra Kiçik Asiyanın qərbinə yürüş edib Lidiya dövlətini əsarət altına aldı, Egey dənizi sahillərinə qədər irəlilədi. Daha sonra Babilistan şahlığının üzərinə hücum etdi, bütün Mesopotamiyanı özünə tabe etdi. Ardınca Suriya, Fələstin və Finikiya da ələ keçirildi. Bununla bütün Ön Asiya Əhəməni imperiyasına birləşdirilmiş oldu.

II Kir qədim dövrün çox görkəmli sərkərdələrindən biri, istedadlı dövlət başçısı idi. Onun yaratdığı və müxtəlif ölkə və tayfaların silah gücünə tabe edildiyi imperiyada nisbətən qısa bir müddət ərzində əmin-amanlıq təmin edildi, təsərrüfatın müxtəlif sahələrinin inkişafına şərait yaradıldı. İmperiyaya qatılan ölkələrdə yaşayan tayfalar arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinə, çeşidli mədəni əlaqələr qurulmasına başlandı.

Əhəməni imperiyası yaradıldığı vaxt Cənubi Qafqazın hansı hissələrinin bu dövlətə daxil edilməsi haqqında qədim qaynaqlarda dəqiq məlumat məlum deyildir. Yalnız "Nabonidin salnaməsi"ndə II Kirin Midiyaya təyin etdiyi satrap Oybar "Kutium" canişini adlanır. Tarixi Kuti ölkəsi isə Ur-

miya gölündən qərbdəki torpaqları əhatə edirdi. Eyni zamanda nəzərə almaq lazımdır ki, Midiya hökmdarı Kiaksar e.ə. 590-cı ildə Manna, İskit və Urartu dövlətlərini özünə tabe etmişdi. Bu ölkələrin ərazisi isə qədim qaynaqlara, eləcə də arxeoloji qazıntıların materiallarına görə Urmiya və Van gölləri hövzəsini və onlardan şimaldakı torpaqları əhatə edirdi. Yunan müəllifi Ksenofont məlumat verir ki, II Kirin dövründə Midiya, Kadusilər ölkəsi və erməni vilayətinə qədər ərazilər bir canişinliyə daxil idi.

Əhəməni hökmdarı II Kirin Araz çayından şimala – Cənubi Qafqazın içərilərinə doğru böyük hücumu **e.ə. 530-cu ildə** baş vermişdi. Herodot İran şahının Massagetlər ölkəsinə yürüş etməsindən bəhs edərək yazmışdır ki, "bu xalq (massagetlər – Q.Ə.) çoxsaylı və olduqca cəsur xalqdır, Araz çayının o tayında yaşayır." Başqa bir yerdə isə qeyd etmişdir ki, "Araz çayı matienlərin ölkəsindən axır". Tədqiqatçılar qədim qaynaqlara və arxeoloji materiallara əsaslanaraq matienlərin Urmiya gölündən qərbdə yaşadıqlarını irəli sürmüşlər. Pomponi Mela, Böyük Plini, Dion Kassi kimi antik müəlliflər isə Massagetlər ölkəsinin Dərbənd keçidindən cənubda yerləşdiyini qeyd etmişlər. Deməli, Massagetlər ölkəsi Cənubi Qafqazın şərq hissəsində mövcud idi və II Kir Araz çayından şimala yürüş edərkən məhz Alban torpaqlarını, Böyük Qafqaz sıra dağlarına qədərki ərazini fəth etməyə çalışırdı. Lakin İran şahının bu istəyi baş tutmadı. Massaget hökmdarı Tomrisin ordusu İran qoşunlarını darmadağın etdi. II Kir özü isə döyüşdə öldürüldü.

Əhəməni taxtına II Kirin oğlu II Kambiz (e.ə. 530-522) çıxdı. O, Misir dövlətini işğal etməyə daha çox əhəmiyyət verdiyindən, atasının qisasını almaqdan vaz keçdi. E.ə. 525-ci ildə Misiri işğal edib Əhəməni imperiyasına birləşdirdi. Lakin bu zaman imperiyanın mərkəzində ***Qaumatanın*** başçılığı ilə böyük üsyan baş vermişdi. Bisütun kitabəsinin Babil mətnində Qaumata "Madalı maq" kimi tədqim olunmuşdur. Bu isə aydın göstərir ki, Əhəməni ağalığına qarşı çıxanların əsas hissəsini öz keçmiş imtiyazlarını itirmiş, "ağa ikən köləyə çevrilmiş" midiyalılar təşkil etmişlər.





Qaumata Əhəməni imperiyasında əsarət altında yaşayan xalqların mənafeyini əks etdirərək hakim təbəqənin bir çox imtiyazlarını ləğv etmiş və ya əsaslı şəkildə məhdudlaşdırmışdı. Tabe edilən xalqlar və tayfalar üç il müddətinə bütün vergi və mükəlləfiyyətlərdən, o cümlədən də ən çox nifrət doğuran orduya əsgər vermək məcburiyyətindən azad edilmişdi.

Əhəməni sülaləsinin nümayəndəsi ***I Dara*** (e.ə. 522-486) bütün imperiyaya, o cümlədən Qafqaz hüdudlarına yayılmış bu üsyanı çətinliklə yatıra bildi. Qaumata öldürüldü, ardınca midiyalı üsyançıların başçısı Fravartiş və saqartalı üsyançıların başçısı Çissantaxma amansız işgəncələrlə məhv edildi. Bisütun kitabəsində I Daranın üsyan başçılarına verilən işgəncələrin təsvirini əks etdirilməsi, həmin üsyanların Əhəməni imperiyası üçün necə böyük təhlükə olmasını aydın göstərir.

I Dara üsyanları xüsusi bir sərtliklə yatırdıqdan sonra ayrı-ayrı vilayətlərin Əhəməni imperiyasından ayrılmaq cəhdlərinə son qoydu. Daxili siyasi vəziyyəti sabitləşdirdikdən dərhal sonra İran şahı geniş işğallara başladı. I Daranın ilk yürüşlərindən biri Cənubi Qafqazın içərilərinə doğru oldu. Araz çayından şimaldakı torpaqlar işğal edildi. İran qoşunlarının həmin yürüşü haqqında məlumat verən müəlliflər qeyd etmişlər ki, Əhəməni hökmdarı bu zaman ***"şişpapaq" sakların*** ciddi müqavimətinə rast gəlmiş, lakin qalib gəlməyi bacarmışdı. Herodot bu yürüşdən sonra Əhəməni imperiyasının şimal hüdudlarının Böyük Qafqaz sıra dağlarına qədər uzandığını qeyd etmişdir: "Hətta kolxlar və onların Qafqaz silsiləsinə qədərki qonşuları (İran dövləti bu dağlara qədər uzanır, Qafqazdan şimaldakı vilayətər iranlılara tabe deyillər) könüllü hədiyyələr verməyi öz üzərlərinə götürüblər".




**Xəritə 4.** Qafqaz e.ə. I minilliyin ortalarında.

Alban torpaqlarını və Böyük Qafqaz dağlarına qədərki ərazini işğal edən zaman İran şahı I Daranın "şişpapaqlı sakların" ciddi müqavimәti ilə üzləşməsi Bisütun kitabəsindəki yazılardan da bəlli olur. Həmin mənbədə göstərilir ki, İran hökmdarı saklar üzərinə yürüş etmiş, böyük ordusu ilə çayı keçib bu dikbaş tayfanı məğlub etməyi bacarmış, xeyli adamı əsir almışdı. I Dara təntənə ilə məlumat vermişdi ki, sakların başçısı Skunxanı devirib yerinə öz nümayəndəsini təyin etmişdir.

Qədim dünya tarixində baş verən hadisələr haqqında çox mötəbər bilgilər verən Herodotun məlumatına görə, I Dara





Əhəməni imperiyasını 20 satraplığa (canişinliyə) bölmüşdü. Cənubi Qafqaz əsasən X, XI, XIV, XVIII satraplıqların tərkibinə daxil edilmişdi.

Araz çayından cənubdakı torpaqlar, müasir Cənubi Azərbaycan ərazisinin böyük bir hissəisi *10-cu satraplığın* – Midiya satraplığının tərkibində idi. Bu satraplığın əsas əhalisi olan saqaratilər yaşayan ərazi I Daranın dövründə Midiya satraplığının tərkibindən çıxarılaraq Asaqarta adlı ayrıca bir əyalətə ayrılmışdı. Saqaratilər və Kür, Araz çaylarının aşağı axarı boyunda yaşayan uti və mük tayfaları *14-cü satraplığın* tərkibində idilər. Bu satraplıqda yaşayan tayafalar ildə çox böyük həcmdə – 600 talant xərac ödəməli idilər. Xəzər dənizinin cənub-qərb sahili boyunda yaşayan tayfalar, o cümlədən kaspilərin bir hissəsi *11-ci satraplığa* daxil edilmişdilər. Bu satraplıq Hindistanın daxil edildiyi 20-ci satraplıq qədər, yəni 450 talant xərac ödəyirdi. Bu da 11-ci satraplığa daxil edilən Qafqaz bölgələrində məhsuldar qüvvələrin qonşu regionlara nisbətən daha yüksək səviyyədə olmasını, əhalisinin çoxsaylı və zəngin yaşamalarını göstərirdi.

Yunan tarixçisi bəhs etdiyi dövrdə Van ətrafı bölgədə alarodilərin (urartulular) yaşamaqda olduqlarını, matienlər və saspirlərlə birlikdə *18-ci satraplıga* daxil olduqlarını qeyd etmişdir. Satraplığın əhalisi 200 talant ödəməyə məcbur idi.

Qafqazşünaslar saspirlərin e.ə. I minilliyin ortalarında Gürcüstanın cənub-şərqində, Kolxlar ölkəsi ilə Midiya arasında yaşadıqlarını, öncə Midiyaya, sonra da Əhəməni imperiyasına tabe olduqlarını bildirmişlər. Saspirlərdən şimalda, Böyük Qafqaz dağları ətəklərində yaşayan tayfalar isə nə İran şahlarına, nə də sonrakı dövrdə Makedoniyalı İsgəndərə tabe deyildilər. Mənbələrdə bu regionda, ümumiyyətlə, bəhs olunan dövrdə hər hansı bir dövlət olması haqqında heç bir məlumat yoxdur.

Midiyadan fərqli olaraq, Əhəməni şahları Qafqazın Qara dəniz sahilləri boyunu da böyük ölçüdə öz nəzarətləri

altına almışdılar. E.ə. VI əsrdə Qara dəniz sahili boyunda yaşayan gürcü tayfalarının əksəriyyəti Əhəməni imperiyasına tabe idilər və *19-cu satraplığa* daxil edilmişdilər. Lakin kolxlar onların içərisində yox idilər. Yunan tarixçisi Kolxlar ölkəsinin Əhəmənilər imperiyasına daxil olmadığını qeyd etmişdir. Onun məlumatına görə, kolxlar və onun qonşuları könüllü şəkildə İran şahlarına hədiyyələr göndərməyi öz üzərlərinə götürmüşdülər. Onlar İran şahına hər beş ildən bir 100 oğlan və 100 qız göndərməli və müharibələr zamanı hərbi dəstələr verməli idilər.

Herodotun məlumatına görə, Ermənistan, Paktika və Ponta qədər qonşu vilayətlər *13-cü satraplığa* daxil idi və 400 talant xərac ödəyirdi. Mütəxəssislərin qənaətinə görə, bu satraplıq Fərat çayının yuxarı axarı boyunu və sonralar Kiçik Ermənistan adlanan bölgələri əhatə edirdi. Bu isə o demək idi ki, e.ə. V əsrin ortalarında Ermənistan adlanan ərazi Qafqazın cənub-qərb hüdudlarından uzaq bir vilayəti bildirməkdə idi.

Bu vəziyyət e.ə. V əsrin sonu – IV əsrin əvvəllərində də qalmaqda idi. E.ə. V əsrin sonunda yunan muzdlu dəstəsi ilə erməni tayfalarının yaşadıqları torpaqlardan keçib Qara dəniz sahillərinə çıxan yunan müəllifi Ksenofont "Kiropediya" əsərində onlardan geniş bəhs etmişdir. Ksenofonta görə ermənilər Fərat çayının sol qolu olan Aratsani çayının aşağı axarı boyunda yaşayırdılar və onlarda icma qaydaları əsas yer tuturdu.

Əhəməni ağalığı dövründə erməni tayfalarının həyatında ciddi dəyişikliklər baş vermişdi. Yunan muzdlu döyüşçüləri ilə e.ə. V əsrin sonunda erməni tayfaları yaşayan bölgələrdən keçib gedən Ksenofontun yazdığına görə, Urartu ağalığı dövründə köçəri həyat sürən bu tayfalar artıq oturaq həyata keçmişdilər və əsas məşğuliyyətləri əkinçilik idi. Torpaq icmanın ümumi mülkiyyətində idi. Buğda və arpa becərilməsi mühüm yer tuturdu. Üzümçülük və şərabçılıq xeyli





inkişaf etmişdi.

Erməni tayfalarının ictimai həyatında kənd icması əsas yer tuturdu. İcma başçısı komarx adlanırdı. İcma ayrı-ayrı ailələrdən ibarət idi. Ailə başçısı, oğlanları və onların arvadları, nəvələri birlikdə, bir dam altında yaşayırdılar. Kənd icmalarının məskənləri torpaq sədlə əhatə olunurdu. Ksenofont erməni ölkəsinin başdan-başa belə kənd məskənlərindən ibarət olduğunu, heç bir şəhərlə rastlaşmadığını xüsusi qeyd etmişdir. Ölkənin iqtisadi həyatının əsasını natural təsərrüfat təşkil edirdi. Ticarət zəif inkişaf etmişdi və bütünlüklə babilli və arameyli tacirlərin əlində cəmləşmişdi. Ermənilər pulla və çəki, ölçü vahidləri ilə onların sayəsində tanış olmuşdular.

Erməni ölkəsində qədim tayfa quruluşu qaydaları qalmaqda idi. Bölgələrin sərhədləri ayrı-ayrı tayfaların yayıldıqları ərazilərin hüdudları ilə üst-üstə düşürdü. Bu bölgələri yerli tayfa ittifaqı başçıları idarə edirdilər. Əyanlara çevrilən bu başçılar tədricən icma torpaqlarının mühüm bir hissəsini zəbt edərək xüsusi mülkiyyətə çevirirdilər. Onlar öz təsərrüfatlarında qul əməyindən istifadə edir, icma üzvlərini ağır vergilər ödəməyə məcbur edirdilər. Bu vergilərin əsas hissəsi satrapların sərəncamına göndərilir, onlar da onu pula və ya metal külçələrinə dəyişdirtdirərək şah xəzinəsinə göndərirdilər.

Erməni tayfaları hələ Midiya hökmdarı Astiaqın dövründən asılı vəziyyətdə idilər. Daha sonra isə II Kirin yaratdığı Əhəməni dövlətinə tabe vəziyyətində qalmışdılar. Erməni tayfalarının da daxil edildiyi 13-cü satraplığı Əhəməni sülaləsi ilə qohum olan Orontlar idarə edirdilər. Erməni tarixçilərinin Orontları erməniləşdirib Ervandilər kimi təqdim etmələri mənbələr tərəfindən birmənalı təsdiqlənmir. Erməni tayfa əyanları vergi toplanmasında, yürüşlər zamanı silahlı dəstələr toplanmasında fəal iştirak edirdilər.

Yuxarıda haqqında bəhs olunan 10-cu satraplığa midiyalılarla bərabər "şişpapaq" saklar, sakasenlər, kadusilər

də daxil edilmişdilər və İran şahının əmrinə əsasən 450 talant həcmində xərac ödəməli idilər. Göründüyü kimi, 10-cu satraplıq da ödədiyi xəracın miqdarına görə önəmli yer tuturdu.

**Cənubi Qafqaz tayfalarının Əhəməni əsarətinə qarşı çıxışları.** Cənubi Qafqaz tayfaları, Əhəməni imperiyasına daxil olan digər əhali kimi bac-xərac ödəməklə yanaşı, həm də İran ordusu tərkibində hərbi yürüşlərdə iştirak etməyə məcbur edilirdilər. Ona görə də, Əhəməni zülmünə qarşı çıxışlar tez-tez baş verirdi. Satraplar da bu narazılıqlardan yararlanmağa çalışır, mərkəzi hakimiyyətə qarşı çıxırdılar.

Yunan-İran müharibələri zamanı Əhəməni hökmdarı Kserksin qoşununda Cənubi Qafqaz tayfaları da iştirak etməyə məcbur edilmişdilər. Utilərdən və müklərdən toplanmış döyüşçülər I Daranın oğlu Arsamın başçılıq etdiyi dəstənin tərkibində vuruşmuşdular. Kaspilər də bu yürüşdə atlı və piyada dəstələrlə iştirak etmişdilər. Alarodilər və saspirlər də Kserksin yürüşünün iştirakçısı olmuşdular.

Satrapların müstəqillik meylləri e.ə. IV əsrin ortalarında Əhəməni hökmdarı III Artakserksin dövründə (e.ə. 358-338-ci illər) daha da güclənmişdi. Bu zaman kifayət qədər müstəqil siyasət yeridən satraplardan biri də Midiya canişini Atropat idi. O, İran hökmdarının hakimiyyətinə qarşı kəskin çıxışlar edən kadusilər, sakasenləri, albanları öz müttəfiqinə çevirməyə nail olmuşdu. Ona görə də, antik müəlliflər bu tayfalar haqda bəhs edərkən, onları Əhəməni imperiyasının təbəələri kimi deyil, Atropatın yaxın müttəfiqləri kimi təqdim edirdilər.

Bütün bunlar belə nəticə çıxarmağa əsas verir ki, e.ə. I minilliyin ortalarından etibarən Cənubi Qafqazın əsas hissəsi Əhəməni imperiyasına daxil idi. Yerli tayfalar imperiyanın təbəələri kimi vergilər ödəyir, müxtəlif mükəlləfiyyətlər yerinə yetirirdilər. Yalnız Cənubi Qafqazın qərb hüdudlarında yaşayan tayfaların Əhəməni imperiyasından asılılığı nominal xarakter daşıyırdı. Mənbələrdə kolxların və onlarla qonşu olan tayfaların Əhəməni sarayına vaxtaşırı hədiyyələr göndərməklə kifayətləndikləri haqqında məlumatları da bunu təsdiq edir.





O zamanlar baş vermiş hadisələrdən bəhs edərkən, Qədim Şərqin, o cümlədən Qafqaz tayfalarının tarixində Əhəməni imperiyası dövrünün xüsusi əhəmiyyətini qeyd etmək lazımdır. Bu dövlət öz tərkibinə daxil olan xalqların sosial-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdır. İran şahları sarayların tikintisində, qala divarları, müdafiə sədləri inşasında imperiyanın demək olar ki, bütün xalqlarının nümayəndələrini işlədirdilər.

Əhəməni sülaləsinin hökmranlığı dövrü həmçinin intensiv proseslərlə – imperiyanın çoxsaylı tayfalarının etnik cəhətdən qaynayıb-qarışması, onların mədəniyyətlərinin və dini baxışlarının yaxınlaşması prosesləri ilə səciyyələnirdi. İran şahları əhalinin kütləvi sürətdə köçürülməsi üsuluna da geniş surətdə əl atırdılar. Onlar müxtəlif tayfaların nümayəndələrindən bir çox ölkələrdə hərbi koloniyalar yaradır, "parçala, hökmranlıq et" prinsipindən geniş istifadə edirdilər.

Canlı etnik, iqtisadi və mədəni əlaqələr, qaynayıb-qarışma və dini yaxınlaşma prosesləri elmi biliklərin sintezinə, incəsənət və memarlığın inkişafına, müxtəlif dini baxışların qovuşmasına, tədricən mahiyyətcə yeni maddi və mənəvi mədəniyyət yaranmasına səbəb olurdu. Əhəməni imperiyası dövründə qazanılmış nailiyyətlər sonralar da – Parfiya və Sasani dövründə Şərqin tarixində böyük rol oynamaqda davam edirdi. Əhəməni imperiyası ənənələri, mədəniyyəti və incəsənəti təkcə İranın öz yerli fars tayfaları tərəfindən yaradılmamışdı. Bu mədəniyyətin təşəkkülünə Cənubi Qafqazın, Mərkəzi Asiyanın, habelə onlardan şimaldakı ərazilərinin xalqları və tayfaları böyük rol oynamışdılar. Bu vilayətlərin qədim sakinləri Əhəməni dövlətinin, sonra da ellinizm dövrünün iqtisadi və mədəni həyatında da fəal iştirak etmişdilər.

## Makedoniyalı İsgəndərin Şərqə yürüşü və Qafqaz

**Şərqə böyük yürüşün başlanması.** E.ə. IV əsrin ortalarında Balkan yarımadasının şimalındakı Makedoniya dövləti sürətlə yüksəlməyə başlamışdı. Xeroneya yaxınlığındakı döyüşdən (e.ə. 338-ci il) sonra Makedoniya hökmdarı II Filipp bütün Yunanıstanı özünə tabe etmişdi. Bunun ardınca Makedoniya padşahı İranla müharibəni gerçəkləşmək niyyətində idi. Lakin Şərqə yürüş üçün qızğın hazırlıq görüldüyü bir vaxtda II Filipp öldürüldü.

II Filippin ölümü heç də Şərqə böyük yürüşə başlamaq ideyasının iflası demək deyildi. Müdrük dövlət xadimi və parlaq istedada malik sərkərdə olan gənc Makedoniya padşahı İsgəndər (Aleksandr) atasının işini böyük səylə davam etdirdi. İran müharibəsinə artıq başlanmış olan geniş hazırlıq görülməsi ləngidilmədən həyata keçirildi.

Əhəməni sülaləsinin şah ailəsi demək olar tamamilə tələf edildiyi üçün, e.ə. 336-cı ildə İran şahənşahının taxtında Əhəməni sülaləsinin yan şaxələrindən birinin nümayəndəsi olan Kodoman əyləşdirildi. III Dara adını qəbul edən bu şahın hökmranlığı tarixi (e.ə 336-330-cu illər) Makedoniyalı İsgəndərin yunan-makedoniyalı qoşunlarının zərbələri altında böyük İran dövlətinin məhv olması tarixi idi və bu sonuncu Əhəməni hökmdarı bunun qarşısını almaq iqtidarında deyildi.

Mənbələrin məlumatlarına görə, müharibə ərəfəsində İran imperiyasının sosial-iqtisadi vəziyyəti çox ağır idi. İranlılar zahirən zəhmli, cah-cəlallı görünsələr də, əslində tabe etdikləri xalqlar üzərində öz hakimiyyətlərini itirmişdilər. Xalq kütləri Əhəməni zülmünə qarşı yorulmadan mübarizə aparırdılar. İmperiyanın müxtəlif guşələrində üsyanların ardı-arası kəsilmirdi. Artıq İran şahının öz canişinlərinə gücü çatmırdı. Çəkişmələr, qəsdlər, saray fitnə-fəsadları mərkəzi hakimiyyəti kökündən sarsıtmışdı. Orduda da artıq iranlılara deyil, yadellilərə – İran dövlətinin daxildən zəif olduğunu artıq anlamaqda olan yunan muzdlularına bel bağlamaq lazım gəlirdi. Əhəməni dövlətinin süqutu labüd idi. Makedoniyalı İsgəndərin farslarla müharibəsi məhz belə bir şəraitdə, İran dövlətinin süquta uğramaqda olduğu bir zamanda başlandı.





Möhkəm nizami-intizamı olan yunan-Makedoniya ordusu e.ə. 334-cü ilin yazında Hellespont boğazındandan (indiki Dardaneldən) keçib Kiçik Asiyaya soxuldu. Bu yürüş gənc Makedoniya hökmdarının özünün sərkərdəlik bacarığını göstərməsi üçün əlverşli fürsət oldu. İsgəndərin Şərqə böyük yürüşə əvvəldən axıra kimi özünün başçılıq etməsi bununla bağlı idi. İsgəndər ordusunu 160 gəmidə Dardanel boğazından keçirib Kiçik Asiyaya çıxardı. Asiya sahilinə çatdıqda İsgəndər öz nizəsini İran tərəfə atmış, sonra da birinci olaraq quruya tullanmışdı. İsgəndər bununla silah gücünə ələ *keçiriləcək bütün torpaqların yalnız ona məxsus olduğunu* nümayiş etdirmək niyyətini nümayiş etdirmişdi.

İki düşmən arasında ilk döyüş e.ə. 334-cü ilin mayında Qranik çayının sahilində oldu. İsgəndərin ordusu 30-40 min piyada və 4-5 min atlı döyüşçüdən ibarət idi. Bu haqda mənbələrdə müxtəlif rəqəmlər göstərilsə də, bütövlükdə İsgəndərin ordusunun ümumi miqdarı 50 mindən çox göstərilmir. İran ordusu 60 minə çatırdı. Ordunun tərkibi haqqında bu məlumdur ki, ilk döyüşdə Kiçik Asiya satraplarının iranlı dəstələri və yunan muzdlu döyüşçüləri iştirak etmişlər. Onların dəstələrində Cənubi Qafqaz tayfalarından olan döyüşçülərin olması haqqında bilgi yoxdur. Çox güman ki, İran ordusu sıralarında yerli, satraplıqların əhatə etdiyi ərazilərin tayfalarından toplanmış əsgərlər döyüşmüşlər. Döyüşdən əvvəl yunan muzdlu dəstəsinin başçısı Memnon Kiçik Asiyada şəhərləri və digər kiçik yaşayış məntəqələrini məhv edib, su quyularını torpaqla doldurmağı və Kiçik Asiyanın içərilərinə çəkilməyi təklif etdi. Lakin Kiçik Asiya satrapları bu tək-

lifi qətiyyətlə rədd etdilər. Döyüşün gedişində iranlılar sarsıdıcı məğlubiyyətə uğradılar. Mənbələrin məlumatına görə, İran ordusu 10 mindən çox, İsgəndərin ordusu isə cəmisi 60 atlı, 30 piyada döyüşçü itirmişdi.

Qranik yaxınlığındakı döyüşdən sonra Makedoniya ordusu Kiçik Asiya sahilləri boyunca cənuba hərəkət etdi. İsgəndər bununla İran hərbi-dəniz donanmasını dayaq nöqtələrindən məhrum edib, onun Egey dənizində hərəkətini məhdudlaşdırdı. İsgəndər daha sonra Kiçik Asiyanın mərkəzinə hərəkət etdi. Burada yaşayan tayfalar Makedoniya ordusunu rəğbətlə qarşıladılar və İsgəndərin hakimiyyətini qəbul etdlər.

Qranik döyüşündə məğlubiyyətdən sonra III Dara İran ordusuna Memnonu baş komandan təyin etdi. Memnon döyüşü Balkan yarımadasında keçirmək və Makedoniiyaya hücum etmək əmrini verdi. Afina və Sparta onunla əlaqə yaradıb İran ordusu tərəfə keçməyə hazır olduqlarını bildirdilər. Memnon Kiçik Asiya sahillərindəki yunan şəhər-dövlətlərini yenidən İrana tabe etdi, lakin bu zaman yürüşlərin birində həlak oldu. Hərbi əməliyyatları Balkan yarımadasına keçirmək və İsgəndəri geri dönməyə vadar etmək planı pozuldu. III Dara özü İran ordusunun baş komandanı oldu. O, Makedoniya ordusunu Suriyanın girəcəyində qarşılamağa qərar verdi.

İsgəndər yaxşı başa düşürdü ki, Əhəməni imperiyasını ələ keçirməkdən ötrü imperiyanın içərilərinə hücum etmək lazımdır. Ona görə də, ordusu ilə Ankir (indiki Ankara şəhəri) istiqamətində irəlilədi. Oradan Kilikiya qapılarına doğru hərəkət etdi. Bu qapıları çoxlu sayda İran hərbi dəstəsi mühafizə etsə də, makedoniyalıların yaxınlaşmasını eşidən kimi mövqelərini tərk edib qaçdılar.

Kilikiya satrapı düşmənə qarşı yandırılmış torpaq taktikası tətbiq etməyə girişdi. Lakin bunu tamamilə həyata keçirməyə macal tapmadı. Əksinə bu cəhdi ilə yerli əhalini İsgəndərin təbii müttəfiqinə çevirdi. Klikiya İsgəndərin nə-





zarətinə keçdi. Bununla Kiçik Asiyanın əsas hissəsi Əhəməni imperiyasının əlindən çıxdı.

III Dara düşmənlə yeni döyüşə çox böyük sayda qoşun topladı. Antik müəlliflər, o cümlədən Arrian və Plutarx İran ordusunda 400 min piyada, 100 min atlı döyüşçü olduğunu yazmışlar. Lakin özləri də bu rəqəmlər haqqında "belə deyirlər" ifadəsi işlətməklə, inamsızlıqlarını bildirmişlər. Bununla belə, bu müəlliflər İran ordusunun sayını şişirtməklə azsaylı yunan–makedoniyalı döyüşçülərin qələbəsini daha parlaq göstərmək, oxucularını heyrətləndirmək istəmişlər. Əslində isə III Daranın İss döyüşü ərəfəsində 210 min piyada, 50 min atlı döyüşçüsü var idi. İran şahının bütün imperiyadan topladığı bu ordunun tərkibində Cənubi Qafqaz tayfalarından olan döyüşçülərin də vuruşması təbiidir. Lakin onların sayı və komandirləri haqqında mənbələrdə məlumat qalmamışdır.

III Daranın özünün başçılıq etdiyi İran orduları ilə İsgəndərin qoşunu arasında bu sayca ikinci böyük döyüş e.ə. 333-cü il noyabrın 12-də İss şəhəri rayonunda, dənizlə dağlar arasındakı ensiz vadidə (Şimali Suriya sərhədlərinə yaxın yerdə – Q.Ə.) baş verdi. Bu vuruşma yunan-makedoniyalı döyüşçülərin parlaq qələbəsi ilə nəticələndi. İran qoşunu darmadağın edildi. III Dara isə döyüş bitmədən hərb meydanından rüsvayçılıqla qaçdı. İsgəndər çoxlu sayda qənimət, zəngin sərvətlər ələ keçirdi. İran hökmdarının ordugahı tam şəkildə İsgəndərə çatdı. O, şahənşahın anasını, arvadını və iki qızını da burada əsir kimi götürüb özü ilə apardı.

İkinci döyüş nəticəsində bütün Kiçik Asiya İsgəndərin ixtiyarına keçdi. Bunun ardınca Finikiyanın və Fələstinin iri ticarət şəhərləri də, güclü müqavimət göstərmələrinə baxmayaraq, ələ keçirildi. İsgəndər öz düşmənlərinə qalib gəlib Misirə yiyələndi. Beləliklə, Makedoniya hökmdarı Aralıq dənizinin Şərq sahillərindəki limanların hamısını tutdu, farsların donanmasını bazalardan məhrum etdi, dənizdə hökmranlığı ələ keçirdi və öz gediş-gəliş yollarından təhlükəni dəf

etdi. Makedoniya ordusu öz sərkərdəsi ilə birlikdə e.ə. 332-ci ilin sonu – 331-ci ilin əvvəlini Misirdə keçirdi.

**Qavqamel döyüşünün Qafqaz üçün nəticələri.** E.ə. 331-ci ilin yazında İsgəndər yenidən Ön Asiyada göründü. Yunan-Makedoniya qoşunları Fərat və Dəclə çaylarını keçib Arbela yaxınlığında Qavqamel kəndinin ətrafında düşərgə saldılar. **E.ə. 331-ci il oktyabrın 1-də** ***Qavqameldə*** İsgəndərin və III Daranın qoşunları arasında qədim dövrün ən böyük vuruşmalarından biri, həm də makedoniyalı fatehin bütün vuruşmalarından ən çətini baş verdi.

İran ordusu belə düzülmüşdü: sol cinahda əsas zərbə qüvvəsi Baktriya atlıları idi; fars atlıları və piyadaları da bu cinahda döyüşürdü. Sol cinahın qarşısında iskit atlıları, 1000 baktriyalı atlı və 100 döyüş arabası yerləşdirildi. Sağ cinahda isə İkiçayarasından arameylər, albanlar, saklar, parfiyalılar və Şərqi İranın digər tayfalarından toplanmış döyüşçülər yerləşdirildi. Sağ cinahın ön cərgəsində isə III Daranın əmri ilə erməni və kappadokiyalı atlı döyüşçülər və 50 döyüş arabası düzüldü. Mərkəz hissədə şahın özünün başçılıq etdiyi şəxsi mühafizə dəstəsi, farslar, hindlilər, kariylilər, babillilər döyüşməli idi. Döyüş filləri, 50 döyüş arabası, yunanlardan toplanmış muzdlu döyüşçülər dəstəsi də burada saxlanmışdı.

Makedoniya ordusu İran qoşunlarına tam yaxınlaşdıqdan sonra İsgəndərin əmri ilə 4 gün yaxşı dincəldi. III Dara isə düşmənin gecə hücumlarından qorxduğu üçün ordunu bütün gecə boyu döyüş mövqeyində saxlamışdı. III Daranın orduları Qavqamel döyüşündə darmadağın edildi. Şah bir neçə satrapla və kiçik bir qoşun dəstəsi ilə Midiyanın paytaxtı Ekbatana qaçdı. Son dərəcə ağır tələfata baxmayaraq, III Dara hələ də qisas almaq ümidində idi və Midiyada qoşun toplamağa başlamışdı. Yunan-makedoniyalı döyüşçülər də bütün yürüş müddətində ən ağır tələfata məhz bu döyüşdə uğramışdılar.

Qədim yunan və Roma müəlliflərinin əsərlərindəki məlumatlardan görünür ki, Əhəməni imperiyasının taleyini həll edən bu məhşur döyüşdən öncə III Dara Atropatı atlı dəstə ilə Makedoniyalı İsgəndərin ordugahına kəşfiyyata göndərmişdi. Qavqamel döyüşünün gedişində isə Atropatın midiyalılardan ibarət dəstəsində kadusilər, albanlar və sakasenlər müttəfiq kimi döyüşmüşdülər. Atropatın dəstəsi İran ordusunun sağ cinahında, kadusilərdən ibarət digər dəstə isə sol cinahda igidliklə vuruşmuşdular. Erməni döyüşçülər isə iki satrapın: Oront (Ervand) və Mitravastın başçılığı altında vuruşmada iştirak etmişdilər.





Qavqamel döyüşündən sonra Əhəməni dövlətinin həyati əhəmiyyətə malik mərkəzlərinin hamısının yolu İsgəndərin üzünə açıldı. İsgəndər Babil və Suzu işğal etdi, sonra Parsaya soxuldu. Farsların iki paytaxtının ikisi də – Pasarqad da, Perspol da tutuldu. Makedoniyalı fateh burada xeyli sərvət – 120 min talant gümüş və qızıl, çoxlu qızıl və gümüş qab-qacaq, müxtəlif daş-qaş ələ keçirdi. Perspol şah sarayı yandırıldı.

Bu dövrdə Midiyada, xüsusən Cənubi Qafqazda, eləcə də Azərbaycanda vəziyyətin necə olduğu haqqında mənbələrdə kifayət qədər məlumat yoxdur. Yalnız o bəllidir ki, Atropatın başçılığı ilə midiyalılar Qavqamel vuruşmasında fəal iştirak etmişdilər. O da məlumdur ki, bu çarpışmada Arrianın qeyd edildiyi kimi, "kadusilər də, albanlar da, sakasenlər də midiyalılarla birləşdirilmişdilər".

Kadusilərin, albanların və sakasenlərin midiyalılarla birlikdə çıxış etmələri, habelə sonra baş verən hadisələr güman etməyə əsas verir ki, Əhəməni sülaləsinin hakimiyyətinin son dövründə Atropat 10-cu – Midiya satraplığına daxil olan vilayətlərlə (Böyük və ya Aşağı Midiyanın torpaqları və bəzi başqa rayonlar) bərabər, 11-ci və 14-cü satraplıqlara daxil olan Cənubi Qafqaz torpaqlarının xeyli hissəsini də müəyyən dərəcədə özünə tabe edə bilmişdi. Ona görə də, Qavqamel vuruşmasında kadusilər və albanlar midiyalılarla

"birləşdirilmişdilər". Sakasenlərə gəldikdə isə, onlar Midiyanın tərkibində daha əvvəldən daxil olmuşdular. Beləliklə, bütün Cənubi Azərbaycan ərazisi və Şimali Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsi Atropatın hakimiyyəti altında idi. Çox güman ki, Atropat Cənubi Qafqazın qərbinin bir hissəsinin də sahibi idi.

Antik müəlliflərin əsərlərində və digər qaynaqlarda Qavqamel vuruşmasından sonra Atropatla III Daranın qarşılıqlı münasibətlərinin necə olduğu haqqında məlumatlar yoxdur. Lakin güman etmək olar ki, onların arası dəyməmişdi. Çünki III Dara İsgəndərlə mübarizəni məhz Midiyada davam etdirmək ümidində idi. O, Midiyada yeni qoşun toplamağa çalışırdı və bu işdə müəyyən uğurlar da qazanmışdı. İran şahı kadusilərdən və iskitlərdən (sakasenlərdən) köməyi də Midiyada gözləyirdi.

Qavqamel vuruşmasından sonra ilk vaxtlar Atropat və onun müttəfiqləri III Daranın tərəfini saxlamaqda davam edirdilər. İlk vaxtlarda Atropat hətta İsgəndərlə mübarizəyə girişmək niyyətində imiş. Strabon buna işarə edərək yazmışdır ki, Atropat "bu ölkənin makedoniyalılara tabe olmasına yol vermədi".

**Atropatın Cənubi Qafqazda mövqeyinin güclənməsi.** Atropatın Makedoniyalı İsgəndərlə qarşılıqlı münasibətlərinin ilk dövrdə necə olması haqqında bilgilər yox dərəcəsindədir. Bununla belə, onların arasında münasibətlərin daha çox düşmənçilik xarakteri daşıdığını güman etməyə bəzi əsaslar vardır. Antik mənbələrə görə, Atropat İsgəndərin hüzuruna gəlib boyun əyməmişdi. Bunu İsgəndərin Atropat əleyhinə hərəkətləri də sübut edir. Makedoniya hökmdarı Midiyaya hücuma başlayıb Paretakenanı Midiya satraplığından ayırmağa qərar verdi. Ardınca da Midiyaya yeni satrap təyin etdi. Lakin bir qədər sonra vəziyyət dəyişdi. Aydınlaşdı ki, Atropatla ittifaqda olan kadusilər və iskitlər III Daranın tərəfini saxlamırlar və onun tərəfində döyüşmək





niyyətində deyillər. Atropat özü də şahənşahın tərəfini saxlamaqdan vaz keçdi. Ona görə də, III Dara tələsik Ekbatanı tərk edib monarxiyanın şərq əyalətlərinə qaçdı və tezliklə orada həlak oldu. Atropat isə İsgəndərin Midiyaya hücumu zamanı öz loyallığını əsaslı dəlillərlə sübut etdi: Ekbatana gətirilmiş İran xəzinəsini ona təhvil verdi. İsgəndər də Atropata qarşı öz siyasətini dəyişdirdi.

Beləliklə, Atropat çox tez bir zamanda makedoniyalılarla qarşılıqlı münasibətləri yoluna qoya bilmişdi. Ona görə də, İsgəndər onu e.ə. 328-ci ildə əvvəlki vəzifəsinə qaytardı. Lakin bu zaman Atropatın idarəsinə yalnız Kiçik Midiya və Cənubi Qafqazın qonşu bölgələri verildi, Böyük Midiya isə makedoniyalıların bilavasitə nəzarətində saxlanıldı.

Atropat çox istedadlı dövlət xadimi, bacarıqlı siyasətçi və mahir diplomat idi və İsgəndərlə hərbi mübarizənin faydasızlığını çox gözəl başa düşürdü. O, müdriklik göstərərək, yunan-makedoniyalılarla danışıqlar aparmaq, onlara yaxınlaşmaq, Şərqin yeni hökmdarının müxtəlif tədbirlərində iştirak etmək yolunu seçdi. Eyni zamanda istilaçıların Atropaten ərazisinə soxulmasına da "yol vermədi". Ona görə də, Azərbaycan və digər Cənubi Qafqaz torpaqlarının makedoniyalılar tərəfindən işğal edilməsi haqqında antik dövrün sonlarında irəli sürülən, hətta orta əsrlərdə də təkrar edilən fikirlərin heç bir gerçək əsası yoxdur. İsgəndər olsa-olsa Qafqazın cənub sərhədlərinə gəlib çatmış, lakin onun ərazisinə girməmişdi.

İsgəndər İran imperiyasının dağılmasından, III Daranın ölümündən sonra özünü Əhəmənilərin varisi, Asiyanın padşahı elan etdi. Bu, tarixin dönüş nöqtəsi idi. İsgəndərin qoyduğu yeni qaydalar, ellinizm dövrünün başlanması, İranın qüdrətli dövrünün sonu idi. Farsların özləri üçün bu dövr nəinki bir dünya dövləti kimi onların hakimiyyətinin axırı, həm də yadellilərin hökmranlığı dövrünün başlanğıcı oldu.

İsgəndərin təzə-təzə təşəkkül tapan, hələ işləri yoluna

qoyulmamış nəhəng dövlətində o zaman vəziyyət mürəkkəb və çox dəyişkən idi: özbaşınalıq və rüşvətxorluq hökm sürürdü, satraplar azğınlıq edir, dinc əhalinin açıq-açığına çapıb talayırdılar. Yeni padşah çox keçmədən Şərq yürüşünü davam etdirməsi ilə əlaqədar olaraq uzun müddətə Asiyanın dərinliklərinə getdi və beş ildən artıq imperiyanın mərkəzi vilayətlərində olmadı. Əhəmənilərin hökmranlığı dövründə və sonrakı qarışıqlıq illərində olduğu kimi, indi də Atropat fürsəti əldən vermədi. Şərqi İranın və Mərkəzi Asiyanın boyun əyməyən tayfalarına və xalqlarına qarşı makedoniyalı fatehin apardığı amansız müharibə illərindən o, öz xeyrinə, vətənin rifahı naminə istifadə etdi.

Makedoniyalı İsgəndər Hindistan yürüşündən qayıtdıqdan sonra özünün nəhəng imperiyasına Babil şəhərin paytaxt etdi. İsgəndərin imperiyasında Babil şəhəri paytaxt olmaqla yanaşı, o zamankı dünyanın ən böyük iqtisadi-ticarət mərkəzi rolunu qoruyub saxladı. İsgəndər İştar darvazaları yanındakı hökmdar sarayını özünə iqamətgah seçdi. Yerli əhalinin, xüsusən kahinlərin rəğbətini qazanmaq üçün Babilin baş allahı Mardukun şərəfinə qurbanlar verdi, İran şahı Kserskin əmri ilə dağıdılmış məbədləri təmir etdirməyə başladı.

Yeni yaranmış imperiya Əhəməni imperiyasından fərqli idarə olunurdu. Əvvəlki satraplıqlara bölgü əsasən saxlansa da, yeni imperiyada satrapın səlahiyyətləri çox məhdud idi. İsgəndər bir qayda olaraq satrap vəzifəsinə Şərq tayfalarının nümayəndələrini təyin edirdi. Lakin satrap onun yanında yaşayan makedoniyalı canişininə tabe idi. Məsələn, Əhəməni dövrünün Babil canişini Mazey, Midiya canişini Atropat vəzifələrində saxlanılmışdı. Ermənistan vilayətinə isə Əhəməni sərkərdəsi, vaxtilə Sarda şəhərini İsgəndərə təslim etmiş Mifren canişin təyin edilmişdi. Eyni zamanda hər satraplıqda Makedoniya qoşunu saxlanırdı və onlar İsgəndərin təyin etdiyi hərbi rəisə tabe sayılırdı. Bütövlükdə isə, İsgəndərin qısa ömürlü imperiyasının idarə sis-





temi haqqında məlumatlar o qədər də çox deyildir. Məsələn, antik müəlliflər Arrian və Diadora görə, Babil satraplığında vergi toplanmasını İsgəndər Makedoniya əsilzadələrindən olan Filonun oğluna həvalə etmişdi.

İsgəndər Əhəməni imperiyasına xidmət edib, sonra da ona tabe olmuş İran aristokratlarını vəzifədə saxlamaqla göstərmək istəyirdi ki, ona sədaqətlə xidmət edənlərə daha çox hakimiyyət, var-dövlət verməyə qadirdir. Həm də Şərq qaydalarını yaxşı bilən İran əsilzadələrinin idarəçilik təcrübəsi nəhəng imperiyanın idarə olunması üçün gərəkli idi. İsgəndər hər bir canişini şəxsən özü təyin edir və onların işinə zaman-zaman yaxından müdaxilə edirdi. Rüşvətxorluğun, əhalidən qanunsuz xərac toplanmasının qarşısını almağa çalışırdı. Makedoniyalı hökmdar vəzifəsinə layiq olmayan canişinləri bəd əməllərinə görə vəzifədən çıxardır, həddindən artıq özbaşınalıq edənləri isə hətta edam etdirirdi.

Makedoniyalı hökmdarın öz imperiyasında qayda yaratmaq cəhdləri Hindistandan qayıtdıqdan sonra daha da gücləndi. E.ə. 324-cü ildə İsgəndər Pasarqad şəhərinə çatdıqda satrapın özbaşınalığı və amansızlığı barədə çoxlu şikayət aldı. Mənbələrə görə, İsgəndər yürüşdə olduğu zaman bu mühüm əyalətin onun tərəfindən təyin edilən satrapı ölmüş və Əhəməni nəslindən olan Orksin özünü satrap elan etmiş, narazı fars əyanlarını isə məhv etmişdi. Orksin İsgəndəri təntənə ilə qarşılayıb, ona və dostlarına qiymətli hədiyyələr bağışlasa da, İsgəndərin icazəsi olmadan satraplığı ələ keçirdiyi və özünü dikbaş apardığı üçün edam edilmişdi.

Buraya İsgəndərin şəxsi mühafizəçisi Pevkest yeni satrap təyin edildi. O, dərhal İran paltarı geyindi, iranlı həyatı yaşamağa başladı, fars dilini öyrəndi. Lakin İsgəndərin xoşuna gələn bu hərəkəti digər makedoniyalılar təkrar etməyə tələsmirdilər. Onlar qalib gəldikləri farslardan özlərini çox üstün sayır və şərqli qaydalarına həqarətlə yanaşırdılar.

İsgəndərin belə ögey münasibətə son qoymaq üçün

Suzda yürüşün sona çatması münasibəti ilə böyük toy şənliyi təşkil etməsi bu baxımdan xarakterikdir. Onun əmri ilə 10 min makedoniyalı-yunan döyüşçüsü, o cümlədən 80 hərbi dəstə başçısı şərqli əyanların qızları ilə evləndilər. Bu toyda İsgəndər özü Baktriya satrapının qızı Roksana ilə, Selevk Soqdiya satrapının qızı Apama ilə, İsgəndərin şəxsi mühafizəçisi və ən yaxın dostuna çevrilmiş Perdikka isə Midiya satrapı Atropatın qızı ilə nikahlanmışdı. İsgəndərin digər yaxın silahdaşı Ptolemey Leq isə Baktriya canişini Artabazın qızı Artakema ilə evlənmişdi.

İsgəndər daha sonra həm III Daranın qızı Statira ilə, həm də III Artakserksin qızı Parisatada ilə evlənməklə, özünü iranlıların nəzərində Əhəmənilərin qanuni varisi kimi göstərməyə çalışırdı. İsgəndər bu addımları ilə, həmçinin yaxın ətrafını vaxtilə Əhəməni sarayında yüksək vəzifə tutmuş İran əsilzadələri ilə qohum etməklə ümid edirdi ki, yeni dövlətin möhkəmlənməsində bu qohumluq əlaqələri mühüm rol oynayacaqdır. 10 min makedoniyalı əsgərlə iranlı qadınların nikahından doğan övladlar isə özlərini həm makedoniyalı, həm də iranlı hesab edəcək və yeni imperiyanın sədaqətli təbəələri olacaqdılar.

E.ə. 324-cü ilin yayında Böyük Midiyada vəziyyət mürəkkəbləşdi – Bariaks adlı birisi makedoniyalı istilaçılara qarşı mübarizəyə qalxdı. O, Əhəmənilər dövlətini bərpa etməyə çalışırdı və özünü Parsa və Midiyanın padşahı elan etmişdi. İsgəndər Midiyaya yollandı, lakin daha öncə Atropat öz qüvvələri ilə Bariaksın üsyanını yatırdı, onu əsir tutub makedoniyalılara təslim etdi.

Daha sonra Atropat İsgəndəri öz satraplığının sərhəddində qarşılamaq məqsədilə Niseya çöllərinə gəldi. O, bir müddət İsgəndərin yanında oldu. Bir azdan İsgəndər öz qoşunu ilə Ekbatana gəlib keyfə qurşandı. O, teatrlara gedir, gimnastika və musiqi yarışlarına tamaşa edir, arada içki məclisləri qurdururdu. O zaman tez-tez düzəldilən şənliklə-





rin birində Atropat İsgəndəri əyləndirmək üçün özü ilə yüz nəfər atlı qadından ibarət bir dəstə gətirmişdi. Arrianın verdiyi məlumata görə, "güman edilirdi ki, bunlar amazon qadınlarıdır".

İsgəndərin öz ordusuna yerli tayfalardan toplanmış və Makedoniya ordusu nümunəsində təlim görmüş 30 min gənci daxil etməsi, ordu komandanlığına yerli əyanları təyin etməyə başlaması makedoniyalı əsgərlərin çox ciddi narazılığı ilə qarşılandı. Buna qarşı İsgəndər makedoniyalı əsgərlərə böyük məbləğdə pul bağışladı və vətənə qayıtmalarını əmr etdi. Lakin bu tələb daha böyük narazılıq doğurduğu üçün makedoniyalı geri çəkildi. Bununla bərabər, İsgəndər tez-tez narazılıq edən makedoniyalılardan ibarət hərbi hissələrin tərkibinə farsları, baktriyalıları, soqdiyalıları və çox güman ki, qafqazlı döyüşçüləri daxil etdi. Həmçinin e.ə. 323-cü ildə İsgəndər döyüşə yararlı olmayan 10 min makedoniyalı döyüşçünü vətəninə göndərdi.

İsgəndər Babildə olduğu zaman da boş dayanmır, yeni, böyük yürüşlərə hazırlıq görürdü. Mənbələrə görə, həmin yürüşlərin biri də Xəzərin şimal sahillərinə doğru olmalı idi. İsgəndər Xəzər dənizinin hər hansı başqa bir dənizlə əlaqəsinin olub-olmamasını dəqiqləşdirmək istəyirdi. Qafqaz istiqamətində nəzərdə tutulan bu yürüş İsgəndərin ölümündən xeyli sonra Patrokl tərəfindən e.ə. III əsrin əvvəlində reallaşdırıldı.

E.ə. 324-cü ilin sonunda Makedoniyalı İsgəndər kosseylərin (kassilərin) üzərinə yürüş etdi. Dağlıq ərazidə yaşayan bu tayfalar öz qarətçi basqınları ilə qonşularını tez-tez narahat edirdilər. İsgəndər bu sonuncu yürüşündə kosseyləri ağır məğlubiyyətə uğratdı və Babil şəhərinə qayıtdı.

İsgəndər Babildə olarkən Makedoniya canişini Antipatr oğlanlarını yeni toplanmış makedoniyalılardan ibarət ordu ilə birlikdə onun yanına göndərdi. Özü isə Makedoniyada qaldı. Qədim Makedoniya aristokratlarından olan Antipatr və oğlanları İsgəndərdən narazı idilər. Antipatrın oğlu

İolla kef məclisi təşkil edib İsgəndəri də dostları ilə birlikdə ora dəvət etdi. 3 gün davam edən kef məclisində İsgəndər ağır xəstələndi və 12-ci gün vəfat etdi.

İsgəndərin ölümü səbəbləri hələ qədim zamanlardan çoxlu mübahisələr doğurubdur. Onun xəstəlikdən ölməsi, yoxsa siyasi qəsdin qurbanı olması ehtimalı antik müəlliflərin əsərlərində birmənalı qeyd olunmamışdır. İsgəndərin ölümü haqqında rəsmi məlumat belə olmuşdur ki, o, Babil şəhərində olarkən Şərqdə geniş yayılmış malyariya (qızdırma) xəstəliyinə yoluxmuş və onun gərgin yürüşlərindən yorğun düşmüş orqanizmi bu xəstəliyə müqavimət göstərə bilməmişdir.

İsgəndərin ölümündən dərhal sonra yaratdığı nəhəng imperiya sərkərdələri arasında bölüşdürülməyə başlandı. Makedoniya canişini Antipatr və varisləri bütün Balkan yarımadasının tamhüquqlu sahibi oldular; digər sərkərdələrdən Ptolomey Misirin və Cənubi Suriyanın, Selevk isə Kiçik Asiyadan Hindistana qədər ərazinin hökmdarına çevrildilər. Cənubi Qafqazda da yarımmüstəqil və az sonra tam müstəqil olan dövlətlər yarandı.

### E.ə. IV əsrin sonu – III əsrin əvvəlində Cənubi Qafqazda müstəqil və yarımmüstəqil dövlətlərin yaranması

**E.ə. IV əsrin sonunda Cənubi Qafqazda ictimai-siyasi vəziyyət.** Antik qaynaqlarda Makedoniyalı İsgəndərin imperiyası dağıldığı vaxt Cənubi Qafqazda yaranmış dövlətlər sırasında ilk növbədə ***Midiya-Atropatena*** dövlətinin adı çəkilir. Bu dövlətin yaradıcısı Əhəməni dövründə və İsgəndərin sağlığında Midiya satrapı olmuş Atropat idi. Atropat həmin dövrdə Midiyadan əlavə, Asaqarta vilayətini, parikanilərin və ortakoribantilərin (iskit-sakesenlərin) torpaqlarını da idarə edirdi. Mərkəzi hakimiyyət üçün ağır olan illərdə Midiya satrapı olduqca müstəqil bir siyasət yeridirdi: 11-ci və 14-cü satraplıqlara daxil olan torpaqlarda yaşayan tayfalarla müəyyən müttəfiqlik münasibətləri yaratmışdı. Məhz buna görə də, kadusilər Qavqamel vuruşmasında İran dövlətinin təbəələri kimi yox, ancaq midiyalıların müttəfiqləri kimi çıxış etmişdilər. Albanlar və sakasenlər də bu zaman İran imperiyasının təbəələri deyil, Midiya satrapının müttəfiqləri idilər.





E.ə. IV əsrin 30-20-ci illərində Atropat və sonrakı dövrdə də onun varisi olan Atropatilər bu vilayətləri ənənəyə görə idarə edirdilər, çünki onlar əslində Midiya satraplığı hökmdarlarının siyasi varisləri idilər. Polibinin əsərində qeyd edilir ki, "Həmin padşahlıq (yəni Atropaten – Q.Ə.) hələ farsların zamanından mövcuddur". Polibinin əsərində belə bir fikir də öz əksini tapmışdır ki, Əhəmənilər dövlətinin zaiflədiyi dövrdə satrapların bir çoxu, o cümlədən də Atropat özlərini hökmdar kimi aparırdılar və təbəələri də onları rəsmən "şah" adlandırırdılar. Elə buna görə də, Polibi (və ya onun istifadə etdiyi qaynaqlar) həmin vilayəti hələ müstəqil dövlətə çevrilməmişdən əvvəl "padşahlıq" adlandırmışdır.

E.ə. IV əsrin 20-ci illəri gələcək Atropaten dövlətinin daxili yüksəliş və yetkinləşmə dövrü idi – qüvvə toplamaq, tədricən müstəqilliyin təməlini qoymaq dövrü idi. Atropat makedoniyalılara yaxınlaşmaq siyasətini davam etdirdi.

İsgəndərin vaxtsız vəfatından sonra, e.ə. 323-cü ildə onun satrap və sərkərdələrinin Babildə keçirilən müşavirəsində Atropat iştirak etməmişdi. Bu müşavirədə Atropatın kürəkəni Perdikka dövlətin başçısı seçildi. Bu dövrdə də Atropat özünü yeni hakimiyyətə sadiq olan bir satrap kimi aparmaqda davam edirdi. Sonrakı hadisələr də göstərdi ki, Atropat satrap hakimiyyətində saxlanmışdı.

**E.ə. 321-ci ildə** Perdikka həlak olduqdan sonra, İsgəndərin imperiyası yenidən bölüşdürüldü. Bu bölgü də Atropatın satraplığına şamil edilmədi. Bu zamandan Kiçik Midiya artıq müstəqil dövlətə çevrilmişdi. Atropat da e.ə. IV əsrin 20-ci illərinin sonunda bu yeni dövlətin müstəqil hökmdarı

oldu. Bu dövlət ilk vaxtlar Midiya, sonralar isə özünün ilk hökmdarının adı ilə antik qaynaqlarda Atropaten, Şərq qaynaqlarında isə Aturpatakan adlandırıldı.




**Xəritə 5.** Qafqaz e.ə. IV əsrin sonu – III əsrlərdə.

Beləliklə, Kiçik Midiya Makedoniya istilaçılardan siyasi asılılığa son qoyan ilk Şərq dövləti oldu. Qədim qaynaqlarda Atropatın hökmranlıq illərinin necə keçdiyi, onun daxili siyasətinin necə olduğu, xarici siyasi xəttinin istiqamətləri haqqında məlumatlar olduqca azdır. Hətta Atropatenin bu ilk hökmdarının nə vaxt vəfat etdiyi, taxt-tacı kimə miras qoyduğu da məlum deyildir. Lakin sonrakı onilliklərin və hətta yüzilliklərin hadisələri göstərir ki, Atropatın hökmranlıq etdiyi illər gənc dövlətin möhkəmləndiyi və qüvvətləndiyi bir dövr idi.





İsgəndərin sərkərdələrinin hakimiyyət uğrunda mübarizə apardıqları təlatümlü illlərdə və Selevkilərin hökmranlığı dövründə Atropat yeni yaradılmış dövlətin istiqlaliyyətini qoruyub saxlaya bildi. Lakin İsgəndərin ən qabiliyyətli sərkərdələrindən biri olan və e.ə. IV əsrin son onilliyində köhnə İran satraplıqlarının hamısına yiyələnən Selevkin "mərkəzləşdirmə" siyasətinə qarşı Atropatın özü, yaxud da ən yaxın varisləri inadlı mübarizə aparmalı olmuşdular.

E.ə. IV əsrin sonunda əlinin altında güclü qoşunu və hakimiyyəti altında ərazisi olan satraplardan hər biri öz torpaqlarını nəinki müdafiə etməyə, həm də mümkün qədər genişləndirməyə çalışırdı. Güclü satraplardan biri olan, qonşu satraplıqlar üzərində nəzarəti ələ keçirmək iddiasına düşən və bütün keçmiş İran üzərində hakimyyəti ələ keçirmək iddiasına düşən Böyük Midiya satrapı Pifonla istiqlaliyyətini qoruyan digər Şərqi İran satraplıqlarının koalisiyası arasında e.ə. 318-ci ildən qızğın mübarizə başlandı. Pifonun niyyəti baş tutmadı. O sıxışdırılıb Midiyaya qayıtmağa məcbur oldu.

**Selevkilər dövləti və Cənubi Qafqaz.** E.ə. IV əsrin sonunda Selevkilər dövlətinin yaradılmasının təməli qoyuldu. E.ə. 321-ci ildə oktyabr ayının ilk günlərində Selevkin Babilə gəlməsi ilə bütün Ön Asiyada yeni tarixi dövr – Selevkilər erası başlandı. Bütün Ön Asiyada, o cümlədən İran satraplıqlarında real hakimiyyət tədricən Selevkin əlinə keçdi.

Yeni Cənubi Qafqaz dövlətlərinin hökmdarları, çox güman ki, o cümlədən Atropat özü artıq e.ə. IV əsrin lap sonunda İran satraplıqlarına yiyələnmiş Selevkin (e.ə. 321-281-ci illər) qəsdlərindən ölkəni nə yolla olursa-olsun qorumaq məcburiyyətində qalmışdılar.

Atropatenin iqtisadi həyatına, siyasi və mədəniyyət tarixinə dair çox az yazılı mənbələr qalmışdır. Arxeoloji mate-

riallar da son dərəcə azdır. Lakin həm bilavasitə qaynaqlardan alınan dəlil-sübutlar, həm də dolayı məlumatlar əsasında qeyd etmək olar ki, Atropaten kənd təsərrüfatının, müxtəlif sənətlərin, ticarətin, şəhər həyatının çox inkişaf etdiyi, yüksək mədəniyyəti, əhalisinin ümumi dili və yazı ənənələri olan bir ölkə idi.

Cənubi Azərbaycan ərazisində müstəqil dövlət yaradılması qədim ənənələrə malik ölkədə təsərrüfat həyatının fəallaşmasına – məhsuldar qüvvələrin yüksəlməsinə, ticarətin və sənətlərin canlanmasına çox kömək etdi. Daha sonrakı məlumatlar göstərir ki, Atropatendə məbəd torpaq sahibliyi daha çox inkişaf etmişdi. Antik müəlliflərin məlumatına görə, ən münbit torpaqlar maqlara məxsus idi. Quldarlıq da inkişaf etmişdi.

**Albaniya dövlətinin yaranması.** Makedoniyalı İsgəndərin imperiyasının parçalanmasından sonra Qafqazın şərqində – müasir Azərbaycan Respublikası və Dağıstan ərazisində müstəqil ***Albaniya*** dövləti yarandı.

Müxtəlif xarakterli mənbələrdəki məlumatlardan aydın olur ki, albanlar fəal siyasət meydanına ***e.ə. IV əsrin son rübündən*** gec olmayaraq çıxmışdılar. Artıq e.ə. III əsrin başlanğıcında Xəzər dənizi sahillərini tədqiq edən Patrokl başqa tayfalar sırasında albanların da adını çəkmişdir. Strabonun albanlardan bəhs edərkən mötəbər mənbə kimi Patrokla istinad etməsi də bunu təsdiqləyir. Arrianın əsərindən aydın olur ki, yunan-makedoniyalılar albanlarla üz-üzə gələndə onları silah və geyimlərinə görə dərhal tanımışdılar. Farslar öz tarixinin ən böhranlı anında cəsur alban döyüşçülərini Əhəmənilər ordusunun sıralarının mərkəzində, İran şahının və onun qvardiyasının yaxın əhatəsində yerləşdirmişdilər.

Arxeoloji tədqiqatlara görə, Albaniya əhalisinin Ellinizm dünyası ölkələri ilə geniş ticarət və mədəni əlaqələrinin yaradılması bilavasitə Makedoniyalı İsgəndərin yürüşlərindən dərhal sonrakı dövrdə başlanmışdı. Bunu, hər şeydən





əvvəl, Şimali Azərbaycanda Makedoniyalı İsgəndərin adından kəsilmiş çoxlu sikkə dəfinələri aşkar edilməsi aydın göstərir.

Azərbaycana müxtəlif vaxtlarda yürüş etmiş tayfalar Albaniyanın siyasi həyatında və burada cərəyan edən etnik proseslərdə mühüm rol oynamışdılar. Onların arasında iskitlərlə bir vaxtda Cənubi Qafqaza axın edib məskunlaşmış saklar da vardı. Saklar (sakasenlər) kadusilər və albanlar ilə birlikdə e.ə. 331-ci ildə III Daranın Makedoniyalı İsgəndərin qoşunlarına qarşı vuruşmasında Midiya satrapı Atropatın müttəfiqləri kimi iştirak etmişdilər.

Antik dövrdə Şimali Azərbaycan vilayətlərində yaşayan tayfalarda dövlətin sosial təsisat kimi meydana gəlməsi haqqında mənbələrdə olan cuzi məlumat belə hesab etməyə imkan verir ki, e.ə. IV əsrin sonunda Albaniyada dövlət artıq mövcud idi. Arxeolaji materiallar e.ə. I minilliyin ortalarında Albaniyada əmlak bərabərsizliyinin dərinləşdiyini, sinfi bölgünün olduğunu göstərməklə bu mülahizəni möhkəmləndirir. Sinfi bölgü isə, məlum olduğu kimi, dövlət qurumunun meydana gəlməsi üçün zəruri ilkin şərtdir.

Arxeoloji qazıntıların nəticələri bəhs olunan dövrdə Albaniyanı xeyli inkişaf etmiş oturaq əkinçi-maldar təsərrüfatına malik olan bir ölkə olduğunu sübut edir. Albaniyada suvarma əkinçiliyi vardı və o, geniş qol-budaq atmış süni İrriqasiya qurğularına əsaslanırdı. Belə mürəkkəb irriqasiya qurğularının olması nəzərdən keçirilən dövrdə Albaniyada əməyin məqsədyönlü təşkilindən xəbər verir. Bütün bunlar isə, əlbəttə, müəyyən zorakılıq aparatı olmadan mümkün deyildi.

Albaniya beynəlxalq ticarət yollarının üzərində idi və quldarlıq sivilizasiyasının ən mühüm mərkəzləri ilə əlaqələr saxlayırdı. Arxeoloji materiallar alban tayfalarının Qafqazın qərb və şimal bölgələri, Ön Asiya, Kiçik Asiya tayfaları və xalqları ilə, Suriya ilə, Misirlə, Egey aləmi ilə sıx əlaqələr

saxladığını sübut edir.

Ellinizim dövrü Albaniyasında azad əhalinin, yoxsullar və əyanların mövcud olduğu məlumdur. Kaspilər arasında "ən varlılar və əyanlar (hakimiyyət başında duranlar)" vardı. Antik Albaniyada həm tacirlər, həm də kahinlər vardı, qulları olan məbəd vilayəti mövcud idi. Sosial-iqtisadi inkişafın nisbətən yüksək səviyyədə oması, sənətin əkinçilikdən ayrılması, pul tədavülünün, zərbxanaların, əyanların, tacirlərin, qulların, şəhərlərin, şəhər həyatının olması – bütün bunlar Ellinizm dövrü Albaniyasında sinifli cəmiyyətin, dövlətin mövcüd olduğuna parlaq sübutdur. E.ə. III əsrdən gec olmayaraq meydana gələn və artıq yeni eranın başlanğıcında uzaq Romada Albaniyanın "birinci" şəhəri kimi tanınan, kifayət qədər möhkəmləndirilmiş böyük və zəngin bir şəhərin – Qəbələnin mövcud olması faktının özü ölkədə dövlətin və hökmdar hakimiyyətinin olduğuna sübutdur. Buna görə də, Strabonun albanlar haqqında "indi onlarda bütün tayfalara bir hökmdar başçılıq edir" fikri daha əvvəlki dövrlərə aid edilməlidir. Makedoniyalı İsgəndərə qeyri-adi bir hədiyyə – köpək bəxş etmiş Albaniya hökmdarı haqqında Yuli Solin də məlumat vermişdir. Bu da hələ e.ə. IV əsrin 20-ci illərində albanlarda hökmdar hakimiyyəti olduğunu aydın göstərir.

Atropatın dövründə alban tayfalarının fəal siyasət meydanına çıxması Albaniyada dövlətin meydana gəlməsinə xeyli dərəcədə təkan vermişdi. O zaman atropatenalıların hökmdarı ilə albanlar arasında müttəfiqlik münasibətləri, bəlkə də, müttəfiqlik-xəracvermə münasibətləri vardı.

**Erməni dövlətinin yaranması.** Makedoniyalı İsgəndərin ölümündən sonra Qafqazın cənub-qərb hüdudlarına yaxın ərazilərdə erməni tayfaları müstəqilliyə nail olmağa və öz siyasi birliklərini yaratmağa başladılar. E.ə. IV əsrin sonunda erməni əyanları əvvəllər 13-cü satraplığa daxil olan ərazilərin bir hissəsində dövlət yaratdılar. Artıq erməni mühitində erməniləşmiş Orontların (Ervandakanların) nümayəndəsi Ervand onun ilk hökmdarı oldu. Bu dövrdə erməni tayfalarının Kiçik Asiyanın mərkəzi hissəsindən şərqə – Van gölü hövzəsinə doğru yerdəyişməsi davam etməkdə idi. Yeni dövlətin paytaxtı keçmiş Urartu şəhəri Argiştixinilinin yerində salınmış Armavir oldu. Daha sonra Araz çayının sahilində Ervandaşat şəhəri salındı. Ermənilərin bu bölgəyə axını davam etdi və nəticədə yerli alarodi (urartu) əhalisini tamamilə assimiliyasiyaya uğratdı. Sonralar ***Böyük Ermənistan*** adını almış dövlətin əsası qoyuldu. Çünki, erməni tayfalarının daha öncədən yaşadıqları Van hövzəsindən cənub-qərbdə, Fərat çayının sol qollarına qədərki vilayətlər – ***Kiçik Ermənistan*** və ***Sofena*** daha kiçik olduqları üçün, qədim müəlliflər erməni vilayətlərini fərqləndirmək məqsədi ilə belə adlardan istifadə etmişlər.

Kiçik Ermənistan və Sofena artıq e.ə. IV əsrin sonlarından Selevkilərin hakimiyyəti altında idi. Bu bölgələr ayrıca inzibati dairəyə çevrilmişdilər və Selevki hökmdarlarına vergi ödəyir, yürüşlər zamanı hərbi dəstələr verirdilər. Selevki hökmdarı III Antiox e.ə. III əsrin sonunda Böyük Ermənistanı da özünə tabe etdi və öz sərkərdəsi Arteksini ora hakim təyin etdi. Arteksinin dövründə həmin bölgəyə erməni tayfalarının köçməsi daha da sürətləndi. Onlar geniş torpaq sahələri ələ keçirdilər. Şəhərlərdə isə daha çox yunan, suriyalı və aramey sənətkarları və tacirləri məskunlaşdılar.

Məhz bu zaman Atropaten ilə Ermənistan arasında sıx siyasi, mədəni və digər əlaqələr yarandı. Bu dövrün erməni əyanları arasında atropatenli əsilzadələr az deyildi. Atropaten və erməni kübarları arasında nikah əlaqələri isə adi hal idi. Ermənistanla münasibətlər heç də həmişə rəvan olmurdu. Dostluq, nikah əlaqələrini, ənənəvi mədəni-iqtisadi təmasları bir çox hallarda açıq düşmənçilik, bəzən hərbi toqquşmalar dərəcəsinə çatan düşmənçilik əvəz edirdi. E.ə. III əsrin sonu – II əsrin əvvəlində məhz belə olmuşdu. O zaman

şiddətli çarpışmalar nəticəsində Ermənistan taxt-tacına nəinki Atropaten dairələri ilə sıx əlaqə saxlayan, hətta bəlkə də özü midiyalı olan Artaşes yiyələnmişdi. Erməni tarxçisi Movses Xorenatsi hər halda Artaşesi açıq-aşkar "madalı (yəni midiyalı – Q.Ə.)" adlandırmışdır.

**Kolxida və İberiya dövlətləri.** Gürcüstanın qərbində, Qara dəniz sahillərinə doğru ərazilərdə, vaxtilə Əhəməni imperiyasının 19-cu satraplığına daxil olan torpaqlarda, yunan qaynaqlarına görə e.ə. IV əsrin sonunda ***Kolxida*** dövləti yarandı. Fasis (Rioni) çayının dənizə töküldüyü ərazi qədim yunan şəhər-dövlətləri ilə sıx bağlı olduğu üçün ticarət və sənatkarlıq daha güclü inkişaf etmişdi. Kolxidanın ərazisindən mühüm əhəmiyyətli ticarət yolları keçirdi.

Bu bölgədəki məhsuldar torpaqlar əkinçiliyin inkişafına, əmlak bərabərsizliyinin dərinləşməsinə imkan vermişdi. Nəticədə yerli dövlət qurumlarının formalaşması üçün zəruri olan ilkin şərtlər yaranmışdı. Antik müəlliflərin məlumatlarına görə, e.ə. IV əsrin sonu – III əsrin əvvəlində yaranan Kolxida dövləti çox da möhkəm deyildi və tezliklə daha güclü şərq qonşusu ***İberiyadan*** asılı vəziyyətə düşdü.

Makedoniyalı İsgəndərin ölümündən sonra Şərqi Gürcüstanda sosial-iqtisadi və ictimai-siyasi proseslər daha da sürətləndi. Həmin dövrdə bu ərazilərdə əkinçilyin yüksək inkişaf etməsi arxeoloji materiallardan aydın görünür. Taxılçılıq, bağçılıq, üzümçülük süni suvarma sistemləri sayəsində bol məhsul götürməyə imkan verirdi. Bu da əmlak bərabərsizliyinin dərinləşməsinə səbəb olurdu. Kür çayı boyunca keçən ticarət yolları da məhsuldar qüvvələrin inkişafını sürətləndirməyə yardım edirdi. Saspeyrlərin (iberlərin) iri tayfa ittifaqları yaranırdı. Tayfa əyanlarının irsi hakimiyyəti formalaşırdı.

Qədim gürcü rəvayətlərinə görə e.ə. III əsrin baçlanğıcında Şərqi Gürcüstana cənub-qərb bölgələrindən Azo adlı bir hökmdar hücum etmişdi. O, Kiçik Asiya tayfalarından





topladığı qoşunla Kür çayının orta axarı boyunu ələ keçirmiş, yerli tayfa əyanlarının bir hissəsini məhv etmiş, yerli əhali üzərində çox ağır vergilər qoymuşdu. Tezliklə ona qarşı yerli əyanların nümayəndəsi Farnavaz üsyan qaldırdı. O, Kolxida hökmdarı ilə ittifaq bağladı və Selevki hökmdarından da hərbi yardım aldı. Bu qüvvələrin köməyi ilə Farnavaz Azonu məğlub edib qovdu və özünü İberiyanın hökmdarı elan etdi. Bununla e.ə. III əsrin başlanğıcında İberiya (Kartli) dövlətinin əsası qoyuldu.

İberiya dövləti yerli tayfaların yerli sülalənin hakimiyyəti altında birləşdirilməsi nəticəsində yaranmışdı. Farnavaz Kürün sağ sahilində, sonradan inşa edilmiş Msxeta qalası ilə üzbəüzdə Armazi qalasını saldırmışdı. Onun dövründə İberiya güclü dövlətə çevrildi.

Bəhs olunan dövrdə İberiya ilə Selevkilər dövlətinin münasibətləri qeyri-bərabər hüquqlu müttəfiqlik münasibətləri kimi xarakterizə edilir. Lakin gürcü tarixçilərinin bu iddiası o dövrün reallıqları ilə uyğun gəlmir. İberiyanın xarici siyasəti, elə daxili siyasi həyatı da Selevki hökmdarının tam nəzarəti altında idi. Selevkilər Qara dəniz sahillərindən Rionu və Kür çayları boyunca Xəzər dənizinə və Hindistana doğru ticarət yolunun müntəzəm fəaliyyət göstərməsində maraqlı olduqlarından, İberiyanı daima öz təsirlərində saxlamaqda maraqlı idilər.

Bütün bu faktlar aydın göstərir ki, e.ə. III əsrdə Cənubi Qafqazın qərb hissəsi Selevkilər dövlətinin tabeliyində idi. Bu vəziyyət e.ə. III əsrin 20-ci illərində Atropaten üçün də xarakterik oldu. Lakin e.ə. II əsrin 90-cı illərində Selevkilər dövlətinin Qədim Roma ilə müharibədə məğlub olması ilə əlaqədar Cənubi Qafqaz dövlətləri yenidən müstəqil siyasət yeritməyə başladılar.

## Cənubi Qafqaz və Ellinizm dünyası

**Yunan dili və mədəniyyətinin Qafqazda yayılması.** Cənubi Qafqazda yeni, gənc dövlətlərin təşəkkülü və inkişafı Ellinizm dövrünə təsadüf etmişdi. Makediniyalı İsgəndərin istilaları nəticəsində möhtəşəm imperiya yaradılmasından başlanan mərhələ Qədim Dünya tarixində çox mühüm və yeni bir dövrün – Ellinizm mərhələsinin başlanması kimi qəbul edilmişdir. Ellinizm mahiyyətcə Elladadan Hindistanadək uzanan çox geniş bir regionun sivilzasiyalarının təqribən üç yüzillik qarşılıqlı təsiri tarixidir. Ellinizm Qərb və Şərq quldarlıq cəmiyyətlərinin inkişafında yeni, daha yüksək mərhələ olmaqla, yunan mədəniyyətinin keçmiş İran imperiyasına daxil edilmiş ölkələrə güclü nüfuzu dövrü idi.

Doğrudur, Ellinizmin ilkin əsasları, yəni Şərqlə Yunan dünyasının tanışlığı daha öncədən – Yunan-İran müharibələri dövründən başlanmışdı. Lakin əvvəlki yüzilliklərdə çox zəif və epizodik hal olan qarşılıqlı təmaslar İsgəndərin Şərqə yürüşündən sonra daha geniş miqyas almışdı. Minlərlə yunan və makedoniyalı Şərq ölkələrində, o cümlədən Cənubi Qafqazda, əsasən də şəhərlərdə məskunlaşmışdı. Yunanlarla yerli Qafqaz əhalisinin müxtəlif sahələrdə qarşılıqlı əlaqələri daha intensiv xarakter almışdı. Bunlar da öz növbəsində Qafqazdakı ictimai-siyasi və sosial-iqtisadi proseslərə ciddi təsir göstərmişdi.

Ellinizm təkcə uzaq ölkələr arasında müxtəlif xarakterli iqtisadi əlaqələrin canlanmasına deyil, həm də müxtəlif yunan təsisatlarınınn, yunan elminin, təhsilinin, ədəbiyyat və incəsənətinin Qədim Şərq cəmiyyətlərinə nüfuz etməsinə, beləliklə, forma və mahiyyətcə yeni mədəniyyətin təşəkkülünə zəmin hazırladı. Son dərəcə böyük əhəmiyyətə malik olan bir amil də Şərqin geniş ərazilərində, o cümlədən Cənubi Qafqazda yunan dilinin yayılmasından ibarət idi.

Yunan-makedoniyalılar Böyük və ya Aşağı Midiyaya,





xüsusilə onun mərkəz rayonlarına daha çox əhəmiyyət verirdilər. Çünki, Mərkəzi Asiya vilayətləri ilə əlaqə məhz Midiya canişinliyi vasitəsilə saxlanılırdı. Ona görə də, Selevki hökmdarları həmin Midiya torpaqlarını yunan-makedoniyalıların bilavasitə hakimiyyəti altına almağa çalışır və burada hərbçilərin məskunlaşdırıldığı çoxlu qəsəbə salırdılar. Antik müəlliflərin əsərlərində bu barədə xeyli məlumat qalmışdır. Polibi bildirmişdir ki, İsgəndərin təşəbbüsü ilə "Midiya qonşu barbar xalqlardan qorunmaq üçün hər tərəfdən ellin şəhərləri ilə əhatə edilmişdir". Sonralar Ammian Mersellin yazırdı: "Midiyada varlı şəhərlər də, qala tipində tikilmiş məskənlər də, əhali də eyni dərəcədə çoxdur".

Ellinizm Aşağı Midiyanın məişətinə, mədəniyyətinə, siyasi həyatına dərindən nüfuz etmiş, ölkə ayrı-ayrı hissələrə parçalanaraq əvvəlki siyasi birliyindən məhrum olmuş, onun əhalisi olan midiyalılar isə etnik simalasını itirib digər tayfalara və xalqlara qarışmışdılar.

Kiçik Midiyaya gəlincə, o, getdikcə daha artıq dərəcədə müstəqil Atropaten dövlətinə, əhalisi isə atropatenlilərə, yəni qədim Azərbaycan xalqına çevrilirdi. Görünür, Atropatın varisləri də dövlətin banisinin ənənəsini davam etdirərək, yunan-makidoniyalıların ölkəyə soxulmasına "yol vermirdilər", hər halda mane olurdular. Yeri gəlmişkən, yəqin ki, bu cəhət Ellinizm dövründə Atropatenin və bütövlükdə Cənubi Qafqazın tarixinə dair yazılı qaynaqların yox dərəcəsində olmasının əsas səbəblərindəndir.

Lakin heç bir şeyə baxmayaraq, Ellinizm hər halda Atropatenə və bütövlükdə Cənubi Qafqaza da nüfuz edirdi. Kerefto dağlarından bir yunan kitabəsi tapılmışdır ki, bu da yunan dilinin, yazısının və hüquq normalarının Atropatenə, hətta onun ucqar bölgələrinə də çox dərin nüfuz etdiyini göstərir. Gürcü mənbələrinə görə, e.ə. III əsr Kartli (İberiya) dövləti tarixində Ellinizm elementlərinin üstünlüyü dövrü olmuşdur. Bu dövrdə erməni dövlətlərində də yunan dili və

yunan yazısı geniş yayılmaqda idi. Bütün rəsmi sənədlər, ticarət müqavilələri və digər yazışmalar yunanca aparılırdı. Həmin dövlətlərin idarəçilik sistemlərində, inzibati bölgü, vergi və mükəlləfiyyətlər qoyulması və s. sahələrdə ellinizm təsiri hiss olunmaqda idi.

**Şəhər həyatında yeniliklər.** Bu dövr bütün yeni Qafqaz dövlətlərinin, o cümlədən Atropatenin möhkəmlənməsi və onun şəhərlərinin genişlənməsi ilə səciyyəvi idi. Qonşu vilayətlərdəki yunan-makedoniyalılar kimi, atropatenlilər də geniş şəhərsalma işlərinə başlamışdılar. Atropatenin antik ənənə ilə təsdiqlənən bir neçə şəhəri haqqında məlumat qalmışdır. Bunlar Qazaka, Fanaspa, Fraaspa, Aqanzana şəhərləri və Atropaten ərazisində tapılmış bir neçə yaşayış yeridir. Qədim adlarını bilmədiyimiz, lakin ümumən antik dövrə aid olan bir neçə başqa abidə də məlumdur.

Antik müəlliflər Atropatenada və digər Qafqaz ölkələrində kifayət dərəcədə inkişaf etmiş şəhər həyatının olduğunu təsdiq edirlər. Fraaspa, Qazaka, Fanaspa, Aqnazana, Qəbələ, Msxeta və digər şəhərlər Ellinizm dövrünün mühüm şəhərləri sırasında xatırlanır. Lakin tədqiqatçılar üçün çətin olan cəhət ondan ibarətdir ki, həmin şəhərlərdən çoxunun yeri indiyənədək qəti şəkildə müəyyənləşdirilməmişdir. Məsələn, Mil düzündə, iki təpə üzərində yerləşmiş, xəndəklərlə əhatələnmiş və keramikası, sikkələri və digər tapıntıları ilə e.ə. IV əsrə – yeni eranın I əsrinə aid olunan Təzəkənd şəhər yeri erkən orta əsr mənbələrində xatırlanmış qədim Paytakaranla eyniləşdirilir.

Bununla yanaşı, mövcud olan yazılı qaynaqlar və arxeoloji materiallar aydın şəkildə göstərir ki, yeni eradan əvvəlki son iki-üç yüzillikdə Cənubi Qafqazda şəhərlər və şəhər həyatı nisbətən yüksək səviyyəyə çatmışdı. Ellinizm zamanı Cənubi Qafqazın şəhərləri artıq mühüm siyasi-inzibati və strateji mərkəzlər, ticarət-sənətkarlıq və mədəniyyət mərkəzləri idi. Antik Cənubi Qafqazın urbanizasiyası əsaslı sosial-





iqtisadi, siyasi və mədəni dəyişikliklərlə yanaşı gedirdi. Cənubi Qafqaz şəhərləri öz xarakterinə və quruluşuna görə qonşu vilayətlərin antik şəhərlərindən o qədər seçilmirdi.

**Sənət sahələrinin yüksək inkişafı.** Artıq e.ə. I minilliyin ortalarında Cənubi Qafqazın müxtəlif ərazilərində daş, şüşə və metal möhürlər yayılmışdı. Belə metal üzük – möhürlər e.ə. V-IV əsrlərdə antik dünyada və Şərq ölkələrində də yaxşı məlum idi. Bütün bunlar təqribən e.ə. I minilliyin ortalarında regionun sosial-iqtisadi həyatında baş verən köklü dəyişikliklərə subutdur. Cənubi Qafqaz ölkələrində müxtəlif sənət sahələri yüksək inkişaf səviyyəsinə çatmışdı. Məsələn, Albaniyada lap qədimlərdən məlum olan metallurgiya və metal emalından, dulusçuluq və toxuculuqdan əlavə, e.ə. IV-III əsrlərdə yarımqiymətli daşlar emalı, fil dişindən məmulat hazırlanması, balıq yapışqanı, müxtəlif məlhəmlər və i.a. istehsalı kimi yeni sahələr meydana gəlmişdi. Keramika istehsalının, zərgərliyin inkişafı davam edirdi. Albaniyada dəmirişləmə, xüsusilə onun bir sahəsi olan silahsazlıq son dərəcə yüksək səviyyəyə çatmışdı. Alban ustaları qonşu ölkələrdə də yüksək qiymətləndirilən qılınclar, xəncərlər, ox ucluqları, nizələr, dəbilqələr qayırırdılar.

Arxeoloji qazıntılar Ellinizm dövrü Albaniyasında və bütövlükdə Cənubi Qafqaz ölkələrində e.ə. III əsrdən etibarən yunanların təsiri ilə damüstü kirəmit istehsalına başlandığını göstərir. Kirəmit istehsalı isə Cənubi Qafqaz şəhərlərində geniş tikinti işləri aparıldığına dəlalət edir. Cənubi Qafqazda metalişləmə sənətinin müxtəlif sahələri yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə Cənubi Qafqazda nəinki ayrı-ayrı sənət sahələri güclü inkişaf edirdi, həm də sənətin öz daxilində əhəmiyyətli bir şaxələnmə və dar ixtisaslaşma baş verirdi.

Ellinizm dövründə Cənubi Qafqazda zərgərlik də nəzərə çarpacaq dərəcədə inkişaf etmişdi. Arxeoloji təqdidatlar nəticəsində, xüsusilə qəbirlərdə aşkar edilmiş bəzək əşyaları öz

formalarının və istifadə olunmuş materialların rəngarəngliyi ilə fərqlənir. Bunlar metaldan, şüşədən, gildən, pastadan, müxtəlif qiymətli və yarımqiymətli daşlardan hazırlanırdı. Bəzək əşyalarının tərkibinə qadın baş bəzəkləri – çələnglər, boyunbağılar, qolbağılar, üzüklər, asma bəzəklər, sancaqlar, toqqalar, muncuqlar, müxtəlif tikmələr və s. daxil idi.

**I sıra** **II sıra**



**Şəkil.** Qədim Mingəçevirdən (I sıra) və Yunanıstandan (II sıra) aşkar edilmiş antik qablar

Bəzək əşyalarının böyük bir qrupu antik dövrdə geniş yayılmış qolbağılardan ibarətdir. Qolbağılar tuncdan, gümüşdən, qızıldan, dəmirdən qayrılırdı. Ayrı-ayrı keramik qolbağı nümunələri də məlumdur. Kişi və qadın qəbirlərində tez-tez üzük və sırğalar rast gəlinir – bunlar formaca bir-birindən fərqlidir. Onlar əlvan metallardan, dəmir və sümük-





dən düzəldilir; bəzən qiymətli daşlardan və şüşələrdən qaş qoyulur, zoomorf təsvirlər, həndəsi ornamentlərlə bəzədilirdi. Qaşlı üzüklər möhür rolunu oynayırdı və bir qayda olaraq, qaşsız üzüklərə nisbətən daha sonrakı dövrlərə aiddir. Üzük-möhürlərin bir çox nümunələri qafqazlıların, o cümlədən albanların Ellinizm dünyası ilə geniş iqtisadi və ticarət əlaqələrə malik olmalarını təsdiq edir.

Rəngarəng toqqalar, asma bəzəklər və xüsusilə həm yerli ustalar tərəfindən düzəldilən, həm də kənardan gətirilən müxtəlif muncuqlar da çoxlu miqdarda tapılmışdır. Muncuqlar əsasən antik dünyanın məşhur mədəniyyət mərkəzlərindən gətirildi. Digər gətirilmə materiallarla birlikdə bunlar sübut edir ki, e.ə. III-I əsrlərdə və yeni eranın I-II əsrlərində Qafqaz ölkələri Qara dəniz sahillərində yerləşən şəhərlərlə, Parfiyanın, Romanın, İkiçayarasının, Misirin, Hindistanın, Suriyanın və Ellinizm aləminin digər regionlarının şəhərləri ilə geniş ticarət əlaqələri və mədəni əlaqələr saxlamışdır.

E.ə. IV-I əsrlərə və yeni eranın ilk əsrlərinə aid olan, əsasən Ellinizm dövlətlərində, Romada kəsilmiş sikkələrdən ibarət dəfinələr və ayrı-ayrı sikkələr, habelə albanların, iberlərin özlərinin zərb etdikləri sikkələr aşkara çıxarılıb öyrənilmişdir. Gümüş alban sikkələrinin aşkar edildiyi dəfinələrin tədqiqi göstərmişdir ki, həmin pullar e.ə. III əsrin axırlarından etibarən Albaniyada zərb edilməyə başlanılmışdır.

**Cənubi Qafqazda Ellinizm ayinləri.** Bütün Cənubi Qafqazda Ellinizm ayinləri yayılır, yunan-İran allahlarının, xüsusən Herakl-Veretraqnanın şərəfinə ibadətgahlar tikilirdi. Müasir İranın Qərbi Azərbaycan və Kürdüstan əyalətlərinin sərhəddində, Kerefto dağlarında həm özünün memarlığı, həm də otaqlardan birinə girişin üzərində həkk olunmuş yunan yazısı ilə diqqəti cəlb edən qaya kompleksi yerləşir. Yazının mətnindən aydın olur ki, bu abidə Heraklın şərəfinə inşa edilmişdir.

Kereftodakı bu mağara tipli tikilinin funksional təyinatına dair tarixi ədəbiyyatda iki fikir mövcuddur. Tədqiqatçıların bir qismi onun dini sitayiş təyinatlı tikinti olduğunu iddia edir. Digər tədqiqatçılar isə əksinə, qayalıqlarda oyulmuş otaqlar kompleksinin mülki səciyyə daşıdığını söyləyirlər. Onlar belə hesab edirlər ki, bu kompleks yunan hərbi hissəsinin yerləşdiyi obyekt olmuşdur və Böyük Midiyanın şimal sərhədlərinin, onu əhatə edən "barbar" xalqlardan müdafiəsi həmin hərbi hissənin vəzifəsi olmuşdur. Kereftonun yaşayış kompleksi olduğunu iddia edən alimlər qeyd edirlər ki, Heraklın adı olan yazılı mətn o dövrdə hər bir yaşayış yerinin, evə girişin üzərində yerləşdirilirdi və bir növ tanrının himayəsi altında olan yaşayış yeri ilə əlaqələndirilmiş xeyri-dua rolunu oynayırdı.



**Şəkil.** Antik dövrə aid tunc qablar (Dağıstan. Kubaçı) və bəzək əşyaları (Azərbaycan. Qədim Mingəçevir).





Ətrafda yaşayan əhalinin bayramlar keçirmək və qurban vermək üçün toplaşa biləcəyi Kerefto kimi bir yerdə sitayiş obyektinin əsasının qoyulması fikrinin həqiqətə daha yaxın hesab etmək lazımdır. Kompleksin binalarından birində su mənbəyinin olması həmin yerin müəyyən qədər "müqəddəs" olduğu haqqındakı fikrə də sövq edir. Artıq bu cəhətə diqqət yetirilmişdir. Həmin cəhət belə fərziyyə irəli sürməyə imkan verir ki, burada "Şərq Heraklı"na sitayişdən başqa "Səma suyu" ilahəsi hesab edilən Anahitə də sitayiş var idi.

Qeyd etmək lazımdır ki, Herakla bənzər tanrılara sitayiş Şərqdə və o cümlədən də Qafqazda geniş yayılmışdı. İran Beretraqnası, Babil Neqralı, erməni Baxaqnı və başqaları bu qəbildəndir. Antik Ermənistanda hətta yüksək təpədə mağarada yerləşmiş Herakl-Baxaqn məbədi haqqında məlumat qalmışdır.

Heraklın özünə sitayişə gəldikdə isə o, Makedoniyalı İsgəndərin yürüşlərindən sonra bütün Şərqdə geniş yayılmışdı. Bu qəhrəmanın təsvirlərinə Ellinizm və Parfiya dövrünün sikkələrində də təsadüf edirdik. Onun surəti təsviri incəsənətdə və heykəltəraşlıqda geniş yayılmışdı.

Kereftodakı yazının mətni, habelə qədim dünyanın müxtəlif bölgələrində bənzərləri olan memarlıq komplekslərinin planı belə bir fikir yaradır ki, Atropatendə və Qafqazın digər ölkələrində Herakla və digər yunan-İran tanrılarına sitayişin kifayət qədər erkən təzahürləri mövcüd olmuşdur.

Bütün bu faktlar: antik müəlliflərin məlumatları, arxeoloji qazıntılar zamanı aşkar edilmiş çoxsaylı maddi mədəniyyət nümunələri, şəhər və məbəd qalıqları Qafqazın bütün ölkələrində Ellinizm dünyası ilə çox sıx əlaqələr olduğunu aydın göstərir. Qafqaz xalqlarının maddi və mənəvi mədəniyyətinin inkişafına yunan mədəniyyətinin təsiri özünü ən müxtəlif sahələrdə büruzə vermişdir.

Ellinizmin ən böyük nailiyyətlərindən biri də əvvəllər

qapalı, təcrid olunmuş şəraitdə yaşayan tayfalar və xalqlar arasında iqtisadi, mədəni əlaqələr yaranması ilə yanaşı, həm də adi, insani münasibətlərin qurulması idi. Bu yürüşdən bir neçə əsr sonra Plutarx Şərqi Aralıq dənizi hövzəsi haqqında, orada yaşayan insanlar arasında sədlərin uçurulması ilə əlaqədar yazmışdı ki, indi həmin regionda yeni ideologiya formalaşmışdır. İnsanlar hesab edirlər ki, "nə yəhudi, nə də yunan vardır. Hamısı birdir". Bu düşüncə Ellinizm təsirinin yayıldığı digər bölgələr üçün də xarakterik idi.

Bütün bunlar aydın göstərir ki, Ellinizm Qafqaz xalqlarının həyatının bütün sahələrinə çox böyük təsir etmiş, sosial-iqtisadi inkişafı sürətləndirmiş, qonşu regionlarla əlaqələrin genişlənməsinə səbəb olmuşdu. Ellinizm mədəniyyəti ilə sıx təmas yerli mədəniyyətlərin zənginləşməsinə imkan vermişdi.

## Qədim erməni dövlətləri e.ə. IV əsrin sonu – y.e.-nın ilk əsrlərində. "Böyük Ermənistan" məsələsi

**Ermənilərin ilk siyasi birliyi.** Erməni tarixçisi Movses Xorenatsiyə görə, ermənilər e.ə. VII əsrin sonunda baş verən siyasi hadisələrdə artıq müstəqil siyasi qüvvə kimi iştirak etmişdilər. Bu dövrdə Midiya və Babil dövlətləri birlikdə Assuriyaya qarşı qalibiyyətli müharibələr aparırdılar. "Erməni tarixinin atası" bu dövlətlərin müttəfiqi kimi erməni dəstə başçısı **Paruyrun** iştirak etməsi, bunun əvəzində Midiya hökmdarı tərəfindən tacla mükafatlandırılması haqqında məlumat vermiş, Paruyru ilk erməni hökmdarı kimi təqdim etmişdir. Lakin digər mənbələrdə bununla bağlı heç bir məlumat yoxdur. Həm də bəhs olunan dövrdə Urartu dövləti nüfuzlu siyasi qüvvə kimi qalmaqda idi və onun tabeliyində olan erməni tayfalarının müstəqil şəkildə çıxış etmələri mümkün deyildi.





Erməni tayfa birliyi yalnız **e.ə. VI əsrdə**, Urartunun süqutundan sonra Van ətrafı bölgədə öz təsirini yaymağa fürsət qazanmışdı və onun haqqında ilk dəfə bu dövrdən etibarən ayrıca bir qurum kimi bəhs olunmağa başlanmışdı. Mənbələrdə Midiyaya tabe olan, xərac ödəyən, hərbi qüvvəsi ilə yürüşlərdə yardım edən, öz ərazisində müdafiə istehkamları və qalalar inşa etməməyi öhdəsinə götürən ***erməni siyasi birliyi*** haqqında məlumatlar qalmışdır.

E.ə. VI əsrin ortalarında Midiyanı süquta uğradıb, hakimiyyəti ələ keçirən Əhəməni sülaləsinin hakimiyyəti dövründə də erməni tayfa birliyinin vəziyyətində elə bir ciddi dəyişiklik baş verməmişdi. Əsas yenilik artıq e.ə. VI əsrin 20-ci illərində Van ətrafı bölgənin ***Armina ölkəsi*** adlanması idi. İran şahı I Daranın e.ə. 520-ci ildə yazdırdığı Bisütun kitabələrinin fars (pəhləvi) və elam dillərində olan variantlarında Armina ölkəsi, Babil dilində olan variantında isə Uraştu (Urartu) ölkəsi qeyd olunmuşdur. Bu da özü-özlüyündə bəhs olunan dövrdə tədricən Urartunun Arminaya çevrilməsini əyani şəkildə əks etdirirdi.

B.B.Piotrovski Urartu və Erməni vilayətinin qədim tarixi haqqında arxeoloji araşdırmalar əsasında yazdığı əsərində xüsusi qeyd etmişdir ki, VII-VI əsrlərdə Ermənistanda yalnız tayfa ittifaqının mövcudluğundan danışmaq olar. Bu mövqeni müdafiə edən digər rus alimi İ.M.Dyakonov sonradan fikrini dəyişmiş və bu ərazilərdə artıq e.ə. VI əsrdə ***Qədim Erməni şahlığının*** mövcud olduğunu bildirmiş və qeyd etmişdir ki, bu dövlət Midiyadan tamamilə asılı vəziyyətdə idi. Onun fikrincə, Erməni şahlığı Midiya hökmdarı Kiaksarın hakimiyyətə gəldiyi **e.ə. 625-ci ildə** yaranmışdı və çox güman ki, Urartunun məhvində erməni hökmdarı da iştirak etmişdi.

Erməni tarixinin qədim dövrünün tətqiqatçısı S.T.Yeremyanın fikrinə görə isə, Melid əyaləti ilkin erməni tayfa birliklərinin formalaşdığı ərazilərə daxil idi və e.ə. VIII əsrdə

Urartu dövlətinin tabeçiliyinə keçmişdi. Urartunun zəifləyib tarix səhnəsindən silindiyi vaxt Melid (Toqarma) də, Xilakku (Kilikiya) da öz ərazilərini Urartu və Assuriya hesabına genişləndirməyə çalışırdılar. Lakin Midiya bu cəhdlərin qarşısını qətiyyətlə almışdı. Elə bu zaman Arme – Şupriya əyaləti də işğal olunmuşdu. Bu ərazilərdə yaranmış erməni tayfa birliyi Midiya hökmdarından, artıq yuxarıda qeyd olunduğu kimi, tamamilə asılı idi. Əhəməni imperiyası dövründə isə erməni dövlət qurumu öz daxili müstəqilliyini də itirmiş və iki satraplığa bölünmüşdü. Antik qaynaqlarda 13-cü satraplığın həm də Melid adlanması isə, görünür bu şəhərin paytaxt rolunu oynaması ilə bağlı idi.

**Ervandilər sülaləsi.** Ksenofont İran dövlətinin əsasını qoyan II Kirin uşaqlıq dostu və ov yoldaşı ***Tiqrandan*** bəhs etmişdir. Erməni tarixçiləri bu məlumatı əsas götürərək Əhəməni şahının hakimiyyət uğrunda mübarizəsində Tiqranın başçılıq etdiyi erməni silahlı dəstələrinin də iştirak etmələrindən bəhs etmişlər. Ksenofonta görə, bu zaman erməni hökmdarının 40 min piyada və 8 min atlı qoşunu var idi. M.Xorenatsi də bu haqda min il sonra yazdığı əsərində daha "geniş" məlumat vermiş, Tiqranın atasının ***Ervand*** adlanmasını, daha öncə Midiya hökmdarından asılı olmasını bildirmişdir. Erməni tarixçisi öz əsərində Ervandın nəslindən olan hökmdarların Midiya və Əhəməni ağalığı dövründə 200 il ərzində davamlı şəkildə Erməni əyalətini və ya onun yerində yaradılmış satraplıqları idarə etdiklərini qeyd etmişdir.

Lakin erməni əyalətinin daxil olduğu satraplığa fasiləsiz olaraq Ervandilər sülaləsinin başçılıq etməsi faktı digər qədim mənbələr tərəfindən təsdiqlənmir. Herodot erməni satraplığını idarə edənlərin adlarını çəkməmiş, yalnız onu qeyd etmişdir ki, Yunanıstana yürüş zamanı erməni və frigiyalılardan ibarət dəstəyə I Daranın qızının əri ***Artoxm*** başçılıq edirdi. Linqvistlərin fikrincə, Tiqran və Ervand adlarından fərqli olaraq Artoxm açıqca qeyri-erməni mənşəlidir.





Strabon isə erməni vilayətinə rəhbərlik edən şəxslərin ***Gidarn (Vidarn)*** nəslindən olduğunu söyləyir. Strabona görə, İ Daranı taxta çıxaran 7 fars əyanından birinin adı Gidarn idi və sonradan erməni satraplığı onun nəslindən olanlar tərəfindən idarə olunmağa başlanmışdı. Sonraki dövr pəhləvi qaynaqları bu nəsli Vidarn, yunan mənbələri isə ***Orontlar*** kimi təqdim etmişdir.

Müasir erməni tarixşünaslığında Orontlar Ervandilərlə eynililəşdirilir və erməni əyalətinin Midiya-Əhəməni ağalığı dövründə davamlı şəkildə erməni şahları tərəfindən idarə olunduğu iddia edilir. Bu iddianın zəif cəhəti onun Yunan və Roma müəllifləri tərəfindən təsdiqlənməməsidir. Digər tərəfdən isə, Ervand-Orontlar heç də həmişə bu əyalətdə satraplıq etməmişdilər. Mənbələr III Daranın (e.ə. 336-330) İranda şah taxtına çıxmazdan əvvəl erməni satraplığında satraplıq etdiyini götərmişlər. Həmçinin, Əhəmənilər dövründə ermənilər yaşayan bölgələrdə, xüsusən də əyanlar arasında İran qaydaları və adətlərinin fəal şəkildə yayılması satrapın fars əsilzadəsi olduğu, erməni əyanlarının da onu təqlid etmək cəhdlərini düşünməyə əsas verir.

**E.ə. 331-ci ildə** ***Qavqamel döyüşündə*** III Dara tərəfindən Ervandın başçılığı ilə erməni dəstəsi də döyüşmüş, İranın məğlubiyyətindən sonra hakimiyyətdən məhrum olmuşdu. Makedoniyalı İsgəndər İran şahlığını məhv etdikdən sonra satraplıqlara öz yaxın adamlarını başçı təyin etmişdi. Erməni əyalətinin daxil olduğu satraplığa isə Mixren adlı bır şəxs başçı təyin edilmişdi. Mənbələrdə onun Orontlarla hər hansı bir əlaqəsinin olmadığı bildirilir.

**Erməni dövlətinin qonşuları hesabına ərazilərini genişləndirməsi. E.ə. 323-cü ildə** Makedoniyalı İsgəndərin vəfatından sonra onun yaratdığı nəhəng imperiya parçalandı. İmperiyanın Asiyadakı mülkləri Selevkin ixtiyarına keçdi. ***Suriya*** və ya ***Selevkilər imperiyası*** adlanan bu dövlətə, o cümlədən də erməni əyalətinin də bir hissəsi daxil idi. Selevikilə-

rin hakimiyyəti altına düşən hissə ***Kiçik Ermənistan*** adlanırdı və Van gölündən cənub-qərbdəki bölgələri, keçmiş Hayasanı əhatə edirdi. ***Böyük Ermənistan*** adlanan hissədə isə **e.ə. 306-cı ildə** Ervand hakimiyyəti ələ keçirdi. İlk müstəqil erməni dövləti olan Böyük Ermənistana Van gölü hövzəsi, keçmiş Urartu ərazisi daxil idi. Paytaxtı keçmiş Urartu şəhəri Argiştixinilinin yerində salınmış ***Armavir*** idi. Daha sonra Araz çayının sahilində ***Ervandaşat*** şəhəri salınmış və paytaxt bu şəhərə köçürülmüşdü.

E.ə. III əsrin birinci yarısında Ervandın varisləri – Ervandakanlar Böyük Ermənistanın cənub-qərbində yerləşən ***Sofena vilayətini*** itirdilər. Burada yeni bir erməni dövləti yarandı. Tezliklə Böyük Ermənistan daha bir neçə bölgəni itirdi. Onu şimaldan İberiya, şərqdən Atropatena sıxışdırmağa başladı.

**E.ə. 212-ci ildə** Selevki hökmdarı III Antiox Sofenanı özünə tabe etdi. **E.ə. 201-ci ildə** isə Böyük Ermənistan işğal olundu, Ervandakanlar hakimiyyətdən məhrum edildilər. Selevki imperiyasının əyalətinə çevrilən bu əraziləri III Antiox sərkərdələri ***Artaksi və Zariadrın*** idarəsinə verdi, Kiçik Ermənistana isə qardaşı oğlu ***Mitridatı*** strateq – hakim təyin etdi.

Selevki ağalığı dövründə Van hövzəsi və Sofena ellinizm dünyasının ticarət əlaqələrinə cəlb olundu. Şəhərlər yaranması və onların yunan əhalisi ilə məskunlaşması intesiv xarakter aldı. Sofena hakimləri pul kəsməyə də başlamışdılar.

Lakin **e.ə. 190-cı ildə** ***Maqneziya yaxınlığında döyüşdə*** Roma legionerləri Selevki qoşunlarını ağır məğlubiyyətə uğratdılar. Nəticədə Selevikilər dövləti zəiflədi və parçalandı. Selevki strateqləri yaranmış vəziyyətdən istifadə edib Roma ilə yaxınlaşdılar. Artaksi (erməni variantı Artaşes) Böyük Ermənistanda, Zariadr (erməni variantı Zarex) isə Sofenada müstəqil hökmranlıq etməyə başladılar. Kiçik Ermənistanda isə yenidən Ervandakanlar sülaləsinin nümayəndələri hakimiyyəti ələ keçirdilər.





**I Artaşesin** hakimiyyəti illərində (e.ə. 189-160) ermənilər qonşu dövlətlərə hücumlar etməklə öz ərazilərini genişləndirməyə çalışırdılar. Mənbələr qeyd olunan dövrdə erməni şahlığının bütün qonşuları ilə müharibələr apardığını yazmışdır. Böyük Ermənistan lap əvvəldən özünü çox təcavüzkar aparmış, qonşularına qarşı fəal qəsbkarlıq siyasəti yeritmişdi. Strabon bununla əlaqədar yazmışdır: "... Artaksinin və Zariadrinin müharibələri əvvələr kiçik bir ölkə olmuş Ermənistanı böyütdü... Onlar birlikdə qonşu xalqların torpaqlarının bir hissəsini qoparıb mənimsədilər. Onlar midiyalılarından Kaspiananı, Favnitidanı və Basoropedanı, iberlərdən Pariadr dağının ətəklərini, Xorzenanın və Qoqarenanı ..., xaliblərdən, mossiniklərdən Karenitidanı və Kseroksenanı ..., kataonlardan Akilisenanı və Anititavrboyu vilayəti, suriyalılardan Taronitidanı ... tutub aldılar".

Həmin dövrdə dövlətin paytaxtı Artaşat şəhəri idi. Artaşesdən sonra hakimiyyətə oğulları: ***I Artavazd*** və ***I Tiqran*** gəldilər. Onların hakimiyyəti dövründə Parfiya Selevikiləri məğlub edərək Ön Asiyada hegemonluğu ələ keçirmişdi. I Artavazd da parfiyalılarla müharibədə məğlub olub atasının daha öncə tutduğu əraziləri itirmiş, qardaşı oğlu Tiqranı (gələcək erməni şahı II Tiqran) girov göndərmişdi. Onun azad edilməsi üçün Ermənistanın cənub-şərqində 70 vadinin Parfiyaya güzəşt edilməsi haqqında mənbələrdə məlumat qalmışdır.

**"Böyük Ermənistan"ın hüdudları.** Erməni şahlığı ***II Tiqranın*** dövründə (e.ə. 95-55) özünün ən qüdrətli dövrünə çatdı. Erməni tarixçilərinin əsərlərində onun Böyük Tiqran adlandırılması da bununla bağlıdır. Mənbələrdən aydın izlənir ki, II Tiqran çox tezliklə geniş işğallara başlamış, artıq **e.ə. 94-cü ildə** ***Sofenanı*** ələ keçirmişdi. Elə həmin il o, Pont hökmdarı VI Mitridatla müqavilə bağlamış və onun qızı Kleopatra ilə evlənmişdi.

II Tiqran "nikah diplomatiyası"ndan sonrakı dövrdə də istifadə etmiş, öz qızını Atropaten şahına ərə vermişdi.

Lakin bu heç də erməni tarixçilərinin iddia etdikləri kimi, Atropatenin erməni hökmdarından asılı vəziyyətə düşməsi demək deyildi. Azərbaycanın antik dövr tarixinin araşdırılması üzrə maraqlı tədqiqatlar aparmış İ.Nəcəfovaya görə, həmin dövrdə Atropaten hökmdarı Mitridat idi və Romaya qarşı mübarizədə Pont hökmdarı VI Mitridat və erməni hökmdarı II Tiqranla ittifaqda idi. Həm də e.ə. 71-68-ci illərdə ümumi düşmənə – Romaya qarşı erməni və Pont dövlətləri ilə yanaşı, Atropaten, Albaniya və İberiya da birlikdə çıxış etmişdilər. Roma müəllifləri **e.ə. 69-cu ildə** Tiqranakert yaxınlığında baş verən döyüşdə Roma legionerlərinə qarşı erməni, Atropaten, Albaniya və İberiya qoşunlarının birlikdə döyüşdüklərini qeyd etmişlər.

E.ə. 93-92-ci illərdə II Tiqran Roma ilə qısamüddətli müharibə apararaq qalib gəlmiş və nəticədə **e.ə. 91-ci ildə** ***Kappadokiyanı*** öz nəzarəti altına almışdı. Lakin e.ə. 89-cu ildə Roma sərkərdəsi Sullanın hərbi yardımı ilə Kappadokiya yenidən müstəqil olmuşdu. E.ə. 90-88-ci illərdə Tiqran Parfiyanı məğlub edib, daha öncə itirdiyi 70 bölgəni geri qaytarmışdı. **E.ə. 87-ci ildə** erməni qoşunları Atropatenaya soxulmuş, Ekbatan yaxınlığındakı Adropana qalasını yandırmışdı. Lakin Atropatena şahı öz hakimiyyətini qoruyub saxlaya bilmiş və hətta öz mövqeyini möhkəmləndirmişdi. Çünki o, erməni şahının kürəkəni idi.

Sonrakı dövrdə II Tiqran ***Dəclə çayının orta axarı boyunu, bütün Şimali İkiçayarasını*** zəbt etmişdi. **E.ə. 83-cü ildə** parçalanaraq zəifləmiş *Selevki dövlətinin paytaxtı Antioxiyanı* tutmuş və xəzinəsi ələ keçirmişdi. Elə həmin il hücumu davam etdirərək Aralıq dənizi sahili boyunda ***Finikiya və Kilikiyanı*** özünə tabe edə bilmişdi. Bu dövrdə erməni hökmdarı İkiçayarasından şimalda yeni paytaxt şəhəri ***Tiqranakerti*** inşa etdirməyə başlamış və işğal etdiyi ərazilərdən 12 şəhərin əhalisini zorla buraya köçürmüşdü.

E.ə. I əsrin 70-ci illərində Roma sərkərdəsi ***Lutsiy Lukull*** Kiçik Asiyanın içərilərinə doğru irəliləyərək Qara dənizin cənub sahili boyundakı ***Pont dövləti*** ilə müharibəyə başladı. Döyüşlərdə məğlub olan Pont hökmdarı ***VI Mitridat*** (e.ə.121-63) Ermənistana qaçdı. E.ə. 70-ci ildə Lukull Roma senatının adından VI Mitridatı vermək tələbini II Tiqrana çatdırdı. Lakin rədd cavabı aldığı üçün Roma legionerlərini erməni şahlığı üzərinə göndərdi, Suriya və Finikiyanı ələ keçirdi. **E.ə. 69-cu il oktyabrın 6-da** Şimali İkiçayarasında Fərat çayının qolu olan ***Nikeforion çayı sahilində baş verən döyüşdə*** Roma qoşunu II Tiqranı və müttəfiqlərini ağır məğlubiyyətə uğratdı. Lukull erməni hökmdarının burada saldırdığı yeni paytaxt şəhəri ***Tiqranakerti*** tutub dağıtdı, orada toplanmış bütün sərvəti ələ keçirdi.

Bu qələbələrdən ruhlanan Roma sərkərdəsi Ermənistanın ikinci paytaxtı ***Artaşat*** üzərinə hərəkət etdi. Lakin **e.ə. 68-ci ilin sentyabrında** ***Aratsan*** çayı yaxınlığında baş verən döyüşdə erməni, Pont və Atropaten qüvvələri romalıları məğlub edə bildilər. VI Mitridat isə erməni qoşununu köməyi ilə Pontada öz hakimiyyətini bərpa etdi. Hadisələrin bu cür gedişindən narazı olan Roma senatı Lukullu geri çağırdı, Şərqdəki legionlara komandanlığı ***Qney Pompeyə*** həvalə etdi və ona geniş səlahiyyətlər verdi.

Romaya qarşı müharibələrdə uğursuzluğa düçar olan II Tiqrana qarşı öz ölkəsində çıxışlar başlandı. Narazı qüvvələrə hökmdarın oğlu *Bala Tiqran* başçılıq edirdi. O, **e.ə. 67-ci ildə** erməni əyanlarının bir qrupu ilə atasına qarşı mübarizəyə başladı, lakin məğlub olub Parfiyaya qaçdı. Erməni şahzadəsi Parfiya hökmdarı III Fraatın qızı ilə evləndi və qayınatasının hərbi yardımı ilə yenidən Ermənistana hücum etdi. Lakin onun bu cəhdi də uğursuz oldu. Bu dəfə Bala Tiqran Pompeyin yanına qaçdı, onunla birlikdə Ermənistana hücum etdi. Roma ordusu **e.ə. 66-cı ildə** Erməni şahlığının əsas vilayətlərini ələ keçirdi. II Tiqranın qoşunları, demək olar ki, tamamilə məhv edildi. Belə bir şəraitdə II Tiq-

ran dövlətlərarası münasibətlər tarixində görünməmiş bir addım atdı. O, mühafizəçilərsiz, başıaçıq, ayaqyalın Pompeyin düşərgəsinə gələrək ondan aman istədi. Bu hərəkət şöhrətpərəst və iddialı Roma sərkərdəsinin xoşuna gəldi. Pompey II Tiqranı əfv edərək qaldırıb öz yanında əyləşdirdi və onu qiyamçı oğlu ilə barışdırdı.

**E.ə. 66-cı ildə *Roma ilə Ermənı şahlığı arasında sülh bağlandı.*** II Tiqran bütün işğal etdiyi ərazilərdən imtina etdi, böyük məbləğdə – *6 min talant gümüş* həcmində təzminat ödədi. Əvəzində II Tiqran hakimiyyətdə saxlandı və *"Roma xalqının dostu və müttəfiqi"* elan edildi. Qədim Roma silah gücünə tabe etdiyi ölkələrə öz canişinini təyin edir, yalnız bəzi hallarda yerli hökmdarı hakimiyyətdə saxlayaraq onu özünün dostu və müttəfiqi elan edirdi. Romanın dostu və müttəfiqi elan olunmuş hökmdar isə hər il Romaya xərac ödəməli, Roma qarnizonlarını öz ərazisində yerləşdirməli, hərbi yürüşlərdə öz qoşunu ilə iştirak etməli və vəliəhdini Romaya girov göndərməli idi. II Tiqran bu şərtlərlə Ermənistanda hakimiyyətdə qaldı, oğlu Bala Tiqranın da Sofenada hakimlik etməsinə razılıq verdi.

Bu faktlardan aydın görünür ki, erməni tarixçilərinin haqqında uzun-uzadı bəhs etdikləri Böyük Ermənistan dövləti həqiqətdə çox qısa zaman kəsiyində mövcud olmuş, e.ə. I əsrin 90-70-ci illərində Aralıq dənizi sahillərinə kimi geniş əraziləri ələ keçirmiş və 20 ilə qədər öz tabeliyində saxlamışdı. Lakin Romanın təzyiqi ilə az sonra bu ərazilərin hamısını itirmiş, özü də ondan asılı hala düşmüşdü.

## Gürcüstanın qədim dövlətləri e.ə. IV əsrin sonu – y.e.-nın ilk əsrlərində

**Eqresi (Kolxida) dövlətinin Roma ilə münasibətləri.** Əhəməni imperiyasının süqutundan sonra Cənubi Qafqazın qərb hissəsi Makedoniyalı İsgəndərin yaratdığı nəhəng döv-





lətin təsiri altına düşsə də, bu uzun çəkmədi. Bu böyük sərkərdənin ölümündən sonra yaratdığı imperiya parçalandığı zaman Cənubi Qafqazın qərb bölgələrində də müstəqil dövlətlər formalaşmaqda idi. Gürcüstanın qərbində ***Eqresi*** (antik qaynaqlarda ***Kolxida***), şərqində isə ***Kartli*** (antik qaynaqlarda ***İberiya***) dövlətləri yarandı.

E.ə. IV-III əsrlər Qafqazın Qara dəniz sahillərində salınmış yunan koloniyalarının çiçəklənməsi dövrü idi. Onlar Rioni və Kür çayları vasitəsi ilə Şərq mallarının Qara dəniz və Aralıq dənizi limanlarına çatdırılmasında iştirak edir və böyük gəlir əldə edirdilər.

Bu dövrdə Rioni vadisi əhali ilə sıx məskunlaşmışdı. Kolxida əhalisinin təsərrüfat həyatında əkinçilik və üzümçülük mühüm yer tuturdu. Kolxidalılar taxıl bitkiləri ilə yanaşı, qədimdən bu yerlərdə geniş yayılmış kətan becərilməsi ilə də məşğul olurdular. Toxuculuq, dulusçuluq, metalişləmə, zərgərlik kimi sənət sahələri yüksək inkişaf səviyyəsinə çatmışdı.

Kolxidanın düzənlik hissəsində təsərrüfat həyatının intensiv inkişafı əmlak bərabərsizliyinin dərinləşməsinə və e.ə. IV əsrdə yerli tayfa birlikləri əsasında dövlət qurumlarının təşəkkülünə gətirib çıxardı. **E.ə. IV əsrin sonu – III əsrin başlanğıcında** Qərbi Gürcüstanda iki dövlət yaranmışdı. Onlardan biri Şərqi Kolxidadakı tayfaların yaratığı ***Eqresi*** (antik qaynaqlarda ***Kolxida***) siyasi birliyi idi, digəri isə Fasisə yaxın bölgələri əhatə edirdi. Lakin bu dövlətlər möhkəm və güclü deyildilər. Ona görə də, tezliklə İberiyadan asılı hala düşdülər.

E.ə. II əsrdə Yunan-Makedoniya ellin dövlətlərinin böhranı qərarlaşmış ticarət əlaqələrinin pozulmasına, Kolxidadakı yunan şəhərlərinin tənəzzülünə səbəb oldu. Bu şəhərlərin Yunanıstanla əlaqələri, demək olar ki, tamamilə kəsildi. Yalnız Kolxidanın sahil boyu bölgələri ilə mübadilə davam etməkdə idi.

Kolxidanı e.ə. II əsrin sonunda Pont hökmdarı VI Mitridat özünə tabe etdi. Lakin bu tabelik uzun sürmədi. Roma ilə müharibələrdə məğlub olan Pont hökmdarının ölümündən sonra Kolxida romalıların viranedici basqınına məruz qaldı.

E.ə. I əsrin ikinci yarısından etibarən Qərbi Gürcüstan və bütünlüklə Qara dəniz sahili boyu böyük etnik dəyişikliklərə məruz qaldı. Dağlıq bölgələrdə yaşayan və ibtidai icma quruluşunun dağılması mərhələsinə qədəm qoyan tayfaların Kolxidada məskunlaşması geniş miqyas aldı. Bu məskunlaşma kolxların bir hissəsinin köçməsi, bir hissəsinin assimilyasiyaya məruz qalması ilə müşaiət olunurdu. Yeni böyük tayfa ittifaqları yaranır, onların daxilində etnik konsolidasiya prosesləri baş verirdi. Bu prosesdə tədricən laz tayfaları başlıca rol oynamağa başlayırdılar.

63-cü ildə Kolxida Pontla birlikdə Roma əyalətinə çevrildi. Sahil boyu şəhərlərdə Roma qarnizonları yerləşdirildi. II əsrin əvvəllərində isə Kolxida Kappadokiya əyalətinə qatıldı, gəmilərin yan ala biləcəyi bütün sahil məntəqələrində qalalar inşa edildi, Roma legionerləri məskunlaşdırıldı. Lakin bütövlükdə Roma imperiyasında quldarlıq quruluşunun tənəzzülü, şəhərlərə "barbar" tayfaların basqınlarının intensiv xarakter alması Kolxidada sosial-iqtisadi vəziyyətə getdikcə daha çox mənfi təsir edirdi.

**Kartli (İberiya) dövlətinin güclənməsi.** Şərqi Gürcüstanda Ellinizmdən öncə – e.ə. IV əsrin ortalarında iri tayfa ittifaqlarının birləşməsi əsasında erkən dövlət qurumu yaranmaqda idi. Gürcü salnaməsi "Kartlis Sxovreba"ya görə, bu dövrdə *"mamasaxlis"* – tayfa ittifaqı başçısı və ya hakimi tədricən böyük səlahiyyətlərə malik olan hökmdara çevrilməkdə idi. **E.ə. IV əsrin sonunda** mamasaxlis nəslindən olan ***Azo*** Kartli dövlətinin əsasını qoydu. Kür sahilində salınmış və möhkəm divarlarla əhatə olunmuş ***Msxeti*** qalasını paytaxta çevirdi. Azo daha öncə Gürcüstanın cənub-qərbində





vilayət hakimi olmuşdu. O, Kiçik Asiyanın şimal-şərq bölgələrindən topladığı qoşunla Kürün orta axarı boyundakı möhkəmləndirilmiş məntəqələri ələ keçirdi. Azo yeni tabe etdiyi bu regionda öz mövqeyini möhkəmləndirmək üçün yerli əyanların bir hissəsini məhv etdi, əhali üzərinə çox ağır vergi və mükəlləfiyyətlər qoydu. Buna qarşı ölkədə güclü üsyan qalxdı. Üsyana yerli əyanların nümayəndəsi **Farnavaz** başçılıq etdi.

Farnavaz Kolxida hökmdarı Kucinin və Selevki hökmdarı I Antioxun köməyi ilə Azoya qarşı çıxdı və hakimiyyətə gəldi. E.ə. III əsrin 70-ci illərində Kartli hökmdarı Selevki basqınlarını dəf edərək, öz hakimiyyətini Gürcüstanın cənubuna və qərbinə yaydı. Kolxida şahlığını özünə tabe etdi. Lakin e.ə. II-I əsrlərdə Kartli hökmdarları erməni şahlığı ilə mübarizədə məğlub oldular. Nəticədə *Goqerana (Quqark) bölgəsi* itirildi.

İberiya yalnız yeni eranın I-II əsrlərində güclənərək itirdiyi ərazilərin çoxunu geri qaytara bilmişdi. Bu zaman Kartlinin yeni paytaxtı Armazi idi. Müasir dövrdə gürcü tədqiqatçıları Armazinin Msxeta qalasının inkişafı nəticəsində Kürün sol sahilində yaranmış yer kimi qəbul edirlər. Paytaxtın davamlı şəkildə Msxeta olduğunu bildirirlər.

İberiya e. ə. 66-cı ildə Pompeyin Cənubi Qafqaza yürüşü zamanı Romanın təsirinə düşdü. Pompey İberiyanı tutduqdan sonra buradakı qalaları çoxunda Roma qarnizonlarını yerləşdirdi və Böyük Qafqaz dağlağrına qədərki ərazini Roma dövlətindən asılı hala saldı. I əsrin 70-ci illərində Roma legionları həm Msxetada, həm də digər gürcü şəhərlərində qalmaqda idi. I əsrin ortalarında İberiyada da Parfiya Arşakilərinin nümayəndəsi taxta çıxarıldı və bütün Gürcüstan Roma-Parfiya, Roma-Sasani müharibələri zamanı ciddi ziyan çəkdi.

## Qafqaz uğrunda Parfiya-Roma rəqabəti

**Cənubi Qafqaz ölkələrinə Roma yürüşlərinin başlanması.** Qədim Roma dövləti e.ə. II əsrin ortalarında Aralıq dənizi hövzəsində ən güclü dövlətə çevrilmişdi. Selevkiləri ağır məğlubiyyətə uğradan romalılar Kiçik Asiyada geniş işğallara başlamışdılar. Roma legionerləri Pont və erməni dövlətləri ilə qalibiyyətli müharibələr nəticəsində Qafqazın cənub-qərb hüdudlarına qədər irəliləyə bilmişdilər. **E.ə. 66-cı ildə** isə Roma sərkərdəsi ***Qney Pompey*** onunla üz-üzə gəlməkdən qorxub Kolxidaya, oradan da Şimali Qafqaza – ***Bospor padşahlığına*** qaçan Pont hökmdarı VI Mitridatı təqib edib ələ keçirmək üçün Albaniya və İberiya ərazilərinə daxil oldu.

Roma tarixçisi Böyük Plini bu yürüşlə bağlı yazmışdır ki, Pompeyin Cənubi Qafqaz ölkələrinə yürüşünün bir məqsədi də Hindistandan Qara dəniz sahillərinə və Yunanıstana doğru uzanan ticarət yolunun Qafqazdan keçən hissəsi üzərində nəzarəti ələ keçirmək idi. Çünki, e.ə. I minilliyin ortalarından Yunanıstandan Qara dənizin Qafqaz sahilindəki Fasis şəhərinə, oradan Rioni çayı ilə Sarapan (Şorapani) qalasına kimi gəmi ilə gedir, oradan quru yolla İberiyaya və oradan axan Kür çayına, bu çayla Albaniya ərazisindən keçərək Xəzər dənizinə, oradan Oks (Amu-dərya) çayı vasitəsi ilə (qeyd olunan dövrdə Amu-Dərya və ya onun bir qolu Xəzər dənizi ilə əlaqədar idi – Q.Ə.) Baktriyaya, oradan da 7 günə Hindistana gedib çatmağa imkan verən ticarət yolundan istifadə edilməkdə idi. E.ə. II əsrin sonlarından etibarən Çindən Mərkəzi Asiyaya və Aralıq dənizi sahillərinə doğru Böyük İpək yolu ilə ticarət əlaqələrinin yaranması da Qafqazdan keçən yolların əhəmiyyətini artırmışdı.

Roma tarixçisi Appian "Mitridatika" adlı əsərində qeyd etmişdir ki, Pompey Kolxlar ölkəsindən yan keçərək yürüşə başlamışdı. Lakin bu zaman Albaniya hökmdarı ***Oroys*** və İberiya hökmdarı ***Artok*** Roma qoşununu öz ölkələrinə





buraxmaq istəmədilər və 70 minlik qoşunla onun qarşısını kəsdilər. Pompeyin "Bioqrafiyası"nı yazmış digər Roma müəllifi Plutarx isə qeyd etmişdir ki, Roma sərkərdəsi Erməni ölkəsindən keçib Albaniyaya daxil oldu, lakin qış mövsümü başladığı üçün Kür sahilində düşərgə saldı. Albanlar 40 minlik qoşunla Pompeyin düşərgəsinə hücum etdilər. Bu döyüş **E.ə. 66-cı ilin dekabr ayında** Kür çayı sahilində, çox güman ki, Qazax-Borçalı bölgəsində baş vermişdi. Çünki, Strabon Ermənistandan Albaniyaya Kür çayının dərəsi boyunca keçid olduğunu və əvvəlcə Pompeyin, sonra da Kanidinin bu keçiddən istifadə etdiklərini yazmışdır. Bu döyüşdə albanlar igidliklə vuruşsalar da, daha yaxşı təlim keçmiş və təcrübəli legionerlər qalib gəldilər. Döyüşdən sonra Albaniya hökmdarı elçilər göndərib Pompeylə sülh bağladı.

Romalılar Albaniyadan İberiyaya hərəkət etdilər. Pompey iberlərlə böyük döyüşə girdi və onları ağır məğlubiyyətə uğratdı. İberlərin 9 min döyüşçüsü həlak oldu, 10 mindən çoxu əsir alındı. İberiya hökmdarı Romaya tabe olduğunu bildirdi.

**E.ə. 65-ci ilin əvvəlində** Roma qoşunu Suram aşırımından keçərək Kolxidaya daxil oldu. Lakin VI Mitridat artıq bu ölkəni çoxdan tərk etmişdi. Pompey dağın ətəyində düşərgə yaratdı və Kolxida hökmdarının onun hüzuruna gəlməsini tələb etdi. Romalıların bu yürüşü zamanı Surium və Fasis şəhərləri ələ keçirildi. Pompey Kolxidanı Romanın vassalına çevirdi və onun idarəsini yerli sülalənin nümayəndəsi ***Aristarxa*** həvalə etdi.

Plutarxa görə, e.ə. 65-ci ildə Pompey yenidən Albaniyaya yürüş etmişdi. Çünki, Roma qoşunu İberiyaya hərəkət edəndə albanlar arxadan qəfil zərbələr vurmaqla onu qəzəbləndirmişdilər. Alban hökmdarının qardaşı ***Kozis*** 60 min piyada, 12 min atlıdan ibarət qoşunla romalıların qarşısını kəsdi. ***Alazan çayı vadisində ilə baş verən yeni döyüşdə*** Pompey hərbi hiylə işlədərək alban qoşununu tələyə saldı. Çoxlu

sayda alban döyüşçüsü məhv edildi. Bu döyüşdə romalılara qarşı kişilərlə yanaşı qadınlar da igidliklə vuruşmuşdular. Roma legionerləri döyüşdə çoxlu sayda yara almış qadın döyüşçülərin cəsarətlə vuruşmaqda davam etmələrindən heyrətlə bəhs etmişdilər. Bu hadisə antik müəlliflər tərəfindən Albaniyadan şimalda döyüşkən amazonkaların yaşamaları haqqında əfsanələrin yayılmasına səbəb olmuşdur.

Bu döyüşdən sonra Oroys Pompeyə çoxlu hədiyyə və girovlar göndərərək tabe olduğunu bildirdi. Dion Kassinin yazdığına görə, "Pompey albanlar ilə sülh sazişi, sonra da elçilər vasitəsi ilə Kaspi dənizinə qədər Qafqazın başqa tayfaları ilə müqavilələr bağladı".

Albaniya hökmdarı ilə barışıqdan sonra romalılar Xəzər sahillərinə doğru hərəkət etdilər. Lakin albanlar ölkənin içərilərinə doğru irəliləyən legionerlərə ciddi müqavimət göstərdilər, qəfil zərbələrlə düşmənin ağır itkilər verməsinə səbəb oldular. Ona görə də, Pompey qoşuna zəhərli ilanların tələfat verməsini bəhanə edərək, bu yürüşü yarımçıq dayandırıb geri döndü.

Pompeyin bu yürüşlərindən sonra Cənubi Qafqaz dövlətləri Roma tabeliyini qəbul etmək məcburiyyətində qaldılar. Pompeyin Romada zəfər keçidini təsvir edən Appian girovlar arasında erməni hökmdarı II Tiqran və oğlu, Pont hökmdarı VI Mitridatın 5 oğlu və 2 qızı, Kolxida hökmdarı *Olfak* (gürcü variantı Orxoz), İberiyadan 3, Albaniyadan 2 əyanın olmasını bildirmişdir. Roma müəllifinin məlumatına görə, Kapitoliyadakı təntənəli mərasim zamanı girovların heç biri edam edilməmiş, əksinə onların hamısı, hökmdar nəslindən olanlar istisna olmaqla, dövlət hesabına vətənlərinə qaytarılmışdı.

**Parfiyanın Cənubi Qafqazda möhkəmlənmək cəhdləri.** ***Parfiya*** və ya hakim sülalənin adı ilə ***Arşakilər dövləti*** **e.ə. III əsrin ortalarında** İranda yaranmış, Selevkilərin Orta Şərqdəki əyalətlərini bir-birinin ardınca özünə tabe etmiş və 100 il





sonra ən qüdrətli dövrünə qədəm qoymuşdu. Parfiya şahı II Mitridat (e.ə. 123-87) Selevkiləri məğlub edərək Ön Asiyada üstünlük qazanmış, ərazisini Fərat çayına qədər genişləndirmişdi. Arşaki hökmdarı bu zaman, artıq yuxarıda qeyd edildiyi kimi, erməni şahlığını da məğlub etmiş, Cənubi Qafqaz hüdudlarında mövqeyini möhkəmləndirmişdi.

E.ə. I əsrin ortalarında Qafqaz uğrunda Roma ilə Parfiya arasında mübarizə həlledici mərhələyə qədəm qoydu. Bu zaman Cənubi Qafqaz dövlətləri Romadan asılı halda idi. E.ə. 54-cü ildə Roma sərkərdəsi ***Mark Krass*** Parfiyaya hücum etdi. Bu zaman erməni şahı II Artavazd (e.ə. 55-34) 6 min atlı ilə romalıların ordugahına gəldi və daha 10 min atlı və 30 min piyada qoşunla yardım göstərməyi vəd etdi. Atropaten isə Arşakilər tərəfindən çıxış etdi. Arşaki hökmdarı ***Orod*** böyük qoşunla Ermənistana daxil oldu, oğlu Suren isə **e.ə. 53-cü il mayın 6-da** İkiçayarasının şimalında ***Karr*** şəhəri yaxınlığında baş verən döyüşdə Krassın başçılıq etdiyi Roma qoşununu darmadağın etdi. 20 min legioner, o cümlədən Krass öldürüldü. Romalıların məğlub olmasından dərhal sonra II Artavazd vədinə xilaf çıxaraq Parfiya tərəfə keçdi. Erməni hökmdarının Parfiya ilə imzaladığı müqaviləyə görə, bundan sonra Ermənistan Arşakilərin müttəfiqi kimi çıxış etməli idi.

Roma bu məğlubiyyətinin əvəzini **e.ə. 38-ci ildə** ***Gindar döyüşündə*** çıxmağa müvəffəq oldu. ***Mark Antoninin*** başçılıq etdiyi Roma legionerləri bu qələbədən sonra Şərqə böyük yürüşə başlamağı qərara aldılar. **E.ə. 36-cı ildə** başlanan yürüşdə romalılar 100 minlik hərbi qüvvəyə, 300-dən çox divar deşən, daş atan silahlara və s. mühasirə texnikasına malik idilər.

Roma sərkərdəsi Antoninin Parfiyaya qarşı yeni başladığı bu müharibədə ilk öncə uğur qazandı. Belə olan təqdirdə erməni hökmdarı II Artavazd bu dəfə Roma tərəfinə keçdi. Antoni onun müttəfiqi kimi çıxış edən erməni hökm-

darı II Artavazdın məsləhəti ilə bu böyük ordunu dağlıq bölgələrdən keçən çətin yollarla Atropaten üzərinə apardı, Fraaspa şəhərini mühasirəyə aldı.

Lakin Parfiya-Atropaten əsas qüvvələri hələ yolda olan Roma legionlarına hücum edib mühasirə texnikasını məhv etdilər. Romalılar başlıca zərbə qüvvəsindən məhrum oldular. Erməni şahı da bundan sonra növbəti dəfə xəyanət edib öz qoşununu çəkib apardı. Romalılar 35 min döyüşçü itirdikləri üçün, bu yürüşü dayandırıb geri döndülər.

Antoni II Artavazdın xəyanətkarlığını bağışlamadı. Roma sərkərdəsi geri çəkilərkən Ermənistana daxil oldu, paytaxt Artaşatı dağıtdı, II Artavazdı qızıl zəncirlərlə qandalladıb İsgəndəriyyəyə – Kleopatranın yanına göndərdi. Kleopatra da ona lazımı səviyyədə təzim etməyən erməni şahının boynunu vurdurdu.

Bu hadisədən sonra Erməni şahlığında hakimiyyətə II Artaşes (e.ə.30-20) gəldi. Atasının yerinə taxta çıxan Artaşes romalılara müqavimət göstərə bilmədi və Parfiyaya qaçdı. O, Parfiyadan aldığı hərbi qüvvə ilə Ermənistandakı Roma qarnizonlarını məhv etdi.

Buna cavab olaraq Oktavian Avqust II Artaşesi taxtdan götürüb, yerinə Roma tərbiyəsi görmüş III Tiqranı çıxardı. Mənbələr həmin dövrdə Erməni dövlətinin ali idarəçiliyinin Atropatenə verildiyini və 40 ilə yaxın bir dövrdə Ermənistanın Atropaten hökmdarları vasitəsiylə idarə olunduğunu qeyd etmişlər. Buna baxmayaraq Erməni şahlığı bir müddət öz daxili müstəqilliyini saxlaya bilmişdi. E.ə. 8-ci ildə Ermənistan taxtına IV Tiqran çıxarılması da bunu təsdiqləyir.

E.ə. I əsrin 30-cu illərinin ortalarında Parfiya şahı IV Fraat ilə ***Atropaten hökmdarı Artabazanın*** arası dəymişdi. Çünki Roma üzərində qələbədən sonra Parfiya Atropateni özünə tabe etmək fikrinə düşmüşdü. Buna yol vermək istəməyən Atropaten hökmdarı Roma ilə yaxınlaşdı, onunla hərbi ittifaq yaratdı. Oktavianın Antoni üzərində qələbəsindən sonra bu





yaxınlıq daha da möhkəmləndi. Ermənistanın idarəsinin Atropaten hökmdarı Artabazana, **e.ə. 20-ci ildə** isə oğlu II Ariobarzana həvalə edilməsi bunun göstəricisi idi.

Atropaten hökmdarlarının Ermənistanı idarə etməsi Oktavian Avqustun ölümünə qədər (y.e.-nın 14-cü ili) davam etdi. Həmin vaxt II Ariobarzan sui-qəsd nəticəsində öldürüldü. Erməni taxtına Roma tərəfindən Zenon (18-34), ardınca İberiya hökmdarı Farsmanın qardaşı Mitridat, sonra isə oğlu Radamist çıxarıldı.

Beləliklə, **yeni eranın 20-ci illərindən etibarən *Ermənistanda Artaşeslər sülaləsinin hakimiyyətinə* son qoyuldu və bu ölkə Romanın təyin etdiyi hakimlər tərəfindən idarə edilirdi.**

E.ə. 30-20-ci illərdə Ermənistanda siyasi həyat haqqında maraqlı məlumatları numizmatik materiallar verir. Belə ki, bu dövrə aid olan sikkələrdə Erməni dövləti alliqorik olaraq qadın obrazında əks olunmuşdur və o, Roma imperatorunun dizləri üzərində oturmuş formada verilmişdir. Daha sonrakı dövrdə, Mark Avrelinin və Lutçi Veranın dövründə zərb edilmiş sikkələrdə də Ermənistan qadın obrazında Roma əsgərinin əsiri kimi əks olunmuşdur.

Antoni **e.ə. 36-cı ildə** yaxın silahdaşı ***Kanidi Krassın*** başçılığı ilə Albaniya və İberiya üzərinə də qoşun göndərmişdi. E.ə. I əsrin ortalarında bu ölkələr Roma tabeliyindən çıxdıqları üçün, Antoni Cənubi Qafqazda mövqelərini yenidən möhkəmləndirməyə cəhd etmişdi. Plutarxın məlumatına görə, Kanidi iber və albanların basilevslərinə (hökmdarlarına) qalib gəlmişdi. Lakin bu dövlətlərdə yerli sülalələr hakimiyyətdə qaldılar.

**Cənubi Qafqaz dövlətlərində Arşakilərin nümayəndələrinin hakimiyyətə gəlməsi.** Artıq yuxarıda qeyd edildiyi kimi, Ön Asiyada Roma ilə Parfiya arasında rəqabətin artdığı bir dövrdə Roma Ermənistanda yerli sülalələrin hakimiyyətinə son qoymuşdu. I əsrin 20-ci illərindən Ermənistanda Roma canişini Zenon, daha sonra isə İberya şahı Farsmanın qar-

daşı Mitridat, sonra isə oğlu Radamist idarəçiliyə rəhbərlik etmişdilər. Bu haqda çoxsaylı qaynaqlar, o cümlədən Roma müəllifləri Dion Kassi və Tatsitin verdiyi məlumatlar da bunu təsdiq edir.

Yeni eranın əvvəllərindən etibarən Parfiya yenidən Cənubi Qafqazda mövqeyini möhkəmləndirmək istiqamətində addımlar atdı. Artıq yeni eranın 20-ci ilində Atropaten Parfiya əyalətinə çevrildi, Arşaki nümayəndəsi tərəfindən idarə edilməyə başlandı. I əsrin ortalarında, Parfiya çarı I Valaqesin dövründə Albaniyada da Arşaki sülaləsinin başqa bir nümayəndəsi Vaçaqan hakimiyyətə gətirildi. Lakin müasir erməni tarixçilərinin iddialarının əksinə olaraq, Albaniya arşakiləri erməni arşakilərindən törəmə olmayıb, birbaşa Parfiya arşakiləri ilə bağlı idi və sonrakı dövrdə yerli əhali ilə qaynayıb qarışaraq tədricən türkləşmişdi.

**51-ci ildə** Parfiya Roma ilə mübarizədə növbəti dəfə uğur qazandı və Erməni şahlığı Parfiyaya tabe edildi. Parfiya şahı I Valaqes qardaşı Trdatı Ermənistana hökmdar təyin etdi. Bu hadisə ilə Ermənistanda yeni sülalə hakimiyyətə gəlmiş oldu. Erməni əyanları hakimiyyətə yeni sülalənin – **Arşakilərin** gəlişini müsbət qarşıladılar.

Lakin Roma bu faktla razılaşmaq istəmirdi. **63-cü ildə** Roma ilə Parfiya arasında əldə olunmuş razılığa əsasən Ermənistanda ikihakimiyyətlik elan olundu. Parfiya ilə Roma arasında əldə olunmuş sazişə əsasən Trdat Romaya gedib imperator Nerondan tacqoyma mərasimini Roma qaydaları ilə icra etmək göstərişi aldı.

Neronun bu güzəşti taktiki gediş idi. Belə ki, o, Qafqaza yürüşə hazırlaşırdı, lakin sui-qəsd nəticəsində öldürülməsi bu planı yarımçıq qoydu. **115-ci ildə** Roma imperatoru Trayan Şərqə böyük yürüş etdi. Bu yürüş zamanı romalılar Ermənistanı, Parfiyanın bir sıra əyalətlərini,o cümlədən də paytaxtı Ktesifon şəhərini də ələ keçirdilər. Lakin 117-ci ildə onun ölümündən sonra bu ərazilər, o cümlədən də Erməni





şahlığı yenidən Parfiyanın hakimiyyəti altına düşdü. Trayanın xələfi Adrian Erməni şahlığında Arşakilər sülaləsini bərpa etdi. Buna baxmayaraq 185-ci ilə qədər Ermənistanda Roma qarnizonları qalmaqda idi. Hətta Erməni şahı Papın dövründə də (369-374) erməni sarayında magister militum Trayan və digər imperiya zabitləri qalırdı və Erməni şahlığı Roma imperiyasına xərac ödəyirdi.

III əsrin 20-ci illərində Parfiya dövlətinin, Arşakilər sülaləsinin varlığına son qoyuldu və **226-cı ildə** I Ərdəşir tərəfindən yeni – ***Sasani sülaləsinin*** əsası qoyuldu. Sasanilər dövləti Erməni şahlığında Arşakilər sülaləsinə toxunmadı. Lakin onun Roma ilə yaxınlaşmasına qarşı kəskin tədbirlər görməkdən də çəkinmədi. 252-ci ildə I Şapur Ermənistan şahlığını birbaşa Sasani dövlətinə tabe edib idarəçiliyini oğluna tapşırdı. Ermənistan uğrunda Roma-Sasani mübarizəsi 298-ci ilə qədər davam etdi və Romanın qələbəsi ilə başa çatdı. Lakin Arşakilər Ermənistan ərazisində öz mövqelərini saxlaya bildilər. **298-ci ildə** isə *Nisibin sülhü* imzalandı. Müqaviləyə görə, Ermənistanın qərb əyalətləri Romanın, Şərq əyalətləri isə Sasanilərin tabeliyinə keçdi.

## Şimali Qafqaz qədim dövrdə

**Dəmir dövrünə keçidin sosial-iqtisadi nəticələri.** E.ə. I minilliyin əvvəlində Şimali Qafqazda Tunc dövründən Erkən Dəmir dövrünə keçid baş verdi. Bu regionda yaşayan tayfalar artıq e.ə. VIII əsrdən etibarən dəmirdən geniş miqyasda istifadə etməyə başlamışdılar. Əvvəlki dövrlərdə olduğu kimi, bu dövrdə də əhalinin əsas məşğuliyyəti düzənlik və dağətəyi bölgələrdə əkinçilik, dağlıq və bəzi düzənlik bölgələrdə isə maldarlıq idi.

Əkinçilikdə dəmir xışdan, ağacdan hazırlanmış və dəmir gavahınlı kotandan, həmçinin dəmir oraq və bağ bıçaqla-

rından istifadə tədricən geniş miqyas alırdı. Dəmir alətlərin sayəsində hər yerdə əkin sahələri genişlənir, hətta yüksək dağlıq bölgələrdə süni surətdə əkin sahələri yaradılırdı. Əsasən taxıl bitkiləri (buğda, arpa, darı), qismən də paxlalı bitkilər becərilirdi. Şimali Qafqazın Xəzər və Qara dəniz sahili boyunda bağçılıq, üzümçülük də müəyyən yer tuturdu. Taxıl xüsusi hazırlanmış, divarları gillə suvanmış quyularda saxlanırdı.

Maldarlıqda əsas yeri iri və xırdabuynuzlu mal, donuz, at saxlanması tuturdu. İribuynuzlu mal-qara hər yerdə saxlanırdı. Mərkəzi Qafqazın dağlıq bölgəsində isə qoyunçuluq üstün yer tuturdu. Tədricən atçılıq da önəmli yer alırdı.

Sənət sahələri içərisində metalişləmə, xüsusən dəmirçilik güclü inkişaf etməkdə idi. Dəmirdən əmək alətləri ilə yanaşı, silah hazırlanması da mühüm yer tuturdu. Tuncdan isə tədricən paltar ləvazimatı (toqqa, kəmər, sancaq və s.), bəzək əşyaları və at yəhər-yüyəni üçün lazım olan əşyalar hazırlanmasına keçilirdi. Bu dövrdə həmçinin sənətkarlığın əkinçilikdən ayrılması – ikinci ictimai əmək bölgüsü baş verirdi.

Məhsuldar qüvvələrin inkişafı əhalinin sayının sürətlə artmasına, daha çox sərvətlər yaradılmasına imkan verirdi. Oturaq əhalinin sayı təkcə təbii artım hesabına deyil, həm də köçəri tayfaların oturaq həyata keçməsi hesabına çoxalırdı.

Kütləvi yerdəyişmələr, hərbi yürüşlər və toqquşmalar tayfa əyanlarının hakimiyyətini möhkəmləndirir, daha çox sərvətin onların əlində cəmləşməsinə imkan yaradırdı. Dağıstanda, Kuban boyunda tayfa əyanlarının dəfn edildiyi kurqanların zəngin inventarı bəhs olunan dövrdə əmlak bərabərsizliyinin yetərincə dərinləşdiyini göstərir. Dağıstanda bu dövrdə hətta patriarxal qulçuluq mövcud idi.

Tədricən qohum tayfaların, hətta bir ərazidə yaşayan digər tayfalarında daxil olduğu iri etno-siyasi birliklər yaranırdı. İbtidai icma qaydalarının dağıldığı bu mərhələ tarixi ədəbiyyatda hərbi demokratiya dövrü kimi xarakterizə edilmişdir. Çünki müharibə aparmaq və yeni-yeni müharibələrə





hazırlaşmaq insanların həyatında çox vacib bir funksiyaya çevrilmişdi. Bu isə, öz növbəsində, tayfa başçılarının hərbi rəislərə çevrilməsinə, sıravi icma üzvləri ilə onlar arasında əmlak bərabərsizliyinin artmasına, ictimai təbəqələşmənin dərinləşməsinə səbəb olurdu.

Bu proseslər Şimali Qafqazın müxtəlif yerlərində fərqli sürətlə baş verirdi. Düzənlik, Xəzər və Qara dəniz sahili və Cənubi Qafqaza keçidlərin (Dərbənd, Daryal) olduğu ərazilərdə ictimai inkişaf daha intensiv gedirdi. Yüksək dağlıq bölgədə isə inkişaf tempi nisbətən ləng idi. Ümumiyyətlə, dəmir dövrünün başlanması bütün regionda sosial-iqtisadi proseslərə öz təsirini göstərmişdi.

**Kimmerlər və iskitlər.** Şimali Qafqazın qədim dövr tarixi haqqında yazılı məlumatlar daha məhduddur. Çünki İkiçayarası, Assuriya və Urartu üçün Şimali Qafqaz daha uzaq bölgə idi və buranın əhalisi ilə əlaqələri də yox dərəcəsində idi. Bununla belə, qədim zamanlardan Krımda və Qismən də Qafqazın şimal-qərbində tavrların yaşaması güman edilir. Bu haqda daha sonrakı dövrə aid yunan qaynaqları məlumat vermişdir. Antropoloji tədqiqatlar da tavrların çox qədim çağlardan bu bölgənin yerli əhalisi olduğunu göstərir.

Şimali Qafqazın elmə adları bəlli olan ilk sakinlərinin kimmerlər olması haqqında əvvəlki bölmələrdə bəhs edilmişdir. Kimmerlərin Qara dənizin şimal-şərq və şimal sahillərində Tunc dövründən yaşamaqda olduqları arxeoloji tədqiqatlarla təsdiqlənir. Qədim yazılı qaynaqlara əsasən, e.ə. II minilliyin sonu – I minilliyin əvvəlində kimmerlərin Kerç və Taman yarımadalarında yaşamaları, e.ə. VIII əsrin sonunda Meot-Kulxa yolu ilə Cənuba Qafqaza və Ön Asiyaya yürüş etmələri məlumdur. Bu yürüşlər nəticəsində Böyük Qafqaz dağlarının hər iki tərəfində yaşayan tayfaların bir-biri ilə və Ön Asiya ilə əlaqələri genişləndi. Şimali Qafqazın dağlıq bölgələrində Assuriya və Urartu dəbilqələri, Luristan xəncərləri, Cənubi Qafqaz ustalarının hazırladıqları döyüş

baltaları, Aralıq dənizi boyuna xas olan at yüyənləri aşkar edilməsi bu əlaqələrin yetərincə geniş miqyas almasının göstəricisi hesab edilir.

E.ə. VIII-VII əsrlərdə kimmerlər çox güclü tayfa birlikləri yaratmışdılar. Onlar yaxşı silahlanmış atlı qoşunla Qədim Şərq dövlətlərinə uğurlu yürüşlər etmişdilər. Bu haqda həm Assuriya və Urartu kitabələri, həm də Herodot maraqlı məlumatlar vermişdir.

Herodot kimmerlərin öz daimi məskənləri olan Şimal-qərbi Qafqazdan cənuba böyük yürüş etmələrini iskitlərin bu regiona basqını ilə əlaqələndirmişdir. Qədim yunan tarixçisi yazmışdır ki, daha öncədən Asiyada (Mərkəzi Asiyada – Q.Ə.) yaşayan iskitlər massagetlərin təzyiqi ilə qərbə axın etmiş və kimmerlər ölkəsinə soxulmuşlar. Bu zaman kimmerlərin çox hissəsi cənuba yürüş etmiş, öz torpaqlarında qalanlar isə iskitlərlə qaynayıb qarışmışdılar. Tədqiqatçıların çoxu bu hadisələrin e.ə. VIII əsrin sonu – VII əsrin əvvəlində baş verdiyini qeyd etmişlər. Həmin dövrdən etibarən iskitlər Qara dənizin şimal sahili boyunda və Şimal-qərbi Qafqazda əsas etno-siyasi qüvvəyə çevrildilər. Bununla əlaqədar antik müəlliflər haqqında bəhs edilən regionu «Skifiya» (İskitlər ölkəsi) adlandırmağa başladılar.

İskitlər də ilk vaxtlarda kimmerlər kimi köçəri həyat sürür və iri tayfa birlikləri şəklində yaşayırdılar. Sərəncamlarında çoxsaylı və yaxşı silahlanmış atlı döyüşçülər olan iskit tayfa başçıları e.ə. VII əsrin 70-ci illərində Cənubi Qafqaza böyük yürüşə başladılar. Həm də bu zaman iskitlərin əsas hissəsi Xəzər sahili boyunca Dərbənd keçidindən keçməklə hərəkət etdilər. Lakin iskitlərin bir qismi də Dəryal, Mamison və Kluxor keçidlərindən istifadə etmişdilər. Bu böyük yürüş Şimali Qafqazın düzənlik və dağətəyi bölgələrində yaşayan tayfaların da həyatına ciddi təsir etdi. Bəzi yaşayış məskənləri (məsələn, Dağıstanda Şah-Səngər) məhv oldu, əhalisinin sayı azaldı. Bu sonuncu cəhət yerli tayfaların da iskit yürüşlərinə cəlb edilmələri ilə əlaqədar idi.





İskitlərin Cənubi Qafqazda və Ön Asiyada hərbi-siyasi fəallığı e.ə. VII əsrin sonuna kimi davam etmişdi. İskitlər e.ə. 612-ci ildə Midiya şahı Kiaksarın müttəfiqi kimi Nineviyanın tutulmasında iştirak etmiş, bir il sonra isə sonuncu Assuriya hökmdarı Aşşurbanipalı Misirə qədər təqib etmişdilər. Herodota görə, Kiaksar qələbədən sonra düzəltdiyi qonaqlıqda iskitlərin başçılarını sərxoş edib qılıncdan keçirmişdi. Bundan sonra iskitlərin çoxu vətəninə – Şimali Qara dəniz sahillərinə dönmüşdü.

Midiyanın zərbəsindən sonra e.ə. VI əsrin əvvəllərində iskitlərin əsas kütləsi Şimal-qərbi Qafqaza, Qara dənizin şimalına qayıtmış, burada öz dövlət qurumlarını yaratmışdılar. İskit şahlığı uzun müddət öz varlığını saxlamış, hətta Əhəməni şahı I Daranın e.ə. 512-ci ildə böyük yürüşünün qarşısını almışdılar. Daha sonrakı dövrdə iskitləri Şimali Qafqazdan sarmat (sarvomat) tayfaları sıxışdırmışlar. Lakin tavrlar kimi, iskitlər də Şimali Qafqazda yaşamaqda idilər. Bəzi müəlliflər sarmatların Mərkəzi Asiyadan köçüb gəlmələrini düzgün saymır, iskitlərin irandilli qolunun siyasi hegemonluğu ələ alması kimi qiymətləndirirlər.

E.ə. VI əsrdən Şimali Qafqazda iskitlərin fəal təsiri ilə ciddi dəyişikliklər baş verirdi. İskit mədəniyyətinin izləri daha aydın şəkildə hiss olunmağa başlayırdı. Arxeoloji qazıntılar zamanı bu dövrə aid yaşayış məskənlərindən və qəbirlərdən iskit mədəniyyəti üçün xarakterik olan silah, at yəhər-yüyəni, incəsənət nümunələri aşkar edilməsi bunu təsdiq edir. Şimali Qafqaz düzənliklərində yaşayan iskitlər Stavropol, Nartan, Kelermes kurqanlarındakı zəngin maddi mədəniyyət nümunələri ilə bu regionda yaşayan tayfaların həm də Krım, Şimali Qara dəniz sahili boyu, Xəzər ətrafı və Volqaboyu ilə sıx əlaqələr saxladıqlarını göstərmişlər.

**Meotlar və sindlər.** Şimal-qərbi Qafqazın əhalisinin mühüm bir hissəsini çox qədim dövrlərdən meotlar təşkil

edirdi. Meot adı antik qaynaqlarda ilk dəfə e.ə. VI əsrdən etibarən çəkilməyə başlanmışdır. Bu ad ümumi şəkildə Azov dənizindən şərqdə və Qafqazın Qara dəniz sahili boyunda yaşayan tayfaları bildirirdi. Yunan müəllifləri sonrakı yüzilliklərdə meot tayfalarına daxil olan və bir-biri ilə qohum hesab etdikləri kerket, topet, zix, axey (appex) tayfalarının adlarını çəkmişlər. Strabon isə meotlara dandaray, sind, topeat, appex, tarpet, sittaken, dosx və digər tayfaları aid etmişdir. Qafqazşünasların əksəriyyəti meotları Şimali Qafqazın yerli tayfaları hesab edir və onların dillərinin Qafqaz dil ailəsinin adıq-kabardin etnosunun dil qrupuna yaxın olduğunu bildirirlər. Arxeoloji tədqiqatlar da, meotların maddi mədəniyyət nümunələri ilə orta yüzilliklərdə yaşamış adıq tayfalarının maddi mədəniyyət abidələri arasında sıx bağlılıq və varislik olduğunu müəyyən etmişdir.

Antik müəlliflərin məlumatları və arxeoloji tədqiqatların nəticələri meotların Kuban çayının aşağı və orta axarı boyundan şimalda, düzənlik ərazidə savromatlarla qonşu olduqlarını, şərqdə Stavropol yaylasına, Cənubda Böyük Qafqaz dağlarının şimal yamaclarına qədər geniş ərazidə yaşadıqlarını güman etməyə əsas vermişdir. Lakin ayrı-ayrı tayfaların konkret olaraq yaşadıqları bölgəni müəyyənləşdirmək hələki mümkün olmamışdır. Bu baxımdan, sindlər istisnalıq təşkil edirlər. Sind tayfaları, antik qaynaqlara görə, Taman yarımadasında Kuban çayının sol sahili və Qara dənizin sahili boyunca Sind limanına (indiki Anapa) kimi ərazidə məskun idilər. Strabon sindlərin qonşuluğunda axeylərin, daha sonra zixlərin və kerketlərin yaşadıqlarını qeyd etmişdir.

Sovet hakimiyyəti dövründə arxeoloqlar Yeddiqardaş və Qaraqaqeş kurqanlarını tədqiq edərək sind-meot tayfalarının yaşadıqları bölgələrdən iskit abidələrindən tapılmış silah, bəzək və s. əşyalara bənzər maddi mədəniyyət nümunələrinin aşkar edilməsini, bu tayfaların qarşılıqlı əlaqələri-





nin çox sıx olması ilə izah etmişlər. Kubanın sağ sahili boyunda və Azov dənizindən şərqdə yaşayan tayfaların məişətində və təsərrüfat həyatında iskit təsiri daha güclü idi. Bu bölgədə iki təsərrüfat tipi: oturaq əkinçilik və köçəri maldarlıq, əsasən də atçılığın mövcud olması da bilavasitə iskit təsiri ilə bağlı idi.

Meotların ictimai quruluşu əmlak bərabərsizliyi şəraitində tayfa ittifaqlarının güclənməsi ilə xarakterizə edilirdi. Məhsuldar qüvvələrin inkişafı, ticarət əlaqələrinin genişlənməsi, hərbi yürüşlər tayfa başçılarının əlində sərvətlərin əsas hissəsinin cəmləşməsinə səbəb olurdu.

**Yunan koloniyaları. Bospor şahlığı.** Şimali Qafqazın Qara dəniz sahili boyunda qədim yunan koloniyalarının yaranması e.ə. VI əsrdən başlanmışdı. Qədimdə Kimmer Bosporu adlanan Kerç boğazının hər iki sahilində bu dövrdə çoxlu sayda yunan məskənləri salınmışdı. Onların içərisində ən böyükləri Pantikapey (indiki Kerç şəhərinin yerində) və boğazın digər sahilində – Taman yarımadasında salınmış Fanaqoriya idi. Fanaqoriyadan şimalda miletlilərin əsasını qoyduqları Kepa, qərbdə isə Germanassa (Taman stanitsasının yerində) da Şimali Qafqazın yerli əhalisi ilə ticarətdə müəyyən rol oynayırdı. İndiki Anapanın yerində – sind tayfalarının torpağında Sind limanı adlı yaşayış məskəni salınmışdı. E.ə. IV əsrin əvvəlində bu məntəqə Qorqippiya adını aldı və Qara dəniz sahili boyunda Fanaqoriya ilə yanaşı çox böyük şəhərə çevrildi. Bu dövrdə Fanaqoriya Kuban boyunda yaşayan bütün tayfalarla aparılan ticarəti öz əlində cəmləşdirmişdi.

E.ə. V əsrin 80-ci illərində Kimmer Bosporu sahili boyundakı şəhərlər birləşərək Bospor padşahlığı yaratdılar. Paytaxtı Pantikapey olan bu dövlətdə e.ə. 438-ci ildə Spartokilər sülaləsi hakimiyyətə gəldi. İlk Spartoki hökmdarları dövlətin ərazisini Krımda Feodosiyaya qədər genişləndirdilər, Şimal-qərbi Qafqazda isə yunan şəhərlərinin qonşu-

luğunda yaşayan sind tayfalarını da özlərinə tabe etmişdilər.

Bospor padşahlığından şərqdə isə bilavasitə bu dövlətin təsiri ilə müstəqil Sindika dövlət qurumu yaranmışdı. Bu dövlətin mövcudluğunu həmin ərazidən aşkar edilmiş sind sikkələri və şəhər qalıqları təsdiq edir. Arxeoloqlar Kuban çayının aşağı axarı boyunun sol sahilində e.ə. V əsrin ikinci yarısında salınmış şəhər aşkar etmişlər. Şəhər möhkəm daş divarlarla, bürclərlə əhatə edilmişdi. Tədqiqatçıların fikrincə, bu şəhər Sindikanın paytaxtı olmuş, Kuban hövzəsinin başlıca ticarət mərkəzi rolunu oynamışdır. Şəhərin kənarında sind əyanlarının və hökmdarlarının dəfn olunduğu kurqanlar aşkar edilmişdir.

E.ə. V əsrin sonu – IV əsrin əvvəlində Bospor hökmdarı Satir öz qızını Sindika hökmdarı Hekataya ərə verərək möhkəm ittifaq yaratmışdı. Sind-Bospor koalisiyası uzun müddət meotlara qarşı müharibələr aparmışdı. Yalnız Satirin varisi bahalı hədiyyələr göndərməklə Meot tayfa başçıları ilə sülh bağlaya bilmişdi.

E.ə. IV əsrin əvvəlində Sindika müstəqilliyini itirdi və Bospor padşahlığının tabeliyinə keçdi. Nəticədə Bospor padşahlığının təsiri Şimal-qərbi Qafqazda geniş bölgəyə yayıldı. Bu dövrdə meot tayfalarının da çoxu tabe edilmişdi. Nəticədə Meot tayfaları hər il taxılla xərac ödəməyi öhdələrinə götürdülər və Bospor tacirlərinə öz torpaqlarında sərbəst şəkildə ticarət etməyə icazə verdilər.

Orta Kuban boyunda yaşayan meot tayfalarının yunan koloniyaları ilə iqtisadi əlaqələri e.ə. V əsrdən yaransa da, Bospor padşahlığının və Afinanın taxıla tələbatının artması ilə bağlı, onlar arasında ticarətin həcmi sonrakı dövrdə daha geniş miqyas almışdı. E.ə. IV əsrdə Kuban çayının orta axarı boyunda yunan istehsalı olan əşyaların çoxalması bununla bağlı idi.

Bospordan Afinaya və digər yunan dövlətlərinə taxılla yanaşı, duza qoyulmuş balıq, mal-qara, dəri, xəz və qullar





göndərilirdi. Əvəzində, Yunanıstandan şərab, zeytun yağı, saxsı qab-qacaq, metal əşyalar, bahalı parçalar, gümüş bəzək əşyaları, tikinti üçün mərmər, heykəl və vazalar gətirilirdi. Bu əşyaların bir qismi Bospor şəhərlərində qalsa da, mühüm bir hissəsi tacirlər tərəfindən Kuban boyunda yaşayan tayfa əyanlarına aparılır, taxıla, mal-qaraya, qullara dəyişdirilirdi.

Sind və meot tayfalarının Bosporla iqtisadi və siyasi əlaqələri mədəni həyata da öz təsirini göstərirdi. Meotlar antik dünyanın maddi və mənəvi mədəniyyət sahəsində qazandıqları bir çox nailiyyətlərlə tanış idilər. Meotlar yunanların təsiri ilə dulus çarxı ilə tanış olmuş, amfora tipli qab-qacaqdan, bəzək əşyalarından istifadə etməyə başlamışdılar. İcma və tayfa əyanları yunan zirehli geyimlərini həvəslə geyirdilər. Sindlər antik şəhərsalma qaydalarından istifadə edirdilər.

Yunan məskənləri də, öz növbəsində, yerli tayfaların mədəniyyətindən bəzi şeyləri əxz edirdilər. Bosporlular yerli tayfalardan bir sıra silah növləri, döyüş taktikası üsullarından istifadə etməyi, daha rahat və praktik olan paltar geyməyi öyrənmişdilər.

Kuban boyundan şərqdə yaşayan əhaliyə antik mədəniyyətin təsiri daha zəif idi. Bu bölgədə tədqiq edilmiş abidələrdən yalnız nadir hallarda yunan və Bospor qabları, zirehli geyimi, bəzək əşyaları tapılmışdır. Bu region üçün iskit tipli silahlar və məişət əşyaları xarakterik idi.

Çeçenistanda və Dağıstanda yaşayan yerli tayfaların həyatında isə e.ə. VI-IV əsrlərdə yunan koloniyalarının təsiri, demək olar ki, hiss olunmurdu. Bu bölgələrdə yaşayan tayfalar haqqında antik qaynaqlarda çox az və ziddiyyətli məlumatlar verilməsi də bununla bağlıdır.

**Sarmatların Şimali Qafqazda məskunlaşması.** Yeni eradan əvvəlki son əsrlərdə Şimali Qafqazın düzənlik və dağətəyi bölgələrində köçəri sarmat (savromat) tayfalarının məskunlaşması baş verirdi. Tədqiqatçıların fikrincə, bu tayfala-

rın ilkin vətəni Xəzər dənizinin şimal sahili boyu olmuşdur. E.ə. III əsrdə sarmat tayfaları içərisində aorslar hakim mövqe tutdular və güclü siyasi birlik yaratdılar. Aorslar qərbə və cənuba hərəkət edərək Şimali Qafqazın düzənlik hissəsində yaşayan digər sarmat tayfaları ilə – siraklarla toqquşdular.

Strabon e.ə. I minilliyin sonunda Şimali Qafqazın düzənlik və dağətəyi hissəsində yaşayan bu tayfalar haqqında yazmışdır ki, siraklar Axardey (Manıç) çayı boyunda düzənlik ərazidə, aorslar isə Xəzər sahili boyunda geniş ərazidə yaşayırdılar.

Sarmat tayfalarının Şimal-qərbi Qafqaza doğru irəliləmələrinin qarşısını ilk vaxtlar meot tayfaları və Bospor dövləti ala bilsə də, Şimali Qafqazın mərkəz hissəsində yaşayan Koban mədəniyyəti daşıyıcıları ciddi müqavimət göstərə bilmədilər. Sarmatlar yerli tayfalardan sayca üstün qoşuna malik olmaqla yanaşı, iskitlər kimi çox məharətlə vuruşmağı bacaran atlı döyüşçülər idilər. Onlar kaman və ox, uzun qılınc və ağır nizələrlə silahlanmışdılar.

E.ə. III əsrdə bu bölgələrdə yerli dəfnetmə adətlərinin tədricən sıradan çıxması, yerli oturaq tayfaların sarmatlarla qaynayıb-qarışmaqda olduğunu göstərirdi. Bu dövrdə Şimali Qafqazın mərkəzi dağətəyi və düzənlik bölgələrində sarmatlara xas olan kurqan qəbirləri başlıca yer tuturdu. Arxeoloqlar Etoko, Kişpek, Çeqem-I və digər kurqanlardan düzbucaqlı katokombalar aşkar etmişlər. Siraklara məxsus olan bu katakombalarda dəfn edilən şəxsin yanına sarmat keramikası, dəmir qılınclar və ox ucluqları, sındırılmış güzgü qoyulmuşdur.

Sarmatlar Böyük Qafqaz dağlarına doğru irəliləməklə oradan Cənubi Qafqaza doğru keçidləri nəzarət altına almağa çalışırdılar. Bu tayfaların digər hədəfi Bospor padşahlığı idi. Sarmatlar özləri birbaşa Şimali Qara dəniz sahili boyundakı antik şəhərlərlə iqtisadi və siyasi əlaqələr qurmağa can atırdılar.





E.ə. II əsrdən etibarən sirakların Kuban çayının sağ sahili boyunda intensiv şəkildə məskunlaşması baş verirdi. Təqribən yüz-iki yüz il ərzində siraklar burada oturaq əkinçiliklə məşğul olan meot əhalisi ilə qaynayıb qarışdı. Əsasən dinc yolla baş verən bu proses nəticəsində meotlar içərisində sarmat maddi mədəniyyət nümunələri yayıldı, dəfn adətləri qismən dəyişdi, incəsənətin yeni istiqamətləri yarandı. Lakin meotlar gəlmə sarmat tayfaları içərisində əriyib yox olmadılar. Əksinə, öz dillərini, etnik kimliklərini, əsas mədəni dəyərlərini qoruyub saxladılar. Kuban boyunda sonrakı yüzilliklərdə oturaq əkinçi əhalinin üstünlüyü qalmaqda idi. Onların təsiri ilə sarmatlar tədricən oturaq həyata keçir, daimi məskənlər yaradır və bölgənin siyasi hadisələrində fəal iştirak edirdilər.

Sarmatların Bospor padşahlığı hüdudlarına çatması e.ə. III-II əsrlərdə bu bölgədə tayfaların yerdəyişmələrinə, tayfalararası toqquşmalara, antik şəhərlərlə yerli əhali arasında əlaqələrin pozulmasına gətirib çıxardı. Bu zaman Krımda iskit tayfaları da fəallaşdılar. E.ə. 107-ci ildə Savmakın başçılığı ilə iskitlərin üsyanı nəticəsində Bospor hökmdarı Perisad öldürüldü. Üsyançılar yunan şəhərlərini, gəmiləri ələ keçirdilər. Qullar da onlara qoşuldular. Bir il davam etmiş bu üsyanı Pont hökmdarı VI Mitridat güclə yatırdı və Bosporu öz tabeliyinə keçirdi.

Bundan sonra Bospor və onun tabeliyində olmuş tayfalar Pont hökmdarlarına xərac ödəməli, canlı qüvvə ilə yardım etməli idilər. Antik mənbələrə görə, romalılara qarşı döyüşlərdə Mitridatın ordusunda iskitlər, meotlar, sarmatlar da iştirak edirdilər. Məsələn, Plutarx Mitridatın Roma ilə üçüncü müharibəsində meot tayfalarından biri olan dandarayların hakimi Olfakın igidliklə vuruşmasından bəhs etmişdir. E.ə. I əsrin ortalarında Bospor dövləti Roma tabeliyinə keçdi.

**Şimal-şərqi Qafqaz tayfaları və Albaniya.** Qafqazın şimal-şərqində, müasir Çeçenistan və Dağıstan ərazisində çox

qədim zamanlardan nax və Dağıstan dil qruplarına mənsub olan tayfalar yaşamaqda idilər. Lakin onlar haqqında bilgilərin çox az bir hissəsi zəmanəmizə qədər gəlib çatmışdır. Antik qaynaqlarda yalnız Xəzər dənizindən qərbdə geniş ərazidə, o cümlədən də Dağıstan ərazisində e.ə. I minilliyin ortalarında kaspilərin yaşadığı, bölgənin Kaspiana ölkəsinə, e.ə. I minilliyin sonundan etibarən isə Albaniyaya tabe olduğu bildirilir. Müasir Dağıstanın cənub hissəsinin qədim və orta əsrlərdə Albaniya və Şirvanşahlarla, ümumiyyətlə Azərbaycanla bağlılığı sonrakı dövr mənbələrində dəfələrlə qeyd edilmişdir. Lakin həmin dövlətlərin yaradıcıları və hakim etnosu türk mənşəli tayfalar olmuşlar.

Müasir dövrdə Dağıstan tarixçilərinin bir qrupu bu faktlara istinad edərək Qədim Albaniya dövlətini Dağıstan dövləti, albanları isə Dağıstan dil qrupuna aid tayfalar kimi təqdim etməyə çalışırlar. Bu mülahizələrin heç bir ciddi əsası yoxdur. Alban dilində yazıların olmaması və ya zəmanəmizə qədər qalmaması, albanların guya ermənilərlə və ya Dağıstan tayfaları ilə qohum olması fikrini irəli sürməyə bəhanə vermişdir. Əslində isə bir çox faktlar və sübutlar vardır ki, albanlar qədim türk tayfalarıdır və davamlı surətdə min illər boyu Azərbaycanda və indiki Dağıstan ərazisində yaşamışlar. Çünki Azərbaycanda Qafqaz dilli etnik qruplar: udilər(udinlər), xınalıqlar, buduqlar, qrızlar öz dillərini, etnik mənsubiyyətini bizim günlərədək saxladıqları halda, çoxsaylı alban tayfalarının türkləşməyə məruz qalması inandırıcı deyil. Digər tərəfdən isə, alban adı daşıyan etnoslar qədim və erkən orta əsrlərdə Qazaxıstanda, Mərkəzi Asiyanın bir çox bölgələrində yaşamaqda idilər. Bu da alban adı daşıyıcılarının türklər, Türküstanla bağlılığını bir daha göstərir.

Ümumiyyətlə, Albaniya dövlətinin yaranmasından sonra onun tərkibinə müasir Dağıstan ərazisinin bir hissəsinin daxil olması əksər tədqiqatçılar tərəfindən qəbul edilir. Lakin Qədim Albaniyanın şimal sərhədləri haqqında, antik qaynaqlarda məlumatların çox məhdud və ziddiyyətli olması ilə əlaqədar, tədqiqatçılar arasında yekdil fikir yoxdur. Bir qrup mütəxəssis Albaniyanın ərazisinin şimalda Dərbəndə qədər uzandığını, digər bir qrup isə Sulak çayına qədər torpaqların Albaniya hökmdarına tabe olduğunu qeyd edirlər.





Albaniyanın şimal sərhədləri, Dağıstanın hansı hissəsinin bu qədim dövlətə tabe olması haqqında fikir ayrılığının əsas səbəbi antik müəlliflərin Şimal-şərqi Qafqazın coğrafiyası haqqında çox məhdud bilgilərindən irəli gəlir. İşi çətinləşdirən həm də odur ki, Böyük Qafqaz dağları regionun qərb və mərkəzi bölgələrində bir silsilədən ibarət olduğu halda, şərq bölgələrində əsas sıra dağlardan bir də yan sıra dağlar və onlardan da bir neçə dağlıq şaxə ayrılır və Şimal-şərqi Qafqazda geniş dağlıq vilayət təşkil edir. Ona görə də, Böyük Qafqaz dağlarının hansı hissələrinin Albaniyaya qədim zamanlarda daxil olmasını dəqiqliklə müəyyənləşdirmək çətindir.

Bununla belə, albanların şimal qonşularının sarmatlar olması haqqında antik məlumatlara əsasən güman etmək olar ki, Böyük Qafqaz dağlarının şimal-şərq ətəklərinə qədərki ərazi Qədim Albaniyaya daxil idi. Çünki e.ə. I minilliyin sonunda sarmatların Xəzər dənizinin şimal-qərb sahili və Manıç çayı boyunda düzənlik və dağətəyi bölgələrdə yaşamaları haqqında Strabon məlumat vermişdir. Qafqazşünasların çoxu, Strabonun bu məlumatları əsasında Dağlıq Dağıstanın əhəmiyyətli bir hissəsinin Albaniya tərkibində olmasını irəli sürmüşlər. Digər antik müəlliflər: Plutarx, Plini, Tatsit albanların bir qisminin çay vadilərində, bir qisminin də dağlarda yaşamalarını qeyd etmişlər ki, bu məlumatlar da Dağıstanın böyük bir hissəsinin Albaniya tabeliyində olmasını düşünməyə əsas verir.

Strabonun Albaniyada 26 müxtəlif tayfanın yaşaması haqqında məlumatı da, məhz bu dağlıq bölgədə çoxlu sayda fərqli dillərdə danışan tayfaların yaşaması ilə əlaqədar idi.

Alban döyüşçülərinin bir hissəsinin iberlər kimi ağır silahlı və zirehli geyimli olmaları, digər hissəsinin isə iskitlər və sarmatlar kimi yüngül silahla döyüşə getmələri haqqında informasiyalar da, bunu təsdiq edir.

Görünür ki, e.ə. IV-III əsrlərdə Dağıstanda iri tayfa birlikləri mövcud idi və onların başçıları hərbi yürüşlərdə öz dəstələri ilə iştirak edirdilər. E.ə. I minilliyin sonunda Şimal-şərqi Qafqaz qəti şəkildə Albaniyaya tabe edildi. Strabonun Albaniyada e.ə. 60-cı illərin hadisəsindən bəhs edərkən "indi bütün tayfalara bir padşah başçılıq edir. Əvvəllər isə burada hər tayfanın öz hökmdarı var idi" fikri bu reallığı əks etdirirdi.

## Qafqazın qədim cəmiyyətlərinin ictimai-siyasi quruluşu

**İlkin dövlət qurumları və qədim cəmiyyətlərdə əsas sosial qruplar.** Qafqazın qədim cəmiyyət və dövlətlərin ictimai quruluşu, köləliyin səviyyəsi haqqında məlumatlar olduqca azdır. Çünki mixi kitabələrdə, antik müəlliflərin əsərlərində, iqtisadi və siyasi məsələlərdən fərqli olaraq, ictimai təbəqələşmə, qədim cəmiyyətlərdə olan sosial qruplar haqqında faktlara, demək olar ki, yer verilmirdi. Bununla belə, e.ə. III-II minilliklərdə Cənubi Qafqazda mövcud olmuş cəmiyyətlərin ilkin dövlət qurumu səciyyəsi daşıdığı, böyük tayfa ittifaqları başçılarının hərbi qüvvəsi hesabına yaradıldığı bəllidir. Arxeoloji qazıntılar belə hərbi başçıların təmtəraqlı dəfni ilə bağlı çoxlu materiallar vermişdir. Qədim nağıl və əsatirlərdə isə bu başçıların seçki əsasında, daha çox da şəxsi igidliklərinə görə hakimiyyətə gəldiyi göstərilir. Qafqazşünaslıqda belə bir fikir də mövcuddur ki, Cənubi Qafqaz tayfalarının İkiçayarası, Assuriya, Urartu ilə sıx təmasda olmaları, burada təşəkkül tapan qədim dövlət qurumlarında da, irsi hakimiyyətin yaranmasına səbəb ola bilərdi.





Cənubi Qafqazda qədim dövlətlərin ictimai quruluşu haqqında nisbətən geniş məlumatlar Strabonun "Coğrafiya" əsərində verilmişdir. Bu əsərdə e.ə. I əsrdə İberiya əhalisinin 4 zümrəyə - qrupa bölündüyü qeyd edilmişdir. *Birinci qrupa* hökmdar və vilayət hakimləri daxil idi. Onlar öz aralarından yaxın qohumluq və böyüklük prinsiplərinə uyğun olaraq hökmdar seçirdilər. Hökmdardan sonra ikinci şəxs hesab edilən baş hakim və ya qoşun başçısı da bu təbəqədən seçilirdi. *İkinci qrupa* kahinlər aid idilər. Onlar dini işlərə rəhbərlik edir, həmçinin qonşularla münasibətlərin tənzim edilməsinə baxırdılar. *Üçüncü qrup* döyüşçülərdən və əkinçilərdən ibarət idilər. *Dördüncü qrup* – laoy (qara camaat) adlanırdı və hər cür ağır işləri görürdülər ki, yaşamaq üçün vəsait əldə edə bilsinlər. Bu zümrəyə daxil olanların əmlakı ümumi idi və icmanın başçısı onları idarə edir və qoruyurdu. Dördüncü qrupa, başlıca olaraq, İberiyaya sonradan tabe edilmiş bölgələrin əhalisi daxil idi.

A.İ.Boltunova, N.D.Lomauri və O.D.Lordkipanidze belə hesab edirlər ki, Strabonun təsvir etdiyi bu ictimai bölgü, təbəqələşmə "Coğrafiya" əsərinin yazıldığı dövrə deyil, Makedoniyalı İsgəndərin yürüşlərindən azacıq sonraya aiddir və müəllif İberiyanın ictimai quruluşu haqqında bəhs edərkən Eratosfen və digər ellin müəlliflərin yazdıqlarına istinad etmişdir. A.P.Novoseltsevin fikrincə isə, Strabonun bu hekayətinin əsasını Pompeyin Cənubi Qafqaza yürüşü iştirakçılarının məlumatları təşkil etmişdir və e.ə. I əsrə aiddir. Rus tədqiqatçısının qənaətinə görə, İberiya dövləti e.ə. IV əsrin sonunda yaransa da, onun ictimai quruluşunda sonrakı yüzilliklərdə elə bir ciddi dəyişikliklər baş verməmişdi və qədim gürcü cəmiyyətinin zümrələrə bölünməsi uzun müddət davam etməkdə idi.

Qədim cəmiyyətlərin bütövlükdə ləng inkişaf etməsi, ictimai təsisatların isə çox konservativ olması nəzərə alınsa, Qədim İberiyada cəmiyyətin "qenos"lara (qenos – qədim

yunan dilində dərəcə, sinif, dəstə mənalarını bildirirdi) bölünməsinin daha əvvəldən başlandığını və e.ə. I əsrdə bu bölgünün əsasən qalmaqda olduğunu qəbul etmək mümkündür.

Eyni zamanda nəzərə almaq lazımdır ki, gürcü tarixşünaslığında Strabonun İberiyada hökmdar hakimiyyətinin seçkili olması haqqında mülahizəsini də daha əvvəlki dövrə aid hesab edirlər. Çünki, "Kartlis sxovreba"da əks olunmuş məlumatlarda Qədim Kartlidə hökmdar hakimiyyətinin irsən keçməsi aydın göstərilir. Strabona görə, hökmdarı ilk üç qenos – İberiyanın azad əhalisinin iştirak etdiyi xalq yığıncağı təyin edirdi.

Xalq yığıncağının qədim cəmiyyətlərin ictimai həyatında önəmli rol oynaması digər mənbələrdə də əks olunmuşdur. Erməni dövlətində hətta y.e.-nın IV əsrində xalq yığıncaqları keçirilməsi haqqında erməni qaynaqlarında məlumatlar vardır. Qədim Parfiyada şahın Arşakilər nəsli, atəşpərəst kahinləri – maqlar və müdriklərdən ibarət şurada seçilməsi haqqında həm Posidoniya, həm də Strabon məlumat vermişdir. Stabon həmçinin iberlərə nisbətən daha aşağı ictimai inkişaf səviyyəsində olan svanlarda 300 nəfərlik şuranın mövcud olması və bütün önəmli məsələlərin orada həll edilməsini də qeyd etmişdir.

Qədim İberiyada hökmdardan sonra ikinci bir şəxsin inzibati idarəçilik işlərinə, məhkəmə işinə və qoşuna başçılıq etməsi haqqında məlumatı da maraqlıdır. Bu ikinci şəxs hökmdarın gözü, baş nəzarətçisi sayılırdı və *patixş* adlanırdı. Əsas dövlət hakimiyyəti funksiyalarının hökmdarla yanaşı, patixşin əlində cəmləşməsi – ***dualizm*** mövcud idi. Dövlət idarəçiliyində dualizm Qədim Şərqin ilkin sinifli cəmiyyətlərinin əksəriyyəti üçün xarakterik idi. Hökmdar və patixş birinci zümrədən – tayfa əyanları, vilayət başçıları içərisindən, çox güman ki, Farnavazlar nəslinin nümayəndələrindən seçilirdi.

Qədim Albaniyada və Erməni dövlətində cəmiyyətin





silklərə bölünməsi haqqında mənbələrdə birbaşa məlumatlar olmasa da, müəyyən qeydlər qalmışdır ki, onlar əsasında bəzi nəticələr çıxarmaq mümkündür. Məsələn, Qədim Erməni dövlətində şah nəsilləri (Artaşeslər, Arşakilər) həm də böyük ailələr idilər və ***azq*** adlanırdılar. Hökmdardan (erkrord) sonra ikinci vəzifəni *marlar* tuturdular. Erməni qaynaqlarına görə, marlar Qədim Midiya tayfalarından biri olan Murasan nəslindən idilər. İberiyadakı patixşdən fərqli olaraq mar qoşuna başçılıq etmirdi. Ayrı-ayrı vilayətlərin hakimləri keçmiş tayfa başçıları idilər və hökmdar ailəsi ilə yanaşı, hakim təbəqəni təşkil edirdilər.

Qədim Albaniyada, Strabonun məlumatına görə, ayrı-ayrı torpaqların birləşməsi nəticəsində vahid dövlət yaranmışdı. Yerli tayfa əyanları, hökmdar nəsli ilə birlikdə, hakim təbəqəni təşkil edirdilər. Antik müəlliflərin *hegemon* adlandırdıqları əyanlar sonrakı dövrlərdə vilayət hakimlərinə çevrilmişdilər.

**Qədim dini təsəvvürlər. Din xadimlərinin dövlət işlərində iştirakı.** Qədim Qafqazda, o cümlədən də Qədim Gürcüstanda yerli əhalinin dini təsəvvürləri haqqında məlumatlar çox azdır. Bununla belə, güman edilir ki, qədim cəmiyyətlərdə bütpərəstlik inancı əsas yer tutmuşdur. Ayrı-ayrı allahların şərəfinə məbədlər inşa edilir, hökmdarlar dini idarələrə kəndlər və torpaqlar bağışlayırdılar. Strabon Albaniyanın qərb hissəsində Ay allahının şərəfinə böyük məbəd inşa edildiyini bildirmiş, alban hökmdarından sonra ən nüfuzlu şəxsin bu məbədin baş kahini olduğunu qeyd etmişdir. Həmin kahin Albaniyada bütün dini işlərə başçılıq edirdi.

Qədim erməni tarixi haqqında olan əsərlərdə erməni dövlətində kahinlər zümrəsinin qüdrətli mövqe tutmaları haqqında çeşidli bilgilər qalmışdır. Məbədlər ümumi torpaq fondunun yeddidə birinə nəzarət edirdi. Qədim erməni dövlətində ilk vaxtlar *kurm* adlanan kahin təbəqəsinə hökmdarın qardaşı başçılıq edirdi. M.Xorenatsiyə görə, sonrakı dövrdə

bu praktikadan imtina edilmiş və kahinlər hökmdarın əmri ilə naxarar nəslindən olan vaxnunilərə tabe edilmişdilər.

İberiyada da kahinlər zümrəsinin geniş imtiyazlara malik olması mənbələrdə əksini tapmışdır. Kahinlər dövlətin həyatında böyük rol oynayırdılar və güclü təsirə, geniş imkanlara malik idilər. Lakin bu zümrəyə kimin başçılıq etməsi barədə məlumatlar zəmanəmizə qədər gəlib çatmamışdır.

IV-VI əsrlərdə xristianlığın yayılması, sonrakı yüzilliklərdə isə Qafqazın çox hissəsində islamın bərqərar olması köhnə dini təsəvvürlərin sistemli məhv edilməsi ilə müşayət olunmuşdu. Qədim dinlər, bütpərəstlik ayinləri haqqında kitablar məhv edilmiş, məbədlər isə ya dağıdılmış, ya da kilsəyə çevrilmişdi. Ona görə də, Qafqaz sakinlərinin qədim dini təsəvvürləri haqqında yalnız arxeoloji qazıntıların nəticələri və qədim müəlliflərin yazıları əsasında müəyyən məlumatlar əldə etmək mümkün olmuşdur. Qafqazın hər yerində qədim dövrdə təbiət qüvvələrinin, səma cisimlərinin ilahiləşdirilməsi, ruhlara inam, əcdadlara sitayiş, odun, suyun müqəddəs sayılması məlumdur.

**Hərbi qüvvələrin qədim cəmiyyətlərdə rolu.** Strabonun İberiyada əkinçilərin və döyüşçülərin aid olduğu üçüncü zümrədən bəhs etməsi hərbi qüvvələrin qədim cəmiyyətlərdə əhəmiyyətli rol oynadığını göstərir. Müasir gürcü tədqiqatçıların fikrincə döyüşçü təbəqəsinə İberiyanın yerli tayfaları aid idilər. Onlara tayfa başçıları rəhbərlik edirdi. Yerli tayfalardan toplanan hərbi dəstələr *eri*, yəni xalq qoşunu, qoşun başçısı isə *erismtavar* və ya *eristav* adlanırdı. Bu və ya digər səbəblərdən hərbi xidmətdən kənarda qalan icma üzvləri isə sadə əkinçi kimi yaşamını davam etdirirdi.

Qədim erməni cəmiyyətində döyüşçü təbəqəsinin olması haqqında Ksenefontun əsərində məlumat qalmışdır. O, erməni satraplığında icma üzvlərindən toplanan və süvarilərdən ibarət qoşundan bəhs etmişdir.

Strabon isə Albaniyanın Cənubi Qafqazdakı bütün digər dövlətlərdən daha çox – 60 min piyada, 22 min atlı döyüşçüyə malik olmasını qeyd etmişdir. Bu, Albaniyada azad icma üzvlərinin sayının daha çox olmasının nəticəsi idi.





**Asılı adamlar və qullar.** Strabonun dördüncü zümrəyə aid etdiyi insanlar haqqında tədqiqatçıların fikirləri müxtəlifdir. Məsələn, S.N.Canaşia və Q.A.Melikişvili belə sayırlar ki, bu təbəqəyə hökmdar torpağında yaşayan və artıq kölə vəziyyətinə düşmüş icma üzvləri aid idilər. Qədim gürcü dilində onlar *qlex* adlanırdı. Görünür, qlexlər icma qaydalarının dağılması prosesində ictimai təbəqələşmə nəticəsində yaranmışdılar. Qlexlər sonrakı dövrdə – orta yüzilliklərdə feodal asılı kəndlilərin formalaşması üçün əsas oldular. İberiya hökmdarlarının silah gücünə qonşu torpaqları zəbt etməsi hesabına mülklərini genişləndirməsi nəticəsində yeni ərazilərin sakinləri də bu təbəqənin formalaşmasında müəyyən rol oynamışdılar.

Qədim dövrdə erməni dövlətində və Albaniyada asılı əhali təbəqəsi də mövcud idi. Erməni qaynaqlarına görə, hətta II Tiqranın dövründə bu dövlətə başqa yerlərdən köçürülmüş və hökmdardan tam asılı hala salınan tayfalardan bəhs edilirdi. Bu əhali "hökmdar adamları" adlı xüsusi təbəqəni təşkil edirdi.

Qafqazın qədim dövlətlərində qul əməyindən də istifadə edilirdi. Digər Qədim Şərq ölkələrində olduğu kimi bu regionda da hərbi əsirlər bir qayda olaraq qul kimi işlədilirdi. Lakin təsərrüfat işlərində əsas yeri keçmiş icma üzvləri tuturdular. Onlar ictimai təbəqələşmə və dövlət yaranması nəticəsində tədricən öz azadlıqlarının bir hissəsini itirir, vergi və rüsumlar ödəyən, müxtəlif mükəlləfiyyətləri icra edən təbəələrə çevrilirdilər.

**"Avesta" qədim cəmiyyətlərinin ictimai quruluşu haqqında.** Qafqazın qədim cəmiyyətlərinin ictimai quruluşu haqqında müəyyən bilgilər atəşpərəstlərin müqəddəs kitabı olan "Avesta"nın qatlarında saxlanmışdır. Y.e.-nın I əsrində

yazıya alınmış “Avesta” nüsxəsində ümumilikdə Qədim Şərq cəmiyyəti və 3 onun təbəqəyə bölünməsi – kahinlər, döyüşçülər və əkinçilər haqqında bilgilər vardır. Parfiya dövlətinə aid qatlarda isə dördüncü – sənətkar təbəqəsindən bəhs edilir. Qeyd etmək lazımdır ki, Midiya və Əhəmənilər dövründə cəmiyyətin bu cür təbəqələrə bölünməsi mərhələsi artıq keçilmiş mərhələ idi və İkiçayarasında daha öncə yaranmış qədim dövlətlərin təsiri ilə bu və digər arxaik qaydalar aradan qalxmışdı.

Bununla bərabər, Cənubi Qafqazın uzun müddət Midiya və Əhəməni ağalığı dövründə Yaxın və Orta Şərqlə sıx əlaqədə olması, “Avesta”da təsvir olunan ictimai bölgünün e.ə. I minilliyin ortalarında bu və ya digər dərəcədə bizim regiona da aid olmasını güman etməyə əsas verir. Lakin bu da faktdır ki, Əhəməni ağalığının sonrakı dövründə artıq cəmiyyətin qruplara bölünməsi mərhələsi əsasən başa çatmışdı və yalnız ucqar bölgələrdə arxaik qaydalar kimi qalmaqda idi.

Parfiya ağalığı dövründə həmin arxaik qaydalar İranın qərb əyalətlərində və Qafqazın Arşaki təsirində olan bölgələrində yenidən yayılmağa başlamışdı. Parfiya aristokratiyası bu normaları Şərq əyalətlərindən – İkiçayarası və ellin təsirinə az məruz qalmış yerlərdən götürmüşdü. Arşakilər sülaləsinin soykökünün mənsub olduğu ***day tayfası*** daha öncə İranın şərqində köçəri həyat keçirirdi və həmin regionda Selevkilər dövlətinin hakimiyyətinə son qoyulmasında fəal iştirak etmişdi.

Sasani dövrünə aid mənbələrdə isə artıq təbəqələrdən deyil, əhalinin peşələr üzrə bölgüsündən bəhs edilirdi. Təbəqə “peşak” (pəhləvi dilində peşə, sənət, iş) adlanırdı və İran cəmiyyətinin daha qədim çağlarda əmək növlərinə görə bölgüsünü özündə əks etdirirdi. Lakin artıq Arşaki və Sasani dövrlərində bu termin təbəqələri, silkləri bildirən yeni məna kəsb etmişdi.





# QAFQAZ ERKƏN ORTA YÜZİLLİKLƏR DÖVRÜNDƏ

## Qafqazda feodal münasibətlərinin yaranması

**Feodal münasibətlərinin təşəkkülü və xarakterik cəhətləri.** Qafqazda qədim cəmiyyətlərin yaranması, onların ictimai təbiəti, quldarlığın səviyyəsi məsələləri bizim günlərə qədər ciddi mübahisə obyekti olsa da, əksər qafqazşünaslar **III-IV əsrlərdə** Cənubi Qafqazda yeni ictimai quruluşun, feodal münasibətlərinin yaranması faktını qəbul edirlər.

Doğrudur, gürcü tədqiqatçıları uzun müddət Gürcüstanda icma quruluşu (qvarovnuli saxelmtsipo) qaydalarının VII-VIII əsrlərə qədər davam etməsini bildirmişlər. Məsələn, İ.Cavaxişvili və X.Raçvelişvili ölkələrində feodal münasibətlərinin yalnız VII-VIII əsrlərdə icma quruluşunun dağılması nəticəsində yarandığını, əhalinin iki təbəqəyə: aznaurlara və asılı adamlara bölündüyünü qeyd etmişlər. Lakin sonrakı dövrdə Gürcüstanda feodalizmin yaranması prosesinin, Cənubi Qafqazın digər bölgələrində olduğu kimi, III-IV əsrlərdə baş verməsi faktı ümumi xarakterli əsərlərdə öz əksini tapmışdır.

***Şimali Qafqazda*** isə feodal münasibətləri bir qədər gec – **V-VI əsrlərdən etibarən** yaranmağa başlamışdı. Bu dövrdə Şimali Qafqazın çay vadilərində, dağətəyi, meşə-çöl zonasında erkən feodal münasibətləri formalaşırdı. Müasir Çərkəz, Qaraçay, Balkar, Kabarda, Çeçenistan və Dağıstan ərazilərində möhkəmləndirilmiş qala şəhərləri, müdafiə divarları ilə əhatə edilmiş yaşayış məskənləri inşa edilməsi intensiv xarakter almışdı. Tədqiqatçılar bu prosesi keçmişdə bu ərazilərdə yaşayan sarmat, massaget və qafqazdilli tayfaların, alanların tədricən oturaq həyata keçməsi ilə izah edirlər.

Alanlar yeni eranın ilk əsrlərində Şimali Qafqazda ciddi siyasi qüvvəyə çevrilmişdilər. Onlar digər yerli tayfalarla birlikdə IV əsrin 70-ci illərindən etibarən Şimali Qafqaza bir-birinin ardınca yürüşlər edən türk xaqanlarına qarşı mübarizə aparmış, bəzən də əksinə yeni gələn tayfalarla ittifaqa girərək onlarla birlikdə çıxış etmişdilər.

Erkən orta yüzilliklərdə Şimali Qafqazda mövcud olmuş türk xaqanlıqları özləri də ilkin feodal qurumları idilər. Bu türk siyasi birliklərinin başçıları Bizans və Sasani dövlətləri tərəfindən Cənubi Qafqaz uğrunda hərbi əməliyyatlara cəlb edilmək əvəzində böyük bəxşişlər alırdılar. Bu da öz növbəsində hərbi başçıların nüfuzunun artmasına, hakimiyyətlərinin möhkəmlənməsinə şərait yaradır, türk tayfalarında ictimai təbəqələşmənin, sinfi bərabərsizliyin dərinləşməsinə gətirib çıxarırdı.

**Torpaq sahibliyi formaları. Feodal təbəqəsinin formalaşması.** Cənubi Qafqazda III-V əsrlərdə feodal münasibətlərinin yaranması və inkişafı əkinə yararlı torpaq fondunun əsas hissəsinin ilk öncə hökmdarın, dövlətin ixtiyarında cəmləşməsinə, sonrakı dövrdə isə feodal malikanələrinə – *patronomiyalara* çevrilməsinə gətirib çıxardı. Sasanilər dövlətinin təsirinin güclü olduğu Cənubi Qafqazın şərq və mərkəzi bölgələrində feodallaşma prosesi daha çox Şərq qaydası ilə gedirdi.

Feodal cəmiyyətinin ən yuxarı təbəqəsinə vilayət və ya dairə hakimləri daxil idilər. VI-VII əsrlərə aid erməni qaynaqlarında həmin inzibati vahidlər ***naxararlıq*** adlandırılır, naxararlıqlara isə *azqapet, naxapet və ya naxararın* başçılıq etməsi qeyd edilirdi. Bu ifadələr ibtidai icma dövründən qalma olub, ilk vaxtlar sadəcə başçı, ağsaqqal mənasını verirdi. Bəhs olunan dövrdə isə yeni məzmun kəsb etməyə, hakim, sahibkar mənasında işlənməyə başlamışdı. Digər tərəfdən isə, naxarar adı tədricən öz yerini birbaşa hökmdar, sahibkar mənasında işlədilən ***işxan*** ifadəsinə verirdi.

Torpaq üzərində xüsusi mülkiyyətin əsas formaları ***dastgird (dastakert)*** – irsən keçən torpaqlar və ***xostak*** – şərti torpaqlar idi. Erkən orta əsrlərdə feodal münasibətlərinin inkişafı gedişində tədricən dastgirdin xostaka çevrilməsi prosesi gedirdi.





İlk vaxtlar dastgird sahibləri içərisində əsas yeri şah ailəsinin üzvləri, feodallaşan icma və tayfa əyanları: azadlar, azqapetlər, naxapetlər tuturdular. Sonrakı yüzilliklərdə isə yeni formalaşan feodal əyanlar: naxararlar, işxanlar və din xadimləri əsas yer tutmağa başladılar. Onlar dövlət işlərində çalışdıqları, mühüm vəzifə sahibləri olduqları üçün böyük torpaq sahələrinə yiyələnmiş və iri feodallara çevrilmişdilər.

VI-VII əsrlərdə Sasanilər dövlətində ən böyük feodallar *mərzbanlar*, yəni sərhədboyu vilayətlərin hakimləri və *şəhriyarlar* – daxili vilayətlərin və iri şəhərlərin hakimləri idilər.

Xostakın əsas sahibləri isə hərbçilər və qismən də mülki məmurlar idilər. V-VI əsrlərə aid Sasani mənbələri hezarapet – qoşun başçısı, haramanator – mülki işlərə rəhbərlik edən, sparapet – atlı qoşun başçısı kimi mühüm vəzifə sahiblərinin həm də iri feodallar olduqlarını göstərmişdir.

Gürcüstanda III-IV əsrlərdə torpaq üzərində feodal sahibliyi yaranmaqda idi. Daha öncədən icma başçısı mənasını verən ***aznaur*** iri torpaq sahibi mənasını verməyə başlayırdı. O dövrün mənbələrində torpaq payı verilməsi, satın alınması haqqında, feodallarla hökmdar arasında şərti torpaq mülkünün irsi mülkiyyətə çevrilməsi uğrunda mübarizə aparılması haqqında çoxlu məlumatlar vardır. Erkən orta yüzilliklərdə aznaurlar azad icma üzvlərini – ***mdabioları*** istismar edərək öz sərvətlərini artırır, həm də onlar üzərində ağalığı möhkəmləndirirdilər.

V-VI əsrlərdə feodal münasibətlərinin qəti möhkəmləndiyi bir zamanda bütün regionda irsi torpaq mülkləri əhəmiyyətli yer tutmağa başlamışdı. Hətta vilayət hakimi vəzifəsi də bir qayda olaraq irsən atadan oğula keçirdi. Vilayət hakimi artıq təkcə inzibati vəzifə sahibi olmayıb, həm də

tədricən iri torpaq sahibinə çevrilirdi. Bu təkamül, artıq yuxarıda qeyd edildiyi kimi, naxarar termininin mənasının dəyişməsində də özünü göstərirdi. Feodal münasibətlərinin yaranması dövründə naxarar vilayət hakimi mənasını verirdisə, sonrakı dövrdə həm də knyaz – iri torpaq sahibi anlamı daşıyırdı.

**Kəndli kütləsi. Əsas vergi və mükəlləfiyyətlər.** Feodalizmin erkən mərhələsində kəndlilərin istismarının geniş yayılmış forması dövlətin xeyrinə ***xaraq – torpaq vergisi*** toplanması idi. Sasani şahı Ərdəşir 226-cı ildə taxta çıxdıqdan sonra əhalidən hər il məhsulun *onda biri qədər* vergi toplanmasını əmr etmişdi. Vergi toplanmasından əldə edilən gəlir hesabına çoxsaylı qoşun toplanmasına başlandı. Feodal münasibətlərinin sonrakı inkişaf prosesində dünyəvi feodalların və dini qurumların xeyrinə də vergi və rüsumlar ödənilməsinə, müxtəlif mükəlləfiyyətlər yerinə yetirilməsinə başlanmışdı.

Keçmiş azad icma üzvləri – ***şinakanlar*** əvvəllər yalnız dövlətə vergi verdikləri halda, sonrakı yüzilliklərdə həm dövlətə, həm də icma torpaqlarının yerləşdiyi vilayətin hakimi olan feodallara məhsulun bir hissəsini vergi şəklində ödəməli idilər.

Dastakert torpaqlarında yaşayan kəndlilər – ***mşaklar*** daha ağır vəziyyətdə idilər. Onlar torpaq mülkünün sahibinə daha çox vergi və rüsumlar ödəməyə, müxtəlif mükəlləfiyyətlər icra etməyə məcbur edilirdilər. Feodalizmin sonrakı inkişafı prosesində tədricən şinakanların və mşakların cəmiyyətdə mövqeyi bir-birinə yaxınlaşırdı.

Erkən orta əsrlərdə, Sasani mənbələrinə görə, köçəri maldarlıq təsərrüfatı ilə məşğul olan əhali *kürd* adlanırdı. Yəni bu zaman kürd ifadəsi etnik anlam daşımır, sadəcə oturaq əkinçi əhalidən fərqli köçəri həyat sürən insanlar mənasında işlədilirdi. Maraqlıdır ki, orta əsrlərə aid ərəb qaynaqları 643-cü ildə Ərdəbildə ərəb sərkərdəsi ilə Azərbaycan mərzbanı arasında bağlanmış sülh müqaviləsində





belə bir şərtin olmasını da qeyd edirlər: ərəblər Azərbaycan əhalisini Balasaqan, Sabalan və Satruzan kürdlərindən qorumalı idilər. Elə oradaca kürd adı altında köçərilərin nəzərdə tutulduğu göstərilmişdir.

Eyni zamanda bütün Cənubi Qafqazda erkən orta əsrlərdə həm kənd təsərrüfatında, həm də sənətkarlıqda qul əməyindən istifadə uzun müddət davam etmişdir.

**Erməni dövlətində naxararların hakimiyyət uğrunda mübarizəsi.** Erməni dövlətində də feodal münasibətlərinin yarandığı ilk dövrlərdə yararlı torpağın çox hissəsi hökmdarın – dövlətin ixtiyarında cəmləşdiyi halda, sonrakı yüzilliklərdə dövlət torpaqlarının sürətlə azalması baş vermişdi. Erkən orta əsrlərə aid erməni qaynaqları Ermənistanda bu prosesin necə baş verməsini ardıcıl izləməyə imkan verir. Bu ölkədə tədricən iri feodallar dövlətin idarə olunması funksiyasını nəsildən-nəslə ötürməyə başlamışdılar.

Ermənistanda 10 ən böyük naxarar ailəsi dövlətdə əsas vəzifələri tuturdu. Məsələn, IV əsrdən başlayaraq *Mamikonyanlar* hərbi qüvvələrin komandanı, *Aşotunilər* xəzinədar – maliyyə işinin başçısı idilər. Bu feodallar dövlətdə ən mühüm vəzifələri tutur və irsən öz varislərinə ötürürdülər. Qalan naxarar ailələri nisbətən kiçik feodal hesab edilirdilər. Lakin onlar da irsi torpaq sahibi olmağa can atırdılar və iri feodalların hakimiyyət uğrunda mübarizəsində iştirak edirdilər.

İri naxararların öz aralarında hakimiyyət uğrunda gərgin mübarizə aparmaları bütövlükdə erməni dövlətinin zəifləməsinə gətirib çıxardı. Naxararların bir qrupunun xaricdən dəstək üçün Sasani dövlətinə, digərinin Romaya müraciət etmələri tez-tez baş verirdi və bunlar da erməni dövlətinə xarici müdaxilənin həyata keçirilməsi üçün əsas verilməsinə səbəb olurdu. Erməni qaynaqlarına görə, IV əsrin 60-cı illərində naxararlar o qədər güclənmişdilər ki, onların hər biri öz mülklərində irsi hakimə çevrilmişdi və müstəqil knya-

za bənzəyirdi. Ermənistan hökmdarı isə öz təsirini böyük ölçüdə itirdiyi üçün, iri feodal təsiri bağışlayırdı.

Erməni torpaqlarına Sasani şahı II Şapur 364-368-ci illərdə yürüş edəndə naxararların bir qrupu İran ordusuna qoşulmuşdu. Bu yürüş zamanı erməni vilayətindəki şəhərlərin çoxu, o cümlədən Artaşat, Valarşapat, Ervandaşat, Van qarət edildi. Sasani yürüşü bütün ölkədə dağıntılara, xüsusən də şəhər həyatının tənəzzülünə, sənətkarlığın və ticarətin zəifləməsinə səbəb oldu. Bu da, öz növbəsində, ayrı-ayrı naxararlıqların əlahiddə təsərrüfat vahidlərinə çevrilməsinə gətirib çıxardı.

Erməni hökmdarı Pap **371-ci ildə** ***Dzirav adlı yerdə baş verən döyüşdə*** Roma dövlətinin köməyi ilə Sasani qoşununu məğlub etdi. Pap bu qələbəsindən sonra mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün qəti addımlar atdı. O, naxararların mərkəzdənqaçma cəhdlərinin qarşısını almağa, kilsənin qüdrətini zəiflətməyə çalışırdı. Erməni hökmdarı ilk növbədə naxararları müdafiə edən kilsənin qüdrətinə zərbə vurdu. Dikbaşlıq edən katolikosu qovub kilsəni özünə tabe etdi, kilsə üçün toplanan onda bir vergisini ləğv etdi. Kilsə torpaqlarının bir qismini müsadirə edib öz tərəfdarlarına – azatlara payladı. Lakın 374-ci ildə o, sui-qəsd nəticəsində öldürüldü. Taxta əmisi oğlu Varaz çıxarıldı. O, naxararlarla münasibətləri kəskinləşdirməmək mövqeyi tutdu. Bu isə naxararlar arasında daxili çəkişmələrin yenidən güclənməsinə səbəb oldu.

**387-ci ildə** erməni dövlətinin daxili çəkişmələr nəticəsində zəifləməsindən yararlanan ***Sasani və Roma onu öz aralarında bölüşdürdü.*** Ermənistanın bu iki imperiya arasında bölüşdürülməsi tezliklə daxili idarəçiliyin də ləğvinə gətirib çıxardı. Romaya keçmiş ***qərb vilayətlərinin daxili müstəqilliyi*** **391-ci ildə,** ***Sasani dövlətinə keçmiş şərq vilayətlərində isə daxili müstəqillik*** **428-ci ildə** ləğv edildi və həmin bölgə Sasani mərzbanlığına çevrildi.





Ona görə də, müasir erməni tarixşünaslığında erkən orta yüzilliklərdə mövcud olmuş erməni dövlətinin varlığına son qoyulmasını İran-Roma təcavüzünün nəticəsi kimi izah etmək cəhdi tamamilə doğru deyildir. Qeyd olunan dövrdə məhz erməni naxararlarının mərkəzdənqaçma meyllərinin güclənməsi, son nəticədə mərkəzi hakimiyyətin zəifləməsinə və erməni dövlətçiliyinin məhvinə əsas səbəb olmuşdur.

**Qafqaz uğrunda Sasani-Roma (Bizans) rəqabəti.** Erkən orta əsrlərin başlanğıc mərhələsində Cənubi Qafqazın digər bölgələrində: Albaniya, Atropaten və Kartlidə Parfiya Arşakiləri nəslindən olan, artıq yerli əhali ilə qaynayıb-qarışmış arşaki sülalələri hakimiyyətdə qalmaqda idilər. Albaniyada arşakilər sülaləsi qısa fasilələrlə **510-cu ilə qədər** hakimiyyətdə qalmışdı. Albaniya hökmdarı Urnayr Sasani şahı Şapurun (309-379) bacısı ilə evlənmişdi və **359-cu ildə** ***Amid yaxınlığında***, 371-ci ildə Dzirav adlı yerdə baş verən döyüşlərdə İranın müttəfiqi kimi Romaya qarşı vuruşmada iştirak etmişdi. Sonrakı dövrdə də alban hökmdarı daxili müstəqilliyini saxlamaqda idi. Yalnız 510-cu ildən sonra Albaniya Sasani mərzbanı tərəfindən idarə olunmağa başlanmışdı.



**Şəkil.**
Vaxtanq Qorqasal

V əsrin ikinci rübündə Sasani şahı ondan asılı olan Kartli hökmdarı üzərində daimi nəzarət üçün *pitiaxş* vəzifəsi təsis etdi. V əsrin ikinci yarısında Kartli şahı Vaxtanq Qorqasal Sasani asılılığından azad olmaq üçün mübarizəyə başladı. Lakin Sasani dövləti gürcü feodallarının bir hissəsini öz tərəfinə çəkib Vaxtanqı məğlubiyyətə uğratdı. Kartli hökmdarı Lazikaya – Qərbi Gürcüstana qaçmağa məcbur oldu. VI əsrin əvvəlində Vaxtanqın

nəslindan olan Qurgen Kartli taxt-tacına yiyələndi. O da mövqeyini möhkəmləndirdikdən sonra Sasani ağalığına qarşı çıxdı, böyük üsyana başladı.

**523-cü ildə** Sasani dövləti bu üsyanı yatırıb Kartlidə yerli sülalənin hakimiyyətinə son qoydu. Qurgen ailəsi və yaxın adamları ilə birlikdə Lazikaya qaçdı. ***Kartli mərzbanlığa çevrildi.*** Mərzbanlığın iqamətgahı Tiflis şəhəri idi.

VI əsrin 20-ci illərində Lazika da İrandan vassal asılılığına düşdü. 523-cü ildə Kartlini tutan Sasani qoşunu Qərbi Gürcüstana doğru irəliləyərək Lazikanı fəth etdi. Lakin bu vəziyyət çox çəkmədi.

Lazika hökmdarı Tsate Konstantinopola qaçıb Bizans imperatorundan yardım istədi. Orada xristianlığı rəsmən qəbul etdi. Bizans qoşunlarının yardımı ilə Tsate Lazikada öz hakimiyyətini bərpa etdi. Eyni zamanda ölkəsində Bizans hərbi qüvvələri saxlanmasına icazə verdi. Petra qalasında çoxsaylı Bizans qarnizonu yerləşdirildi. Bizans Qərbi Gürcüstanda tədricən öz mövqeyini möhkəmləndirməyə başladı.

Bizansın mövqeyinin gücləndirməsindən narazı olan yeni Lazika şahı Qubaz 542-ci ildə Sasani hökmdarı Xosrovdan yardım istədi. Sasani qoşunu 545-ci ildə Lazikadakı Bizans qüvvələrini vurub çıxardı. Bu zaman həm Lazika, həm də Abazqiya (Abxaziya) Sasani dövlətinin təsiri altına düşdü.

Abazqiya IV əsrdən Lazikadan asılı idi. Bu bölgə daha öncədən Lazika ilə birlikdə Roma tabeliyində idi. Bu səbəbdən Abazqiyada və bütövlükdə Qərbi Gürcüstanda köləlik güclü idi. Erkən orta əsrlərdə Bizans ağalığı dövründə də köləlik mühüm yer tutmaqda davam edirdi. Qeysəriyyəli Prokopinin məlumatına görə, abazq knyazları öz təbəələrinin yaraşıqlı oğlan uşaqlarını xacə olmağa hazırlayır və sonra da onları böyük pula Bizansa satırdılar. Eyni zamanda qisasdan qorxduqları üçün həmin uşaqların atalarını öldürürdülər.

Bizans imperatorları həm də abazq əhalisi üzərinə çox ağır vergilər qoymuşdular. Abazqiyada Bizansa nifrət çox





böyük idi. Bütün bunlara görə, İran şahı abazqlara hərbi ittifaq müqaviləsi bağlamağı təklif etdiyi zaman, abazq knyazı dərhal razılıq vermişdi.

Lakin 550-ci ildə vəziyyət dəyişdi. Lazika-Bizans hərbi qüvvələri Sasani qoşununu məğlub edib Qara dəniz sahillərində möhkəmləndilər. Bizans qoşunu yenidən Petra qalasını tutdu və çoxlu qənimət ələ keçirdi.

553-cü ildə regiondakı Bizans sərkərdəsinin göstərişi ilə Lazika şahı Qubaz öldürüldü. Bununla Bizans-Lazika münasibətləri pozuldu. Lazların xalq yığıncağı bu məsələni müzakirə etdi. Əyanların bir qrupu Sasanilərlə yaxınlaşmağı, digər qrupu isə Bizansla ittifaqı davam etdirməyi təklif etdi. Fartazın başçılıq etdiyi ikinci qrup qalib gəldi. Çünki laz əyanlarının çoxu Bizansla sıx iqtisadi əlaqələrə malik idilər. Xalq yığıncağı Bizans imperatoruna bu qəsd haqqında məlumat verib, günahkarların cəzalandırılmasını istədi.

562-ci ildə Bizans imperatoru Yustinian yaranmış vəziyyətdən bacarıqla istifadə etdi. Qərbi Gürcüstana qoşun yeritdi. Lazikanı Abazqiya ilə birlikdə sasanilərdən geri aldı.

589-cu ildə Hörmüz böyük qoşunla Lazikaya hücum etdi. Lazika, Svanetiya, Kolxida Sasanilər tərəfindən qarət edildi. Bu yürüş zamanı svanların çox hissəsi məhv edildi. Kiçik bir hissəsi isə dağlara çəkildi və ətraf aləmdən təcrid olunmuş həyat keçirməyə məcbur oldu. Ona görə də, svanların ictimai quruluşunda XIX əsrin ikinci yarısına qədər erkən feodal qaydaları qalmaqda idi.

**604-cü ildən** yeni, kiçik fasilələrlə 628-ci ilə kimi davam edən yeni Bizans-İran müharibələri başlandı. 622-ci idə Sasani qoşunları türk tayfalarının köməyi ilə hətta Konstantinopolun divarlarına qədər gedib çatmışdılar. Lakin Bizans imperatoru türkləri qiymətli hədiyyələr verməklə öz tərəflərinə çəkdi. Türk döyüşçüləri mühasirədən əl çəkib vətənlərinə döndülər. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Bizans qoşunu 623-cü ildə hücuma başladı. Dvini, Naxçıva-

nı, Həmədanı və Qanzakı (Qazaka) ələ keçirdi. Bu yürüş zamanı Qanzakdakı böyük atəşpərəst məbədi dağıdıldı.

626-cı ildə Sasani şahı II Xosrov avarlarla ittifaq bağladı. Onların hərbi yardımı ilə Konstantinopola qədər irəlilədi. Bizans bu dəfə də müttəfiqlik əlaqəsi yaratdığı xəzərlərin yardımından istifadə etdi. Xəzərlər böyük qüvvə ilə Qafqazın cənubuna hücum edib Albaniya və Atropateni qarət etdilər. İranın mərkəzi vilayətləri üçün ciddi təhlükə yarandı. Bununla bağlı Sasani qoşunları tələsik geri çəkilməyə məcbur oldu.

**628-ci ildə *Bizansla Sasani dövləti arasında barışıq müqaviləsi bağlandı.*** Cənubi Qafqaz yenidən bu iki imperiya arasında bölüşdürüldü. Şərq bölgələri Sasanilərin, qərb bölgələri Bizansın tabeliyində qaldı.



**Şəkil**. Azərbaycan. Çıraqqala.





Bizans və Sasani dövlətləri Cənubi Qafqaz uğrunda uzun müddət rəqabət aparsalar da, Şimali Qafqazda erkən orta yüzilliklərdə yaranmış türk xaqanlıqlarına qarşı zaman-zaman birlikdə mübarizə aparırdılar. Çünki hər iki tərəf Şimali Qafqazda güclü siyasi birliklərin yaranmasından eyni dərəcədə əziyyət çəkirdi və onların hücumlarının qarşısının alınmasında maraqlı idilər. Həmin siyasi qurumlar vaxtaşırı Cənubi Qafqazdakı Bizans və Sasani mülklərinə basqın edirdilər. Bunun qarşısını almaq üçün **422-ci ildə** Bizans Sasani dövləti ilə xüsusi müqavilə bağladı, Alan (Dəryal) keçidinin qapadılması üçün Sasanilərə böyük məbləğdə qızıl ödəməyi öhdəsinə götürdü.



**Şəkil**. Azərbaycan. Dərbənd səddi (Narınqala).

V əsrə aid erməni qaynağında Bizans imperatoru Markianın (450-457) Sasani şahı II Yezdəgirdlə (439-457) ittifaq müqaviləsi bağladığı qeyd olunmuşdur. Bu müqaviləyə əsasən Bizans tərəfi Böyük Qafqaz dağlarındakı keçidləri Şimal tayfalarının hücumlarından mühafizə etmək, müdafiə divar-

ları və qalalar inşasını həyata keçirmək üçün maliyyə yardımı göstərmişdi. Bu yardımın hesabına Sasani dövləti o zamanın çox mürəkkəb müdafiə qurğusu olan Dərbənd qalasının və səddinin inşasına başlamışdı. Çünki, Şimaldan köçəri tayfaların Cənubi Qafqaza doğru böyük yürüşləri ən çox məhz bu keçiddən olurdu. Sasani və Bizans dövlətləri Dərbənd səddinin və qalasının inşası ilə Şimaldan basqınların qarşısını qəti şəkildə almaq ümidində idilər.

Daha öncə isə Sasani şahları Xəzər sahili bölgələrdə mövqelərini möhkəmləndirmək, şimal istiqamətindən hücumların önünü kəsmək üçün Beşbarmaq və Şabran (Şirvan) müdafiə divarlarını inşa etdirmişdilər. Dərbənd keçidində isə möhkəmləndirilmiş məntəqə yaradılmış, mühafizə dəstəsi yerləşdirilmişdi.

507-508-ci illərdə Sasani şahı I Qubad Dərbənd keçidi üzərindəki nəzarəti daha da gücləndirdi. Hun hökmdarı Amvazukun ölümündən sonra baş vermiş qarışıqlıqdan yararlanıb hunları şimala sıxışdırdı. Dərbənd keçidində yenidən inşaat işlərini davam etdirdi. I Xosrovun hakimiyyəti dövründə (531-579) 8 m qalınlığında daş divarlar və bürclər inşa edildi. Tədqiqatçıların çoxu, o cümlədən Dərbənd səddinin inşasına xüsusi monoqrafiya həsr etmiş rus sovet alimi A.A.Kudryavtsev belə hesab edirlər ki, səddin və qalanın inşası məhz bu zaman başa çatmışdır. Bununla da Böyük Qafqaz dağlarının zirvələrindən Xəzər dənizinin içərilərinə qədər uzanan və bizim günlərə qədər öz əzəməti ilə insanları heyran edən möhtəşəm Dərbənd səddi inşa edildi.

**Sasani əsarətinə qarşı xalq hərəkatı.** V əsrin ortalarında Sasani hökmdarı II Yezdəgirdin (438-457-ci illər) hakimiyyəti dövründə Cənubi Qafqaz əhalisinin vəziyyəti daha da ağırlaşdı. Bu bir tərəfdən, həmin dövrdə Dərbənd səddinin inşası ilə əlaqədar əhali üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin miqdarının ikiqat artırılması ilə əlaqədar idi. Digər tərəfdən isə, bəhs olunan dövrdə Cənubi Qafqaz xalqlarının dini inanclarının təqib edilməsi, zorla atəşpərəstliyin yayılması daha amansız hal almışdı. **450-ci ildə** II Yezdəgird Kartli, Ermənistan və Albaniya hökmdarlarını Ktesifona çağıraraq onları atəşpərəstliyi qəbul etməyə məcbur etmişdi. Elə həmin vaxt yerli əhali içərisində atəştərəstliyi yaymaq üçün Cənubi Qafqaza 700-dən çox maq göndərilmişdi.





Erməni müəllifi Lazar Parpetsinin məlumatına görə, maqların gəlməsindən sonra xristian kilsələrinin dağıdılması, kilsə binalarının atəşgahlara çevrilməsinə başlandı. Xristianların zorla atəşpərəstliyi qəbul etmələrinə göstərişlər verildi. Bu addımlar bütün regionda hiddətlə qarşılandı. Əhali üsyan qaldırıb maqları, vergi yığan məmurları öldürdü, həbsxanaları dağıdıb, məhbusları azad etdi.

Sasani dövləti üsyanı yatırmaq üçün böyük cəza ordusu göndərdi. Gürcü, erməni və alban üsyançılarının birləşmiş qüvvələri **450-ci ildə** ***Xalxal*** adlı yerdə (alban hökmdarının qış iqamətgahı yaxınlığında) baş verən döyüşdə İran ordusunu tamamilə məğlubiyyətə uğratdılar. Üsyançılar hətta Dərbəndi də ələ keçirib oradakı Sasani qarnizonunu məhv etdilər.

II Yezdəgird üsyançıların üzərinə **451-ci ildə** yeni, daha böyük ordu göndərdi. Cəza ordusu ***Avarayr çölündə*** (Maku yaxınlığında) baş verən döyüşdə üsyançıları məğlub edə bildi. Bundan sonra cəza dəstələri üsyanda iştirak edənlərin ailələrinə divan tutmağa başladı.

**457-ci ildə** Albaniyada yeni üsyan başladı. Bu üsyana alban hökmdarı II Vaçe başçılıq etmişdi. Albaniya əhalisi Dağıstan tayfaları ilə ittifaqa girib Sasani ağalığına son qoydular, Dərbənd qalasını yenidən ələ keçirdilər. Sasani hökmdarı Şimali Qafqazda yaşayan *haylandur* hunlarını öz tərəfinə çəkərək Albaniyanın üzərinə göndərdi. 463-cü ildə II Vaçe hakimiyyətdən salındı. "Albaniya tarixi"nin müəllifi Moisey Kalankatlının yazdığına görə, bu hadisədən sonra alban ölkəsi 30 il hökmdarsız qaldı.

V əsrin 80-ci illərində Sasani zülmünə qarşı bütün İranı bürüyən Məzdəkilər hərəkatının başlanması Cənubi Qafqazda yeni üsyanlara səbəb oldu. Gürcü, alban və erməni əhalisindən Sasani dövlətinin şərq sərhədlərinə göndərilmək üçün atlı qoşun toplanması böyük narazılıq doğurdu. **481-ci ildə** Kartlidə başlanan üsyana hökmdar ***Vaxtanq Qorqasal*** özü başçılıq etdi. O, İran şahının ölkədəki nümayəndəsi – pitiaxş Vazgeni öldürtdü, Sasani məmurlarını Gürcüstandan qovdu. Albaniya və Ermənistan əhalisi də üsyana qalxdı. Üsyançıların birləşmiş qüvvələri **481-ci ildə** *Akori kəndi yaxınlığında döyüşdə* və **482-ci ildə** *Nersexabad adlı yerdə baş verən döyüşdə* Sasani qoşununu ağır məğlubiyyətə uğratdı.

Həmin vaxt Sasani dövlətinin Eftalitlər (ağ hunlar) ilə müharibədə məğlub olması, 484-cü ildə isə şah Firuzun döyüşdə həlak olması, taxta yeni çıxan şah Balaşın Cənubi Qafqaz əhalisinə güzəşt etməsinə səbəb oldu. **485-ci ildə** ***Nvarsak*** kəndində Sasani dövləti ilə Cənubi Qafqazın feodal əyanları arasında əldə olunan razılaşmaya görə, alban, gürcü və erməni əyanlarının hüquq və imtiyazları bərpa olundu. Xristian dininin sıxışdırılmasına son qoyuldu, Albaniyada hökmdar hakimiyyətinin bərpasına razılıq verildi.

571-572-ci illərdə Qafqazda Sasani ağalığına qarşı yeni xalq çıxışları baş verdi. Dağıstan əhalisinin bu çıxışlarda iştirakı "Axtınamə" adlı salnamədə əksini tapıbdır. Salnamədə Xosrov Ənuşirəvanın Dağıstanda öz mövqeyini möhkəmlətmək üçün Axtı qalasını inşa etdirməsi və orada qarnizon yerləşdirməsi qeyd olunubdur. Yerli üsyançılar gecə vaxtı Axtı qalasına hücum edərək qarnizonu məhv etmiş, qalanı da uçurub dağıtmışdılar. Sasani dövləti həmin vaxt Bizansla ağır döyüşlər apardığı üçün üsyançıların üzərinə cəza ordusu göndərə bilmədi və yerli əyanlara daxili idarəçilikdə daha çox sərbəstlik vermək məcburiyyətində qaldı.





## III-VII əsrlərdə türk axınlarının Şimali Qafqazda etnik-siyasi proseslərə təsiri

**Hun axınları.** Şimali Qafqaza hun tayfalarının yürüşləri haqqında ilk məlumatlar yeni eranın I-II əsrlərinə aiddir. Ptolomey yazmışdır ki, roksalanlarla basterlərin arasında Qara dəniz sahilinə yaxın bölgədə xun (hun) tayfaları yaşayır. V əsr erməni müəllifi Pavstos Buzand hunların IV əsrin 30-cu illərində II Xosrovun ölkəsinə hücum etməsi haqqında yazmışdır. Bu yürüş zamanı Maskut şahlığının qoşunu da fəallıq göstərmişdi.

***Maskut (Maskat) şahlığı*** yeni eranın ilk əsrlərində Xəzər sahili bölgədə mövcud idi. IV əsrdə onun mərkəzi indiki Dağıstan ərazisindəki Belici şəhərinin yerində olmuşdur. Arxeoloqlar orada Maskut dövlətinin paytaxt şəhərinin qalıqlarını aşkar etmişlər. Cənubi Dağıstanı və Albaniyanın şimal-şərq bölgəsini əhatə edən bu dövlətin hərbi qüvvələri IV əsrin 30-cu və 60-cı illərində Qafqazın cənub-qərbinə doğru dağıdıcı yürüşlər etmişdilər. Maskutların sonuncu yürüşünün qarşısını Sasani şahı II Şapur çətinliklə almışdı. Bu faktlar yeni eranın ilk əsrlərindən türk tayfalarının Şimali Qafqazda fəallığının göstəricisidir.

Bununla belə, türklərin regionda başlıca etnik kütləyə və hegemon siyasi qüvvəyə çevrilməsi ***hunların Şimali Qafqaza və Avropaya doğru kütləvi yürüşünün başlandığı*** **IV əsrin 70-ci illərinə** aiddir. Həmin vaxt hunlar İdil (Volqa) çayını keçərək Şimali Qafqazın düzənlik hissəsində alanlarla qarşılaşdılar. Qısa müddət ərzində onların müqavimətini qırıb özlərinə tabe etdilər. 371-ci ildə hunların bir hissəsi Donu keçib qərbə doğru, digər hissəsi isə Qafqazın içərilərinə hərəkət etdilər. Terek və Kuban çayları boyu ərazilər, Taman yarımadası sakinləri tabe edildi. Bu zaman hunların bir hissəsi Cənubi Qafqaza hərəkət etdilər, Kiçik Asiyanın içərilərinə qədər irəlilədilər. Daha sonra isə yenidən Şimali Qafqa-

za qayıtdılar, buradakı qüvvələrlə birləşərək Krıma və Şimali Qara dəniz sahillərinə hərəkət etdilər.

Hunların əsas qüvvələri birləşdikdən sonra həmin bölgədə məskunlaşmış qədim alman tayfaları – *qotları* məğlub etdilər. Hunların ardınca Qara dənizin şimalına və Bizans mülklərinə ***bulqar (bolqar) tayfaları*** yürüş etdilər. Mənbələr həmçinin IV əsrin sonunda hun, bulqar və digər türk tayfalarının Qafqaz keçidlərindən cənuba doğru yeni yürüşə başlamaları, Suriya hüdudlarına qədər geniş ərazini qarət etmələri və çoxlu qənimətlərlə Dərbənd keçidindən şimala çəkilmələri haqqında məlumatlar vardır.

Hunların bu yürüşləri Şimali Qafqazın siyasi və etnik xəritəsində əsaslı dəyişikliklərə səbəb oldu. Bosfor şahlığı məhv oldu, Fanaqoriya, Kepa, Tiritaka kimi antik şəhərlər xarabazarlığa çevrildi. Daha öncədən Taman yarımadasında yaşayan *meotlar* Qafqaz dağlarına doğru sıxışdırıldı, yerli, qafqazşünaslıqda *protoadıq* adı ilə tanınan etnos ilə qonşu oldu. Alan tayfaların əsas hissəsi hunlara qoşularaq qərbə doğru getdi, bir qismi isə Terekin sol sahilinə, Kubanın yuxarı axarı boyunda dağlıq bölgədə məskunlaşdılar. Mənbələrdə alanların toplu halında daha çox Dəryal keçidinin şimal yamacları və Kluxor aşırımı boyunda yerləşmələri qeyd olunmuşdur.

Xəzər sahili bölgədə, müasir Mahaçqaladan cənubda isə hunların bir hissəsi məskunlaşdılar. Bu ərazinin o dövr qaynaqlarında "Hun ölkəsi", Dərbənd keçidinin "Hun darvazası" adlanması bununla bağlıdır. Mənbələrdə həmçinin, bu dövrdə hunların Cənubi Qafqaza çoxsaylı yürüşləri haqqında məlumatlar qalmışdır. Hun ölkəsindən cənubda isə maskut tayfaları yaşamını davam etdirməkdə idi.

Hun və digər türk tayfalarının Albaniya, erməni və gürcü torpaqlarına yürüşləri Sasani və Bizans dövlətlərinin də mənafeyinə ciddi təhlükə törədirdi. Bu yürüşlərin qarşısını almaq üçün hər iki dövlətin səylərini birləşdirərək müdafiə divarları və qalalar inşa etmələri bununla bağlı idi.








**Xəritə 6.** Şimali Qafqaza IV-VI əsrlərdə türk tayfalarının yürüşləri.

Atillanın ölümündən sonra, V əsrin ortalarında hunların bir hissəsi – *ağ hunlar* Mərkəzi Asiyaya qayıtdı. Digər qismi isə Qara dənizin şimal sahili boyunda və Şimali Qafqazda məskunlaşdı, buradakı türk etnoslarının hərbi-siyasi təsirinin güclənməsinə yardım etdi.

**Böyük Bulqar dövləti.** Mənbərdə **V əsrin 50-60-cı illərində** Şimali Qafqazda ***Bulqar dövləti*** adlı güclü siyasi birliyin yaranması qeyd edilir. Suriya müəllifi Zaxariya Ritor bulqarların təsirinin həmin dövrdə Kaspi (Xəzər) dənizinə qədər geniş ərazilərə yayıldığını göstərmişdir. Bulqarların Şimali Qafqazda yaşaması haqqında ilk məlumata 354-cü ildə qələmə alınmış yunan salnaməsində rast gəlinmişdir. Sonrakı yüzilliyə aid qaynaqlarda bulqarların Şimali Qafqazın

qərb hissəsində düzənlik ərazilərdə güclü etno-siyasi birlik yaratmaları əks olunmuşdur. Bu tayfaların I minilliyin ortalarında Meot gölü (Azov dənizi) ətrafında və Kufis (Kuban) çayı boyunda Böyük Bulqarıstan ölkəsində yaşaması haqqında daha sonrakı dövrdə, IX əsrdə yaşamış Bizans müəllifləri Feofan və Nikofor da məlumat vermişlər.

Bulqarların *Utiqur və Kutriqur tayfaları* daha güclü idilər və Bulqar dövlətinin idarə edilməsini öz əllərində saxlayırdılar. Onların 539-540-cı illərdə Dunay boyundakı Bizans mülklərinə, hətta Kiçik Asiyaya yürüş etmələri haqqında məlumatlar vardır. Bizans imperatoru bu təhlükəli qonşusunu zərərsizləşdirmək üçün bulqar tayfaları arasında nifaq törətdi. Utiqurların tayfa başçılarını qiymətli hədiyyələrlə öz tərəfinə çəkib, onları Kutriqur və digər bulqar tayfaları üzərinə qaldırdı. 552-553-cü illərdə bulqarlar arasında qanlı münaqişə baş verdi və Şimali Qafqazın siyasi tarixində onların hegemon rolu sona çatdı. Mənbələrdə bulqar tayfalarının VI əsrin 50-ci illərində avarlarla və onların müttəfiqi kimi çıxış edən alanlarla toqquşduqları və məğlubiyyətə uğradıqları qeyd edilmişdir. Yalnız avarların kütləvi şəkildə qərbə doğru yürüşündən sonra bulqarlar azad olmuşdular. Mənbələrdə həmçinin **576-cı ildə** bulqarların ***Türk (Göytürk) xaqanlığına*** tabe edildiyi və bu dövlətin parçalanmasından sonra Bizansın köməyi ilə yenidən azadlığa çıxmaları bildirilir.

**619-cu ildə** bulqar hökmdarı tayfa əyanları ilə birlikdə Konstantinopolda xristianlığı qəbul etdi. Onun varisi ***Kubrat xan*** dövründə isə **Böyük Bulqar dövləti** regionun ən güclü dövlətinə çevrildi. **VII əsrin ortalarında** Kubratın ölümündən sonra bu erkən feodal dövləti daxili çəkişmələr nəticəsində parçalandı. Mənbələrdə bu hadisədən sonra bulqarların bir hissəsinin Asparux xanın başçılığı ilə Dunay boyuna, digər hissəsinin Volqa çayının orta axarı və Kama çayı boyuna köç etdikləri, az bir qisminin isə Şimali Qafqazda qaldığı





qeyd edilmişdir. Şimali Qafqazda qalan bulqarlar sonrakı dövrdə balkar və qaraçay xalqlarının etnogenezində əsas rol oynamışlar.

**Sabir türkləri. Göytürk xaqanlığının Şimali Qafqazı özünə tabe etməsi. VI əsrin ortalarında** Şimali Qafqazın şərq bölgələrində digər bir türk etnosunun – ***sabir*** (sibir, suvar) tayfalarının əsas etnik siyasi qüvvəyə çevrilməsi baş verirdi. Sabir türkləri çox döyüşkən idilər. Hələ VI əsrin əvvəllərində onlar muzdlu döyüşçülər kimi həm Bizans, həm də Sasani qoşunlarında qulluq edirdilər. Sabirlər 515-ci ildə Sasanilərin Cənubi Qafqazdakı mülklərinə basqın etmiş və nəticədə onlara verilən xəracın miqdarının artırılmasına nail olmuşdular.

VI əsrin ortalarında Xəzər dənizindən şimaldakı çöllərdə və Qafqazın şimal-şərq hissəsində Göytürk xaqanlığının təsiri gücləndi. Onların təzyiqi ilə ***avarlar*** Şimali Qafqazdan qərbə doğru axışdılar. Avarlar 558-ci ildə sabirləri və bulqarları özlərinə tabe edərək Bizans mülklərinə soxuldular. Həmin il Bizansla bağlanan müqaviləyə görə, Bizans imperatoru hər il avar xaqanına bac ödəməli idi. Lakin avarlar az sonra müqavilə şərtlərini pozaraq Bizans mülklərinə yenidən hücum etdilər. VI əsrin 60-cı illərində avarlar Dunay sahili boyunda möhkəmlənib nəhəng dövlət – **Avar xaqanlığı** yaratdılar.

Avarlar 626-cı ildə Sasani dövləti ilə ittifaqda Bizansa qarşı hərbi yürüş etdilər və Konstantinopola qədər irəlilədilər. Lakin bu zaman Avar xaqanlığında yaşayan tayfalar Bizansın təhriki ilə üsyan qaldırdıqları üçün bu yürüş nəticəsiz oldu.

569-cu ildə Göytürk xaqanlığı avarlarla yenidən mübarizəyə başladı və bütün Şimali Qafqazı özünə tabe etməyə girişdi. İlk öncə Sabir dövləti tabe edildi. Türk xaqanı İstəmi həmin vaxt Sasani dövlətini xərac verməyə məcbur etmək üçün ona qarşı müharibəyə başladı. 582-583-cü illərdə isə Bizans mülklərinə yürüş etdi. Bu erkən feodal dövləti VI əsrin sonuna doğru daxili çəkişmələr nəticəsində zəiflədi və parça-

lanmaya məruz qaldı.

**Bizans və Sasani dövlətlərinin Şimali Qafqazda yaranmış türk xaqanlıqları ilə münasibətləri.** Bizans və Sasani dövlətləri Şimali Qafqazda yaranmış türk xaqanlıqları ilə gah müttəfiq olmaq və hədiyyələr göndərməklə, gah da onlar üzərinə hərbi yürüşlər etməklə regionda türk təsirini azaltmağa çalışırdılar. Bizans imperatoru Yustinian (527-562) Şimal-qərbi Qafqazda, Azov ətrafı bölgədə imperiyanın mövqeyini möhkəmləndirdi. O, 528-ci ildə sabirlərin qüdrətli xaqanı Boariksla ittifaq bağladı, VI əsrin 50-ci illərində isə bulqar tayfalarını bir-birinin üzərinə qaldırdı. Bizansın bu siyasəti Qafqazın şimal-qərb hissəsində öz mövqeyini VII əsrin 30-cu illərinə qədər qorumasına imkan vermişdi.

Sasani dövləti də IV-VI əsrlərdə Şimali Qafqazın şərq hissəsində baş verən prosesləri diqqətlə izləyirdi. Sasani şahları həm Xəzərsahili bölgələrdə müdafiə divarları və qalalar inşa etməklə Dərbənd və Dəryal keçidlərindən cənuba doğru türk axınlarını durdurmağa çalışır, həm də fürsət düşən kimi bu döyüşkən tayfalarla ittifaqa girərək əzəli rəqibləri olan Bizansa qarşı müharibələrdə onlardan yararlanmağa çalışırdılar.

Türk xaqanları da, öz növbələrində, Bizans-Sasani qarşıdurmasından maksimum faydalanırdılar. Onlar gah bu, gah da digər tərəfə hərbi yardım etmək əvəzində böyük bəxşişlər alır, bəzən də bu dövlətləri davamlı şəkildə xərac ödəməyə məcbur edirdilər. Məsələn, 569-cu ildə İstəmi xaqan Sasani dövlətinə təzyiq göstərmək üçün Bizansla ittifaq bağlamışdı. Bu müqaviləyə əsasən, Çindən Bizansa doğru uzanan və Şimali İrandan keçən "Böyük İpək yolu"nun istiqamətini dəyişərək Mərkəzi Asiyanın şimalından Xəzər dənizinin şimal sahillərinə, oradan da Qara dənizin şimal-şərq sahili boyundakı Bizans mülklərinə doğru yönəltmək qərara alındı. Lakin tarixən qərarlaşmış ticarət əlaqələrinin qırılması heç bir tərəfə xeyir gətirmədi və qısa müddətdən sonra





siyasi vəziyyətin dəyişməsi ilə ticarət karvanları yenidən ənənəvi marşrutdan istifadə etməyə başladılar.

IV-VII əsrlərdə Qafqazın şimalında yaranmış türk dövlətləri bu regionda türk əhalisinin sayının çoxalmasına, türk xalqlarının formalaşmasına səbəb oldu. Qafqazın türk xalqlarının tarixi haqqında sanballı araşdırmaların müəllifi Y.A.Fyodrov qumuqların etnogenezisi haqqında dissertasiya işində arxeoloji, etnoqrafik, antropoloji və yazılı mənbələr əsasında müəyyən etmişdir ki, IV-XIII əsrlərdə türk tayfalarının təsiri ilə Şimali Qafqazda iki türk dilli zona yaranmışdı: Şimali Dağıstanda – qumuqların formalaşdığı bölgə, Şimali Qafqazın mərkəzi dağlıq və dağətəyi bölgəsi, Elbrus dağı önü – qaraçayların və balkarların ilkin vətəni. Bu xalqlar Qafqazın avtoxton, köklü sakinləri idilər.

## Qafqazda xristianlığın yayılması

**Xristianlıq təliminin yayılmağa başlaması.** Qafqazda xristianlıq təlimi II-III əsrlərdən yayılmağa başlamışdı. İlk xristian missionerləri bu regiona II əsrdə Fələstindən, Suriyadan və Kappadokiyadan (Kiçik Asiya) gəlmişdilər. Onlar həm xristianlıq etiqadını, həm də bu dinin müqəddəs kitabı olan ***Bibliyanı – İncili*** təbliğ edir, Qafqaz əhalisini bu dinə dəvət edirdilər. Mənbələr II əsrdə Suriya kilsəsinə mənsub missionerlərin Kiçik Asiyanın şərqində, Qafqaz dağlarına doğru ərazilərdə yaşayan əhali içərisində xristianlığı yaydıqlarını qeyd etmişlər.

İlk xristian missionerlərin Qafqazda fəaliyyətinə Parfiya, sonra Sasani hökmdarları mane olmur, əksinə sığınacaq verir, himayə edirdilər. Çünki, xristian təbliğçiləri bu dövlətin rəqibi olan rəsmi Roma hakimiyyətinə müxalif idilər. Bununla belə, bütpərəstliyin güclü olduğu Qafqazda xristianlığın yayılması ciddi müqavimətlə üzləşirdi. Moisey Kalankatlı Albaniyada ilk xristian təbliğatçılarının – *həvarilərin* Suriya mis-

sionerləri Varfolomey və Faddey olmalarını qeyd etmişdir. Albaniya tarixçisi həvarilərin öz missiyalarını çətinliklə həyata keçirdiklərini və "Artaz (Zəngilanda Bartaz kəndi vardır – Q.Ə.) vilayətində hökmdar Sanatrukun (Sanatürkün) qəzəbinə düçar olduqlarını, təqiblərə məruz qaldıqlarını və həvari Faddeyin əzabla öldürüldüyünü" göstərmişdir.

**Xristianlığın rəsmən qəbulu.** Romanın köməyi ilə III əsrin sonunda erməni şahlığına gəlmiş III Trdat (298-330) da ilk vaxtlarda xristian təbliğatçılarını qəddarlıqla təqib edirdi. Yalnız **313-cü ildə** *Milan edikti* qəbul edildikdən sonra Romada və onun təsiri altında olan ölkələrdə xristianların təqibi dayandırıldı, xristianlıq ayinlərinin sərbəst şəkildə icrasına rəsmən icazə verildi. **314-cü və ya 315-ci illərdə** erməni hökmdarı III Trdat da yeni yaranmış vəziyyəti nəzərə aldı, ***xristianlığı yeganə rəsmi dövlət dini elan etdi.*** Onun əmri ilə ölkədəki bütpərəst məbədləri dağıdıldı, mülkləri kilsənin ixtiyarına verildi. Bunlardan əlavə, hər bir kənd xristian ruhanisinə 7 pay torpaq sahəsi ayırmalı idi.

Qeyd etmək lazımdır ki, erməni tarixinə aid sovet dövründə nəşr edilmiş əsərlərdə, akademik nəşrlərdə Erməni dövlətində xristianlığın rəsmən 314-315-ci illərdə qəbul edildiyi göstərilmişdir. Lakin 2001-ci ildə Ermənistan Respublikası xristian liderlərinin, o cümlədən Roma papasının da fəal iştirakı ilə xristianlığın qəbul edilməsinin 1700 illiyini təmtəraqla qeyd etmiş, dünya birliyi də bu saxtakarlığı dəstəkləmişdir.

Erməni şahlığında IV əsrin əvvəlində xristianlığın baş təbliğatçısı ***Qriqori*** idi. O, Qeysəriyyədə xristianlığı qəbul etmiş və ilk vaxtlar missionerlik fəaliyyətinə görə ciddi təqiblərə məruz qalmışdı. Erməni şahlığında xristianlıq rəsmi dövlət dini elan edildikdən sonra isə erməni kilsəsinin başçısı olmuşdu. Qriqorinin ölümündən sonrakı dövrdə kilsə başçısı vəzifəsi davamlı olaraq onun nəslindən olanların əlində qalmışdı. Erməni kilsəsinin sonradan dini mübahisələrdə pravoslavlardan və katoliklərdən fərqli mövqe tutması ilə əlaqədar buradakı





xristian məzhəbi bu səbəblərdən *qriqorianlıq* adını aldı.

Tiranın dövründə (338-350) şahla katolikos Yusik arasında münaqişə baş verdi. Münaqişəyə səbəb kilsənin iqtisadi-siyasi təsirinin güclənməsi, xüsusilə də katolikosun mərkəzi hakimiyyətə qarşı çıxan naxararları müdafiə etməsi idi. Şahın əmri ilə katolikosluq Yusikin əlindən alındı, özü də öldürüldü. IV əsrin 50-ci illərində şaha yaxın olan din xadimi Nerses kilsə başçısı oldu. Erməni müəlliflərinin iddialarına görə, 363-cü ildə kilsə başçısı tam müstəqil oldu və *katolikos* rütbəsi aldı. Lakin bu, o dövr mənbələrindəki faktlarla öz təsdiqini tapmır. Erməni kilsəsi yalnız 551-ci ildə Dvində keçirilən kilsə məclisindən sonra Konstantinopol patriarxlığı ilə əlaqələrini kəsmiş, öz müstəqilliyini elan etmişdi.

XX əsrin 80-90-cı illərində Qafqazın erkən orta əsrlər dövrünə aid bir sıra tədqiqat əsərlərinin müəllifi rus alimi A.P.Novoseltsev Qafqazda xristianlığın ilk dəfə ***Albaniyanın Arsak və Uti vilayətlərində*** yayıldığını göstərmişdir. Albaniyada xristianlığın yayılmasına xüsusi araşdırma həsr etmiş azərbaycanlı alim F.C.Məmmədova da yeni dinin ilk dəfə bu ölkədə rəsmi qəbulunun Milan ediktindən dərhal sonra, **313-cü ildə** baş verdiyini, digər tədqiqatçılar isə IV əsrin 30-cu illərində və ya hökmdar Urnayrın hakimiyyətinin ilk dövründə baş verdiyini qeyd etmişlər.

Mənbələr həmçinin **V əsrin ikinci yarısında** Albaniyada hökmdar Vaçenin dövründə xristianlığın qəbul edilməsi haqqında yeni bir fərman verilməsini göstərmişlər. Bu fakt xristianlığın birinci qəbulunun Albaniyada nəticəsiz qalmasını göstərir. VI əsrin başlanğıcında Albaniyanın Sasani dövlətinə qəti tabe edilməsi və atəşpərəstliyin ciddi-cəhdlə yayılması, yerli əhalinin köhnə dini inanclarını qoruyub saxlamaqda israrlı olması xristianlığın ikinci dəfə rəsmi qəbulunun da ciddi nəticə verməməsinə gətirib çıxarmışdı.

Gürcüstanda xristianlığın rəsmi qəbulu **337-ci il** hesab edilir. Həmin il Kartli hökmdarı ***Marianın*** icazəsi ilə xristian

missioneri Nino gürcü əyanlarını xaç suyuna salmışdı. Xristianlığın insanları itaət göstərməyə çağırması, hökmdar hakimiyyətinin ilahi iradəyə uyğun olması haqqında moizələr gürcu şahının və əyanların yeni dini həvəslə qəbul etmələrini şərtləndirmişdi. Bu hadisədən sonra Kartlidə hökmdar və əyanlar bütpərəst kahinlərə və məbədlərə məxsus torpaq mülklərinin çox hissəsini zəbt etmək imkanı qazandılar. Məbəd torpaqlarının bir hissəsi və məbədlərin özləri isə xristian kilsəsinin və din xadimlərinin ixtiyarına keçdi.

Kartlidə yeni dinin yayılmasına ilk vaxtlar azad əkinçilər ciddi etiraz etmişdilər. Xüsusən ölkənin dağlıq hissəsində əhali bütpərəstlik inanclarını qoruyub saxlamağa çalışırdılar. Yalnız hökmdarın onlar üzərinə cəza dəstələri göndərməsindən sonra xristianlıq sadə xalq içərisində də qəbul edildi. Gürcü mənbələrinə görə, 475-ci ildə Kartli kilsəsinin başçısı katolikos rütbəsi aldı.

Gürcüstanın qərbində, Qara dəniz sahili boyu şəhərlərdə Romanın təsiri ilə xristianlığın yayılması daha tez – IV əsrin əvvəlində baş vermişdi. Lakin ***Lazikada*** xristianlığın dövlət səviyyəsində rəsmən qəbulu daha sonrakı dövrə – **VI əsrin əvvəlinə** aiddir.

**Kilsənin erkən orta əsr cəmiyyətində yeri.** Erməni kilsəsi ilk zamanlar (Roma) Bizans kilsəsindən asılı idi. Qriqoridən başlayaraq erməni katolikosları Qeysəriyyədə təsdiq edilirdi. Bunu N.Adons XX əsrin başlanğıcında nəşr etdirdiyi "Ermənistan Yustinian dövründə" adlı əsərində Bizans qaynaqları əsasında xüsusi qeyd etmişdir. Elə buna görə də, müasir erməni tarixçiləri Y.A.Manandyan və S.T.Yeremyanın erkən orta əsrlərin başlanğıc mərhələsində alban kilsəsinin başçısının erməni katolikosları tərəfindən təsdiq edilməsi fikri əsassızdır.

Albaniyada və Kartlidə xristian kilsəsi ilk zamanlar Qüds kilsəsi və Qüds patriarxlığı ilə sıx əlaqədə idi. 340-cı ildən sonra isə qismən müstəqillik qazanmışdılar. Əsas kilsə





qanunları yepiskopların yığıncağında hökmdarın və iri feodalların iştirak etdiyi məclisdə qəbul edilirdi. 598-ci ildə keçirilən Aquen məclisində həm kilsə ilə dünyəvi hakimiyyət arasında, həm də kilsə xadimlərinin öz aralarındakı qarşılıqlı münasibətlər tənzim edilmişdi. Ümumiyyətlə, Kartlidə və Albaniyada erkən orta yüzilliklərdə dövlətçilik davamlı mövcud olduğu və hökmdar hakimiyyəti güclü olduğu üçün kilsə başçılarının səlahiyyətləri məhdud idi.

***Xalkidonda* 451-ci ildə *keçirilən*** Ümumdünya kilsə məclisində Şərqi Roma (Bizans) imperatoru Markianın fəal iştirakı ilə monofizitlik və nestorianlıq məzhəbləri pisləndi. Bundan sonra xristian dinində iki cərəyan: monofizitlər və diofizitlər arasında dini mübarizəyə güclü təkan verildi. Xalkidon kilsə məclisinin qərarı ilə razılaşmayan erməni və alban din xadimləri kilsə iearxiyasında Konstantinopol patriarxının aliliyini qəbul etməkdən boyun qaçırdılar. Erməni və alban kilsələrinin nümayəndələri bu məclisdən yarımçıq ayrıldılar.

**551-ci ildə *Dvində keçirilən kilsə məclisində*** Bizans kilsəsi ilə əlaqələr tamamilə kəsildi. Bu qərarın qəbul edilməsinə Bizansın Cənubi Qafqazda nüfuzunun artmasından ehtiyat edən və ona hər vasitə ilə zərbə vurmaq istəyən Sasani dövləti də yardım etdi. Bundan sonra erməni vilayətində Qriqorian kilsəsinin mövqeyi daha da möhkəmləndi. Mənbələrdə elə o zamandan erməni və alban kilsə başçılarının katolikos adlandırılmasına başlanmışdı. Bu, patriarx və ya arxiyepiskop ali dini rütbəsinə bərabər idi.

V-VI əsrlərdə Sasani şahları tabe etdikləri bölgələrdə Bizansın dəstəklədiyi, sonradan pravoslavlıq adını almış məzhəbi təqib edirdi. Yalnız VII əsrin əvvəlində Cənubi Qafqazda Sasani təsirinin zəifləməsi, Bizansın mövqeyinin möhkəmlənməsi fonunda alban kilsəsi və gürcü kilsəsi yenidən Konstantinopol patriarxlığı ilə əlaqəni bərpa etdilər. **607-ci ildə *Qafqaz din xadimlərinin Dəbildə (Dvində) keçirilən məc-***

***lisində gürcü kilsəsi rəsmən erməni kilsəsi ilə bütün əlaqələrini kəsdi.*** Bu məclisdə ***alban kilsəsi də Bizansa yaxınlaşmaq yolunu tutdu***, xalkidonçuluq prinsiplərini qəbul etdiyini bildirdi.

Alban və gürcü kilsələrinin Bizans kilsəsi ilə bağlı olması ərəb işğalı zamanı öz təsirini göstərdi. Məhz bu cəhət 704-cü ildə Xilafətin alban kilsəsinin müstəqilliyinə son qoymasına səbəb oldu. Sasani imperiyası kimi Ərəb Xilafəti də Qafqazda Bizansın təsirini kəsməyə çalışırdı. Ona görə də, Xilafət alban kilsəsini hər fürsətdə Bizans kilsəsi ilə dini rəqabətdə olduğunu bəyan edən erməni kilsəsinə tabe etməyə qərar verdi. Bu da Albaniyanın xristian əhalisi arasında ciddi narazılığa səbəb oldu. Nəticədə alban xristianlarının çoxu onlarla dini ixtilafda olan erməni kilsəsinə tabe olmaqdansa, İslam dinini qəbul etməyi üstün tutdular.

Erməni kilsəsi erməni dövlətçiliyinin çox erkən itirildiyi bir zamanda cəmiyyətin siyasi həyatında mühüm yer tutmuşdu. Sonrakı yüzilliklərdə kilsə təkcə ibadət evi, günahların bağışlanması üçün dualar edildiyi müqəddəs bir məkan deyil, həm də ümumerməni məsələlərin müzakirə edildiyi yerə çevrilmişdi. Kilsə başçısı isə yalnız dini başçı deyil, bütövlükdə ermənilərin ağsaqqalı, baş məsləhətçisi statusunu almışdı.

**Şimali Qafqazda xristianlığın yayılması.** Şimali Qafqazda erkən orta əsrlərdə bütpərəstlik, xüsusən türk axınlarından sonra Göy Allahı Tenqriyə – Tanrıya inam mühüm yer tuturdu. Bununla bərabər, VI-VII əsrlərdə Şimali Qafqaza bir-birinin ardınca Bizansdan, Albaniyadan, İberiyadan, erməni kilsəsindən xristian missionerlər göndərilirdi. Xüsusən Bizans siyasətçiləri xristianlıqdan bu regionda öz siyasi təsirini genişləndirmək məqsədi ilə, öz sərhədləri yaxınlığında hərbi-dini bufer və ya sədd yaratmaq üçün istifadə edirdilər. Ona görə də, Şimali Qafqazın Qara dəniz boyu bölgələrdə xristianlıq daha sürətlə yayılırdı.

Hələ 325-ci ildə imperator Konstantinin iştirakı ilə Nikeyada keçirilmiş ümumdünya kilsə məclisində Bospor yepiskopu Kadm da iştirak etmişdi. 519-cu ildə keçirilən ümumdünya kilsə məclisində isə Fanaqoryadan yepiskop İohann iştirak etmişdi. Qeysəriyyəli Prokopi Tamanda yaşayan tayfaların xristian qaydaları ilə yaşadıqlarını və 548-ci ildə Yustiniana elçi göndərib onlarda da abazqlarda olduğu kimi yepiskop olmasını istəmişdilər.





VI-VII əsrlərdə alanlar, zixlər (adıqlar) içərisində də xristianlıq yayılırdı. Lakin bu dövrdə adıqların əksəriyyəti bütpərəst olaraq qalırdı. Xristianlıq inamları yalnız Qara dəniz boyunda yaşayan tayfa əyanları içərisində özünə yer tapırdı. Hunlar və digər türk tayfaları içərisində də xristian missionerləri fəal iş aparırdılar. Suriya müəllifi Zaxari Ritor hunlar ölkəsinə erməni keşişi Kardosun başçılığı ilə 7 din xadiminin getdiyini, 14 il orada xristianlığı təbliğ etdiklərini yazmışdır. VI əsrin ortalarına aid Bizans mənbəsində isə Utiqur hökmdarı Qordanın Konstantinopolda xristianlığı qəbul etməsi haqqında məlumat verilmişdir.

Bütövlükdə isə, Şimali Qafqazda ictimai təbəqələşmə ləng getdiyi üçün xristianlığın sosial bazası da məhdud idi.

## III-VII əsrlərdə mədəniyyətin inkişafı

**Yerli ədəbi dillərin formalaşması.** Erkən orta əsrlərdə Azərbaycan (türk), gürcü və erməni xalqlarının formalaşmasında mühüm irəliləyişlər baş verdi. Azərbaycan (türk), gürcü və erməni ədəbi dillərinin formalaşması başlandı. VII əsrdə Azərbaycan mühitində "Kitabi Dədə Qorqud" dastanının yaradılması Azərbaycan türkcəsinin böyük inkişaf yolu keçdiyini aydın surətdə nümayiş etdirir. Məşhur qafqazşünas N.Y.Marrın fikrincə, gürcü ədəbi dilinin formalaşması VI-VII əsrlərdə Şərqi Gürcüstan (kartvel) tayfalarının dialekti əsasında baş vermişdir. Sonrakı dövrdə bu prosesdə Kartli tayfaları ilə yanaşı, digər gürcü tayfaları, o cümlədən

quriyalılar, miqrellər, lazlar, svanlar da iştirak etmişdilər.

Erməni ədəbi dilinin formalaşması, erməni tədqiqatçısı M.Abeqyanın araşdırmalarına görə, erkən orta əsrlərdə fars dilinin güclü təsiri ilə baş vermişdir. Fars sözləri və ifadələri həm Parfiya (e.ə. III – y.e.-nın II əsrləri), həm də Sasani dövründə (III-VII əsrlər) erməni leksikonuna kütləvi şəkildə daxil olmuşdur. Həm də bu əxz etmə o qədər çoxdur ki, hətta bir zamanlar erməni dilini Hind-Avropa dil ailəsinin İran qrupuna aid etməyi təklif edirdilər. XIX əsrin sonu – XX əsrin əvvəlində mütəxəssislərin araşdırmalarına görə, erməni dilində işlədilən həm çoxlu xüsusi adın, həm də 800-ə qədər söz kökünün fars dilindən mənimsənilməsi dəqiqləşdirilibdir. Məsələn, Arşak, Bakur, Trdat, Tiqran, Vardan, Nerses, Artaşes, Karen, Suren, Anuş adları, yer bildirən -*şen, -kert, -kan, -van* şəkilçiləri fars dilindən alınmışdır.

Erməni dilinə Suriya və Bizans (yunan) təsiri də güclü olmuşdur. Erməni dilçisi R.A.Açaryan müasir dövrdə erməni dilində işlənməkdə olan 200 sözün Suriya mənşəli olmasını müəyyən etmişdir. Bu da öz başlanğıcını II əsrdə Suriyadan Ermənistana gəlmiş xristian missionerlərin fəaliyyətindən götürürdü. Suriyalı missioner Daysan (Vardasan) bu dövrdə Ermənistanın dağlıq bölgələrində yaşayan əhali içərisində xristianlıq təlimini yaymış, sonra isə öz vətənində kilsənin əsasını qoymuşdur. Xristian missionerləri ilk vaxtlar "Bibliya"nı yayır, onun ayrı-ayrı hissələrini erməni dilinə çevirirdilər. IV əsrdən isə erməni kilsə ədəbiyyatının yaradılmasında iştirak edirdilər. İlk erməni kilsə ədəbiyyatı nümunələri Suriya dilindən tərcümələr hesabına yaradılmaqda idi.

Yunan dilinin təsiri erməni ədəbi dilinin həm sintaktiksisində, həm də leksikasında özünü açıq şəkildə göstərmişdi. Yunan dili həm də gürcü dilinə güclü təsir etmişdi.

**Erməni, gürcü və alban əlifbalarının yaradılması.** Cənubi Qafqazda mədəniyyətin inkişafına V əsrin əvvəlində erməni, gürcü və alban əlifbalarının tərtibi çox mühüm təsir göstər-





mişdi. Erməni əlifbasının tərtibi suriyalı maarifçi Mesrop Maştosun fəaliyyətinin nəticəsidir. O, erməni əlifbasını Efiopiya (amxar) əlifbasının işarələrindən istifadə etməklə yaratmışdı. Bu məsələyə xüsusi araşdırma həsr etmiş D.A.Oldereqqe müəyyən etmişdir ki, Maştosun erməni əlifbasına daxil etdiyi 36 hərfin 23-ü eynilə Efiopiya əlifbasının işarələridir. Bu aşağıdakı şəkildən də aydın görünür: birinci sırada Efiopiya əlifbasının, ikinci sırada erməni əlifbasının hərfləri əks olunmuşdur.




**Şəkil.** Efiopiya (I sıra) və erməni (II sıra) əlifbası.

Qeyd etmək lazımdır ki, müasir dövrdə erməni tədqiqatçılarının Mesrop Maştosun sonradan erməni əlifbası əsasında gürcü və alban əlifbalarını tərtib etməsi haqqında iddiaları heç bir elmi əsasa malik deyildir. Həm gürcü, həm də Azərbaycan tarixşünaslığında bu məsələyə yetərincə aydınlıq gətirilmişdir. Mütəxəssislərin fikrincə, həm gürcü, həm də alban əlifbaları fərqli quruluşa malikdir. Maştosun maarifçilik fəaliyyətindən bəhs etmiş erməni müəllifi Koryun yazmışdır ki, "Mesrop Maştos Albaniya ölkəsinə gələrək alban əlifbasını *bərpa etdi.* Ona bu işdə Albaniya kilsəsinin başçısı Yeremi və *tərcüməçi* Benyamin *kömək etdi* (Seçmə bizimdir – Q.Ə.)."





**Şəkil.**

Gürcü əlifbası ilə yazılmış ilk yazı nümunəsi.

Qədim Mincəçevir. Üzərində alban yazısı olan xaçdaş.

Qafqaz xalqlarının öz əlifbalarını yaratmaları "Bibliya"nın erməni, gürcü və alban dillərinə tərcüməsinə, yerli dillərdə dini və daha sonra da ədəbi və elmi əsərlərin meydana gəlməsinə imkan verdi. V-VII əsrlərdə ilahiyyat, fəlsəfə, tarix, coğrafiya, astrologiya və digər sahələr üzrə çoxlu sayda əsərlər yazıldı.

**Memarlıq.** Erkən orta yüzilliklərdə Cənubi Qafqaz xalqlarının mədəni həyatına Bizans, Suriya təsiri çoxşaxəli olmuşdur. Bu təsir özünü həm xristianlığın yayılması ilə paralel olaraq mənəvi mədəniyyət sahələrində: ədəbi dilin, ədəbiyyatın inkişafında, həm də arxitektura, rəssamlıq, şəhərsalma və s. sahələrdə göstərirdi.

Maraqlıdır ki, Qafqazda ilk xristian məbədi Arsakda yaradılmışdı. Müasir Laçın rayonu ərazisində Zabux çayı yaxınlığında İşıxlı dağda inşa edilmiş Ağoğlan (Amaras) monastırı erkən orta əsrlərin başlanğıcına aiddir. Məbədin üzərində xaçabənzər qabartma naxışlarının və qarğa şəkillə-





rinin yanaşı olması diqqəti cəlb edir. Tədqiqatçıların çoxunun fikrinə görə, qarğa qıpçaq qrupuna mənsub türk tayfalarının bəzilərində *onqon* – müqəddəs sayılan quşdur. Bu da xristianlığın yayıldığı dövrdə Arsakın yerli türk tayfaları içərisində qədim dini inancların çox güclü təsirinin hələ də qalmaqda olduğunu aydın şəkildə göstərir.

Ermənistanda isə ilk vaxtlar kilsə kimi köhnə bütpərəst məbədlərdən istifadə edilirdi. Erməni müəllifləri yalnız VII əsrdə Dvində inşa edilmiş kilsədən bəhs etmişlər. Erməni kilsələri bərabərtərəfli xaç formasında çıxıntılara malik olur, mərkəz hissədə qübbə inşa edilirdi.



**Şəkil.** Gürcüstanın ilk xristian məbədi (VII əsr)

Gürcüstanda da erkən orta əsrlərə aid memarlıq abidələri içərisində kilsə tikililəri mühüm yer tuturdu. Mənbələr bu dövrdə Cənubi Qafqazda çoxlu sayda qalalar və müdafiə divarları inşa edilməsi haqqında məlumat verir. Bu da memarlığın bütün Qafqaz regionunda yüksək inkişaf səviyyəsinə çatmasını göstərir.

### Qafqaz ərəb işğalları və ağalığı dövründə

**Ərəb işğalları ərəfəsində Qafqazda ictimai-siyasi vəziyyət.** VII əsrin ilk onilliklərində Cənubi Qafqazın çox hissəsi Sasani imperiyasına daxil idi və onun 4 kustakından birinə – Şimal kustakına daxil idi. Qafqazın Qara dəniz boyu ərazisi isə Bizansın tabeliyində qalmaqda idi. VII əsrin başlanğıcından 30-cu illərə kimi Qafqaz uğrunda bu iki imperiya arasında qanlı müharibələr baş verdi. Bu müharibələr həm hər iki imperiyanı zəiflətdi, həm də xalq kütlələrinə hədsiz dərəcədə ağır məhrumiyyətlər gətirdi. Hərbi əməliyyatların əsasən Cə-

nubi Qafqaz regionunda baş verməsi yerli əhalinin təsərrüfat həyatına ağır zərbə vurdu. Bizans ordusu imperator II İraklinin əmri ilə VII əsrin 20-ci illərində Dvin, Naxçıvan, Qazaka kimi böyük şəhərləri qarət etdikdən sonra yandırmışdı.

VII əsrin başlanğıcında Şimali Qafqazda etnik-siyasi vəziyyət daha mürəkkəb idi. VI əsrə aid Suriya xronikası Dərbənd qapılarından şimalda 13 müxtəlif tayfa və xalqın, o cümlədən sabir, bulqar, xəzər və avarların yaşadığını qeyd etmişdir. **VII əsrin 30-cu illərində** Dağıstanın düzənlik hissələrində ***Xəzər xaqanlığı*** gücləndi. Həmin dövrdə Şimali Qafqazın qərb hissəsində bulqarların etno-siyasi birliyi qalmaqda idi. Daha sonrakı dövrdə isə bütün Şimal-qərbi Qafqazla bərabər, bulqarların Qafqazda qalan hissəsi xəzərlərin hakimiyyəti altına düşdü. Xəzər xaqanları özlərini Göytürk xaqanlığının banisi Aşina soyunun davamçıları sayırdılar. VII əsrin sonunda xaqanlığın paytaxtı ***Səməndər şəhəri*** idi. Bu şəhərin qalıqları Dağıstanda müasir Tarku şəhərinin yaxınlığında aşkar edilmişdir. Bu dövrdə Şimali Qafqazın çox hissəsi Xəzər xaqanlığına tabe idi. Mənbələr xaqanın hərəmxanasında ondan asılı olan 25 hökmdarın qızının saxlandığını qeyd etmişlər.

Xəzər xaqanlığı yarandığı dövrdən Cənubi Qafqazı ələ keçirmək üçün Sasani və Bizans imperiyaları ilə, VII əsrin 40-cı illərindən başlayaraq isə ərəblərlə müharibə aparırdı.

**Qafqaza ərəblərin ilk yürüşləri.** Ərəb dövləti yarandıqdan az sonra onun Ərəbistan yarımadasından kənara, İrana və Bizansa qarşı qalibiyyətli yürüşləri başlandı. İslam bayrağı altında birləşmiş ərəb tayfaları ilk xəlifələrin dövründə yeni dini yaymaq, kafirləri "gerçək, düzgün yola gətirmək" adı altında geniş işğallara başladılar. O zaman Sasanilərin hakimiyyəti altında olan Cənubi Qafqaz əhalisi Xilafət orduları ilə ilk dəfə açıq döyüşdə üzləşməli oldu.

Hicri tarixin 17-ci ilində (639-cu il) xəlifə Ömərin dövründə ərəb qoşunları Mosul və Kufədən Qafqazın cənubuna





daxil oldular, Qəzvini tutdular və Cənubi Azərbaycanın digər bölgələrinin işğalına başladılar. **642-ci ildə** (bəzi mənbələrə görə 644-cü ildə) ərəb sərkərdəsi Utba ibn Farkad Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadla döyüşdə qalib gəldi, onunla Ərdəbildə sülh bağladı. Bununla Cənubi Azərbaycan əhalisi Xilafətə tabe edildi. Yerli əhali üzərinə xərac və cizyə vergiləri qoyuldu.

Ərəb ordusu daha sonra Muğana, Şirvana, Dərbəndə doğru yürüşlərə başladı. Həmin vaxt ərəblər Cənubi Qafqazın işğalını tam başa çatdırmamış, Şimali Qafqaza qədər irəliləməyə can atırdılar. Ərəb sərkərdələri xüsusən Dərbənd keçidinə nəzarəti tez bir zamanda ələ keçirməyi qarşılarına məqsəd qoymuşdular. Çünki ərəblərin Cənubi Qafqazda mövqelərinin möhkəmlənməsi bilavasitə bu keçid üzərində etibarlı nəzarət qoyulmasından asılı idi.

Ərəb qoşunlarının Xəzərsahili bölgələr istiqamətində ilk böyük hücumu hicri tarixin 17-ci ilində başlandı. Həmin il Muğana daxil olan ərəb ordusu yerli əhalinin güclü müqaviməti ilə üzləşdi. Üç il davam edən mübarizədən sonra Muğan ələ keçirildi. Ərəb qaynaqları hicri tarixin 22-ci ilində Şirvana, 25-ci ilində Arrana yürüşlər haqqında məlumat vermişdir. **644-cü ildə** ərəb sərkərdəsi Salman ibn Rəbiə Şirvanın və Dərbəndin hakimi Şəhriyarla sülh bağladı. Yerli əhali ərəblərə tabe olmağı və xərac ödəməyi öz öhdəsinə götürdü. Lakin xəlifənin göstərişi ilə Dərbənd əhalisi cizyədən azad edildi. Əvəzində onlar bütpərəstlərə və Xilafətin düşmənlərinə qarşı döyüşlərdə iştirak etməli idilər.

Həmin il xəlifə Ömərin əmri ilə Dərbənddən şimala, Xəzər xaqanlığının paytaxtına doğru yürüş başlandı. Xəzərlərin əl-Bayda şəhəri işğal edildi. Lakin ərəb sərkərdəsi Əbdürrəhman əl-Bəhilinin başçılığı ilə ərəb ordusunun Xəzər xaqanlığının mərkəzi şəhərlərinə doğru yürüşü uğursuz oldu. Bələncər yaxınlığında baş verən həlledici döyüşdə ərəblər məğlub oldular. Ərəb sərkərdəsi Əbdürrəhman əl-Bəhili də

döyüşün gedişində öldürüldü.

Xəlifə Ömərin öldürülməsindən sonra Xilafətin mərkəzində hakimiyyət dəyişikliyi baş verdi. Bununla bağlı Xilafətin Şimali Qafqaza yürüşlərinə müvəqqəti olaraq ara verildi. Xəlifənin vəfatı yeni tutulmuş yerlərdə möhkəmlənməyə imkan vermədi. Xəzərlər hücuma keçib ərəbləri Dərbənddən cənuba qovdular.

Ümumiyyətlə isə, VII əsrin 40-cı illərində Qafqazın cənub-şərq hissəsinin Ərəb Xilafətinə tabe edilməsi əsasən başa çatmışdı. Xəlifə Osmanın 647-ci ildə Qafqaza göndərdiyi sərkərdə əl-Valid ibn Ukba Xəzərsahili düzənlik əraziləri yenidən itaət altına almış, əhalisi üzərinə 800 min dirhəm əlavə təzminat qoymuşdu. Elə bu zaman yeni tutulmuş bu bölgələrə Kufədən ərəblərin köçürülməsinə başlanmışdı.

Lakin bu bölgələrdə ərəb ağalığı VII əsrin sonuna qədər yetərincə möhkəm deyildi. İlk vaxtlar Xilafət tərəfindən Qafqazın idarəsi Dvindən həyata keçirilirdi. Bəhs olunan dövrdə Albaniya hökmdarı Cavanşir ərəblərə qarşı mübarizəni davam etdirirdi. O, Kartli hökmdarı Artnersex ilə ittifaqa girmişdi. Onların birləşmiş qüvvələri 652-ci ildə Xilafət qoşunlarını öz torpaqlarından qova bildilər. ***Kartli və Albaniya hökmdarlarının*** birlikdə atdıqları növbəti addım **654-cü ildə** ***Bizans imperatoru II Konstantla ittifaq yaradılması oldu.*** Cənubi Qafqazın feodal hakimləri Xilafətə qarşı birgə mübarizə aparmaq haqqında Bizansla razılığa gəldilər. Lakin Bizans öz öhdəliyini sonuna qədər yerinə yetirmədi.

Bizansla razılaşmanın praktik əhəmiyyəti olmadığı üçün Cavanşir 667-ci və 670-ci illərdə iki dəfə Xilafətin mərkəzinə – Dəməşqə gedərək xəlifə Müaviyə ilə münasibətləri nizama saldı. Xilafətin Cənubi Qafqazda möhkəmlənməsinə qısqanclıqla yanaşan bizanspərəst qüvvələr 681-ci ildə Cavanşirə qəsd etməklə Cənubi Qafqazı yenidən ərəb, Xəzər və Bizans qoşunlarının yürüş hədəfinə çevirdilər.

Ərəblərin Qafqazın şərq hissəsinə, Xəzərboyu bölgələrə





yeni yürüşü **653-cü ildə** baş verdi. Bu zaman ərəb sərkərdəsi Həbib ibn Məsləmə Qafqazın yerli hakimlərinin çoxunu Xilafətə tabe edib, Dərbəndə doğru irəlilədi. Lakin ərəblərin Qafqazın şimalına – Xəzər xaqanlığının paytaxtına doğru yeni yürüşü də uğursuz oldu. ***Bələncər yaxınlığındakı yeni döyüşdə*** ərəblər məğlub oldular. Ərəb sərkərdəsi öldürüldü, ərəb qoşunlarının qalıqları tələsik cənuba çəkildilər.

VII əsrin ortalarında ərəblərin Cənubi Qafqazın içərilərinə doğru irəliləməsi bu regionda İslamın yayılması, Ərəbistandan, Suriyadan və İraqdan ərəb ailələrinin köçürülüb yerləşdirilməsi ilə müşayiət olunurdu.

**Cənubi Qafqazın Xilafətə tabe edilməsi.** Şərqi Gürcüstana – ***Kartliyə*** ərəblərin ilk böyük hücumu **642-643-cü illərdə** baş verdi. Ərəb mənbələrinə görə, Həbib ibn Məsləmənin başçılıq etdiyi ərəb ordusunun Gürcüstana bu ilk yürüşü nəticəsiz oldu. Bu dövrdə Kartli şahı Bizans meylli siyasət yeritməyi davam etdirirdi. Lakin 50-ci illərin başlanğıcında, artıq yuxarıda qeyd edildiyi kimi, Kartli və Albaniya hökmdarlarının Bizansla yaxınlaşmaq cəhdləri, sonuncunun təqsiri üzündən nəticəsiz qaldı.

VII əsrin 50-ci illərində Xilafətin Gürcüstana təzyiqi daha da gücləndi. Ərəb ordularının yenidən böyük qüvvə ilə Cənubi Qafqazda görünməsi ***Kartli hökmdarı*** *Artnersexi* **654-cü ildə** Xilafətlə müqavilə bağlayıb tabe olmağa vadar etdi. Müqaviləyə görə, gürcülər öz dini ayinlərini sərbəst icra etmək hüququnu saxladılar. Əvəzində hər bir həyətdən vergi (cizyə) ödənilməli idi. Kartli hökmdarı həmçinin müsəlmanlara canlı qüvvə ilə (zimmilər şəklində) yardım göstərməli idi. Yürüş zamanı ərəb ordusunun ərzaq və sığınacaqla təmin edilməsi də müqavilə şərtlərinə aid idi.

Ərəb ordularının ***Erməni vilayətinə*** ilk basqınları **640-cı ilin payızında** oldu. Ərəblər Dvini tutub minlərlə adamı əsir aldılar. Bu zaman Erməni vilayətinin başında *Teodoros Rştuni* dururdu. O, ərəblərin ilk yürüşünü dəf edə bildi. La-

kin iki il sonra ərəblər daha böyük qüvvə ilə hücum edib Qafqazın cənub-qərb bölgələrini, o cümlədən Erməni vilayətini qarət etdilər. Vilayət hakimi Rştuni 2 min atlısı ilə ərəb cəza dəstəsinə basqın etdi, lakin məğlub oldu. **642-ci ildə** ***Nəhavənd döyüşündə*** Sasani imperiyasının əsas hərbi qüvvələrinin ərəblər tərəfindən sarsıdıcı məğlubiyyətə uğradılması da Rştuninin mövqeyinə təsir etdi.

650-ci ildə ərəblərin Erməni vilayətinə yeni yürüşü zamanı Bizans dövləti Rştuniyə Xilafətə qarşı birgə mübarizə aparmağı təklif etdi. Lakin erməni kilsə başçısının məsləhəti ilə Rştuni Bizans sərkərdəsi Prokopinin ərəblərə qarşı birlikdə çıxmaq haqqında təklifini rədd etdi, Xilafətlə danışığa girdi. **652-ci ildə** Xilafətlə müqavilə bağlandı. Müqaviləyə görə, ***Erməni vilayəti Xilafətin ali hakimiyyətini qəbul etdi.*** Ona xərac, cizyə ödəməyi, şəhərlərində və qalalarda ərəb qarnizonu saxlamağı öhdəsinə götürdü. Ərəblər də Erməni kilsəsinin əmlakını qorumağı, erməni əhalisinin dini ayinlərini sərbəst icra etmələrini təmin etməyi vəd etdilər.

Erməni kilsəsi Ərəb-Bizans ziddiyyətlərindən yararlandı, Xilafətə özünün müstəqil kilsə olması fikrini qəbul etdirə bildi. Erməni kilsə xadimləri qriqorian kilsəsi ilə Bizansda hakim pravoslav kilsəsi arasında dini ixtilaf olduğunu qabartmaqla Xilafətdə imtiyazlı mövqe qazandılar.

VII əsrin 60-cı illərinin sonunda Albaniya hökmdarı Cavanşir də Xilafətlə münasibətləri diplomatik yolla nizama saldı, Xilafətin tabeliyini qəbul etdi, xərac, cizyə ödəməyi öhdəsinə götürdü. Cavanşirin səyi ilə Xilafət xəzinəsinə ödənilən xəracın həcmi üçdə bir qədər azaldıldı. VII əsrin 80-ci illlərinə kimi Cənubi Qafqazda nisbi əmin-amanlıq davam etdi. Lakin VII əsrin son onilliklərində region yenidən xarici hücumlara məruz qaldı.

VII əsrin 80-ci illlərinin başlanğıcında Albaniyada bizanspərəst əyanların və alban kilsəsinin Cavanşirə qarşı təşkil etdikləri sui-qəsd Qafqaz uğrunda Ərəb-Xəzər-Bizans





rəqabətini kəskinləşdirdi. Öncə Xəzər xaqanı Alp İlitver Cənubi Qafqaza böyük yürüş etdi. Uti vilayətinə qədər bütün şəhərləri və kəndləri qarət etdi. Alban katolikosu Yelizar Xəzər xaqanı ilə sülh bağlaya bildi və qarətlərin davam etməsinə yol vermədi. VII əsrin 80-90-cı illərində xəzərlərin Qafqazın cənubuna, o cümlədən də Kartliyə qarətedici basqınları daha da intensiv xarakter aldı.

Bizans da VII əsrin 80-ci illərində Cənubi Qafqaza böyük yürüş təşkil etdi. Bizans sərkərdəsi Leonti **685-ci ildə** ərəb qüvvələrini bölgənin çox hissəsindən qova bildi. Bununla Gürcüstanda ərəb təsiri zəiflədi, Bizansın mövqeyi gücləndi.

Yalnız əsrin sonunda ərəblər Kartlidə öz mövqelərini bərpa edə bildilər. Eyni zamanda, Xilafət Lazikada Bizans ağalığına qarşı üsyandan istifadə edib, ora qoşun yeritdi. **697-ci ildə** *Lazikanın çox hissəsi ərəblərə tabe edildi.*

VII əsrin 90-cı illərinin sonunda ərəb sərkərdəsi Məhəmməd ibn Mərvan böyük ordu ilə Cənubi Qafqaza hücum etdi. O, həmin vaxt erməni naxararlarının ərəb ağalığına qarşı etiraz çıxışlarını silah gücünə yatırdı. Naxararların atlı qoşunu tamamilə məhv edildi. **703-cü ildə** ***Sumbat Baqratuninin*** başçılığı ilə ermənilərin yeni üsyanı oldu. Yeni ərəb sərkərdəsi Məhəmməd ibn Okbey bu üsyanı da yatırdı və ***Erməni vilayətinin daxili müstəqilliyinə son qoydu.*** Erməni vilayətində ərəb ağalığı qəti bərqərar oldu.

VII əsrin sonunda Bizansın təhriki ilə Albaniyada xristian kilsə başçısı Bakur hökmdar Varaz Trdatın Ərəb Xilafətindən üz döndərib Bizansa meyl etməsinə nail oldu. Katolikos Bakur Albaniya hökmdarı Varaz Trdatın xanımı ilə bu barədə razılığa gəlmişdi. 704-cü ildə alban katolikosunun Xilafətin əleyhinə çıxışı onunla nəticələndi ki, alban kilsəsinin müstəqilliyinə son qoyuldu, erməni kilsəsinə tabe edildi. **705-ci ildə** isə ***Mehranilər sülaləsinin hakimiyyətinə son qoyuldu,*** Albaniyanın daxili müstəqilliyi ləğv edildi. Mehranilər sülaləsinin sonuncu nümayəndəsi Varaz Trdat Dəməşqə

aparılıb edam edildi.

Xilafətin Alban kilsəsinin müstəqilliyini ləğv etməsinə erməni katolikosu İlyanın alban katolikosunu Bizansla əlaqə yaratmaqda günahlandıraraq, onu cəzalandırmağı xahiş etməsi də müəyyən təsir göstərdi. Alban pravoslav xristianları ya ermənilər kimi qriqorian məzhəbini qəbul etməli, ya da müsəlmanlığı seçməli oldu. Alban xristianlarının xeyli hissəsi sonuncu seçimi etdi. Yalnız Ermənistana yaxın bölgələrdə, xüsusən də dağlıq ərazidə xristianlıq ehkamları saxlanıldı. Sonrakı min il ərzində tədricən alban xristian əhalisinin qriqorianlaşması, alban əhalisinin isə erməniləşməsi baş verdi.

Xilafətin VII əsrin başlanğıcında atdığı addımlar Erməni vilayətində və Albaniyada ciddi narazılıqla qarşılandı. Yerli hakimlərin inzibati idarəçilikdən kənarlaşdırılması yeni üsyan dalğası yaratdı. Əl-Bəlazuriyə görə, xəlifə Əbdülməlik Cənubi Qafqaza qardaşı Məhəmməd ibn Mərvanın başçılığı ilə böyük cəza ordusu göndərdi. Ərəb sərkərdəsinin əmri ilə yeni üsyan hazırlanmasında şübhəli sayılan 800 alban və erməni əsilzadəsi diri-diri yandırıldı.

***Gürcüstanda ərəb ağalığı qəti şəkildə* 736-738-ci illərdə *bərqərar olundu.*** Həmin vaxt ərəb sərkərdəsi Mərvan ibn Məhəmməd gürcü qalalarını məhv edərək, bütün müqavimət ocaqlarını dağıtdı. Bütün əsas məntəqələrdə ərəb qüvvələri yerləşdirildi. Dəryal keçidi üzərinə ciddi nəzarət qoyuldu.

**Qafqaz uğrunda Ərəb-Xəzər müharibələri.** Ərəb Xilafəti Cənubi Qafqazda, xüsusən də onun qərb hissəsində möhkəmlənmək üçün VII əsrin ortalarında və ikinci yarısında dəfələrlə Bizansla toqquşmalı olmuşdu. Xilafət qoşunları Bizans ordularını məğlub edib regionda möhkəmlənməyə başlayanda, Xəzər xaqanlığının ciddi müqaviməti ilə üzləşdi. VII əsrin ortalarında Xəzər xaqanları ərəb sərkərdələrinin Şimali Qafqazın içərilərinə doğru irəliləmək cəhdlərinin qarşısını kəsdilər. Nəticədə bəhs olunan dövrdə Xilafətin təsirinin Dərbənddən şimala yayılması baş tutmadı.





VII əsrin 60-cı illərində isə Xilafətin mərkəzində hakimiyyət uğrunda mübarizənin kəskinləşməsindən yararlanan xəzərlər 661-ci və 664-cü illərdə Qafqazın cənubuna böyük yürüşlər təşkil etdilər. Albaniya hökmdarı Xəzər xaqanına tabe olmağı və xərac ödəməyi boynuna götürdü. Xəzərlərin Qafqazın cənubunda möhkəmlənməsinə qarşı durmaq üçün ***Ərəb Xilafəti* 685-ci ildə *Bizansla saziş bağlandı.*** Xilafət, xəzərlərə qarşı Bizansın yardımının əvəzində, Qafqazdan götürdüyü gəlirin bu iki imperiya arasında bərabər bölüşdürülməsinə razılıq verdi.

VIII əsrin əvvəllərində ərəblər Cənubi Qafqazda öz mövqelərini qəti şəkildə möhkəmlətdilər. Bundan sonra Qafqazın dağlıq bölgələrinə, xüsusən Dağıstana doğru intensiv yürüşlərə başladılar. 706-707-ci illərdə ərəblərin Dağıstana yürüşü Dərbəndin yenidən ərəblərin əlinə keçməsi ilə nəticələndi. Bu yürüşə Bizansla müharibələrdə böyük uğurlar qazanmış ərəb sərkərdəsi Məsləmə ibn Əbdülməlik başçılıq etmişdi. Xəlifə onun Bizansa və Xəzər xaqanlığına qarşı bu igidliklərini nəzərə alıb 709-cu ildə Qafqaza əmir təyin etdi. Lakin 713-714-cü illərdə Məsləmə ibn Əbdülməlikin başçılığı ilə ərəblərin Tarku qalasına yürüşü uğursuz oldu.

**722-723-cü illərdə** sərkərdə əl-Cərrah ibn Abdullanın başçılığı ilə böyük ərəb ordusu Dağıstana yürüş etdi. Bələncər yaxınlığında Xəzər xaqanının qüvvələri məğlubiyyətə uğradıldı. Bu yürüş xəzərlərin əsas şəhərlərinin ərəblər tərəfindən tutulması ilə nəticələndi. Bu zaman alanlardan yardım alan xəzərlər Səməndər şəhərinin müdafiəsinə möhkəmlətdilər. Ərəb sərkərdəsi Xəzər xaqanlığının paytaxtına hücum etməyərək geri döndü.

Bu illərdə Xəzər xaqanlığı ilə Ərəb Xilafəti arasında mübarizə gedişində alanlar xəzərlərlə ittifaqda çıxış edirdi. Lakin VIII əsrin 30-cu illərində ərəblər alanları Xilafətə tabe edə bildilər. 30-cu illərin sonunda ərəb qoşununun Dərbənd keçidindən şimala yürüşü daha uğurlu oldu.

**737-ci ildə** Xilafətin Qafqazda canişini olan Mərvan ibn Məhəmməd Dərbənd və Dəryal keçidlərindən şimala doğru böyük yürüşə başladı. Xəzər qoşunu məğlub edildi, ərəblər ilk dəfə Don çayına (ərəb qaynaqlarında Slavyan çayı adlanırdı – Q.Ə.) qədər irəlilədilər. Burada yaşayan slavyan və digər tayfalara mənsub olan 20 min kafir ailəsi Xilafətin tabeliyinə alındı. Bu yürüş zamanı Səməndər şəhəri də ələ keçirildi. Xəzər xaqanlığının əsas həyati mərkəzləri Xilafətin tabeliyinə keçdi. Bundan sonra xəzərlərin böyük bir hissəsi Xilafətin tabeliliyində yaşamını davam etdirdi və İslam dinini qəbul etdi. Müasir Dağıstan ərazisində yaşayan türk xalqlarının etnogenezisində müsəlmanlığı qəbul edən xəzərlər də iştirak etmişlər.

Xilafətə tabe olmayan Xəzər tayfaları isə İdil (Volqa) çayının aşağı axarı boyuna köç etdilər. Xəzər xaqanlığı Volqa boyunda varlığını daha bir neçə əsr davam etdirdi.

VIII əsrin ortalarında Xilafətin mərkəzində baş verən qarışıqlıq, Abbasilər sülaləsinin yenicə hakimiyyətə gəlməsi Şimali Qafqazda ərəb təsirini zəiflətdi. Xəzər xaqanlığı bundan istifadə edib Şimali Qafqazın bəzi bölgələrini yenidən özünə tabe etdi. Xəzərlər 763-764-cü illərdə və 796-797-ci illərdə Cənubi Qafqaza böyük yürüşlər təşkil etdilər. Lakin bu epizodik çıxışlara baxmayaraq Qafqazın əsas hissəsi ərəblərin hakimiyyəti altında qaldı. Xilafət xəzərlərin hücumlarının qarşısını alıb Cənubi Qafqazda və Dağıstanda öz mövqeyini qəti şəkildə möhkəmlətdi. Bu dövrdən etibarən, Xəzər xaqanlığı yalnız Qafqazın şimal-qərb hissəsində müəyyən təsirə malik idi.

**Qafqazda ərəb idarəçiliyi. Köçürmə siyasəti.** İlk vaxtlar Qafqazın tabe edilmiş bölgələri və Kiçik Asiyanın Şərq hissəsi Əl-cəzirə adlı dördüncü əmirliyə daxil edilmişdi. Əmirliyin iqamətgahı, artıq qeyd olunduğu kimi, Dəbil (Dvin) şəhərində yerləşirdi. Yerli əyanlardan idarəçilikdə geniş istifadə edilirdi.





VIII əsrin əvvəlində Xilafət Qafqazın idarə olunması üçün inzibati dəyişiklik etdi. Bütün Qafqaz, Cənubi Azərbaycan istisna olmaqla ayrıca bir əmirliyə çevrildi. Yerli sülalələrin hakimiyyətinə son qoyuldu. Bütün hakimiyyət ərəb canişininin – əmirin əlində cəmləşdirildi.

755-ci ildən yeni ərəb əmiri Uzayfa ibn əl-Yəmən tərəfindən *əmirliyin mərkəzi Dvindən Bərdəyə köçürüldü.* Bütün Cənubi Qafqazı əhatə edən və mərkəzi Bərdə olan bu əmirlik ərəb qaynaqlarında keçmiş tarixi ənənəyə dayanaraq "Ərməniyyə əl-Əkbəri" adlanırdı. Bərdədə və Qafqazın digər mühüm strateji əhəmiyyətə malik məntəqələrində, mahal mərkəzlərində ərəb qarnizonları yerləşdirildi. Xəlifənin təyin etdiyi əmir mülki idarəçiliyi həyata keçirməklə bərabər, Qafqazdakı ərəb hərbi qüvvələrinə də komandanlıq edirdi. Bu dövrdə Xilafət Şimali Qafqazın idarəçiliyini də Bərdədən həyata keçirirdi.

VIII əsrin 30-cu illərində Mərvan ibn Məhəmməd həm Cənubi Qafqaz ərazisində Xilafətin hakimiyyətini möhkəmləndirmək üçün, həm də Şimali Qafqazda yeni ələ keçirilən ərazilərin saxlanması üçün silsilə tədbirlər həyata keçirdi. Yeni ərəb əmirinin erməni naxararlarının mülkiyyətini özlərinə qaytarması, Xilafətin ordusu tərkibində erməni atlı qoşunu təşkili üçün pul ayırması, Gürcüstanda isə Dəryal keçidindən şimala doğru Xilafətin dayaqlarını möhkəmləndirməsi, Ərəb dövlətinə tabe olmayan gürcü əhalisinə qarşı qəddar cəzalar tətbiq etməsi bununla bağlı idi. Gürcü tarixi ədəbiyyatında Mərvan ibn Məhəmmədə "Kru" (kar – yəni şikayət və nalələrə qulaq asmayan qəddar – Q.Ə.) ləqəbi verilməsi bununla bağlı idi.

Ərəblər Qafqazda, xüsusilə də onun daha məhsuldar və hərbi-strateji cəhətdən daha önəmli bölgələri olan Xəzərsahili vilayətlərdə möhkəmlənməyə xüsusi diqqət yetirirdilər. Çünki Ərəb-Xəzər müharibələrinin taleyi həmin bölgədə ərəb təsirinin möhkəmlənməsindən asılı idi. Ona görə də,

Xilafət Xəzəryanı bölgələrdə yaşayan əhali içərisində ciddi-cəhdlə İslamı yayır, müqavimət göstərənləri Xilafət hüdudlarından kənarlaşdırırdı.

Xilafət Qafqazın şərq hissəsində mövqeyini möhkəmlətmək üçün köçürmə siyasətindən də fəal istifadə edirdi. Ərəb müəllifi əl-Bəlazuri yazmışdır ki, Xilafət qoşunları Azərbaycanı tutduqdan sonra Kufə, Bəsrə və Suriyadan ərəb tayfalarını ora köçürdü və onların hər birinə becərə bildiyi qədər torpaq sahəsi tutmağı əmr etdi. Dərbənd, Bərdə, Beyləqan, Dəbil, Karin, Tiflis, Ərdəbil, Təbriz və digər strateji əhəmiyyətli şəhərlərdə ərəb hərbi hissələri yerləşdirildi. Bu şəhərlərdə xüsusi hərbi məskənlər – ***rabatlar*** yaradıldı. Şəhərlərdəki ərəb hərbi hissələri yerli əhalinin hesabına saxlanılırdı.

Ərəblər Dağıstanı tutduqdan sonrakı ilk illərdə Suriya və İraqdan 7 min müsəlman ailəsini Dərbənd yaxınlığında yerləşdirmişdilər. Daha sonra isə Şimali Qafqazda Xilafət tərəfindən Rukal, Qalasuvar, Tabasaranda Kamax, əl-Muhammədiyə, Bab-Vak qalaları və möhkəmləndirilmiş məntəqələri yaradılmışdı.

Hicri 107-ci (725/726) ildə ərəblər Dərbəndi yenidən tutduqdan sonra şəhərə Suriyadan 24 min ərəb döyüşçüsünü köçürüb yerləşdirmişdilər. Bu zaman qala divarları təmir edilmiş, qalanın özündə ərzaq və silah anbarları yaradılmışdı.

Köçürmə siyasətinin əsas məqsədi hərbi-strateji əhəmiyyəti olan bölgələrdə və qalalarda Xilafətin hakimiyyətini möhkəmləndirmək, etnik dayaq yaratmaq, Xəzər xaqanlığının hücumlarının qarşısını almaq üçün sərhədlərin mühafizəsini yaxşılaşdırmaq idi. Təsadüfi deyil ki, Qafqazda ən çox ərəb ailəsi yerləşdirilən bölgə Azərbaycanın Xəzəryanı bölgələri, xüsusən də Dərbənd və onun ətrafı idi. Ərəb müəllifi əl-İstəxri ərəblərin Dərbəndə köçürülməsi səbəbləri haqda yazmışdır: "Orada (Dərbənddə – Q.Ə.) yaşayan adamlara tapşırılmışdı ki, xəzərlərin İslam torpaqlarına keçə biləcəyi yolları qorusunlar." Ona görə də, yalnız Ərəb-Xəzər müharibələri qəti başa çatdıqdan sonra, VIII əsrin sonunda xəlifə Harun ər-Rəşidin göstərişi ilə Qafqaza ərəblərin köçürülməsi dayandırıldı.





Qafqaza ərəblərin kütləvi köçürülüb yerləşdirilməsinin mühüm nəticəsi regionun şərqində və mərkəzində İslamın qəti möhkəmlənməsi oldu. Bu bölgəyə köçürülən ərəb ailələri isə sonralar yerli əhali ilə qaynayıb-qarışdı.

Ərəblər Qafqazda möhkəmlənməklə bərabər, Bizansla rəqabəti öz xeyirlərinə dəyişmək üçün Xilafətin şərq əyalətlərindən Kiçik Asiyaya doğru gedən karvan yollarını bağladılar. Beynəlxalq əhəmiyyət daşıyan Böyük İpək yolunun əsas istiqaməti Qafqaza yönəldildi. Xəzərin qərb sahili boyunca və Kür çayı boyunca ticarət yolları daha böyük əhəmiyyət daşımağa başladı. Ərdəbil, Bərdə, Dəbil, Tiflis və Dərbəndin ticarət və sənətkarlıq mərkəzləri kimi əhəmiyyəti daha da artdı.

Ona görə də, VIII əsr ərzində Xilafətin Şərqi Qafqaza, o cümlədən Dağıstana ciddi diqqət yetirməsi təkcə Xəzər xaqanlığı ilə uzun müddət davam etmiş müharibəni udmaq məqsədi daşımırdı. Bu həm də bəhs olunan dövrdə Xəzər sahili boyunca Şimali Qafqaza doğru uzanan ticarət yolunun əhəmiyyətinin kəskin surətdə yüksəlməsi ilə bağlı idi.

Xəlifə Ömər Xilafət ərazisində ticarəti canlandırmaq üçün müsəlman və qeyri-müsəlman təbəələrindən olan tacirlərdən cəmi 5 faiz, xaricilərdən isə 10 faiz gömrük rüsumu toplamağı əmr etmişdi. Xəlifə Əbdülməlikin dövründə pul islahatı keçirilməsi, dövriyyədən Bizans, Sasani sikkələrinin çıxarılması, qəlp pul kəsilməsinə qarşı ciddi mübarizə aparılması maliyyə sahəsində qayda yaratdı.

VIII əsrin əvvəlində Dəbil, Bərdə, Ərdəbil və Dərbənddə sikkə kəsilməsinə başlanması Qafqazın Xilafət üçün böyük əhəmiyyət daşımasının daha bir göstəricisi idi.

**Vergi və mükəlləfiyyətlər.** Qafqazın işğalının başlanğıc mərhələsində ərəblər Sasani və Bizans dövlətlərinin tətbiq

etdiyi vergiləri dəyişmədən saxlasalar da, bütövlükdə vergi yükü qismən daha yüngül olmuşdu. Xəlifə Əlinin becərilməyən torpaqlardan xərac toplanmasını qadağan etməsi də müsbət addım idi.

Lakin Xilafət Qafqazda mövqeyini möhkəmlətdikdən sonra vergilərin artırılması və xüsusi qəddarlıqla toplanması baş verdi. Əməvilər sülaləsinin hakimiyyətə gəlməsindən sonra toplanılan vergi və rüsumlar artırılmağa başlandı. Xüsusən də 725-ci ildə Qafqazda əhalinin və bütün əmlakın siyahıya alınması keçirildikdən sonra xəracın miqdarı artırıldı, yeni vergilər tətbiq edildi. Xəlifə Əbdülməlikin göstərişi ilə əhali vergi siyahısına salındığı yaşayış məntəqəsini özbaşına tərk edə bilməzdi. Müsəlman olmayanlardan alınan ***xərac*** (torpaq vergisi) və ***cizyənin*** (can vergisi) həcmi artırıldı. Bu dövrdə qeyri-müsəlman əhalidən toplanan cizyənin həcmi aşağıdakı kimi müəyyən edilmişdi: varlı – 48 dirhəm; orta-bab – 24 dirhəm; kasıb – 12 dirhəm ödəməli idi. Müsəlman əhali isə məhsulun onda biri həcmində ***üşr,*** həmçinin yeni əldə edilmiş daşınan əmlakdan, hərbi qənimətdən ***xüms*** və ehtiyac içində olan müsəlmanların xeyrinə ***zəkat*** adlı vergi və rüsumları da ödəməli idilər.

VIII əsrin ortalarında Abbasilər sülaləsinin hakimiyyətə gəlməsindən sonra vergilərin miqdarı yenidən artırıldı, həm də Sasani dövründə olduğu kimi xərac məhsula görə deyil, torpaq sahəsinə görə toplanmağa başlandı. Vergiləri ödəyə bilməyən ailələrin övladları qula çevrilirdi.

Xilafət işğalın ilk dövründə Qafqazda mövqeyini möhkəmlətmək üçün yerli feodalların bir qismi ilə ittifaqa girdi, onların mülklərinə toxunmadı, özlərini də müxtəlif vəzifələrə təyin etdi. Əl-Bəlazuriyə görə, VII əsrin 40-cı illərində ərəb sərkərdəsi Salman ibn Rəbiə Şirvan və Dərbənd hakimləri ilə bərabər, Maskat, Lakz, Tabasaran hakimləri ilə də müqavilə bağlamışdı. Onlar Xilafətə hər il müəyyən edilmiş xəracı ödəmək şərti ilə öz hakimiyyətlərini bir müddət qoruyub





saxlaya bilmişdilər.

Sonrakı dövrdə isə bütün əhəmiyyətli vəzifələrə ərəb feodallarının qoyulması baş verdi. Xüsusən Azərbaycanda və Dağıstanda hərbi strateji əhəmiyyətli yerlər ərəb feodallarının ixtiyarına verildi. Məsələn, VIII əsrin əvvəlində Qaytaq hakimliyinə Əmir Həmzə təyin edilmişdi. Onun varisləri davamlı olaraq bu bölgəni idarə edirdilər və *usmi* ləqəbi almışdılar. Dərbənd hakimləri ərəb tayfa başçısı Haşimilərin nəslindən idilər. Qumuq bölgəsində isə hakimiyyətə peyğəmbərin əmisi Abbasın nəslindən olan Şamxal gətirilmişdi. O sonradan bütün Dağıstana hakim təyin edilmişdi və iqamətgahı Qumuqda yerləşirdi. Sonrakı dövrdə *şamxal* feodal rütbəsi kimi qalmışdı. “Tarixi Dağıstan” adlı mənbədə isə qeyd olunmuşdur ki, ərəb sərkərdəsi Əbu Müslim Tabasaranı tutduqdan sonra oraya Maysum adlı ərəb hərbçisini hakim qoymuşdu və sonrakı dövrdə Tabasaran hakimlərinin *maysum* adlanması da bununla əlaqədardır.

Ərəblər ilk öncə tutduqları ərazilərdə sərvətləri hərbi qənimət kimi ələ keçirir, yerli əhalinin əmlakını qarət edirdilər. “Dərbəndnamə” adlı mənbədə ərəb sərkərdəsi əl-Cərrahın hicri 104-cü (722/723) ildə Dağıstana yürüşü zamanı Qaytaqdan 12 min baş mal-qoyun, Tabasarandan 40 min baş at, mal-qoyun apardığı qeyd edilmişdir. İbn əl-Əsir yazmışdır ki, ərəb ordusu Tarkunu tutduqdan sonra əhalini elə qarət etmişdi ki, 30 min atlı döyüşçünün hər biri 300 dinar sərvətə sahib olmuşdu.

Ərəb ağalığı dövründə gənclərin qula çevrilməsi, xüsusən də vergi verə bilməyən ailələrin övladlarının kölə kimi satılması geniş tətbiq edilirdi. Əl-Cərrah Tabasaranın işğalı zamanı 2 min gənci, Qaytaqdan 700 gənci əsir alıb köləyə çevirmişdi. Ərəb ağalığının sonrakı dövründə isə Xilafət təkcə Dağıstanın Sərir bölgəsindən hər il 150 oğlan və 50 qız, Tuman məntəqəsindən 50 oğlan və 50 qız, Zirehgerandan (indiki Kubaçı) 50 oğlan göndərməyi tələb etmişdi.

Xilafətin Qafqaza təyin etdiyi əmirlərin ildə nə qədər vergi toplayıb *beytülmala* – mərkəzi xəzinəyə göndərməsi haqqında məlumatların çoxu zəmanəmizə qədər gəlib çatmamışdır. Bağdadda müxtəlif illərdə baş verən yanğınlar, monqolların hücumu zamanı şəhərin dağıdılması vergi hesabatları olan sənədlərin çoxunun məhvinə səbəb olmuşdur. Bununla belə, hicri 204-cü (819/820) ilə aid divan hesabatlarından bəlli olur ki, IX əsrin ikinci onilliyində hər il Cənubi Azərbaycandan 4,5 milyon dirhəm, Qafqazın digər bölgələrinin daxil edildiyi Ərməniyyə əl-Əkbəri əmirliyindən 4 milyon dirhəm həcmində vergi toplanırdı.

**Xilafətin əsarətinə qarşı xalq çıxışları. Xürrəmilər hərəkatı.** Ərəb ağalığı dövründə Qafqazda vergilərin kəskin surətdə artırılması, yerli feodalların sıxışdırılması Xilafətə qarşı çıxışların artmasına səbəb oldu.

VIII əsrin ortalarında Xilafətin mərkəzində başlanan *xaricilər hərəkatının* təsiri ilə Cənubi Qafqazda da üsyanlar baş verdi. Əvvəlki dövrdə Dərbənd hakiminin köməkçisi işləmiş *Müsafir ibn Kuseyr*, ərəb tarixçisi əl-Kufinin "beyləqanlı qəssab" kimi təqdim etdiyi yerli feodal əyanı hakimiyyət uğrunda gedən dini-siyasi çəkişmələrdən istifadə edərək **748-ci ildə** xalqı üsyana qaldırdı. Üsyançılar qısa müddət ərzində Beyləqan, Bərdə və Ərdəbildə ərəb hakimiyyətinə son qoydular. Əl-Kufi bu zaman erməni vilayətində də üsyan baş verdiyini yazmışdır. Bütün Qafqazı bürüyən üsyanlar ilk Abbasi xəlifəsinin hakimiyyətə gəlməsindən sonra yatırıldı.

VIII əsrin 70-ci illərində erməni vilayətində *Pavlikianlar hərəkatı* baş verdi. Sadə xalq kütlələrinin fəal iştirak etdiyi Pavlikianlar hərəkatı həm ərəb ağalığına, həm də yerli feodalların zülmünə qarşı çevrilmişdi. Pavlikianlar bildirirdilər ki, yer üzərində şər qüvvələrin hakimiyyəti bərqərar olubdur. Ona qarşı mübarizə aparmaq və kilsənin "o biri dünyada" vəd etdiyi rifah cəmiyyətini bu dünyada yaratmaq lazımdır. Pavlikianlar öz təbliğatlarında qeyd edirdilər ki,





bütün insanlar mənşəyindən və əmlakının həcmindən asılı olmayaraq bərabərdirlər. Onlar iri torpaq sahibliyinə, erməni qriqorian kilsəsinin dini qaydalarına qarşı çıxırdılar. Ona görə də, pavlikianlara qarşı erməni kilsəsi xüsusi amansızlıqla davranır, onları dindən dönmüşlər kimi lənətləyirdi.

**774-cü ildə** pavlikianlar *Muşeq Mamikonyanın* başçılığı ilə üsyan qaldırdılar. Ərəb qarnizonları üzərinə basqınlar təşkil etdilər. Erməni naxararlarının bir qismi də üsyana qoşuldu. 775-ci ildə Fərat çayı sahilində, Arsni kəndi yaxınlığında ərəb qoşunu üsyançıları məğlub edə bildi. Üsyanda iştirak edən bütün naxararların nəsli məhv edildi. Xilafətə sədaqətlə xidmət edən Baqratilər bu vəziyyətdən istifadə etdilər. Öldürülmüş naxarar ailələrinin torpaq mülklərini ələ keçirdilər.

Xəlifə Harun ər-Rəşidin (786-809) dövründə Qafqazda xalq çıxışları daha da gücləndi. Xəlifənin üsyanları yatırmaq, öz dayaqlarını möhkəmləndirmək üçün Qafqaza göndərdiyi əmirləri bir-birinin ardınca vəzifədən kənarlaşdırması, xalq hərəkatının miqyası haqqında aydın təsəvvür yaradır. Ərəb qaynaqlarına görə, VIII əsrin son onilliyində xəlifə 15 əmiri dəyişdirmişdi.

Bu dövrdə ən böyük üsyanlardan biri Dərbənddə baş vermişdi. Dərbəndlilər vergi yığan məmurları öldürmüş, digər ərəb məmurlarını şəhərdən qovmuşdular. Xəlifə bundan qəzəblənərək Dərbənd şəhərinin hakimi Nəcm ibn Haşimin boynunu vurdurmuşdu. Dərbənd hakiminin oğlu Həyyun da atasının qisasını almaq üçün üsyançılara qoşulmuş və Xəzər xaqanını köməyə çağırmışdı. Xəlifə yalnız böyük ordu göndərdikdən sonra xəzərlər qovulmuş, Dağıstanda və Arranda ərəblərin hakimiyyəti bərpa edilmişdi.

Xilafəti kökündən sarsıdan ən böyük xalq çıxışı isə *Xürrəmilər hərəkatı* oldu. Məzdəkilər kimi ədalətli cəmiyyət, əmlak bərabərliyi uğrunda çıxış edən xürrəmilər, həm də yadelli ağalığına qarşı mübarizəyə qalxmışdılar. Xürrəmilərin ilk üsyanı 778-ci ildə oldu. 808-ci ildə xürrəmilərin başçısı,

Bəzz qalasının sahibi *Cavidanın* başçılığı ilə daha böyük üsyan baş verdi. Xilafətin mərkəzindən göndərilmiş 10 minlik cəza ordusu bu üsyanı çətinliklə də olsa yatıra bildi.

**816-cı ildə** ***Babəkin*** xürrəmilərə başçılıq etməsindən sonra bu hərəkat böyük xalq azadlıq müharibəsinə çevrildi. Əhalinin yoxsul təbəqələri ilə bərabər, yerli əyanların da fəal iştirak etdiyi bu mübarizə 20 ildən çox davam etdi. Ərəb mənbələrinə görə, bu zaman üsyançıların sayı 300 minə çatırdı. Qafqazın xristian əhalisi yaşayan bölgələrində isə xürrəmilərin təsiri ilə pavlikianlar hərəkatı yenidən canlandı.

Xilafət yalnız bütün qüvvələrini cəmləyib xürrəmilərin üzərinə yönəltdikdən sonra uğur qazana bildi. Türk əsilli ərəb sərkərdəsi Afşin (Aqşin) ibn Kavus iki il hazırlıqdan sonra 837-ci ildə Babəkin üsyançı ordusu üzərinə qəti hücuma başladı, Bəzz qalasını ələ keçirdi. Babək özü isə köhnə dostu, Albaniyanın Şəki vilayətinin (indiki Zəngəzur) hakimi Səhl ibn Sumbat tərəfindən xəyanətlə ərəblərə təslim edildi.



**Şəkil**. Azərbaycan. Bəzz qalası.

Bu hərəkatın böyük məhrumiyyətlər hesabına yatırılması Qafqaz regionunda Xilafətin öz hakimiyyətini yalnız





müvəqqəti bərpa etməyə imkan verdi. IX əsrin ortalarında Xilafətin parçalanması qarşısıalınmaz prosesə çevrildi.

IX əsrdən etibarən Xilafətdə mərkəzi hakimiyyətin təsirinin zəifləməsi baş verirdi. Bu Xilafətin öz daxilində baş verən erkən feodal dövlətlərinə xas proseslərlə bilavasitə bağlı idi. Çünki feodallaşmanın sonrakı inkişafı gedişində xəlifələr, xüsusən də ucqar bölgələrin hakimlərini öz təsirində saxlamaq üçün müəyyən güzəştlərə getməyə məcbur qalırdılar. Bu güzəştlərdən ən geniş yayılanlarından biri vilayət hakimliyinin irsi keçməsinə razılıq verilməsi idi. Bu da öz növbəsində mərkəzdənqaçma prosesini gücləndirirdi. Həmçinin Xilafətin tabe etdiyi xalqlar üzərində vergi yükünü həddindən çox artırması əks effekt verirdi. Hətta müsəlmanlığın güclü olduğu bölgələrdə belə əhalini Xilafətin ağalığından qurtulmaq üçün mübarizəyə sövq edirdi.

## Qafqazın feodal dövlətləri IX əsrin ikinci yarısı – XI əsrin ortalarında

**Qafqazın şərqində müstəqil feodal dövlətlərin yaranması.** IX əsrin ortalarında Ərəb Xilafəti tabe etdiyi ölkələrdə azadlıq mübarizəsinin genişlənməsi, xüsusən də Babəkin başçılığı ilə 20 ildən çox davam etmiş xalq azadlıq müharibəsi nəticəsində zəifləmiş, Qafqazda öz mövqelərini itirməyə başlamışdı. Artıq IX yüzilliyin 40-cı illərində Sünik vilayətinin və Şəki qalasının sahibi Səhl ibn Sumbat, Tiflis hakimi İshaq ibn İsmayıl və Qafqazın digər nüfuzlu feodal hakimləri Xilafətin asılılığından çıxmışdılar. Yalnız 853-cü ildə Xilafət qoşunları bu vilayətləri yenidən tabe etmişdi. Qafqazın dikbaş hakimləri isə Samirəyə göndərilmişdi. Lakin bu müvəqqəti uğur idi.

**861-ci ildə** xəlifə əl-Mütəvəkkilin ölümündən sonra Xilafətin mərkəzində yaranmış hərc-mərclikdən istifadə edən Şirvan hakimi ***Heysam ibn Xalid ibn Məzyəd*** şah titulunu

qəbul edərək özünü müstəqil elan etdi. Şirvanın Xilafətlə bütün əlaqələri kəsildi. X əsrin 80-ci illərində isə Şirvanşahlar dövləti bir sıra yeni əraziləri, o cümlədən Dərbənd əmirliyini və Tabasaranı tutaraq Cənubi Dağıstanda öz təsirini möhkəmlətmiş, Qafqazın güclü dövlətlərindən birinə çevrilmişdi.

Moisey Kalankatlının məlumatına görə, **866-cı ildə** Qriqor Hamam Arranın bir hissəsində özünü müstəqil və "dağıdılmış Alban şahlığının bərpaçısı" elan etdi. Elə həmin il Girdman, Arsak, Xaçın və Şirakın bir hissəsini sonuncu alban hökmdarı Varaz Trdatın nəslindən olan ***Savada (Səhək)*** öz hakimiyyəti altına aldı və Cənubi Qafqazda başqa bir müstəqil dövlət yaratdı.

IX əsrin 60-cı illərində müstəqillik qazanmış feodallıqlardan biri də ***Dərbənd əmirliyi*** idi. **869-cu ildə *Dərbənd hakimi Haşim əs-Sulami*** özünü müstəqil elan etdi. Ərəb əsilli Haşimilər sülaləsinin hökmranlıq etdiyi Dərbənd əmirliyi öz müstəqilliyini X əsrin sonuna qədər qoruyub saxlaya bilmiş, Şirvanşahlar dövlətindən asılı vəziyyətə düşdükdən sonra da dəfələrdə öz müstəqilliyini bərpa etməyə cəhd etmişdi.

IX əsrin 70-ci illərinin sonunda Azərbaycanın cənubunda ***Sacilər dövləti*** yarandı. Bu dövrdə türk əsilli sərkərdə ***Əbu Sac Divdada*** ərəb ordusunda misilsiz xidmətinə görə Xilafətin ən zəngin vilayətlərindən biri olan Cənubi Azərbaycan iqta kimi verildi. O, **879-cu ildən** bu vilayəti müstəqil idarə etməyə başladı.

Onun varisi Məhəmməd ibn Əbu-Sac da Xilafətin görkəmli sərkərdələrindən biri idi və o qədər böyük nüfuz qazanmışdı ki, xəlifə 898-ci ildə bütün Cənubi Qafqazın idarəsini ona tapşırmışdı. X əsrin əvvəllərində isə onu əvəz edən qardaşı Yusif ibn Əbu-Sac Cənubi Qafqaz torpaqlarının çoxunu öz hakimiyyəti altında birləşdirməyə müvəffəq oldu. Elə bu dövrdə erməni və gürcü dövlətləri də fəth edildi. Ani və Dvin (Dəbil) şəhərləri kimi iri sənətkarlıq və ticarət mərkəzləri Sacilərin əlinə keçdi. Bəhs olunan dövrdə Şirvan, Şə-





ki, Sünik hakimləri də Sacilər dövlətinə bac verirdi.

**941-ci ildə** Deyləm hakimi ***Salari Mərzban ibn Məhəmməd*** Sacilər dövlətinin varlığına son qoydu. Əvvəllər Sacilərə tabe olan Qafqaz hakimləri indi də Salarilər dövlətinə bac verməyə başladılar. Lakin bu uzun sürmədi. Artıq **971-ci ildə *Məhəmməd ibn Şəddad*** Salarilərə qarşı çıxdı və Arazdan şimaldakı feodal mülklərini özünə tabe edərək paytaxtı Gəncə olan müstəqil Şəddadilər dövlətini yaratdı.

**981-ci ildə *Rəvvadilər nəslindən olan Əbülhica*** da Azərbaycanın cənubunda Salarilərin hakimiyyətinə son qoydu və özünün müstəqil dövlətini yaratdı. Şəddadilər və Rəvvadilər dövlətləri XI əsrin ortalarına – Səlcuq yürüşlərinə qədər öz müstəqilliyini saxladılar.

**Erməni feodal dövlətinin Bizansa tabe edilməsi.** Qafqazın cənub-qərbində iri erməni feodalı ***Aşot Baqratuni* 866-cı ildə** müstəqil erməni dövləti yaratdığını elan etdi. 885-ci ildə xəlifə onu erməni şahı kimi tanıdı. Bizans imperatoru I Vasili də ona tac və bahalı hədiyyələr göndərdi. Baqratilər dövləti bu dövrdə Səhəkin hakimiyyətinə tabe olan alban torpaqlarını işğal etməyə cəhd etsə də, elə bir uğur qazanmadı.

Aşot Baqratuninin varisi I Smbat (890-914) müstəqilliyə can atan iri feodalları özünə tabe etməyə çalışırdı və bu zaman onların ciddi müqaviməti ilə qarşılaşdı. Xüsusən də Arsrunilər nəslindən olan iri feodallar öz müstəqilliklərini qoruyub saxlamağa çalışırdılar və bunun üçün Xilafətə arxalanırdılar. Baqratuniləri zəiflətməyə çalışan xəlifə 908-ci ildə Qagik Arsrunini erməni şahı kimi tanıdı və Saci hökmdarı Yusifi I Smbatın üzərinə göndərdi. 914-cü ildə baş verən döyüşdə I Smbat öldürüldü, erməni şahlığı isə Sacilər dövlətinə tabe edildi. Lakin Baqratunilər mübarizəni davam etdirdilər. II Aşot Baqratuni 923-cü ildə Göyçə gölü yaxınlığında rəqibləri üzərində qələbə çaldı və xəlifə onu erməni şahı kimi qəbul etməli oldu. Bu hadisədən iki il öncə isə II Aşot Baqratuni Bizansla normal münasibət yarada bilmişdi. Paytaxtı

Ani şəhəri (xarabalıqları müasir Türkiyə ərazisindədir – Q.Ə.) olan bu dövlət daha 100 il yaşadı.

XI əsrin 20-ci illərindən sonra Bizans erməni dövləti daxilində güclənməkdə olan feodal çəkişmələrindən istifadə etdi və onun ayrı-ayrı vilayətlərini bir-birinin ardınca özünə tabe etməyə başladı. Sonuncu Baqrati hökmdarı II Qagik (1042-1045) hiylə ilə Konstantinopola aparılıb həbsxanaya salındı. XI əsrin 40-cı illərində Bizans imperatoru IX Konstantin Monomax (1042-1055) Dəbil hakimi Əbül-Əsvar Şəddadiyə müraciət edərək müstəqilliyini saxlamış erməni feodal mülklərinə qarşı birgə yürüşə başlamağı təklif etdi. Əvəzində Şəddadi hakimi Bizans imperatorundan silah gücünə ələ keçirdiyi qala və kəndlərə olan haqqının tanınmasını tələb etdi və buna nail oldu. Lakin sonradan Şəddadi hökmdarı erməni torpaqlarına yürüşdən imtina etdi. Ani vilayətinin çox hissəsi və Şirak Bizansa birləşdirildi. Beləliklə, **1045-ci ildə *Qafqaz hüdudlarında mövcud olan müstəqil erməni dövlətinin varlığına son qoyuldu.***

Bizans özünə tabe etdiyi erməni vilayətlərində yaşayan əhali üzərinə çox ağır vergi və mükəlləfiyyətlər qoydu, dini işlərə qarışmağa və erməni kilsəsini Konstantinopol patriarxlığına tabe etməyə girişdi. Yerli feodalların xeyli hissəsi mülklərindən məhrum olundu və Bizansın daxili bölgələrinə, o cümlədən Suriyaya sürgün edildi. Erməni əyanlarının bir hissəsinə də imperator tərəfindən Balkan yarımadasında yeni birləşdirilən vilayətlərdə, ilk növbədə Bolqarıstanda torpaq mülkləri verildi.

Göründüyü kimi, məhz XI əsrin birinci yarısında Bizansın işğalçılıq siyasəti və daha əvvəldən başlanmış daxili çəkişmələr nəticəsində erməni siyasi birlikləri müstəqillikdən məhrum oldular. Həm də bu dövrdə yerli əhalinin çox hissəsi dözülməz vergilərdən və dini təqiblərdən baş götürüb digər ölkələrə, o cümlədən Azərbaycana qaçmağa məcbur olmuşdu.

**Vahid gürcü dövlətinin yaranması. Baqratilər.** Gürcüstanın iri feodal hakimləri – ***mtavarlar*** daha əvvəl müstəqilliyə can atmağa başlamışdılar. IX əsrin başlanğıcında Kaxetidə Qriqol adlı feodal öz knyazlığını genişləndirdi. Telavi, Nekresi, Çeremi, Ucarma kimi qalaları özünə tabe etdi. **IX əsrin 20-ci illərində** isə ***Tao-Klarceti knyazlığı*** yarandı. Onun əsasını Baqrationilər nəslindən olan Aşot qoymuşdu. Çorox çayı sahilində Sper mülkünün sahibi olan Baqrationilər ərəb ağalığı dövründə ehtiyatlı və çevik siyasət yeritməklə Kartlidə öz təsir dairəsini genişləndirməyə nail olmuşdular. Baqrationilərin bir qolu da, artıq yuxarıda qeyd olunduğu kimi, erməni torpaqlarının hakimi idi.

Moisey Kalankatlının yazdığına görə, bəhs olunan dövrdə gürcü və erməni dövlətlərində hökmranlıq edən Baqratilər nəsli öz başlanğıcını erməni hakimi Paruyr oğlu Hraçeye Babil şahının hədiyyə verdiyi Şmovan adlı yəhudi qulluqçudan götürürdü.

Xilafət Kartlidə Aşot Baqrationinin güclənməsindən narahat olduğu üçün, bu vilayəti iki hissəyə parçaladı. Aşot ailəsi və kiçik silahlı dəstəsi ilə Qafqazın cənub-qərbində yerləşən və qohumlarına məxsus olan Klarceti mülkünə qaçdı. Bizans təsir dairəsində olan bu mülkə ərəblərin əli çatmırdı. Klarceti qısa müddət ərzində Kartlidən köçənlərin hesabına dirçəldi və sürətlə güclənməyə başladı. Tezliklə Bizans imperatoru tərəfindən Aşot Baqrationiyə ***kuropalat*** rütbəsi verildi. Bu hadisədən sonra gürcü mənbələri onu adi knyaz yox, hökmdar adlandırırdılar.

Aşot Çorox vadisində yerləşən və Feodosiopolla (indiki Ərzurum) Qara dənizi birləşdirən yol üzərində olan ***Artanuci qalasını*** özünə paytaxt etdi. Bu qala Bizansla sıx ticarət əlaqəsi saxlaması sayəsində tezliklə Qafqazın mühüm iqtisadi mərkəzlərindən birinə çevrildi. Artıq Aşotun varislərinin dövründə Klarceti knyazlığı iqtisadi və siyasi cəhətdən güclü bir feodallığa çevrilmiş, qonşuluqdakı Tao knyazlığını da özünə tabe etdikdən sonra Tao-Klarceti adlanmağa başlamışdı.

Cənubi Qafqazın qərb hissəsində yaranmış digər iri siyasi birlik *Abxaz knyazlığı* idi. VIII əsrin sonunda abazqlar (abxazlar) Bizans imperiyasındakı daxili çəkişmələrdən istifadə edərək müstəqillik qazandılar. Artıq IX əsrin əvvəllərində abxaz knyazları öz ərazilərini genişləndirərək bütün Qərbi Gürcüstanı özlərinə tabe etmişdilər. Bu knyazlığın paytaxtı Kutatis şəhəri (müasir Kutaisi) idi.

IX əsrin 60-cı illərində Ərəb Xilafətinin təsirindən azad olan nüfuzlu feodallıqlardan biri də *Tiflis əmirliyi* idi. Əsrin sonunda burada öz hakimiyyətini bərqərar edən *Cəfərilər sülaləsi* müstəqil siyasət yeridirdilər. Cəfəri əmirləri hətta öz adlarından sikkə də zərb etməyə başlamışdılar.

IX əsrin 60-cı illərində Gürcüstanın şimal-şərqində *Kaxeti knyazlığı* da müstəqillik qazandı. Kaxetinin feodal hakimləri öz mülklərini qonşuları hesabına genişləndirməyə çalışırdılar. Artıq X əsrin əvvəlində Kaxeti güclü feodallığa çevrilmişdi.

X əsrdə hər üç knyazlıq: Abxaz, Tao-Klarceti və Kaxeti hakimləri öz təsirlərini bütün Gürcüstana yaymaq üçün fəal mübarizə aparırdılar. Əsrin birinci yarısında Abxaz knyazlığı bu sahədə daha çox uğurlar qazandı. Lakin sonrakı dövrdə daxili çəkişmələr üzündən zəiflədi və siyasi liderlik Tao-Klarceti knyazlığına keçdi. X əsrin sonunda bu knyazlıq bir qədər də gücləndi. Onun hökmdarı kuropalat David Bizansdan asılılığı minimuma endirdi.

Davidin təşəbbüsü ilə **975-ci ildə** *Uplis-Tsixdə* (Qori yaxınlığında) Kartli, Kaxeti və Tao-Klarceti aznaurlarının yığıncağı Gürcüstanın birləşdirilməsinə qərar verdi. Baqrat Baqrationi vahid gürcü dövlətinin şahı elan edildi. Baqrat 1014-cü ilədək hakimiyyətdə qaldı və bütün bu dövrdə birləşdirmə siyasətini ardıcıl surətdə həyata keçirdi. O, orta və kiçik mülk sahibi olan zadəganların, tacirlərin və əhalinin yoxsul təbəqələrinin köməyi ilə iri feodalların müqavimətini qırmağa çalışırdı.





Baqratın ölümündən sonra Gürcüstanı feodal çəkişmələri bürüdü. İri feodalların mərkəzi hakimiyyətə qarşı mübarizəsini Bizans imperatorları fəal şəkildə müdafiə edirdi. Lakin erməni feodallıqlarından fərqli olaraq Gürcüstan öz müstəqilliyini qoruyub saxlaya bildi. IV Baqrat (1027-1072) Bizansla 1050-ci ildə sülh bağlayıb öz hakimiyyətinin imperator tərəfindən tanınmasına nail oldu.

**Şimali Qafqazın feodal hakimləri.** Şimal-şərqi Qafqazda yaşayan tayfalar və feodal hakimlər də **IX əsrin ortalarında** Ərəb Xilafətinin təsirindən xilas oldular. X əsrə aid ərəb mənbələrində bu bölgədə Tabasaran, Lakz, Xaydak (Qaytaq), Qumuq, Sərir feodallıqlarının mövcud olması haqqında məlumatlar vardır. Müasir Dağıstan ərazisində yaranmış bu feodal mülklərindən qərbdə yaşayan və daha öncədən Xəzər xaqanlığına tabe olan alanlar və *adıqlar* (bəhs olunan dövrdə adıgey, kabardin və çərkəzlərin ərəb mənbələrində ümumi adı – Q.Ə.) da IX əsrin sonu – X əsrin başlanğıcında azadlıq qazandılar.

X əsrdə adıqlar Qafqazın şimal-qərbində, Qara dəniz sahillərindən Qafqaz dağlarının mərkəz hissəsinə qədər geniş ərazinin əsas siyasi qüvvəsinə çevrildilər. Lakin onların güclü dövlət qurumu hələ yeni yaranmaqda idi. Ərəb müəllifi əl-Məsudi yazırdı ki, adıqlar çoxsaylı xalqdır, lakin öz içərilərindən şah seçmirlər və bu da onların zəifliyidir.

X əsrdə Şimali Qafqazın mərkəz hissəsində *Alaniyanın* siyasi nüfuzu güclənmişdi. Burada alanlarla yanaşı vaynaxlar, türk tayfaları və adıqların da bir hissəsi yaşayırdı. Bəhs olunan dövrdə Bizans bu yerlərdə öz təsirini artırmağa çalışırdı. Kuban və Terek çayları boyunda xristian məbədlərinin inşasına başlanması həmin təsirin birbaşa nəticəsi idi.

XI əsrin ortalarında Şimali Qafqaza qıpçaqların yürüşü ciddi etnik və siyasi dəyişikliklərə səbəb oldu. Əsrin sonunda onlar Qafqazın şimal-şərqində peçeneqləri və digər tayfaları sıxışdıraraq fəal siyasi qüvvəyə çevrildilər. Bu dövrdə Çeçen-İnquş düzənliyi, Qafqazın mərkəzi hissəsinə qədər

olan ərazi, Dağıstanın Dərbəndə qədər uzanan dəniz boyu torpaqları qıpçaqların nəzarətinə keçdi. *Sunja* onların əsas şəhəri idi.

**Qafqaza rus basqınları.** X əsrdə Qafqazda yaşayan tayfalar və xalqlar Şərqi Avropanın ciddi siyasi qüvvəsinə çevrilmiş rusların basqınlarına məruz qaldılar. **914-cü ildə** rusların Xəzərsahili bölgələrə yürüşü xüsusilə ağır nəticələr verdi. Həmin il ruslar 500 gəmidə (hər gəmidə 100-ə qədər döyüşçü olurdu – Q.Ə.) Xəzər xaqanlığının ərazisindən keçməklə Abşeron, Təbəristan, Deyləm və Gilanı qarət etdilər. Yerli əhali heç vaxt dənizdən hücuma məruz qalmadığı üçün bu yürüş tam gözlənilməz oldu. Ruslar çoxlu qənimətlə geri dönərkən artıq özlərinə gəlmiş yerli əhalinin və xəzərlərin kəskin müqaviməti ilə üzləşdilər. Döyüşlərdə 30 mindən çox basqınçı öldürüldü. Bundan sonra qarətedici yürüşlərə 30 ilə qədər ara verildi.

944-cü ildə yenidən Xəzər sahillərinə soxuldular. Bu dəfə onlar Kür çayı ilə üzərək Qafqazın içərilərinə qədər irəlilədilər, Bərdəni qarət edib yandırdılar. O dövrdə regionun ən böyük ticarət və sənətkarlıq mərkəzi olan Bərdə şəhəri bu yürüşdən çox ziyan çəkdi.

965-ci ildə Kiyev knyazı Svyatoslav Volqaboyu və Şimali Qafqaza viranedici yürüş etdi. Bu yürüş nəticəsində xəzərlər tam məğlub oldular. Xəzər xaqanlığı müstəqil siyasi qüvvə kimi əhəmiyyətini tamamilə itirdi.

Qafqazın şimal-qərbində ***Tmutarakan knyazlığının*** yaranması da bu dövrə aiddir. Knyazlığa Taman yarımadası ilə birlikdə Şərqi Krım, Kuban çayının aşağı axarı boyu ərazilər tabe idi. Burada ***kasoqlar*** (Rus və Bizans mənbələrində adıqlar belə adlanırdı – Q.Ə.), yunanlar, xəzərlər, alanlar və slavyanlar yaşayırdılar. Tmutarakan şəhəri Bizansla, Kiyev Rus dövləti ilə ticarət əlaqələri saxlayırdı. Tmutarakan knyazı Mstislav Vladimiroviç 1022-ci ildə kasoq knyazı Redeyi məğlub edərək onu özündən asılı hala salmışdı.

Lakin orta yüzilliklərdə feodal hakimləri tez-tez mövqelərini dəyişirdilər. Artıq 1023-cü ildə Kiyev knyazı Yaroslav Mudrıya qarşı döyüşündə Tmutarakan knyazına xəzərlərlə birlikdə kasoqlar da yardım edirdi.





XI əsrin ortalarında qıpçaqların Şimali Qafqaza yürüşü ilə Tmutarakan knyazlığının təsirinin zəifləməsi baş verdi. Qıpçaqların regionda mövqeyi möhkəmləndikcə, knyazlığın ərazisi kiçilir, imkanları məhdudlaşırdı. Beləcə qıpçaqların zərbələri altında Tmutarakan knyazlığı tədricən tarix səhnəsindən çıxdı. 1094-cü ildən sonra rus salnamələrində bu knyazlığın adı çəkilmir. XII əsrin əvvəllərində isə Taman yarımadası bütünlüklə Bizansın təsiri altına düşmüşdü.

1030-cı ildə ruslar Cənubi Qafqaza yeni yürüş etdilər. Bu zaman Bakı və Beyləqan daha çox ziyan çəkdi. Rus drujinasını Beyləqana Şəddadi hökmdarı Musa ibn Fəzl çoxlu pul və hədiyyələr verməklə göndərmişdi ki, orada hakim olan dikbaş qardaşını aradan götürsün. Sonralar da yerli hökmdarlar öz daxili çəkişmələrində rus muzdlularının qüvvəsindən dəfələrlə istifadə etmişdilər.

Bəhs olunan dövrdə Qafqazın cənubuna sərir və alanlar da yürüşlər edirdilər. 1032-ci ildə onlar ruslarla birlikdə Şirvana basqın edərək, yerli sakinləri qarət etmişdilər.

# QAFQAZ KLASSİK FEODALİZM DÖVRÜNDƏ

## Cənubi Qafqaz Səlcuq ağalığı dövründə

**Əsas qaynaqlar.** XI əsrin ortalarından XIII əsrin ilk onilliklərinə qədərki dövr Qafqaz tarixi üzrə əsas mənbələr ərəb və fars dillərindədir. Ərəb müəllifləri ət-Təbəri, əl-İstəxri, Əbu Duləf öz əsərlərində Qafqazda Xilafət ağalığının son dövrü, yeni yaranan dövlətlər, onların sərhədləri, əsas şəhərləri, bölgədə baş verən siyasi proseslər haqqında dəyərli məlumatlar vermişlər. Bu baxımdan, İbn əl-Əsirin "Əl-kamil-fit-tarix" əsəri xüsusilə qiymətlidir. Əsərdə Qafqazda müstəqil və yarımmüstəqil feodal dövlətlərinin yaranması, bölgəyə səlcuqların yürüşləri, XII yüzillikdə və xüsusən də XIII əsrin ilk onilliklərində Qafqaz dövlətlərinin qarşılıqlı münasibətləri, əhalinin xarici basqınlara qarşı mübarizəsi müfəssəl şəkildə əks olunmuşdur.

Ərəb Xilafətinin paçalanmasından sonra yaranmış dövlətlər və Səlcuq dövrü haqqında fars dilli mənbələr içərisində Nizaməlmülkün "Siyasətnamə" əsəri xüsusi qeyd edilməlidir. Bu əsərdə müsəlman dövlətlərinin, o cümlədən Qafqazdakı dövlətlərin siyasi quruluşu, dövlət təsisatları haqqında dəyərli məlumatlar verilmişdir. Müəllifin XI əsrdə əhalinin müxtəlif təbəqələri, onların həyat şəraiti haqqında mülahizələri də böyük əhəmiyyətə malikdir.

Nasiri Xusraunun XI əsrin ortalarında Orta və Yaxın Şərqdə, o cümlədən Cənubi Qafqazda cərəyan edən hadisələrdən bəhs edən "Səfərnamə" əsərində də Səlcuq yürüşləri ərəfəsi və dövrü haqqında maraqlı məlumatlar vardır. Müəllif sultan Toğrulun tutduğu şəhərlərdə və ölkələrdə yerli əhali ilə ədalətli rəftar etməsi haqqında konkret faktları qeyd etmişdir. Məsələn, İsfahan tutulduqdan sonra sultanın şəhər əhalisini 3 il müddətinə vergilərdən azad etməsini, sultanın Deyləm və Təbəristana təyin etdiyi hakimin tam əmin-amanlıq yaratmasını, hər kəsin əmlakının qorunmasını təmin etməsini razılıqla bildirmişdir. Van şəhərində xristianların müsəlmanlarla yanaşı sərbəst yaşadıqlarını, "qadın və kişilərin dükanların qarşısında əyləşib, çəkinmədən şərab içmələrini" müşahidə etdiyini yazmışdır.





XII əsrin ikinci yarısına qədərki hadisələri əks etdirən Z.Nişapurinin "Səlcuqnamə" əsəri və M.əl-Rəvəndinin "Rahət-üs-südur və ayət-üs-sürur" (Könüllərin rahatlığı və sevinc əlaməti – Q.Ə.) əsəri Səlcuq sultanlarının Qafqaza yürüşləri, XI-XII əsrlərdə baş vermiş mühüm siyasi hadisələr, sosial-iqtisadi vəziyyət, torpaq sahibliyi, vergilər haqqında qiymətli mənbələrdir.

Qafqaz tarixinin IX-XIII əsrlər dövrü haqqında yerli mənbələrdə də dəyərli məlumatlar vardır. Moisey Kalankatlının "Albaniya tarixi" əsərindəki IX əsrin ikinci yarısında və X əsrdə Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması və qarşılıqlı münasibətləri haqqında faktlar, gürcü salnaməsi "Matiane Kartlisa"dakı XI əsrə aid məlumatlar, "Kartlis Sxovreba"nın XII əsrdə Gürcüstan dövlətinin güclənməsi, Şirvana, Arrana və Cənubi Qafqazın digər bölgələrinə gürcü feodallarının basqınları haqqındakı məlumatları xüsusilə qeyd edilməlidir. Gürcü salnaməsində Səlcuq sultanı Məlikşah "ədalətli, ürəyiaçıq, xristianları sevən" kimi təqdim olunur, onun Kaxetiyanı soyğunçulardan azad etməsi, yolların təhlükəsizliyini təmin etməsi minnətdarlıqla xatırlanır.

Orta əsrlərin erməni dilli qaynaqları da Qafqaz tarixinin bu dövrü haqqında, xüsusən də erməni əhalisinin Bizans və Səlcuq imperiyaları dövründəki vəziyyəti, gürcü hökmdarlarının qonşu xalqlar üzərinə basqınları barəsində maraqlı məlumatlar vermişlər. Bu baxımdan, erməni kilsə xadimlərinin XI əsrin ortalarında erməni əhalisinin Bizansın hakimiyyəti altında ağır zülmə düçar olması haqqında faktları, Səlcuq sultanlarının Qafqaz və Kiçik Asiyanın xristian

əhalisi ilə yumşaq davranması haqqında çoxsaylı məlumatları böyük əhəmiyyətə malikdir. Məsələn, Edessli Matfey adlı salnaməçi sultan Məlikşahın erməni ruhanilərini ağır vergilərdən azad etdiyini razılıqla qeyd etmişdir.

Bizans və Suriya müəlliflərinin əsərlərində də bəhs olunan dövrdə Qafqazda baş vermiş tarixi hadisələri öyrənmək üçün maraqlı faktlar vardır. Bu mənbələrin əhəmiyyətli cəhəti Bizansın Qafqaz dövlətləri ilə bağlı siyasəti, imperiyaya yeni birləşdirilmiş ərazilərdə fem təsərrüfatları yaradılması, əhali üzərinə qoyulan vergi və mükəlləfiyyətlər, erməni feodallarının mülklərindən məhrum edilib daxili əyalətlərə, Bolqarıstana köçürülmələri haqqında rəsmi sənədlərə istinad edilməklə məlumat verilməsidir.

**Tarixşünaslıq icmalı.** Qafqaz tarixinin digər problemləri ilə bərabər, XI-XIII yüzilliklər tarixi də XIX əsrdən etibarən müasir elmi əsaslarla araşdırılmağa başlanmışdır. Bu baxımdan, rus şərqşünasları V.V.Bartold, A.Y.Yakubovski, V.A.Qordlevski və B.N.Zaxoderin orta əsrlər Yaxın və Orta Şərq tarixinə dair əsərləri böyük əhəmiyyətə malikdir. Bu müəlliflər ilk mənbələrə, ərəb və fars dilli müəlliflərin əsərlərindəki faktik materiallara əsaslanaraq sanballı araşdırmalar aparmış, monoqrafiyalar çap etdirmişlər. Bu tədqiqatlarda IX-XIII əsrlərdə Qafqaz dövlətlərinin ictimai-siyasi vəziyyəti, feodal münasibətlərinin inkişafı haqqında qiymətli mülahizələr vardır.

Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ermənistan tarixi üzrə ümumi əsərlər yazılması, ayrı-ayrı konkret mövzuların tədqiqi isə sovet dövründə geniş miqyas almışdır. Azərbaycan tarixçiləri Z.M.Bünyadovun, Y.M.Mahmudovun, S.B.Aşurbəylinin, R.Ə.Hüseynovun və başqa alimlərin tədqiqatları təkcə o zamankı Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqaz regionunun tarixini əks etdirir. Bu müəlliflər Azərbaycan dövlətlərinin qonşuları ilə münasibətlərinin şərhinə geniş yer vermiş, gürcü və erməni həmkarlarının





qeyri-obyektiv mülahizələrini ilkin mənbələrin faktlarına istinad etməklə tənqid etmişlər.

Gürcü müəllifləri M.D.Lordkipanidze, Q.A.Melikişvili, M.N.Şengeliya öz tədqiqatlarında Gürcüstan tarixinin bəhs olunan dövrünü araşdırmışlar. M.D.Lordkipanidzenin monoqrafiyasında XII əsrdə Gürcüstan dövlətinin güclənməsi, bütün Cənubi Qafqazı, Şimali Qafqazın da əhəmiyyətli hissəsini özünə tabe etməsi qeyd olunmuşdur. Q.A.Melikişvili isə öz tədqiqatında XII-XIII əsrin əvvəllərində gürcü dövlətinin yüksək dərəcədə mərkəzləşdirilməsi haqqında mülahizələri tamamilə düzgün olaraq rədd etmiş, monqol yürüşü ərəfəsində iri gürcü feodallarının mərkəzi hakimiyyətə qarşı mübarizəsinin dövləti daxildən zəiflətdiyini göstərmişdir.

Erməni müəllifləri Q.N.Mkrtumyan, K.N.Yüzbaşyan da öz tədqiqatlarında müxtəlif mənbələr, xüsusən erməni kilsə ədəbiyyatı və salnamə faktları əsasında IX-XIII əsrlərdə erməni, gürcü feodallıqları və onların qonşularla münasibətləri haqqında məlumat vermişlər. Bu müəlliflərin Qafqazda Səlcuq ağalığı, Azərbaycan dövlətləri haqqında gerçəkliyi əks etdirməyən mülahizələri ilə yanaşı, obyektiv fikirlər də diqqəti cəlb edir. Məsələn, K.Yüzbaşyan öz monoqrafiyasında Bizansın XI əsrin ortalarında əhali üzərinə o zamana qədər görünməmiş vergilər qoymasını, buna görə də erməni əhalisinin türklər tərəfə keçməsini, daha sonra Bizansın ermənilərin qədim mədəniyyətinin əsaslarını dağıtmağa çalışmasını, lakin əsas erməni vilayətlərinin Bizansın tərkibində cəmi 20 il qalmasına görə, buna nail ola bilmədiyini qeyd etmişdir.

Şimali Qafqazda IX-XIII əsrlərdə cərəyan etmiş etnik-siyasi proseslər haqqında V.A.Kuznetsov, V.F.Minorski və digər müəlliflər öz tədqiqatlarında məlumat vermişlər.

Qafqaz tarixinin orta yüzilliklər dövrü mövzuları üzərində işlərkən yuxarıda adları çəkilən qaynaqlardan və təd-

qiqat əsərlərindən geniş istifadə olunmuşdur. Ayrı-ayrı məsələlər üzrə mübahisəli məqamları aydınlaşdırmaq üçün ilkin mənbələrin məlumatları əsas götürülmüşdür.

**Səlcuq türklərinin yürüşlərinin başlanması.** Qafqazın cənubuna XI əsrin ortalarında Səlcuq türklərinin böyük axınları regionda ciddi etno-siyasi dəyişikliklərə səbəb oldu. Bizansın gürcü və erməni feodallarının köməyi ilə Qafqazın müsəlman türk əhalisini əsarət altına almasına imkan vermədi.

Səlcuqlar oğuz türklərinin bir qolu kimi Mərkəzi Asiyanın köklü sakinləridir. Onlar X əsrin 70-ci illərində Buxara ətrafında məskunlaşmış, XI əsrin başlanğıcında isə Qəznəvi sultanı tərəfindən Xorasanda yerləşdirilmişdilər. XI əsrin 30-cu illərində buradakı türk tayfaları ***Toğrul bəyin*** başçılığı ilə siyasi hakimiyyəti ələ keçirib ***Səlcuq dövlətini*** **(1038-1157)** yaratdılar. Toğrul bəy bu dövlətin ilk hökmdarı (1038-1063) oldu. **1040-cı il mayın 25-də** Mərv yaxınlığında ***Dəndənəkan*** adlı yerdə Səlcuq türkləri Qəznəviləri məğlub edərək Mərkəzi Asiyada aparıcı siyasi qüvvəyə çevrildilər. Bu qələbədən sonra Səlcuq dövlətinin başçısı ***sultan*** titulu qəbul etdi.

XI əsrin 40-cı illərində Səlcuq türkləri İrana və Ön Asiyaya, o cümlədən də Qafqaza doğru böyük yürüşlərə başladılar. Qafqaza doğru hərəkət edən qoşuna Həsən və Yaquti adlı bacarıqlı sərkərdələr başçılıq edirdilər.

Səlcuqların Qafqaza ilk reydləri isə XI əsrin ilk onilliklərinə aiddir. Onların 1015-1016-cı illərdə Azərbaycanın və Ermənistanın cənubuna, 1019-cu ildə Vaspurakana, 1018-1021-ci illərdə Arrana, oradan da Naxçıvana və Dəbilə, 1029-cu ildə Gürcüstana yürüş etmələri, Giomqvim monastırının mülklərini talan etmələri haqqında mənbələrdə məlumatlar vardır. 1028-ci ildə Xorasanda Səlcuq türklərinin Mahmud Qəznəvinin hakimiyyətinə qarşı qaldırdıqları üsyan yatırıldıqdan dərhal sonra 2 mindən çox oğuz ailəsi təqiblərdən yaxa qurtarmaq üçün Azərbaycanın cənubuna köçmüşdü. Rəvvadi hökmdarı Vəhsudan onları xoşluqla





qarşılamış və məskunlaşmaları üçün geniş torpaq sahələri ayırmışdı.

1030-cu ildə Səlcuq türkləri ***Çağrı bəyin*** başçılığı ilə Bizansın nəzarətində olan Cənubi Qafqaz torpaqlarına yürüş etmiş və çoxlu qənimət ələ keçirmişdilər. Yürüş zamanı heç bir ciddi müqavimətə rast gəlməyən Çağrı bəy geri döndükdən sonra bu səfəri haqqında qardaşı Toğrul bəyə ətraflı məlumat vermiş və onu Cənubi Qafqaz feodallıqlarına yeni yürüşlərə həvəsləndirmişdi. 1037-ci ildə səlcuqlar yenidən Bizansın hakimiyyəti altında olan Qafqaz torpaqlarına basqın etmişdilər.

Qafqaza və Ön Asiyaya bu ilk yürüşlər kəşfiyyat xarakteri daşıyır, gələcək hücumların ən əlverişli istiqamətlərini və yollarını müəyyənləşdirməyə, düşmənin müdafiə sistemlərini zəiflətməyə və əsas müqavimət ocaqlarını aşkara çıxarmağa xidmət edirdi.

Bu epizodik çıxışların ardınca XI əsrin 40-cı illərində Səlcuq türklərinin Ön Asiyaya və Qafqaza daha güclü yürüşləri başlandı. 1047-ci ildə Səlcuq qoşunları Bizansa hücum edərkən yolüstü Cənubi Qafqazın bəzi feodal mülklərini də qarət etmişdilər. Bu zaman erməni feodallarının mülkləri, xüsusən Vaspurakan daha çox ziyan çəkmişdi. **1048-ci ildə** başqa bir Səlcuq qoşunu İbrahim Yanalın başçılığı ilə Arrandan keçərək Gürcü şahlığına hücum etmişdi. Sentyabrın 18-də ***Ordro adlı yerdə baş verən döyüşdə*** Səlcuq qoşunları qalib gəlmiş, gürcü hərbi qüvvələrinin başçısı Liparit Eristavi isə əsir alınmışdı. Liparit Bizansın Gürcüstandakı nümayəndəsi olduğu üçün imperator IX Konstantin Monomax özü bu məsələyə müdaxilə etməli olmuşdu. Bizans imperatoru sultan Toğrula bahalı hədiyyələr göndərərək, Lipariti əsirlikdən xilas etmişdi.

**Cənubi Qafqazın Səlcuq imperiyasına qatılması.** Səlcuqlar **1054-cü ildə** yenidən Qafqazın daxili rayonlarına böyük yürüşə başladılar. Azərbaycanın cənub torpaqlarında

ağalıq edən ***Rəvvadi hökmdarı*** müqavimәti kəsib tabe oldu və xərac ödəməyi öhdəsinə götürdü. ***Şəddadi hökmdarı*** da sultan Toğrula bahalı hədiyyələr və girovlar göndərməklə öz ehtiramını bildirdi. Bu zaman Səlcuq sultanı ilə Şəddadi hökmdarı arasında bir anlaşma da bağlandı. Onlar Bizans imperatoruna və onun təhriki ilə Azərbaycana soxulan erməni-gürcü feodallarına qarşı əlbir hərəkət etmək haqqında razılığa gəldilər. Həmin yürüş zamanı ***Tiflis müsəlman əmirliyi*** də ***Səlcuq dövlətinə tabe edildi.*** Daha sonra yürüş gedişində türk qoşunları 3 hissəyə ayrılaraq: ***Abxaziya, Van gölü və Anadolu istiqamətində*** hücumları davam etdirdilər.

**1055-ci ildə** Səlcuq qoşunu bütün İraqı Bağdadla birlikdə ələ keçirdi. Bu hadisədən sonra xəlifə sultan Toğrula *"Ruknəddin"* (Dinin dayağı) ləqəbi verdi və onu müsəlman aləminin ali siyasi hakimi – "Şərqin və Qərbin hökmdarı" elan etdi. Bu dövrdə Yaxın və Orta Şərqin, o cümlədən Cənubi Qafqazın çox hissəsini əhatə edən nəhəng Səlcuq imperiyası yaranmışdı. İmperiyanın baş şəhəri əvvəlcə Mərv, sonra isə Rey və İsfahan şəhərləri oldu.

***Sultan Alp Arslanın*** (1063-1072) hakimiyyəti dövründə Qafqazın fəthinin yeni mərhələsi başlandı. **1063-cü ildə** Səlcuq türklərinin qoşunları Sav-Təkinin başçılığı ilə Xəzərsahili vilayətlərə: ***Maskat və Şirvan torpaqlarına*** yürüş etdi. **1064-cü ildə** isə bu qoşunlar ***Gürcüstana*** hücum edib Ahalkalak və Rustavi şəhərlərini ələ keçirdilər. Bundan sonra Gürcü şahı IV Baqrat (1027-1072) sultana tabe olduğunu bildirdi, cizyə və xərac ödəməyi öhdəsinə götürdü. Səlcuq ağalığı dövrü gürcü mənbələrində ***"Didi turkoba"*** (böyük türklük – Q.Ə.) dövrü adını almışdır.

**1064-cü ildə** səlcuqlar Bizans qüvvələrini məğlub edib, ***erməni feodal mülklərini və Ani şəhərini*** ələ keçirdilər. Bu hadisədən sonra Taşir-Dzoraket hakimi II Kürike (1048-1089) xərac və cizyə ödəməyi öhdəsinə götürdü və qızını sultana ərə verdi.





**1066-cı ildə** səlcuq qoşunları Şirvana hücum edib, Şamaxını mühasirəyə alsalar da müvəffəqiyyət qazana bilmədilər. Lakin yeni hücumların qarşısını almağın çətinliyini nəzərə alan ***Şirvanşahlar dövlətinin hökmdarı*** I Fəribürz (1063-1096) Səlcuq sultanının ali hakimiyyətini tanımağa məcbur oldu və ildə 30 min dinar xərac ödəməyi öhdəsinə götürdü.

1068-ci ildə Alp Arslan Gəncədən keçərək yenidən gürcü torpaqlarına hücum etdi. Çünki Gürcüstan dövləti vəd etdiyi xərac və cizyəni vaxtında göndərməmişdi. IV Baqrat müqavimət göstərməyə cəhd etsə də, müvəffəqiyyət qazanmadı. Kartlidəki mühüm qalalar səlcuqların əlinə keçdi. Gürcü şahı yenidən xərac və cizyə ödəməyə məcbur edildi.

Bu yürüş zamanı Tiflisdə hakimlik edən Cəfəri əmiri şəhərin qapılarını sultanın üzünə açdı və tabe olduğunu bildirdi.

Səlcuq hərbi qüvvələrinin əsas hissəsinin Gürcüstanda olmasından istifadə edən I Fəribürz Dərbəndi və ətraf əraziləri ələ keçirdi, Cənubi Dağıstanı öz təsiri altına aldı. Şirvanşahlar dövlətinin güclənməsindən ehtiyat edən sultan Alp Arslan 1071-ci ildə qoşun göndərərək Dərbəndi və ətraf torpaqları özünə tabe etdi. Lakin səlcuqlar Cənubi Dağıstandan o yana, dağlıq ərazilərə doğru hərəkət etmədilər. Düzənlik ərazidə ömür sürmüş Səlcuq türklərini dağlıq bölgələr o qədər də cəlb etmirdi.

Səlcuq türkləri Cənubi Qafqazda möhkəmləndikdən sonra Bizans mülklərinin içərilərinə doğru yürüşlərə başladılar. Bizans imperatoru IV Roman Diogen (1068-1071) də öz növbəsində, bir neçə kiçik Səlcuq dəstəsini məğlub etdikdən sonra, Qafqazın içərilərinə böyük yürüş etməyi qərara aldı. **1071-ci il avqustun 26-da** ***Malazgird*** (Bizans və erməni qaynaqlarında Mansikert adlanır – Q.Ə.) ***yaxınlığında baş verən həlledici döyüşdə*** Bizans qüvvələri sarsıdıcı məğlubiyyətə uğradı. İmperator IV Roman Diogen əsir alındı. Alp Arslanın əmri ilə onun qulaqlarını deşib qızıl həlqə taxdılar. Bu o

demək idi ki, "rumluların hökmdarı" Səlcuq sultanının quludur. Bir qədər sonra imperator xərac və cizyə ödəməyi öhdəsinə götürdüyü üçün azad edildi və ölkəsinə döndü.

**Qafqazda və Ön Asiyada Səlcuq ağalığının nəticələri.** Malazgird döyüşü sonrakı onilliklər üçün Ön Asiyada qüvvələr nisbətini müəyyən etdi. Bizansın qüdrətinə öldürücü zərbə endirildi, Səlcuq imperiyası Qafqazda və Ön Asiyada başlıca siyasi qüvvəyə çevrildi. ***Sultan Məlikşahın hakimiyyəti dövründə (1072-1092) Səlcuq dövləti ən güclü çağlarını yaşayırdı.*** Gürcü və erməni feodalları tamamilə Səlcuq sultanlarından asılı hala düşmüşdülər. Qeyd etmək lazımdır ki, Səlcuq sultanları Bizans imperatorlarından fərqli olaraq, Qafqazın xristian əhalisinə, xüsusən də erməni kilsəsinə daha dözümlü münasibət göstərirdilər. Məsələn, erməni mənbələrinin məlumatına görə, Məlikşah erməni katolikosu Anili II Barseqə icazə vermişdi ki, sultanın hüzurunda öz boynundan asdığı xaçı çıxarmasın. Həmçinin erməni kilsə mülklərinə toxunulmazlıq haqqında fərman vermişdi. Sultan Börküyarıq (1094-1105) isə erməni monastırlarını bütün vergilərdən azad etmişdi.

XI əsrin 70-ci illərində Qafqazın şimal-şərqində Səlcuq sultanlarının hakimiyyətini daha da möhkəmləndirmək üçün tədbirlər görüldü. Sultan Məlikşahın əmri ilə Dərbənd Sav-Təkinə iqta verildi. Şirvanşah I Fəribürz ildə 70 min dinar, bir müddət sonra isə hər il 40 min dinar xərac verməyə məcbur edildi. Şirvan və Gürcü şahlıqlarının Səlcuq sultanlarından tam asılı şəkildə qalması əsrin sonuna qədər davam etdi.

1075-ci ildə Arranda və Naxçıvanda hökmranlıq edən Şəddadilərin hakimiyyətinə son qoyuldu. Bu ərazilərin idarə olunmasını sultan Məlikşah bilavasitə öz oğlu Məhəmmədə tapşırdı. Onun iqamətgahı Gəncə şəhəri idi. Bu Səlcuq şahzadəsi Azərbaycan əmir və feodalları ilə şəxsi əlaqə yaradaraq, ümumiyyətlə Qafqazın sonrakı tarixində mühüm rol oynadı.





Səlcuq dövləti nəhəng hərbi-siyasi birlik olsa da, daxili iqtisadi əlaqələri zəif olan, müxtəlif dinə və dilə malik əhalinin toplusu idi. Ayrı-ayrı vilayətlərin müxtəlif sosial-iqtisadi və mədəni inkişaf səviyyəsində olması da dövlət həyatına öz mənfi təsirini göstərirdi. Bu səbəblərə görə, güclü qoşun, sultanların, vəzir və digər yüksək mənsəb sahiblərinin yüksək şəxsi keyfiyyətləri Mərkəzi və Ön Asiyanı əhatə edən bu nəhəng imperiyanın yalnız müəyyən bir müddətdə mövcud olmasını şərtləndirmişdi. 1092-ci ildə Məlikşah və onun tədbirli vəziri Nizamülmülk vəfat etdikdən sonra Səlcuq əyanlarının mərkəzdənqaçma meylləri gücləndi, sultan ailəsi daxilində hakimiyyət uğrunda mübarizə başlandı. Bu üzücü proseslər də tədricən Səlcuq dövlətinin zəifləməsinə, sonra isə ayrı-ayrı hissələrə parçalanmasına səbəb oldu.

XI əsrin sonunda başlanmış xaç yürüşləri də Ön Asiyanın, o cümlədən də Qafqazın beynəlxalq və ictimai-siyasi vəziyyətinə müəyyən təsir göstərdi. 1096-1099-cu illərdə Birinci xaç yürüşü və bunun nəticəsində də Aralıq dənizi sahili boyunda səlibçi dövlətlərinin yaranması Səlcuq və ərəb feodallarını birlikdə çıxış etməyə məcbur etdi. Gürcüstandakı türk qüvvələri xaçlılara qarşı döyüşlərdə iştirak etmək üçün Kiçik Asiyaya və Suriyaya göndərildi. Gürcü şahı IV David (1089-1125) bundan istifadə edib 1097-ci ildə Səlcuq dövlətinə xərac ödəməkdən imtina etdi. Daha sonra isə Səlcuq dövlətində baş verən daxili çəkişmələrdən yararlanaraq öz ərazilərini genişləndirməyə başladı.

XI əsrin sonu – XII əsrin başlanğıcında Suriya səlcuqları, Kirman səlcuqları və Anadolu səlcuqları böyük sultandan – mərkəzi hakimiyyətdən asılılığı kəsdilər. İraq, Xorasan və Qafqazda isə taxt-tac uğrunda Arranın və Azərbaycanın hakimi olan sultan Məlikşahın kiçik oğlu Məhəmməd Təpər isə böyük qardaşı sultan Börküyarıq əleyhinə mübarizəyə başladı. Börküyarıq qardaşına məxsus hərbi qüvvələri iki dəfə – 1101-ci ildə Həmədan yaxınlığında, ardınca da

Xoy yaxınlığında məğlub etdi. Lakin 1104-cü ildə onların görüşündə Fərat çayı boyunun və Qafqazın idarəsi Məhəmməd Təpərə verildi. Beləliklə, 1104-cü ildə Səlcuq dövləti faktiki olaraq iki hissəyə bölündü. Məhəmməd Təpər böyük sultan (1105-1118) olduqdan sonra isə həmin ərazilər oğlu Mahmudun idarəsində saxlandı. Yalnız onun ölümündən sonra bu ərazidə müstəqil ***İraq Səlcuq sultanlığı*** yarandı.

Cənubi Qafqaza oğuz türklərinin kütləvi axını və bölgənin XI yüzillikdə Səlcuq imperiyasına qatılması çox böyük tarixi əhəmiyyətə malik idi. Bununla Qafqazın Bizans tərəfindən işğal edilməsi, erməni və gürcü feodalları tərəfindən müsəlman türk əhalisinin sıxışdırılması prosesinin qarşısı alındı. Cənubi Qafqaz xalqları öz torpaqlarında əmin-amanlıqda yaşamaq, Mərkəzi və Ön Asiya xalqları ilə çeşidli iqtisadi və mədəni əlaqələr yaratmaq və inkişaf etdirmək imkanı qazandılar.

## XII əsrdə – XIII əsrin ilk onilliklərində Qafqazın feodal dövlətlərinin qarşılıqlı münasibətləri

**Gürcü dövlətinin güclənməsi.** XII əsrin başlanğıcında Böyük Səlcuq imperiyasının zəiflədiyi bir şəraitdə Cənubi Qafqazda müstəqillik meylləri gücləndi. Xüsusən Gürcüstan və Şirvan hökmdarları yaranmış bu vəziyyətdən dərhal yararlandılar.

***IV Qurucu David*** (1089-1125) gürcü torpaqlarını birləşdirərək qüdrətli bir dövlət yaratdı. O, ali aznaurlar təbəqəsinin separatçılıq meyllərinin qarşısını qətiyyətlə kəsdi. Kilsənin mərkəzi hakimiyyətin nəzarətindən xilas olmaq cəhdlərinin də qarşısı kəskin şəkildə alındı. Dikbaş kilsə xadimləri torpaq mülklərindən məhrum edildilər. Gürcü şahı Qafqazda yeni torpaqların işğalında güclü siyasi qüvvəyə çevrilmiş qıpçaqlara güvənirdi. IV David "nikah diplomatiyası"ndan bacarıqla istifadə etməyi bacarmışdı. O, qıpçaq





xaqanı Atrakın qızı Quranduxtla evlənmiş, həmçinin 40 mindən çox qıpçaq döyüşçüsünü ailəsi ilə birlikdə Gürcüstana köçürmüş, onların hesabına güclü atlı qoşun təşkil etmişdi. Məhz bu qoşun ona Səlcuq qüvvələri ilə döyüşlərdə uğur qazanmağa imkan vermişdi.

Bu dövrdə gürcü hökmdarı qonşu Şirvanşahlar dövləti ilə də sıx qohumluq və müttəfiqlik əlaqələri yaratmağa çalışırdı. Səlcuq ağalığından xilas olmağa can atan Şirvanşah I Afridun (1106-1120) da bu yaxınlaşmada maraqlı idi. Onun böyük oğlu Mənüçöhrə IV Davidin qızı Tamaranı alması da bu məqsədə xidmət edirdi. Bununla yanaşı, ehtiyatlı siyasət yeridən Şirvan şahı hələ yetərincə güclü olan Səlcuq sultanı ilə də münasibətləri pozmamağa çalışır, ona qarşı gürcü-qıpçaq qüvvələri ilə birgə silahlı mübarizədən yayınırdı. Bunu bəhanə edən gürcü hökmdarı IV David 1117-ci və 1120-ci illərdə Azərbaycanın şimal-qərb torpaqlarına yürüşlər təşkil etmiş, Qəbələ və onun ətrafındakı yaşayış məntəqələri qarət olunmuşdu. Həmin dövrdə Dərbənd hakimliyini yenidən özünə tabe etməyə çalışan I Afridun bu yürüşlərə mane ola bilməmişdi.

Geniş xarici siyasət planları quran gürcü hökmdarı digər qızı Katanı da Bizans imperatorunun oğluna ərə vermişdi. Həmçinin bu dövrdə gürcü və erməni feodal hakimləri Səlcuq türklərinə qarşı Qərbi Avropa səlibçiləri ilə də əlaqə yaratmışdılar. Bu, olduqca məkrli siyasətin məqsədi Bizansın və Aralıq dənizinin şərq sahillərində yaranmış səlibçi dövlətlərinin köməyi ilə müsəlman türk əhalisini Qafqazdan sıxışdırıb çıxarmaq, bölgədə və xüsusən də Qərbi Azərbaycanda xristian feodallarının mövqeyini möhkəmləndirmək idi.

Gürcü qoşunu qıpçaqların, alanların və Qərbi Avropa səlibçilərinin hərbi qüvvələrinin yardımı ilə **1121-ci il avqustun 18-də *Trialeti yaxınlığında Didqori adlı yerdə baş verən döyüşdə*** Səlcuq sultanı Mahmudun qoşunlarını məğlub etdi,

**1122-ci ildə** isə *Tiflisi ələ keçirdi*. Tiflis şəhəri 400 il davam etmiş müsəlman ağalığından sonra Gürcüstan şahlığının paytaxtına çevrildi. Lakin sonrakı əsrlərdə də şəhərin idarə olunmasında, ticarət və sənətkarlıq işlərində yerli müsəlman əhalisi aparıcı rol oynamaqda davam edirdi. Tiflisdə müsəlman ayinləri sərbəst icra edilirdi, hətta burada donuz saxlamaq və bazarlarda onu satmaq qadağan olunmuşdu. Vergi ödənilməsində də müsəlmanlara güzəşt edilmişdi. Gürcü hökmdarları hər il Tiflisin xristian sakinindən 5, yəhudidən 4, müsəlmandan isə 3 dinar vergi toplayırdılar.

**Gürcü-Şirvan münasibətləri.** Şirvanşah III Mənüçöhr (1120-1160) hakimiyyətə gəldikdən sonra Gürcüstanın güclənməsi ilə əlaqədar öz xarici siyasətində dəyişiklik etdi: Səlcuq sultanına xərac ödəməyi dayandırdı, gürcü hökmdarı ilə ittifaqı möhkəmləndirdi. Şirvan-Gürcüstan yaxınlaşmasında şahın gürcü xanımı Tamaranın da güclü təsiri olmuşdu. Buna cavab olaraq sultan Mahmud 1123-cü ildə Şirvana yürüş etdi. Lakin Şirvanşah III Mənüçöhrün, IV Davidin və qıpçaqların birləşmiş qüvvələrinə qalib gələ bilməyən Səlcuq qoşunu çəkilib getməyə məcbur oldu.

Gürcü şahı dərhal bu fürsətdən yararlandı. **1123-cü ilin yayında** Şirvana basqın edib, Gülüstan qalasını tutdu, çoxlu qənimət ələ keçirdi. Mənbələr, bəhs olunan dövrdə, gürcü feodallarının qıpçaqlarla birgə Şirvana qarətçi yürüşlər etmələri haqqında çoxsaylı məlumatlar vermişlər. Məsələn, **1124-cü ildə** IV David böyük qoşunla yenidən Şirvana soxulmuşdu. Şamaxı, Şabran şəhərlərini, Biqurd qalasını qarət etmişdi. Şirvan o zaman 5 aya qədər Gürcüstanın əsarətində qalmışdı. III Mənüçöhr yalnız 1125-ci ilin yanvarında – IV Davidin ölümündən sonra Şirvanın tam müstəqilliyini bərpa edə bilmişdi. Yeni gürcü şahı I Demetre (1125-1156) isə Şirvana olan iddialarından əl çəkmiş və hər iki dövlət arasında normal qonşuluq münasibətləri bərqərar olmuşdu.

Bu vəziyyət **1160-cı ilədək** – III Mənüçöhrün ölümünə





qədər davam etdi. Şirvanşahın ölümündən dərhal sonra şahın dul qadını və kiçik oğlu birlikdə qıpçaqların qüvvəsi ilə hakimiyyəti ələ almağa və Şirvanı Gürcüstana tabe etməyə uğursuz cəhd etdilər. Lakin böyük oğlu Axsitan (1160-1196) Atabəylər dövlətinin hərbi yardımı ilə bunun qarşısını aldı və hakimiyyəti özü ələ keçirdi. Tamara isə Gürcüstana qaçmağa məcbur oldu və orada özü tərəfindən əsası qoyulmuş Tiqvada monastırında ömrünü rahibə kimi başa vurdu.

Axsitan öz hakimiyyəti dövründə Gürcüstanla müttəfiqlik münasibətlərini davam etdirdi. 1174-cü ildə birləşmiş Gürcüstan-Şirvan qüvvələri Kür çayı ilə Qafqazın içərilərinə soxulmuş rus quldurlarını və Şabrana hücum etmiş qıpçaqları məğlub etdi. Daha öncə isə gürcü feodalları gürcü şahı III Georgiyə (1156-1184) qarşı qiyam qaldırdıqda, Şirvanşah seçmə qoşunla onun köməyinə getmiş, hakimiyyətin devrilməsinə imkan verməmişdi. Eyni zamanda, Gürcüstanla dostluğu möhkəmlətmək üçün şahın bacısı qızı ilə evlənmişdi. Maraqlıdır ki, yeni gürcü hökmdarı ***Tamara*** (1184-1213) ərini – rus knyazı Yurini ölkəsindən qovduğu zaman, 1187-ci ildə 60 yaşlı Axsitan ona da evlənməyi təklif etmişdi. Tamara isə bu təklifi rədd edib, gənc alan şahzadəsi David Soslanla nikaha girməyi üstün tutmuşdu.

Bütün bu faktlar, bəzi gürcü tədqiqatçılarının iddia etdikləri kimi, Şirvanın Gürcüstandan vassal asılılığında olmasını deyil, normal qonşuluq və dostluq münasibətlərinin mövcud olmasını göstərir.

**Atabəylər dövlətinin Gürcüstanın işğalçı siyasətinə qarşı mübarizəsi.** XII əsrdə və XIII əsrin əvvəllərində Cənubi Qafqazın siyasi həyatında fəal rol oynayan dövlətlərdən biri də ***Atabəylər dövləti*** idi. Bu dövlətin əsasını XII əsrin 30-cu illərində İraq Səlcuq sultanlığında daxili çəkişmələrdən bacarıqla istifadə edən istedadlı dövlət xadimi və tədbirli sərkərdə ***Şəmsəddin Eldəniz*** (1136-1175) qoymuşdu. Atabəylər dövləti yarandığı zamandan Qafqazın cənubunda işğalçı-

lıq siyasəti yeridən Gürcüstana qarşı daim mübarizə aparmalı olmuşdu.

Gürcü hökmdarları fürsət düşən kimi Azərbaycan və müasir Ermənistan torpaqlarına soxulur, qətl və qarətlər törədir, sərvətləri yağmalayıb aparırdılar. Məsələn, 1139-cu ildə Gəncədə və Arranın xeyli hissəsində zəlzələ olmuşdu və ciddi dağıntılar baş vermişdi. Bundan istifadə edən I Demetre Gəncəyə hücum etmişdi. Şəhər tamamilə qarət olunmuş, əhalisinin salamat qalan hissəsi isə əsir aparılmışdı. Bu zaman məşhur Gəncə qapıları da qənimət kimi Gürcüstana aparılmışdı. Hazırda Gəncə qapısının bir tayı Kutaisi şəhəri yaxınlığında Gelat monastırında saxlanır. Bu qarətlərə cavab olaraq Azərbaycan hakimi Qara Sunqur tələsik öz qoşunu ilə Gürcüstana yürüş etmişdi. Mxitar Qoş "Alban salnaməsi" adlı əsərində bu haqda belə məlumat vermişdir: "... o (Qara Sunqur – Q.Ə.), gürcü şahının hakimiyyəti altında olan vilayətə yollanıb, onların əli ilə viran edilmiş öz vilayətlərinin intiqamını aldı. Qara Sunqur Gürcüstan ölkəsinə birinci və sonra ikinci dəfə həmlə edərək, onları dəhşətə gətirib tir-tir əsməyə məcbur etdi."



**Şəkil**. Azərbaycan. Gəncə qapısının fraqmenti.







**Şəkil**. Gürcüstan. Gelat monastırı.

XII əsrin 60-cı illərində Gürcüstan yenidən fəallaşdı. **1161-ci ildə** gürcü şahı III Georgi böyük qoşunla Arrana yürüşə başladı və sultandan tələb etdi ki, Gəncə və Beyləqandan xərac toplamaq hüququnu ona versin. Eyni zamanda, gürcü qoşunu Ani və Dəbilə hücum etdi. Bu şəhərləri ələ keçirən gürcü qoşunu 41 min adamı, o cümlədən də çoxlu qadın və uşağı soyundurub, çılpaq və ayaqyalın şəkildə Gürcüstana apardı. Ancaq gürcü qadınları əsirlərlə belə davranışa hiddətlə qarşı çıxaraq bildirdilər ki, siz müsəlmanları məcbur edirsiniz ki, bu qadınlarla etdiyiniz rəftarı onlar da bizimlə etsinlər. Yalnız bundan sonra əsir qadınların paltarları özlərinə qaytarıldı.

Atabəylər dövlətinin vassalı olan Hilatın hakimi şahərmən Seyfəddin bəy Teymur gürcülərin bu hücumlarının qarşısını almağa çalışsa da, məğlub olmuşdu. III Georgi bu zaman Gəncə şəhərini də ələ keçirib qarət etmişdi. Buna cavab olaraq, Şəmsəddin Eldəniz 1162-ci ildə böyük bir qo-

şunla Naxçıvan yaxınlığında gürcü qüvvələrini ağır məğlubiyyətə uğratdı. Sonrakı il isə bilavasitə Gürcüstanın daxili rayonlarına hücum etdi, gürcü şahının bütün xəzinəsini ələ keçirdi, Dəbili geri qaytara bildi.

**1174-cü ilin yanvar ayında** III Georgi Naxçıvana və Aniyə hücum etdi. Ani şəhəri ələ keçirilib qarət edildi. Gürcü şahı buraya öz canişinini təyin etdi. Buna cavab olaraq, 1175-ci ilin avqustunda Atabəy Eldənizin, Hilat və Diyarbəkir hakimlərinin qoşunları Gürcüstana böyük yürüş təşkil etdilər. Lori, Dmanis bölgələrini, Ahalkalak və Trialeti arasındakı ərazi ələ keçirildi. Gürcü şahı özü isə keçilməz meşədə gizlənməklə xilas ola bildi.

Şəmsəddin Eldəniz və varisləri Gürcüstana qarşı Cənubi Qafqazda möhkəmlənmək uğrunda mübarizə zamanı yerli xristian əhalisini öz tərəfinə çəkmək üçün müəyyən addımlar atırdılar. Atabəy hökmdarları xristian əhalisinə, xüsusən ruhanilərə xeyirxah münasibət göstərir, əmin-amanlığa, abadlıq işlərinə xüsusi diqqət yetirirdilər. Bu haqda erməni salnamələrinin özündə çoxlu sayda faktlar vardır. Məsələn, Sünikin baş keşişi III Stepannos (1168-1214) Noravank kilsəsinə və Ağarak-Dzor monastırına məxsus əkin yerlərinin vergilərdən azad edildiyini göstərmişdir.

Atabəylər dövləti Araz vadisindən Şimali Mesopotamiyaya qədər ərazidə hökmranlıq edən ***Şahərmənlər dövləti*** ilə də normal əlaqələr saxlayırdı. Çünki şahərmənlərin ərazisindən mühüm ticarət yolları keçirdi və onların hökmdarları həmişə Atabəylərin sədaqətli vassalı kimi xidmət göstərirdilər. Xüsusən də Gürcüstan şahlarına qarşı mübarizədə müttəfiq kimi çıxış edirdilər.

Atabəylər dövləti XII əsrin 70-80-ci illərində Məhəmməd Cahan Pəhləvanın (1175-1186) və Qızıl Arslanın (1186-1191) hakimiyyəti dövründə çox qüdrətli olduğu üçün Gürcüstanın yeni hücumlar etməyə cəsarəti çatmırdı. Əksinə, 1190-cı ildə Qızıl Arslan özü qonşu dövlətin daxili işlərinə





müdaxilə etmiş, Tamaranın ölkəsindən qovduğu əri Vladimir knyazının oğlu Yuri Andreyeviçə hərbi qüvvə ilə yardım göstərmişdi. O da Kaxetiyə soxularaq gürcü mülklərini qarət etmişdi. Lakin sonda məğlub olaraq yenidən Şərqi Gürcüstandan qovulmuşdu. Rus knyazının Gürcüstanın qərbində möhkəmlənmək cəhdi də baş tutmamışdı. Suan (Meqreli-Quriya – Q.Ə.) əyalətinin əhalisi onu özlərinə hökmdar qəbul edib, mərkəzi hakimiyyətin tabeliyindən çıxmağa səy göstərsə də, gürcü hökmdarı Tamara bunun qarşısını qətiyyətlə almağı bacarmışdı.

Bu hadisədən bir il sonra Qızıl Arslanın sui-qəsd nəticəsində öldürülməsi və varisləri arasında hakimiyyət uğrunda ara müharibələrinin başlanması Atabəylər dövlətini ciddi surətdə zəiflətdi. Gürcü və erməni feodalları da dərhal bundan istifadə etdilər. Onlar Şirvanşah Axsitanın və alan şahzadəsi David Soslanın yardımı ilə **1194-cü ildə *Şəmkir və Beyləqan yaxınlığında döyüşlərdə*** Atabəy Əbu Bəkrin qoşunlarını məğlub edib, qətl və qarətlərə başladılar. Bu basqından Şəmkir, Beyləqan, Ərdəbil və Mərənd daha çox ziyan çəkdi.

XII əsrin sonu – XIII əsrin başlanğıcında Gürcüstan öz hakimiyyətini bütün Cənubi Qafqaza yaymağa çalışır, xüsusən şahərmənlərin mülklərini, Naxçıvan, Gəncə və Beyləqanı ələ keçirməyə can atırdı. Gürcü şahı bu məqsədlə erməni əsilzadələri nəslindən olan ***Zakare və İvane Mxarqrdzeliləri*** öz tərəfinə çəkmişdi. Birləşmiş gürcü-erməni qüvvələri 1199-1200-ci illərdə Amberd, Bjni, Ararat və Şirak bölgələrini, Ani şəhərini, 1203-cü ildə Dəbil, Qars, Sünik və Baqrevantı ələ keçirdilər. Tamara yeni birləşdirilmiş əraziləri iki yerə böldü. Qərb hissəsinə – Ani, Lori, Baqrevan və s. yerlərə Zakareni; Bjni, Sünik, Dəbil və İrəvan torpaqlarına İvaneni hakim təyin etdi.

Həmin dövrdə kef məclislərində sərxoşluq edən Əbu Bəkr mərkəzi hakimiyyəti və ordunu möhkəmləndirmək qayğısına qalmır, sərhəd bölgələrinin gürcü basqınlarına qarşı yardım müraciətlərini cavabsız qoyurdu. Onun 1202-ci ildə

gürcü şahzadəsi ilə evlənərək Baqratilər sülaləsi ilə qohum olması da yeni basqınların qarşısını ala bilmədi. 1204-cü ildə gürcülər Hilat və Malazgirdə, Atabəylər dövlətinin qərb mülklərinə hücuma başladılar. Yalnız yerli əhalinin möhkəm müqavimət göstərməsi düşməni geri çəkilməyə məcbur etdi.

1210-cu ildə gürcü-erməni feodallarının hərbi qüvvələri Azərbaycana yenidən soxuldular. Bu hücum öz fəlakətli nəticələrinə görə bütün əvvəlki yürüşlərdən daha ağır idi. Düşmənlər Mərənd, Miyanə, Zəncan, Qəzvin, Ərdəbil şəhərlərini qarət edib, əhalini qılıncdan keçirdilər. Yalnız Təbriz böyük miqdarda xərac ödəməklə qətl və qarətdən qurtula bilmişdi. Gürcü-erməni feodalları saysız qənimət və əsirlərlə geri dönmüşdülər. Həmin il qardaşının ölümündən sonra Atabəylər taxtına çıxmış Özbək (1210-1225) də Gürcüstanın yürüşlərinə qarşı ciddi müqavimət təşkil edə bilmədi.

1215-ci ildə isə Cənubi Qafqaz ***Xarəzmşahlar dövlətinin*** böyük hücumuna məruz qaldı. Hətta Atabəy hökmdarı Özbək Xarəzmşahın vassalı olduğunu bildirməyə məcbur olmuş və gürcülərin hücumlarının qarşısını almaq üçün ondan yardım istəmişdi. Gürcüstan şahı IV Georgi Laşa (1207-1222) isə Xarəzmşahın hücumlarının qarşısını almaq məqsədilə onun hüzuruna zəngin bəxşişlərlə elçilik göndərmişdi.

**Şimali Qafqazda etno-siyasi proseslər. Qıpçaq xaqanlığı. Alaniya.** XII əsrdə və XIII əsrin ilk onilliklərində Şimali Qafqazın siyasi həyatında qıpçaqlar və alanlar əsas rol oynayırdılar. Bölgədə qıpçaqların təsirinin güclənməsi **XI əsrin sonuna** aiddir. Bu zaman Çeçen-İnquş düzənliyi və Dağıstanın dənizboyu hissəsi, XII əsrin əvvəlində isə həmçinin Kuban çayının yuxarı axarı boyu və Kuma çayının sol sahili boyu torpaqları ***Qıpçaq xaqanlığının*** hakimiyyəti altına düşmüşdü. Qıpçaqların bu yerlərdə möhkəmlənməsi peçeneq, alan, vaynax və adıq tayfaları ilə toqquşmalarla müşayiət olunurdu. Sonrakı onilliklərdə isə qıpçaqların bu tayfalarla yaxınlaşması, xüsusən də Alaniya və Gürcüstanla ittifaq münasibətləri yaratması mənbələrdə qeyd olunmuşdur.





***Alaniya*** X əsrin əvvəlində Şimali Qafqazın mərkəz hissəsində yaranmış erkən feodal dövləti idi. XI-XII əsrlərdə Abxaziya və Gürcüstanda sıx əlaqələrə malik idi. Alanlar arasında xristianlığın yayılması da bu dövrə aiddir. Ərəb müəllifləri bu dövrdə alan dövlətində 5 şəhər haqqında, xüsusən də paytaxt ***Maqasın*** abad bir şəhər olması haqqında məlumat vermişlər. Lakin XII əsrin ikinci yarısında Alaniiyada feodal pərakəndəliyi başlamış, daxili toqquşmalar çoxalmışdı.

XII əsrin sonu - XIII əsrin ilk onilliklərində Qafqazın digər bölgələrində də feodal dağınıqlığına xas cəhətlər güclənmişdi. Bu həm Azərbaycan, həm də yüksək dərəcədə mərkəzləşdirildiyi iddia edilən Gürcüstan feodal dövlətlərinə aid idi. Bu dövrdə iri feodal əyanlarının mərkəzi hakimiyyətə qarşı çıxışlarından və ara müharibələrindən zəifləmiş Qafqaz dövlətləri xarici basqınların qarşısını almağa qadir deyildi. Digər tərəfdən isə, onların bir-birilə gərgin münasibətləri, xüsusən də Gürcüstanın qonşu dövlətlərə viranedici basqınları monqol hücumlarına qarşı birgə çıxış etməyə imkan vermədi.

**Qafqaz və Müsəlman intibahı.** Bəhs olunan dövrdə Ərəb Xilafətinin tərkibinə daxil olan xalqların mədəniyyətinin qarşılıqlı təsiri nəticəsində yaranmış ***Müsəlman intibahı*** Qafqaz diyarı ilə sıx bağlı olmuşdur. Qədim və erkən orta yüzilliklərdə mədəniyyətin müxtəlif sahələrində uğurlar qazanmış Qafqaz xalqları bu böyük mədəni oyanışa öz töhfələrini vermişlər. Bölgənin həm müsəlman, həm də xristian əhalisi xüsusən XI-XII əsrlərdə güclü mədəni dirçəliş dövrü yaşamışlar.

Bu, Qafqazda müstəqil dövlətlərin yaranması, xüsusən də Böyük Səlcuq imperiyası, Azərbaycan Atabəyləri, Şirvanşahlar və Gürcüstan dövlətlərində kamil dövlət idarəçiliyi, maliyyə sistemləri yaradılması, torpaq sahibliyi və torpaqdan istifadənin təkmil formalarının meydana gəlməsi, sənətkarlıq və ticarətin inkişafı üçün normal şərait yaradılması ilə bilavasitə bağlı idi. Ona görə də, bəhs olunan dövr-

də Gəncə, Şamaxı, Təbriz, Naxçıvan, Dəbil, Ani, Tiflis, Dərbənd bütövlükdə Şərqin önəmli iqtisadi və eləcə də mədəni mərkəzlərinə çevrilmişdilər. Bu şəhərlərdə bədii sənətkarlıq yüksək inkişaf etmiş, gözəl arxitektura abidələri inşa edilmiş, mükəmməl təhsil ocaqları yaradılmış, təbabət, astronomiya, fəlsəfə, tarix və digər elm sahələrində çalışan böyük alimlər, dünya ədəbiyyatına qiymətli incilər bəxş etmiş ***Nizami Gəncəvi, Şota Rustaveli*** kimi mütəfəkkirlər yaşamışdılar.

1027-ci ildə Araz çayı üzərindən salınmış Xudafərin körpüsü o zamana qədərki Qafqazın ən böyük mühəndis qurğusu idi. 15 aşırımlı bu nadir sənət abidəsi uzun əsrlər boyu Qafqaz regionunun Yaxın və Orta Şərq ölkələri ilə müntəzəm əlaqəsini təmin etmişdir.



**Şəkil**. Azərbaycan. Xudafərin körpüsü.

İntibah dövrünün ən görkəmli nümayəndələri sırasında memar ***Əcəmi Əbubəkr oğlu və Məsud Davud oğlu*** xüsusi qeyd edilməlidir. Əcəmi Əbubəkr oğlu Naxçıvanda Möminə xatun türbəsi (1186-cı il) kimi mükəmməl memarlıq





kompleksi və digər abidələrini yaratmış və hələ sağlığında "mühəndislər şeyxi" ləqəbi almışdı. Məsud Davud oğlu isə Bakıda Qız qalası (XII əsr) kimi dünyada tayı-bərabəri olmayan memarlıq incisi yaratmışdı.



**Şəkil**. Azərbaycan. Qız qalası.

Qafqaz xalqları eyni tarixi şəraitdə, oxşar coğrafi, sosial-iqtisadi mühitdə yaşadıqları, ümumi xarici təsirlərə məruz qaldıqları üçün mədəniyyət sahəsində öz milli xüsusiyyətlərini saxlamaqla yanaşı, dünya və həyat məsələlərində, ədəbiyyat və incəsənət sahələrində ümumi və ya ən azı oxşar baxışlar sistemi yaratmağa məhkum idilər. Hətta XI əsr gürcü tarixçisi ***Leonti Mroveli*** Qafqazda yaşayan bütün xalqların vahid mənşəyə malik olmasını irəli sürmüş, onların qardaş xalqlar kimi birlikdə yaşamaları və xarici təhlükələrə qarşı çiyin-çiyinə mübarizə aparmaları ideyasını bununla əsaslandırmağa çalışmışdır. Onun müasiri ***Qətran Təbrizi*** isə yazmışdır: "... türk, tacik eynidir. Rumlu, zənci bərabərdir.

Kafər, müsəlman məsələsi yoxdur. Burada əsas məsələ ancaq insanın insana, dünyaya və bütün varlığa saf və təmiz məhəbbətidir." Qafqaz xalqlarının mədəniyyət sahəsindəki böyük uğurları, ümumbəşəri dəyərlərə əsaslanmaqla onları daha da inkişaf etdirmələri Qafqaz intibahı haqqında bəhs etməyə imkan vermişdir.



**Şəkil**. Azərbaycan. Mömünə xatun türbəsi.

## Qafqaz monqol yürüşləri və ağalığı dövründə

**Monqolların Qafqaza birinci yürüşü.** XIII əsrin başlanğıcında Monqol dövlətinin yaranması prosesi başa çatdı. **1206-cı ildə** Onon çayı sahilindəki qurultayda ***Temuçin Çingiz xan*** adı ilə monqolların xaqanı seçildi.

Bundan sonra monqolların böyük hərbi yürüşləri başlandı. 1218-ci ilədək olan dövrdə Şimali Çində möhkəmləndikdən sonra Mərkəzi Asiyaya hücum etdilər. Zəmanəsinin





ən böyük imperiyalarından olan *Xarəzmşahlar dövləti* daxili feodal çəkişmələrindən zəifləmişdi. Xarəzmşah Məhəmməd düşmənə layiqincə müqavimət göstərmək üçün hətta özünün çoxsaylı qoşunlarını da bir yerə toplaya bilmədi. 1219-1220-ci illərdə Çingiz xanın 200 minlik ordusu Mərkəzi Asiyanın zəngin Otrar, Səmərqənd, Buxara, Xocənt, Qurqanc şəhərlərini ələ keçirdilər. Xarəzm şahı Məhəmməd monqolların təqibindən xilas olmaq üçün Xəzər dənizində Abeskun adasında gizləndi və 1221-ci ildə orada öldü.

Monqollara qarşı mübarizəni Məhəmməd şahın böyük oğlu ***Cəlaləddin*** davam etdirdi. O, Xorasanda 60-70 minlik ordu toplayaraq Pərvən yaxınlığında monqol ordularından birini məğlub etdi. Bu hadisədən sonra Çingiz xan özü əsas qüvvələrlə Cəlaləddinə qarşı çıxdı və 24 noyabr 1221-ci ildə Hind çayı sahilində onun qoşunlarını məğlub etdi. Cəlaləddin yalnız kiçik bir dəstə ilə Hind çayını üzüb keçməklə xilas oldu.

Çingiz xanın əmri ilə 30 minlik monqol ordusu **1220-ci ilin sonunda *Subutay və Cəbənin başçılığı altında*** İrana və Qafqaza yürüşə başladı. 1221-ci ilin yanvarında monqollar öz yolları üzərində hər şeyi məhv edə-edə Təbrizə yaxınlaşdılar. Azərbaycan Atabəylər dövlətinin başçısı Özbək xan öz elçisini sülh xahişi ilə monqolların yanına göndərdi. O, monqolların tələbi ilə ölkəsində saxlanılan Xarəzm qarnizonunu onlara təslim etdi. Həmçinin çoxlu pul, paltar və mal-qara göndərdi.

Monqollar Təbrizdən yan keçərək Muğana, Arrana, oradan da Gürcüstana yönəldilər. Atabəy Özbək monqol hücumu haqqında gürcü şahı IV Georgi Laşaya xəbər göndərsə də, Gürcüstanda bu xəbərdarlığa məhəl qoymadılar. Monqollar Tiflis yaxınlığında 10 minlik gürcü qoşununu məğlub etdilər və çoxlu qənimət ələ keçirdilər. Yalnız bundan sonra IV Georgi Laşa tabeliyində olan erməni feodal hakimlərinə bütün qüvvələrini cəmləşdirməyi əmr etdi. Gür-

cü şahı qonşu hakimlərlə də ittifaq haqqında danışıqlara girdi. Razılaşmaya görə, birləşmiş gürcü-erməni qüvvələrinə Atabəy Özbəyin Arrandakı canişini də qoşulmalı idi. Lakin Nəsirəddin Ağ-Quş qoşunu ilə birlikdə monqollar tərəfə keçdi.

Birləşmiş erməni-gürcü qoşunu monqollarla ***Kotman və ya Xunan adlı yerdə*** (Z.Bünyadova görə, bu yaşayış məntəqisi Şamxorçayın sağ qolu olan Girdiman çayı sahilində yerləşirdi – Q.Ə.) döyüşə girdi. 60 minlik qoşuna gürcü şahı IV Georgi özü başçılıq edirdi. Monqollar qoşunun əsas hissəsini pusquda saxladılar və döyüş başlayanda geri çəkilməyə başladılar. Müttəfiqlər bunu düşmənin qorxub qaçması hesab edib təqibə başladılar və monqolların tələsinə düşdülər. Gürcü-erməni qüvvələri sarsıdıcı məğlubiyyətə uğradılar.

Monqollar Gürcüstanın içərilərinə qədər irəliləyib qarət etdilər və yenidən Təbrizə tərəf qayıtdılar. Təbrizin hakimi Şəmsəddin ət-Tuğrayi bu dəfə də təzminat verməklə monqolları şəhərdən uzaqlaşdırdı.

1221-ci il martın 30-da monqollar Marağanı ağır mühasirədən sonra ələ keçirdilər və şəhər əhalisinə divan tutdular. Daha sonra Ərdəbilə hücum etdilər. Şəhər əhalisi monqolların iki həmləsini igidliklə dəf etdi. Lakin heç bir yerdən kömək almadıqlarına görə, şəhər müdafiəçilərinin qüvvəsi zəifləmişdi. Üçüncü hücumdan sonra Ərdəbil tutuldu. Həmin dövrdə Ərdəbildə olmuş Yaqut əl-Həməvi yazmışdır ki, monqollar şəhərdəki bütün kişi əhalisini qılıncdan keçirdilər. Yalnız gizlənənlər öz həyatını xilas edə bildilər.

Ərdəbili tutduqdan sonra monqollar yenidən Təbrizə döndülər. Özbək xan tələsik Naxçıvana qaçdı. Şəmsəddin ət-Tuğrayi şəhəri möhkəmləndirdi, eyni zamanda monqollarla danışığa girərək, üçüncü dəfə təzminat verməklə Təbrizi xilas etdi. Monqollar Səraba və Naxçıvana hücum etdilər. Hər iki şəhər məhv edildi. 1221-ci ilin oktyabrında Beyləqan mühasirəyə alındı. Beyləqan əhalisi monqollarla danışığa girdi.





Lakin monqol elçisi kobud davrandığına görə öldürüldü. Monqollar şəhəri hücumla aldılar və bütün əhalini, o cümlədən qadın və uşaqları qılıncdan keçirdilər. Beyləqan alınandan sonra monqollar Arranın başlıca şəhəri olan Gəncəyə hücum etdilər. Gəncə əhalisi monqollara qədər tez-tez gürcü feodallarının basqınına məruz qaldığı üçün, qala dİVarlarını və darvazaları möhkəmlətmiş, çoxlu müdafiəçi saxlamağa məcbur olmuşlar. Ona görə monqollar Gəncəni tuta bilmədilər və təzminat almaqla kifayətləndilər.

1221-ci ilin sonunda monqollar üçüncü dəfə Gürcüstana hücum etdilər. Gürcülər bu dəfə daha çox hazırlıq görsələr də yenə məğlub oldular. Həmin döyüşdə 30 min gürcü döyüşçüsü öldürüldü.

Bu qələbədən sonra monqollar Dərbənd keçidi vasitəsi ilə Şimali Qafqaza çıxmaq üçün Şirvana yeridilər. Monqollar Şamaxıya yaxınlaşanda, Şirvanşah Gərşəsp (1180-1225) Bakıya qaçdı. Şamaxı əhalisi monqollara möhkəm müqavimət göstərsə də, monqolların üstün qüvvələri şəhəri ələ keçirib, sakinlərini qarət etdilər.

Daha sonra monqollar Dərbəndə yaxınlaşdılar. Lakin qalanın çox möhkəm olması, onları Dərbəndin hakimi ilə danışıqlara girməyə vadar etdi. Dərbənd hakimi o zamankı şirvanşahın qardaşı Rəşid sülh danışıqları üçün 10 nəfərdən ibarət elçilik göndərdi. Monqollar elçilərdən birini öldürdülər, qalanlarını isə məcbur etdilər ki, dağ cığırları ilə şimala keçidi onlara göstərsinlər.

**1222-ci ildə** monqollar Şimali Qafqaza soxularaq alanların, lakzların, qıpçaqların və digər tayfaların yaşayış məntəqələrini qarət etməyə başladılar. Alan və qıpçaqların birləşmiş qüvvələri monqolları geri oturda bildi. Monqol sərkərdələri Qıpçaq xaqanı ilə əlaqə yaradıb, ona bir-birinə hücum etməməyi təklif etdilər və əvəzində çoxlu qızıl, paltar verməyi vəd etdilər. Qıpçaq xaqanı monqollardan xəzinəni alıb Azov çöllərinə çəkildi. Monqollar alanları məğlub etdi-

lər və sonra da qıpçaqların arxasınca sürətlə yürüşə başladılar.

Qıpçaq xaqanı Kotyan kömək üçün kürəkəni Qaliç knyazı Mstislav Mstislaviçə müraciət etdi. Sonuncu Kiyev və Çerniqov knyazları ilə birlikdə qıpçaqlara köməyə gəldi. **1223-cü il mayın 31-də** monqollar ***Kalka çayı sahilində döyüşdə*** birləşmiş qıpçaq-rus qüvvələrini tam məğlub etdilər. Rus drujinalarının qalıqlarını isə Dneprə kimi təqib etdilər. Bu yürüşdən sonra monqollar Volqa sahillərinə, oradan da Monqolustana qayıtdılar.

**Qafqaz Cəlaləddinin hakimiyyəti dövründə.** Monqollar Cənubi Qafqazı tərk etdikdən dərhal sonra – 1222-ci ilin yanvarında gürcü şahı IV Georgi Laşa danışıq aparmaq üçün Şirvanın ikinci paytaxtı olan Bakıya gəldi. O, özü ilə 32 yaşlı bacısı *Rusudanı* da gətirmişdi ki, ya Şirvanşah I Gərşəspə, ya da onun oğlu III Fəribürzə ərə versin. Bu zaman o, artıq bir neçə dəfə ərdə olmuşdu və iki uşağı var idi. Lakin yanvarın 18-də gürcü şahı qəflətən xəstələnib öldü. Toy baş tutmadı. Rusudan Gürcüstana qayıdaraq şah taxtına çıxdı.

1222-ci ilin fevral ayında Şimaldan əlli minlik qıpçaq ordusu Dərbəndə yaxınlaşdı. Qıpçaqların başçısı Dərbəndin hakimi Rəşiddən xahiş etdi ki, onlara məskən salmaq üçün yer versin. Əvəzində isə ona xidmət göstərəcəklərini bildirdilər. Əvvəllər dəfələrlə qıpçaqların hücumlarını dəf etmiş Rəşid onların xahişinə rədd cavab verdi. Belə olduqda, qıpçaqlar hiylə işlətdilər və Dərbəndi tutub qarət etdilər. Daha sonra qıpçaqlar Qəbələyə hücum etdilər. Qəbələ bu zaman gürcülərin əlində idi və onun mühasirəsi nəticəsiz qurtardı.

Qıpçaqların növbəti hədəfi Gəncə şəhəri oldu. Onlar Gəncəyə yaxınlaşdıqda şəhərin əmiri qıpçaqların başçısı ilə danışığa girdi, onlara şəhər ətrafında məskunlaşmağa icazə verdi. Lakin qıpçaqlar qarətlə məşğul olduğuna görə Gəncədən qovuldular və Şirvana qayıtdılar. Burada Şirvan, gürcü və dağıstanlıların birləşmiş qüvvələri qıpçaqları darmadağın





etdilər və çoxlu əsir aldılar.

Gürcülər bu döyüşdən sonra ölkələrinə dönmədilər. Gürcü qoşunları 1222-ci ilin oktyabrında Beyləqana hücum etdilər. Beyləqan əhalisi monqolların basqınından da amansız qətl və qarətlərə məruz qaldı. Atabəy Özbək xan isə bu zaman Təbrizdə bir-birinin ardınca kef məclisləri düzəldir, ölkəsini qorumaq üçün heç bir addım atmırdı.

**1225-ci ildə** gürcü qoşunları yenidən Azərbaycana soxuldu. Lakin cənubdan hücuma keçən Xarəzmşah Cəlaləddinin qorxusundan geriyə çəkildi. Bağdada yürüşdən qayıdan Cəlaləddin **1225-ci ilin mayında** Marağanı, iyun ayında Təbrizi ələ keçirdi. Cəlaləddinin hücuma başlaması xəbərini aldıqda Özbək xan öz canını qurtarmaq üçün Əlincə qalasına qaçmışdı. Cəlaləddin onun arvadı Məlikə ilə evləndi. Bu xəbəri eşidən Özbək xan bərk qüssələndi və bir neçə gündən sonra öldü. Bununla Atəbəylər dövlətinin varlığına son qoyuldu.

Daha sonra Cəlaləddin Dəbil yaxınlığında Qərni qalasında 60 minlik gürcü ordusunu məğlub etdi. Gürcüstan torpaqları ələ keçirildi.

1225-ci ildə Şirvanda üsyan baş verdi. I Gərşəsp hakimiyyətdən salındı, şah taxtına oğlu III Fəriburz çıxdı. I Gərşəsp gürcü hökmdarından 3 minlik qoşun alaraq hakimiyyəti geri almağa cəhd göstərdi, lakin istəyinə nail ola bilmədi.

Bu hadisədən az sonra Xarəzmşah Cəlaləddin gürcülərin 70 minlik qoşununu məğlub etdi və o zaman gürcülərin əlində olan Şəki və Qəbələni Şirvanşahlar dövlətinə qaytardı. Əvəzində isə Şirvan hökmdarından 50 min dinar xərac tələb etdi. Lakin III Fəribürz Xarəzmşaha 500 türk atı bağışlamaqla xəracın miqdarının 20 min dinara endirilməsinə nail oldu.

Cəlaləddin Dərbənd keçidini ələ keçirmək və Şimali Qafqaza çıxmaq istəyirdi. Onun xahişi ilə 1227-ci ildə qıpçaqların 50 minlik qoşunu şimaldan Dərbəndə yaxınlaşdı. O

zaman Dərbəndin hakimi *atabəy əl-Əsəd* idi. Cəladəddin əl-Əsədi öz ordugahına çağırıb hədiyyələr verdi və şəhəri ona təslim etməyə razı saldı. Buna baxmayaraq, əl-Əsəd geri qayıdarkən Cəlaləddinin adamları onu qandalladılar və ətraf kəndləri qarət etməyə başladılar. Şimaldan isə qıpçaqlar qətl və qarətlə məşğul olurdu. Əl-Əsəd hiylə işlətməklə azad oldu və Dərbəndi möhkəmləndirərək düşmənlərdən qorudu. Bu dövrdə Cəlaləddinə qarşı Şimali Qafqaz xalqları da mübarizə aparırdı. Tarixçi Fəzlullah Rəşidəddin bu xalqlardan sərir və lakzların adlarını çəkmişdir.

1230-cu ildə Cəlaləddin yenidən Gürcüstana hücum etdi. O, bu döyüşdə ürcülərin, abxazların, alanların və digər dağlı xalqların böyük qüvvəsi ilə üz-üzə gəldi. Bu döyüş haqqında gürcü salnaməsi "Kartlis Sxovreba"da belə yazılıbdır: "Əvvəlcə gürcülər qələbə çalırdılar, lakin Allah gürcülərə qarşı qəzəblənmişdi,... bizim günahlarımızı yadına salmışdı (salnaməçi, yəqin ki, gürcülərin dinc Azərbaycan əhalisini qarət etməsini nəzərdə tutur. – Q.Ə.). Yenə də şah qoşunları məğlub olub qaçdılar. Sultan yenidən Tiflisə gəldi. Qarət etməyə nə vardısa, o, hamısını qarət edirdi".

Bu, Cəlaləddinin son qələbəsi oldu.

**Qafqazın Böyük Monqol imperiyasına tabe edilməsi.** ***Çormağunun*** başçılığı ilə monqol qoşunları **1231-ci ildə** yenidən Cənubi Qafqaza hücum etdilər. Bu zaman Cəlaləddin öz qoşununu bütün Azərbaycana və Qafqaza səpələmişdi, qətl və qarətlə məşğul idi. Ona görə də, yerli əhali ona hədsiz dərəcədə nifrət edirdi və monqollara tabe olmağı daha üstün tuturdu.

Monqolların hücum xəbərəni alan kimi Cəlaləddin indiyə qədər müharibə etdiyi qonşularından yardım istədi. Lakin bu cür vəziyyətdə heç kəsdən kömək gəlmədi. Həmin dövrdə yaşamış ərəb tarixçisi ibn əl-Əsir "Əl-kamil fit-tarix" adlı əsərində bunun səbəbini belə izah etmişdi: "Cəlaləddin çirkin rəftarlı adam idi, ölkəsini pis idarə edirdi. Onun





düşmənçilik etmədiyi, torpağına qoşun göndərmədiyi bir qonşu hakim də qalmamışdı, hamı üçün arzuedilməz qonşu idi. Buna görə də, onlar hamısı onu tərk etdilər və kömək əli uzatmadılar."

Monqol basqını ərəfəsində Xarəzm qarnizonları xüsusilə Azərbaycan şəhərlərində daha çox özbaşınalıqlar törətmiş, əhali ilə amansızcasına rəftar etmişdilər. Buna dözməyən Gəncə əhalisi **1231-ci ildə** üsyan qaldırdı və şəhərdə hakimiyyəti ələ keçirdi. Üsyana ***usta Bəndər*** başçılıq edirdi. Cəlaləddin bir neçə minlik qoşunla üsyançıları məğlub edə bildi, *Gəncəni* çətinliklə də olsa tutdu. Bəndər və daha 30 nəfər fəal üsyançı edam edildi. Lakin monqolların yaxınlaşması xəbərini alan kimi Cəlaləddin tələsik Kiçik Asiyaya qaçdı və 1231-ci ilin ortasında Diyarbəkrin Əynbar adlı kəndi yaxınlığında kürdlər tərəfindən öldürüldü.

Monqol ordusu **1231-ci ildə** ***Marağanı*** tutub, əhalisini qılıncdan keçirdi. Daha sonra düşmən qüvvələri Təbrizi mühasirəyə aldı. Təbrizlilər monqolların rəğbətini qazanmaq üçün şəhərdə olan Xarəzm qarnizonu döyüşçülərini öldürmək qərarına gəldilər. Lakin Şəmsəddin ət-Tuğrayi onları bu böyük qantökmədən çəkindirə bildi. Lakin özü də tezliklə vəfat etdiyi üçün şəhərin müdafiəsini təşkil etmək mümkün olmadı. ***Təbriz*** əhalisi şəhəri monqollara təslim etdi. Monqollar Azərbaycanın cənubunu tutduqdan sonra Arrana və Şirvana soxuldular. **1235-ci ildə** ***Gəncə*** mühasirəyə alındı. Gəncə əhalisi düşmənin əlinə keçməməsi üçün öz əmlaklarını və evlərini yandırdılar. Monqollar bundan qəzəblənib bütün şəhər əhalisini qılıncdan keçirməyə başladılar. Yalnız kiçik bir dəstə mühasirəni yarıb canını qurtara bildi.

Bərdə, Beyləqan, Şabran, Şamaxı şəhərləri də monqollar tərəfindən tutulub qarət edildi. **1239-cu ildə** ***Bakı və Dərbənd*** qalalarının tutulması ilə Azərbaycanın monqollar tərəfindən işğalı tamamilə başa çatdı.

**1236-cı ildə** monqollar ***Gürcüstana*** və onun hakimiyyə-

ti altında olan digər Cənubi Qafqaz torpaqlarına hücum etdilər. Bu zaman gürcü şahı Rusudanın zəifliyindən istifadə edən feodal əyanlarının ara müharibələri, Cəlaləddinə qarşı döyüşlər Gürcüstanı zəiflətmişdi. Çormağunun ordusu ciddi bir müqavimətə rast gəlmədən Gürcüstan torpaqlarını işğal etməyə başladı.

Lori şəhəri tutularkən burada Zaxarın oğlu Şahinşaha məxsus xəzinə monqolların əlinə keçdi. Başqa bir erməni əyanı atabəy Avaq monqol sərkərdəsinin hüzuruna tələsik elçi göndərərək tabe olduğunu bildirmiş, Ani şəhərini monqollara təslim etmişdi. **1240-cı ilin başlanğıcında *bütün Şərqi Gürcüstan və erməni torpaqları*** monqolların əlinə keçdi. **40-cı illərin ortalarına kimi *Qərbi Gürcüstan*** da işğal edildi. 1243-cü ildə isə monqolların Kiçik Asiyaya yürüşü zamanı Kilikiya Ermənistanı da tabe edildi. Maraqlıdır ki, bu yürüşdə monqol qoşunları ilə birlikdə yenicə tabe edilmiş erməni və gürcü feodalları da dəstələri ilə iştirak etmişdilər.

Qafqazın şimal hissəsi ***Batı xanın*** Şərqi Avropaya yürüşü dövründə işğal olunmağa başlandı. **1237-ci ilin payızında** Menqu xan və Kadanın başçılığı ilə monqol qoşunu Aşağı Volqaboyunda qıpçaqları və onlarla ittifaqda Şimali Qafqazda monqollara qarşı mübarizə aparan alanları məğlub etdi, başçıları Kaçirukulunu isə öldürdü. Elə həmin vaxt monqollar adıq (çərkəz) torpaqlarını da ələ keçirib, onların Tukar adlı hökmdarını məhv etdilər. Kuban çayı və onun qolları boyunda yaşayan tayfalar monqollara tabe edildi.

1238-ci ilin payızında monqollar Şimali Qafqazın mərkəzi dağlıq hissəsində yaşayan alanların üzərinə hücum etdilər. On ay ərzində alan torpaqları zəbt edildi, paytaxt şəhəri Maqas (mənbələrdə yeri haqqında dəqiq məlumat yoxdur – Q.Ə.) ayyarımlıq mühasirədən sonra tutuldu və dağıdıldı.

**1239-cu ilin payızında** başqa bir monqol ordusu ***Dağıstanın*** işğalına başladı. Bir neçə ay ərzində Avarıstan, Xəzər dənizi sahili boyu, Kürə adlı ləzgi vilayəti tutuldu. 1240-cı





ilin yazında monqol qoşunu qumuq torpaqlarına hücum etdi. Avar hakimi Sartan da öz qoşunu ilə monqollar tərəfindən bu yürüşdə iştirak etdi. Bu da onu göstərir ki, monqollar Şimali Qafqazı özlərinə tabe etmək üçün yerli feodal hakimləri arasındakı ziddiyyətlərdən də bacarıqla istifadə etmişdilər.

**Monqol idarəçiliyinin yaradılması.** Monqollar 1237-1240-cı illərdəki yürüşləri nəticəsində Şimali Qafqazın əsas hissələrini özlərinə tabe edə bildilər. Dərbənddən Böyük Qafqaz dağları boyunca Qara dəniz sahillərinə kimi uzanan xətdən şimala doğru geniş ərazilər monqolların Batı xanın yaratdığı ***Qızıl Ordu*** ulusuna qatıldı. Lakin Qafqaz dağlarında yaşayan ayrı-ayrı tayfalar bu dövrdə monqollara müqavimət göstərməkdə davam edirdi. Avropalı səyyah Gilyom Rubrukun şəhadətinə görə, alanların və çərkəzlərin bəzi tayfaları XIII əsrin 50-ci illərində hələ monqollara tabe deyildi. Çətin keçilən yerlərdə isə monqollara qarşı mübarizə hətta XIII əsrin 70-ci illərinə kimi davam etmişdi. Məsələn, rus salnamələrində alanların Dadakov şəhərinin yalnız 1278-ci ildə rus drujinalarının köməyi ilə alındığı qeyd edilmişdir.

Qafqazın cənub hissəsi isə XIII əsrin 30-50-ci illərin birinci yarısında birbaşa ***ali monqol xaqanına*** tabe idi və Qaraqorumdan təyin olunmuş canişin – iri monqol feodalı Arqun ağa tərəfindən idarə olunurdu. Bu dövrdə yerli feodalların torpaq mülklərinin müsadirəsi geniş miqyasda davam etdirilirdi. Torpaq mülklərini öz əlində saxlamaq üçün hakimlər Qaraqoruma gedərək monqol dövlətinə itaət etdiklərini yenidən bildirmişdi.

40-cı illərin ortalarında gürcü hökmdarının da hakimiyyəti ali monqol xaqanı tərəfindən təsdiq olunmuşdu. Həm də Gürcüstan ərazisi Tamaranın iki nəvəsi arasında bölüşdürülmüşdü.

1254-1255-ci illərdə ali monqol xaqanı Munkenin əmri

ilə Qafqazda əhalinin və əmlakın siyahısı tərtib edilməyə başlandı. Baskaklar Arqun və Buqa bunu xüsusi canfəşanlıqla həyata keçirdilər. Bu hadisənin müasiri olmuş gürcü müəllifi xan məmurlarının hər şeyi: adamları, heyvanları, əkin yerlərini, üzümlükləri və bağları dəqiq siyahıya aldıqlarını və hər 9 kəndli ocağından bir nəfəri hərbi xidmətə apardıqlarını qeyd etmişdir.

Qafqazın 10 yaşından 60 yaşına kimi bütün kişi əhalisi siyahıya alındı. Siyahıdan yayınanlar xüsusi qəddarlıqla cəzalandırılırdı. Akpersli Qriqorun yazdığına görə, siyahıya düşməyənlərin qollarını arxasında bağlayıb qamçılayır, bədənləri qançır olduqdan sonra isə, onların üzərinə insan ətinə öyrədilmiş itləri qısqırdırdılar. Müəyyən edilmiş vergi və mükəlləfiyyətləri ödəyə bilməyənlərin isə ya övladları, ya da özləri köləliyə aparılırdı.

Əhalinin narazılığından istifadə edən gürcü şahzadəsi David monqollara qarşı çıxmağa cəhd etdi. O, üsyan məsələsini müzakirə etmək üçün gürcü və erməni feodallarını bir yerə yığdı. Yığışanların öz arasından bir nəfər satqın bunu monqollara xəbər verdi. Üsyan təşəbbüsçüləri ağır cəzalandırıldılar. Cəza əməliyyatları zamanı yenidən çoxlu şəhər, kənd dağıdıldı.

**Qafqaz uğrunda Elxani-Qızıl Ordu dövlətlərinin mübarizəsi. 1256-cı ildə** monqol ordusu Çingiz xanın nəvəsi ***Hülaku xanın*** başçılığı ilə Ön Asiyada yeni ərazilər işğal etmək üçün yürüşə başladı. İran, Azərbaycan və erməni feodal hakimləri Hülaku xanın qarşısına çıxaraq itaət etdiklərini bildirdilər. 1256-1257-ci illərdə İran və Qafqazın cənubu yenidən, bu dəfə Hülaku xana tabe edildi. Yerli feodal hakimlər məcbur edildi ki, öz dəstələri ilə monqolların Bağdad üzərinə yürüşündə iştirak etsinlər.

**1258-ci il fevralın 21-də *Bağdad tutuldu*** və sonuncu Abbasi xəlifəsi Mötəsim öldürüldü. Amu-Dəryadan Aralıq dənizi sahillərinə və Böyük Qafqaz dağlarından İran körfəzinə kimi Yaxın və Orta Şərq Hülaku xanın (1258-1265) hakimiyyəti altına düşdü. Yeni, beşinci monqol ulusu – ***Hülakular dövləti*** yarandı. 1263-cü ildə ali monqol xaqanı Hubilay Hülaku xana elxan rütbəsi verdiyi üçün, tarixi ədəbiyyatda bu dövlət həm də ***Elxanilər dövləti*** adlandırılmışdır. Elxanilər dövlətinin əsas mərkəzi Azərbaycan ərazisi idi. Dövlətin paytaxtı əvvəl Marağa, sonra Təbriz, daha sonra Sultaniyyə və yenidən Təbriz şəhərləri olmuşdu.





Qafqazın cənub hissəsinin qəti şəkildə Elxanilərin hakimiyyəti altına keçməsi digər monqol dövlətinin – Qızıl Ordunun narahatlığına səbəb oldu. Şimali Qafqazda möhkəmlənən Qızıl Ordu xanları Böyük Qafqaz dağlarından cənubdakı məhsuldar torpaqları, xüsusən əlverişli qışlaq kimi böyük otlaq sahələrinə malik olan Muğan, Mil, Şirvan düzənliklərini, bölgədəki mühüm sənətkarlıq və ticarət mərkəzləri olan şəhərləri ələ keçirməyə, buradan keçən mühüm karvan yollarını öz nəzarətləri altına almağa çalışırdılar. Bu zəmində Qızıl Ordu ilə Elxanilər dövləti arasında gərgin mübarizə başladı və qısa fasilələrlə 100 ilə qədər davam etdi.

**1262-ci ilin avqust ayında** Qızıl Ordu qoşunları Şirvana hücum etdi. Sərkərdə Noqayın başçılıq etdiyi 30 min atlı qoşun Şamaxıya qədər irəliləyə bildi. Bundan xəbər tutan Hülaku xan ona tabe olan bütün vilayətlərdən feodal qoşununu Şirvana göndərməyi əmr etdi. Bu hərbi qüvvələrin köməyi ilə Qızıl Ordu qoşunu 1262-ci ilin noyabr ayında Şabranda və həmin ilin sonunda isə Dərbənd yaxınlığında məğlub edildi. Bu qələbələrdən sonra Hülaku xanın oğlu Abaqa xan digər əmirlərlə birlikdə qaçan düşməni təqib edərək Terek çayı sahillərinə qədər irəlilədi və çoxlu qənimət ələ keçirdi.

Buna cavab olaraq, Qızıl Ordu hökmdarı ***Berke xan*** (1256-1265) çoxsaylı qoşunla yürüşə başladı və 1263-cü il yanvarın 13-də Terek çayı sahilində qanlı döyüşdə Elxani qüvvələrinə qalib gəldi. Dərbəndə qədər Şimali Qafqaz ərazisi yenidən Qızıl Orduya keçdi.

Hülaku xanın ölümündən sonra Qızıl Ordu xanı Berke Cənubi Qafqaza hücum etdi. Hülaku xanın varisi ***Abaqa xanın*** (1265-1282) başçılığı ilə Elxani qoşunları Kür sahilində onun qarşısını kəsdi. 1265-ci ilin iyul ayında 14 gün ərzində Qızıl Ordu qoşunları Kür çayını keçmək üçün uğursuz cəhdlər etdi. Bundan sonra Berke xan qoşunla Tiflisə tərəf hərəkət etdi. Lakin yolda xəstələnib öldüyü üçün bu yürüş yarımçıq qaldı. Qızıl Ordu qoşunları Saray-Batıya qayıtmağa məcbur oldular. Bu yürüşdən sonra, mənbələrin şəhadətinə görə, XIII əsrin 80-ci illərinə qədər Elxanilər dövləti ilə Qızıl Ordu arasında iri hərbi əməliyyatlar aparılmamışdır.

Abaqa xanın ölümündən sonra varislər arasında hakimiyyət uğrunda çəkişmələr Elxanilər dövlətini zəiflətdi. Bundan istifadə edən Qızıl Ordu qoşunları 80-ci illərin ortalarında Dərbənd keçidindən Şirvana soxuldular və Kür çayından şimaldakı əraziləri qarət etdilər. Arqun xan (1284-1291) 1288-ci ilin may ayında onlara qarşı çoxsaylı qoşun göndərdi. Qızıl Ordu qüvvələri öz torpaqlarına çəkildilər. Lakin 2 ildən sonra 1290-cı ilin yazında Qızıl Ordu qoşunu yenidən hücuma keçib Şabranı tutdu. Buna cavab olaraq Arqun xan öz hərbi qüvvələri ilə 1290-cı il aprelin 29-da düşməni Dərbənd yaxınlığında sarsıdıcı məğlubiyyətə uğratdı.

Arqun xanın ölümündən sonra oğlu Keyxatu xanın zamanında (1291-1295) Elxanilər dövləti ilə Qızıl Ordu arasında toqquşmalara müvəqqəti ara verildi. Bu dövrdə Qızıl Orduda feodal çəkişmələrinin güclənməsi onun Qafqazda fəallığını zəiflətdi. XIII əsrin sonunda Qızıl Ordu hökmdarları Dərbənd və Dəryal keçidlərini qorumaq üçün çoxsaylı hərbi qüvvə saxlamağa qadir deyildi. Bundan istifadə edən Elxanilər Dərbənddə və Cənubi Dağıstanda möhkəmləndilər. Qızıl Ordu hökmdarı Toxta xan Noqayla mübarizə apardığı üçün Dağıstanın və Çeçenistanın yerli feodal hakimlərinə də müəyyən güzəştə getməyə məcbur olmuşdu.

XIII əsrin sonu – XIV əsrin əvvəllərində Elxanilər dövlətinin başçısı ***Qazan xan*** (1295-1304) ölkə daxilində vəziyyəti nizama salmaq üçün tədbirlər gördüyündən Şimali Qafqazda yeni hərbi əməliyyatlara başlamadı. Qazan xanın qardaşı Olcaytu xanın (müsəlmanlığı qəbul etdikdən sonra Məhəmməd Xudabəndə adlanırdı – Q.Ə.) hakimiyyəti dövründə (1304-1316) də Elxani-Qızıl Ordu münasibətlərində ciddi bir dəyişiklik olmadı.





Olcaytu xanın ölümündən sonra 12 yaşlı oğlu ***Əbu Səidin*** (1316-1335) taxta çıxmasından istifadə edən iri feodallar və şahzadələr mərkəzi hakimiyyətə qarşı çıxmağa, müstəqilliyə can atmağa başladılar. Elxanilər dövlətində daxili siyasi vəziyyətin kəskinləşməsindən istifadə edən Qızıl Ordu hökmdarı ***Özbək xan*** (1312-1340) 1318-ci ilin qışında böyük ordu ilə Dərbəndi ələ keçirib Arrana soxuldu. Əbu Səid böyük qoşunla Qarabağdan irəliləyərək Kür çayı sahilində düşmənin qarşısını kəsdi. Başqa bir Elxani qoşunu Əmir Çobanın başçılığı ilə ona köməyə gəldi. Düşmən geri oturduldu.

Daha sonra isə Əbu Səidin qoşunu Dərbənd keçidindən, Əmir Çobanın qoşunu isə Dəryal keçidindən hücum edərək Şimali Qafqazın mərkəzi hissəsini, Terek sahillərinə qədər ərazini ələ keçirib qarət etdilər. 1324/25-ci ildə Elxanilər yenidən hücum edib Terek sahillərinə qədər irəlilədilər. Bu döyüşlərdə zəifləyən Qızıl Ordu hakimiyyətinə qarşı Şimali Qafqazda üsyanlar baş verdi. Mənbələr 1327-ci ildə Terek sahilində böyük üsyan olması, Özbək xanın adıqlar (çərkəzlər) üzərinə bir neçə dəfə yürüş etməsi haqqında məlumat vermişlər.

XIV əsrin 20-ci illərinin ikinci yarısında Əmir Çobanın öldürülməsindən sonra Elxanilər dövlətində feodal hakimləri arasında çəkişmələr yenidən qızışdı. Özbək xan bu vəziyyəti özü üçün əlverişli sayaraq ***1335-ci ilin ortalarında*** Qafqazın cənubuna yürüş etdi. Əbu Səid bu hücum haqqında vaxtında xəbər tutduğu üçün böyük qoşunla Ağsuya doğru hərəkət etdi. Lakin burada öz arvadı Bağdad xatun tərəfindən zəhərlənərək öldürüldü. Hülakular taxt-tacına Çingiz xanın di-

gər oğlu Tuli xanın nəslindən olan Arpa xan yiyələndi. O, 45 gün Özbək xanın ordusu ilə qarşı-qarşıya durdu və onu geri çəkilməyə məcbur etdi.

Daxili ixtişaşların və hakimiyyət uğrunda varislərin qanlı toqquşmalarının gücləndiyi bir şəraitdə hakimiyyətə gələn Arpa xanın öz mövqeyini möhkəmləndirmək üçün bütün cəhdləri və hətta Qızıl Ordu qoşunları üzərindəki qələbəsi nəticəsiz oldu. 1336-cı ildə o, taxtdan salındı və öldürüldü.

Qafqaz uğrunda Elxanilər dövləti ilə Qızıl Ordu arasında uzun sürən bu qanlı müharibələr monqolların hər iki dövlətini zəiflətdi və tənəzzülünə səbəb oldu. Hərbi əməliyyatlar əsasən Qafqazın şərq hissəsində, Xəzərboyu vilayətlərdə baş verdiyi üçün, onun nəticələri xüsusən Azərbaycan və Dağıstan üçün daha ağır idi. Yürüşlər zamanı şəhər və kəndlər dağıdılır, əkin yerləri məhv edilir, yerli əhali hədsiz məhrumiyyətlərə məruz qalırdı.

**Monqol ağalığına son qoyulması.** Əbu Səidin ölümü ilə onun varisləri arasında XIV əsrin 30-cu illərində başlanmış qanlı toqquşmalar Elxani dövlətinin qüdrətini tamam sarsıtdı və onun ayrı-ayrı hissələrə parçalanmasına gətirib çıxardı.

Bir sıra tədqiqatçılar bu faktı Qafqazda monqol ağalığının başa çatması kimi qiymətləndirmişlər. Azərbaycan tarixçisi Sara Aşurbəyli də Əbu Səidin ölümündən sonra Elxanilər dövlətinin kiçik feodallıqlara parçalandığını və Şirvanşahlar dövlətinin faktiki müstəqillik qazandığını göstərmişdir. Lakin bu iddialar yalnız qismən doğrudur.

Gürcüstanda şahlıq etmək üçün yarlıq almış ***V Georgi*** (1318-1346) Elxani dövlətinin baş vəziri ilə dostluğundan istifadə edərək öz hakimiyyətini bütün Gürcüstana yaymağa çalışırdı. O, ilk növbədə mərkəzi hakimiyyətə tabe olmayan iri feodalları – ***mtavarları*** aradan götürdü, 1327-ci ildə İmereti şahlığını, 1334-cü ildə Samsxe knyazlığını öz torpaqlarına birləşdirdi. 30-cu illərin ortalarında Elxani taxt-tacı uğrunda ara müharibələri monqolların Gürcüstana təsirini





kəskin surətdə zəiflətdi və V Georgi müstəqil siyasət yürütməyə başladı. **1335/1336-cı ildən** Şirvanda şah Qubadın əmri ilə yenidən sikkə kəsilməsinə başlanmışdı. Bu dövrdə Şirvanşahlar müstəqil siyasət yeridirdi.

Azərbaycanın qalan hissəsində və müasir Ermənistan ərazisində isə Əmir Çobanın nəvəsi ***Şeyx Həsən Kiçik*** ara müharibələrində rəqiblərinə qalib gələrək **1338-ci ildə** Elxanilər dövlətini bərpa etdi. Faktik hakimiyyət isə ***Çobanilərə:*** Şeyx Həsən Kiçiyə (1338-1343), onun ölümündən sonar isə qardaşı ***Məlik Əşrəfə*** (1344-1357) keçdi. Bununla belə, Çobanilər padşah elan etdikləri Elxani hökmdarları (Satibəy xatun, Süleyman xan, Ənuşirəvan Adil) üzərində tam nəzarətə malik olsalar da, orta əsrlərin hakimiyyət simvolları: sikkə zərbi, xütbə oxunması və fərmanların verilməsi Hülaku nəslinin əlində qalmaqda idi. Çobanilər dövlətin idarəsini tamamilə öz əllərində cəmləşdirsələr də, hüquqi cəhətdən Elxanilər dövlətinin baş əmiri sayılmaqdaydılar.

Məlik Əşrəf qəddar və zalım idi, var-dövlət toplamaq üçün hər cür zorakılığa və özbaşınalığa əl atırdı. Ona görə də, XIV əsrin 50-ci illərində əhali içərisində Çobanilərin hakimiyyətinə qarşı narazılıq daha da gücləndi. Məlik Əşrəfin zülmündən cana doymuş yerli əhali Qızıl Ordu hökmdarı ***Canıbəyin*** yanına şikayətçilər göndərdi. Azərbaycanı və bütün Cənubi Qafqazı tutmaq üçün əlverişli şərait yetişdiyini güman edən Canıbəy ordu toplayıb **1357-ci ildə** yürüşə başladı. Qızıl Ordunun və Şirvanşah Kavusun güclü orduları Təbrizi ələ keçirdi. Məlik Əşrəf, əsgərləri ondan üz döndərdiyi üçün, Xoy şəhərinə qaçmaq istəyərkən ələ keçirildi və öldürüldü. Mənbələrdə bu hadisədən sonra Ənuşirəvan Adilin də öldüyü göstərilir.

Beləliklə, Qafqazın cənub hissəsinin Qızıl Ordu tərəfindən **1357-ci ildə** zəbt edilməsi ilə ***Elxanilər dövləti tamamilə məhv oldu.*** Canıbəy oğlu Bərdi bəyi Təbrizdə bölgəni idarə etmək üçün hakim qoyub geri döndü. Lakin Bərdi bəyin ha-

kimiyyəti cəmi iki ay çəkdi. Atasının xəstələnməsi xəbərini alan Bərdi bəy tələsik Qızıl Orduya yola düşdü. Yaranmış vəziyyətdən istifadə edən yerli feodallar hakimiyyəti öz əllərinə aldılar. Beləliklə, 1357-ci ildə Qafqazın cənubunda monqol ağalığı qəti surətdə sona çatdı.

Qafqazın şimal hissəsində isə monqol ağalığı **XIV əsrin 80-ci illərinə kimi** davam etmişdi. Bu dövrdə Rus dövləti və Teymurlənglə apardığı ağır mübarizə Qızıl Ordunu zəiflətdi və onun Qafqazda təsirini heçə endirdi.

**Monqol ağalığının nəticələri.** Qafqazın monqollar tərəfindən istilası və yüz ildən çox davam etmiş ağalığı bölgə xalqları üçün çox ağır nəticələr verdi. Artıq yuxarıda qeyd edildiyi kimi, Qafqazın işğalı başa çatdıqdan sonra monqollar əhalini və təsərrüfatları siyahıya alıb hamını ağır vergi və mükəlləfiyyətləri ödəməyə məcbur etmişdilər. Digər tərəfdən isə, yerli əhalidən hər il on minlərlə adam dinc əməkdən ayrılıb hərbi xidmətə cəlb edilirdi. Gürcü salnaməçisi XIII əsrin ikinci yarısında monqolların hər il 90 minə qədər gürcünü öz qoşununa götürdüyünü qeyd etmişdir. Monqol imperiyasının digər yerlərində olduğu kimi, Qafqaz da hərbi dairələrə – *tümənlərə* bölünmüşdü və hər tümən yürüş zamanı 10 min döyüşçü verməli idi.

Monqollar yerli camaata və feodallara məxsus torpaqların çoxunu zorakılıqla ələ keçirib öz otlaqlarına çevirdilər. Hülaku xanın hakimiyyəti dövründə 110 monqol noyonu Muğanda qurultay keçirib Qafqazın işğal olunmuş torpaqlarını öz aralarında bölüşdürdülər. Monqollar öz sürülərini və ilxılarını Kür və Araz çayları boyuna, Muğan və Qarabağ çöllərinə gətirərək, burada əvvəlki yüzilliklərdə təşəkkül tapmış əkinçilik təsərrüfatına və süni suvarma sistemlərinə öldürücü zərbə vurdular.

Ona görə də, monqol ağalığının ilk dövrlərində yerli əhali və feodallar bu əsarətə qarşı mübarizəyə qalxdılar. XIII əsrin 60-cı illərində Gürcüstanda və Azərbaycanda güclü üsyanlar baş verdi. Hülaku xan bu üsyanları yatırmaq üçün böyük ordu göndərməyə məcbur oldu. **1260-cı ildə** Qori yaxınlığında üsyançılar məğlub oldular. Üsyana qoşulmuş gürcü şahı V David monqol xanının hüzuruna gələrək bağışlanmasını xahiş etdi və hakimiyyətini davam etdirmək üçün yarlıq ala bildi. Monqol cəza ordusu Tərtər çayının yuxarı hissəsində baş vermiş üsyanı da qəddarlıqla yatırdı. **1261-ci ildə** Xaçın hakimi Həsən Cəlal digər üsyan iştirakçıları ilə birlikdə öldürüldü. Fəzlullah Rəşidəddinin yazdığına görə, 1275-ci ildə Azərbaycanda yeni üsyan baş vermişdi. Arran əhalisi burada ov edən Abaqa xana hücum etmiş və onun mühafizəçiləri ilə döyüşə girmişdi. Elxani hökmdarı bu üsyançılara qarşı mübarizə aparmaq üçün bölgəyə əlavə qüvvə yeritməyə məcbur olmuşdu.





XIII əsrin 80-90-cı illərində Gürcüstanda monqol ağalığına qarşı yeni çıxışlar baş verdi. Gürcü şahı II Demetre 1288-ci ildə Arqun xana qarşı sui-qəsddə iştirak etdiyi üçün monqol cəza ordusu Gürcüstana yürüş etdi. II Demetre 1289-cu ildə xanın əmri ilə edam edildi. **1297-ci ildə** Demetrenin oğlu David monqollara qarşı yeni üsyan qaldırdı. Bir neçə il davam edən bu üsyanı da monqollar qan içində boğdular.

Monqollar Qafqazda idarəçilik işinə yerli feodal əyanları da cəlb edirdilər. Yerli hökmdarlar, iri feodallar və tacirlər öz mülkiyyət hüquqlarını monqol xanlarından yarlıq almaqla təsdiq etməli olurdular. Məsələn, Gürcüstanda, Şirvanda, Dağıstanda hakim sülalələr hakimiyyətdə qaldılar və buna əsas verən müvafiq yarlıq aldılar.

Elxani hökmdarı ***Qazan xan*** və köçəri monqol əyanlarının əksəriyyəti 1295-ci ildə müsəlmanlığı qəbul etməklə ruhanilərin və yerli feodal əyanların rəğbətini qazandılar. Bundan əlavə Qazan xan **1303-cü ildə** təsərrüfatı və ticarəti dirçəltmək üçün bir sıra islahatlar keçirdi. Əhalidən toplanan vergi və mükəlləfiyyətlər dəqiqləşdirildi, bəziləri isə hət-

ta ləğv edildi. Karvan yollarının bərpa edilməsinə, karvan-saralar tikilməsinə başlandı.

Monqol ağalığı dövründə Qafqazda feodal qaydalarında ciddi bir dəyişiklik baş vermədi. Hülakular dövlətində feodal torpaq sahibliyinin aşağıdakı formaları mövcud idi: 1) xəzinəyə məxsus torpaqlar (divan); 2) Elxana və onun ailə üzvlərinə məxsus torpaqlar (incu), (bilavasitə Elxani hökmdarına məxsus torpaqlar *xass-incu* adlanırdı – Q.Ə.); 3) dini idarələrə məxsus torpaqlar (vəqf); 4) monqol sərkərdələrinə, sahibkarlara məxsus torpaqlar (iqta); 5) icma (camaata məxsus) torpaqları. Monqolların ilk yürüşləri zamanı yerli feodalların bir qismi məhv edilmişdi və torpağın əsas hissəsi divan və incu kateqoriyalarına aid idi. Sonrakı dövrdə yerli feodallar monqol xanlarına itaət edəcəklərini vəd edib öz mülkləri üçün yarlıq ala bildilər. Monqol xanları öz qoşun başçılarına xüsusi mülklər (iqta) bağışlayırdı, onlar da, öz növbəsində, bu torpağı sıravi döyüşçüləri arasında bölüşdürürdülər. İqtanı satmaq və ya bağışlamaq olmazdı və torpaq pis qulluq edildikdə geri alına bilərdi. İqta torpaqları tədricən atadan oğula keçərək irsi mülkə çevrilirdi.

Monqol baskakları əhalidən bir neçə adda vergi toplayırdılar. Başlıca vergi monqol xəzinəsi üçün yığılan *torpaq vergisi (xərac)* idi. Xərac bütün məhsulun 60 faizinə qədərini təşkil edirdi. Hülaku xanın əmri ilə dövlət siyahılarına salınmış hər bir adam *qopçur və tağar* vergilrini verməli idi. Buraya 100 litr buğda, 50 litr şərab, 2 litr düyü, 2 kəndir, 1 gümüş sikkə, ox və nal daxil idi. Hər 20 baş maldan biri də tağar kimi alınırdı. Şəhər sənətkarları və tacirləri isə *tamğa* adlı vergi də ödəməli idilər.

Bunlardan başqa əmirləri, dövlət məmurlarını saxlamaq üçün pul və natura ilə *"ixracat"* adlı vergi də toplanırdı. Kəndlilər poçt xidməti üçün at verməli idilər, özləri isə yol çəkmək, kanalları bərpa etmək, qala və saraylar tikmək üçün məcburi olaraq işə cəlb edilirdilər. Şəhərlərdə və kəndlərdə sənətkarlar, balıqçılar, dəmirçilər və boyaqçılar tamğadan başqa bac və s. vergi və mükəlləfiyyətlər ödəməli idilər.





Monqol basqınları və ağalığının Qafqaza viranedici təsiri Həmdullah Qəzvininin "Nüzhət-ül-qülub" adlı əsərindən götürülmüş aşağıdakı faktlardan aydın görünür. Müəllif "Atabəylər dövründə" – yəni XII əsrdə Azərbaycanda dövlət gəlirinin 25 milyon dinar olduğunu, monqol zülmü nəticəsində XIV əsrin 30-40-cı illərində 2,7 milyon dinara endiyini qeyd etmişdir. Qafqazın digər hissələrində gəlirlərin dəyişməsi aşağıdakı kimi idi: XII yüzillikdə Gürcüstan və Abxazda 5 milyon dinar, "Ərməniyyət əl-Əkbəri"də (Ermə-ni vilayəti – Q.Ə.) 2 milyon dinar olduğu halda, XIV əsrin 30-40-cı illərində müvafiq surətdə 1,2 milyon dinara və 390 min dinara düşmüşdü.

Monqol əsarəti Qafqazda əhalinin sayında və etnik tərkibində də ciddi dəyişikliklərə səbəb oldu. Azərbaycanın ***Beyləqan, Bəcirəvan, Biləsuvar və Qəbələ*** kimi iri sənətkarlıq və ticarət mərkəzləri öz əhəmiyyətini itirdi. Fəzlullah Rəşidəddinin yazdığına görə, Azərbaycanda monqollar və onlarla birlikdə gəlmiş türk tayfaları: qurqan, sukait, kinqit, curat, tanqut, cəlair, uryat, onqut, tamğalıq, tatar, dolon və oyrotlar məskən salmışdılar. Müasir Azərbaycanda eyni adlı yaşayış məntəqələrinin varlığı həmin proseslərin nəticəsidir.

Monqol ağalığı dövründə Gürcüstanda ***Rustavi, Uplisix, Xornabuci*** şəhərləri öz əhəmiyyətini itirdi. Kartlinin əhalisi çox azaldı, əksinə Gürcüstanın cənub hissəsi – Samsxedə əhali artdı. Gürcülərin Qara dəniz sahili boyuna, dağlıq ərazilərə köçməsi prosesi gücləndi.

Ermənistanın ən böyük ticarət mərkəzi ***Ani*** də tənəzzülə uğradı və əhəmiyyətsiz bir kəndə çevrildi. Erməni tacirləri və sənətkarlarının Krıma, Valaxiyaya, Ukraynaya, Hindistana köçməsi yenidən kütləvi şəkil aldı.

Monqol ağalığının Şimali Qafqazdakı etno-siyasi proseslərə təsiri daha güclü idi. Monqol hücumları ilə əlaqədar,

qıpçaqların bir hissəsi Mərkəzi Qafqazda dağların arasında məskunlaşdı. Onlar burada daha əvvəlki dövrlərdən yaşayan bulqarlar və digər türk tayfaları ilə qaynayıb-qarışaraq ***qaraçaylı və balkar*** xalqlarının formalaşmasına səbəb oldular. Qıpçaqların başqa bir hissəsi Terek çayının aşağı axarı boyunda – Dağıstanda məskunlaşaraq, Xəzər xaqanlığı dövründən burada yaşayan bulqar, sabir, xəzər və başqa türk tayfaları ilə birlikdə ***qumuq*** xalqının formalaşmasında fəal iştirak etdilər.

Şimali Qafqazın digər xalqlarının: alanların, adıqların, vaynaxların, avarların, ləzgilərin və başqalarının yüzlərlə yaşayış məskəni dağıdıldı, əhalisi sıx olan əkinçilik rayonları boşaldı, otlaqlara çevrildi. Alanların bir qismi məhv edildi, başqa bir qismi Monqolustana aparılaraq hərbi yürüşlərə göndərildi, üçüncü bir hissə isə Mərkəzi Qafqaza çəkilərək, oradan da Dəryal keçidi ilə Gürcüstana – Böyük Qafqaz dağlarının cənub ətəklərinə köçməyə başladılar. Osetin xalqı da bu ərazilərdə formalaşmağa başlanmışdı. Adıqlar və abazinlər isə Şimal-qərbi Qafqaza – Kuban çayının yuxarı axarı boyuna köçməyə başlamışdılar.

Bir sıra kiçik xalqlar və tayfalar çətin keçilən dağ vadilərində məskunlaşaraq, əslində ətraf aləmdən təcrid olundular. Bu da onların sonrakı sosial-iqtisadi və mədəni inkişafını xeyli ləngitdi.

Bütün bunlarla bərabər, Qafqazın Böyük Monqol imperiyasına qatılması, bölgə xalqlarının imperiyaya tabe olan çox böyük ərazidə yaşayan xalqlarla iqtisadi və mədəni əlaqələr saxlamasına imkan yaratdı. 1286-cı ildə Təbrizdən keçib getmiş Venesiyalı səyyah Marko Polo bu şəhərdə böyük həcmdə ipək parça istehsalından, bazarlarında mirvari və qiymətli daşlar satılmasından bəhs etmişdir. Təbriz, sonra da Sultaniyyə təkcə Elxanilərin paytaxtı olduqlarına görə deyil, həm də mühüm karvan yollarının üzərində yerləşən ticarət mərkəzləri kimi böyük əhəmiyyətə malik idilər.





O dövrün mənbələrinə görə, təkcə 1340-cı ildə Təbrizdən 1,15 milyon dinar tamğa toplanmışdı. Rus tədqiqatçısı V.V.Bartoldun hesablamalarına görə, o zamankı rəsmi məzənnə ilə 1 dinar 13,8 q gümüşə bərabər idi ki, bu halda Təbrizin gəliri 3,5 milyon Fransa frankı həcmində idi. Müqayisə üçün belə bir faktı qeyd etmək maraqlıdır ki, 1311-ci ildə bütövlükdə Fransanın illik gəliri 3 milyon franka çatmışdı.

Monqol hökmdarları iri tacirləri himayə edir, çox vaxt ayrı-ayrı əyalətlərdən vergi toplanmasını əlverişli şərtlərlə onlara tapşırırdılar. Asiyanın içərilərindən gəlib Avropaya gedən karvanların çoxu Qafqazdan keçirdi. Təbriz-Naxçıvan-Ərzurum-Trabzon, Feodosiya-Anapa-Gelencik, Sultaniyyə-Xorasan-Mərkəzi Asiya-Çin, Təbriz-Gəncə-Şamaxı-Dərbənd-Şimali Qafqaz və s. ticarət yolları Çindən, Hindistandan, Mərkəzi Asiyadan Avropaya və əksinə ən müxtəlif malların daşınmasına imkan yaradırdı. Qara dəniz və Azov dənizi limanlarında məskən salan Venesiya və Genuya tacirləri bu ticarətdə fəal iştirak edirdilər.

Bütün bunlar belə bir nəticə çıxarmağa imkan verir ki, monqol işğalları və əsarəti dövrü Qafqaz xalqlarının tarixində mühüm bir mərhələni təşkil etmiş, sosial-iqtisadi münasibətlərdə və bölgənin etnik simasında ciddi dəyişikliklərə gətirib çıxarmışdı.

## Qafqaz XIV əsrin II yarısı - XV əsrdə

**Müstəqil dövlətlərin yaranması.** Qafqazın cənubunda XIV əsrin 50-ci illərində monqol ağalığına son qoyulduqdan sonra müstəqil dövlətlər yarandı. Gürcü və Şirvan hökmdarları hələ XIV əsrin 30-cu illərindən müstəqil siyasət yeridirdilər. Onları tabe etmək üçün Çobanilərin cəhdləri ciddi nəticə vermədi.

Qızıl Ordu qüvvələri Cənubi Qafqazdan çəkildikdən dərhal sonra regionda feodal çəkişmələri başlandı. Bundan yararlanan Ərəb İraqının hökmdarı *Şeyx Uveys Cəlairi* **1358-ci ildə** öz hakimiyyətini Qafqaza yaymağa girişdi. Artıq 50-ci illərin sonlarında Cənubi Qafqazın böyük bir hissəsi Cəlairilərin hakimiyyəti altına düşdü. Cəlairilərin ağalığı fasilələrlə 1410-cu ilə kimi davam etdi. Lakin yerli hökmdarlar bu dövrdə öz hakimiyyətlərini əsasən qoruyub saxlaya bildilər. Hətta 1364-cü ildə Şirvanşah Kavus üsyan qaldırıb Cəlairilərin tabeliyindən tamamilə azad ola bilmişdi. Yalnız 1369-cu ildə Uveys Şirvanı yenidən özünə tabe edib, xərac verməyə məcbur etdi.

Şimali Qafqazda isə Qızıl Ordunun hakimiyyəti XIV əsrin 70-ci illərində kəskin şəkildə zəifləmişdi. Moskva knyazı Dmitrinin başçılığı ilə rusların 1380-ci ildə Kulikovo döyüşündə Qızıl Ordu hökmdarı Mamay xanın ordusunu ağır məğlubiyyətə uğratmasından sonra Şimali Qafqazın feodal hakimlərinin müstəqillik meylləri gücləndi. Dağıstanın şimalında qumuqların yaşadığı bölgədə şamxallıq gücləndi. Cənubi Dağıstanda isə Tabasaran hakimi və Qaraqaytaq usmisi mühüm rol oynamağa başlamışdılar. Avarların sıx yaşadığı Xunzaxda onların hakimi – nutsal nüfuzlu feodal hakimə çevrilmişdi.

**Toxtamış xanın və Əmir Teymurun yürüşləri.** 1382-ci ildə Əmir Teymurun yardımı ilə Qızıl Orduda hakimiyyəti ələ keçirən Toxtamış xan bu nəhəng dövlətin parçalanmasının qarşısını yalnız müvəqqəti dayandıra bildi. O, qısa müddət ərzində Qızıl Ordunun keçmiş qüdrətini bərpa etdi, **1385-ci ildə** isə Şimali Qafqazı yenidən öz təsiri altına aldı. Daha sonra 100 minlik ordu ilə Cənubi Qafqaza böyük yürüşə başladı. Bu hücum zamanı Azərbaycan şəhərləri amansızlıqla qarət edildi. 1386-cı ilin əvvəllərində isə Mərkəzi Asiyadan Əmir Teymurun yürüşə başlaması ilə əlaqədar Toxtamış xan tələsik Volqaboyuna döndü.





Teymurun ordusu **1386-cı ildə** Cəlairilərin hakimiyyəti altında olan bütün yerləri işğal etməyə başladı. Tezliklə Cəlairilərin paytaxtı Təbriz və Qarsa qədər ərazilər Əmir Teymurun nəzarətinə keçdi. Yürüş gedişində Sünik vilayətində Tatev monastırı da ələ keçirildi və bu zaman baş verən yanğında oradakı nadir əlyazmalar məhv oldu. Şirvanşah I İbrahim də Teymura itaət etdiyini bildirdi.

**1387-ci ildə** Teymurun hərbi qüvvələri Vana yürüş etdi. Məqsədi orada yeni yaranmış Baharlı feodal hakimliyini məhv etmək, Baharlı tayfalarını həmin yerlərdən qovmaq idi. Teymurun ordusunun yerli türk, kürd və erməni əhalisinə qarşı qəddarlıqla divan tutması müqavimət hərəkatını gücləndirdi. Baharlı hakimi Qara Məhəmməd ***Çapaqçur döyüşündə*** düşmənin bir qoşun bölüyünü məğlubiyyətə uğratdı.

Həmin vaxt Teymur özü əsas qüvvələri ilə Gürcüstana hərəkət etmişdi. Bu ölkəni tabe etmək üçün ilk böyük yürüş **1387-ci ildə** oldu. Gürcü hökmdarı ***V Baqrat*** (1360-1395) müqavimət göstərməyə cəhd etdi. Lakin Teymurun ordusu asanlıqla paytaxt şəhəri Tiflisi tuta bildi. Gürcü hökmdarını və arvadını əsir aldı. V Baqrata İslam dinini qəbul etdirdi. Yalnız bundan sonra o, Teymurun vassalı şəklində Gürcüstanda hakimiyyətdə qala bildi. Ona 12 minlik hərbi qüvvə verildi. Lakin Teymurun əsas qüvvələri çəkildikdən sonra V Baqrat dağlarda gizlənən oğlu Georgi ilə əlaqə yaratdı. Onun məsləhəti ilə Georgi öz dəstəsi ilə Tiflisə qəfil hücum etdi. Şəhərdəki müsəlman qarnizonunun canlı qüvvəsini məhv etdi, atları isə özü ilə apardı.

1387-ci ildə Teymurun ordusu Naxçıvanda *Əlincə qalasını* mühasirəyə aldı. Cəlairi xəzinəsinin saxlandığı bu qalanın müdafiəçiləri teymurilərə ciddi müqavimət göstərdilər. Əlincə qalasının müdafiəçilərinin təslim olmaqdan boyun qaçırıb inadla mübarizə aparmalarına qonşu bölgələrin əhalisinin, o cümlədən Şəki hakimi Seyid Əlinin, Şirvanşah I İbrahimin, gürcü hökmdarı VII Georginin fəal yardımı da kö-

mək edirdi. Teymurilərin əsarətinə qarşı mübarizənin önündə gedən ***Hürufilik hərəkatının*** nümayəndələri Əlincənin müdafiəçiləri ilə çiyin-çiyinə mübarizə aparırdılar. Əlincə qalasının qəhrəmancasına müdafiəsi qısa fasilələrlə 1399-cu ilə kimi davam etdi.

1388-ci ildə Mərkəzi Asiyada baş verən böyük üsyanla bağlı Əmir Teymur Cənubi Qafqazı tələsik tərk etməli oldu. O, bütün regionun idarəsini, Əlincə qalasının tutulmasını oğlu Miranşaha tapşırdı. Lakin onun yerli əhaliyə qarşı qəddar siyasəti həmin dövrdə teymurilərin ağalığına qarşı ümumxalq nifrətini artırdı.

Əmir Teymur 90-cı illərin əvvəllərində yenidən Qafqaza döndü. O, Şimali Qazqazı fəth etmək üçün **1395-ci ildə** Dərbənd və Dəryal keçidlərindən böyük yürüşə başladı. Dağıstanda Qaytaq əhalisi Teymurun qoşununa qarşı ciddi müqavimət göstərdi. Lakin düşmənin üstün qüvvələrinin təzyiqi altında dağlara çəkildi.

Həmin il ***Terek çayı sahilində baş verən döyüşdə*** Toxtamış xanın əsas qüvvələrini məğlubiyyətə uğratdı. Daha sonra Teymurun qoşunları Şimali Qafqazın dağlıq bölgələrinə qədər irəlilədi, Azak (Azov) qalasınadək bütün ərazini özünə tabe etdi.

1396-cı ildə Teymurun ordusu Volqaboyuna hücumu uğurla başa vurub, Qızıl Ordunun əsas həyat mərkəzlərini dağıtdıqdan sonra yenidən Şimali Qafqaza döndü. Dağıstanın dağlıq hissəsində müstəqilliklərini qorumağa çalışan feodal hakimlərini itaət altına aldı. Qafqazın məşhur zireh və silah düzəldən ustalarının yaşadığı Kubaçı da tabe edildi. Dağıstanın ən nüfuzlu feodal hakimi – valisi olan ***Tarku şamxalı*** Teymurun vassalı oldu.

Əmir Teymurun Şimali Qafqazın çətin keçilən dağlıq bölgələrinə qədər irəliləyib qaraçaylıları və balkarları itaət altına alması çox böyük hərbi uğur idi. Onun bu uğurunu yalnız XIX əsrin ortalarında rus işğalçıları təkrar edə bildilər.





Əmir Teymurun Şimali Qafqazda möhkəmlənməsi monqol ağalığı dövründə Qara dəniz sahillərində Genuya tacirlərinin yaratdıqları dayaq məntəqələrinə, xüsusilə ***Kafəyə*** ağır zərbə oldu. Bu addım Qafqazda katolik missionerlərinin fəaliyyətini genişləndirməsinin qarşısını aldı, xristianlığın regionun içərilərinə yayılmasına imkan vermədi.

Genuyalılar XIII əsrin sonundan Qara dənizin Qafqaz sahillərində koloniyalar yaratmağa başlamışdılar. Onların ən böyük koloniyaları *Matreqa* (Tmutarakan şəhərinin yerində salınmışdı – Q.Ə.) və *Mapa* (Anapa) idi. Zirək italyan tacirləri buradan adıq tayfaları ilə əlaqə saxlayır, onların ərazisindən keçməklə Zelençuka, Qaraçaya çatır, oradan da Terek çayı boyunca Xəzər sahillərinə hərəkət edir və Cənubi Qafqaz, İran və Mərkəzi Asiya xalqları ilə qızğın alver edirdilər. Genuya tacirləri Adıgeydən başlıca olaraq qul, Cənubi Qafqazdan isə ipək alıb aparırdılar. Genuyalılar Roma papasının himayəsi altında regionda həm də missionerlik fəaliyyəti ilə məşğul olur, katolikliyi yayırdılar.

XIV əsrin əvvəllərində Qızıl Ordu hökmdarı Özbək xanın İslamı rəsmən qəbul etməsindən sonra Qafqazın dağətəyi və dağlıq bölgələrində müsəlmanlığın yayılması geniş miqyas aldı. Ərəb səyyahı ibn Bəttutə 1334-cü ildə bu regionda olarkən dağlıq bölgələrdə iri məscidlər inşa edildiyini yazmışdır. XIV əsrin sonunda Teymurun Şimali Qafqaza yürüşündən sonra yerli xalqlar içərisində İslam dininin mövqeyi qəti şəkildə möhkəmləndi.

Əmir Teymur Hindistan səfərini başa vurduqdan sonra **1399-cu ildə** yenidən Gürcüstana yürüş etdi. Bu yürüşün bir səbəbi Tiflisdə öldürülmüş əsgərlərinin intiqamını almaq, digər səbəbi isə gürcü-erməni hərbi qüvvələrinin Əmir Teymurun tabeliyində olan yerlərə basqınlarının qarşısını almaq idi. Ona görə də, tarixçi Nizaməddin Şami Teymurun Gürcüstana qarşı qəzavata başladığını yazmışdır.

Teymur öncə Şəki hakimliyinə qoşun yeritdi. Lakin I İbrahimin vasitəçiliyi ilə Teymur Şəki hakimliyinə toxunmadı və Əlincə qalasının müdafiəsi zamanı həlak olmuş Seydi Əlinin oğlu Seydi Əhmədi hakim qoydu. O, buradan gürcü hökmdarı VII Georgiyə (1395-1407) elçilik göndərib itaət göstərməsini tələb etdi. Lakin gürcü hökmdarı elçilərə qaba cavab verdiyi üçün Tiflisə yürüş qətiləşdi. VII Georgi məğlub olub Svaneti meşələrində gizləndi. Teymurun ordusu onu təqib edərək Svanetiyə daxil oldu. Gürcü çarı oradan da Abxaz knyazlığına qaçdı. Əmir Teymur çoxlu qənimətlə Gürcüstanı tərk etdi.

**1402-ci ildə** Anadolu səfərindən qayıdan Əmir Teymur yenidən Gürcüstana yürüş etdi. Bu yürüş zamanı Teymurun ordusu gürcü xəzinəsinin saxlandığı *Berd qalasını* tutdu. Yalnız bundan sonra VII Georgi Teymurun hüzuruna gəlib tabe oldu, xərac və cizyə ödəməyi öhdəsinə götürdü. Gürcü hökmdarının Teymurla münasibətlərinin qaydaya salınmasında Şirvanşah I İbrahim mühüm rol oynadı. Barışıq şərti kimi gürcü xəzinəsinin ən qiymətli inciləri olan "Tənha" və "Yeganə" adlandırılan çox keyfiyyətli və böyük brilliant parçaları Teymura hədiyyə edildi.

XIV əsrin sonu – XV əsrin əvvəllərində Teymurun Cənubi Qafqaza, xüsusilə də Gürcüstana yürüşləri regionun təsərrüfatına və mədəniyyətinə ağır zərbə vurdu.

**Teymurilərin ağalığına son qoyulması.** Bu dövr hadisələrində fəal rol oynayan Şirvanşah I İbrahim Əmir Teymurla dostluq münasibətlərini saxlamaqla yanaşı, öz təsirini "Aran Qarabağa" və Şəki hakimliyinə yaymağa çalışırdı. Onun bu cəhdləri 1405-ci ildə Teymurun ölümündən sonra daha da güclәndi. Nəticədə Qafqazda hökmranlıq edən Miranşahla açıq toqquşma qaçılmaz oldu. Teymurilərə qarşı mübarizəyə Şirvanşah I İbrahim başçılıq edirdi. Onun ətrafına yığışan Kaxeti hökmdarı Konstantinin, Ərdəbil, Şəki və Gəncə hakimlərinin birləşmiş qüvvələri **1405-ci ilin yayında** ***Kür sahilində*** bir həftə davam edən döyüşdə Miranşahın oğlu Ömərin qoşununu məğlub etdilər. Gürcüstanda, Şirvanda və Şəkidə teymurilərin ağalığına son qoyuldu.





Bu zaman Miranşahın digər oğlu Əbubəkr Cənubi Azərbaycanda şəhərləri qarət edir, əhalini soyub talayırdı. Onun Təbriz əhalisindən 100 min qızıl dinar əlavə vergi tələb etməsi böyük narazılığa səbəb oldu. Təbriz əhalisi üsyan qaldırıb teymuriləri şəhərdən qovdu və Şirvanşah I İbrahimdən yardım istədi. Şirvan hökmdarı 1406-cı ilin yazında Təbrizə gələrək hakimiyyəti ələ aldı və bütün regionda qayda-qanun yaratdı. Bu zaman bütün Azərbaycanın qısa müddətə də olsa vahid dövlətdə birləşdirilməsi baş verdi.

Lakin iki ay sonra Sultan Əhməd Cəlairinin Təbrizə yaxınlaşması ilə əlaqədar I İbrahim Şirvana döndü. Təbriz və bütövlükdə Cənubi Qafqaz uğrunda Sultan Əhməd və müttəfiqi Baharlı Qara Yusif ilə teymuri Miranşah və oğlanları arasında mübarizə başlandı. 1406-cı ilin payızında Naxçıvan yaxınlığında Araz çayı sahilində Qara Yusif Əbubəkrin qüvvələrini məğlub edib onu Sultaniyyəyə qədər təqib etdi.

Teymurilər qüvvələrini yenidən toplayıb Təbriz üzərinə hücum etdilər. **1408-ci il aprelin 21-də** Təbriz yaxınlığında ***Sərdrud adlı yerdə baş verən döyüşdə*** 20 minlik Baharlı qoşunu teymuriləri məğlub etdi. Miranşah öldürüldü. Teymurilər Qafqazdan qovuldu.

Cənubi Qafqazın çox hissəsində Cəlairilərin hakimiyyəti bərpa edildi. Lakin **1410-cu ildə** Cəlairi hökmdarı Sultan Əhmədlə müttəfiqi Baharlı Qara Yusif arasında mübarizə başladı. Həmin il **avqustun 30-da** Təbriz yaxınlığında ***Şənbi Qazan adlı yerdə baş verən döyüşdə*** Baharlılar qalib gəldilər. Sultan Əhməd öldürüldü, Kürdən cənubdakı ərazilər Qara Yusifin nəzarətinə keçdi. Bununla Azərbaycanda və Qafqazın cənub-qərb bölgələrində yeni sülalənin – Qara

Yusifin mənsub olduğu ***Baharlı sülaləsinin*** hakimiyyəti başlandı (1410-1468).

Şirvanşah I İbrahim 1407-ci ildə gürcü çarı VII Georgini döyüşdə məğlub edib öldürdü, öz hakimiyyətini Cənub-şərqi Gürcüstana yaya bildi. Onun regionda öz mövqeyini möhkəmləndirməsi Qara Yusiflə açıq toqquşmaya gətirib çıxardı. **1412-ci ilin noyabr ayında *Kür çayı sahilində*** onlar arasında qanlı döyüş oldu. Döyüş gedişində Qara Yusifin qoşunu I İbrahimin və müttəfiqi gürcü şahı II Konstantinin hərbi qüvvələrini məğlubiyyətə uğratdı. I İbrahim, oğlanları, sərkərdələri, həmçinin II Konstantin və çoxlu sayda gürcü əyanı əsir alındı.

Əsirlər Təbrizə aparıldı. Gürcü çarı və 300 aznaur dərhal edam edildilər. Təbriz sənətkarları və tacirlərinin nümayəndələrinin xahişi ilə I İbrahim azad edildi. Əvəzində təbrizlilər Qara Yusifin xəzinəsinə 1200 tümən dəyərində qızıl-gümüş ödədilər. I İbrahim Qara Yusifin ali hakimiyyətini qəbul etmək şərti ilə Şirvana qayıtdı.

**Gürcüstanın parçalanması.** Gürcüstanda isə taxta I Aleksandr (1412-1443) çıxdı. O, Qara Yusiflə əlaqələri qaydaya saldı. Gürcü dövlətinə kənar hücumların qarşısını aldı, ölkədə sabitliyə nail oldu. Onun hakimiyyəti dövründə Lori Gürcüstana birləşdirildi. I Aleksandr Teymurun hücumları nəticəsində dağılmış ölkə təsərrüfatını bərpa etməyə girişdi. Gürcü çarı bərpa işlərini sürətlə aparmaq üçün 1425-ci ildə yeni vergi – *"mali"* tətbiq etdi. Bu vergi hər evdən 40 tetri (gümüş pul) həcmində toplanırdı. Lakin 1440-cı ildə daxili vəziyyətin gərginləşməsi ilə əlaqədar mali toplanması dayandırıldı.

I Aleksandr mərkəzi hakimiyyəti gücləndirmək üçün cəsarətli addımlar atdı. Kilsənin təsərrüfat və təşkilati işlərini nizama salmaq üçün tədbirlər gördü. Kilsəni dövləti möhkəmləndirən faktora çevirmək üçün cəhd etdi. O, məqsədinə çatmaq üçün iri feodallara – *eristavlara* və aznaurlara qarşı





da amansız mübarizəyə başladı. Lakin iri feodallarla mübarizədə məğlub oldu. Çünki sərbəstliyinin məhdudlaşdırılmasından narazı qalmış kilsə xadimləri də aznaurları müdafiə edirdilər. I Aleksandr 1443-cü ildə taxt-tacdan məhrum edilib monastıra göndərildi.

Bu hadisə Gürcüstanın birliyinə böyük zərbə vurdu, siyasi parçalanma açıq şəkil aldı. Samsxeti və Abxaz-İmereti knyazları – *mtavarları* Gürcüstandan ayrıldılar. Samsxeti mtavarı daha irəli gedərək, öz irsi malikanəsindəki kilsəni də Gürcüstan katolikosluğunun tabeliyindən çıxardı. Samsxetidə hakimiyyət bütünlüklə Çakeli nəslindən olan knyazların əlində cəmləşdi. Daha sonra Abxaziya, Quriya və Meqreli feodal əyanları birləşib ***Sabediano*** adlı qurum yaratdılar. Bu feodal birliyi Qafqazın Qara dəniz sahili boyundakı ticarət yollarını nəzarətə aldı və Cənubi Qafqazın içərilərinə doğru ticarət əlaqələrində vasitəçi rolu oynamağa başladı.

XV əsrin ikinsi yarısında Abxaziyada ***Çaçba (Şervaşidze)*** nəsli hakimiyyətə gəldi və tam müstəqil siyasət yürütməyə başladı. XV əsrin sonunda Gürcüstanda siyasi dağınıqlıq daha da gücləndi. Müstəqil Kartli, Kaxeti, İmereti şahlıqları yarandı. Bu şahlıqlara ***Baqrationilər*** nəslinin nümayəndələri başçılıq edirdilər. Kartli, Kaxeti, İmereti hökmdarları öz hakimiyyətlərini bütün Gürcüstana yaymaq üçün bir-biri ilə savaşırdılar. Bu da feodal ara müharibələri doğurur və Gürcüstanın ümumi inkişafına mənfi təsir edirdi.

Gürcü feodal əyanları və kilsə xadimləri 1453-cü ildə Bizansın süqutunu çox narahatlıqla qarşıladılar. Bu zamandan gürcü feodal hakimləri Qərbi Avropa dövlətləri və Moskva knyazlığı ilə əlaqələr yaratmağa, müsəlman dövlətlərinin təzyiqinə qarşı onlardan yardım almağa cəhdlər etdilər. 1460-cı ildə Gürcüstandan Romaya və Fransaya xüsusi səfirliklər göndərildi. Osmanlı dövlətinə birgə zərbə vurmaq üçün danışıqlar aparıldı. Lakin həmin cəhdlər nəticəsiz oldu.

1490-ci ildə Kaxeti hökmdarı Aleksandr (1476-1511) Moskva knyazı III İvanın yanına xüsusi elçilik göndərməklə Gürcüstan-Rusiya əlaqələrinin yaradılması istiqamətində ilk addım atdı.

**Azərbaycanın Baharlı və Bayandur sülalələrinin Cənubi Qafqaz uğrunda mübarizəsi.** Baharlı Qara Yusifin bütün Cənubi Qafqazı nəzarəti altına almasına Teymuri hökmdarı Şahrux qarşı çıxdı. 1420-ci ildə Şahruxun 200 minlik ordu ilə hücuma başlaması xəbərini alan Qara Yusif 50 minlik ordu ilə ona qarşı hərəkət etdi. Lakin hələ yolda ikən xəstələnib öldü, qoşun başsız qaldığı üçün dağıldı. Şahruxun ordusu müqavimətə rast gəlmədən Qarabağa daxil oldu. Şirvanşah I Xəlilullah onunla görüşüb hərbi ittifaq bağladı.

Qara Yusifin oğlu Qara İsgəndər Baharlı hərbi dəstələrini toplayıb **1421-ci ildə** ***Alaşkert vadisində*** Şahruxun üstün qüvvələri ilə döyüşə girdi. Üç gün davam edən vuruşmada Qara İsgəndərin qoşunu məğlub oldu. XV əsrin 20-30-cu illərində Baharlı sülaləsi Cənubi Qafqazda möhkəmlənmək uğrunda Teymurilərlə dəfələrlə vuruşmalı oldu. 1435-ci ildə Təbriz yaxınlığında baş verən döyüşdə qalib gələn Şahrux Vanda olan Qara Yusifin kiçik oğlu ***Cahanşahı*** yanına çağırıb regionun idarəsini ona tapşırdı.

Cahanşah 1438-ci ildə Qara İsgəndəri aradan götürdükdən sonra tamhüquqlu Baharlı hökmdarı oldu. O, 1440-cı ildə Gürcüstana yürüş etdi, lakin uğur qazanmadı. Şahrux 1447-ci öldükdən sonra Cahanşah fəal siyasət yeritməyə başladı. Teymuri şahzadələri arasındakı çəkişmələrdən istifadə edib İranın mərkəzi və şərq əyalətlərini ələ keçirdi.

Qafqazın cənub-qərb hüdudlarında Ağqoyunlu tayfalarının yaratdıqları feodal hakimliyində XV əsrin ortalarında ***Bayandur*** nəslindən olan ***Uzun Həsən*** hakimiyyətə gəldi. Onun 1457-ci ildə Baharlı hökmdarı Cahanşahla mübarizədə qələbəsi öz mövqeyini gücləndirməyə imkan verdi. Müasir Ermənistan ərazisi və Gürcüstanın şərq hissəsi Uzun Həsənin tabeliyinə keçdi.





XV əsrin 60-cı illərində Baharlı dövlətində daxili çəkişmələr çoxaldı. Cahanşaha qarşı oğlanları və digər əyanları qiyam qaldırdılar. O, qiyamçıları məğlub edib **1467-ci ildə** böyük qoşunla Van istiqamətində Uzun Həsənə qarşı hərəkət etdi. Həmin il noyabrın 10-da ***Muş düzündə baş verən döyüşdə*** Baharlı qüvvələri ağır məğlubiyyətə uğradı, Cahanşah öldürüldü.

**1468-ci ildə** Uzun Həsən Təbrizi tutaraq Baharlı sülaləsinin hakimiyyətinə son qoydu. Azərbaycanda və Cənubi Qafqazın digər bölgələrində ***Bayandur sülaləsi*** hakimiyyətə gəldi. Uzun Həsən güclü mərkəzi hakimiyyət yaratmağa, qayda-qanunu möhkəmləndirməyə çalışırdı. Onun vergi toplanmasını nizama salmaq üçün "Qanunnamə" verməsi müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Bizansın süqutundan sonra Qara dəniz boğazlarından və Kiçik Asiyadan keçən yolların Osmanlı dövlətinin nəzarətinə keçməsi Qafqazın Avropa ilə ticarət əlaqələrinə ağır zərbə vurdu. Buna səbəb Osmanı sultanı II Mehmetin Şərq ölkələri ilə Qərb dünyası arasında ticarət edənlərin üzərinə çox ağır gömrük rüsumu qoyması idi. Avropa ilə tranzit ticarəti bütünlüklə nəzarət altına almağa çalışan II Mehmetin 1461-ci ildə Bizansdan qopub ayrılmış Trabzon hakimliyini ələ keçirməsi Uzun Həsənlə münasibətlərin gərginləşməsinə səbəb oldu.

Uzun Həsənin 60-cı illərdə öz rəqiblərini məğlub edib Cənubi Qafqaz və İranı əhatə edən böyük imperatorluq yaratması onun Avropada nüfuzunu artırdı. Osmanlı dövlətinə qarşı onunla hərbi ittifaq bağlamaq üçün Venesiya və digər ölkələrdən Təbrizə elçilər gəlməyə başladı. Uzun Həsən də öz elçilərini 1472-ci ildə Venesiya, Vatikan, Neapol, Macarıstan və Kipr dövlətlərinə göndərərək Osmanlı dövlətinə qarşı birlikdə çıxış etmək haqqında razılaşma əldə etdi.

Çünki Bayandur hökmdarı tezliklə Aralıq dənizi sahilinə çıxış əldə etmək, Avropa ölkələri ilə birbaşa ticarət əlaqələrini bərpa etmək istəyirdi. O, Trabzon torpaqlarını da geri almağı qarşısına məqsəd qoymuşdu. Sultan II Mehmet də Osmanlı imperatorluğunun təsirini şərqə doğru yeni ərazilərə yaymaq, Qafqazın əsas ipəkçilik mərkəzlərini ələ keçirmək niyyətində idi.

1472-ci ildə Uzun Həsən Anadoluda osmanlılara qarşı üsyan qaldırmış qaramanlı tayfası ilə ittifaq yaradaraq birlikdə Aralıq dənizi sahilinə hərəkət etməyə qərar verdi. Bu yürüşdən öncə Uzun Həsən qoşunu Gürcüstan üzərinə göndərdi. Feodal pərakəndəliyi keçirən bu ölkə üzərində asan qələbə qazanmaqla qoşunun döyüş ruhunu yüksəltmək istədi. Uzun Həsənin oğlu Yusif Mirzənin başçılıq etdiyi qoşun qaramanlı tayfalarının yardımı ilə Tokat və Qeysəriyyədə bir-birinin ardınca qələbələr qazandı. Lakin 1472-ci il avqustun 18-də Konya yaxınlığında baş verən döyüşdə osmanlı qüvvələri qalib gəldi, Yusif Mirzə isə əsir alınaraq edam edildi.

**1473-cü ilin** yayında sultan II Mehmet 100 minlik qoşunla Qafqaza böyük yürüşə başladı. Uzun Həsən də öz qüvvələrini səfərbər edərək düşməni sərhəddən uzaqda qarşılamaq üçün hərəkətə keçdi. **Avqustun 1-də** Fərat çayı sahilində ***Malatya yaxınlığında əsas döyüş*** oldu. Uzun Həsən osmanlı qüvvələrini pusquya salaraq məğlub etdi. Osmanlı sərkərdəsi Xasmurad paşa Fərat çayını keçmək istərkən suda boğuldu. Lakin Uzun Həsən hücumu davam etdirmədi və bununla II Mehmetə öz qüvvələrini nizama salmağa imkan vermiş oldu.

**1473-cü il avqustun 11-də** Tərcan yaxınlığında ***Otluqbeli adlı yerdə baş verən döyüşdə*** osmanlı tərəfi odlu silahdan geniş istifadə etməklə qalib gəldi. Lakin bu qələbə böyük itkilər hesabına qazanıldı. Ona görə də, osmanlı komandanı Mahmud paşa geri çəkilən düşmən qüvvələrini təqib etmədi.





Beləliklə, XV əsrin 70-ci illərində baş verən müharibədə tərəflərin heç biri öz istəyinə çatmadı. Lakin hər iki tərəf böyük itkilər verdi. Bu döyüşlərdən sonra Uzun Həsənin mövqeyi zəiflədi.

1472-73-cü illər müharibələrində Uzun Həsənə yardım etməyən gürcü hökmdarları 1477-ci ildə məğlub edildi və Şərqi Gürcüstan birbaşa Ağqoyunluya tabe edildi. Yalnız 1490-cı ildə Kartli hökmdarı Tiflisdə və Şərqi Gürcüstanda öz hakimiyyətini bərpa edə bildi.

**Erməni katolikosluğunun Eçmiədzinə köçürülməsi. 1441-ci ildə** Baharlı hökmdarı Cahanşahın icazəsi ilə *erməni katolikosluğunun mərkəzi* Kilikiyanın mərkəzi şəhəri Sisdən İrəvan bölgəsinə – ***Eçmiədzinə (Üçkilsəyə) köçürüldü.*** Bu hadisə İrəvan bölgəsində erməni təsirinin güclənməsinə səbəb oldu. XVIII əsrin ikinci yarısında erməni katolikosu vəzifəsini icra etmiş İrəvanlı Simeon bununla bağlı yazdığı əsərində qeyd etmişdir ki, 1429-cu ildə katolikosluğunun mərkəzi yepiskopu Sumbatın oğlu Qriqor İrəvan əmiri Rüstəmə məxsus Vaqarşapat kəndinin torpağını satın aldı və erməni kilsəsinə bağışladı. Bu da erməni katolikosluğunun mərkəzinin İrəvan bölgəsinə köçürülməsinə imkan verdi.

Orta yüzilliklərə aid çoxsaylı sənəd və materialların mühafizə edilib saxlandığı Matenadarandakı farsdilli torpaq alqı-satqısı üzrə rəsmi sənədlərdən aydın olur ki, katolikosluğun mərkəzi Eçmiədzinə köçürüldükdən dərhal sonra erməni kilsə xadimləri yeni torpaq mülkləri almağa başlamışdılar. Bu sahədə katolikos Makulu Qriqor (1442-1461) xüsusi fəallıq göstərmiş, yuxarıda adı çəkilən türkmən əmiri Rüstəmdən daha yeddi kəndin torpağını 90 min dinara alıb Eçmiədzin kilsəsinin vəqfinə çevirmişdi. İrəvanlı Simeonun yazdığına görə, 1443-cü ildə katolikos Qriqor Cahanşahın icazəsi ilə əmir Səadin oğlu Pir Hüseynə məxsus Üçkilsə kəndinin torpaqlarını da satın alıb Eçmiədzin kilsəsinə vəqf olaraq bağışlamışdı.



**Şəkil**. Eçmiədzin kilsəsi.

Alqı-satqı sənədlərində adları çəkilən yaşayış məntəqələrinin və yer adlarının əksəriyyəti, o cümlədən Molla-Dursun, Qarakit, Şorlu, Kültəpə, Əlibəyli, Kasax çayı, Bəzirgan yolu Azərbaycan türkcəsindədir. Bu faktlar İrəvan bölgəsindəki torpaqların hamısının XV əsrin birinci yarısına qədərki dövrdə azərbaycanlılara məxsus olduğunu göstərir.

Ermənilərin satın aldıqları torpaqların mühüm bir hissəsini Eçmiədzin katolikosluğuna vəqf kimi bağışlamaları məqsədyönlü siyasət idi. Bu yolla həmin torpaqlardan əldə edilən gəlir vergilərdən yayındırılırdı. Çünki bütün orta yüzilliklərdə kilsə torpaqları vergi toxunulmazlığı immunitetinə malik idilər. Nəticədə erməni kilsəsi getdikcə daha çox maliyyə vəsaitinə malik olur və yeni-yeni torpaqları ələ keçirmək imkanı qazanırdı.

**Şimali Qafqazda etno-siyasi proseslər.** XV əsrin əvvəllərində Şimali Qafqazda etno-siyasi proseslər yeni mərhələyə





qədəm qoydu, keçmiş tayfa birlikləri əsasında Qafqazın müasir xalqlarının formalaşması baş verdi. XIII-XV əsrlərdə Dağıstan ərazisində avarlar, laklar, ləzgilər, darginlər müstəqil xalq kimi təşəkkül tapdılar. Yerli feodalların irsi hakimiyyəti bərqərar oldu. Dərbənddən şimalda Tabasaran hakimi və Qaraqaytaq usmisi, XIV əsrdən isə həmçinin Xunzax hakimi Avarıstan nutsalı nüfuzlu feodal hökmdarlara çevrilirdilər. Bu dövrdə Dağıstanda ən böyük feodal hakim Tarku şamxalı idi. O dövrün mənbələri onu Dağıstan hökmdarı kimi qiymətləndirirdi. Teymurun yürüşündən sonra şamxallığın qüdrəti sarsıldı və XV əsrin əvvəlində xırda feodallıqlara parçalandı.

Şimali Qafqazın mərkəz hissəsində XIII-XIV əsrlərdə başlanmış etnik yerdəyişmə, alanların Dəryal keçidi boyunca Gürcüstana köçüb yerləşməsi sonrakı yüzilliklərdə də davam edirdi. Gürcüstanda alan tayfalarının intensiv məskunlaşması Osetin xalqının formalaşmasında böyük rol oynadı.

Osetinlərin qonşuluğunda vaynaxların azad cəmiyyətləri qalmaqda idi. Burada icma qaydaları çox güclü idi. Şimali Qafqazın mərkəz hissəsində kabardin, qaraçay, balkar, çərkəz tayfaları da yaşayırdılar. Bu bölgələrdə yerli feodallar nüfuzlu qüvvə idilər. Kabardin tayfalarında feodallaşma prosesi daha intensiv gedirdi.

Şimali Qafqazın qərbində çərkəz və adıq tayfaları əsas etnik qüvvə idilər. Qızıl Ordunun parçalanmasından sonra bu tayfalar da müstəqillik qazanmışdılar. Tayfa əyanları knyazlar və vorklar müstəqil siyasət yeridir, qul əməyindən geniş istifadə edirdilər. Bu dövrdə sıravi icma üzvlərinin yoxsullaşması, əyanlardan asılı hala düşməsi baş verirdi. XV əsrin ortalarında Krım xanlığının 1475-ci ildə Osmanlı sultanından vassal asılılığına düşməsi ilə Osmanlıların Qafqazın şimal-qərb bölgələrində təsiri gücləndi.

XV əsrin əvvəllərində Qafqazın Qara dəniz sahili boyunda genuyalılar yenidən fəaliyyətə başladılar. Xristian missionerlərin fəaliyyəti geniş miqyas aldı. Osetinlərin xeyli hissəsi məhz bu zaman xristianlığı qəbul etdi. Yalnız Konstantinopolun fəthi, boğazların Osmanlı dövlətinin nəzarətinə keçməsi Qara dəniz sahili boyunda italyan koloniyalarının və missionerlərin fəaliyyətinə qəti zərbə vurdu. **1457-ci ildə** adıq feodalları Genuyanın bölgədəki başlıca ticarət faktoriyasını – Matreqanı dağıtdılar. XV əsrin 70-ci illərində Şimali Qafqazın Qara dəniz sahili bölgələri qəti şəkildə Osmanlı dövlətinə tabe edildi.

**XIII-XV əsrlərdə Qafqazda mədəniyyətin inkişafı.** XIII-XIV əsrlərdə Qafqazda mədəniyyətin əksər sahələrində İntibah dövrü ilə müqayisədə müəyyən geriləmə baş verdi. Monqol yürüşləri xüsusən şəhər həyatına sarsıdıcı zərbə vurdu ki, bu da mədəniyyətin inkişafına öz mənfi təsirini göstərdi. Şəhərlərin dağıdılması ilə yanaşı, Qafqazın şərqində məscidlərin məhv edilməsi, yerində bütxanaların yaradılması İslam dininə, məktəb və maarifə öldürücü təsir etdi. Yalnız XIII əsrin sonunda Qazan xanın, XIV əsrin əvvəlində Özbək xanın İslamı rəsmən qəbul etmələri məscid və mədrəsələrin bərpasına, yeni maarif ocaqlarının yaradılmasına imkan verdi.

Toxtamış və Teymurun yürüşləri Qafqaz xalqlarının təsərrüfat həyatına və mədəniyyətinə yenidən ağır zərbə vurdu. Eyni zamanda Əmir Teymur tabe etdiyi bölgələrdə şəhərlərin bərpasına, yeni-yeni məscidlərin inşasına çalışırdı. Məhz onun yürüşündən sonra Şimali Qafqazda xristianlıq və bütpərəstlik ayinləri öz yerini qəti şəkildə İslama verdi. O, 1396-cı ildə Şirvanşaha və Dərbənd hakiminə Dərbənd qalasını bərpa etməyi və yeni məscidlər inşasını tapşırmışdı. XV əsrin əvvəllərində Dağıstanda bir neçə yeni mədrəsə açıldı. 1404-cü ildə Teymurun göstərişi ilə Dağıstanın əsas silahqayırma mərkəzi olan Kubaçıda mədrəsə yaradıldı. Bu dövrdə Dağıstanda ərəb əlifbasının avar və ləzgi dillərinə uyğunlaşdırılması üçün cəhdlər edildi.





XIII-XV əsrlərdə Azərbaycanın mədəni həyatında önəmli yeniliklər baş verdi. 1259-cu ildə böyük ensiklopediyaçı alim Nəsirəddin Tusi Marağa rəsədxanasını yaratdı, onu dərin elmi araşdırmalar aparılan, müxtəlif ölkələrdən gəlmiş 100-dən çox alimin çalışdığı akademiyaya çevirdi. XIV əsrin əvvəlində görkəmli dövlət xadimi, tarixçi və təbib Fəzlullah Rəşidəddin Təbrizdə Şəfa evi yaratdı. Bu böyük elm və təhsil mərkəzində Qafqazın, eləcə də Yaxın və Orta Şərqin müxtəlif ölkələrindən gələn gənclər dərin biliklərə yiyələnirdilər.

XIV əsrin əvvəlində Təbrizdə inşa edilən Əlişah məscidi ölçülərinə görə o zamankı müsəlman aləminin ən möhtəşəm camesi idi. Divarlarının qalınlığı 3 m olan bu abidə təbrizlilərin dar günündə etibarlı sığınacaq rolu oynadığı üçün "Ərk qalası" adını almışdı. XV əsrin ortalarında Bakıda ucaldılan Şirvanşahlar sarayı, Təbrizdə tikilən Göy məsçid, Həştbehişt saray kompleksi çox gözəl və kamil memarlıq abidələri idi.

XIII. əsrdən etibarən Azərbaycan türkcəsində poeziya nümunələri yaradılmasına başlandı, sonrakı yüzilliklərdə geniş miqyas aldı. İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin, İmadəddin Nəsimi Azərbaycan dilində yazdıqları divanları ilə böyük şöhrət qazandılar.

Şərq və Azərbaycan musiqisinin inkişaf etdirilib, yüksək zirvəyə qaldırılması XIII əsrdə yaşamış Səfiəddin Urməvinin adı ilə bağlıdır. O, musiqinin səslər sistemi nəzəriyyəsinin özülünü qoydu, özünün not yazısı ilə 12 başlıca məqamın səs düzümünü müəyyənləşdirdi. Onun başladığı işi XIV əsrin sonu – XV əsrin ilk onilliklərində Əbdülqadir Marağai davam etdirdi, müsiqimizin 12 başlıca məqamından törəmə 24 şöbə sisteminin nəzəri əsasını qoydu, yeni musiqi ritmləri yaratdı.

Monqol ağalığı zamanı və XIV-XV əsrlərdə Gürcüstanda mədəniyyətin müxtəlif sahələrində inkişaf davam edirdi. Yalnız XIV əsrin sonu – XV əsrin başlanğıcında Əmir Teymurun yürüşləri zamanı gürcü şəhərləri ciddi ziyan çəkdi, mədəni həyat ağır zərbələr aldı. Bu zaman gürcü tarixinə aid bir çox sənədlər və əsərlər məhv oldu.

XIV əsrin ortalarında və XV əsrin 20-30-cu illərində Gürcüstanda tikinti işləri nisbətən geniş miqyas aldı, kilsələr bərpa edildi. XIV əsrin ortalarında Qərbi Gürcüstanda Selencixa kilsəsinin əsaslı təmiri üçün Konstantinopoldan mütəxəssislər dəvət edildi. Gürcü tarixçiləri bunun səbəbini monqol ağalığı dövründə ölkədə memarlıq və rəssamlıq sahələri üzrə yüksək qabiliyyətli ustaların sayının azalması ilə izah edirlər. Lakin XV əsrin ortalarında Gürcüstanda feodal dağınıqlığının başlanması və Konstantinopolun osmanlılar tərəfindən fəthindən sonra Bizansdan ustalar dəvət edilməsi dayandırıldı.



**Şəkil**. Gürcüstan. Svetisxoveli kilsəsi (XV əsr).





# QAFQAZ SON ORTA ƏSRLƏR DÖVRÜNDƏ

## Qafqaz XVI əsrdə. Region uğrunda Səfəvi-Osmanlı müharibələri

**Azərbaycan Səfəvi dövlətinin Cənubi Qafqazda möhkəmlənməsi.** Cənubi Qafqazın şərq hissəsində **1501-ci ildə** Azərbaycan Səfəvi dövləti yarandı. Bu dövlətin əsasını qoyan görkəmli sərkərdə və dövlət xadimi ***şah I İsmayıl*** (1501-1524) Ərdəbilin irsi hakimi Şeyx Səfiəddinin nəslindən idi.

Şeyx Səfiəddin XIII əsrin sonunda ayrıca sufi dərviş təriqətinin əsasını qoymuş, öncə Ərdəbilin, sonra da Azərbaycanın və qonşu bölgələrin əhalisi arasında nüfuzlu din xadimi kimi şöhrət qazanmışdı. Onun varisləri İslam dininin şiəlik məzhəbini təbliğ etmiş, XIV-XV əsrlərdə Səfəvi təriqətini daha geniş əraziyə yaymağa nail olmuşdular. Bu dövrdə Səfəvi şeyxləri həm də Ərdəbil hakimi kimi də mövqelərini möhkəmləndirirdilər. Artıq XV əsrin ortalarında Şeyx Cüneyd və Şeyx Heydər Ərdəbil vilayətinin dini və dünyəvi hökmdarı olmaqla kifayətlənməyərək daha geniş regiona öz siyasi təsirlərini yaymağa çalışırdılar. Bunun üçün Səfəvi şeyxləri hakimiyyətdə olan sünni hökmdarlara qarşı fəal surətdə təbliğata başlamışdılar. Onlar Şamlı, Rumlu, Ustaclı, Təkəli, Əfşar, Qacar, Zülqədər adlı yarımköçəri Azərbaycan tayfalarını öz tərəflərinə çəkməklə hərbi güclərini dəfələrlə artırmağa nail olmuşdular.

Şeyx Cüneyd və Şeyx Heydər Şimali Qafqaza yürüşlər etməklə sərvət və qənimətlər ələ keçirib tərəfdarlarının maddi vəziyyətini yaxşılaşdırmağa xüsusi diqqət yetirirdilər. "Çərkəzlər ölkəsi"nə ilk yürüşü Şeyx Cüneyd 1447-ci ildə Şirvanşah I Xəlilullahın razılığı ilə gerçəkləşdirdi. "Kafirləri dinə gətirmək" şüarı ilə başlanan bu yürüş Səfəvilərin şöhrətini artırdığı və nüfuzunu daha da gücləndirdiyi üçün Bahar-

lı Cahanşahın əmri ilə Şeyx Cüneyd 1449-cu ildə Ərdəbili tərk etməli oldu. Bu zamandan Səfəvilərlə Bayandurların yaxınlaşması baş verdi. Şeyx Cüneyd Uzun Həsənin bacısı Xədicə bəyimlə, Şeyx Heydər isə Uzun Həsənin qızı Aləmşah bəyimlə evlənməklə bu ittifaqı möhkəmlətdilər.

Şeyx Cüneydin 1460-cı ildə Şirvandan keçib Dağıstana yeni yürüşə başlaması Şirvanşah Fərrux Yasarı və Cahanşahı qəzəbləndirdi. Onların birləşmiş qüvvələri həmin il martın 4-də Samur çayı sahilində baş verən döyüşdə Şeyx Cüneydin müridlərini məğlub etdilər. Şeyx Cüneyd döyüşdə həlak oldu. Oğlu Şeyx Heydər Səfəvi təriqətinin başçısı kimi fəaliyyətini daha da genişləndirdi, dayısı Uzun Həsənlə ittifaqı möhkəmləndirdi. Bayandur hökmdarının Cahanşaha və teymuri Əbu Səidə qarşı apardığı ağır mübarizədə öz müridləri ilə fəal şəkildə iştirak etdi. Əvəzində Uzun Həsən 1470-ci ildə Ərdəbil hakimliyini Şeyx Heydərə qaytardı.

Şeyx Heydərin dövründə Səfəvi döyüşçüləri başlarına on iki şiə imamının şərəfinə on iki qırmızı zolaqlı çalma qoymağa başladılar. Ona görə də, sonrakı dövrdə Səfəvi tərəfdarları həm də "qızılbaş" adlandırılmağa başlanmışdı. Şeyx Heydərin 1483-cü və 1487-ci illərdə Şimali Qafqaza yürüş edib Dərbənddən şimala – Kabardaya qədər ərazini yağmalaması onun tərəfdarlarının sayının kəskin surətdə çoxalmasına səbəb oldu.

Uzun Həsənin ölümündən sonra taxta çıxan oğlu Yaqub Mirzə Səfəvi hakimliyinin təsirinin güclənməsini qısqanclıqla qarşılayırdı. Şirvanşah Fərrux Yasar da Şeyx Heydərin mövqeyini möhkəmləndirməsini özü üçün çox ciddi təhlükə hesab edirdi. Ona görə də, 1488-ci ildə Şeyx Heydərin Dağıstana doğru üçüncü yürüşü zamanı birləşmiş Bayandur-Şirvan qüvvələri onun qarşısını kəsdilər. Tabasaranda Şahdağın ətəyində baş verən döyüşdə qızılbaşlar məğlub oldular. Şeyx Heydər isə aldığı ox yarasından öldü.

Yaqub Mirzə Ərdəbilə qoşun yeridib Səfəvi müridlə-





rinə divan tutdu. Şeyx Heydərin kiçik yaşlı üç oğlunu və Aləmşah bəyimi Van gölündəki Axtamar adasında zindana saldırdı. Yalnız dörd ildən sonra yeni taxta çıxmış Rüstəm Mirzə onları həbsdən azad etdi və Səfəvi qüvvələrinin köməyi ilə rəqibi Baysunqur Mirzəni məğlub etdi. Lakin bundan sonra Səfəvilərə münasibətini dəyişdi. 1494-cü ildə Ərdəbil yaxınlığında döyüşdə onları məğlub etdi, sonra da bütün tərəfdarlarını məhv etməyə başladı. Şeyx Heydərin kiçik oğlu İsmayılı atasının dostları gizlədə bildilər.

XV əsrin sonunda Bayandur sülaləsinin üzvləri arasında hakimiyyət uğrunda mübarizə, feodal çəkişmələrinin çoxalması sadə xalq kütlələrinin narazılığını artırmaqla bərabər, Səfəvi təriqətinə rəğbəti də gücləndirirdi. Belə bir şəraitdə **1499-cu ildə** gənc İsmayıl gizli saxlandığı Lahicanı tərk edib Ərdəbilə, oradan da Astaraya hərəkət etdi. Bu zaman 1500-ə qədər qızılbaş döyüşçüsü ona qoşuldu. 1500-cü ilin yazında isə İsmayıl Qafqazın cənub-qərbində və Şərqi Anadoluda yaşayan qızılbaş tayfalarından hərbi qüvvə toplamaq üçün Ərzincana hərəkət etdi. Tezliklə döyüşçülərinin sayı 7 minə çatdı. O, bu qoşunla Şirvana yürüş etdi.

**1500-cü ilin payızında** ***Gülüstan qalası*** yaxınlığında baş verən döyüşdə Şirvanşah Fərrux Yasarın 20 min atlı və 6 min piyada qoşunu məğlubiyyətə uğradıldı. Şirvanşah özü də döyüşdə həlak oldu. İsmayılın qoşunu bu döyüşdən sonra Şamaxını, 1501-ci ilin yazında isə Bakını tutdu. Şirvanşahların burada saxlanılan xəzinəsi Səfəvilərin əlinə keçdi. İsmayıl bu yürüş nəticəsində Şirvanşahlar dövlətini özündən asılı hala saldı.

**1501-ci ilin yayında** İsmayılın qoşunu Əlvənd Mirzənin 30 minlik ordusunu ***Naxçıvanda Şərur düzündə*** məğlub edib Azərbaycanın cənubuna doğru hərəkət etdi. **1501-ci ilin payızında** Təbrizə daxil olub özünü şah elan etdi. Azərbaycanda ***Səfəvi sülaləsinin*** hakimiyyəti (1501-1736) başlandı.



**Şəkil.** I Şah İsmayıl

Şah I İsmayılın növbəti addımı Bayandur sülaləsinin İranda hökmranlıq edən nümayəndəsi Murad Mirzəni sıradan çıxarmaq oldu. **1503-cü ilin yayında** Həmədan yaxınlığında baş verən döyüşdə I İsmayıl 12 minlik qoşunla rəqibinin 70 minlik ordusunu məğlub etdi. Bununla Bayandur sülaləsinin hakimiyyətinə qəti son qoyuldu. Həmin il İranın mərkəzi və şərq əyalətləri, 1506-cı ildə Şərqi Anadolu, 1508-ci ildə Ərəb İraqı Səfəvi dövlətinə qatıldı. Bu zaman Qafqazın mərkəzi və cənub-qərb bölgələri də Səfəvilər dövlətinə tabe edildi. 1510-cu ildə isə Dərbəndin tutulması ilə Dağıstanın feodal hakimləri də şah I İsmayılın hakimiyyətini qəbul etməli oldular.

**Gürcüstanın Səfəvi dövlətinə tabe edilməsi.** Səfəvilər dövlətinin Gürcüstana hücumu üçün ilk bəhanə Samsxeti (Mesheti) knyazı IV Kvarkvarenin (1515-1535) İmereti hökmdarı tərəfindən məğlub edilməsi və şah I İsmayıldan kömək istəməsi olmuşdu. Həmin vaxt Naxçıvanda olan Səfəvi hökmdarı ən istedadlı sərkərdələrindən biri olan Div Sultan Rumlunun başçılığı ilə böyük bir ordunu Gürcüstana göndərdi. İmereti qoşunları məğlub edilib qovuldu, IV Kvarkvare yenidən taxta çıxarıldı.

İmereti hökmdarı Manuçöhr də yardım üçün Osmanlı dövlətinə müraciət etdi. Gürcü hökmdarı sultan I Səlimdən aldığı hərbi qüvvənin köməyi ilə yenidən Samsxetini ələ keçirə bildi. Div Sultan Rumlu 1518-ci ildə şahın əmrinə görə yenidən Gürcüstana daxil oldu. İmereti hökmdarına köməyə gələn Osmanlı qüvvələri Dəbil yaxınlığında məğlub edilib qovuldu. Gürcü döyüşçüləri də qaçıb meşədə gizləndilər.





Budaq Qəzvini adlı müəllif bu hadisədən sonra gürcü hökmdarlarının hamısının Səfəvi dövlətinə tabe edildiklərini qeyd etmişdir. O, 1519-cu ildə Təbrizdə şah sarayında keçirilən şənlikdə gürcü hökmdarlarının da iştirak etmələrini bununla izah etmişdir.

Səfəvi dövləti öz hakimiyyətini Dağıstana və Gürcüstana yayanda yerli feodal hakimlərini çox vaxt hakimiyyətdə saxlayır, xərac almaqla kifayətlənirdi. Ona görə də, yerli feodal hakimlər fürsət düşən kimi bac-xərac göndərməyi dayandırır, hətta qonşu feodallıqlar üzərinə basqın etməkdən də çəkinmirdilər. Bu da, öz növbəsində, Səfəvi şahının həmin feodal hakimi yenidən itaət altına almaq üçün ordu göndərməsinə səbəb olurdu.

1521-ci ildə Səfəvi ordusunun Gürcüstana üçüncü dəfə yürüş etməsi bununla bağlı idi. Həmin yürüşün əsas məqsədi Kaxeti hökmdarı Levondu (1520-1574) cəzalandırmaq idi. Çünki həmin vaxt Kaxeti hökmdarının Şəki hakimliyinə hücumları müsəlman əhalinin təsərrüfatına ciddi ziyan vurmuşdu. Şəki hakimi Həsən bəy də gürcü çarının hücumlarının qarşısını almaq üçün şah I İsmayıla müraciət etmişdi. Div Sultan Rumlu böyük qoşunla Zəyəm, Qərəm qalalarını tutub oradan Kaxeti torpaqlarına hücum etdi. Səfəvi qüvvələrinin zərbələri Kaxeti hökmdarı Levondu təslim olmağa məcbur etdi.

Bu yürüş zamanı Levondla yanaşı, Kartli, Samsxeti, İmereti hökmdarları da Div Sultan Rumlunun yanına gələrək Səfəvi dövlətinə tabe olduqlarını yenidən bildirdilər. Səfəvi sərkərdəsi onları şah I İsmayılın hüzuruna apardı. Şah I İsmayıl gürcü hökmdarlarının hər il Səfəvi dövlətinə xərac ödəmələri şərti ilə öz mülklərinə qayıtmalarına icazə verdi. Lakin gürcü hökmdarlarının heç də hamısı öz vədlərinə tam şəkildə əməl etmədilər.

Kaxeti hökmdarı 1524-cü ildə yenidən Şəki hakimliyinə basqın etdi, əhalinin var-dövlətini qarət etdi. Hücum za-

manı Həsən bəy öldürüldü. Şah I İsmayıl bundan qəzəblənib Gürcüstana hərbi yürüşə başlamaq əmrini verdi. Lakin az sonra öldüyü üçün bu yürüş gerçəkləşdirilmədi.

Mənbələr XVI əsrin 20-30-cu illərində gürcü dövlətlərinin dəfələrlə Səfəvi tabeliyindən xilas olmağa cəhd etmələri və bu zaman Səfəvi-Osmanlı qarşıdurmasından yararlanmaları haqqında məlumat verir. Kartli hökmdarı Laursab (1534-1558) hakimiyyət başına gəldikdən sonra Səfəvi xəzinəsinə xərac göndərməyi dayandırmışdı. Bu dövrdə həmçinin İmereti, Kartli və Meqreli hökmdarları Səfəvi şahına sədaqətli qalan Kaxeti və Samsxeti hökmdarlarının torpaqlarına da basqınlar edirdilər. Şah I Təhmasibin (1524-1576) Gürcüstana 1540/41-ci, 1546/47-ci, 1551-ci və 1554-cü illərdə 4 böyük yürüş təşkil etməsi də məhz bu cəhdlərin qarşısını almağa yönəlmişdi.

Bu yürüşlər Gürcüstanın təsərrüfat həyatına ağır zərbə vurdu. Təkcə dördüncü yürüş zamanı Tiflis əhalisinin 30 mini əsir aparılmışdı.

1555-ci ildə imzalanmış Amasiya sülhü ilə Gürcüstanın iki hissəyə bölünməsi qəti şəkil aldı. Şərqi Gürcüstan – Kartli, Kaxeti və Samsxeti (Mesheti) Səfəvi dövlətinin, Qərbi Gürcüstan – İmereti, Meqreli və Quriya Osmanlı imperiyasının tabeliyinə keçdi.

**Səfəvi dövlətinin daxili siyasəti. Torpaq sahibliyi və vergilər.** Səfəvi sülaləsinin hakimiyyətə gəlməsindən sonra güclü mərkəzləşdirilmiş dövlət yaradılmasına başlandı, torpaq sahibliyinin, vergi sisteminin sahmana salınması istiqamətində addımlar atıldı. Normal təsərrüfat həyatının bərpası, sənətkarlığın və ticarətin dirçəldilməsi üçün tədbirlər görüldü. İlk növbədə Baharlı və Bayandur hökmdarlarının geniş tətbiq etdiyi *soyurqal* – irsi torpaq mülkləri bağışlanması qaydası ləğv edildi. Çünki soyurqal paylanması mərkəzi hakimiyyəti zəiflədir, dövlətin nəzarətində olan yararlı torpaq fondunun azalmasına, xəzinə gəlirlərinin ixtisar olunmasına gətirib çı-





xarırdı. İlk Səfəvi şahları dövründə dövlətə xidmət əvəzində ayrı-ayrı şəxslərə *tiyul* – şərti torpaqlar verilməsi geniş miqyasda tətbiq edilməyə başlandı.

Səfəvi dövlətində bütün mühüm vəzifələrə yarımköçəri Azərbaycan tayfalarının başçıları qoyulmuşdu. Saray işləri, vilayətlərin idarə olunması, ordu komandanlığı onların əlində idi. Şah I İsmayılın dövlət işinə irəli çəkdiyi qızılbaş əmirləri bacarıqlı sərkərdələr, tədbirli dövlət məmurları idilər. Bununla belə, şah onları daim nəzarətdə saxlayır, separatçılıq meyllərinin qarşısını çox sərt şəkildə alırdı. Mənbələr şah I İsmayılın tərbiyəçisi-ləsəsi olan Hüseyn bəy Şamlının bu səbəbdən *əmir ül-ümərə* – qoşun başçısı vəzifəsindən kənarlaşdırıldığını, ona tiyul kimi verilmiş vilayətin geri alındığını qeyd etmişdir.

Səfəvi şahları öz hakimiyyətlərinin sosial dayağını möhkəmləndirmək üçün oturaq əhaliyə, şəhərlərin sənətkarlarına və tacirlərinə də güzəştlər edir, onların nümayəndələrinə mühüm vəzifələr verirdilər. Şah I İsmayıl mülki işlərə, o cümlədən maliyyə məsələlərinə baxan *vəzir* vəzifəsinə Şəmsəddin Zəkəriyyə Təbrizini, şahdan sonra ikinci şəxs sayılan *vəkil* vəzifəsinə isə Hüseyn bəy Şamlıdan sonra Nəcməddin Məsud Gilanini təyin etmişdi.

Səfəvi sülaləsinin hakimiyyətinin ilk dövründə əhalinin həyat şəraitini qismən də olsa yüngülləşdirmək, dövlətin iqtisadi əsaslarını möhkəmləndirmək üçün bəzi vergilər azaldıldı, bəziləri isə tamam ləğv edildi. Əsas vergi olan *malcəhətin* miqdarı əvvəlki dövrlə müqayisədə azaldıldı, məhsulun altıda bir hissəsi həcmində alınmağa başlandı. Şah I Təhmasibin zamanında isə bəzi vergilər tamamilə ləğv edildi. **1565-ci ildə** monqol dövründən qalma şəhər sənətkarları və tacirlərdən alınan *tamğa* vergisi toplanması dayandırıldı. Həmçinin malcəhətlə bərabər digər məhsul vergisi olan xəracın yığılmasına son qoyuldu.

Şəhərlərin inkişafı qayğısına qalan şah I Təhmasib

1526-cı ildə Ərdəbil əhalisini bütün vergilərdən azad etmiş, 1573-cü ildə isə Təbriz şəhərinə vergi toxunulmazlığı immuniteti vermişdi.

Səfəvi şahları xristian əhalinin də qayğısına qalır, onları şəriət qaydaları çərçivəsində ədalətlə idarə edirdi. Xristian kilsəsinə bir sıra imtiyazlar verilmişdi. Gürcü və erməni ruhani təbəqəsi vergilərdən azad idilər. Kilsə və monastırlara məxsus torpaqlar və s. əmlak vergi toxunulmazlığı immunitetini saxlayırdılar.

Şah I İsmayılın mühüm tədbirlərindən biri İslam dininin şiəlik məzhəbini dövlət dini elan etməsi oldu. O və varisləri həm ali dünyəvi, həm də dini hakimiyyətin başçısı idilər. Səfəvilərin soy kökünün Məhəmməd peyğəmbərlə bağlanması onun qonşu sünni hökmdarlardan üstünlüyünü nümayiş etdirmək məqsədi güdürdü. O, bu dini-ideoloji zəmin əsasında sünniliyin hökmran olduğu Osmanlı və Şeybani hökmdarlarına qarşı qəti mübarizəyə başladı.

**Qafqaz uğrunda Səfəvi-Osmanlı müharibələrinin başlanması.** XVI əsrin əvvəllərində gənc Səfəvi hökmdarının Qafqazın şərq hissəsində və cənub-qərb bölgələrində, Şərqi Anadoluda öz mövqelərini möhkəmləndirmək üçün qətiyyətli addımlar atması Osmanlı dövləti tərəfindən qısqanclıqla qarşılandı. Qafqaz uğrunda Səfəvi-Osmanlı rəqabəti fasilələrlə yüz ildən çox davam edən qanlı müharibəyə çevrildi. Bu müharibədə hər iki tərəfin Qafqazın zəngin sərvətlərinə təkbaşına yiyələnmək istəyi başlıca yer tutduğundan, əsas döyüşlər də Cənubi Qafqazda və onun hüdudlarına yaxın ərazilərdə baş vermişdi. Müharibənin ağır məhrumiyyətlərini də hamıdan daha çox Qafqaz əhalisi çəkmişdi.

1514-cü ildən başlayaraq 1639-cu ilə kimi qısa fasilələrlə 100 ildən artıq davam etmiş Səfəvi-Osmanlı müharibəsi 3 mərhələyə bölünür. Birinci mərhələ – 1514-1555-ci illəri, ikinci mərhələ – 1578-1590-cı illəri, üçüncü mərhələ – 1603-1639-cu illəri əhatə edir. Orta yüzilliklərin bu iki nəhəng





dövləti arasında uzun müddət davam etmiş və son nəticədə hər ikisinin zəifləməsinə gətirib çıxarmış bu qanlı savaşmanı doğuran səbəbləri, bizim düşüncəmizə görə, aşağıdakı kimi sıralamaq məqsədəuyğundur:

*Birinci səbəb,* həm Osmanlı, həm də Səfəvi hökmdarlarının öz hakimiyyətini yeni ərazilərə yaymağa, qədim və orta əsr cahangirlərinin can atdığı dünya ağalığına nail olmağa çalışmaları idi. Başqa sözlə, bu və orta çağlarda baş verən digər müharibələrin əsas səbəbi hökmdarların siyasi ambisiyaları, bütün dünyaya ağalıq etmək iddiaları idi.

*İkinci səbəb,* orta yüzilliklərin başlıca ticarət arteriyası olan və Çini, Hindistanı, Mərkəzi Asiyanı İrandan, Qafqazdan və Kiçik Asiyadan keçməklə Avropa ilə əlaqələndirən Böyük İpək yoluna nəzarət etmək istəyi idi. Bu yolla keçib gedən karvanlardan gömrük rüsumu toplamaq çox böyük gəlir verirdi. Ona görə də, Böyük İpək yolu üzərindəki dövlətlər bütün dövrlərdə həmin ticarət arteriyasına mümkün qədər daha böyük məsafədə nəzarət etmək, rəqiblərini isə bundan məhrum etmək uğrunda barışmaz mübarizə aparırdılar.

*Üçüncü səbəb,* Cənubi Qafqazın əsas ipək istehsalı mərkəzlərinə yiyələnmək, o zamankı beynəlxalq ticarətin əsas məhsulu olan xam ipəyi birbaşa Avropa bazarına çıxarmaq istəyi idi. Çünki, ipək ticarəti hər iki dövlətin başlıca gəlir mənbələrindən biri idi.

*Dördüncü səbəb,* dini təfriqədən qaynaqlanırdı. Səfəvi dövləti şiəliyi rəsmi məzhəb elan etmişdi və sünni hökmdarlara, o cümlədən də Osmanlı sultanlarına qarşı düşmən kimi davranırdı. Sünni din xadimləri də Osmanlı sultanının tapşırığı ilə bütün sünni müsəlmanları "kafir" qızılbaşlara qarşı müqəddəs müharibəyə çağırmaqla Səfəvi-Osmanlı rəqabətinin şiə-sünni qarşıdurmasına çevrilməsinə yardımçı oldular. Bu amil Səfəvi-Osmalı müharibəsinin daha qanlı, dinc əhali üçün daha dəhşətli nəticələr verməsinə gətirib çıxardı.

*Beşinci səbəb,* Səfəvi-Osmanlı dövlətlərini bir-biri ilə savaşmağa təhrik edən Avropa diplomatiyasının fəaliyyəti ilə bağlı idi. Osmanlı dövlətinin Şərqdən Avropaya doğru Kiçik Asiyadan və Suriyadan keçən ticarət yolları üzərinə nəzarəti ələ keçirdikdən sonra çox tacirlərdən böyük həcmdə gömrük rüsumu toplaması Avropada ciddi narazılıq doğurdu. Venesiya başda olmaqla Avropa dövlətləri əvvəlcə Bayandur, sonra da Səfəvi hökmdarları ilə ittifaq yaradaraq Osmanlı dövlətini məhv etməyə çalışırdılar. Osmanlı dövlətinin hərbi qüdrətinin XVI əsrdə daha da artması və Avropanın içərilərinə doğru müvəffəqiyyətlə irəliləməsi ilə bağlı onun diqqətini Şərqə – Səfəvi dövləti üzərinə yönəltmək qərb siyasətçiləri üçün ölüm-dirim məsələsinə çevrilmişdi.

**1514-cü il avqustun 23-də *Çaldıran döyüşü*** bu qanlı toqquşmaların birincisi oldu. Müharibədən öncə Osmanlı sultanı Kiçik Asiyanın şərqində yaşayan şiə əhalisinin 7 yaşdan 70 yaşa kimi bütün kişi əhalisini qılıncdan keçirdi, qadın və uşaqları isə Balkan yarımadasındakı mülklərinə köçürdü. Bununla Səfəvi ordusu ilə vuruşma ərəfəsində öz ordusuna şiələrin arxadan zərbə vurmaq təhlükəsini aradan qaldırdı.

Şah I İsmayıl da ümumi sayı 200 minə çatan və odlu silahla silahlanmış Osmanlı qoşunu ilə döyüş öncəsi qərb sərhədləri boyundakı yaşayış məntəqələrini dağıtdı, əhalisini başqa yerlərə köçürdü, ərzaq və yem ehtiyatlarını məhv etdi. Səfəvi hökmdarı "yandırılmış torpaq" siyasəti ilə düşməni viran edilmiş yerlərlə irəliləməyə vadar etmək niyyətində idi. Lakin bu taktikaya sona qədər əməl etmədiyi üçün döyüşü uduzdu.

Osmanlı qoşunu bu qələbədən sonra hücumu davam etdirərək Təbrizə daxil oldu, bir həftə ərzində şəhəri qarət etdi. Səfəvilərin yeni hücumu təhlükəsi ilə bağlı I Səlim geri dönməyə qərar verdi və bu zaman bir neçə min təbrizli sənətkarı da özü ilə İstanbula apardı.





Çaldıran döyüşündən sonra Səfəvi dövlətinin qisas almaq üçün başlatdığı yürüş uğursuz oldu. Osmanlı dövləti Şərqi Anadoluda, Cənub-qərbi Qafqazda geniş ərazilər ələ keçirdi, Yaxın və Orta Şərqdə mövqeyini daha da möhkəmləndirdi.

1520-ci ildə sultan I Səlimin və şah I İsmayılın ölümü ilə müharibədə bir müddət fasilə yarandı. Osmanlı taxtına yeni çıxan ***sultan I Süleyman*** (1520-1566) 20-ci illərdə əsas diqqətini Macarıstanı və Avstriyanı tutmağa yönəltdi. Şah I İsmayılın ölümündən sonra Səfəvi taxtına onun 10 yaşlı böyük oğlu Təhmasib çıxarıldı. Bu zaman Səfəvi dövlətinin dayağı sayılan tayfa əmirləri arasındakı çəkişmələr mərkəzi hakimiyyəti zəiflətdi. Yalnız 20-ci illərin sonunda Ərəb İraqını osmanlıların tutması ilə döyüşlər yenidən başlandı. Lakin şah I Təhmasib 1529-cu ildə çətinliklə də olsa Bağdadı tuta bildi.

XVI əsrin 30-cu illərində isə Osmanlı sultanı Qafqazda yeni ərazilər ələ keçirmək üçün fəal hərbi əməliyyatlara başladı. Bu zaman sultan I Süleyman Gürcüstan feodallıqlarını tabe etmək üçün xüsusi səy göstərirdi. İmereti, Kartli, Meqreli hökmdarları yaranmış şəraitdə Səfəvi tabeliyindən çıxıb Osmanlı himayəsinə sığındılar. Canlı qüvvəsi çox üstün olan və odlu silahla silahlanmış Osmanlı qoşunları **1534-cü ildə** Təbrizi ələ keçirsələr də burada möhkəmlənə bilmədilər və geri çəkildilər. Sultan I Süleymanın bu hərbi kompaniyada yeganə qazancı ***Ərəb İraqını*** ələ keçirməsi oldu.



**Şəkil**. Şah I Təhmasib ovda. Rəssam Sultan Məhəmməd.

Səfəvi dövləti **1538-ci ildə *Şirvanşahlar dövlətini*** qəti şəkildə özünə birləşdirməklə Dağıstan istiqamətində irəliləməyə imkan qazandı. 1547-ci ildə Səfəvi qoşunları şah I Təhmasibin başçılığı ilə Çərkəz torpaqlarına yürüş etdi. Şirvan bəylərbəyi Əlqas Mirzə də bu yürüşdə iştirak etdi. Lakin yürüş başa çatdıqdan və şah I Təhmasib cənuba çəkildikdən sonra Əlqas Mirzə özünü müstəqil şah elan etdi. Səfəvi şahı qiyamı yatırmaq üçün Şirvana böyük qoşun göndərdi. Əlqas Mirzə məğlub olub Dağıstandan keçərək Krıma və oradan da İstanbula qaçdı.

Sultan I Süleyman yaranmış vəziyyətdən istifadə edib **1548-ci ildə** Səfəvi dövləti üzərinə yeni yürüşə başladı. Lakin gözlənildiyinin əksinə olaraq qızılbaş əmirlərindən heç biri bu yürüşdə iştirak edən Əlqas Mirzə tərəfə keçmədi. Şah I Təhmasib osmanlıların üstün qüvvələri ilə açıq döyüşdən yayınaraq geri çəkilmək əmri verdi. Həm də bu zaman qərb bölgələrindən əhali köçürüldü, daşına bilinməyən məhsul məhv edildi, su quyuları torpaqla dolduruldu, otlaqlar yandırıldı.

Belə taktiki davranış çoxsaylı Osmanlı qüvvələrinin təchizatında ciddi çətinliklər yaratdı. Ona görə də, sultan I Süleyman Təbrizi tuta bilsə də, 4 gündən sonra geri dönməyə məcbur oldu. Osmanlıları təqib edən Səfəvi qüvvələri şahın böyük oğlu İsmayıl Mirzənin başçılığı altında Qars qalasını geri alıb Ərzuruma doğru irəlilədi. Şah I Təhmasib də böyük ordu ilə **1552-ci ildə *Şərqi Anadoluya*** yürüş etdi, Muşa qədər bütün yaşayış məntəqələrini dağıtdı. Erməni müəllifləri Səfəvi şahının bu yürüşünün həmin bölgə əhalisi üçün o zamana qədər görünməmiş məhrumiyyətlər gətirdiyini qeyd etmişlər. Şah I Təhmasib bu yolla Şərqi Anadolunun Səfəvi dövləti ilə həmsərhəd bölgələrini düşmən qoşununun keçib irəliləməsi üçün mümkünsüz hala gətirməyə çalışırdı. O, bu vasitə ilə barışıq təkliflərini israrla rədd edən Osmanlı sultanını yeni basqınlardan çəkindirmək ümidində idi.





Sultan I Süleyman isə daha güclü orduya və odlu silahlara malik olduğu üçün qələbəyə ümidini itirməmişdi. Sultanın əmri ilə **1554-cü ildə** Səfəvi dövləti üzərinə yeni yürüş başlandı. O, düşmənə *iki istiqamətdən* zərbə vurmaqla qalib gəlmək ümidində idi. Sultan özü əsas qüvvələrlə İrəvan və Naxçıvan istiqamətində hücuma başladı. Başqa bir ordu isə Krımdan Şimali Qafqaza göndərildi. Yeniçərilərdən və topçulardan ibarət olan bu qoşunla birlikdə Şirvanşahlar nəslindən olan Qasım da Dağıstandan keçərək Şirvana daxil oldu.

Osmanlı sultanına qarşı şah I Təhmasib artıq sınaqdan keçirdiyi və uğur qazandığı taktika ilə hərəkət etdi. Şahın əmri ilə İrəvan, Naxçıvan və Qarabağ bölgələri boşaldıldı. Eyni zamanda Səfəvi atlı dəstələri qəfil zərbələr endirməklə düşmənə ciddi tələfat verdi. Xeyli canlı qüvvə itirən və kəskin ərzaq çatışmazlığı ilə üzləşən sultan I Süleyman Naxçıvanı yandırtdırıb geri döndü. Bu hadisələrdən bəhs edən Osmanlı tarixçisi Peçevi yazmışdır ki, yanğının tüstüsündən gündüz gecəyə çevrilmişdi. İnsanlar dəhşət içində yanğın olan yerlərdən qaçırdılar.

Şirvana soxulan Osmanlı ordusuna Qumuq və Qaytaq hakimləri, Şirvanın yerli feodal əyanları da qoşulmuşdu. Lakin Şirvan bəylərbəyi Abdulla xan Ustaclı sərəncamında olan 2 min atlı döyüşçü ilə bu hücumu dəf edə bildi. Osmanlı qoşunu geri çəkildi.

Bu uğursuzluqdan sonra Osmanlı sultanı sülh danışıqlarına başlamağa razılıq verdi. **1555-ci il mayın 29-da *Amasiyada*** Osmanlı və Səfəvi dövlətləri arasında sülh müqaviləsi imzalandı. Şərqi Gürcüstan və Qarsa qədər Cənub-qərbi Qafqaz torpaqları Səfəvi dövlətində qaldı. Qars vilayəti isə boşaldılmış ərazi elan edildi və oradan əhalinin köçürülməsinə qərar verildi. Qərbi Gürcüstan, Van ətrafı bölgələr Osmanlı dövlətinə keçdi. Ərəb İraqı da Osmanlı dövlətinin tabeliyində saxlandı.

**XVI əsrin ortalarında ictimai-siyasi vəziyyət.** Səfəvi-Os-

manlı müharibəsi gedişində hərbi əməliyyatlar, xüsusən də "yandırılmış torpaq" taktikası Cənubi Qafqazın qərb bölgələrində təsərrüfat həyatına ağır zərbə vurdu. Bununla bərabər məhz bu taktika hesabına o zamankı dünyanın ən güclü dövləti olan Osmanlı dövlətini durdurmaq mümkün oldu. Sultan I Süleyman Gürcüstanın şərq vilayətlərini, Şəki və Şirvanı işğal etmək, Xəzər sahili ticarət yolunu ələ keçirmək niyyətindən imtina etmək məcburiyyətində qaldı.

Kartli hökmdarı Laursab və varisi Simon (1558-1560) Amasiya sülhünün şərtlərinə uymayıb, Səfəvi hakimiyyətinə qarşı çıxdılar. Onları cəzalandırmaq üçün Qarabağ bəylərbəyi Şahverdi xan Ziyadoğlu Gürcüstana hücum etdi. Laursab öldürüldü, oğlu Simon həbs edildi. Qardaşı David Səfəvi şahının tələbi ilə İslamı qəbul etdi və Kartli taxtına çıxarıldı. O zamandan Şərqi Gürcüstan hökmdarlarının Səfəvi dövlətinin Gürcüstan valisi kimi hakimiyyətdə qalmaları üçün İslamı qəbul etmələri şərt oldu.

XVI əsrin ortalarında Osmanlı dövləti Şimali Qafqaza soxulmağa cəhd edən Moskva böyük knyazlığına qarşı mübarizə aparmalı oldu. Həmin vaxt Rus dövləti Kazan və Həştərxan xanlıqlarını işğal edib Volqa-Xəzər su yolunu ələ keçirdikdən sonra Qafqazın Xəzər sahili bölgələri və Səfəvi dövlətinin digər hissələri ilə əlaqələri gücləndirmək və gələcəkdə rus təsirini bu regiona yaymaq arzusunda idi. Osmanlı dövləti isə Həştərxan, Kazan xanlıqlarını bərpa etmək, Volqaboyunda möhkəmlənmək, hətta Dondan Volqaya kanal çəkib, Qara dənizlə Xəzər arasında su yolu açmaq niyyətində idi. Lakin Osmanlı ordusunun 1569-cu ildə Volqaboyuna yürüşünün uğursuz olması bu planı gerçəkləşdirməyə imkan vermədi. Bu yürüşün yeganə əhəmiyyəti Sunja çayının Terekə töküldüyü yerdə yeni inşa edilməyə başlanmış rus qalasının dağıdılması oldu.

Osmanlı dövləti qeyd olunan dövrdə Qafqazın Qara dəniz sahili boyu bölgələrində öz hakimiyyətini möhkəmləndirmək üçün iki istiqamətdə fəaliyyət göstərirdi. Birincisi, öz sadiq vassalı Krım xanı vasitəsilə Qafqazın şimal-qərbində – *Çərkəz torpaqlarında* öz təsirini gücləndirməyə çalışırdı. İkinci istiqamət isə, Osmanlı dövlətinin öz hərbi qüvvələrinin Qafqazın qərbində qalalarda yerləşdirməsi, bu bölgələrdə bilavasitə öz idarəçiliyini tətbiq etməsi idi. Məsələn, 1555-ci ilin Amasiya müqaviləsindən sonra Batum bölgəsi Trabzona birləşdirildi. 1578-ci ildə Samsxeti torpaqları tutulduqdan sonra orada Ahalsıx paşalığı təşkil edildi. Poti, Kutais, Tiflis və Qori şəhərlərində Osmanlı qarnizonu yerləşdirildi.





XVI əsrin əvvəllərində Osmanlı tabeliyini qəbul etmiş İmereti, Meqreli, Quriya və Abxaziya feodallıqlarında yerli hökmdarlar hakimiyyətdə saxlanıldı. Onların qarşısına yalnız Osmanlı dövlətinə hər il vergi ödəmələri şərti qoyulmuşdu. O dövrə aid Avropa qaynaqları göstərir ki, Osmanlı tabeliyində qalan gürcü knyazlıqlarında yerli idarəçilik saxlanılmış, gürcü qaydaları dəyişdirilməmişdi. Yerli xristian əhali öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirə bilirdilər. XVII əsrin ortalarında Qafqazdakı Osmanlı və Səfəvi mülklərini gəzmiş Övliya Çələbi yazmışdır ki, Sultan Süleyman Qanuninin zamanında Gürcüstanda xristian əhalinin dini etiqadı sərbəst saxlanmışdı. Bu dövrdə Osmanlı sultanı yalnız Abxaziyadan şimalda yaşayan 25 abaza tayfasını İslamı qəbul etməyə məcbur etmişdi. Bu da həmin tayfalarda bütpərəstlik dini etiqadlarının saxlanması ilə bağlı idi.

**XVI əsrin 70-80-ci illərində hərbi əməliyyatlar. İstanbul sülhü.** Qafqazda nisbi sabitlik I Təhmasibin ölümündən sonra pozuldu. Onun varislərinin hakimiyyət uğrunda mübarizəsi, saray çevrilişləri Səfəvi dövlətini zəiflətdi. Sultan III Murad (1574-1585) bundan istifadə edib **1578-ci ildə** Səfəvi dövlətinə qarşı yeni müharibəyə başladı. Həmin il İrəvan və Naxçıvan bölgələri, Şərqi Gürcüstan və Şirvan Osmanlı ordularının hücumlarına məruz qaldı. Dağıstan və Şirvanın işğalında Osmanlı sultanının vassalı Krım xanı mühüm rol oynadı.




**Xəritə 7.** Qafqaz XVI-XVII əsrlərdə.

Səfəvi qoşunlarının 1578-ci ilin payızında Osmanlı-Krım qüvvələrini Alazan çayı və Ağsu yaxınlığında döyüşlərdə məğlub etməsi, Krım xanı Adil-Gərayı əsir alması müharibənin ümumi gedişinə az təsir etdi. Osmanlı-Krım qüvvələri Şirvanı ələ keçirmək üçün 70-ci illərin sonu – 80-ci illərin başlanğıcında hər il böyük yürüşlər təşkil etdi. **1583-cü ildə** Səfəvi qüvvələri ***Niyazabad döyüşündə*** Osmanlı-Krım qüvvələrini məğlub edib Dağıstana tərəf sıxışdırsa da, bir neçə ay sonra Samur çayı sahilində baş verən ***Məşəl savaşında*** Osmanlı-Krım qüvvələri qalib gəldi və Şirvanda və Dağıstanda qəti möhkəmləndi.

1585-ci ildə Osmanlı ordusu baş vəzir Osman paşanın





başçılığı ilə Səfəvi torpaqlarına yeni yürüşə başladı, Təbrizi ələ keçirdi. 1587-1589-cu illərdə isə, demək olar ki, bütün Qafqaz Osmanlı qoşunları tərəfindən işğal edildi. **1590-cı ildə *İstanbul sülhünün imzalanması*** ilə Səfəvi dövləti həmin ərazilərin Osmanlı dövlətinə keçməsini qəbul etdi. Sülhün şərtlərinə görə, Səfəvi dövlətinin əlində yalnız Qafqazın cənub-şərq bölgələri: Qaradağ, Lənkəran və Ərdəbil vilayətləri qaldı.

Osmanlı dövləti yeni tabe edilən ərazilərdə öz idarəçilik qaydalarını tətbiq etdi. Osmanlı məmurları yeni inzibati vahidlərə başçı qoyuldu. Şiəliyin təqibi, Qafqaz əhalisi üzərinə qoyulan vergilərin artırılması baş verdi. XVI əsrin 80-90-cı illərində Osmanlı xəzinəsinin gəlirlərinin azalması baş verdi. Bunun əsas səbəbləri işğalçı müharibələrin gətirdiyi gəlirlərin kəskin şəkildə ixtisarı, Şərqlə Qərb arasında ticarətdən gələn gəlirin dünya ticarət yollarının okeanlara keçməsi ilə əlaqədar azalması idi. Rəsmi Osmanlı mənbələri 80-ci illərin sonunda Qafqazda qulluq edən hərbçilərin məvaciblərini vaxında ödənmədiyini qeyd etmişdir.

Osmanlı dövləti xüsusilə İstanbul sülhünün imzalanmasından sonra Qafqazın yeni işğal olunmuş bölgələrində vergiləri artırdı. Həm də bu zaman artırılmış vergiləri xüsusi amansızlıqla toplamağa başladı. Osmanlı zülmündən narazı qalan əhali Dağıstanın, Gürcüstanın çətin keçilən dağlıq bölgələrinə, xüsusilə də Səfəvi dövlətinin nəzarətində qalan şərq əyalətlərinə köçdülər. Məsələn, 1585-ci ildə Təbriz işğal edilərkən sakinləri kütləvi surətdə şəhəri tərk etdilər. Bir neçə il sonra Osmanlı vergi yığanları 400 yüz minə qədər əhalisi olan bu böyük şəhərdə cəmi bir neçə min insanın yaşadığını qeyd etmişdilər.

XVI əsrin sonunda Osmanlı dövlətinin şərq əyalətlərində, o cümlədən yeni tutulmuş Qafqaz torpaqlarında Osmanlı ağalığına qarşı xalq həm də əlində silah mübarizəyə qalxdı.

## Qafqaz XVII əsrin birinci yarısında

**XVI əsrin sonu – XVII əsrin başlanğıcında Qafqazda əhalinin vəziyyəti.** XVII əsrin əvvəlində Qafqaz diyarının sosial-iqtisadi və siyasi vəziyyəti son dərəcə ağır idi. Uzun sürən Səfəvi-Osmanlı müharibələri nəticəsində şəhər və kəndlər dağılmış, təsərrüfat həyatı pozulmuşdu. Qafqazın şərq və cənub-qərb vilayətlərində əhalinin bir qismi daimi yaşayış yerlərini tərk etmiş, ucqarlarda və dağlıq ərazilərdə sığınacaq tapmışdı. Xüsusən 1604-cü ildə Səfəvi qoşunlarının Cənubi Qafqazdan geri çəkilməsi zamanı İrəvan və Naxçıvan vilayətlərindən əhali kütləvi surətdə Səfəvi imperiyasının şərq hissəsinə köçürülmüş, taxıl və ot-ələf ehtiyatları, bütöv kəndlər məhv edilmişdi. Mənbələrin *"böyük sürgün"* adlandırdıqları bu qəddar tədbirlər nəticəsində 350 minə qədər adam doğma yurdundan didərgin düşmüşdü. 1614-cü ildə isə Kaxetidən də Səfəvi dövlətinin daxili bölgələrinə 100 min adam sürgün edilmişdi.

Hərbi əməliyyatlarla əlaqədar Şərqlə Qərb arasında Qafqaz vasitəsilə aparılan ticarət əlaqələri zəifləmişdi. Qafqazın cənubundan Qara dəniz sahillərinə və Xəzər dənizinin qərb sahili boyunca şimala doğru ticarət yollarının əhəmiyyəti azalmışdı. İpək ticarətinin mühüm mərkəzi olan Culfa məhv edilmişdi, əhalisi isə İsfahana köçürülmüşdü. Səfəvi hökmdarı I Şah Abbas bu tədbirlərlə Osmanlı dövlətinə iqtisadi zərbə vurmağa, onun Qafqazdakı mövqelərini zəiflətməyə çalışırdı.

Osmanlı dövləti Qafqazın şərq hissəsini özünə tabe etdikdən sonra burada yeni inzibati bölgü tətbiq etmişdi. XVI əsrin sonunda Cənubi Qafqaz Osmanlı dövlətinin Anadoludakı mülkləri kimi vilayət və sancaqlara bölündü. Regionun əhalisi və təsərrüfatları siyahıya alındı. Əhali üzərinə çox ağır vergi və mükəlləfiyyətlər qoyuldu. XVII əsrin başlanğıcında təkcə Şərqi Qafqazdan ildə 25,2 milyon axça vergi toplanırdı. Vergini vaxtında ödəyə bilməyənlərin ailə üzvləri





köləliyə verilirdi. Hər il minlərlə qafqazlı qul bazarında satılırdı. Bununla belə, Osmanlı dövlətinin gəliri ildən-ilə azalır, nəhəng hərbi qüvvəni saxlamaq xərcləri xəzinə üçün ağır yükə çevrilirdi. İş o yerə çatmışdı ki, Qafqazdakı türk qoşunları illərlə məvacib almırdı. Vergiləri daha da artırmaq cəhdləri, türk məmurlarının qəddarlığı, sünniliyin zorla yayılması yerli əhalinin fəal müqavimətinə səbəb olurdu.

**Cəlalilər hərəkatı.** XVI əsrin sonunda Şərqi Gürcüstanda Osmanlı əsarətinə qarşı güclü xalq çıxışı baş verdi. Üsyana Kartli şahı Simon başçılıq edirdi. 1599-cu ildə üsyançılar Qori qalasını ələ keçirdilər. Azadlıq mübarizəsi bütün Kartliyə və Samsxeti knyazlığına yayıldı. Osmanlı dövləti Gürcüstana çoxsaylı cəza ordusu yeritdi. Üsyan qəddarlıqla yatırıldı. Simon və 70 aznaur ələ keçirilib İstanbuldakı Yeddiqüllə həbsxanasına salındı.

XVII əsrin ilk illərində Osmanlı dövlətinin şərq vilayətlərində, o cümlədən Qafqazda ***Cəlalilər hərəkatı*** geniş miqyas aldı. Feodal özbaşınalığına və amansız istismara qarşı yönəlmiş bu hərəkat, Qafqazda həm də Osmanlı zülmünə qarşı azadlıq xarakteri daşıyırdı. 1602-ci ildə Dəli Həsənin başçılıq etdiyi cəlali dəstəsi Şərqi Anadoluda və Qafqazın cənub-qərbində mübarizə aparırdı. **1603-1608-ci illərdə** üsyançı dəstələri İrəvan, Naxçıvan, Maku və Ərzurum ərazilərində daha çox fəallıq göstərirdi. Bütövlükdə isə, Cəlalilər hərəkatı, Təbrizli Arakelin qeyd etdiyinə görə, İstanbuldan İrəvana, Bağdaddan Dəmirqapıyadək olan torpaqları əhatə etmişdi.

Şah I Abbas (1587-1629) Osmanlı dövlətini Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq üçün bu üsyançıların qüvvəsindən yararlanmağa çalışırdı. O, Osmanlı ağalığında qalan vilayətlərdə mübarizə aparan cəlali dəstələrinə Səfəvi mülklərində sığınacaq verir, qorxmaz və cəsur üsyançıları öz qoşununa qəbul edirdi. Məsələn, 1608-ci ildə Ərzurum yaxınlığında Osmanlı qoşunu ilə döyüşdən sonra cəlalilər şahın icazəsi ilə Çuxur-Səəd bəylərbəyliyinə (müasir Ermənistan ərazisinə – Q.Ə.) köçüb yerləşmişdilər.

Mənbələr 60-a qədər cəlali dəstəsinin fəaliyyət göstərdiyini qeyd etmişlər. Onların içərisində ən məşhuru azərbaycanlı xalq qəhrəmanı *Koroğlunun* başçılıq etdiyi dəstə idi. Koroğlu Osmanlı ağalığına, feodal zülmünə, tacir və sələmçilərin soyğunçu əməllərinə qarşı cəsarətli və barışmaz mübarizəsi ilə ümumxalq məhəbbəti qazanmışdı. Son dərəcə cəsur və qorxmaz, ağıllı və tədbirli, səxavətli və mərd igid olduğuna görə, onun haqqında dastan qoşulmuş, şəxsiyyəti əfsanəvi qəhrəmana çevrilmişdi. Koroğlunun XVII əsrin əvvəlində Cənubi Qafqazda mübarizə aparmış real tarixi şəxsiyyət olmasını çoxsaylı mənbələr sübut edir. Mənbələrdə həmçinin "Koroğlu" dastanında adı çəkilən Gizir oğlu Mustafa bəy, Kosa Səfər və Tanrıtanımazın da üsyan başçısı olmaları öz əksini tapmışdır. 1610-cu ildə Osmanlı sultanının üsyançıları əfv etmək vədi, Səfəvi dövlətinin yeritdiyi siyasətdən məyusluq Cəlalilər hərəkatının zəifləməsinə səbəb oldu.

**Şah I Abbasın Cənubi Qafqazı osmanlılardan geri alması.** Şah I Abbas hakimiyyətinin ilk illərində həyata keçirdiyi islahatlarla Səfəvi dövlətinin hərbi qüdrətini kəskin surətdə yüksəltmişdi. O dövrün müasir silahları – top-tüfənglə təchiz olunmuş, yaxşı təlim görmüş Səfəvi qoşunları **1603-cü ildə** Cənubi Qafqaza yürüşə başladılar. Məqsədi ötən yüzillikdə itirilmiş mövqeləri geri qaytarmaq, Qafqazı yenidən özünə tabe etmək idi.

Səfəvi qoşunlarının yaxınlaşması Təbriz, Naxçıvan və Ordubadda Osmanlı ağalığına qarşı mübarizəyə səbəb oldu. Yerli əhali üsyan qaldırıb türk qarnizonlarını qovdu. Maku vilayətinin hakimi Səfəvi dövlətinin tərəfinə keçdi. Kartli və Kaxeti şahları da şah I Abbasa tabe olduqlarını bildirdilər. Onlar öz hərbi qüvvələri ilə 1603-cü ilin noyabrında İrəvanı mühasirəyə almış Səfəvi qoşununa yardım etdilər. Nəticədə 7 aylıq mübarizədən sonra İrəvandakı 10 minlik türk qarnizonu məğlub oldu.

**1605-ci ildə** Şirvan və Dərbənd Osmanlı qoşunlarından təmizləndi. Tezliklə Dağıstanın çox hissəsi Səfəvi dövlətinə





tabe edildi. 1610-1611-ci illərdə isə tabasaranlıların müqavimətinə son qoyuldu. Yalnız çətin keçilən dağlıq ərazidə darginlərlə döyüş uğursuz oldu.

**1612-ci il oktyabrın 17-də *İstanbulda*** Səfəvi və Osmanlı dövlətləri arasında sülh müqaviləsi bağlandı. Osmanlı sultanı I Əhməd Səfəvi tərəfinin təklif etdiyi 1555-ci il Amasiya sülhü əsasında müəyyən edilmiş sərhədlərin bərpası şərtini qəbul etdi. Həmçinin bu müqaviləyə görə, Səfəvi dövləti osmanlılara ildə 200 tay ipək verməyi öhdəsinə götürdü. Digər yeni şərt, Rus dövlətinin XVI əsrin sonunda Terek çayı sahilində yenidən inşa etdiyi qalanın Osmanlı-Krım qüvvələri tərəfindən dağıdılmasına Səfəvi dövlətinin razılıq verməsi idi.

Lakin bu sülh uzunömürlü olmadı. İki il sonra Qafqazda yenidən hərbi əməliyyatlar başlandı. Osmanlı dövləti Şərqi Qafqazın itirilməsini istəmir, Səfəvi dövləti isə yeni ərazilər ələ keçirməyə çalışırdı. 1614-1615-ci illərdə şah I Abbas Gürcüstanın və Dağıstanın daxili rayonlarına böyük qoşun yeritdi. Səfəvi şahı Tarku qalasını ələ keçirmək, Terek və Göysu çayları üzərində möhkəmləndirilmiş məntəqələr yaratmaq və hərbi qarnizonlar yerləşdirmək, bütün Şimali Qafqazı öz təsirinə almaq niyyətində idi.

Şah qoşunlarının **1614-cü ildə** Kaxetiyə daxil olub, oradan da şimala doğru irəliləməsi Şimali Qafqazda ciddi əks-səda doğurdu. Kabarda knyazı Mudar Alkasov Səfəvi şahının hüzuruna gələrək tabe olduğunu və şah qoşunlarının Dəryal keçidindən şimala doğru irəliləməsinə yardım göstərəcəyini bildirdi. Həmin il şah I Abbasın əmri ilə Şirvan bəylərbəyi Şahnəzər xan 12 minlik qoşunla Dərbənddən şimala yürüşə başladı. Qumuq knyazları Səfəvi dövlətinə tabe edildi.

1616-cı ildə Osmanlı qoşunlarının İrəvana hücum etməsi ilə əlaqədar şah I Abbas Şimali Qafqaza yürüşü dayandırdı. Səfəvi qüvvələri düşməni İrəvanın mühasirəsini dayandırıb geri çəkilməyə məcbur etdi. Lakin 1618-ci ildə osmanlılar vəziri-əzəm Xəlil paşanın başçılığı ilə yenidən Cənubi Qafqaza hücum edib Təbriz və Ərdəbilə qədər torpaq-

ları ələ keçirdilər.

Həmin dövrdə Krım xanı da Kabardaya, oradan da Cənubi Qafqaza 15 minlik qoşun yeritdi. Osmanlı sultanı Şimali Qafqazın feodal hakimlərinə fərman göndərərək ona yardım göstərmələrini tələb etdi. Lakin Səfəvi qoşunları **1618-ci il sentyabrın 10-da** ***Sınıq körpü*** adlı yerdə (Ərdəbil yaxınlığında) baş verən döyüşdə birləşmiş Osmanlı-Krım qüvvələrini ağır məğlubiyyətə uğratdı və Qafqazın çox hissəsini yenidən öz nəzarəti altına aldı. **1618-ci il sentyabrın 26-da** *Mərənddə* şah I Abbasla Xəlil paşa arasında sülh müqaviləsi imzalandı. Bu sülhün 1612-ci il İstanbul sülhündən yeganə fərqi Səfəvi tərəfinin ödəyəcəyi ipək xəracının ildə 100 taya endirilməsi oldu.

**Georgi Saakadzenin başçılığı ilə üsyan.** XVII əsrin 20-ci illərində Səfəvi dövləti Gürcüstanda mövqeyini daha da möhkəmləndirməyə, bütün Cənubi Qafqazı özünə tabe etməyə yeni cəhd etdi. Bu məqsədlə 1622-1623-cü illərdə Çuxur-Səəd bəylərbəyi Əmirgünə xan Qacarın başçılığı ilə Səfəvi qoşunları Qərbi Gürcüstana yürüş etdi və Samsxeti (Axalsıx) knyazlığını ələ keçirdi. Hərbi əməliyyatlar nəticəsində şəhər və kəndlərin dağıdılması, Səfəvi məmurlarının özbaşınalığı və qəddarlığı Gürcüstanda ciddi narazılıq doğurdu. Kartli-Kaxeti şahı I Teymuraz öz hakimiyyətini qoruyub saxlamaq üçün bu narazılıqdan istifadə etdi. **1624-cü ildə** Gürcüstanda böyük üsyan başlandı.

1625-ci ilin başlanğıcında Gürcüstana cəza ordusu göndərildi. Səfəvi sarayında 15 ilə qədər xidmət etmiş gürcü aznauru ***Georgi Saakadze*** də ordu ilə birlikdə idi. O, XVII əsrin ilk illərində Osmanlı ağalığına qarşı mübarizədə cəsur sərkərdə kimi şöhrət qazanmışdı. Kartli şahı onu Tiflis *murovu* (hakimi-Q.Ə.) təyin etmişdi. Gürcü knyazlarının hakimiyyətini məhdudlaşdırmağa çalışdığı üçün mülkü yandırılmış, özü isə Səfəvi sarayına qaçmaqla xilas ola bilmişdi.

Şah I Abbas Georgi Saakadzenin xalq arasında nüfuzundan istifadə etməklə Gürcüstanı öz itaətində saxlamağa





çalışırdı. Lakin bu məşhur sərkərdə üsyançılarla gizli əlaqə yaratdı və **1625-ci il martın 25-də** Səfəvi ordusunun düşərgə saldığı ***Martkobiyə*** qəfil hücum təşkil etdi. O, cəza ordusu komandanını və digər qoşun başçılarını öldürərək Səfəvi ordugahında çaşqınlıq yaratdı. Gürcülər bu zaman hücum edib qələbə çaldılar. Tezliklə bütün Gürcüstan azad edildi. Georgi Saakadze bununla kifayətlənməyərək Gəncəyə və Araz çayına qədər əraziyə də hücum etdi. Eyni zamanda, üsyançılar Osmanlı dövləti ilə əlaqə yaratdılar.

Sultan IV Murad (1623-1640) Gürcüstanda yaranmış vəziyyətdən istifadə edib Səfəvi nəzarətində olan bölgələrə qoşun yeritdi. Samsxeti torpaqları yenidən Osmanlı dövlətinin əlinə keçdi. 1628-ci ildə burada sultanın əmri ilə ayrıca Ahalsıx paşalığı yaradıldı.

Səfəvi dövləti Gürcüstana yenidən çoxsaylı seçmə qoşun yeritdi. Şahın qvardiya korpusu, tüfəngçi korpusu, artilleriya dəstəsi də Kartliyə göndərilmişdi. **1625-ci iyunun 30-da** ***Marabda düzündə*** qanlı döyüş baş verdi. Üsyançılar məğlub oldular. 9 min gürcü üsyançısı həlak oldu. Georgi Saakadze partizan dəstələri yaradaraq daha bir il mübarizə aparsa da, sonda məğlub olub Osmanlı tərəfə keçdi.

Gürcü xalqının bu azadlıq mübarizəsinin böyük əhəmiyyəti oldu. Səfəvi şahının gürcü dövlətlərini məhv edib bəylərbəyilik yaratmaq cəhdinin qarşısı alındı. Gürcü şahlarının hakimiyyəti saxlandı. Əvəzində onlar müsəlmanlığı qəbul etməli, Səfəvi şahının valisi kimi itaət göstərməli idilər. Kartli şahı ***Rostom*** (müsəlmanlığı qəbul etdikdən sonra Xosrov Mirzə adını almışdı – Q.Ə.) (1632-1658) və varisləri bu cür siyasət yeritməklə ölkədə əmin-amanlığa nail oldular. **1638-ci ildə** Kaxetidə Səfəvi hakimiyyətinə qarşı başlanmış üsyanın hərbi yürüş və dağıntı olmadan yatırılmasında da Rostom fəal rol oynadı. Onun vasitəçiliyi ilə Kaxeti şahı barışıq xahiş etdi və itaət əlaməti olaraq gözəl qızı Tinatini şah sarayına göndərdi.

**Səfəvi və Osmanlı müharibələrinin sona çatması.** XVII əs-

rin 30-cu illərində Səfəvi və Osmanlı dövlətləri arasında hərbi əməliyyatlar yenidən qızışdı. **1633-cü ildə** Səfəvi şahı I Səfi (1629-1642) Van qalasına hücum təşkil etdi. O, həmin ərazidə yaşayan kürd tayfalarının yardımı ilə qələbə çalmaq ümidində idi. Lakin osmanlıların möhkəm müqaviməti ilə üzləşib geri çəkilməli oldu.

1635-ci ildə isə Osmanlı sultanı IV Murad böyük ordu ilə hücum edib İrəvanı və Təbrizi ələ keçirdi. Sultanın əmrilə Təbriz xüsusi qəddarlıqla dağıdıldı. Yalnız Səfəvi qoşunlarının əks-hücum təhlükəsi düşməni geri çəkilməyə vadar etdi. **1638-ci ildə** Ərzurum paşasının Ağrı dağı istiqamətində yeni yürüşü də əhaliyə və təsərrüfata ciddi ziyan vurdu. Bununla belə, müharibə edən tərəflərdən heç biri Qafqazda mütləq üstünlük qazana bilmədi.

**1639-cu il mayın 17-də *Qəsri-Şirində*** sülh müqaviləsi bağlandı. Fasilələrlə yüz ildən artıq davam etmiş Səfəvi-Osmanlı müharibəsi başa çatdı. Müqaviləyə əsasən, Şimali Qafqazın çox hissəsi və Qərbi Gürcüstan Osmanlı dövlətinin, Şərqi Gürcüstan, Azərbaycan və Dağıstan Səfəvi dövlətinin hakimiyyəti altında qaldı. Sonuncu Van, Qars və Ahalsıxa olan iddialarından imtina etdi. Səfəvi dövləti həmçinin, qərb sərhəddi boyundakı Maku, Qotur və Mağazburd qalalarını dağıtmağı öhdəsinə götürdü. Müqaviləyə görə, hər iki tərəfin tacirlərinin bir-birinə və qarşı tərəfin ərazisindən keçib üçüncü dövlətin ərazisinə getmələrin icazə verildi.

1639-cu il müqaviləsi XVIII əsrin 20-ci illərinə kimi qüvvədə qaldı. Hərbi əməliyyatlardan xüsusilə çox zərər çəkmiş Qafqaz vilayətlərində əhali dinc əməklə məşğul olmaq imkanı qazandı. Şəhər və kəndlər bərpa olunmağa, təsərrüfat həyatı dirçəlməyə başladı.





# QAFQAZ YENİ DÖVRÜN ASTANASINDA

## Qafqaz XVII əsrin ortaları və ikinci yarısında

**İqtisadi həyatın canlanması. Əhalinin vəziyyəti.** Səfəvi və Osmanlı müharibələrinin başa çatması ilə Qafqazda sakitlik yarandı. XVII əsrin 40-cı illərindən etibarən təsərrüfat həyatı dirçəlməyə başladı. Əkin sahələri genişləndi, sənətkarlıq və ticarətdə canlanma baş verdi. Erməni xronisti Zaxari Sarkavaq yazırdı ki, sülh bağlandıqdan sonra tacirlər “çəkinib qorxmadan İstanbuldan İsfahana kimi gedə bilirdilər”. Bu da şəhərlərin inkişaf edib böyümələrinə və keçmiş şöhrətlərini qismən bərpa etmələrinə səbəb olurdu. Bu dövrdə təkcə Qafqazın şərq hissəsində 40-a qədər böyük şəhər mövcud idi ki, onların əksəriyyəti əvvəlki dövrlərdə olduğu kimi bütövlükdə Şərqin mühüm iqtisadi mərkəzi rolunu oynamaqda idilər.

Qafqaz ölkələrinin iqtisadiyyatında kənd təsərrüfatı, xüsusən əkinçilik əsas yer tuturdu. XVII əsrin ortalarında Qafqazda olmuş türk səyyahı Övliya Çələbi taxıl əkinlərinin geniş ərazidə yayıldığını qeyd etmişdir. Başlıca olaraq buğda, arpa, darı, Şimali Qafqazda isə bunlardan əlavə çovdar və yulaf becərilirdi. Çəltik, pambıq, paxlalı bitkilər əkini, bağçılıq və bostançılıq da əhəmiyyətli yer tuturdu.

Əkinçilikdə süni suvarma mühüm rol oynayırdı. Düzənlik ərazilərdə və çay vadilərində süni suvarmadan daha geniş istifadə olunurdu. Bu dövrdə süni suvarma şəbəkələrinin inkişaf etdirilməsi üçün addımlar atılırdı.

XVII əsrin ortalarında Səfəvi dövlətində istehsal edilən ipəyin çox hissəsi Qafqazın payına düşürdü. İpəkçiliklə Şirvanda, Qarabağda, qismən də Cənubi Dağıstanda və Terek boyunda məşğul olurdular.

Qafqazın dağlıq və dağətəyi zonalarında maldarlıq, xüsusən qoyunçuluq əsas yer tuturdu. Sürüləri yayda dağ

çəmənliklərində otarır, payızda isə düzənlik əraziyə aparırdılar. Qarabağda, Marağada, Kalmık və Noqay torpaqlarında atçılıq müstəqil təsərrüfat sahəsi idi.

Müxtəlif sənət sahələri güclü inkişaf etmişdi. Dəmirçi, misgər, toxucu, xalçaçı, dulusçu, dabbaqçı, dərzi, zərgər, silah və zireh qayıranların, eləcə də digər sənətkarların hazırladıqları məhsullar geniş yayılmışdı. Təbriz, Şamaxı, Gəncə, Tiflis, Kutais, Dərbənd, Tarku mühüm sənətkarlıq və ticarət mərkəzləri idi. O dövrün səyyahları bir çox kəndlərdə, çeçen, inquş və Dağıstan aullarında çox mahir sənətkarların çalışdıqlarını qeyd etmişlər. Silah ustaları çox möhkəm poladdan qılınc, xəncər kimi soyuq silahlarla yanaşı, atəşaçan silahlar da hazırlayırdılar. Şirvanın Lahıc kəndində silah ustaları hətta top da düzəldə bilirdilər. 1661-ci ildə Rusiya hökuməti Qafqazın mahir ustalarını Həştərxana dəvət etmişdi ki, oradakı sənətkarlara silah və zireh qayırmağı öyrətsinlər.

Bəhs olunan dövrdə Qafqazın mərkəzi və şərq hissəsi Səfəvi dövlətinin tərkibində idi. Şərqi Gürcüstanda yerli Baqratilər sülaləsi hakimiyyətdə qalsa da, ***Çuxur-Səəd, Qarabağ, Şirvan, Təbriz bəylərbəylikləri*** Səfəvi sarayından təyin olunmuş şəxslər tərəfindən idarə edilirdi. Dağıstan və Terek çayı boyuna qədərki ərazi də Şirvan bəylərbəyliyinə daxil olan *Dərbənd hakimliyinə* tabe idi. Bu bölgələrdə yerli feodalların imtiyazları artırılır və beləliklə onlar güclənir, daha çox müstəqilləşir, bir-biri ilə çəkişmələrə girişir, hətta Səfəvi şahına qarşı açıq çıxışlar edirdilər.

XVII əsrin ortalarında Kartlidə hökmranlıq edən Rostom Baqrationi (1632-1658) (rəsmi Səfəvi sənədlərində "Gürcüstan valisi Xosrov Mirzə" adlandırılır – Q.Ə.) İslam dinini qəbul etmiş və ölkəsində əmin-amanlığa nail olmuşdu. Bu dövrdə Kartlinin təsərrüfat həyatı sürətlə inkişaf edir, geniş inşaat işləri aparılırdı. Rostom Tiflis qalasını təmir etdirmiş, şəhərin mərkəzində böyük karvansara tikdirmiş və Kür çayı üzərindən körpü saldırmışdı. Onun varisi V Vaxtanq (1658-1675) da atasının xəttini davam etdirərək mü-





səlmanlığı qəbul etmiş və Şahnəvaz xan adı almışdı. Onun dövründə də dinc quruculuq davam etməkdə idi. Kaxetidə isə I Teymuraz Baqrationi (1606-1648) hökmranlıq edirdi.

XVII əsrin ikinci yarısında gürcü əyanları Səfəvi dövlətində mühüm dövlət postları tuturdular. Gürcü tarixçisi P.Qorqicanidzenin məlumatına görə, bəhs olunan dövrdə Baqrationilər nəslindən olan gürcü əsilzadələr *qullar ağası* – atlı döyüşçülərdən ibarət şah qvardiyasının rəisi, paytaxt şəhəri *İsfahanın darğası* kimi çox mühüm vəzifələri icra edirdilər.

Erməni əhalisi yaşayan bölgələrdə də Səfəvi dövlətinə münasibət loyal idi. Erməni kilsəsi və iri erməni tacirləri şah sarayından böyük imtiyaz və güzəştlər almışdılar. Erməni kilsəsi geniş torpaq mülklərinə sahib olmaq hüququna malik idi və erməni əhalisindən kilsənin xeyrinə vergi toplayırdı. Erməni tacirləri şahın himayəsindən yararlanaraq dövlət vergilərini, sikkəxanaları icarəyə götürür, Osmanlı və digər ölkələrə karvanlar göndərir və böyük sərvət qazanırdılar. Səfəvi şahlarının erməni tacirlərini himayə etməsi və yerli hakimiyyət nümayəndələrinə onların əmlakını ciddi şəkildə qorumalarını tapşırması erməni əhalisi tərəfindən minnətdarlıqla qeyd edilirdi. Yeni Culfa (İsfahan yaxınlığında – Q.Ə.) taciri Səfər qeyd edirdi ki, erməni xalqı hətta erməni şahlarının hakimiyyəti dövründə olduğundan da yaxşı yaşayırlar, çünki müharibələrdə iştirak etmirlər və bütün ölkələrlə sərbəst əlaqə yaratmaq imkanlarına malik idilər.

Qafqazın qərb torpaqları: ***İmereti şahlığı, Quriya, Meqreli, Abxaziya knyazlıqları,*** həmçinin Şimali Qafqazın çox hissəsi Osmanlı imperiyasının hakimiyyəti altında qalmaqda idi. Bu ərazilərdə nisbi əmin-amanlıq hökm sürürdü.

Gürcü knyazlıqları öz daxili müstəqilliklərini saxlamışdılar və xristian əhali sərbəst şəkildə öz dini ayinlərini icra edə bilirdilər. Hətta bu knyazlıqlardan Osmanlı xəzinəsinə xərac göndərilməsi də müntəzəm deyildi. Qərbi Gürcüstandan vergi bir qayda olaraq hər iki-üç ildən bir toplanırdı. Osmanlı səyyahı Övliya Çələbinin məlumatına görə, XVII

əsrin ortalarında İmereti hökmdarı hər il İstanbula yalnız hədiyyələr – "ov quşları: şahin və quzğunlar, qatırlar, nadir gözəlliyə malik gürcü qızları" göndərirdi. Bəhs olunan dövrdə 30 ildən artıq Meqrelidə yaşamış italyan missioneri A.Lamberti yazırdı ki, Meqreli knyazı Dadiani sultan xəzinəsinə yalnız hər iki ildən bir vergi ödəyir. Amma dostluq etdiyi sultanın vəzirinə hər il hədiyyələr göndərir. Meqreli knyazı İstanbul sarayı ilə dostluq əlaqəsini davamlı saxlamaqla öz ölkəsini Osmanlı qoşununun yürüşlərindən mühafizə edə bilirdi.

Şimali Qafqazın qərb hissəsi Azov ətrafı ərazilərlə birlikdə ayrıca vilayət təşkil edirdi. Mərkəzi *Kafə* olan bu vilayət bilavasitə sultanın xassı sayılırdı. Çərkəz (adıq) tayfalarının bir hissəsi də Krım xanına tabe idi. Bu bölgəyə 1641-1643 və 1646-cı illərdə səyahət etmiş Övliya Çələbi qeyd edirdi ki, Çərkəzistan xalqları aşar (məhsulun onda biri) vergisini "Kafə valisi"nə ödəyirlər. Krım xanından asılı olan çərkəz tayfa başçıları – bəylər isə hər il xana çərkəz əsirləri göndərməli idilər. Ümumiyyətlə isə çərkəz bəyləri öz tayfaları üzərində tam hakimiyyətə malik idilər.

**Kaxetidə və Dağıstanda Səfəvi ağalığına qarşı üsyanlar.** XVII əsrin ortalarında Səfəvi dövləti Kaxetidə yerli sülaləni hakimiyyətdən saldı. 1648-ci ildə şah II Abbas (1642-1666) Kaxetinin idarəsini Kartli hökmdarı Rostomun idarəsinə verdi. Bu dövrdə Rostom hər iki Şərqi Gürcüstan şahlığını idarə etməklə yanaşı bütün Gürcüstanı birləşdirməyə çalışırdı. Rostomun həddindən artıq güclənməsindən ehtiyat edən Səfəvi şahı növbəti addım atdı. 1656-cı ildə Kaxetini Kartlidən ayırıb Qarabağ bəylərbəyinə tabe etdi. Öz dayaqlarını möhkəmlətmək üçün oraya yeni türk tayfaları yerləşdirdi. Qarabağ bəylərbəyi Murtuzaqulu xan şahın tapşırığı ilə Kaxetiyə Cavanşir, Bayat və s. elat tayfalarından ibarət 15 min çadır köçürdü.

Şahın Kaxetidə həyata keçirdiyi bu tədbirlər ölkədə ümumi narazılığı gücləndirdi. Səfəvi dövlətinə sədaqəti ilə





seçilən Kaxeti zadəganları – tavadlar da Qarabağ elatlarının bölgəyə köçürülməsini öz maraqları üçün ciddi təhlükə kimi qəbul etdilər. Dağlıq bölgələrdə yaşayan gürcü tayfaları: tuşinlər, pşavlar, xavsurlar isə Kaxeti vadisinə türk tayfalarının köçürülməsini düşməncəsinə qarşıladılar.

Səfəvi şahı Kaxetidə baş verə biləcək üsyanı önləmək üçün sərkərdəsi Allahverdi xanı böyük ordu ilə oraya göndərdi və qala inşa etdirməyə başladı. Lakin Səfəvi ağalığına qarşı üsyan daha öncə ***Dağıstanda*** başladı. **1658-ci ildə** Qaytaq usmisi Abbasqulu xan, Tarku şamxalı Surxay xan üsyançılara qoşuldular. Üsyanı yatırmaq üçün şahın əmrilə Kaxetidəki Səfəvi qoşunundan 15 min döyüşçü Dağıstana göndərildi. Cəza ordusuna tüfəngçi və topçu dəstələri də daxil edildi. Dərbənddən şimalda baş verən döyüşdə 30 minlik üsyançı ordu Səfəvi qoşununun odlu silahı qarşısında məğlubiyyətə uğradı. Üsyan başçıları təslim oldular. Səfəvi şahı yeni çıxışları önləmək üçün üsyana qoşulmuş Dağıstan feodallarını əfv etdi və bütün diqqətini Gürcüstana yönəltdi.

**1659-cu ildə *Kaxetidə*** böyük üsyan başladı. Tuşin atlıları üsyançılara köməyə gəldi. Üsyançılar Baxtrioni qalasını ələ keçirdilər və Alazan sahilində Səfəvi ordusunu məğlub etdilər. Yeni köçürülmüş tayfaların kişi əhalisi qılıncdan keçirildi, salamat qalanlar isə ölkədən çıxarıldı. Səfəvi şahı bu üsyanı çətinliklə **1660-cı ildə** yatırdı. Yalnız gürcü knyazlarını öz tərəfinə çəkməklə vəziyyəti sabitləşdirdi. Şah Rusiyadan yardım istəyən Kaxeti hökmdarı Teymurazı isə yanına çağırıb həbsxanaya saldırdı. Kartli şahı V Vaxtanqın oğlu Arçil Kaxeti taxtına çıxarıldı.

**Şimali Qafqazda etno-siyasi proseslər.** XVII əsrdə Şimali Qafqazda mürəkkəb etnik proseslər baş verirdi. Əvvəlki yüzilliklərə aid mənbələrdə adları çəkilən tayfalar daha böyük etnik birliyə çevrilir, xalqların formalaşması prosesi davam edirdi. Qafqazın simal-qərb hissəsində ən böyük etnik birlik adıqlar idi. O dövrün mənbələrində çərkəzlər adlanan bu xalq Anapadan Kuban çayı sahillərinə kimi böyük

ərazidə – Çərkəzistanda məskunlaşmışdı. Onlardan cənub-şərqdə abazinlər, Elbrus dağı yaxınlığında qaraçaylılar və balkarlar yaşayırdılar.

Terekin orta axarı boyunda kabardinlər məskunlaşmışdı və iki böyük feodallığa: Böyük Kabarda və Kiçik Kabardaya bölünmüşdülər. Terekin yuxarı axarı boyunda osetinlərin ayrı-ayrı qruplarından vahid xalq formalaşması prosesi gedirdi. Eyni zamanda, onların bir hissəsinin Gürcüstana – Cənubi Osetiyaya köçməsi davam edirdi. Terekin yuxarı axarı boyu ilə Dağıstan arasında çeçen və inquşlar yaşayırdı. Sunja çayı boyunda da onların məskənləri mövcud idi.

XVII əsrdə Cənubi Dağıstan əhalisinin bir hissəsinin Azərbaycana – Böyük Qafqaz dağlarının cənub ətəklərinə köçməsi baş verdi. Bu zamandan saxurlar İlusuda, avarlar Car-Balakən torpaqlarında daimi məskunlaşmağa başladılar.

XVII əsrin ortalarında Noqay Ordusunun parçalanması ilə əlaqədar noqayların Azov dənizi yaxınlığındakı ərazilərdən Kubana və Terek çayının aşağı axarı boyuna köçməsi başlandı.

XVII əsrin ortalarında və ikinci yarısında Qafqaz Osmanlı, Rusiya, İtaliya, Fransa və s. Avropa ölkələri ilə geniş ticarət əlaqələri saxlayırdı. Volqa-Xəzər ticarət yolu ilə aparılan ipək ticarətində Həştərxanda şirkət yaratmış erməni tacirləri fəal rol oynayırdılar. Həm onlar, həm də Bakıda və digər iri şəhərlərdə məskunlaşmış hind tacirləri Səfəvi dövlətindən qızılı və gümüşü kütləvi surətdə xaricə daşıyıb aparırdılar. Bu da əsrin son onilliklərində maliyyə böhranına səbəb oldu, daxili və xarici ticarətə ağır zərbə vurdu.

**Qafqazın şimalında Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizə.** XVII əsrin ortalarında Qafqazın şimalında Rusiyanın işğalçılıq cəhdləri geniş miqyas aldı. Buna qarşı həm yerli xalqlar, həm də Səfəvi və Osmanlı dövlətləri ciddi müqavimət göstərirdilər. Bəhs olunan dövrdə Qafqazın işlərinə Rusiyanın qarışmaq cəhdlərinin çoxalması Səfəvi-Rusiya münasibətlərinə xüsusilə mənfi təsir göstərdi. 1650-ci ildə rus





hökuməti Səfəvi şahı qarşısında Teymurazın Kaxetiyə qaytarılması məsələsini qaldırdı. 1652-ci ildə Teymurazın nəvəsi İrakli Moskvada təmtəraqla qəbul edildi. Rusiya Sunja çayının Terekə töküldüyü yer yaxınlığında, Qafqazın şimalından cənubuna doğru qədim ticarət yolunun üzərində möhkəmləndirilmiş hərbi məskənlər yaratmağa başladı. Şah II Abbasın göstərişi ilə **1653-cü ildə** Şirvan və Dağıstandakı Səfəvi qüvvələri yerli feodal hakimlərlə birgə Rusiyanın Terek çayı boyunda möhkəmlənmək planını pozdular. Orada yaradılan rus hərbi məskənləri, o cümlədən Sunja dağıdıldı.

Bu dövrdə rusların Xəzərsahili ərazilərə yürüşləri də ciddi narahatlıq doğururdu. Rus kazaklarının 1631, 1647, 1668-ci illərdəki basqınları böyük dağıntı və məhrumiyyətlərə səbəb olmuşdu. Səfəvi dövlətinin dəfələrlə rus çarından bu yürüşlərə son qoymağı tələb etməsi nəticəsiz qalmışdı. Səfəvi sarayı da XVII əsrin son onilliklərində Rusiyanın Osmanlı dövlətinə qarşı birgə çıxış etmək haqqında çağırışlarını cavabsız qoymuşdu.

Osmanlı dövləti də Qafqazın qərb hissəsində və Kabardada öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Osmanlı sultanı və müttəfiqi Krım xanı Rusiyanın Şimali Qafqaza soxulmasına qarşı qətiyyətlə mübarizə aparırdı. XVII əsrin 60-70-ci illərində Rusiyanın Kabarda knyazlığını öz tərəfinə çəkmək cəhdi boşa çıxdı. Yerli feodallar rus çarının Krım xanlığına qarşı müharibədə min nəfərlik qoşunla iştirak etmək və Osmanlı dövlətinə xərac ödəməyi dayandırmaq təkliflərini yerinə yetirmədilər.

Qafqazın yalnız bəzi xristian hakimləri Osmanlı və Səfəvi asılılığından azad olmaq üçün Rusiya ilə yaxınlaşmağa çalışırdılar. Məsələn, İmereti şahı III Aleksandr XVII əsrin ortalarında Rusiya çarına sədaqət andı içmişdi. Kaxeti şahı I Teymuraz isə 1658-ci ildə Moskvaya səfər etmiş və çardan 30 min döyüşçü istəmişdi ki, Səfəvi dövlətinə qarşı mübarizə aparsın. Lakin həmin dövrdə İsveç və Reç Pospolita ilə ağır müharibə aparan Rusiya bu istəyi yerinə yetirmək imkanın-

da deyildi. Ona görə də, gürcü şahı əliboş qayıtmışdı. 20 il Moskvada yaşamış Kaxeti şahzadəsi İrakli də Rusiyadan real yardım ala bilməyəcəyini anlayıb 1674-cü ildə Səfəvi sarayına üz tutdu. Orada müsəlmanlığı qəbul etdi və Nəzərəli xan adı ilə Kartli taxt-tacına yiyələndi.

**Ermənilərin Avropa ölkələri və Rusiya ilə əlaqələri.** Hələ XIV-XVI əsrlərdə ermənilərin xeyli hissəsi Həştərxan, İstanbul, Lvov şəhərlərinə, Krıma və İtaliyaya köçərək böyük erməni icmaları yaratmağa başlamışdılar. Ermənilər yaltaqlıq, satqınlıq, rüşvət və s. vasitələrlə hakim dairələrə yol tapır, həmin ölkələrin iqtisadiyyatında mühüm mövqeler ələ keçirirdilər. Məsələn, Səfəvi dövlətinin Qərbi Avropa və Rusiya ilə ipək ticarəti erməni tacirlərinin əlində cəmlənmişdi. Erməni tacirləri "Culfa kompaniyası" (İsfahandakı erməni icması tərəfindən yaradılmışdı – Q.Ə.) vasitəsilə İran və Azərbaycanın Hindistan və Rusiya ilə ipək ticarətini inhisara almışdılar.

XVII əsrin sonlarına doğru ermənilərin Rusiya ilə yaxınlaşmaq cəhdləri müşahidə olunurdu. Rusiya çarı I Pyotr Qafqaza dair işğalçılıq planlarının gerçəkləşdirilməsində ermənilərdən bir alət kimi istifadə etməyi düşünürdü. Ermənilər isə Rusiyanın köməyi ilə Qafqazda Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmağa can atırdılar. Ona görə də, özlərini "əzabkeş", "müsəlmanların zülm və əsarətinə məruz qalmış məsum xristianlar" kimi qələmə verməyə çalışmaqla, özlərinə qarşı mərhəmət hissi oyatmaq, xristian həmrəyliyi duyğularından yararlanmaq istəyirdilər. Bu dövrdən etibarən Rusiya ermənilərin əsas siyasi-ideoloji dayağına çevrilməyə başlayırdı.

**1677-ci ildə** Eçmiədzində kilsə xadimlərinin gizli müşavirəsi keçirildi. Burada Avropaya nümayəndə heyəti göndərmək və Avropa hökmdarlarından Ermənistanı Səfəvi və Osmanlı zülmündən azad etmək üçün yardım göstərmələrini xahiş etmək qərara alındı. Nümayəndə heyətinə başçılıq edən erməni katolikosu Akop yolda öldü, yalnız ***İsrael Ori*** adlı erməni nümayəndəsi Fransaya çata bildi. Lakin onun Parisdə və digər Avropa saraylarında apardığı danışıqlar heç bir nəticə vermədi. Qərbi Avropadan əliboş dönən İsrael Ori çar I Pyotrdan kömək xahiş etmək üçün 1701-ci ildə Rusiyaya getdi. Lakin o zaman Rusiya hələ Cənubi Qafqaza fəal müdaxilə etmək imkanlarına malik olmadığından, bu xahişi cavabsız qoydu.





Ümumiyyətlə, Qafqaz xalqları Rusiya ilə normal iqtisadi və ticarət əlaqələri saxlanmasında maraqlı idilər. Xəzər-Volqa ticarət yolu Rusiya vasitəsilə Qərbi Avropa ilə ticarət aparmağa imkan verirdi. Çünki Osmanlı imperiyasından keçən karvan yolları və İran körfəzindən dəniz yolu ilə Avropaya mal göndərilməsi çox baha başa gəlirdi. Məsələn, Qərbi Avropaya Hörmüzdən okeanlardan keçməklə 8-10 aya, Hələbdən Aralıq dənizi ilə 2-3 aya çatmaq mümkün idi. Səfəvi ipəyini Kutaisdən Qara dəniz və Balkanlardan keçən yollarla Polşaya, Fransaya, italyan respublikalarına 10-20 günə çatdırmaq mümkün idi. Həm də bu yolla Avropaya aparılan ipək Hələbdən keçməklə aparılandan 2 dəfə ucuz idi. Çünki Şərqlə Avropa arasında ticarəti öz inhisarında saxlayan Osmanlı sultanı yüksək gömrük rüsumu tələb etməklə bu istiqamətdə iqtisadi əlaqələrin normal inkişafına imkan vermirdi. Bu da bütün bölgə xalqlarının, o cümlədən Qafqaz əhalisinin iqtisadi vəziyyətinə mənfi təsir göstərirdi.

## Qafqaz XVIII əsrin birinci yarısında. Qafqaz uğrunda Osmanlı, Rusiya dövlətlərinin və Nadir şahın mübarizəsi

**XVIII əsrin əvvəlində Qafqazda iqtisadi və ictimai-siyasi vəziyyət.** XVII əsrin sonu – XVIII əsrin əvvəlində Qafqazın şərq hissəsində ağalıq edən Səfəvi dövləti ağır maliyyə, sosial-iqtisadi böhran keçirirdi. Səfəvi şahı ***I Sultan Hüseyn*** (1694-1722) xəzinəni doldurmaq üçün hakimiyyətinin 10-cu ilində ölkəsindəki bütün əhalini siyahıya aldırdı və 15 yaşından yuxarı hər bir şəxs üzərinə *3 qat artıq vergi* qoyuldu.

Monastır və kilsələrdə də əmlakın siyahıya alınması həyata keçirildi. Yepiskoplar, rahiblər və keşişlər adi adamlardan 10 qat çox vergi ödəməyə məcbur edildi. Şahın əmrilə elat (tərəkəmə) əhalinin də mal-qarası, otlaqları siyahıya alındı və onların da üzərinə vergilər qoyuldu. Yaşayış məntəqələrinin hakimlərindən, məvacib alanların hamısından, sərkərdələrdən və qoşundan onlara verilən məvacibin onda bir hissəsini dövlətin xeyrinə vergi kimi tutmağa başladılar. Əhali üzərinə ağır vergilər qoyulması, din xadimlərinin, yerli feodalların vergi ödəməyə məcbur edilməsi ümumi narazılığı daha da gücləndirdi.

Şah məmurlarının qəddarlığı və özbaşınalığı, rüşvətxorluğu və dövlət malını mənimsəmələri kütləvi hal aldı. **1716-cı ildə** Rusiyanın Səfəvi dövlətinə göndərdiyi elçisi ***A.Volınski*** Cənubi Qafqazda bəylərbəyilərin və vilayət hakimlərinin arasında mərkəzi hakimiyyətə tabe olmamaq, toplanan vergilərin böyük hissəsini mənimsəmək əhval-ruhiyyəsini müşahidə etmişdi: bəylərbəyilər toplanan verginin «yalnız yarpağını şaha göndərirlər, meyvəsini isə özləri üçün saxlayırlar. Bu, onlarda adət şəklini almışdır».

XVIII əsrin əvvəlində Terek və Samur çayları arasında, Xəzərin qərb sahili boyundan Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərinə qədərki ərazidə 26 xalq və etnik qrup yaşayırdı. Sayca avarlar, darginlər, qumuqlar, laklar, tabasaranlılar daha böyük idilər. Bu dövrdə Dağıstanın yerli əhalisinin sayı 450 minə çatırdı. Onların 30-a qədər yarımmüstəqil və müstəqil dövlət qurumları mövcud idi. ***Tarku şamxallığı, Avar və Qazıqumuq xanlıqları, Tabasaran maysumluğu, Qaytaq usmiliyi*** daha güclü və nüfuzlu idilər. Həmçinin çoxlu sayda avar, ləzgi, dargin azad cəmiyyəti mövcud idi. Onlar da bölgənin siyasi həyatında önəmli rol oynayırdılar.

Terek çayının orta axarı boyunda, Aksay, Aktaş və Yamansu çayları vadilərində ***vaynaxlar*** (çeçenlər, inquşlar, qarabulaqlılar, akkinlər) yaşayırdılar. XVIII əsrin əvvəlindən çeçenlərin Sunja çayının yuxarı axarı boyunda, Terekin





sağ sahili tərəfdə məskunlaşması baş verirdi. Bu dövrdə Çeçenistanın düzənlik ərazisində 50-60 min əhali yaşayırdı. İnquşların sayı 20 minə, qarabulaqlıların sayı 6 minə qədər idi.

Çeçen və inquşların vahid siyasi birliyi yox idi. Çoxlu müstəqil cəmiyyətlər mövcud idi. Onlar tayp-tayfa prinsipi ilə yaşayırdılar və ağsaqqallar şurası tərəfindən idarə olunurdular. XVIII əsrin 40-cı illərində Rusiya işğallarına müqavimət göstərmək zərurəti bu bölgədə birləşmə meyllərini gücləndirdi. Din xadimlərinin ümumölkə miqyasında nüfuzu sürətlə artmağa başladı.

XVIII əsrin əvvəlində Kabardada 129 yaşayış məskəni (81-i Böyük Kabardada, 48-i Kiçik Kabardada) mövcud idi və 250 minə qədər əhali yaşayırdı. Kabardada böyük knyaz hakimiyyətinin seçkili olması çəkişmələrə və mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxarmışdı. XVIII əsrin ortalarında burada 5 müstəqil knyazlıq yaranmışdı.

Kabardadan qərbdə, Laba çayının yuxarı axarı boyunda abazinlər yaşayırdılar və sayları 12 minə çatırdı. Kabardadan cənubda, Böyük Qafqaz dağlarının şimal yamaclarında balkarlar yaşayırdılar. Onların ümumi sayı 15-18 min arasında idi. Baksan və Kuban çaylarının yuxarı axarı boyunda qaraçaylılar yaşayırdılar və sayları 3 minə qədər idi. Böyük Qafqaz dağlarının mərkəz hissəsində, Terek çayının yuxarı axarı boyunda osetin icmaları (Taqaur, Kurtatin, Alaqir, Diqor) məskunlaşmışdı. Osetiyadan Gürcüstana doğru keçid yolu mövcud idi və monqol yürüşləri dövründən başlayaraq osetinlərin cənuba köçməsi baş verməkdə idi. 1783-cü ilə aid məlumata görə osetinlərin sayı 36 minə yaxın idi. Böyük Qafqaz dağlarının qərb yamaclarında və Qara dəhiz sahili boyunda adıq etnik qrupuna mənsub 18 tayfa (natuxaylar, şapsuqlar, abadzexlər, janeylər və b.) yaşayırdı. XVIII əsrin əvvəlində adıqların ümumi sayı 230-400 min arasında idi.

**Səfəvi rejiminə qarşı xalq hərəkatı.** Səfəvi şahının təyin etdiyi məmurların qəddarlığı və özbaşınalığı, feodal istisma-

rının güclənməsi, vergilərin artırılması ümumi narazılığı artırdı. Bütün bunlardan cana doyan xalq kütlələri şah rejiminə qarşı fəal mübarizəyə qalxdılar. Carda, Şirvanda, Qafanda, Gürcüstanda, Dağıstanda üsyanlar baş verdi. **1720-1721-ci illərdə** Quba mahalında sünni ruhanilərin lideri ***Hacı Davudun*** başçılıq etdiyi üsyan xüsusilə güclü idi. Üsyançılara Dağıstan feodalları, o cümlədən ***qazıqumuqlu Surxay xan*** da qoşuldu. Üsyançıların birləşmiş qüvvəsi Dərbənd, Xudat və Şamaxı şəhərlərini ələ keçirdi. Şirvanda Səfəvi dövlətinin hakimiyyətinə son qoyuldu.

Şəhərlərin tutulması yanğın, qətl və qarətlərlə müşayiət olunurdu. 1721-ci ilin avqust ayında Şamaxı tutularkən şəhər əhalisinin evləri dağıdılmış, var-dövləti talan edilmişdi. Şəhərdəki rus tacirlərinə də ciddi ziyan vurulmuşdu. Mənbələrə görə, bu zaman 300-dən çox rus öldürülmüş, onların 400 min tümənlik əmlakı qarət olunmuşdu.

Şah I Sultan Hüseyn Səfəvi dövlətinin Gürcüstandakı valisi, ***Kartli şahı VI Vaxtanqa*** (müsəlmanlığı qəbul etdikdən sonra Hüseynqulu xan adını almışdı – Q.Ə.) əmr etdi ki, Şirvanda başlanan üsyanın Kaxetiyə və Qarabağa yayılmasına yol verməsin, qoşunu ilə qiyamçıların üzərinə hərəkət etsin. Həmin vaxt Dağıstan feodallarının və Hacı Davudun silahlı dəstələri Şəki, Kaxeti, Gəncə bölgələrinə basqınlar edir, qarətçiliklə məşğul olurdular. 1722-ci ilin yazında Dağıstan feodalları böyük qüvvə ilə yenidən hücum edib Gəncəni mühasirəyə aldılar. VI Vaxtanq 40 minlik qoşunla onlara qarşı hərəkət etdi. Gürcü qoşunlarının yaxınlaşması xəbərini alan dağıstanlılar tələsik öz yerlərinə çəkildilər.

Gürcü hökmdarı heç də qiyamçılarla mübarizə aparmaq üçün deyil, Gəncəni tutmaq üçün yürüşə başlamışdı. Onun gürcü və ermənilərdən ibarət qoşunu Gəncəni üç ay mühasirədə saxlamış, ətraf bölgələrdəki şəhər və kəndləri ələ keçirib qarət etmişdi. Həmin hadisələri öz gözü ilə görmüş alban katolikosu Y.H.Cəlalyanın yazdığına görə, gürcülər müsəlman, ya xristian olmasına fərq qoymadan bütün əhali-





nin əmlakını talayır, hətta kilsələri də qarət edirdilər: «bütün kilsələrdə nə vardısa hamısını tər-təmiz soyub öz düşərgələrini bunlarla doldurdular».

**Osmanlı dövlətinin Qafqazda öz təsirini genişləndirmək cəhdləri.** Osmanlı dövləti XVIII əsrin əvvəlində Qafqazda öz hakimiyyətini möhkəmləndirməyə və genişləndirməyə çalışırdı. Bu məqsədlə Şimali Qafqazda **1703-cü ildə** *Yeniqala* inşa edilmiş, *Kerç, Taman, Anapa* qalalarındakı türk qarnizonları gücləndirilmişdi. Krım xanı da Kuban və Terek boyuna yürüş edərək Rusiyaya meyl edən yerli feodalları cəzalandırmışdı. Çünki burada yaşayan adıqlar, çərkəzlər, qaraçaylılar və balkarlar keçən əsrlərdən Krım xanlığına tabe idilər.

***Sultan III Əhməd*** (1703-1730) XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin ağır vəziyyətindən istifadə edərək Tiflisi və İrəvanı ələ keçirməyə, Şirvanda və Dağıstanda öz mövqeyini möhkəmləndirməyə girişdi. Ona görə də, kömək üçün Osmanlı dövlətinə müraciət edən Hacı Davudu 1722-ci ilin payızında öz himayəsinə götürdü və onu Şirvanın və Dağıstanın hakimi təyin etdi. Hacı Davud Krım xanı səviyyəsində Osmanlı təbəəliyinə qəbul edildi, ona bir neçə alay və artilleriya verildi. Lakin Hacı Davud Şirvan əhalisinin rəğbətini qazanıb mövqeyini möhkəmləndirə bilmədi. O, sultanın çoxlu vergi toplayıb göndərmək tələbini yerinə yetirmədi və Rusiya himayəsinə keçmək üçün müraciət etdi. Osmanlılar 1728-ci ildə Hacı Davudu həbs edib ailəsi ilə birlikdə Rodos adasına sürgünə göndərdilər. Qazıqumuqlu Surxay xan paşa rütbəsilə Şirvana hakim təyin edildi.

**I Pyotrun Xəzərsahili bölgələrə hərbi yürüşü.** XVIII əsrin başlanğıcından etibarən Rusiya Dağıstanı və Kabardanı özünə tabe etmək üçün ciddi cəhdlər edirdi. Çar I Pyotr (1682-1725) bu məqsədlə əslən kabardin olan *A.Bekoviç-Çerkasskinin* başçılığı ilə Şimali Qafqaza rus qoşunu göndərmişdi. Lakin 1711-ci ildə Prut çayı sahilində Osmanlı ordusunun ruslar üzərində parlaq qələbəsi bu planları pozdu. Rusiya Kabardanın daxili işlərinə qarışmamağı öhdəsinə

götürdü. I Pyotr Xəzərsahili bölgələrə hərbi yürüşü zamanı bu öhdəliyini pozdu və 1722-ci il sentyabrın 23-də Sulakda Kabarda knyazı Arslan bəy Kaytukinlə saziş bağlayaraq Krım xanlığı tərəfindən təhlükə yaranacağı təqdirdə ona hərbi yardım vəd etdi.

XVIII əsrin 20-ci illərində I Pyotr əsas diqqətini Qafqazın Xəzərsahili vilayətlərinə yönəltdi. Çarın **1716-1718-ci illərdə** Qafqaza və İrana göndərdiyi ***Artemi Volınskinin başçılıq etdiyi elçilik*** Səfəvi dövlətinin tənəzzül etdiyini və regionda mövqeyinin əsaslı surətdə zəiflədiyini xəbər vermişdi. Həmçinin rus elçisi I Pyotrun «gizli təlimatı»na uyğun olaraq Səfəvi hərbi qüvvələrinin vəziyyəti, Şirvan bəylərbəyi ilə şah arasında münasibət, Şirvan və Dağıstandakı qalalar və s. haqqında məlumatlar toplayıb Peterburqa göndərmişdi. A.Volınski şahın I Pyotra bağışladığı fili qəsdən karvan yolu ilə Şamaxıdan Həştərxana yola salmış və fili müşayiət edənlərə bir mühəndisköməkçisi qoşaraq tapşırmışdı ki, Niyazabaddan Terekə kimi yol boyu müşahidələr aparsın, hansı çayların Xəzər dənizinə töküldüyünü, hansı yaşayış məntəqələri olduğunu və onların əhalisinin sayını, o yerlərdəki hərbi qüvvələrin miqdarını öyrənib xüsusi jurnala qeyd etsin. Sonra bu məlumatlar Peterburqa göndərilmişdi. A.Volınski özü Rusiyaya qayıtdıqdan sonra I Pyotr tərəfindən Həştərxan qubernatoru təyin edilmiş və ona Qafqazın Xəzər sahili bölgələrinə yürüş üçün hazırlıq görməsi əmr edilmişdi.

**1722-ci ilin yayında** Rusiyanın Qafqazın Xəzər sahili bölgələrinə hücumu başlandı. Çar Qafqaz əhalisinə manifestlə müraciət edərək bu yürüşün "pozucu və qiyamçı qüvvələri" cəzalandırmaq, Şamaxıda öldürülmüş rus tacirlərinin qisasını almaq üçün həyata keçirildiyini bəyan etmişdi. Əslində isə Rusiya yaranmış vəziyyətdən istifadə edərək Dağıstanı, Şirvanı, Bakını, Kür çayı boyunu və Gürcüstanı işğal etməyə can atırdı.

I Pyotrun bu yürüşündə 79 min atlı, 22 min piyada döyüşçü iştirak edirdi. Piyada qoşun, həmçinin artilleriya, döyüş sursatı və ərzaq 18 iyul 1722-ci ildə Həştərxandan gəmilərlə yola salındı. Lakin 274 gəmidən ibarət bu donanmanın çox hissəsi fırtınaya düşüb məhv oldu. Atlı qoşun isə quru yolla Dərbənd istiqamətində hərəkət etdi.





Yerli əhali işğalçılara kəskin müqavimət göstərdi. Atlı qoşun Ender adlı yaşayış məntəqəsinə yaxınlaşanda oranın hakimi Aydəmir çeçenlərdən topladığı silahlı dəstə ilə rusların qarşısını kəsib döyüşə girdi. Rus qoşunu onların müqavimətini qırıb yürüşünü davam etdirdi və qəflətən Enderə soxulub əhalisini qovdu, oradakı 3 mindən çox həyəti tamamilə dağıtdı. Qaytaq usmisi Əhməd xan və Utemış sultanı Mahmud 16 minlik hərbi qüvvə toplayıb Buynak yaxınlığında ruslara hücum etdilər. Lakin min nəfərə qədər döyüşçü itirib dağlara çəkildilər.

Rus qoşunu bu hücumun qisasını dinc sakinlərdən aldı. 500 evdən ibarət Utemış qəsəbəsini və yolu üzərindəki daha 6 kəndi yandırdı, əsirləri öldürdü. Hərbçilərin bu qəddarlığı bütün Dağıstanda hiddətlə qarşılandı. Əhalinin rus hərbçilərinə nifrəti o qədər böyük idi ki, onlara hətta pulla da ərzaq satmaqdan imtina edirdilər. Yalnız bir neçə feodal hakimi, o cümlədən Dərbənd naibi Rusiya himayəsinə keçdi. Rus ordusu avqustun 23-də Dərbəndə daxil oldu.

Kartli şahı VI Vaxtanq da Səfəvi dövlətinin tabeliyindən çıxıb Rusiya himayəsinə keçməyə can atırdı. O, bu niyyətini pərdələmək məqsədilə guya Səfəvi şahının Hacı Davuda və digər qiyamçılara qarşı döyüşmək əmrini yerinə yetirmək üçün yürüşə başladığını bildirdi. Gürcü şahı I Pyotrla gizli əlaqə saxlayırdı və onun göstərişinə əsasən 30 minlik ordu ilə rus ordusu ilə birləşmək üçün avqustun 22-də Gəncəyə doğru hərəkət etdi. Həmçinin XVIII əsrin əvvəllindən Rusiyada olan erməni nümayəndəsi İsrael Ori çara vəd etmişdi ki, rus ordusu Qafqaza daxil olan kimi buradakı xristian əhalisi üsyan qaldırıb onlara kömək edəcəkdir. Qarabağda yaşayan xristian alban əhali də katolikos Y.H.Cəlalyanın başçılığı ilə 8 minlik hərbi dəstə toplayıb Gəncə yaxın-

lığında gürcü şahına qoşuldu. Lakin bu qüvvələr I Pyotrun yürüşü dayandırıb geri dönməsini eşidən kimi çəkilib getdilər.

İsti cənub iqlimi, azuqə və ot-ələf çatışmazlığı, Dağıstan feodallarının qəfil basqınları ilə əlaqədar rus ordusu ciddi itkilər verdiyindən, həmçinin beynəlxalq vəziyyətin pisləşməsinə görə I Pyotr Dərbəndi tutduqdan sonra yürüşü dayandırdı. Rusiyanın böyük hərbi qüvvə ilə Qafqazın Xəzərsahili bölgələrinə soxulması İngiltərənin, Avstriyanın, Osmanlı dövlətinin ciddi narahatlığına səbəb olmuşdu. İngiltərə xarici siyasət idarəsinin başçısı C.Karteretin fikrincə, Rusiyanın Şərqə doğru irəliləməsi Hindistanla bütün ticarətin Rusiyaya yönəlməsinə, İran ipəyi ilə ticarətin rus hökumətinin inhisarına keçməsinə səbəb olacaqdır. İstanbuldakı İngiltərə, Avstriya və Venesiya səfirləri Osmanlı sultanını I Pyotrun işğalçılıq planları barədə xəbərdarlıq edərək, bütün Avropa hökmdarlarının Rusiya çarına qarşı olduğunu bildirdilər.

722-ci il noyabrın əvvəlində Osmanlı baş vəziri İbrahim xan İstanbulda Rusiyanın rezident-naziri İ.İ.Neplyuyevə bəyan etdi ki, "nə qədər ki, rus qoşunu İran (Səfəvi – Q.Ə.) mülklərindədir, türk xalqı rahat olmayacaqdır və məsləhət görür ki, I Pyotr ordusu ilə öz ölkəsinə çəkilsin." Rusiya çarı Osmanlı dövləti ilə münasibəti kəskinləşdirməmək üçün Qafqazı tərk etdi. Bu xəbəri eşidən VI Vaxtanq hərbi əməliyyata başlamadan Tiflisə qayıtdı. Ruslar yalnız əlavə hərbi qüvvə göndərildikdən sonra Rəşti, Bakını və Astrabada kimi bütün Xəzərsahili zolağı işğal etdilər.

**Səfəvi dövlətinin süqutu.** Bu zaman əfqanlar Səfəvi şahını taxtdan salıb İsfahanı ələ keçirmişdilər. Xəzinədən və hərbi qüvvələrdən məhrum olmuş yeni ***şah II Təhmasib*** (1722-1732) əfqanlara qarşı mübarizə aparmaq üçün VI Vaxtanqdan ordu göndərməsini tələb etdi. Lakin bu əmr yerinə yetirilmədiyi üçün şah Kaxeti şahzadəsi, bir neçə il İsfahanda şahın qayımməqamı olmuş III Konstantini (müsəlmanlığı qəbul etdikdən sonra Məhəmmədqulu xan adını almışdı – Q.Ə.) Kartli üzərinə göndərdi. III Konstantin Dağıstandan topladığı qüvvələrlə 1723-cü ilin yazında Msxetanı və Tiflisi tutdu. O, II Təhmasib tərəfindən Kartli şahı, Gürcüstan valisi və İrəvan hakimi təyin edildi. VI Vaxtanq ailəsi ilə birlikdə Rusiyaya qaçdı, oğlu Bakar (müsəlmanlığı qəbul etdikdən sonra Şahnəvaz adını almışdı – Q.Ə.) Ərzuruma gedib Osmanlı himayəsinə sığındı.





Belə bir şəraitdə II Təhmasib Peterburqa elçi göndərib Rusiyadan hərbi yardım almaq qərarına gəldi. Elçi İsmayıl bəyə hərbi yardım haqqında müqavilə bağlamaq səlahiyyəti verdi. Lakin gənc şah rus ordusunun Dərdəndi işğal etməsi xəbərini eşitdikdə bərk qəzəbləndi və çapar göndərdi ki, elçini geri qaytarsın. Rəştdəki rus konsulu S.Avramov qəsdən çaparı ləngitdi və İsmayıl bəyi gəmi ilə yola saldı. **12 sentyabr 1723-cü ildə** Səfəvi şahının elçisi rus hökuməti ilə ***Peterburqda müqavilə imzaladı.*** Beş maddədən ibarət olan bu müqaviləyə görə Xəzərsahili Qafqaz torpaqları Rusiyaya keçdi. Əvəzində rus tərəfi əfqanlara qarşı mübarizədə hərbi yardım göstərməyi öhdəsinə götürdü, amma bu vədinə əməl etmədi.

II Təhmasib Peterburq müqaviləsini təsdiq etmədi və 1724-cü ilin yazında həmin müqavilə ilə yanına gəlmiş Rusiya səfiri knyaz Meşerskini qovdu, konsul S.Avramovun saraya daxil olmasını qadağan etdi. Müqaviləni imzalamış İsmayıl bəy isə şahın qorxusundan vətənə dönməyib Həştərxanda qaldı.

Rusiya ordusunun Xəzərsahili vilayətlərə soxulmasını həm Qafqazın müsəlman əhalisi, həm də Osmanlı dövləti ciddi narahatlıqla izləyirdi. Bu baxımdan İrəvan əhalisinin Ərzurum paşasına 1723-cü ildə göndərdiyi müraciət xarakterikdir. Şəhər əhalisinin əksəriyyətini təşkil edən müsəlmanların bu müraciətində yazılmışdı: "Niyə oturmusunuz? Siz də türksünüz, biz də... Rusun əlinə düşmək istəmirik. Vaxtında gəlin şəhəri tutun və rusu İrəvana buraxmayın."

1723-cü ilin yayında Osmanlı qoşunları Kartli və Kaxetiyə daxil oldu. İyunun 12-də Tiflis döyüşsüz ələ keçirildi.

Qısa müddət ərzində İrəvan və Şərqi Qafqazın çox hissəsi Osmanlı dövlətinə tabe edildi. Sultan III Əhməd İrəvanı tutan Abdulla paşaya əmr etdi ki, əsgərlər Eçmiədzinə daxil olmasınlar, heç kəs onun sakinlərinə toxunmasın. Abdulla paşa Eçmiədzinin mühafizəsi üçün xüsusi bir alay ayırdı.

Rusiya Qafqazda işğal etdiyi əraziləri öz əlində saxlamaq üçün Osmanlı dövləti ilə danışıqlara başlamağa məcbur oldu. **1724-cü il iyulun 12-də *İstanbulda*** imzalanmış müqaviləyə görə Qafqazın Xəzər boyu zolağı Rusiyanın, qalan hissəsi isə Osmanlı dövlətinin nəzarəti altına keçdi. Rusiyanın payına düşən sahilboyu zolaq Dərbənd yaxınlığında 119 verst, Şamaxı istiqamətində 43 verstə çatırdı.

Lakin I Pyotr Qafqazda daha böyük ərazilər işğal etmək niyyətində idi. O, sərhəd xəttini dəqiqləşdirmək üçün Qafqaza göndərdiyi Rumyantsevə gizli tapşırıq vermişdi ki, Gürcüstana gedən yollar, Kür çayı ilə yükdaşıma imkanları, gürcülərin və ermənilərin hərbi gücü haqqında məlumat toplasın. Çar həmçinin Osmanlı dövləti ilə yeni müharibə ehtimalına qarşı Ukraynadakı hərbi qüvvələri döyüş hazırlığı vəziyyətinə gətirməyi əmr etmişdi.

Həm Rusiya, həm də Osmanlı dövləti Qafqazda öz mövqelərini möhkəmləndirmək üçün böyük şəhərlərdə hərbi dəstələr saxlayır, qalaları möhkəmləndirirdilər. Osmanlı sultanı III Əhmədin Kartlidə hakimiyyətdə olan Baqrationilər sülaləsinin *Muxranilər qolunu* 1727-ci ildə taxt-tacdan məhrum etməsi bununla bağlı idi. Rus çarı isə daha irəli gedərək, işğal edilmiş ərazilərə xaçpərəstləri köçürməklə həmin yerlərdə özünə etnik dayaq yaratmağa çalışırdı. Bu məqsədlə 1723-cü ildə Şimali Qafqaza, Terek çayının sol sahili boyunda inşa edilən qalaya 500 Don kazakı ailəsi ilə birlikdə köçürüldü, 1735-ci ildə Don kazaklarının daha bir dəstəsi də həmin bölgəyə yerləşdirildi.

I Pyotrun **1724-cü il noyabrın 14-də** Bakıda, Dərbənddə və Qafqazın başqa bölgələrində erməniləri yerləşdirmək haqqında əmri də bu məqsədə xidmət edirdi. Rus tarixçisi





P.Q.Butkov bununla bağlı yazmışdır ki, çar Xəzər sahillərində yerləşən ordu qərargahlarına, o cümlədən "general-leytenant M.Matyuşkinə və briqadir Levaşova tapşırmışdı ki, hər cür vasitə ilə erməniləri və digər xristianları rus ordusunun tutduğu əyalətlərdə – Bakıda, Dərbənddə və digər əlverişli yerlərdə mehribanlıqla qəbul etsinlər; onlara ev-eşik salmaq üçün münasib sahələr ayırsınlar, torpaq versinlər, şəhər və kəndlərdə sahibsiz qalan evləri də onların ixtiyarına versinlər." Artıq o zamandan İrandan ermənilərin Xəzəryanı bölgələrdəki şəhərlərə, Terek və Sulak çayları boyundakı qalalara köçməsi başlandı.

Dağıstan və Azərbaycan əhalisi Rusiyanın bölgədə möhkəmlənmək üçün atdığı bu addımları narahatlıqla izləyir, hər vəchlə buna mane olmağa çalışırdı. Tarku şamxalı Adil Gəray xan rusların Sulak çayı sahilində inşa etdikləri qalanı dağıtmaq üçün 1725-ci ildə 30 minlik qoşunla hücum etdi. Lakin qaladakı rus qarnizonu bu hücumu dəf edərək Tarkuya soxuldu, şamxallığı qarət etdi. Adil Gəray tutuldu və Arxangelsk quberniyasına sürgün edildi. Rusların Kürün mənsəbində qala inşa etmək cəhdinin qarşısını isə Salyan hakimi Məhəmmədhüseyn bəy və xanımı aldılar. Onlar Salyana gəlmiş rus batalyonunun zabitləri üçün 1724-cü ildə qonaqlıq təşkil edib, hamısını öldürtdülər. Rəislərini itirən rus əsgərləri Bakıya qayıtmağa məcbur oldular.

Bu dövrdə Qafqazın sərvətlərinin qarət edilməsi də geniş miqyas almışdı. I Pyotrun göstərişi ilə xam ipəyin Moskva və Peterburq manufakturalarına göndərilməsinə başlanmışdı. Ağ neft istehsalını artırmaq, Kürün mənsəbində ticarət mərkəzi yaratmaq üçün addımlar atılırdı.

**Nadir şahın Qafqazda mövqeyini möhkəmləndirməsi.** XVIII əsrin 20-ci illərinin sonunda bacarıqlı sərkərdə Nadir İranın daxili qüvvələrini birləşdirdi, böyük ordu yaratdı. Bu ordununköməyi ilə Osmanlı və Rusiya hərbi qüvvələri Şərqi Qafqazdan çıxarıldı. **1735-ci il martın 10-də *Gəncədə*** bağlanan müqaviləyə görə şimalda Terek çayına qədər Xəzər bo-

yu ərazini Rusiya tərk etdi. Gəncə müqaviləsinə əsasən ruslar Sulak çayı sahilində inşa etdikləri qalanı tərk etdilər, Terek çayının sol sahilində yeni salınmış Qızlyar qalasına köçdülər.

1735-ci ilin iyun ayında Nadirin ordusu Eçmiədzin yaxınlığında osmanlıları məğlub edərək qərbdə Qarsa kimi ərazini özünə tabe etdi. Nadir 1736-cı ilin başlanğıcında böyük ordu ilə Dağıstana yürüşə başladı. Qazıqumuq ələ keçirildi. Ağsaqqallar tabe olduqlarını bildirdilər. Surxay xan isə Avarıstana qaçdı. Daha sonra Qaytaq usmiliyi, Tabasaran və Samur vadisi əhalisi itaət altına alındı.

Nadir bu qələbələrdən sonra **1736-cı il fevralın 26-da** ***Cavadda keçirilən qurultayda*** Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyub, özü şah oldu. ***Nadir şah*** Əfşarlar nəslindən olduğu üçün, yaratdığı dövlət tarixə ***Əfşarlar imperiyası*** kimi daxil olmuşdur. Onun hakimiyyəti dövründə Qafqazda inzibati dəyişikliklər edildi. Səfəvi dövründə mövcud olan 4 bəylərbəyilik əvəzinə Azərbaycan əyaləti yaradıldı. Mərkəzi Təbriz olan bu əyalətə Nadir şah qardaşı İbrahim xanı hakim təyin etdi. Qurultayda Səfəvilər sülaləsinin ləğvinə qarşı çıxış etdiyinə görə, Qarabağ bəylərbəyi II Uğurlu xan Ziyadoğlunun hakimiyyəti altında olan *Qazax, Borçalı, Şəmşəddil bölgələri* Kartli hökmdarı Teymurazın idarəçiliyinə verildi, Qarabağdakı xristian məlikləri isə birbaşa İbrahim xana tabe edildi. Nadir şahın hakimiyyəti dövründə Qafqaz xalqlarının vəziyyəti daha da ağırlaşdı. Əhalidən əlavə vergilər toplanmasına, rəiyyətin kütləvi surətdə hərbi xidmətə çağırılmasına başlandı. Qafqazın müxtəlif şəhərlərindən on minlərlə sənətkar ailəsi zorla Nadir şahın Xorasanda yeni yaratdığı paytaxta köçürüldü. Bu da Qafqazın iqtisadi vəziyyətinə ağır təsir göstərdi.

Əhalinin xeyli hissəsi daimi yaşayış yerlərini tərk edərək çətin keçilən dağlıq bölgələrə, qonşu ölkələrə qaçırdı. Bir sıra yaşayış məntəqələri, o cümlədən Kartlinin düzənlik hissəsi tamamilə boş qalmışdı. Şahın adamları qaçanları amansızlıqla cəzalandırır, zorla öz yerlərinə qaytarırdı.





Qafqaz xalqları Nadir şahın zülmünə qarşı həm də fəal mübarizə aparırdı. **1738-ci ildə** ***Carda*** böyük üsyan başlandı. Şahın Qafqaza hakim təyin etdiyi qardaşı İbrahim xan böyük qoşunla üsyançıların üzərinə yeridi. Carlılar onlara köməyə gəlmiş dağlılarla birlikdə bu qoşunu oktyabrın 26-da mühasirəyə alıb darmadağın etdilər. İbrahim xan da vuruşma zamanı öldürüldü. Üsyan Şirvana, Dağıstana və digər ərazilərə yayıldı. Yalnız yeni cəza ordusu bir neçə ay davam edən ağır döyüşlərdən sonra üsyan iştirakçılarını məğlub edə bildi. Nadir şah sərt cəza tədbirləri və edam hökmləri ilə Azərbaycanın şimalında və Dağıstanda müqavimət hərəkatını boğmağa çalışırdı. Şahın əmri ilə Dərbənd, Şamaxı və Qəbələdə feodalların çoxu edam olundu, onların ümumi dəyəri 200 min tümənə çatan əmlakı müsadirə edildi. Lakin Dağıstanda azad avar cəmiyyətlərini tabe etmək üçün atılan addımlar nəticəsiz qaldı.

**1741-ci ilin yayında** Nadir şah özü 100 minlik ordu ilə ***Dağıstana*** yürüşə başladı. Yürüş zamanı qarşıya çıxan aullar yerlə-yeksan edilir, əhalisi qılıncdan keçirilirdi. Surxay xan və digər Dağıstan feodalları şahın qəzəbindən yayınmaq üçün itaət göstərdiklərini bildirdilər.

Lakin şahın buradan 20 minlik qoşun toplamağı əmr etməsi və qalan əhalini də İrana köçürmək planı dağlıları yenidən silaha əl atmağa vadar etdi. Nadir şahın ordusu dağlı partizanların qəfil gecə zərbələrindən, azuqə və sursat arabalarına basqınlarından, çətin dağ keçidlərində qurduqları pusqularda ağır itkilər verərək Dərbəndə, 1743-cü ildə isə Muğana çəkildi. Dağıstan əhalisinin azadlıq mübarizəsinə həmin vaxt Şəki, Kartli, Kaxeti və Cənubi Qafqazın digər yerlərində baş verən üsyanların böyük köməyi oldu. Şah ordusunu ərzaqla təchiz etməkdə ciddi sıxıntı çəkdiyi üçün dəniz yolu ilə Gilandan və Mazandarandan Dərbəndə taxıl daşıtdırmalı oldu. Həm də bu zaman Xəzər dənizindəki ingilis ticarət kompaniyasına məxsus gəmilərdən istifadə edildi.

Çünki, Rusiya Nadir şahın çoxsaylı ordu ilə Dağıstana yürüşünü özünün Şimali Qafqazdakı mövqeləri üçün böyük təhlükə saydığından, Xəzər dənizindəki rus gəmilərindən istifadə olunması mümkün deyildi.

Nadir şah Xəzər dənizində Rusiyanın hegemonluğuna yol verməmək üçün öz donanmasını yaratmağa başlamışdı. Şah bu məqsədlə Rusiyadan qaçıb gələn dənizçiləri, kazakların qüvvəsindən yararlanmağa çalışırdı. XVIII əsrin 30-40-cı illərində Xəzər hövzəsində möhkəmlənməyə can atan ingilis ticarət kompaniyası da Nadir şaha öz donanmasını yaratmaqda fəal kömək edirdi. Bu məqsədlə İrana göndərilmiş ingilis mütəxəssisi, kapitan D.Eltonun başçılığı ilə Xəzər dənizinin cənub sahilində Lanqerud limanında gəmi inşasına başlanmışdı. Rusiyanın Rəştdəki konsulu S.Arapov 1743-cü il dekabrın 24-də Xarici işlər kollegiyasına göndərdiyi məlumatında təşvişlə yazmışdı: "D.Elton şaha vəd edib ki, hər altı ayda bir gəmi düzəldəcək".

1744-cü ildə Dağıstana yeni yürüşə başlamaq fikrində olan Nadir şah gəmilərlə İrandan Bakıya və Dərbəndə hərbi qüvvə, ərzaq daşıtdırırdı. Bu haqda İrandakı və Qafqazdakı rezidentlərindən bir-birinin ardınca xəbərlər alan Rusiya Şimali Qafqaz istiqamətində hüdudlarını möhkəmlətməyə başladı. Senatın göstərişi ilə 1745-ci ilin birinci yarısında Qızlyar qalasına yeni hərbi hissələr: bir neçə piyada alayı, draqun rotaları, artilleriya göndərildi.

Lakin artıq bu dövrdə Əfşarlar imperiyasının özündə vəziyyət ağırlaşmışdı. Fasiləsiz müharibələr, ardı-arası kəsilməyən xalq üsyanları Nadir şahın silah gücünə yaratdığı bu nəhəng imperiyanı kökündən sarsıdırdı. Demək olar ki, eyni vaxtda baş verən bu üsyanların yatırılması üçün çox böyük qüvvələrin səfərbər edilməsi lazım gəlirdi və bu da dövlətin maddi ehtiyatlarını tükəndirirdi.

Bütün bunlar Nadir şahı bəzi güzəştlərə getməyə məcbur etdi. Gürcüstanda xristian hökmdarların idarəçiliyi bərpa edildi. 1744-cü ildə II Teymuraz Kartli şahı, oğlu II İrakli isə Kaxeti şahı təyin olundu. 1746-cı ildə isə Hacı Çələbi xan və Şəki üsyançıları şah hakimiyyətini tanıdıqlarını bildirdikləri üçün əfv edildilər. Dağıstanın feodal hakimlərinə qiymətli hədiyyələr və pul baratları göndərildi. Monastırlara və xristian din xadimlərinə imtiyazlar və vergi immuniteti verildi. Şah katolikos Avraam Kretatsinin xahişi ilə Eçmiədzin kilsəsinin mülkləri üzərində hüququnu təsdiq etdi, xüsusi fərman verərək qoşunun monastır əmlakına ziyan vurmasını qadağan etdi. Erməni ruhanilərinin və tacirlərinin mənafeyinə uyğun olaraq xristianlardan alınan cizyə vergisi ləğv olundu.

Bütün bunlar silah gücünə yaradılmış imperiyanı qoruyub saxlamaq üçün göstərilən son cəhdlər idi. **1747-ci ildə** Nadir şahın sui-qəsd nəticəsində öldürülməsi ilə bu imperiyanın Qafqazda hökmranlığı başa çatdı. Qafqazda çoxlu müstəqil və yarımmüstəqil dövlətlər yarandı.





## Qafqaz XVIII əsrin ikinci yarısında. Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizə

**Müstəqil dövlətlərin yaranması.** XVIII əsrin ortalarında Qafqazda ictimai-siyasi vəziyyət olduqca gərgin idi. 1747-ci ildə Nadir şahın ölümü və hakimiyyət uğrunda mübarizənin başlanması Qafqazda yeni müstəqil və yarımmüstəqil feodal dövlətlərinin: xanlıq, sultanlıq və məlikliklərin yaranmasına səbəb oldu. Azərbaycanda və Dağıstanda yerli feodal hakimləri və nüfuzlu şəxslər əhali arasında nüfuz sahibi olmalarından istifadə edərək öz hakimiyyətlərini bərqərar etdilər. Gürcüstanda isə daha əvvəlki dövrdə Nadir şaha tabe olan Kartli hökmdarı Teymuraz və Kaxeti çarı olan oğlu II İrakli müstəqil siyasət yürütməyə başladılar.

Kartli şahı Teymuraz regionda mövcud olan hakimiyyət boşluğundan istifadə edib oğlu ilə birlikdə bütün Gürcüstanda və Qafqazın digər bölgələrində öz təsirini möhkəmləndirməyə cəhd göstərirdi. Gürcü şahı bütün Cənubi Qaf-

qazda, xüsusən də Qərbi Gürcüstanda hakimiyyəti ələ keçirmək, Osmanlı dövləti ilə mübarizə aparmaq niyyətində idi. Lakin təkcə Kartli-Kaxeti qüvvələri ilə buna nail olmağın mümkün olmadığını anladığı üçün Rusiyadan hərbi yardım istədi. O, 1752-ci ildə bu məqsədlə Moskvaya xüsusi elçilik göndərdi. Lakin Osmanlı dövləti ilə münasibətlərin yenidən gərginləşməsindən çəkinən Rusiya Gürcüstanın bu xahişini rədd etdi.

Teymuraz öz hərbi qüvvələri ilə Azərbaycanın qərb torpaqlarında mövqeyini gücləndirdi. O, həmçinin regionda güclü təsirə malik Şəki xanı Hacı Çələbiyə qarşı Qarabağ, Gəncə, Naxçıvan, İrəvan və Qaradağ xanları ilə ittifaqa girdi. Çünki, 1751-ci ildə Hacı Çələbinin qoşunu Kartli-Kaxeti qüvvələrini sarsıdıcı məğlubiyyətə uğratmışdı. 1752-ci ilin martında Gəncə yaxınlığında Qızılqaya adlı yerdə məşvərət keçirən xanlarla görüş zamanı II İrakli onları əsir alıb özü ilə apardı. Bundan xəbər tutan Hacı Çələbi gürcü qüvvələrini məğlub edib xanları əsirlikdən qurtardı, Qazax, Şəmşəddil və Borçalı bölgələrini gürcü ağalığından azad etdi, oğlu Ağakişi bəyi bu yerlərə hakim təyin etdi.

Gürcü çarına qarşı mübarizədə Şəki xanına qubalı Hüseynəli xan yardım edirdi. Hacı Çələbi həmçinin Qaytaq və Avar hakimlərinə müraciət edərək birlikdə Tiflisə yürüşə başlamağı təklif etmişdi. Çətin vəziyyətdə qalan Teymuraz yardım üçün Kabarda və Osetiya knyazlarına müraciət etməli oldu. Onların hərbi yardımı ilə (təkcə Kabardadan Kartliyə 2 minlik qoşun göndərilmişdi) Şəki xanının müttəfiqləri ilə Tiflisə hücumu dəf edildi. Lakin 1755-ci ildə Hacı Çələbinin ölümündən sonra Şəki xanlığı zəiflədi, Qazax, Şəmşəddil və Borçalı bölgələri yenidən gürcü ağalığına düşdü.

1759-cu ildə Kartli hökmdarı Gəncə və İrəvan kimi mərkəzləri qısa müddətə də olsa özünə tabe etdi. Lakin 50-ci illərin sonunda İranda və Cənubi Azərbaycanda Urmiyalı Fətəli xanın təsirinin güclənməsi Teymurazı təşvişə saldı. O, 1760-cı ildə 74 nəfərlik böyük bir heyətlə Rusiyaya yola





düşdü. Lakin onun Rusiyadan hərbi qüvvə və maliyyə yardımı xahişi bu dəfə də rədd edildi. Həmin vaxt Yeddiillik müharibədə iştirak edən Rusiya Avropada möhkəmlənməyi Qafqaz problemlərinə müdaxilədən daha vacib saydı.

Gürcü hökmdarı ilə Moskvaya gedən əyanların çoxu orada qaldı və bununla da Moskvada gürcü koloniyasının əsası qoyuldu. Teymuraz özü isə 1762-ci ildə kiçik bir qrupla geri döndü və Həştərxanda vəfat etdi. Bundan sonra oğlu II İrakli bütün Şərqi Gürcüstanda hakimiyyəti öz əlində cəmləşdirdi. O, Kartli-Kaxeti feodallarının separatçılıq cəhdlərini dəf edərək mərkəzi hakimiyyəti möhkəmləndirdi. II İrakli atasından fərqli olaraq daha müstəqil hərəkət edirdi və Rusiyadan yardım almaq üçün elçilər göndərilməsini dayandırdı.

Gürcü çarı 60-cı illərdə İranda və Cənubi Azərbaycanda güclü hərbi-siyasi qüvvəyə malik olan Kərim xan Zənd ilə münasibətləri yaxşılaşdırdı və Tiflisə qaçmış Azad xan Əfşarı ona təslim etdi. 1765-ci ildə isə II İrakli VI Vaxtanqın kəbinsiz oğlu Paatanın başçılığı ilə gürcü tavadlarının sui-qəsdinin qarşısını aldı. Qəsdin iştirakçılarının əmlakları müsadirə edildi, şahzadə Paata və köməkçiləri edam edildi.

XVIII əsrin ortalarında Qərbi Gürcüstan İmereti şahlığının hakimiyyəti altında idi. İmereti hökmdarı I Solomon (1752-1784) Osmanlı sultanının vassalı idi. Poti, Batum, Suxumqala və s. qalalarda Osmanlı qarnizonları yerləşirdi. I Solomon iri knyazların müqavimətini qırıb öz hakimiyyətini möhkəmləndirməyə, müstəqil siyasət yeritməyə can atırdı və bu zaman Rusiyanın yardımına ümid bağlayırdı. İri knyazlar Axalsixdəki Osmanlı hərbi qüvvəsinə arxalanaraq 1757-ci ildə İmereti çarına qarşı açıq çıxış etdilər. Lakin həmin ilin oktyabrında ***Xresil*** adlı yerdə baş verən döyüşdə qiyamçılar məğlub oldular.

**1758-ci ildə** İmereti və Kartli-Kaxeti dövlətləri arasında hərbi ittifaq bağlandı. Bütün Gürcüstan qüvvələrinin birləşdirilməsinə yönəlmiş bu yaxınlıq 1770-ci ilə qədər davam etdi. Bu dövrdə ali gürcü din xadimləri və əyanların bir qis-

mi Gürcüstanın birləşdirilməsi və çar hakimyyətinin gücləndirilməsi tərəfdarı kimi çıxış edirdilər.

XVIII əsrin ortalarında Qarabağın xristian məlikləri, İrəvanda yaşayan azsaylı erməni əhalisi içərisində müəyyən təsirə malik olan erməni tacirləri Rusiyanın himayəsi altında Erməni dövlətini bərpa etmək üçün planlar cızır, müxtəlif layihələr hazırlayırdılar. Bu işdə qatı millətçi mövqedən çıxış edən erməni ictimai xadimi İosif Emin xüsusi fəallıq göstərirdi. O, Rusiyanın və ya Qərbi Avropanın digər bir nüfuzlu xristian dövlətinin himayəsində Cənubi Qafqazda Qarabağ, İrəvan və Qaradağ xanlıqları hesabına yeni bir xristian dövləti yaratmağı təklif edirdi. Bu planın gerçəkləşməsinə özü də ümid etməyən erməni xadimi, lazım gələrsə və zərurət yaranarsa, Erməni-Gürcü dövləti yaratmaq planına da razı olduqlarını bildirirdi.

**Şimali Qafqazın Rusiya imperiyasına birləşdirilməsi prosesinin başlanması.** Bütövlükdə Qafqazın, xüsusən də Şimali Qafqazın Rusiya imperiyasına birləşdirilməsi məsələsi rus sovet tarixşünaslığında qəsdən təhrif olunmuş problemlərdən biridir. Bu zaman, bir tərəfdən Qafqazın Rusiyaya birləşdirilməsinin tarixini mümkün qədər qədimləşdirmək və Qafqaz-Rusiya əlaqələrinin çoxəsrlik tarixə malik olmasını iddia etmək, həm də regionun silah gücünə işğalı faktlarını ört-basdır etmək, zorakı birləşdirilməni yerli xalqların könüllü qəbul etmələri kimi təqdim etmək məqsədləri güdülmüşdür.

Mərkəzin diqtəsi ilə XX əsrin 50-ci illərində yazılmış əsərlərdə Şimali Qafqaz bölgələrinin: Qaraçay, Çərkəz, Kabarda, Balkar, Şimali Osetiya, Çeçenistan və İnquşetiyanın işğalı Rusiyaya könüllü daxil olmaq kimi təqdim edilmiş, həm də bu prosesin guya XVI əsrin ortalarında başlandığı göstərilmişdir. Hətta 1957-ci ildə Kabardanın Rusiyaya daxil olmasının 400 illiyi təntənə ilə bayram edilmiş, bunun şərəfinə Nalçikin mərkəzi meydanında abidə ucaldılmışdır. Həmin dövrdə çərkəz torpaqlarının rus dövlətinə könüllü





birləşdirilməsinə (?!) həsr olunmuş əsərdə isə bu prosesin başlanğıc tarixi çərkəz knyazlarının 1552, 1555 və 1557-ci illərdə Moskvaya elçiliklər göndərmələri götürülmüşdür.

XX əsrin 60-70-ci illərində Şimali Qafqazın muxtar qurumlarının tarixinə dair yazılmış ümumi xarakterli əsərlərdə bu iddialardan tədricən imtina edilmiş, XVI əsrin ortalarında Rus dövlətinin Kazan və Həştərxan xanlıqlarını işğal etməsindən sonra, onunla Şimali Qafqaz xalqları arasında ilk əlaqələrin qurulduğu bildirilmiş, 1864-cü ildə Qafqaz müharibəsinin başa çatması Şimali Qafqazın Rusiya imperiyasına qəti şəkildə birləşdirilməsi tarixi kimi qeyd edilmişdir. Lakin 80-ci illərin sonunda Şimali Qafqaz xalqlarının tarixinə dair Moskvada nəşr olunmuş əsərdə regionun Rusiyaya birləşdirilməsinin başlanğıcı kimi yenidən XVI əsrin ortaları götürülmüşdür.

Şimali Qafqazın Rusiyaya birləşdirilməsinin başlanğıcı kimi Terek və Kuban çayları boyunda XVII əsrdə kazak məskənlərinin yaradılmasını qeyd etmək də doğru deyildir. Çünki birincisi, kazaklar yekcins etnik kütlə olmamışlar və onların rus dilində danışmaları, onların eyni xalqın nümayəndələri olduqlarını təsdiq etmək üçün yetərli deyildir. Müqayisə üçün: ingilis dilini doğma dil saydıqları üçün ingilis fermeri ilə Nyu-Yorkun Harlem məhəlləsindəki zəncini etnik cəhətdən qohum hesab etmirlər. İkincisi, nəinki Terek və Kuban kazakları, hətta Don kazakları da 1918-1920-ci illər Vətəndaş müharibəsi dövründə Mərkəzi Rusiyadan Qırmızı ordu hissələrində qulluq edənləri "vankalar" adlandırır, özlərindən fərqli sayırdılar.

Görkəmli tədqiqatçı L.N.Qumilyov da əsərlərində dəfələrlə Terek kazaklarının ruslarla bir kökdən olmadıqlarını, xristianlığı qəbul etmiş xəzərlərdən və qıpçaqlardan törədiklərini qeyd etmişdir. Rus sovet tarixçiləri R.Q.Skrınnikov və A.A.Qordeyev isə ümumiyyətlə kazakların Qızıl Orduda sərhəd xidmətinə aparılan rus gənclərinin tatar və qıpçaqlarla qaynayıb-qarışmasından yarandıqlarını bildirmişlər. On-

ların fikrincə, kazak mühitində rus elementləri yalnız XVII əsrin ortalarından etibarən, Mərkəzi Rusiyada təhkimçilik zülmünün güclənməsindən sonra çoxalmağa başlamışdı.

Qeyd etmək lazımdır ki, rus dövlətinin Terek kazaklarından istifadə edərək Şimali Qafqazda möhkəmlənmək cəhdləri XVII əsrin əvvəlində Osmanlı dövləti, 1653-cü ildə isə Səfəvi dövləti tərəfindən qətiyyətlə alınmışdı. XVIII əsrin ilk onilliklərində Rusiyanın Şimali Qafqazda, xüsusən də Xəzəryanı bölgələrdə möhkəmlənmək üçün yeni cəhdləri də nəticəsiz qalmışdı. 1735-ci il martın 10-da imzalanmış Gəncə müqaviləsinin şərtlərinə görə, rus dövləti Bakı və Dərbənddən çəkilmiş, Dağıstan üzərindəki iddialarından imtina etmişdi.

Rusiya yalnız XVIII əsrin ortalarında Şimali Qafqazın məhsuldar düzənlik bölgələrində fəal işğallara başlamışdı. Çarizmin bu işğalçılıq siyasətinə Osmanlı dövləti mane olmağa çalışırdı. 1739-cu il sentyabrın 18-də Rusiya və Osmanlı imperiyaları arasında Belqradda imzalanmış sülh müqaviləsinə görə, rus tərəfi Kabardaya iddialarından imtina etmişdi. Osmanlı tərəfi bununla Rusiyanın Şimal-qərbi və Mərkəzi Qafqazda öz mövqeyini möhkəmləndirmək cəhdlərinin qarşısını bir müddət ala bilmişdi. Eyni zamanda, bu bölgələrdə Osmanlı dövlətinin vassalı olan Krım xanlığının təsiri güclənmişdi. XVIII əsrin 40-50-ci illərində adıq tayfalarının Krım xanından vassal asılılığı qəti şəklə düşmüş, dağlı tayfaları və xalqları içərisində İslamın yayılması geniş miqyas almışdı.

XVIII əsrin 40-cı illərində Şimal-şərqi Qafqazda, xüsusən Dağıstanda Nadir şahın öz hakimiyyətini bərqərar etməyə çalışması da rus dövlətinin işğalçılıq siyasətinə ciddi əngəl olmuşdu. Onun böyük ordu ilə Dağıstana yürüşləri həmin dövrdə Rusiyanın bu bölgəyə soxulmaq cəhdlərinin qarşısını almağa imkan vermişdi.

Osmanlı və Əfşarlar dövlətlərinin Şimali Qafqazda möhkəmlənmək üçün atdıqları addımlar bəhs olunan dövrdə





Rusiyanın bu regionu öz müstəmləkəsinə çevirmək cəhdlərinin qarşısını almağa imkan versə də, yerli dağlı xalqlar üçün ağır nəticələri var idi. Məsələn, mənbələr XVIII əsrin 40-cı illərində Osmanlı dövlətinin adıq tayfalarından topladığı illik xəracın miqdarını artırdığını qeyd etmişdir. Nadir şahın Dağıstanın feodal hakimlərini itaət altına almaq üçün həyata keçirdiyi sərt tədbirlər, xüsusən dağlı aullarının dağıdılması, yandırılması yerli əhalinin vəziyyətini ağırlaşdırmış və narazılığını artırmışdı.

Belə bir şəraitdə Şimali Qafqazın ayrı-ayrı feodal hakimləri yardım üçün Rusiyaya müraciət etməyə başlamışdılar. Onlar Rusiyadan hərbi yardım istəyir, əvəzində iqtisadi və ticarət əlaqələrini genişləndirməyi, hətta Rusiya himayəsinə keçməyi vəd edirdilər. XVIII əsrin 40-cı illərinin əvvəllərində Dağıstandan bir neçə nümayəndəlik bir-birinin ardınca Peterburqda olmuşdu. 1742-ci ildə Kabarda knyazları adından Məhəmməd Sadıqovun başçılıq etdiyi nümayəndə heyəti çariça Yelizaveta Petrovnadan xahiş etmişdi ki, onları Krım xanının basqınlarından müdafiə etsin. 1743-cü ildə çeçen kənd cəmiyyətlərindən də bir neçəsi Rusiya himayəsinə keçmək üçün müraciət etmişdi.

Rusiyada hakimiyyət dairələri bu nümayəndəlikləri məmnuniyyətlə qəbul edib müxtəlif yardımlar və himayəçilik vəd etsələr də, beynəlxalq münasibətləri gərginləşdirməkdən, xüsusən də Osmanlı dövləti ilə yeni toqquşmalardan çəkindikləri üçün, ciddi addımlar atmağa cəsarət etmirdilər. Bununla belə, Rusiya ilə yaxınlaşmağa ümid edən bir çox dağlı xalqları Osmanlı dövlətinin və Krım xanının vaxtaşırı xərac ödəmək tələblərindən imtina edir, özlərinin Rusiyanın təbəəsi olduqlarını bildirirdilər. Məsələn, 1743-cü ildə Kubandan Osmanlı hərbi dəstəsi Kabarda kəndlərinə daxil olub, xərac verməyi tələb etdikdə, yerli əhali bu bəhanə ilə Osmanlı vergi yığanlarını bölgədən uzaqlaşdırmağa nail olmuşdular.

Kabardalıların bu təcrübəsindən abazinlər və noqaylar

da istifadə etmişdilər. Krım xanının vergi yığanları onların yaşayış məntəqələrinə yaxınlaşdıqda, bu bölgələrin yerli əhalisi artıq Krım xanına tabe olmadıqlarını bildirmişdilər. 1747-ci ildə isə abazekeylər, bjeduxlar, şapsıxlar və uvexlər Krım xanlığının tabeliyindən çıxdılar və qonşu dağlı xalqlarla birlikdə müqavimət göstərməyə hazır olduqlarını bildirdilər. 1748-ci ildə Rusiya hökuməti osetin və inquşların rus dövlətinin nəzarətində olan bölgələrə köçüb yerləşmələrinə icazə verdi. 1748-ci ildə isə Həştərxan qubernatoru razılıq verdi ki, çeçenlər onun tabeliyində olan torpaqlarda yaşasınlar. Bu illərdə Rusiya xarici işlər kollegiyasının qərarı ilə 30-dan çox çeçen uzdeninə illik məvacib verilməsinə başlanmışdı. Rus diplomatiyası belə şirnikləndirici vasitələrlə özünə Şimali Qafqaz əhalisi içərisində rəğbət yaratmağa çalışırdı.

1749-cu ildə Peterburqa Z.Əlixanovun başçılığı ilə nüfuzlu şəxslərdən ibarət osetin elçiliyi getdi. Elçilik Osetiyanın Rusiya himayəsinə keçməsi məsələsini həll etmək üçün uzun müddət mürəkkəb danışıqlar aparmalı oldu. Osetin nümayəndələri Rusiya himayəsinə qəbul ediləcəkləri təqdirdə 30 minlik hərbi qüvvə ilə Osmanlı sultanına qarşı müharibədə iştirak etməyi vəd etdilər. 1752-ci ildə başa çatan danışıqlarda belə bir razılığa gəlindi ki, Şimali Qafqazın mərkəz hissəsində Ardon və Fiaqdon çayları boyu dağətəyi düzənlik bölgə "azad zona" elan edilsin və bu yerlərə osetinlər köçüb məskunlaşsınlar. Həmçinin osetinlərə icazə verildi ki, sərbəst şəkildə Qızlyar və Həştərxana gedib gömrük rüsumu ödəmədən ticarətlə məşğul olsunlar.

Osetin nümayəndələri bundan sonrakı dövrdə Rusiyanın tərəfini tutmağı vəd etdilər və öhdələrinə götürdülər ki, osetin xalqı içərisində xristianlığın yayılmasına çalışacaqlar.

Dağıstan feodal hakimləri içərisində də Rusiya ilə yaxınlaşmaq xətti tərəfdarları var idi. 1751-ci ildə Tarku şamxalı Xasbulat, 1753-cü ildə isə avar hakimi Məhəmməd Musa xan və qazıqumuqlu Surxay xan öz təbəələri ilə birlikdə





Rusiya himayəsinə keçmək üçün müraciət etmişdilər.

**Osmanlı dövlətinin Qafqazda mövqeyini möhkəmləndirmək cəhdləri.** Şimali Qafqazın feodal hakimləri içərisində təkcə Rusiyaya meyl edənlər çox deyildi. Osmanlı dövləti ilə iqtisadi-ticarət əlaqələrini inkişaf etdirməkdə maraqlı olan feodal hakimləri, müsəlman ruhaniləri də mühüm yer tuturdu. Bu dövrdə feodal hakimləri içərisində Osmanlı dövləti ilə daha sıx əlaqələr yaratmağa çalışanlar da çox idi. Enderey hakimi isə Cənubi Qafqazda feodal çəkişmələrindən yararlanmaq üçün Krım xanından və Osmanlı sultanından hərbi yardım istəmişdi. O, Osmanlı qoşununun köməyi ilə Dərbəndi və Bakını ələ keçirmək niyyətində idi.

Şimal-qərbi Qafqazda isə Osmanlı dövlətinə rəğbət daha güclü idi. Həm də tez-tez daxili çəkişmələrin baş verdiyi bu regionda feodal hakimlərindən biri Rusiyaya yardım üçün müraciət etdikdə, rəqibi də dərhal Osmanlı sultanından hərbi qüvvə istəyirdi. Məsələn, XVIII əsrin 50-ci illərində Kabardada Kaşkatov və Baksan feodal qrupları arasında hakimiyyət uğrunda mübarizə başladıqda, Kaşkatov qrupu Rusiyadan yardım istəmişdi. O dövrdə Rusiyada dövlət kansleri vəzifəsini tutan İ.P.Bestujev-Ryumin Kaşkatay qrupunun rəhbərlərinə məsləhət görmüşdü ki, öz aralarındakı mübarizəni dayandırsın. Çünki bu qruplar arasında mübarizənin davam etməsi Rusiya və Osmanlı dövləti arasında münasibətlərin növbəti dəfə kəskinləşməsinə səbəb olurdu.

Rusiyanın Kartli-Kaxeti dövlətinə yardım göstərməyə hazırlaşması xəbəri isə Dağıstanda və bütün Şərqi Qafqazda feodal hakimlərin ciddi narazılığına səbəb olmuşdu. Rusiya hakim dairələrinin Şərqi Gürcüstanda möhkəmlənmək cəhdlərinə qarşı regionda geniş xalq kütlələri etiraz etmişdilər.

Osmanlı dövlətindən və Krım xanlığından yardım istəyənlər içərisində XVII əsrin 90-cı illərində dini ixtilafa görə Don kazaklarından ayrılıb Kuma çayı boyunda yerləşən kazaklar da var idi. Sonrakı dövrdə Kuban kazakları adlanan bu kazakların nümayəndələri Baxçasaraya gedərək onları

qumuqların basqınından qorumağı xahiş etmişdilər. Krım xanı kazakların Kuban və Laba çayları arasında məskunlaşmalarına icazə vermiş və öz aralarından başçı seçmələrini tapşırmışdı.

Rusiya Şimali Qafqazda möhkəmlənmək üçün yerli xalqlar içərisində osetinlərdən daha çox istifadə etməyə çalışırdı. 1762-ci ildə çariça II Yekaterinanın fərmanı ilə osetin və inquşların dağlıq bölgələrdən Mozdok və Meken məskənlərinə köçürülməsinə icazə verildi. 1763-cü ildə rus hökuməti bu fərmanı icra etdi: dağlıların Mozdoka köçürülməsinə və burada qala inşasına başlandı. Eyni zamanda möhkəmləndirilmiş xətt yaradılmasına və xristian dağlılardan hərbi mühafizə dəstələrinin təşkilinə başlandı. Rus hökuməti Mozdoka köçən dağlılara xristianlığı qəbul etmək şərti ilə pul və torpaq sahələri verir, hətta asılı kəndlilərə "azadlıq" bəxş edirdi.

Rusiya imperiyası Şimali Qafqazın düzənlik hissəsində, Terek çayı boyunda möhkəmlənmək üçün XVIII əsrin 60-cı illərində Qızlyardan Azov dənizi sahillərinə kimi çoxlu qala və istehkamlardan ibarət Qafqaz xəttini yaratmağa girişmişdi. Xəttin üzərində Mozdok qalası ilə yanaşı Yekaterinodar, Georgiyevsk, Stavropolsk qalaları, Terek və Kuban çayları boyunda müdafiə istehkamları inşa edilirdi. Kuban tərəfdən ola biləcək hücumların qarşısının alınması üçün 2 yeni zastava təşkil edildi, Qızlyardan bu zastavalara min nəfərdən çox kazak köçürülüb yerləşdirildi. Mozdokdakı qarnizonun sayı artırıldı, 40 topdan ibarət artilleriya batareyası yaradıldı.

Çarizmin Şimali Qafqazda həyata keçirdiyi bu tədbirlər Rusiyanın regionda hərbi-siyasi mövqelərini möhkəmlətməklə yanaşı, iqtisadi məqsədlər də güdürdü. Rus hökuməti bu diyarın sərvətlərini tezliklə öz əlinə keçirməyə can atırdı. Ona görə də, artıq 1768-ci ildə rus hökuməti tərəfindən Osetiyaya Stepan Vanyavinin başçılığı ilə geoloji ekspedisiya göndərilmişdi. Bu ekspedisiya zəngin qurğuşun və gümüş yataqları aşkara çıxarmışdı. Həmin ilin noyabrında Peterburqa çağrılan ekspedisiya rəhbəri çariça II Yekaterinaya məlumat vermişdi ki, Osetiyada həmçinin böyük həcmdə qızıl ehtiyatları vardır. Təbii ki, Rusiya belə zəngin sərvətlərə malik regionu çox tezliklə öz müstəmləkəsinə çevirməkdə maraqlı idi.





**1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi və Qafqaz.** Rusiyanın Şimali Qafqazda XVIII əsrin 50-60-cı illərində hərbi-siyasi fəallığı artırması Osmanlı dövləti tərəfindən haqlı olaraq ciddi narahatlıqla qarşılanırdı. Rusiyanın Qara dənizin şimal sahillərində möhkəmlənmək cəhdləri, Qara dəniz boğazlarından sərbəst keçməyə çalışması da iki dövlət arasında gərginliyi artırırdı. İngiltərə və Fransa dövlətləri isə Şimali Amerikada və Hindistanda müstəmləkələr ələ keçirmək uğrunda bir-biri ilə rəqabət aparsalar da, Rusiyanın Qara dəniz sahillərinə və Qafqaza doğru irəliləməsinə birlikdə qarşı çıxırdılar. Xüsusən də, Osmanlı dövləti ərazisində güzəştli ticarət imtiyazlarına malik Fransa Rusiyanın bu regionda özünün əsas rəqibi hesab edirdi. Avstriya imperatoru da bu məsələlərdə Fransa kralının müttəfiqi idi.

İngiltərə isə ikili oyun oynayırdı. Bir tərəfdən, Rusiya ilə əlverişli iqtisadi-ticarət əlaqələrini inkişaf etdirmək və rus dövlətinin yardımı ilə Fransanın Yaxın Şərq regionunda mövqeyini zəiflətməyə çalışırdı. Digər tərəfdən isə, özü də Qara dəniz hövzəsində və Qafqazda Rusiyanın təsirinin həddindən artıq güclənməsinə qarşı çıxırdı.

1768-ci ilin sentyabrın 25-də Osmanlı sultanı Fransanın təzyiqi ilə Rusiyaya qarşı müharibəyə başladı. Bu zaman Osmanlı-Krım hərbi qüvvələrinin ümumi sayı 600 minə çatırdı. Hərbi əməliyyatlar bir neçə cəbhədə: Balkan yarımadasında, Qafqazda, Azov ətrafında və Şimali Qara dəniz sahillərində başlandı. Müharibənin əvvəlində Osmanlı dövləti Şimali Qafqaz tayfalarını və regionun nüfuzlu feodal hakimlərini öz tərəfinə çəkmək üçün addımlar atdı. Şimali Qafqaza çoxlu sayda Osmanlı nümayəndələri göndərildi. Mənbələr sultanın adından Kabarda knyazlarına sədaqətlə

xidmət etmək və öz hərbi dəstələri ilə Krım xanı tərəfində döyüşlərdə iştirak etmək əmr edildiyini yazmışdır. Osmanlı tarixçisi Əhməd Cövdət paşa sultan elçilərinin Quba xanlığına da göndərildiyini, Dərbənd əhalisini və ləzgiləri Rusiyaya qarşı müharibəyə çağırdığı haqqında məlumat vermişdir.

Kabarda knyazları Misost Bamat, Cambulat Kaytuk öz silahlı dəstələri ilə müharibənin başlanğıcından Krım xanının ordusuna qoşulsalar da, Şimali Qafqaz əhalisinin böyük bir hissəsi bitərəf qalmağı üstün tutmuşdu. Yerli feodal hakimlərinin bir qrupu isə rus qoşunları tərəfindən hərbi əməliyyatlarda iştirak etmişdi. Xüsusən osetinlər bu sahədə fərqlənirdilər. Kuban kazak korpusunun komandanı general İ.F. de Medemin məlumatına görə, Şimali Qafqazda hərbi əməliyyatlar başlandıqdan sonra Aslan bəy Aydəmirovun başçılıq etdiyi çeçen dəstəsi ona yardım etmişdi. Gürcüstanda döyüşən general Totlebenin korpusunda isə inquş dəstələri də iştirak etmişdilər.

Osmanlı dövləti XVIII əsrdə tədricən öz keçmiş qüdrətini itirir, XV-XVI əsrlərdə ələ keçirdiyi ərazilərdən məhrum olurdu. Osmanlı imperiyası daxilində feodal-patriarxal qaydalarının sosial-iqtisadi inkişafa mane olması, Qərbi Avropa ölkələrindən fərqli olaraq kapitalist münasibətlərinin çox ləng inkişaf etməsi, ümumiyyətlə hərbi-siyasi sahədə çətinliklərin artmasına gətirib çıxarmışdı. Osmanlı sultanının Rusiya ilə yeni başladığı müharibədə isə ən böyük uğursuzluğu Qafqazın yerli xalqlarını kütləvi şəkildə öz tərəfinə çəkə bilməməsi olmuşdu.

Osmanlı sultanı III Mustafa dünya müsəlmanlarının xəlifəsi kimi öz elçilərini 1769-cu ildə Gəncə, Təbriz, İrəvan, Tiflis, Dərbənd şəhərlərinə, Dağıstan və Kabardanın feodal hakimlərinə, həmçinin o zamankı İran hökmdarı Kərim xan Zəndin yanına göndərərək, onları bütün qüvvələri ilə xristian Rusiyasına qarşı çıxmağa, müsəlmanların "müqəddəs müharibə"sində yaxından iştirak etməyə çağırmışdı.





Osmanlı tərəfi Qafqaz xalqlarından alacağı hərbi yardımla Qızlyar və Terek istiqamətində hücuma başlamaq, Həştərxana qədər irəliləmək ümidində idi. Sultan Xəzər dənizindən də Rusiyanın limanlarına zərbə vurmağı planlaşdırırdı. Bu haqda Xarici işlər kollegiyasına Dərbənd və Tarkudan keçərək Həştərxana gələn "Ararat ermənisi Sukiaş Ayvazyan" məlumat vermişdi.

1770-ci ilin noyabr ayında Osmanlı sultanının adından Qubalı Fətəli xanın və Dağıstan feodal hakimlərinin yanına yenidən 3 nəfərdən ibarət elçilik göndərilmişdi. Sultan Rusiyaya qarşı müharibəyə qoşulan feodallara böyük miqdarda pul bəxşişi verməyi də vəd etmişdi.

Osmanlı sultanı Gürcüstan hökmdarlarını da Rusiyaya meyl etməkdən çəkindirməyə çalışırdı. Onun adından İmereti hökmdarı Solomona göndərilmiş məktubda bildirilirdi ki, gürcü hökmdarı öz mülklərində sakit dayansa, ona qarşı cəza dəstəsi göndərilməyəcəkdir.

Müxtəlif yollarla Osmanlı dövlətinin Qafqaza göndərdiyi elçilərin çağırışlarından xəbər tutan Rusiya hakim dairələri yerli feodal hakimlərin mövqeyini aydınlaşdırmaq üçün regionda kəşfiyyat fəaliyyətini genişləndirmişdi. Təcili surətdə Dağıstana və Cənubi Qafqaza Vasili Knyazev göndərilmişdi. Guya "ticarət məqsədi ilə gələn" bu rus kəşfiyyatçısı yerli əhali içərisində əsasən ermənilərdən özünə agentlər toplayaraq yerli feodal hakimlərin mövqeyini dəqiqləşdirirdi və Xarici işlər kollegiyasının başçısı qraf N.İ.Paninə geniş raport göndərdi. Raportda Osmanlı dövlətinin Qafqazın feodal hakimlərini Qızlyara və Gürcüstana hücuma başlamağa sövq etməsi, yerli hakimlərin mövqeyi ilə bağlı məlumatlar əks olunmuşdu.

Həştərxan qubernatoru Beketov da 13 avqust 1770-ci il tarixində rus hökumətinə göndərdiyi məktubda Şamaxı sakini, erməni Aryutun Kondratyevin sözlərinə əsasən, Qubalı Fətəli xanın sultanın yanına elçi göndərib pul istəməsi haqqında, dağlı hakimləri ilə birlikdə Qızlyara hücum etmək

üçün məşvərət keçirmələri barəsində məlumat vermişdi. Həştərxan qubernatoru həmçinin qabaqlayıcı tədbir kimi Xəzər dənizinin qərb sahili boyunca keşikçi qruplar yaradılmasını, Qızlyar və Terek istiqamətlərində əlavə hərbi qüvvələr yerləşdirilməsini təklif etmişdi.

Həştərxan quberniya dəftərxanası yanında məxfi xidmət şöbəsi Qafqazdan kəşfiyyat məlumatları toplanmasını Osmanlı dövləti ilə müharibə dövründə daha da gücləndirmişdi. Lakin məxfi xidmət əməkdaşları, xüsusən mayor Mirzə bəy Vahanyan qəsdən birtərəfli, qərəzli informasiyalar ötürməklə rus hökumətini Qafqazın müsəlman hakimləri, o cümlədən Azərbaycan xanları üzərinə qaldırmağa çalışırdılar.

Çar hökuməti 1770-ci ildə Kazandan və digər Volqa boyu şəhərlərindən topladığı qoşun hissələrini cəbhəyə göndərmək əvəzinə, Qızlyar və Terek məntəqələrinə yeritdi. Alınan kəşfiyyat məlumatları haqqında gürcü hökmdarı II İrakliyə və Gürcüstandakı rus korpusunun komandanı general-mayor Suxotininə bilgi verilmişdi.

Rusiya diplomatiyası Osmanlı dövlətinə qarşı apardığı müharibə və Gürcüstana göndərdiyi hərbi qüvvə haqqında konsullar vasitəsilə Azərbaycan xanlarına və Şimali Qafqazın feodal hakimlərinə məlumat vermişdi. Xüsusən də Gürcüstanla münasibətlərinin müttəfiqlik səviyyəsində olduğuna və bunun xanlıqların mənafeyinə toxunmayacağına təminat verdi.

Salyandakı rus konsulu Quba xanının Dağıstanın feodal hakimləri ilə görüşü haqqında gerçək faktları topladıqda aydın olmuşdu ki, həmin görüşdə Osmanlı dövlətinə yardım etmək, Gürcüstana birlikdə hücuma başlamaq planlarını deyil, rəqibləri Qazıqumuq xanı Məhəmməd xanın devrilməsi məsələsini müzakirə etmişlər.

1770-ci ildə Qazıqumuqlu Məhəmməd xan gürcü çarı II İraklinin Osmanlı dövləti ilə müharibə aparmasından istifadə edib Gürcüstana hücüm etmək istədi. Lakin kifayət qədər qoşun toplaya bilmədiyi üçün hücum fikrindən daşındı.





Qeyd etmək lazımdır ki, Qazıqumuq xanı hücum ərəfəsində Azərbaycanın Quba, Qarabağ və Şəki xanlıqlarına çapar göndərib ona hərbi qüvvə verməyi tələb etdikdə, hamısından rədd cavabı almışdı. Qubalı Fətəli xan isə daha irəli gedərək ona məsləhət görmüşdü ki, Gürcüstana arxadan zərbə vurmaq fikrindən daşınsın.

Avar hakimi Umma xan **1773-cü ildə** Dağıstan feodallarının bir qismini öz tərəfinə çəkərək böyük qoşun topladı və Qubalı Fətəli xanın üzərinə yeridi. Bundan xəbər tutan Osmanlı sultanının elçisi Umma xanın qərargahına gələrək böyük məbləğdə pul yardımı və bahalı hədiyyələr verməyi vəd etdi. Osmanlı elçisi onu Quba xanlığına deyil, Gürcüstandakı rus ordusu üzərinə hücum etməyə çağırmışdı.

Osmanlı elçisinin Dağıstan feodalları ilə görüşməsi və Gürcüstana böyük qoşunla hücum olacağı xəbəri Qafqazdakı rus komandanlığına çatdı. Komandanlığın Umma xanın yanına göndərdiyi çapar ona rus hökumətinin Gürcüstana yürüş etməkdən çəkinmək tələbi olan məktubunu çatdırdı. Gürcüstana asan yürüş edib çoxlu qənimət ələ keçirmək arzusunda olan feodal hakimlər rus komandanlığının tələbi ilə hücum fikrindən daşındılar.

Bəzi Dağıstan hakimlərinin hərbi dəstələri müharibənin əvvəlində İmereti hökmdarı Solomonun qoşunu tərkibində Osmanlı ordusuna qarşı döyüşdə iştirak etmişdi. Kartli-Kaxeti hökmdarı II İrakli isə fürsət düşən kimi Qafqazın şərqində baş verən münaqişələrə müdaxilə edir, öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Məsələn, 1773-cü ildə Avar xanı müttəfiqləri ilə Qubalı Fətəli xanın üzərinə yürüşə başlayanda II İrakli onları dəstəkləmişdi.

Ümumiyyətlə, 1768-1774-cü illərdə baş vermiş Rusiya-Osmanlı müharibələri dövründə Azərbaycan xanları və Dağıstanın feodal hakimlərinin əksəriyyəti ehtiyatlı hərəkət etmiş, bitərəf mövqe tutmağa üstünlük vermişdilər. Yerli müsəlman əhali, xüsusən sünni məzhəbinə mənsub din xadimləri Osmanlı dövlətinə rəğbət bəsləsələr də, feodal hakimlər si-

yasi və iqtisadi mənafeləri əsas götürürdülər. Həmçinin xanlıqlar Rusiya və Osmanlı dövlətləri arasındakı müharibədən yararlanaraq, kənar təsirin azaldığı bu dövrdə öz daxili işlərini sahmana salmağa daha çox vaxt ayırırdılar.

Hərbi əməliyyatlara daha yaxşı hazırlaşmış Rusiya bütün istiqamətlərdə apardığı döyüşlərdə uğur qazandı. Müharibənin başlanğıcında Osmanlı-Krım hərbi qüvvələri Krım-Gərayın başçılığı altında Ukrayna və Don istiqamətində böyük hücuma başlasa da, tezliklə məğlub olub Krıma çəkildi. Azov ətrafı ərazilər rus qoşunlarının əlinə keçdi. 1770-ci ildə Moldovada döyüşən rus ordusu istedadlı sərkərdə P.A.Rumyantsevin başçılığı ilə Larda və Kaqul çayı sahilindəki döyüşlərdə Osmanlı qoşunlarını ağır məğlubiyyətə uğratdı. Gürcüstanda Totlebenin başçılıq etdiyi rus hərbi hissəsi Kutaisi tutdu və osmanlıları İmeretidən vurub çıxardı. Şimali Qafqazda general Medemin başçılıq etdiyi rus qoşunu Eşkonen adlı yerdə Kabarda feodallarının hərbi qüvvələrini məğlub etdi.

Rusiyanın Şimali Qafqazda daha böyük qələbəsi güclü hərbi qüvvəyə malik Noqay tayfalarının Krım xanının vassal asılılığından imtina etmələrinə nail olması idi. Noqaylara Kuban çayının sağ sahili boyunda məskunlaşmağa və özlərinə xan seçmələrinə imkan verildi. Rus hökuməti bununla həm noqayları neytrallaşdırmaq, həm də rus sərhədlərinin dağlı hücumlarından qorunmasını təmin etmək ümidində idi. Lakin 1771-ci ildə Krımın işğal edilməsi, yeni Krım xanı Sahib-Gərayın Rusiya ilə müttəfiqlik müqaviləsi bağlaması ilə əlaqədar, rus hökuməti həmin dövrdə Kuban boyunu Krımdan ayırmaq planından imtina etmişdi.

1774-cü ildə Osmanlı dövlətindən hərbi yardım alan Krım xanının digər varisi Dövlət-Gəray böyük qoşunla Kabardaya hücum etdi. Lakin rus qoşunu kazakların və noqayların köməyi ilə bu hücumu dəf edə bildi. Osmanlı dövlətinin Şimali Qafqazda möhkəmlənmək cəhdinin qarşısı alındı.

Osmanlı dövləti məğlubiyyəti qəbul etdi və **1774-cü il**





**iyulun 10-da** ***Kiçik Qaynarca*** adlı bolqar kəndində sülh bağlandı. Sülh müqaviləsi 28 maddədən və iki məxfi əlavədən ibarət idi. Sülhün şərtlərinə görə, Krım müstəqil elan edildi, *Azov sahilləri, Kerç, Yeniqala, Dnepr və Cənubi Buq* çayları arasındakı torpaqlar Rusiyaya keçdi. Taman yarımadası Osmanlı dövlətinin əlində qaldı. Gürcüstanda Rusiyanın ələ keçirdiyi ərazilər "qədimdən məxsus olduğu dövlətə aid edildi". Osmanlı tərəfi Qərbi Gürcüstandan xərac almaqdan imtina etdi. Müqavilənin 21-ci maddəsinə görə Kabardanın taleyi Krım xanının ixtiyarına verilirdi. Rusiya hələ 1772-ci ildə Krım xanlığı ilə belə bir razılaşma əldə etmişdi ki, Böyük və Kiçik Kabarda əhalisi Rus dövlətinin təbəəsi sayılacaqdır. Bununla Kabardanın Rusiyaya birləşdirilməsi qəti başa çatdı.

**Şimali Qafqazda Rusiya müstəmləkə rejiminin yaradılması cəhdləri.** Kiçik Qaynarca sülhü Şimali Qafqazın və Krımın tarixində tamamilə yeni bir səhifə açdı. Sülh müqaviləsinin şərtlərinə görə, Solsahil Kubanında yerləşən noqayların müstəqilliyini həm Osmanlı dövləti, həm də Rusiya qəbul etdi. Çərkəzistan isə Osmanlı dövlətinin tabeliyində qaldı. Kiçik Qaynarca sülhü Osmanlı dövlətinin Qafqazdakı təsirinin zəifləməsinə səbəb oldu. Rusiya isə Azov sahillərini ələ keçirməklə Şimal-qərbi Qafqazın içərilərinə doğru irəliləmək üçün yaxşı imkan qazandı. Kabardanın birləşdirilməsi isə Şimali Qafqazın mərkəz hissəsində Rusiyanın təsirinin ildən-ilə güclənməsinə səbəb oldu.

Çar hökuməti Kiçik Qaynarca sülhü bağlandıqdan dərhal sonra Osetiyanın birləşdirilməsinə girişdi. Çünki bu bölgənin Gürcüstanla və bütövlükdə Cənubi Qafqazla müntəzəm əlaqə saxlaması, qoşun yeridilməsi üçün çox əlverişli strateji mövqeyi var idi. Şimali Osetiya nümayəndələri ilə 1774-cü ilin oktyabrında Mozdokda aparılan danışıqlar nəticəsində bu regionun Rusiyaya birləşdirilməsinə qərar verildi. Razılaşmaya görə, osetinlər Mərkəzi Qafqazın dağətəyi və düzənlik bölgələrinə köçürülməli, Osetiyanı qonşu feodal-

lıqların hücumlarından qorumaq üçün bu bölgədə qala və istehkamlar inşa edilməli idi. İlk vaxtlar Osetiya Həştərxan qubernatorluğuna daxil edilmişdi.

1768-ci ildə Rusiya-Osmanlı müharibəsi başlandıqdan sonra Çeçenistanın və İnquşetiyanın rus dövlətinə tabe edilməsi cəhdləri güclənmişdi. Ayrı-ayrı tayfa başçıları rus təbəəliyini qəbul etməyə razılıq verdilər. 1768-ci ildə Aldı, Zauka, Baqduxan və bir neçə başqa çeçen tayfası Rusiyaya sədaqət andı içdi. 1769-1771-ci illərdə inquş tayfa ağsaqqalları, 1771-ci ildə qarabulaqlılar Rusiya tabeliyini qəbul etdilər. 1772-ci ildə qarabulaqlıların çoxu Qara Yandar adlı dağətəyi düzənlik bölgəyə köçürüldü. Çeçenlərin bir qismi Terek və Sunja çayları arasındakı ərazidə yerləşdirildi. Burada hər birində 400-dən çox həyət olan 10 böyük yaşayış məntəqəsi yaradıldı. Bütün köçürülənlər rus dövlətinin təbəələri kimi vergi ödəməli, mükəlləfiyyətlər icra etməli idilər. Rus təbəəliyinə qəbul edilib düzənlik bölgələrdə məskunlaşdırılan bu tayfalar yenidən dağlara qayıtmaq imkanından məhrum edildilər.

Lakin çeçenlər bütün qadağalara baxmayaraq, dağlıq bölgədəki qohumları ilə əlaqə saxlamaqda davam edir və zaman-zaman köhnə yurdlarına dönür, Rusiya təbəəliyindən imtina edirdilər. Ona görə də, bəhs olunan dövrün rus mənbələri eyni tayfanın bir neçə dəfə rus təbəəliyini qəbul etmələri haqqında məlumatlar vermişlər.

1778-ci ildə aldı tayfası yenidən Rusiyaya sədaqət andı içdi və Sunja boyunda yerləşdirildi. 1779-cu ildə qixi tayfası Nurov kazak stanitsasının qonşuluğuna, bir neçə çeçen ailəsi isə indiki Qroznının yerində Soqraçan-Yurt məntəqəsinə köçürüldülər. Onların təhlükəsizliyini təmin etmək üçün rus hökuməti kabardalıların çeçen məntəqələrinə basqın edib, oğurluq etmələrini qadağan etdi.

1781-ci ildə çeçen tayfa başçıları Qızlyar komendantı A.M.Kuroyedova 11 maddəlik sənəd təqdim etdilər. Bu sənəddə çeçen ağsaqqalları Rusiya təbəəliyini qəbul edir, yeni





vətəni qorumağı, digər rus təbəələri olan qonşuları ilə sülh şəraitində yaşamağı öhdələrinə götürürdülər. Mozdok xəttinin rəisi general-mayor Fabritsian bu sənədi çeçen camaatı ilə deyil, sanki bir dövlətlə anlaşma kimi təqdim etsə də, çarizm ilk vaxtlar müqavilə bağlamaqla dağlıq Çeçenistanda möhkəmlənməyə üstünlük verirdi.

Bununla belə, Rusiya Şimali Qafqazda öz mövqeyini daha çox hərbi-siyasi metodlarla möhkəmləndirməyə cəhd edirdi. **1777-1780-cı illərdə** Mozdokdan Azova kimi qala və istehkamlar silsiləsindən ibarət ***Qafqaz xəttinin*** yaradılması bu məqsədə xidmət edirdi. Çarizm bununla Şimali Qafqazın məhsuldar düzənlik hissəsini qəti surətdə dağlıq bölgədən ayırmaq və özünə sədaqətli əhali ilə bu yerləri məskunlaşdırmaq, yerli əhalinin düzənlik bölgələrə maneəsiz gəlişinə son qoymaq niyyətində idi.

Şimali Qafqazın Şərq hissəsində, xüsusən Dağıstanda Rusiyaya münasibət daha mürəkkəb idi. Rusiyanın Qubalı Fətəli xanı müdafiə etməsi digər feodal hakimləri, xüsusən Qaraqaytaq usmisi Əmir Həmzənin narazılığına səbəb olmuşdu. Fətəli xan da öz növbəsində Dağıstanda ondan narazı olan hakimləri sıradan çıxarmağa çalışırdı. O, rəqibləri Qazıqumuqlu Məhəmməd xanın yerinə onun qardaşı oğlu Eldar bəyi, Əmir Həmzənin yerinə onun qardaşı Ustar xanı qoymaq istəyirdi. Lakin Fətəli xanın Şimal-şərqi Azərbaycanda və Cənubi Dağıstanda öz mövqeyini möhkəmlətməsi Qarabağ xanı İbrahimxəlil xan, gürcü çarı II İrakli və Avar hakimi Umma xan tərəfindən narazılıqla qarşılanırdı.

1773-cü ildə Quba xanlığının tabeliyində olan Şamaxı xanlığına onların birləşmiş qüvvələrinin hücumu dəf edilsə də, 1774-cü ilin yayında Gavduşan döyüşündə Qubalı Fətəli xan ağır məğlubiyyətə uğradı. Lakin Əmir Həmzənin hiylə ilə Dərbəndi ələ keçirməsi cəhdi baş tutmadı.

Rusiya Xəzər sahili bölgələrdə baş verən hadisələri xüsusi diqqətlə izləyirdi. Rusiya Elmlər Akademiyasının akademikləri S.Qmelin, M.Biberşteyn və İ.Lerxin bu bölgələrə

səfərləri elmi axtarışdan daha çox, kəşfiyyat məlumatları toplanması məqsədi güdürdü. Bu işdə Samuel Qmelin xüsusilə canfəşanlıq edirdi. O, rus hökumətinin tapşırığı ilə 1764-1772-ci və 1772-1774-cü illərdə Xəzər sahili bölgələrdə olmuşdu. S.Qmelinin xüsusən sonuncu gəlişində "elmi axtarışlar"ın arxasında məxfi dövlət tapşırığı gizləndiyi Dağıstanda çox adama bəlli olmuşdu. S.Qmelinin Qaraqaytaq hakimi Əmir Həmzə tərəfindən həbs edilməsi də bununla bağlı idi.

Əmir Həmzə Qızlyar komendantının akademik S.Qmelini azad etmək tələbinə cavab olaraq, Qaytaqdan rus hüdudlarına qaçmış 200 ailənin geri qaytarılmasını, ya da 50 min rubl məbləğində ödənc verilməsini tələb etdi. Çariça II Yekaterina dağlı xalqları narazı salmamaq üçün Dağıstana böyük ordu göndərməkdən çəkindi. Lakin danışıqlar getdiyi zaman S.Qmelin əsirlikdə öldüyü üçün, rus hökuməti Əmir Həmzədən intiqam almağa qərar verdi.

**1775-ci ilin yazında** general İ.F. de Medemin başçılığı ilə Dağıstana rus hərbi dəstəsi göndərildi. Ona kəşfiyyat işi təşkil etmək və yerli dağlı hakimlərə hədiyyə vermək üçün 5 min rubl ayrılmışdı. Tarku şamxalı Murtuzəli xan rus hərbi dəstəsini qarşıladı və bu dəstə ilə birlikdə İran-Xarab adlı yerdə (Dərbəndin 16 km-də) Əmir Həmzənin qüvvələrini məğlub etdi. Bu döyüş Dərbəndi uzun sürən mühasirədən xilas etdi. Qubalı Fətəli xan da öz hərbi qüvvələri ilə rus ordugahına gələrək, onlarla birgə Qaytaqa yürüşdə iştirak etdi. Əmir Həmzənin və Qazıqumuqlu Məhəmməd xanın qüvvələri sarsıdıcı şəkildə məğlub edildi.

Bundan sonra Qubalı Fətəli xan, Tabasaran hakimi qazı Rüstəm, Qaraqaytaq usmisi Əmir Həmzə Rusiya himayəsinə keçmək üçün müraciət etdilər. Lakin rus hökuməti Osmanlı dövləti tərəfindən Dağıstana rus qoşunu göndərilməsinə kəskin etiraz edilməsini nəzərə alıb, bu feodal hakimlərin Rusiya himayəsinə keçmək xahişlərini rədd etdi və əsas hərbi qüvvələri geri çağırdı. Dərbənddə Don və Ural kazaklarından ibarət 500 nəfərlik atlı dəstə və 4 top saxlanıldı. Osmanlı dövlətinin və o zaman İranda hakimiyyətdə olan Kərim xan Zəndin tələbi ilə Rusiya 1775-ci ilin sonunda həmin dəstəni də Qızlyara çıxarıb aparmağa qərar verdi. Lakin rus hakimiyyət nümayəndələri bunu müxtəlif bəhanələrlə uzadaraq, yalnız iki il sonra, 1777-ci ilin yayında həyata keçirdi.

Bütün bu faktlar aydın göstərir ki, Rusiya Qafqazın Xəzərsahili bölgələrində, xüsusən çox mühüm strateji əhəmiyyətə malik Dərbənddə mövqeyini möhkəmlətmək üçün ciddi cəhdlər edirdi. Yalnız yerli əhalinin müqaviməti və xarici təzyiqlərin çoxalması həmin dövrdə rus hökumətini Dağıstandan geri çəkilməyə məcbur etmişdi.

Rusiya Kiçik Qaynarca sülhünün sultan tərəfindən təsdiqinin yubadılmasından istifadə edib **1774-cü il noyabrın 8-də** Kubanın Krımdan ayrılmasına qərar verdi. Lakin sultan sonrakı ilin yanvarında sülh müqaviləsini təsdiq etdi və buna lüzum qalmadı. Əvəzində Osmanlı dövləti 1775-ci ilin may ayında öz tərəfdarı olan Dövlət-Gəraya hərbi qüvvə verdi və Krım xanlığına yiyələnməsinə yardım göstərdi. Rus hökuməti də öz tərəfdarı Şahin-Gərayı Krım xanlığının taxtına çıxarmağa girişdi. Bu məqsədlə Kuban çayının sağ sahili boyunda yaşayan noqaylara Şahin Gərayı Krım xanı kimi təqdim etdi. Şahin-Gərayın daimi qoşun yaratmaq cəhdi 1777-ci ildə üsyana səbəb oldu. Üsyan Sağsahil Kubana da keçdi. Noqayların rus hökumətinə qarşı çıxmasının qarşısını silah gücünə almaq üçün feldmarşal A.V.Suvorov bölgəyə göndərildi. Ona Azov-Mozdok xəttinin Stavropoldan Azova kimi olan hissəsini inşa etmək əmr edilmişdi.

A.V.Suvorov vəziyyətlə yerində tanış olduqdan sonra müdafiə xəttini Kuban çayı boyuna keçirməyi təklif etdi. Rus hökuməti bu təklifi qəbul etdi və qısa müddət ərzində Kuban çayı boyunda möhkəmləndirilmiş müdafiə istehkamları şəbəkəsi yaradıldı.

**1783-cü il aprelin 8-də** imperatoriça II Yekaterinanın manifestinə əsasən ***Krımın Rusiyaya birləşdirilməsi*** və xanlı-

ğın ləğv edilib, əvəzində Tavriya quberniyası yaradılması ilə Şimali Qafqazın düzənlik hissəsinin Rusiyaya keçməsi qətiləşdi. Krımla bərabər, ***Taman yarımadası və Kubanboyu*** Rusiyaya birləşdirildi. Qafqazın şimal-qərbindəki bu ərazilər əsasında Novorossiysk general-qubernatorluğu yaradıldı, II Yekaterinanın sevimlisi knyaz Q.A.Potyomkin ona başçı təyin edildi.

**Georgiyevsk traktatı.** 1783-cü ildən sonra Rusiyanın xarici siyasətində Qafqaz ön plana çıxdı. Çünki, həmin vaxta kimi Qara dəniz probleminin həll edilməsi, Krımın birləşdirilməsi rus dövlətinə imkan vermişdi ki, Qafqazda öz mövqeyini möhkəmlətməyə və yeni ərazilər işğalına daha çox diqqət yetirsin. Bu istiqamətdə ilk ciddi tədbirlər Kuban çayının sağ sahili boyunda istehkam və qalalar inşa edilməsi olmuşdu. Çünki, bu müdafiə xəttinin möhkəmliyi çarizmə Qafqazda möhkəmlənmək və Krımı əldə saxlamaq üçün son dərəcə vacib şərt idi.

**1783-cü il iyulun 24-də** ***Georgiyevsk*** qalasında Kartli-Kaxeti çarlığının Rusiya himayəsinə keçməsi haqqında "dostluq müqaviləsi" adlı traktat imzalandı. 13 əsas və 4 əlavə maddədən ibarət olan bu traktata görə Gürcüstan hökmdarı II İrakli öz adından və varislərinin adından Rusiya imperatorunun ali hakimiyyətini və himayəsini qəbul etdi. Rusiya da üzərinə götürdü ki, Şərqi Gürcüstanın ərazi bütövlüyünün qorunmasına təminat verəcək. Rusiya tərəfi Kartli-Kaxeti çarlığının taxt-tacını müdafiə etməli idi. Əvəzində Gürcüstan taxt-tacının varisi Rusiya tərəfindən təsdiq edilməli idi. Həmçinin II İrakli Rusiyanın razılığı olmadan qonşu dövlətlərlə heç bir əlaqə saxlaya bilməzdi. Bir sözlə müstəqil xarici siyasət yeritmək hüququndan tamamilə məhrum edilirdi.

Georgiyevsk traktatının şərtlərinə uyğun olaraq Tiflisə rus hərbi hissəsi – 2 batalyon əsgəri qüvvə yerləşdirdi. II İraklinin sarayında rus çarının nümayəndəsi təmsil olunmalı idi. Gürcü çarı yalnız daxili işlərində öz müstəqilliyini qismən saxlaya bilmişdi.





Rusiya Georgiyevsk traktatına bənzər müqaviləni İmereti çarlığı ilə də imzalamağa ümid edirdi. Çünki, Osmanlı dövlətinə qarşı rus dövlətinin apardığı müharibədə İmereti hökmdarı Solomon Rusiyaya xeyli yardım etmişdi və indi də bu imperiyanın himayəsinə keçmək istəyirdi. Lakin bu məsələyə Osmanlı sultanının qəti etirazı öz rolunu oynadı. Həmin dövrdə İmereti çarlığı Rusiya protektoratlığına keçmədi.

Rusiya Kartli-Kaxeti çarlığına yeni-yeni hərbi qüvvələr göndərilməsini asanlaşdırmaq üçün Dəryal keçidi boyunca yol inşasına başladı. Hərbi-Gürcüstan yolu adını almış bu yolun Şimali Qafqazdakı başlanğıcında 1784-cü ildə Vladiqafqaz qalasının bünövrəsi qoyuldu.

Qafqazdakı rus qoşunlarının komandanı P.S.Potyomkin 20 avqust 1883-cü ildə Georgiyevsk traktatı bağlanması haqqında Azərbaycan xanlarına və Dağıstanın feodal hakimlərinə çariça II Yekaterinanın adından fərmanlar göndərdi. Bu sənəddə Qafqazın feodal hakimlərinə xəbərdarlıq edilirdi ki, Gürcüstanla münasibətlərində onun Rusiyanın himayəsində olmasını nəzərə alsınlar.

Qafqazın feodal hakimlərinin çoxu Rusiya dövlətinin hərbi gücündən ehtiyat edərək Potyomkinə cavab məktubunda II İrakliyə xeyirxah münasibət göstərəcəklərini bildirdi. Yalnız qubalı Fətəli xan fərqli davrandı. O, II İrakli ilə rəqabət aparan sabiq Kartli hökmdarı Vaxtanqın nəvəsi knyaz Aleksandra sığınacaq verdi və ona gürcü taxtına çıxmaq üçün yardım göstərməyi vəd etdi.

Georgiyevsk müqaviləsi bağlandıqdan sonra Rusiyanın Qafqazın mərkəzi rayonlarına marağı artdı. Çünki Dəryal keçidi vasitəsi ilə Gürcüstanla müntəzəm əlaqə saxlanması çarizmin bu bölgədə mövqeyini möhkəmləndirməsini həyati zərurətə çevrilmişdi. Bununla bağlı, rus hökumətinin göstərişilə **1784-cü ildən** etibarən Mozdokdan Daryal keçidinin şimal girişinə qədər yol boyu möhkəmləndirilmiş məntəqə və istehkamların inşasına başlandı. Bilavasitə Dəryal

keçidinin şimal başlanğıcında isə *Vladiqafqaz* qalasının əsası qoyuldu.

1783-cü ildən başlayaraq rus hərbçilərinin gərgin işi sayəsində Terek çayının yatağı boyunca Gürcüstan istiqamətində yolun düzəldilməsinə başlandı. Həmin il ərzində yolun yük heyvanlarının çətinliklə keçib gedə bildiyi hissələri rus hərbçiləri tərəfindən genişləndirilərək arabaların keçib getməsi üçün yararlı hala salındı. Sonradan Hərbi-Gürcüstan yolu adlanan bu yolun Cənubi Qafqaza rus qüvvələrinin və onlar üçün zəruri silah-sursatın daşınmasının təşkilində böyük rolu oldu.

Qeyd etmək lazımdır ki, Osmanlı dövləti də Kuban çayının sol sahili boyunda mövqeyini möhkəmləndirməyə səy göstərirdi. Çünki, bu bölgə Krımın geri qaytarılması və Şimali Qafqazın daxili bölgələrinə nüfuz etmək üçün çox əlverişli platsdarm idi. Osmanlı dövləti 1781-ci ildə Qara dənizin Şimali Qafqaz sahilində Anapa qalasını inşa etdi və orada çoxlu sayda hərbi qüvvə yerləşdirdi.

1784-cü ildə Anapada torpaq səddin əvəzinə Qərbi Avropa mütəxəssislərinin köməyi ilə daşdan çox möhkəm qala divarları inşa edildi. Bir az öncə isə osmanlılar 100 gəmi ilə Suncuk qalasına gələrək çoxlu miqdarda taxıl almışdılar. Qara dənizin Qafqaz sahili boyundakı Suxum-qala, Poti, Batum, Suncuk-qala möhkəmləndirildi, Rioni çayından şimalda sahil boyunda istehkamlar inşasına başlanıldı.

Osmanlı dövləti 1768-1774-cü illər müharibəsinin son acı təcrübəsini nəzərə alaraq, qala və istehkamlar tikintisinə Avropa mütəxəssislərini cəlb etmişdi. Osmanlı ordusunun şəxsi heyətinin artilleriya işi üzrə təlimlərinə də xarici zabitlərin cəlb edilməsinə başlanmışdı.

Osmanlı sultanı Rusiya ilə yeni müharibə təhlükəsinə qarşı Şərqi Anadoluda və Axalsix paşalığında hərbi qüvvələrin sayını artırdı. Ona görə ki, yeni Osmanlı-Rusiya müharibəsi başlanacağı təqdirdə əsas qarşıdurmanın Balkanlarla yanaşı, Qafqaz hüdudlarında olacağı artıq hamıya bəlli idi.





Osmanlı mənbələrinə görə, həmin vaxt Şərqi Anadoluda Aliməli paşanın başçılığı altında 80 minlik hərbi qüvvə cəmləşdirilmişdi.

Osmanlı dövləti Rusiya təhlükəsinə qarşı Qafqaz xalqları ilə əməkdaşlığı genişləndirməyə diqqəti artırdı. İslam təbliğatı gücləndi, "kafirlərə" qarşı "müqəddəs müharibə"yə çağırış geniş miqyas aldı.

**Rusların və kazakların Şimali Qafqazda kütləvi məskunlaşdırılması.** Rusiya Şimali Qafqazda yeni işğal etdiyi, zorla birləşdirdiyi ərazilərdə öz müstəmləkəçi hakimiyyət strukturlarını təşkil etmək, bu regionda hərbi nəzarəti gücləndirmək və özünə etnik dayaq yaratmaq üçün XVIII əsrin ortalarından etibarən ardıcıl surətdə addımlar atmağa başladı. Bu istiqamətdə atılan ən önəmli addımlardan biri Qafqazın şimalındakı düzənlik bölgələrə kazakların kütləvi surətdə köçürülməsi oldu. Çar hökuməti əlindəki bütün imkanları işə salaraq yerli əhali içərisində kazak stanitsalarının salınmasını genişləndirdi, bölgədə gəlmə rus əhalisinin mövqelərinin möhkəmlənməsinə şərait yaratdı.

XVIII əsrin 60-70-ci illərində bu məskunlaşma daha intensiv xarakter aldı. Rusiya hakim dairələri Volqa və Don çayları boyunda yaşayan kazakları zorla Kuban və Terek çayları boyuna köçürməyə başladı, onları xüsusi hərbi məskənlərdə yerləşdirdi. Dağlı xalqlara məxsus torpaqlar, xüsusən də qışlaq kimi istifadə edilən düzənlik bölgələr rus hərbçilərinin iştirakı ilə kazak stanitsaları və qəsəbələri salınması üçün müsadirə edildi. Bu dövrdə Qafqaz ətəklərində salınmış *Yekaterinador* qalası Kuban diyarını işğal etmək və Şimal-qərbi Qafqazda möhkəmlənmək üçün platsdarm rolunu oynayırdı. Şimali Qafqazın şərq hissəsində isə daha əvvəl: **1735-ci ildə** ***Qızlyar*****, 1763-cü ildə** isə *Mozdok qalaları* inşa edilmişdi. Sonrakı dövrdə bu qalalar Kerçdən Terek çayının mənsəbinə qədər Qafqaz müdafiə xəttinin əsas məntəqələrinə çevrilmişdi.

Bu istiqamətdə əsas tədbirlərdən biri rus hökuməti tə-

rəfindən **1777-ci ildə** Azovla Mozdok arasındakı əraziyə *Volqa və Xopra çayları boyundan kazakların köçürülüb yerləşdirilməsi oldu.*

Volqa boyundan köçürülən kazaklar əsasında Volqa kazakları polku təşkil edildi. Bu polk 5 möhkəmləndirilmiş stanitsada: ***Yekaterinoqrad, Ravlovsk, Marinevsk, Georgiyevsk və Endereyevsk*** məntəqələrində yerləşdirildi. Xopra boyundan köçürülən kazaklar əsasında Xopra kazakları polku yaradıldı. Bu polk da yeni yaradılmış 5 stanitsada: ***Aleksandrovsk, Severnı, Stavropolsk, Moskovsk və Donetsk*** məntəqələrində yerləşdirilirdi.

Kazak stanitsaları və qəsəbələrini yerli əhalinin basqınlarından müdafiə etmək üçün, öncə Terek çayı boyunca, sonra da Azov sahillərinə doğru möhkəmləndirilmiş qala və istehkamlardan ibarət Qafqaz xəttinin yaradılmasına başlandı. Onlardan öndə isə dağətəyi bölgəyə doğru sırf hərbi məskənlər – qalalar və fortpostlar tikilirdi. Rusiya hakimiyyəti nümayəndələri dağlı xalqlardan müsadirə edilmiş torpaqlarda kazak stanitsaları və qəsəbələri yaratmaqla yanaşı, dağətəyi bölgələrdə daha mürəkkəb mühəndis işi olan hərbi qalalar – forpostlar inşa edirdilər. Bu qalalar təkcə dağlı hücumlarını dəf etmək üçün əhəmiyyətli deyildi, həm də Qafqaz dağlarına doğru irəliləmək üçün platsdarm rolunu oynayırdı. Məsələn, çarizm Qafqaz dağları ətəyində salınmış Yekaterinodar qalası vasitəsi ilə Kuban diyarının işğalını gerçəkləşdirə bildi.

Bütün bu tədbirlər nəticəsində *Azov-Mozdok möhkəmləndirilmiş müdafiə xəttinin* əsası qoyuldu. Belə bir xəttin yaradılması, bir tərəfdən Şimali Qafqazda yeni işğal edilmiş ərazilərin mühafizəsini gücləndirməyə, digər tərəfdən isə, bu regionda yeni yaşayış məntəqələri və şəhərlərin meydana gəlməsinə imkan verdi. Artıq, XVIII əsrin sonunda Stavropol, Georgiyevsk və Yekaterinodar bütün Şimali Qafqaz üçün çox vacib iqtisadi və inzibati mərkəzlərə çevrildilər.

Rusiya hakimiyyət dairələri Şimali Qafqazda sərhədlərin mühafizəsini gücləndirməklə yanaşı, inzibati idarəçilik qaydalarını da nizama salırdı. 1780-cı ilə kimi Qafqazın şimalında yeni işğal edilən ərazilər *Həştərxan general-qubernatorluğuna* daxil edilirdi. Daha öncədən bu general-qubernatorluğa Saratov vilayətindən Terek çayına kimi geniş ərazilər daxil idi. Rusiya imperiyasının Avropa hissəsinin bütün cənub-şərq bölgələrinin daxil edildiyi bu quberniyaya Şimali Qafqaz torpaqlarının da qatılması, onun idarə olunmasını çətinləşdirirdi. **1780-cı ildə** tətbiq edilən yeni inzibati bölgüyə görə, bu nəhəng quberniya əsasında iki yeni inzibati vahid: Saratov və Həştərxan quberniyaları yaradıldı. Orta Volqaboyu Saratov quberniyasının tərkibində saxlandı, Xəzərin şimal sahili boyu və Şimali Qafqaz Həştərxan quberniyasına verildi. ***Knyaz Q.A.Potyomkin*** Həştərxan general-qubernatoru vəzifəsində saxlandı.

Bu inzibati bölgüdən sonra Qafqazın yeni birləşdirilən əraziləri bir müddət Həştərxan qubernatorluğunun tərkibində qalmaqda idi. Bu da Həştərxan qubernatoruna Qafqazın inzibati işləri ilə daha geniş miqyasda məşğul olmağa imkan vermişdi. Knyaz Q.A.Potyomkinin tapşırığı ilə *Qafqaz xəttinin rəisi və Kuban ordu korpusunun komandanı general P.S.Potyomkin* Qafqazın yeni inzibati idarəsinin layihəsini hazırlamağa başladı. Onun həmin il hazırlayıb təqdim etdiyi layihəyə görə, Qafqazda yeni müstəqil idarəçilik – canişinlik yaradılmalı idi. Layihədə Qafqazın Rusiyaya birləşdirilmiş bölgələrində çox mühüm inzibati, iqtisadi və mədəni tədbirlər həyata keçirilməsi də nəzərdə tutulurdu.

General P.S.Potyomkinin layihəsi 1785-ci ildə hökumət tərəfindən təsdiq edildi. **1786-cı ildə** isə onun reallaşdırılmasına başlandı, **Qafqaz canişinliyi** təşkil olundu. Canişinliyin inzibati mərkəzi ***Yekaterinodar*** oldu. Bu yaşayış məntəqəsinə tezliklə quberniya şəhəri statusu verildi.

Çarizm XVIII əsrin 80-cı illərindən etibarən Şimali Qafqazın düzənlik hissəsini Mərkəzi Rusiyadan köçürülənlərlə məskunlaşdırılmasının ikinci mərhələsinə başladı. Hö-

kumətin çağırışı ilə dövlət kəndlilərinin Qafqazın məhsuldar torpaqlarında yerləşdirilməsi sürətlə həyata keçirilirdi. İlkin mərhələdə 23 mindən çox təktəsərrüfatlı rus ailəsi Qafqaz torpaqlarına köçməyə razılıq vermişdi. 1783-cü və 1784-cü illərdə onların köçürülməsi hesabına Şimali Qafqazın möhkəmləndirilmiş xəttinin yaxınlığında *10 yeni yaşayış məntəqəsinin bünövrəsi qoyuldu.* İlkin mərhələdə bu yaşayış məntəqələrinə hər iki cinsdən 1250 nəfər yerləşdirilmişdi.

Rusiya hökuməti bəhs olunan dövrdə Şimali Qafqaza həmçinin mərkəzi Rusiyadan mülkədar kəndlilərinin köçürülməsini təşkil etmişdi. Çarizmin müstəmləkəçilik siyasətindən doğan və yeni işğalçılıq planlarına xidmət edən bu tədbirin intensiv həyata keçirilməsi üçün II Yekaterina dağlı xalqlarına məxsus məhsuldar torpaqları xüsusi canfəşanlıqla rus zadəganlarına paylayırdı. XVIII əsrin 80-ci illərindən 1804-cü ilə kimi çariça və onun varisləri Şimali Qafqazda əkinə yararlı ***623 min desyatin*** torpağı rus mülkədarlarına bağışlamışdı.

Bu torpaqların 127 min desyatini knyaz A.A.Vyazemskiyə, 30 min desyatini knyaz Q.A.Potyomkinə, 16 min desyatini qraf A.R.Vorontsova verilmişdi. Onlar yeni mülklərində möhkəmlənmək üçün Rusiyadakı malikanələrindən *təhkimli kəndlilərin bir hissəsini* buraya köçürməyə başladılar. Bu istiqamətdə ilk addımı Qafqazın ali hakimi sayılan knyaz Q.A.Potyomkin atdı. O, öz mülklərindən 400 nəfər təhkimli kəndlini Şimali Qafqaza köçürərək Privolnı stanitsasında yerləşdirdi. Onun ardınca Şimali Qafqazda geniş torpaq sahəsi bağışlanmış II Yekaterinanın sevimliləri: knyaz A.A.Bezborodko, knyaz A.A.Vyazemski, qraf A.R.Vorontsov, qraf İ.V.Çernişev və başqaları öz təhkimli kəndlilərini bu regiona köçürməyə başladılar. Artıq XVIII əsrin 80-90-cı illərində rus mülkədarlarının öz təhkimli kəndlilərini Şimali Qafqazdakı mülklərinə köçürüb yerləşdirmələri geniş miqyas almışdı.

Şimali Qafqazda Rusiyanın hakim dairələrinin yerləş-





dirdiyi digər əhali qrupu *istefaya çıxmış hərbçilər* idi. Bu regionda hərbi xidmətini başa vurub istefaya çıxan rus zabitlərinə hakimiyyət orqanları Şimali Qafqazda yaşamaq üçün münasib şərait yaradırdı. Hərbi xidməti başa vurmuş hərbçilər hesabına bu regionda 1785-ci ildə 7 kənd, 1786-cı ildə 16 kənd, 1787-ci ildə 4 kənd yaradılmışdı. Artıq 80-cı illərin sonunda Şimali Qafqazın müxtəlif bölgələrində 34 yeni yaşayış məskəni yaradılmışdı ki, onlarda da 30 mindən çox rus əhalisi məskunlaşdırılmışdı.

Çarizmin Şimali Qafqazda XVIII əsrin 80-ci illərindən geniş miqyasda həyata keçirdiyi rus əhalisinin yerləşdirilməsi siyasəti yerli dağlı xalqların əsrlər boyu yaşadığı, istifadə etdiyi yerlərdən sıxışdırılması, açıqca qovulması ilə müşayiət edilirdi. Qafqazın köklü sakinlərinin düzənlik ərazilərdən dağlıq bölgələrə sıxışdırılması həm gizli – «dinc», həm də açıq – «hərbi» metodlarla həyata keçirilirdi. Çox vaxt isə bu metodların biri o birisini tamamlayırdı. Düzənlik ərazilərdə yaşamını davam etdirən yerli əhali əsasən zorakı metodlarla öz daimi yaşayış yerini tərk etməyə məcbur edilirdi. Məsələn, Mozdok ətrafında kabardin əhalisini öz yurdundan qovmaq üçün rus ordusu işə salınmış, yerli əhali öz mal-qoyun sürüləri ilə birlikdə dağətəyi və dağlıq bölgələrə qovulmuşdu. Boşaldılan ərazilərdə isə Pavlovsk, Stavropolsk qalaları salınmışdı.

Ona görə də, o dövrün rus mətbuatında və rəsmi yazışmalarda dağlı xalqların kazak stanitsalarına, rus kəndlərinə və qəsəbələrinə basqınları «vəhşi dağlıların dinc əhali üzərinə basqınları» kimi təqdim edilsə də, belə hücumlar yerli əhalinin öz torpaqlarında məskunlaşdırılan «çağırılmamış qonaqlardan» intiqam alması aksiyaları idi. O dövrün rəsmi mənbələrində Kabarda əhalisinin onların torpaqlarında rus məskənləri yaradılmasına qarşı silahlı mübarizə aparması haqqında çoxlu sayda məlumatlar qalmışdır. Kabardalılarla birlikdə çərkəzlər, noqaylar da onların qoyun sürülərini, at ilxılarını otardıqları çöllərdə yaradılmış Mariinsk, Pavlovsk,

Georgiyevsk, Stavropolsk qalalarına tez-tez hücumlar edirdilər.

Bəhs olunan dövrdə Rusiya hakim dairələri Şimali Qafqazın yeni birləşdirilmiş regionlarında öz mövqeyini qəti möhkəmləndirmək üçün yerli feodalları yenidən sədaqət andı içməyə məcbur etdi. 1779-cu ildə Kabarda knyazları, 1782-1785-ci illərdə Çeçen-İnquş hakimləri, 1782-ci ildə noqaylar və Dağıstanın Andı kənd cəmiyyətləri bir-birinin ardınca Rusiya imperatoriçəsinə sədaqət andı içdilər.

1784-cü ildə Tarku şamxallığının Rusiyaya birləşdirilməsi üçün danışıqlar başlandı. Lakin şamxal Murtuzəli həmin il öldüyü üçün, danışıqlar iki il uzandı. Yalnız 1786-cı ildə Tarku şəhərində Qafqaz hakimiyyəti adından poruçik Filatovun önündə yeni şamxal Bammat Rusiyaya sədaqət andı içdi və onun təbəəliyini qəbul etdi. 1786-cı ilin may ayında Qafqaz canişini P.S.Potyomkin təntənəli surətdə Tarku şamxalının nümayəndəsini qəbul etdi. Rəsmi qəbul və atəşfəşanlıqla Tarku şamxallığının Rusiyanın protektoratına çevrilməsi qeyd edildi.

XVIII əsrin ikinci yarısında Rusiya Şimali Qafqazda öz mövqeyini möhkəmlətmək üçün ermənilərdən də istifadə edirdi. Rus hökuməti Qızlyar, Mozdok və digər şəhərlərə, qalalara erməni əhalisinin köçürülüb yerləşdirilməsinə xüsusi diqqət yetirirdi. Erməni əhalisi də Şimali Qafqazda məskunlaşmağa xüsusi maraq göstərdi. Çünki II Yekaterinanın 1779-cu ildə verdiyi fərmanla Rusiyada yaşayan ermənilər ruslarla bərabər şəkildə hüquq və üstünlüklərə malik olmaq, maneəsiz şəkildə fabrik və zavodlar tikmək imtiyazı qazanmışdılar.

XVIII əsrin 80-cı illərində Rusiyanın Cənubi Qafqazda mövqeyini möhkəmləndirməyə başlaması erməni kilsə xadimlərini fəallaşdırdı. Onlar Cənubi Qafqazda Rusiyanın himayəsində erməni dövləti yaratmaq planları irəli sürməyə başladılar. Cənubi Qafqaz və İrana yürüşə hazırlaşan rus sərkərdəsi A.V.Suvorov da öz növbəsində ermənilərdən ya-





rarlanmağa çalışırdı. Çünki Kərim xan Zəndin 1779-cu ildə ölümündən sonra İranda daxili vəziyyətin kəskinləşməsindən Rusiya istifadə etmək niyyətində idi.

Rus hökuməti Xəzər hövzəsində təsirini gücləndirmək üçün 1780-ci ilin yazında general-poruçik A.V.Suvorovu Həştərxana göndərdi, oradakı Kazan diviziyasına komandan təyin etdi. Rusiyadakı ermənilərin kilsə başçısı İosif Arqutinski 1780-cı ildə Həştərxanda rus sərkərdəsi ilə görüşdə Cənubi Qafqazda Qarabağ və Qaradağ xanlıqları hesabına Rusiyanın himayəsində erməni dövləti yaradılması məsələsini qaldırmışdı. 1782-ci ilin dekabr ayında isə Kartli-Kaxeti çarlığının Rusiya himayəsinə keçməsi haqqında danışıqlardan xəbər tutan erməni ruhaniləri Eçmiədzində keçirdikləri toplantıda qərara alınmışdı ki, Ermənistanı da himayəyə götürmək Rusiya imperatoriçəsindən xahiş edilsin. Lakin belə bir erməni dövləti olmadığı üçün, onun adından edilən müraciətlər də nəticəsiz qaldı.

**Şimali Qafqaz əhalisinin rus ağalığına qarşı ilk çıxışları.** XVIII əsrin ikinci yarısında Rusiya hakim dairələri Şimali Qafqaz əhalisinin mütəşəkkil müqavimətini qırmaq üçün qəsdən ayrı-ayrı dağlı xalqları arasında, feodallarla kəndlilər arasında ziddiyyətləri kəskinləşdirirdi. Kabardin, Çərkəz, Noqay feodallarını rus ordusuna xidmətə götürür, onların əmlakına toxunmur və beləcə yerli əhali içərisində ayrı-seçkilik yaradırdı. Ona görə də, sadə dağlı əhali çox vaxt həm çarizmin işğalçılıq və müstəmləkəçilik siyasətinə qarşı, həm də öz feodallarına qarşı mübarizə aparmalı olurdu.

Çarizmin zorakı müstəmləkəçilik siyasətinin ilk nəticələri özünü XVIII əsrin 70-ci illərindən etibarən daha açıq şəkildə göstərməyə başlamışdı. Çünki bu dövrdə yerli əhali təkcə öz torpaq sahələrindən məhrum edilmirdi, həm də onlar üzərinə çox ağır vergi və mükəlləfiyyətlər qoyulurdu. Təkcə onu qeyd etmək kifayətdir ki, Qafqaz xəttinə daxil olan qala və istehkamların inşasına, onların ətrafındakı meşəliklərin qırılmasına yerli əhali geniş miqyasda cəlb edilirdi.

Həm də bu zaman yerli əhalinin kortəbii etiraz çıxışları dərhal qəddarlıqla yatırılırdı. Dağlıların yaşayış məntəqələri top atəşi ilə dağıdılır və ya yandırılır, əhalisi isə həyat üçün daha az münasib olan dağlıq yerlərə köçürülürdü.

Çarizmin ümumxalq nifrəti doğuran digər siyasəti yerli əhalinin dini inanclarının tapdalanması idi. Yeni birləşdirilən ərazilərdə müsəlman məscidləri dağıdılılır, yerində kilsələr inşa edilirdi. Müsəlman əhalisi içərisində xristianlıq zorla yayılırdı.

XVIII əsrin ikinci yarısında Çeçenistanda və İnquşetiyada, bütövlükdə Şimali Qafqazın əksər bölgələrində olduğu kimi feodal münasibətlərinin inkişafı nəticəsində sosial ziddiyyətlərin dərinləşməsi baş verirdi. Feodal hakimləri və feodala çevrilən tayfa əyanları çalışırdılar ki, sadə xalq kütlələrini itaətdə saxlasınlar və onların yaratdıqları maddi sərvətləri mənimsəsinlər. Ona görə də, sadə dağlı əhalisi üzərinə qoyulan vergilərin getdikcə artırılması, müxtəlif mükəlləfiyyətlər tətbiq edilməsi ümumi narazılığı getdikcə gücləndirirdi. Müxtəlif bəhanələrlə əhali üzərinə cərimələr qoyulması da ağır yükə çevrilmişdi. Dağlı kəndliləri tez-tez zor gücünə "yasaq" adlı yeni rüsum toplanmasına qarşı müqavimət göstərməli olurdular. Bir çox hallarda əhalinin etirazları açıq silahlı üsyan şəklini alırdı.

Yerli əhalinin vəziyyətini ağırlaşdıran digər ciddi amil feodal-ara müharibələri, ayrı-ayrı feodal hakimlər arasında ardı-arası kəsilməyən silahlı toqquşmalar idi. Sadə dağlı əhalisinin də geniş miqyasda cəlb edildiyi bu qanlı qarşıdurmalar insanları dinc əməkdən ayırır, mənasız yerə qardaş qanı tökülməsinə, yaşayış məntəqələrinin və əkin yerlərinin məhv edilməsinə səbəb olurdu. Bu isə təbii ki, öz mənfəətləri naminə qardaş qırğınını törədən feodal hakimlərə qarşı ümumi nifrəti artırırdı.

Sinfi mübarizənin güclənməsi dağlı feodalları çətin vəziyyətə salır, getdikcə daha çox feodal hakim kənardan hərbi yardım istəməyə məcbur olurdu. 1755-ci ildə çeçen knyazları Çopan və Məhəmməd Turlovların, uzdenlərin və digər varlı əyanların rus məskənlərinə yaxın yerlərə köçüb məskən salmaları bununla bağlı idi. Onlar Rusiya hakimiyyətinin nümayəndəsi rotmistr Batırovdan zəmanət aldıqdan sonra öz kəndlilərini də yeni malikanələrə köçməyə məcbur etmişdilər.





Qeyd etmək lazımdır ki, feodal istismarının güclənməsi şəraitində dağlı kəndlilər də rus hakimiyyəti nümayəndələrinə müraciətlər edirlər. Kəndlilər daha çox Qafqazdakı rus hakimiyyəti orqanlarına öz ağalarından şikayət edirdilər. Onlar bir çox hallarda Qafqazdakı rus hakimiyyətindən qayda-qanun yaradılmasını istəyirdilər. Kəndlilər Qafqazdakı rus nümayəndələrindən xahiş edirdilər ki, onları yerli feodalların özbaşınalığından müdafiə etsin və mükəlləfiyyətlərin artırılmasının qarşısını alsınlar.

1768-ci ildə çeçen kəndliləri öz hakimləri Əli-sultandan rus hakimiyyətinə şikayət etmişdilər. Kəndlilərin şikayət ərizəsində göstərilirdi ki, "Əli-sultan heç doğru hərəkət etmir, xalqı hədər yerə var-yoxdan çıxarır və onları aldadır. Ona görə də, kəndlilər onu hakim kimi qəbul edib, ehtiram göstərmək istəmirlər." Elə həmin vaxt çeçen feodal hakimləri və tayfa başçıları da sadə dağlıları qayda-qanunu pozmaqda və Rusiyaya xəyanət etməkdə günahlandırıb, çar hökuməti nümayəndələrindən xahiş etmişdilər ki, onlara öz kəndlilərini silah gücünə itaətdə saxlamaqda köməklik göstərsinlər.

Qafqazdakı Rusiya hakimiyyəti təmsilçiləri belə müraciət və xahişləri həvəslə qəbul edir, hakim təbəqənin nümayəndələrinə əksər hallarda hərbi yardım göstərirdilər. Dağlı feodallara müdafiə olunmaq üçün atlı kazak dəstələri ayırırdılar. Lakin Qafqaz komandanlığı ayrı-ayrı şəxslərə qarşı mübarizə aparmaq əvəzinə, əksər hallarda bütün dağlı aulunu günahlandıraraq, əhalisinə qarşı çox sərt tədbirlər həyata keçirirdilər. Çeçenlərə qarşı göndərilən cəza dəstələrinin kəndləri, aulları dağıtması, yandırması, yerli əhaliyə məxsus əkinləri, taxıl ehtiyatlarını məhv etməsi tez-tez müşahidə edilirdi. Bu da bütövlükdə çeçen cəmiyyətində, həm-

çinin onun yuxarı dairələrində də ciddi narazılıqla qarşılanırdı. Məsələn, daha öncə rus hakimiyyətinə öz loyallığı ilə seçilən Əli-sultan öz narazılığını belə ifadə etmişdi: "Biz general de-Medemin dövründə çoxlu haqsızlıqlar görmüşük. O, bir ermənin bizim tərəfimizdən öldürülməsini bəhanə edərək, bizim camaatdan 6 minə qədər qoyun və 180 rubl cərimə almışdır. Bundan əlavə, bizim Aksayev uzdenlərini həyasızcasına məcbur etmişdir ki, daha 6 min qoyun və 5 nəfər girov versin. O, bizim Göy-su arxasındakı taxıl əkinlərimizi də zorla müsadirə etmişdir və bizə çoxlu digər haqsızlıqlar da etmişdir."

Rusiya hakimiyyətindən Şimali Qafqazın yerli əhalisinin əsas narazılığının bir səbəbi də şəxsi inciklıklərlə bağlı idi. Ayrı-ayrı rus məmurunun və ya hərbiçisinin özbaşınalığından, kobud rəftarından narazı qalan dağlı hakimi və ya tayfa ağsaqqalı öz tabeliyində olan əhalini rus ağalığına qarşı mübarizəyə qaldırırdı.

1758-ci ildə knyaz Aydəmirin, 1768-ci ildə Əli-sultanın rus hakimiyyətinə qarşı çıxışları daha çox şəxsi motivlərlə bağlı idi. Rus hakimiyyəti ilə belə açıq qarşıdurmalarda bütün xalq iştirak edirdi və hamılıqla əziyyət çəkməli olurdu.

Dağlı feodalların və feodallaşmaqda olan əyanların içərisində Rusiyanın işğalçı və müstəmləkəçi niyyətlərini yaxşı başa düşən və hər vasitə ilə buna qarşı çıxmağa çalışanlar da çox idi. Müsəlman ruhanilərin də böyük əksəriyyəti Rusiyanın Qafqazda ağalığını bərqərar etməsinə qarşı idi. Onlar sadə xalqa rus hakimiyyəti nümayəndələrinin əsil məqsədlərini izah edir, müstəmləkə əsarətinə qarşı hamılıqla mübarizəyə qalxmağa çağırırdılar.

Şimali Qafqazda xalq kütlələrinin əhval-ruhiyyəsinə xarici dövlətlərin, xüsusən Osmanlı dövlətinin göndərdiyi təbliğatçılar da ciddi təsir göstərirdi. Osmanlı sultanı bütün Qafqazı öz hakimiyyətinə tabe etmək fikrindən heç vaxt imtina etməmişdi. Ona görə də, Rusiyanın Şimali Qafqazın içərilərinə doğru irəliləməsinə qarşı fəal şəkildə mübarizə aparırdı. XVIII əsrin 80-ci illərinin əvvəlində Şimali Qafqaza bir-birinin ardınca Osmanlı elçiləri göndərilirdi. Başlıca olaraq şeyx, dərviş və molla kimi təbliğat aparan bu nümayəndələr müsəlmanları birlikdə kafirlərə qarşı mübarizəyə, İslam dinini qorumağa çağırırdılar. Şimal-şərqi Qafqazın feodal hakimlərinə Ahalsıx vilayətinin hakimi Süleyman paşanın ünvanladığı məktubda yazılmışdı: "Düşməni məhv etməyə gedən hər kəs Allaha xoş gələn əməl edir, bir kafiri öldürənin isə bütün günahları bağışlanır, əbədi cənnət qapıları üzünə açılır."

Osmanlı sultanı Rusiya əleyhinə mübarizə aparan feodal hakimlərə qiymətli hədiyyələr göndərməklə onları öz fəaliyyətlərini genişləndirməyə həvəsləndirirdi. Mənbələrə görə, bəhs olunan dövrdə İstanbuldan Avar hakimi Umma xana 500 torba pul göndərilmişdi. Bir qayda olaraq, hər torbada 500 osmanlı dinarı olması nəzərə alınarsa, göndərilən pul yardımının kifayət qədər sanballı olduğu görünür.

**Şeyx Mənsurun başçılığı ilə üsyanın başlanması.** Şimali Qafqazda Rusiyanın müstəmləkəçilik və işğalçılıq siyasətinə qarşı ilk böyük üsyan **1785-ci ilin mart ayında *Çeçenistanda Aldı aulunda*** başlandı. Burada sadə kəndli ailəsində anadan olmuş ***Uşurma*** adlı şəxsin başçılığı altında böyük üsyan tezliklə bütün regionu bürüdü. O, özünə ***Şeyx Mənsur*** ləqəbi götürdüyü üçün bütün Şimali Qafqazda bu adla məşhurlaşmış, regionun bütün xalqlarının tanınmış liderinə çevrilmişdi. Şeyx Mənsur dağlı xalqların hamısını öz dini, torpağı və azadlığı uğrunda fəal mübarizəyə çağırdı. O, öz dini moizələrində İslam dininin əsas ehkamlarını təbliğ etməklə yanaşı, kafirlərə qarşı "müqəddəs müharibə"yə qalxmağın vacibliyini də qeyd edirdi. Mömin dindarların tezliklə zülm və ədalətsizliklərindən yaxa qurtaracağı haqqında şeyxin söylədikləri bütün sadə dağlı əhali içərisində böyük ruh yüksəkliyi ilə qarşılanırdı.

Şeyx Mənsur öz təbliğatında birinci növbədə, təmiz və asketik İslama qayıtmağı təbliğ edirdi. İkincisi, yerli əhali

arasında inandırma yolu ilə, bu, uğur qazanmadıqda isə zorla şəriət qaydalarını tətbiq edirdi. Üçüncüsü, bütün əhalini kafirlərə və rus çarizminə qarşı "müqəddəs müharibə" – *qəzavat* aparmağa çağırırdı.

Şeyx Mənsurun moizələrində üç əsas istiqamət nəzərə çarpırdı: birincisi, təmiz və asketik İslama qayıtmaq, ikincisi, adətlərə qarşı inandırma və ya zor gücünə şəriət qaydalarını tətbiq etmək; üçüncüsü, əvvəlcə adətə riayət edənlərə, sonra da kafirlərə və rus çarizminə qarşı "müqəddəs müharibə" – qəzavat aparmaq. Uşurma çox düzgün olaraq başa düşürdü ki, Şimali Qafqazın çoxsaylı dağlı xalqları və tayfaları arasında, müxtəlif dilə, adətlərə, qərarlaşmış ənənələrə malik insanları yalnız İslam dəyərləri ətrafında sıx birləşdirmək mümkündür. O, çox bacarıqla bütün Şimali Qafqaz əhalisini, osetinlərin xristian hissəsini çıxmaq şərti ilə öz ətrafına toplaya bilmiş, İslam dinini Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı ideoloji silaha çevirmişdi.

Rus idarəçiliyindən narazı olan sadə çeçenlər Çeçenistanın hər yerindən Aldı auluna toplaşırdı. Tezliklə onlara kabardalıların və qumuqların əksər hissəsi qoşuldu. Sonralar qumuqlar Şeyx Mənsurun üsyançı ordusuna qoşulmalarının səbəblərini belə izah etmişdilər: qumuq əhalisi öz sahibkarlarının onları incitmələrinə çox dözmüşdülər və xahiş etmişdilər ki, "günahsız yerə onların mal-qarasının zorla əllərindən alınmasını qadağan etsinlər, oğurluq edənlərin üzərinə cərimə qoysunlar. ... Lakin sakitləşdirilmə baş verməmiş diyi üçün, digərləri ilə bərabər imama sədaqət andı içmək məcburiyyətində qaldılar ki, onların mübahisələrini və şikayətlərini qanun üzrə həll etsin."

Şeyx Mənsurun üsyanında aparıcı qüvvə müsəlman ruhaniləri idi. Onlarla yanaşı feodal hakimlər: *Qumuq hakimi Əli-sultan, kabardalı knyaz Dol Muradov, osetin aldarı Əhməd Dudarov, Tarku şamxalının və Qazıqumuq xanının oğlanları və Çeçenistanın feodallaşmaqda olan tayfa əyanları* da bu üsyanda fəal iştirak edirdilər. Şeyx Mənsurun başçılıq etdiyi üsyan haqqında Qafqazda baş verən hadisələrdən yaxşı xəbərdar olan Suncuk-qalanın komendantı Osmanlı dövlətinin baş vəzirinə ətraflı məlumat vermişdi. Osmanlı nümayəndəsinin fikrinə görə, Şeyx Mənsur öz moizələri ilə bütün sadə xalqı öz tərəfinə çəkə bilmişdi.





Ümumiyyətlə, bu üsyanda iştirak edənlərin sosial və milli tərkibi çox rəngarəng idi. Şimali Qafqazın hər yerindən Şeyx Mənsurun üsyançı ordusuna qoşulmağa gəlirdilər. Bununla yanaşı, hərəkat iştirakçılarının əksəriyyətini dağlı kəndliləri təşkil edirdi. Hərəkatda rəhbər rol oynayan din xadimləri və yerli feodal əyanlar kəndli kütlələrinin narazılığını çarizm əleyhinə yönəltməyə nail oldular. Üsyanın başlanğıcında güman edilirdi ki, Şeyx Mənsur ilk növbədə Qafqaz dağlarına və Kabarda üzərinə yürüş edəcək, oradakı əhalini Məhəmmədin dininə sitayiş etməyə çağıracaqdır. Lakin gözlənilənin əksinə olaraq şeyx əhalini ilk növbədə çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizəyə yönəltdi.

Qafqazdakı rus qoşunlarının komandanlığı Çeçenistanda cərəyan edən hadisələri təşvişlə izləyirdi. Başlanğıc mərhələdə rus komandanlığı dağlıları dilə tutmağa çalışırdı ki, Şeyx Mənsurun yanından çıxıb getsinlər. Bu səylər bir nəticə vermədiyi üçün, rus komandanlığı üsyanın mərkəzinə – Aldı auluna polkovnik Pierinin başçılığı ilə qoşun hissəsi göndərdi. Ona bir vəzifə kimi tapşırılmışdı ki, "yalançı peyğəmbəri həbs etsin və ... diyarda pozulmuş sakitliyi qısa zamanda bərpa etsin." Həm də komandanlıq bu vəzifəni mümkün qədər az qan tökməklə yerinə yetirməyi tələb etmişdi. Pierinin başçılıq etdiyi hərbi dəstə ciddi çətinlik çəkmədən Aldı aulunu tuta bilsə də, geri çəkilərkən mühasirəyə alındı və dağlıq meşəlik bölgədə darmadağın edildi. Bu da Şeyx Mənsurun sərkərdəlik məharətinin göstəricisi idi.

**1785-ci il iyulun 6-da** baş verən bu döyüşdə 3 minlik rus hərbi qüvvəsi iştirak etmişdi. Döyüş zamanı 1506 əsgər və zabit, o cümlədən cəza ekspedisiyasının başçısı polkovnik Pieri məhv edildi, 162 nəfər əsir alındı.

Əsir alınanların içərisində Pierinin adyutantı, 20 yaşlı gürcü əsilli zabit Pyotr İvanoviç Baqration da var idi. Sonrakı dövrdə rus hökuməti ödənc pulu verməklə bu əsirlərin bir qismini, o cümlədən sonralar general rütbəsinə qədər yüksəlmiş, rus ordusunun məşhur sərkərdələrindən birinə çevrilmiş P.Baqrationu pul ödəməklə azad etməyə nail oldu.

Şeyx Mənsurun bu qələbəsi tezliklə bütün Şimali Qafqaza yayıldı. Onun silahdaşları bu parlaq qələbəni Şeyx Mənsurun peyğəmbərliyinin göstəricisi kimi təqdim edirdilər. Bütün bunlar həm Uşurmanın şəxsi nüfuzunun artmasına, həm də bu xalq hərəkatına qoşulanların sayının çoxalmasına səbəb oldu. Qələbədən ruhlanan Şeyx Mənsur Rusiyanın Şimal-şərqi Qafqazda əsas dayaq nöqtəsi olan Qızlyar qalasını tutmağa qərar verdi. Lakin onun 15 iyul 1785-ci ildə başladığı hücum uğur qazanmadı. Üsyançılar yalnız Karqin istehkamlarını ələ keçirə bildilər. Az sonra üsyan iştirakçılarının Qriqoripolis adlı möhkəmləndirilmiş məntəqəyə hücumu da nəticəsiz başa çatdı.

Şeyx Mənsurun başçılıq etdiyi üsyançıların sayı bu dövrdə 10 mindən çox idi. Demək olar ki, Şimali Qafqazın hər yerindən insanlar onun yanına axışırdılar. Onunla birlikdə döyüşmək, din uğrunda mübarizə aparmaq üçün Azərbaycanın müxtəlif bölgələrindən, əsasən də Quba, Şamaxı və Şəki xanlıqlarından xeyli gənc Çeçenistana getmişdi.

1785-ci ilin payızında Şeyx Mənsur Kabardaya hərəkət etdi. Məqsədi üsyanı yeni bölgələrə yaymaq, milli-azadlıq mübarizəsinə mümkün qədər daha çox iştirakçı cəlb etmək idi. Lakin həmin il noyabrın 2-də Tatartupa adlı yaşayış məntəqəsi yaxınlığında baş verən döyüşdə rus qoşunları üsyançıları məğlub edib geri çəkilməyə məcbur etdi.

1785-ci ilin ikinci yarısında Şeyx Mənsurun başçılığı ilə üsyançı dəstələri bir neçə dəfə Rusiyanın Qafqaz xəttindəki qalalarına, hərbi məskənlərinə hücumlar etdilər. Bu hücumların qarşısını rus hərbi hissələri böyük çətinliklə də olsa almağı bacardılar.





Üsyançıların bu uğursuzluqları bütövlükdə hərəkat iştirakçılarının əhval-ruhiyyəsinə mənfi təsir etdi. Şeyx Mənsurun "müqəddəs fəaliyyəti" sayəsində tezliklə azadlığa qovuşacaqlarına möhkəm ümid edən dağlılar məyus oldular və üsyançı dəstələrini tərk etməyə başladılar. Üsyan başçısının sadə dağlı əhalini feodal zülmündən xilas etmək üçün addımlar atmaması da xalq kütlələri içərisində məyusluq doğururdu. Şeyx Mənsurun dini məsələlərdə fanatizmə çatan qətiyyətliliyi, şəriət qaydalarına qeyd-şərtsiz əməl edilməsini sərt şəkildə tələb etməsi də xalq kütlələri içərisində mənfi qarşılanırdı.

Şeyx Mənsurun başladığı mübarizə sayəsində rus işğalçılarının qısa müddət ərzində bütün Şimali Qafqazdan qovulacağına və özlərinin müstəqil hakimiyyət sürəcəklərinə ümid bəsləyən feodal hakimlər ilk uğursuzluqlardan sonra üsyançıların sıralarını birinci növbədə tərk edirdilər. Artıq 1786-cı ilin sonunda Şeyx Mənsurun tərəfindən üsyanda iştirak edən feodal və knyazların böyük bir qrupu, o cümlədən Kiçik Kabarda knyazı Dol Muradov, Enderey sahibkarı Hacı Murtuzəli ondan uzaqlaşıb, rus hakimiyyəti tərəfinə keçmişdilər. Bu da üsyançıların sırasını ciddi surətdə zəiflətdi və bütövlükdə xalq-azadlıq hərəkatına ağır zərbə vurdu.

Üsyançıların sayının azaldılmasının qarşısını almaq üçün Şeyx Mənsur yeni üsullara əl atdı. Onun məscidlərdə elan etdiyi yeni qaydalara görə, hər dağlı aulu üsyançı orduya iki döyüşçü göndərməli və məhsulun doqquzda bir hissəsini bu ordunun ehtiyaclarını ödəmək üçün verməli idi. Aksay, Enderey, Kostekov və Braqun kimi iri yaşayış məntəqələrinin isə hər biri 10 döyüşçü ayırmalı və hər həyətdən 60 kop. vəsait ödənilməli idi.

Şimali Qafqazda böyük üsyan başlanması xəbəri Osmanlı sarayında böyük şadlıqla qarşılandı. Dərhal Şeyx Mənsurun yanına sultanın elçiləri gəlməyə başladılar, müxtəlif sahələr üzrə məsləhətlər verməyə, üsyançı ordunu komplektləşdirmək işində yardım göstərməyə girişdilər. Rus

mənbələri, artıq 1786-cı ilin əvvəlində Osmanlı sultanı agentinin Şeyx Mənsurla görüşməsini qeyd etmişdilər. Sultanın göndərdiyi nümayəndənin üsyançılara nə vəd etməsi və konkret hansı yardımlar göstərməsi haqqında mənbələrdə dəqiq məlumatlar qalmasa da, bu görüşlərin çox böyük mənəvi əhəmiyyəti var idi. Üsyançılar güclü düşmənə – Rusiyaya qarşı mübarizədə tək olmadıqlarını, ən böyük müsəlman ölkəsinin onları dəstəkləməsini sevinclə qeyd edirdilər. Məhz bu görüşlərdən sonra, dağlı üsyançılara tezliklə Osmanlı dövlətinin hərbi qüvvə ilə yardım edəcəyi haqqında xəbərlər yayılmışdı.

Şeyx Mənsurun 1786-cı ildə qonşu xalqlara ünvanladığı müraciəti, kafirlərə qarşı birgə mübarizəyə çağırışları gözlənilən səmərəni vermədi. Xüsusən, Dağıstanın bir çox feodal hakimləri Rusiya ilə münasibətlərin korlanmasından ehtiyat edirdilər. Avar hakimi Umma xanın Şeyx Mənsura cavab məktubunda əsəbiliklə bildirilirdi ki, şeyx ona və Dağıstan xalqına özünə tabe olan çeçen əhalisi kimi yanaşmış, ruslarla döyüşmək üçün adam göndərmələrini tələb etmişdir. Umma xan rus dövlətinə qarşı müharibədə üsyançıların məqsədlərinə çatmadığını əsas göstərərək, dağıstanlıları qırğına göndərməkdən imtina etmişdi. Elə həmin vaxt Tarku şamxalı, Qazıqumuq xanı və Tabasaran hakimi də Şeyx Mənsurun yardım göndərmək xahişinə rədd cavabı vermişdilər.

Rusiya hakim dairələri də öz agentləri vasitəsilə bunlardan xəbərdar idi. 1786-cı ildə general P.S.Potyomkin Peterburqa məlumat vermişdi ki, "kəşfiyyatımızın gətirdiyi xəbərə görə, Şeyx Mənsurun yanında çeçenlərdən başqa kimsə qalmamışdır."

1786-cı ilin sentyabrında Şeyx Mənsur *Anapaya* – Osmanlı komendantı ilə görüşə getdi. O, bu səfəri zamanı sultanın adından vəd edilən yardımların reallaşdırılmasına ümid edirdi. Lakin Osmanlı dövləti dağlı hərəkatından öz məqsədi üçün istifadə etməyə çalışsa da, həmin vaxt Şimali Qafqaz üsyançılarına real yardım göstərməyə hazırlaşmırdı.





Qeyd etmək lazımdır ki, Osmanlı dövləti ümumiyyətlə Kiçik Qaynarca sülhündən sonra Qafqazın feodal hakimləri, o cümlədən Azərbaycan xanları ilə sıx əlaqələr yaratmağa çalışsa da, öz üzərinə real öhdəliklər götürməkdən çəkinirdi. Bunun nəticəsi idi ki, **1785-ci ildə *Qarabağ, Şəki və Quba xanları*** Osmanlı imperiyasının himayəsinə keçmək niyyəti ilə İstanbula elçilik göndərdikdə, sultanın sarayında soyuq qarşılanmış və əliboş yola salınmışdılar. Çünki, Osmanlı dövləti Rusiya ilə münasibətləri yenidən kəskinləşdirməkdən ehtiyat edərək, açıq hərəkət etmək istəməmişdi.

Şeyx Mənsurun Anapada Osmanlı komendantı ilə görüşünün nəticəsiz olması onun Çeçenistanda sadə xalq içərisində nüfuzuna mənfi təsir etdi. Çeçen üsyançıların da bir qismi mübarizəni dayandırdı. Belə bir şəraitdə Şeyx Mənsur öz qayını Etta Batırmurzini Qafqaz komandanlığının yanına göndərdi ki, rus hökumətindən onun bağışlanmasını xahiş etsin. Lakin general P.S.Potyomkin Şeyx Mənsurun bağışlanmaq haqqında xahişini rədd etdi və tələb etdi ki, qeydşərtsiz təslim olsun. Rus komandanının bu qərarı sonradan etiraf edildiyi kimi, tamamilə səhv idi və çarizmin üsyanı tezliklə yatırmaq və Şimali Qafqazda öz mövqeyini möhkəmlətmək üçün real şansı əldən qaçırması kimi qiymətləndirilirdi.

**1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsi və Qafqaz.** 1787-ci ildə Osmanlı dövləti beynəlxalq şəraitin dəyişməsini nəzərə alıb fəallaşdı. Çünki, XVIII əsrin 70-ci illərinin ikinci yarısında və 80-cı illərində Şimali Amerikada üsyan etmiş müstəmləkələrinə qarşı müharibə aparan İngiltərə və bu müharibədə ABŞ-a yardım edən Fransa 80-ci illərin ortalarından etibarən Avropa işlərinə daha çox diqqət yetirmək imkanı qazanmışdılar. Xüsusən İngiltərə bütün vasitələrlə Rusiyanın Qara dəniz hövzəsində və Şimali Qafqazda mövqeyini möhkəmlətməsinə qarşı çıxırdı. Bu məqsədlə Osmanlı dövlətini Rusiya əleyhinə yeni müharibəyə başlamağa qızışdırır, ona yardımlar vəd edirdi.

1787-ci ilin iyul ayında sultan hökuməti İstanbuldan

rus səfiri Bulqakovdan tələb etdi ki, rus qoşunları Gürcüstandan geri çağrılsın, gürcü çarı II İrakli Osmanlı dövlətinin vassalı kimi tanınsın. Çünki, həmin ərəfədə Rusiyanın Gürcüstandakı nümayəndəsi, Tiflisdəki rus hərbi qüvvələrinin komandanı, polkovnik S.D.Burnaşevin verdiyi məlumata görə, Osmanlı-Gürcüstan yaxınlaşması baş vermişdi. Osmanlı sultanı Ərzurum və Ahalsıx paşaları vasitəsi ilə II İrakliyə təklif etmişdi ki, gürcü tavadlarından iki nəfəri girov vermək şərti ilə ittifaq yaratsınlar. Gürcü çarı II İrakli bu təklifi dəyərləndirmək niyyətini gizlətmədi. Bu münasibətlə 1786-cı ildə II İrakli Şərqi Gürcüstanın daxili və xarici vəziyyətinin ağırlığını nəzərə alıb Saqarecoda yığıncaq çağırmış və Osmanlı dövlətinin təklifini qəbul etmişdi.

Osmanlı tərəfi 1787-ci ilin yayında həmçinin Rusiyanı Kiçik Qaynarca sülhünün şərtlərini pozmaqda ittiham etmiş və Krımın geri qaytarılması tələbini qəti şəkildə İstanbuldakı rus elçisindən tələb etmişdi. Bu tələblər qəbul edilmədiyi üçün Osmanlı dövləti **1787-ci ilin avqust ayında** Rusiyaya qarşı müharibəyə başladı. Osmanlı komandanlığı əsas zərbəni Ukrayna istiqamətində vurmağı planlaşdırsa da, Qafqazın Qara dəniz sahili boyunda, Anapa rayonunda da rus qüvvələrinə qarşı hərbi əməliyyatlara da xüsusi əhəmiyyət verdiyini gizlətmirdi.

Belə bir şəraitdə Şimali Qafqazda Rusiya əleyhinə milli-azadlıq müharibəsinin yenidən alovlanması Osmanlı dövlətinin mənafeyinə tam uyğun idi. Ona görə də, Osmanlı sultanı adından Şeyx Mənsura mübarizənin miqyasını genişləndirmək çağırışı gəldi və böyük maliyyə dəstəyi, hərbi qüvvə ilə yardım vəd edildi. Bu vədlərdən ruhlanan Şeyx Mənsur dağlı xalqları yenidən mübarizəyə çağırdı. O, tezliklə Osmanlı dövlətindən və Dağıstan hakimlərindən böyük yardım gələcəyi vədi ilə dağlıları mübarizəyə ruhlandırmağa çalışsa da, ciddi bir müvəffəqiyyət qazana bilmədi.

Ona görə də, Şeyx Mənsur 1787-ci ilin yayında Çeçenistanı tərk edib Kuban boyuna getdi. Onun burada adıq tayfaları arasında kafirlərə qarşı mübarizəyə çağırışı daha çox tərəfdar toplamağa imkan verdi. Çünki, Kuban boyunda yaşayan yerli əhalinin Rusiya müstəmləkə rejiminin fəaliyyətindən narazılığı xüsusilə güclü idi. Adıqlar Şeyx Mənsur tərəfindən söylənilən tezliklə Rusiyanın ağır məğlubiyyətə uğrayacağı haqqında moizələri böyük heyranlıqla dinləyirdilər. Dağlı xalqlar onun moizələrində öz arzularını görürdülər və ümid edirdilər ki, şeyxin söylədikləri çox tez bir zamanda gerçəkləşəcəkdir.





Rusiya hakimiyyət dairələri də Osmanlı dövləti ilə yeni müharibə ərəfəsində Şimali Qafqazda mövqeyini möhkəmləndirmək üçün yeni-yeni addımlar atırdı. 1786-cı ilin sonu – 1787-ci ilin başlanğıcında Aksayev, Enderey və Kostekov hakimləri Şeyx Mənsurla əlaqələrini kəsdiklərini bildirib Rusiya himayəsinə qəbul edilməyi xahiş etdilər. Qafqazdakı rus hakimiyyəti nümayəndələri bu xahişi yerinə yetirdilər.

1787-ci ilin başlanğıcında avar hakimi Umma xan Qızlyara xüsusi nümayəndə göndərdi ki, Rusiya tabeliyinə keçidin şərtlərini müzakirə etsin. Umma xanın general P.S.Potyomkinə ünvanladığı məktubda deyilirdi ki, rus tərəfi elə şərtlər irəli sürsün ki, Umma xan onları Xunzaxda xalqın qarşısında qəbul edə bilsin.

Elə həmin vaxt Qazıqumuq xanı və Tabasaran hakimi də Rusiyanın himayəsinə keçmək xahişi ilə Qızlyara öz elçilərini göndərmişdilər. Lakin bu xahişlərinin müzakirəsi zamanı rus hökuməti özünün beynəlxalq vəziyyətinin pisləşməsini nəzərə almağa məcbur idi. Çünki Osmanlı dövləti ilə yeni müharibə başlanması təhlükəsi şəraitində Dağıstan hakimlərinin Rusiya himayəsinə qəbul edilməsi İranla da münasibətləri gərginləşdirə bilərdi.

1787-ci ilin yayında İngiltərə və Fransa hakim dairələri Avropada Rusiya əleyhinə böyük koalisiya yaratmağa çalışırdılar. Qərb ölkələri həmçinin Osmanlı dövlətinə böyük həcmdə maliyyə yardımı göstərir, sultanı Rusiyaya qarşı müharibəyə sövq edirdilər. Osmanlı dövləti də bu ərəfədə

Azərbaycan və Dağıstanın feodal hakimlərini öz tərəfinə çəkmək üçün səylərini artırmışdı. Sultan Səlimin bu hakimlərə göndərdiyi fərmanda yazılmışdı ki, "Mən Rusiyaya qarşı müharibəyə başlayanda, Məhəmmədin dininə sitayiş edənlərin hamısını gecə-gündüz rus dövləti əleyhinə silahlı mübarizəyə çağırıram." Dağıstan hakimlərinin bu fərmana münasibətləri fərqli oldu. Feodal hakimlərin bir qismi Rusiya ilə münasibətləri korlamamaq üçün sultanın onlara ünvanladığı fərmanı Qafqazdakı rus komandanlığına göndərdilər və Rusiyaya sədaqətli qalacaqlarını vəd etdilər.

Bununla belə, Dağıstana və Şimali Qafqazın digər bölgələrinə Osmanlı elçiləri göndərilməkdə davam edirdi. Sultanın adından Dağıstanın feodal hakimlərinə paylamaq üçün 80 min çervon, 30 xalat və çoxlu digər bahalı hədiyyələr göndərilmişdi. Lakin müharibə başlandıqdan sonra Osmanlı dövləti Qafqaz xalqlarından gözlədiyi yardımı tam şəkildə ala bilmədi. Şimali Qafqazın qərbində yaşayan dağlı xalqları da yekdil hərəkət etmədilər.

**1787-ci ilin sentyabrında** Şeyx Mənsur 8 minlik üsyançı ordu ilə Kubanboyunda rus qoşunu ilə döyüşə girdi. Osmanlı komandanlığı Şeyx Mənsurun bu üsyançı ordusunun hücumuna böyük ümidlə baxır, Rusiyaya qarşı bu bölgədə üsyançıların qüvvələrindən yararlanaraq yeni cəbhə yaratmağı düşünürdü. Lakin rus hərbçiləri artilleriyanın köməyi ilə üsyançıları ağır itkilər verməyə məcbur etdi. Bundan sonra üsyançıların əsas qüvvələri Osmanlı dövlətinin nəzarətində olan Sucuq-qalaya çəkildi. Şeyx Mənsur buradan Qafqaz xalqlarına və feodal hakimlərinə yeni müraciətlər göndərdi, dağlı əhalini mübarizəni davam etdirməyə çağırdı.

Osmanlı dövləti ilə Rusiya arasında müharibə bir neçə cəbhədə başlasa da, hər iki tərəf əsas diqqəti Krıma və Dunay boyuna yönəltmişdi. Osmanlı komandanlığının Krıma desant çıxartmaq cəhdi uğurlu olmadı, bundan sonra əsas döyüşlər Dunay çayı boyunda baş verdi. Rusiyanın 1787-ci ilin oktyabr ayında Cənubi Qafqaza *general A.P.Takellinin*





başçılığı altında ordu göndərməsi Qafqaz cəbhəsində ciddi dəyişikliklərə səbəb olmadı. Onun komandanlığı altında rus və kazaklarla yanaşı, 9 Kabarda yüzlüyü, abazin və noqayların bir qismi yürüşdə iştirak etmişdi. Lakin rus hərbi qüvvələri Cənubi Qafqazda Osmanlı qoşunlarına qarşı hər hansı ciddi uğur qazana bilmədilər. Buna baxmayaraq, müharibə dövründə Beslan və Abazin hakimləri öz xalqları ilə birlikdə Rusiya tərəfinə keçdiklərini bəyan etdilər.

1788-ci ilin yazında Osmanlı dövləti Şimal-qərbi Qafqaza böyük ordu hissəsi göndərməyə qərar verdi. Məqsədi oradan Krıma hücum təşkil etmək idi. Bu böyük hücuma hazırlıq üçün Şeyx Mənsur da fəallaşdı. Abazinlərin içərisinə gələrək Rusiyaya qarşı hərbi əməliyyatlarda fəal iştirak etməyə çağırdı. Osmanlı sultanı da yenidən Şimali Qafqaza öz elçilərini göndərərək dağlı xalqları kafirlərə qarşı mübarizədə Şeyx Mənsura hər vasitə ilə kömək etməyə çağırdı. Mənbələrdə Osmanlı sarayından həmin il Dağıstan hakimlərinə, o cümlədən Avar xanına böyük miqdarda pul göndərilməsi haqqında məlumatlar qalmışdır.

Rusiya hakim dairələri müxtəlif yollarla Şeyx Mənsurun fəaliyyəti, Osmanlı nümayəndələrinin təbliğatı haqqında məlumatlar əldə edirdi. Üsyançıların fəallaşması, Osmanlı komandanlığının Şimali Qafqaza böyük ordu göndərməsi çarizmin regionda möhkəmlənmək cəhdləri üçün ciddi təhlükə təşkil edirdi. Ona görə də, Rusiya Şimali Qafqazda cərəyan edən bu hadisələri həyəcanla izləyir, kütləvi xalq çıxışlarının qarşısını almaq üçün qabaqlayıcı addımlar atırdı. Rus hökuməti dağlı hakimləri öz himayəsinə götürməyi onların öz mülklərində hakimiyyət sürmələrinə şərait yaratmağı vəd edirdi. Dağıstanın dağlıq bölgələrində vəziyyət haqqında toplanan kəşfiyyat məlumatı əsasında general-mayor Qoriç 3 fevral 1788-ci il tarixli raportunda yazmışdı ki, regionda tezliklə Osmanlı ordusunun Dağıstana gələcəyi haqqında xəbərlər yayılsa da, dağlılar bunun gerçəkləşəcəyinə o qədər də inanmırlar və bütövlükdə Rusiyaya qarşı açıq

düşmənçilikdən çəkinirlər.

Başqa bir rus generalı Alekseyev 31 iyul 1788-ci ildə P.S.Potyomkinə ünvanladığı raportda Tarku şamxalı, Qaytaq usmisi haqqında bildirmişdi ki, onlar Rusiyaya sədaqətlidirlər və hər biri öz oğlunu sədaqət rəmzi kimi sizin hüzurunuza göndərə bilər. Ona görə də, 1788-ci il noyabrın 1-də Qafqaz xəttindəki qoşunların komandanı general Takelli rus hökumətinə məlumat vermişdi ki, dağlı xalqların çoxu Osmanlı dövlətinin hədiyyələrinə və çağırışlarına baxmayaraq öz yerlərində sakit qalmışlar.

Rus komandanlığı özü üçün əlverişli olan bu şəraitdən faydalanmaq üçün hərəkətə keçdi. Osmanlı hərbi qüvvələrinin diqqətini Tavriyaya hücumdan yayındırmaq üçün 1788-ci ildə Anapa qalasına yürüş təşkil edildi. Lakin general Takelinin başçılığı ilə həyata keçirilən bu yürüş məqsədinə çatmadı. Türk qarnizonu hücumu dəf edə bildi. Lakin rus ordusunun bu yürüşü adıq, abazin və noqay tayfalarının əhval-ruhiyyəsinə ciddi təsir etdi. Onların Rusiya himayəsinə keçməsi sürətləndi.

Rusiya qoşunlarının Qara dənizin şimal sahillərində və Dunay boyunda qələbələri, Şimal-qərbi Qafqazda mövqelərini möhkəmlətməsi Osmanlı dövlətinin Krımı ələ keçirmək planını pozdu. Osmanlı sultanı yenidən Şeyx Mənsuru fəal mübarizəyə çağırdı.

**Şeyx Mənsurun başçılıq etdiyi mübarizənin başa çatması.** 1789-cu ildə Şeyx Mənsur Rusiyanın müstəmləkəçi işğallarına qarşı birgə mübarizə aparmaq üçün xüsusi elçilər vasitəsilə Xəzər dənizindən şimal-şərqdə yaşayan qazax xalqı ilə əlaqə yaratdı. Şimali Qafqazda yerli əhali Qazaxıstanın Kiçik Juzunda böyük üsyandan xəbərdar idilər. 1783-cü ildə *Batır Srımın* başçılığı ilə qazaxlar Cənubi Ural xətti boyunda və Orsk qalası ətrafında milli-azadlıq mübarizəsinə qalxmışdılar.

Şeyx Mənsurun üsyançı qazaxların yanına göndərdiyi tacir qiyafəsində olan dağlı elçiləri Batır Srıma təklif etmişdilər ki, birlikdə Həştərxan üzərinə yürüş etsinlər. Şeyxin məqsədi Xəzərin şimalındakı bu çox mühüm qalanı ələ keçirmək, çarizmə qarşı qazaxlarla birlikdə mübarizəni daha geniş miqyasda davam etdirmək idi. Çünki, Həştərxanın ələ keçirilməsi Rusiya hakim dairələrinin həm Şimali Qafqaza, həm də Qazaxıstana təzyiq göstərmək imkanını əsaslı şəkildə zəiflədərdi. Lakin Şeyx Mənsurun elçiləri Kiçik Juza çatanda, orada üsyan əsasən başa çatmışdı. Ona görə də, Qafqaz və Qazax xalqlarını çarizm əleyhinə birgə mübarizəyə qaldırmaq təşəbbüsü nəticəsiz qaldı.





1790-cı ilin yayında sultan hökuməti Krımı ələ keçirmək planından əl çəkdi və Şimali Qafqazın içərilərinə hücum etməyə qərar verdi. Osmanlı komandanlığı Kuban çayının sol sahili boyunca Kabardaya və Qafqaz xəttinə hücum etməyə başladı. Osmanlı dövlətində belə hesab edirdilər ki, onların hücum əməliyyatına başlamaları Şimali Qafqazda Rusiya əleyhinə böyük üsyana səbəb olacaqdır. Bu məqsədlə Şeyx Mənsur yenidən Çeçenistana qayıtdı, dağlı xalqlar arasında yeni üsyançı ordu təşkilinə başladı. Məqsədi bu ordunun köməyi ilə Qızlyarı ələ keçirmək idi.

Lakin Şeyx Mənsurun Çeçenistan və Dağıstan əhalisini böyük üsyana qaldırmaq cəhdi bu dəfə baş tutmadı. O, Kuban boyuna, oradan da Anapaya çəkilməyə məcbur oldu. Buradakı Osmanlı ordusunun komandanı *Batal paşanın* və Şeyx Mənsurun dağlı xalqlarına birlikdə müraciət etmələri də gözlənilən səmərəni vermədi. Dağlı xalqların belə mövqe tutması xeyli dərəcədə rus hakimiyyəti nümayəndələrinin fəaliyyətinin nəticəsi idi. Məsələn, 1790-cı ilin payızında Batal paşanın Anapadan Kubana hücum etməsi xəbərini alan Q.A.Potyomkin həmin dövrdə Qafqaz xəttinə komandanlıq edən general de Balmenə yazmışdı ki, mümkün qədər dağlı xalqların içərisinə daxil olun və onların arasında narazılıq yaradın.

Q.A.Potyomkin özü bu sahədə bacarıqlı diplomat kimi davranırdı. O, Qafqazın feodal hakimlərinin çoxu ilə şəxsi

əlaqələr saxlamaqla, onların Rusiya üçün sərfəli mövqe tutmalarını təmin etmişdi. 1791-ci ildə onun yanında Qafqaz hakimlərinin göndərdikləri 49 elçi və ya nümayəndə, 100-dən çox tərcüməçi və digər xidmətçilər daimi qalmaqda idi.

Şimali Qafqaz xalqlarının əksər hissəsinin, xüsusən adıqların Osmanlı ordusunun hücumunu dəstəkləməməsi rus generallarının işini asanlaşdırırdı. 1790-cı il sentyabrın 30-da general İ.İ.Germanın başçılıq etdiyi rus ordusu Toxtamış çayı yaxınlığında (indiki Çerkessk şəhərinin yerində – Q.Ə.) osmanlıların böyük qoşununu məğlub etdi. Bu döyüşdə rus əsgərləri və kazaklarla birlikdə noqayların atlı dəstəsi də osmanlılara qarşı vuruşmuşdu. Bu məğlubiyyətdən sonra Şimali Qafqazdakı Osmanlı qüvvələri fəal hücumlardan imtina edib Anapaya çəkildilər.

Qafqazdakı rus ordusunun komandanı general-anşef İ.V.Qudoviç bütün qüvvələri Anapaya hücum üçün səfərbər etdi. **1791-ci il iyunun 19-da** rus ordusu Anapa qalası üzərinə böyük hücuma başladı. 4 gün davam edən aramsız top atəşi və hücumlardan sonra qalanın bir hissəsi ələ keçirildi. Şeyx Mənsur və dəstəsi son dərəcə cəsurluqla döyüşsələr də, rusların Anapa qalasındakı barıt anbarını partlatmaqla təhdid etmələri ilə bağlı müqaviməti dayandırmalı oldu. Çünki barıt anbarının partladılması çoxlu sayda dinc əhalinin tələfatına səbəb ola bilərdi.

Rus komandanlığı Şeyx Mənsuru güclü mühafizə dəstəsinin müşayiəti ilə imperiyanın paytaxtına – Peterburqa döndərdi. II Yekaterinanın əmri ilə Şeyx Mənsur ömürlük Şlisselburq qalasına salındı. Soyuq və rütubətli həbsxanada vərəm xəstəliyinə yoluxan Şeyx Mənsur burada 1794-cü ilin aprel ayında vəfat etdi. Anapa qalasının ələ keçirilməsi əməliyyatında kabardalı, osetin, tatar və dağıstanlı döyüşçülər rus ordusu tərkibində döyüşmüş və fərqləndiklərinə görə komandanlıq tərəfindən mükafatlandırılmışdı.

Şimali Qafqazda olduğu kimi, digər cəbhələrdə də 1789-1791-ci illərdə rus ordusu bir-birinin ardınca qələbələr





qazandı. Rus sərkərdəsi A.V.Suvorovun Kinburn, Fokşan, Rımnik və İsmail qalası uğrunda döyüşlərdə böyük müvəffəqiyyət qazanması, rus donanmasının Kerç boğazı, Kilikiya burnu və Hacıbəy limanı yaxınlığında dəniz döyüşlərində qalib gəlməsi müharibənin taleyini həll etdi. Doğrudur, 1790-cı ildə İngiltərə və Prussiyanın təzyiqi ilə Avstriyanın müttəfiqini xəbərdar etmədən müharibədən çıxması Rusiyanın vəziyyətini ağırlaşdırdı. Lakin İngiltərə hökumətinin Rusiyanı hərbi əməliyyatlar gedişində yeni ələ keçirdiyi əraziləri hamısını geri qaytarıb, müharibədən əvvəlki sərhədləri bərpa etmək cəhdi baş tutmadı.

**1791-ci il dekabrın 29-da** ***Yassıda*** Osmanlı və Rusiya dövlətləri arasında sülh müqaviləsi bağlandı. Yassı sülhünə görə, Osmanlı dövləti Krımın, Cənubi Buq və Dnestr çayları arasında olan ərazilərin Rusiya dövlətinə keçməsini, Moldova və Valaxiya üzərində Rusiyanın protektoratını qəbul etdi. Lakin bu ölkələrdən rus qoşunu çıxarıldı. Osmanlı dövləti Gürcüstana olan iddialarından imtina etdi. Əvəzində Rusiya da Şimal-qərbi Qafqazda yeni ərazilər ələ keçirmək planlarından imtina etdi, Kuban çayının sol sahilində yaşayan xalqların Osmanlı dövlətindən asılılığını qəbul etdi.

Rusiya imperiyasının Şimali Qafqazda yeni ərazi işğallarından çəkinməsi ilk növbədə dağlı xalqlarının Şeyx Mənsurun başçılığı altında qətiyyətli mübarizəsinin nəticəsi idi. Çarizm daha öncə özünə tabe etdiyi ***Kabarda, Balkar, Osetiya, Qaraçay*** bölgələrinin işğalının Yassı sülhünün şərtlərinə görə Osmanlı dövləti tərəfindən tanınmasına nail oldu. II Yekaterina **28 fevral 1792-ci il** *tarixli fərmanı ilə* bu ərazilərin Rusiya protektoratına keçməsini rəsmiləşdirdi. Rusiya hakimiyyəti nümayəndələri daha geniş işğalçı planlarını bir neçə onilliyə təxirə salmağa məcbur oldu.

Şeyx Mənsurun başçılığı ilə Şimali Qafqaz xalqlarının milli-azadlıq mübarizəsi son nəticədə məğlub olmasına baxmayaraq çox böyük tarixi əhəmiyyətə malik idi. Dağlı xalqların kütləvi çıxışları çar hökumətini vadar etdi ki, Şimali Qafqa-

zın içərilərinə doğru irəliləmək cəhdlərindən bir müddət imtina etsin, Azov-Mozdok-Qızlyar müdafiə xəttinin möhkəmləndirilməsi qayğısına qalsın. Çarizm yerli feodal hakimlər: Kabarda və Osetiya knyazları, Dağıstanın feodal hakimləri ilə münasibətdə kobud amirlik mövqeyindən geri çəkilib, daha mülayim davranmağa məcbur oldu. Dağlı xalqların nüfuzlu liderləri rus dövlətinə xidmətə cəlb etməyə başlandı. Onlara hərbi rütbə, məvacib verilməsi praktikası tətbiq edildi.

Elə bunun nəticəsi idi ki, 1793-cü il aprelin 19-da Qafqazdakı rus qoşunlarının komandanı general Qudoviç növbəti dəfə Qumuq knyazını və Tarku şamxalını Rusiya himayəsinə qəbul edəndə, onlara çariçanın adından rütbə və illik məvacib verməyi vəd etmişdi. Məsələn, Tarku şamxalına məxfi məsləhətçi rütbəsi verilmiş və ona ildə 6 min rubl məbləğində məvacib ödənilməsi qərara alınmışdı.

Üsyan yatırıldıqdan sonra Rusiya Şimali Qafqazın düzənlik hissəsində mövqelərini möhkəmləndirmək üçün köçürmə siyasətini daha geniş miqyasda davam etdirməyə başladı. Əsrin sonuna doğru Kubanın yuxarı axarı boyunda Don və Ukrayna kazaklarının məskunlaşdırılması daha intensiv xarakter almışdı. Çünki çarizm Zaporejye Seçini 1775-ci ildə ləğv etdikdən sonra, orada yaşayan kazakların Qafqazın Qara dəniz sahili boyuna köçürülməsinə sərəncam vermişdi. **1788-ci ildə** isə burada məskunlaşdırılmış Ukrayna kazakları əsasında ***Qara dəniz kazak qoşunu*** yaradılması haqqında fərman verildi. Bununla Taman yarımadasından Qızlyara kimi çoxlu sayda kazak stanitsaları və qəsəbələrindən ibarət bütöv bir sədd yaradılmış oldu. Qafqaz xətti adını almış bu səddin yaradılması düzənlikdə yeni işğal olunmuş məhsuldar torpaqları Şimali Qafqazın yerli əhalisinin əlindən həmişəlik qopartdı. Bununla razılaşmayan dağlı tayfalarının hücumlarının qarşısını almaq nisbətən asanlaşdı. Köçürülən Ukrayna kazaklarının hesabına Şimali Qafqazın qərb hissəsində ukraynalıların sayı artdı.

**XVIII əsrin sonunda Qafqaza Qacarın və Rusiyanın yürüşləri.** Şeyx Mansurun üsyanı dağlı xalqların nəhəng Rusiya imperiyasına qarşı müvəffəqiyyətlə mübarizə aparmasına inam yaratdı. Bütün Şimali Qafqazın tam işğalı 50 ildən artıq təxirə salındı. Rusiya hakimiyyət dairələrində də anladılar ki, Şimali Qafqazı bir dəfəyə, dağlara doğru hücumlar təşkil etməklə ələ keçirmək mümkün deyildir. Ona görə də, XVIII əsrin 90-cı illərinin ortalarında Qafqazın Xəzər dənizi və Qara dəniz sahili boyu ərazilərini, Cənubi Qafqazı işğal etməyə girişdi. Çarizm bununla Şimali Qafqazın xarici aləmdən əlaqələrini kəsmək və tədricən mühasirə həlqəsini daraltmaq niyyətində idi.





Rusiyanın Cənubi Qafqaza hərbi yürüş təşkil etməsinin digər səbəbi İranda və Cənubi Azərbaycanda hakimiyyəti ələ keçirmiş ***Ağa Məhəmməd xan Qacarın*** Qafqaza olan iddiaları idi. **1795-ci ilin yayında** o, 85 minlik qoşunla Cənubi Qafqazın içərilərinə yürüşə başladı. Qacar ordusunun bir dəstəsi Lənkəran-Şirvan-Dərbənd, digər dəstə Qarabağ-Gəncə-Tiflis, üçüncü dəstə isə Naxçıvan-İrəvan istiqamətində hücuma başladı. Ağa Məhəmməd xan özü Qarabağa yürüş edən əsas ordu hissəsinə başçılıq etmişdi. Bu yürüş zamanı Şuşa 33 gün mühasirədə qalsa da, qəhrəmancasına müqavimət göstərmiş, bütün məhrumiyyətlərə mərdliklə dözərək təslim olmamışdı. Ona görə də, Qacarın ordusu Şuşanın mühasirəsindən vaz keçib **1795-ci ilin sentyabrında** Tiflisə hücum etdi. Şəhərin cənub qapısı yaxınlığında *Krtsanis düzündə iki gün davam edən döyüşdə* gürcü qoşununu məğlub etdi. Bu qələbədən sonra sentyabrın 12-də Tiflisə daxil olub şəhəri bütünlüklə qarət etdi. Qacarın ordusu Tiflisdə 8 gün qaldıqdan sonra Muğana, oradan da İrana çəkildi.

Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşü başlandıqdan sonra bir neçə min erməni yaşadıqları yerləri tərk edərək Qafqazın şimalında rusların yeni yaratdıqları qalalarda məskunlaşdılar.

Qacarın ordusunun tələsik Qafqaz hüdudlarından geri çəkilməsinin əsas səbəblərindən biri Gürcüstana və Dağısta-

na rus ordusu göndərilməsi haqqında xəbər alması idi. 1795-ci ilin dekabr ayında 2 minlik rus hərbi dəstəsi Gürcüstana daxil oldu. Gürcü çarı bu qüvvənin köməyi ilə 1796-cı ilin başlanğıcında Gəncəyə hücum etdi. Cavad xan xərac ödəməyə razılıq verməklə şəhəri qətl və qarətlərdən xilas etdi.

**1796-cı ilin fevral ayında** isə *qraf V.A.Zubovun* başçılıq etdiyi rus korpusu Dağıstanın cənubuna yürüşə başladı və Dərbəndə yaxınlaşdı. Rus qoşunlarının tərkibində ermənilər də var idi. Onların içərisində özünü Rusiyadakı ermənilərin dini başçısı kimi təqdim edən İosif Arqutinski Cənubi Qafqazdakı erməni və digər xristian əhaliyə, xüsusən də Qarabağ məliklərinə müraciət edərək fəal mübarizəyə başlamağı təklif etdi. İ.Arqutinski rus qoşunun bu yürüşü zamanı Azərbaycan torpaqları hesabına erməni dövləti yaradılmasını təklif edirdi. 30 minlik rus hərbi qüvvəsinin irəliləməsinə qubalı Şeyxəli xan bakılı Hüseynqulu xanın və Qazıqumuqlu II Surxay xanın köməyilə güclü müqavimət təşkil etdi. Təkcə Qazıqumuq hakimi II Surxay xan 20 minlik atlı və piyada qoşun toplamışdı.

Şeyxəli xan müttəfiqlərinin yardımı ilə Dərbəndin müdafiəsini möhkəmləndirdi və Zubovun korpusunun ön dəstələrini geri oturtdu. Yalnız aprel ayında əsas qüvvələri gəlib çatdıqdan sonra ruslar Dərbənd qalasını şimaldan və cənubdan mühasirəyə ala bildilər. Bu zaman Tabasaran qazısı Rüstəm Darvay çayının yatağı ilə Dərbəndin cənubuna xəlvəti çıxmağa imkan verən dağ yolunu ruslara göstərdi. Zubov bu yolla 10 minlik hərbi qüvvəni Dərbəndin cənub divarlarına çıxardı və mayın 1-də şəhəri ələ keçirə bildi. 1796-cı ilin yazında Dərbəndin ardınca Quba xanlığı da işğal edildi. Bu zaman yerli feodal hakimlərin, Dağıstan və Azərbaycan xalqlarının rus işğalına qarşı birlikdə ciddi müqavimətini təşkil etmiş nümayəndələrindən 10 nəfəri Həştərxana sürgün edildi. Qubalı Şeyxəli xan isə həbsdən qurtularaq dağlara çəkildi və rus işğalına qarşı azadlıq mübarizəsini davam etdirdi.

V.Zubov çariça II Yekaterinanın adından Dərbəndin





idarəsini Şeyxəli xanın bacısı Pəricə xanıma həvalə etdi, özü isə Azərbaycanın içərilərinə hücumu davam etdirdi. İyunun 6-da Quba, 7 gün sonra Bakı işğal edildi. Rus komandanlığı Bakıda 3 piyada, 2 atlı batalyonu və 3 top saxlayıb Şamaxı xanlığına doğru irəlilədi, Pirsaatda ordugah yaratdı. Qarabağlı İbrahimxəlil xan, şamaxılı Mustafa xan yaxın adamlarını bahalı hədiyyələrlə rus ordugahına göndərdilər, itaət göstərəcəklərini bildirdilər. Oktyabrın sonunda rus ordusu Gəncəni tutdu.

Bu, rus korpusunun son uğuru oldu. Noyabr ayında II Yekaterinanın ölümü və taxta anasına nifrət edən I Pavelin çıxması ilə vəziyyət dəyişdi. Rus hərbi qüvvələri Cənubi Qafqazdan çıxarıldı, V.Zubov isə istefaya göndərildi. Regionun işğalına dair planlar yarımçıq saxlandı.

Rus ordusunun geri çəkilməsi xəbərini alan ***Ağa Məhəmməd şah Qacar*** (o, 1796-cı ildə özünü İran şahı elan etmişdi – Q.Ə.) **1797-ci ilin yazında** yenidən Cənubi Qafqaza yürüşə başladı. Bu dəfə də əsas diqqət Şuşanın ələ keçirilməsinə yönəldildi. İbrahimxəlil xan Qarabağda aclıq və xəstəliklə bağlı ciddi müqavimət təşkil etmək mümkün olmadığını yəqin etdikdə Car-Balakənə – müttəfiqi Avar hakimi Umma xanın yanına getdi. Şuşada öz iqamətgahını yerləşdirən Qacar bütün feodal hakimləri hüzuruna çağırdı, sərt cəza tədbirlərinə əl atdı. Lakin şahın az sonra sui-qəsd nəticəsində öldürülməsi nəticəsində İran qoşunları tələsik cənuba çəkildi. Beləliklə, XVIII əsrin sonunda Cənubi Qafqazı və Dağıstanı İrana tabe etmək cəhdləri də nəticəsiz başa çatdı.

## XVI-XVIII əsrlərdə Qafqaz xalqlarının mədəniyyəti

**Ədəbiyyat.** XVI-XVII əsrlərdə Qafqaz uğrunda Səfəvi-Osmanlı müharibələrinin törətdiyi dağıntılara, XVIII əsrdə regiona Rusiya, Osmanlı və Əfşarlar dövlətlərinin basqınlarına, daxili çəkişmələrə baxmayaraq mədəni həyatda mühüm irəliləyişlər baş verirdi. Orta yüzilliklərin əsas mədə-

niyyət mərkəzlərinin əhəmiyyəti daha da artır, yeniləri yaranırdı. Təbriz, Şamaxı, Gəncə, Tiflis, İrəvan, Dərbənd və digər şəhərlər böyük sənətkarlıq və ticarət mərkəzləri olmaqla yanaşı, elm və mədəniyyətin inkişafında da mühüm rol oynamaqda davam edirdilər. Hökmdar və xanların, iri feodalların saray və malikanələri də qabaqcıl mədəniyyət ocaqlarına çevrilirdi.

Dirçəlmə və canlanma bədii ədəbiyyatda daha çox hiss olunurdu. Bu dövrdə Qafqaz xalqları zəngin ədəbi irs yaratmışlar.

XVI əsrdə öz ana dilində gözəl əsərlər yaradan Azərbaycan şairləri Şah İsmayıl Xətai, Həbibi, Məhəmməd Füzuli və başqaları ədəbi fikrin inkişafında böyük rol oynadılar. Onların arasında böyük mütəfəkkir şair M.Füzuli xüsusilə fərqlənmiş, öz lirikası ilə dünya ədəbiyyatının korifeyləri sırasına yüksəlmişdi.

Gürcü poeziyasının görkəmli nümayəndəsi İosif Tbileli bu dövrdə tarixi "Didmouroviani" ("Böyük Murov" – Q.Ə.) poemasını yazmışdı. Əsərdə "Kartliyə hasar çəkən", vətən uğrunda sevimli oğlunu qurban verən və öz canından keçən Georgi Saakadzenin igidliyi tərənnüm edilmişdir. Sulxan-Saba Orbeliani isə "Yalanın hikməti" adlı təmsillər toplusunda yaltaqlıq, rüşvətxorluq və digər ictimai bəlaları tənqid etmişdi. O arzu edirdi ki, dövlətin başında savadlı və ağıllı hökmdar dursun, əhalisinin qayğısına qalsın.

XVIII əsrin ikinci yarısında Tiflisdə teatr yaradılması gürcü dramaturgiyasının inkişafına təkan verdi. Bu teatrda xarici dillərdən tərcümə olunmuş komediyalarla yanaşı, gürcü dilində yazılmış orijinal pyeslər də oynanılırdı.

Bu dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Molla Pənah Vaqif gözəl lirik şerlər yazmış, həmçinin yaxından bələd olduğu feodal cəmiyyətindəki eybəcərlikləri ifşa etmişdi. Onun dostu Molla Vəli Vidadi isə bir müddət Tiflisdə hökmdar sarayında yaşamış, öz şerlərində qüdrətli Qafqaz dağlarının əzəmətini, gürcü gözəllərini vəsf etmişdi.





İctimai-siyasi mövzulara müraciət etmiş şair Ağa Məsih Şirvani "Şahnamə" adlı poemasında qubalı Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmək siyasətini tərifləmişdi. Şakir Şirvani isə "Əhvali-Şirvan" poemasında yerli əhalinin Nadir şahın hücumlarına qarşı mübarizəsini tərənnüm etmişdi.

XVIII yüzillikdə Tiflisdə yaşamış aşıq Sayat Nova həm erməni, həm də Azərbaycan və gürcü dillərində məhəbbəti və dostluğu tərənnüm edən şerlər yaratmışdı. O, öz nəğmələrində Qafqaz xalqları arasında dostluq əlaqələrini möhkəmləndirməyə çağırır, ədalətsiz feodal qaydalarını tənqid edirdi.

XVII-XVIII əsrlərdə Şimali Qafqazda şifahi xalq yaradıcılığının müxtəlif nümunələrinin yaradılması çoxalmışdı. Onların içərisində tarixi-qəhrəmanlıq motivlərinin əsas yer tutduğu mahnı, hekayət və rəvayətlər xüsusilə çox idi. Şah Abbasın Osetiya dağlarına, Nadir şahın Dağıstana yürüşlərinə çoxlu nəğmə və rəvayətlər həsr edilmişdi. Adıq, kabardin və çeçen folklorunda Qafqaz xalqlarının dostluğu və qarşılıqlı yardımı, igidliyi, Rusiya işğallarına qarşı azadlıq mübarizəsi tərənnüm edilirdi. Adıq rəvayətlərinin birində müdrik el ağsaqqalı Liyanın xalqa müraciət edərək, rusların təzyiqinə müqavimət göstərməyə, öz doğma yurdları olan Baksan çayı sahillərini tərk etməməyə çağırış öz əksini tapmışdır.

**Məktəb və elm.** Qafqazın müsəlman əhalisi yaşayan bölgələrində məscidlərin nəzdində ibtidai məktəblər, həmçinin mükəmməl təhsil verən mədrəsələr mövcud idi. Demək olar ki, hər bir iri yaşayış məntəqələrinin hərəsində bir, şəhər və feodallıq mərkəzlərində isə bir neçə təhsil ocağı fəaliyyət göstərirdi. XVII əsrin ortalarında Qafqaza səyahət etmiş Övliya Çələbi yazırdı ki, Şamaxıda 40 ibtidai məktəb və 7 mədrəsə, Təbrizdə isə 600 ibtidai məktəb və 47 mədrəsə var idi.

Uşaqlar ibtidai məktəblərdə oxumaq və yazmaq öyrənir, "Quran"ı əzbərləyirdilər. Mədrəsələrdə müsəlman hüququ, klassik Şərq ədəbiyyatı, fəlsəfə, astronomiya, tibb və digər elmlərin əsasları öyrədilirdi.

Xristian əhali yaşayan bölgələrdə kilsə məktəbləri fəaliyyət göstərirdi. XVIII əsrin ikinci yarısında Gürcüstanda mükəmməl təhsil ocaqlar – seminariyalar yaradılmasına başlanmışdı. Burada yaşlı adamlar da təhsil alırdılar.

XVII-XVIII əsrlərdə elmin müxtəlif sahələri üzrə kitablar hazırlanması da geniş miqyas almışdı. 1637-ci ildə Culfada, 1709-cu ildə Tiflisdə, 1771-ci ildə Eçmiədzində mətbəə yaradılması tədris və elmi ədəbiyyatın yayılmasında mühüm rol oynadı. Şimali Qafqazda isə bu dövrdə əlyazma kitabların üzünün köçürülməsi və cildlənməsi çoxalmışdı. Elmin müxtəlif sahələrinə aid əlyazmaların çoxu qonşu ölkələrdən, əsasən də Yaxın Şərqin böyük şəhərlərindəki elm mərkəzlərindən gətirdilirdi. Qazıqumuq, Xunzax, Dərbənd və Usişa məscidləri yanında minlərlə nüsxə əlyazmalarından ibarət böyük kitabxanalar mövcud idi.

Azərbaycanda, Dağıstanda, Çeçenistanda və Kabardada yerli alimlər də ərəb dilində bütün müsəlman aləmində yüksək qiymətləndirilən əsərlər yaradırdılar. XVIII əsrin sonunda Dəməşqin və Hələbin təhsil ocaqlarında 5 nəfər dağıstanlı alim ilahiyyatdan və müsəlman hüququndan dərs aparırdı.

Bu dövrdə dünyanın bir çox yerlərinə səpələnmiş ermənilər də məskunlaşdıqları yerlərdə öz dini-mədəni cəmiyyətlərini təşkil edir, məktəblər açırdılar. Venesiya, İstanbul və İsfahanda isə həmçinin erməni ədəbiyyatı nəşr edən mətbəələr yaradılmışdı.

Qafqazın Rusiya tərəfindən işğalı dövründə yerli əhalini xristianlaşdırmaq və ruslaşdırmaq məqsədilə məktəblər açılmasına başlanmışdı. Məsələn, XIX əsrin əvvəllərində Nalçik qalasında yaradılmış ilk rus məktəbində əmanət saxlanılan dağlı uşaqları imperiyaya sədaqət ruhunda tərbiyə edilirdi.

Qafqazda təbiblər Avropa alimlərindən bir neçə yüz il əvvəl çiçək xəstəliyinə qarşı peyvənd etməyi öyrənmişdilər. Demək olar ki, hər bir iri yaşayış məntəqəsində xalqın əsrlər boyu topladığı təcrübə əsasında müxtəlif xəstəlikləri sağaldan loğmanlar mövcud idi.





XVIII əsrin əvvəlində Kartli şahı VI Vaxtanq gürcü tarixinin yazılması üçün "Elm adamları" komissiyası yaratmışdı. Buradakı alimlər əvvəlki dövrlərdə yol verilmiş nöqsanları aradan qaldırıb "Yeni Kartli həyatı" adlı tarixi əsəri tərtib etdilər. XVIII əsrdə tarix elminin inkişafında Vaxuşti Baqrationinin "Gürcüstanın tarixi və coğrafiyası" adlı əsəri yeni mərhələ açdı. Bu əsərdə Gürcüstanın və qonşu Qafqaz bölgələrinin coğrafi təsviri və xəritəsi də verilmişdi.

XVII-XVIII əsrlərdə Qaytaq usmiliyinin, Avar xanlığının adətləri yazıya köçürüldü, Dağıstan tarixini öyrənmək üçün böyük əhəmiyyətə malik olan "Dərbəndnamə" yaradıldı.

XVIII əsrdə Xunzax qazısı Dibir 38 hərfdən ibarət avar əlifbası tərtib etdi və "Kəlilə və Dimnə" əsərini avar dilinə tərcümə etdi. Bu dövrdə həmçinin osetinlər içərisində xristianlığı yaymağa çalışan rus missionerləri osetin əlifbasını tərtib etdilər. Slavyan əlifbasına əsaslanan bu əlifba ilə 1798-ci ildə ilk kitab çap edildi.

**İncəsənət.** XVII-XVIII əsrlərdə Qafqazda memarlıq, rəssamlıq, musiqi, rəqs və digər incəsənət sahələri üzrə də müəyyən uğurlar qazanılmışdı.

XVI - XVII əsrlərdə Azərbaycan mədəniyyəti daha da inkişaf etdi. Səfəvi dövründə ədəbiyyat və incəsənət üzrə görkəmli xadimlər yaşayıb-yaradırdılar. Dövrünün böyük miniatür ustası Kəmaləddin Behzad Təbrizdə təkrarsız əsərlər yaratmışdı. Şah I İsmayıl onun yaradıcılığına çox yüksək qiymət vermiş, onu zəmanənin nadiri, rəssamların ustadı adlandırmışdı. XVI əsr Təbriz rəssamlıq məktəbinin banisi Sultan Məhəmməd hazırda dünyanın məşhur muzeylərini bəzəyən gözəl miniatür rəsmlər yaratmaqla özünə əbədi şöhrət qazanmışdı.

XVIII əsrin ikinci yarısında Azərbaycan memarlığının ən gözəl incilərindən olan Şəki Xan sarayı tikildi. Bu dövrdə inşa edilmiş Şuşa qalası, İrəvanda Göy məsçid və Sərdar sarayı, Bakıda, Qubada və digər xanlıq mərkəzlərində inşa edilmiş malikanələr də möhtəşəm memarlıq nümunələri idilər.



Şəkil. Şuşa. Xan sarayı.



Şəkil. Şuşa. Qala divarı.







Şəkil. İrəvan. Xan sarayı.



Şəkil. İrəvan. Göy məscid.

Gürcü memarlığının ən gözəl nümunələrindən biri XVIII əsrin əvvəlində Tiflisdə inşa edilmiş qübbəsi qızıl suyuna tutulmuş Güzgülü saray idi. Bu dövrdə Eçmiədzin kilsəsinin divarları dini məzmunlu şəkillərlə bəzədildi. Bu şəkillər erməni rəssamlarına Təbriz miniatür rəssamlıq məktəbinin ciddi təsir göstərdiyini sübut edir.



**Şəkil**. Gürcüstan. Qremidə kilsə (XVII əsr).



**Şəkil**. Gürcüstan.Tiflis. Sioni kilsəsi (XVIII əsr)

Şimali Qafqazda Tarku, Xunzax, Qumuq və digər feodallıq mərkəzlərində də böyük malikanələr ucaldılmışdı. Onların içərisində Fətəli xanın Dərbənd qalasındakı sarayı sənətkarlıq baxımından xüsusilə seçilirdi.

Bu dövrdə Qafqazda yaşayan bütün xalqların özünəməxsus musiqi mədəniyyəti inkişaf edirdi. Lakin musiqi və rəqslərdə çoxəsrlik tarixi əlaqələrdən doğan ümumi cəhətlər xüsusilə çox idi. Məsələn, Qafqazın bütün şənliklərində "ləzginka" adlanan və ayaq barmaqları üzərində oynanılan rəqs böyük həvəslə ifa edilirdi.





# ƏN MÜHÜM HADİSƏLƏRİN XRONOLOGİYASI[1]

| | |
|---|---|
| 10 milyon il əvvəl | – Qafqazın müasir relyefinin formalaşmağa başlaması |
| 3,5 - 3 milyon il əvvəl | – Qafqazda ilk insanabənzər varlıqların – udabnopiteklərin yaşamağa başlaması |
| 3 - 2,8 milyon il əvvəl | – Efiopiyada Vest-Qona düşərgəsindən aşkar edilən ən qədim insanın – homo-habilisin qalıqları |
| 2,0 - 1,8 milyon il əvvəl | – Borçalıda (müasir Gürcüstanın Dmanisi bölgəsində) aşkar edilən Qafqazda ən qədim insanın – homo-erektusun qalıqları |
| 1,5 milyon il - 700 min il əvvəl | – Quruçay mədəniyyəti dövrü |
| 700 min il - 100 min il əvvəl | – Aşel dövrü |
| 700 min il əvvəl | – Azıx mağarasından aşkar edilən Qafqazda ən qədim ocaq yeri – odla tanışlığın başlanğıcı |
| 400 min il - 350 min il əvvəl | – Azıx adamının – Azıxantropun yaşadığı dövr |
| 100 min il - 40 min il əvvəl | – Orta Paleolit – Mustye dövrü. İbtidai insanların geniş əraziyə yayılması. İlkin dini təsəvvürlərin formalaşması |
| 40 min il - 14 min il əvvəl | – Üst Paleolit dövrü. Homo sapiyens – ağıllı insan formalaşmasının başa çatması. Nəsil icmasının yaranması |
| e.ə. XII – VIII minilliklər | – Mezolit dövrü. Kaman və oxun kəşfi. İlkin əkinçilik vərdişlərinin və ibtidai maldarlığın yaranması |

[1] Elçin Əliyev və Aqşin Əliyev tərəfindən tərtib edilmişdir

| | |
|---|---|
| e.ə. VII – VI minilliklər | – Neolit dövrü. İstehsal təsərrüfatının əsas yer tutması. Daimi yaşayış məskənlərinin yaranması. Sənətkarlığın meydana gəlməsi |
| e.ə. V minillik – IV minilliyin sonu | – Eneolit dövrü. Metalla tanışlığın başlanması. Toxa əkinçiliyinin mühüm yer tutması. Atın əhliləşdirilməsi |
| e.ə. IV minilliyin sonu – II minilliyin sonu | – Tunc dövrü. Tayfaların və tayfa birliklərinin yaranması. Ata xaqanığına keçilməsi |
| e.ə. IV minilliyin sonu – III minilliyin sonu | – Erkən Tunc dövrü – Kür-Araz mədəniyyəti. Birinci əmək bölgüsü |
| e.ə. III minillik | – Maykop mədəniyyəti |
| e.ə. III minilliyin əvvəli | – İkitəkərli arabaların kəşf edilməsi |
| e.ə. III minilliyin ikinci yarısı | – Böyük tayfa birliklərinin – İlkin dövlət qurumlarının yaranması |
| e.ə. XXIII əsr | – Kuti və lullubi dövlət qurumlarının yaranması |
| e.ə. XXIII əsrin sonu | – Kuti tayfalarının İkiçayarasına yürüşü |
| e.ə. III minilliyin sonu – II minilliyin ortaları | – Orta Tunc dövrü. İkinci əmək bölgüsü. Şəhərtipli yaşayış məskənlərinin yaranması |
| e.ə. II minilliyin birinci yarısı | – Hurri (xurrit) tayfalarının Cənub-qərbi Qafqazda təsirinin güclənməsi |
| e.ə. II minilliyin birinci yarısı | – Qafqazın cənub və cənub-şərq hüdudlarında kassi tayfalarının yaşaması |
| e.ə. II minilliyin ortaları | – Hurri tayfalarının Mitanni dövlətini yaratmaları |
| e.ə. XVI əsrin əvvəlləri | – Kassilərin İkiçayarasını tutmaları |
| e.ə. XIV – XII əsrlər | – Son Tunc dövrü |
| e.ə. XIII əsr | – Assuriya hökmdarı I Salmanasarın (e.ə. 1280-1261) Uratru dövlət qurumunu tabe etməsi |





| | |
|---|---|
| e.ə. XIII-XII əsrlər | – Frako-frigiya tayfalarının Balkan yarımadasının şimalından Kiçik Asiyaya daxil olmaları |
| e.ə. XII əsrin 60-cı illəri | – Erməni tayfalarının Fərət çayının yuxarı axarı boyuna köçmələri |
| e.ə. XII əsrin sonu – XI əsrin əvvəli | – Assuriya hökmdarı I Tiqlatpalasarın (e.ə. 1115-1077) Nairi ölkəsinə yürüşlər etməsi |
| e.ə. XII əsrin sonu – XI əsrin əvvəli | – Assuriya hökmdarı I Tiqlatpalasarın urumeyləri, abeşlayları, Hett ölkəsinin dikbaş əhalisi ilə birlikdə tabe etməsi |
| e.ə. XII əsrin sonu – XI əsrin əvvəli | – Assuriya hökmdarı I Tiqlatpalasarın Gelxlər ölkəsinə - Kulxaya hücum etməsi |
| e.ə. XI – VIII əsrlər | – Erkən Dəmir dövrü |
| e.ə. II minilliyin sonu – I minilliyin əvvəli | – Üçüncü əmək bölgüsü. İbtidai icma quruluşunun dağılması. Əkinçilik və maldarlıq təsərrüfatlarının intensiv inkişafı, sənətkarlıq sahələrinin yüksəlişi |
| e.ə. II minilliyin sonu – I minilliyin əvvəli | – Qafqaz tayfalarının Yaxın Şərq ölkələri ilə (Assuriya, Het, Misir) mədəni-iqtisadi əlaqələrin daha da genişlənməsi |
| e.ə. IX əsrin əvvəlləri | – Van ətrafı bölgədə Urartu (Biaynili) dövlətinin yaranması |
| e.ə. IX əsrin əvvəlləri | – Assuriya hökmdarı II Aşşurnasirapalın (e.ə. 884-859) Lullu ölkəsinə, Gilzana, Zamuaya yürüş etməsi |
| e.ə. IX əsrin ortaları | – Manna dövlətinin yaranması |
| e.ə. 843-cü il | – Aşşur qaynaqlarında ilk dəfə Manna dövlətinin adının çəkilməsi |
| e.ə. IXəsrin sonu - VIII əsrin birinci yarısı | – Mannaya Aşşur və Urartu dövlətlərinin hücumları |
| e.ə. IX-VIII əsrlər | – Urartu hökmdarlarının Urme (Urmani) ölkəsini fəth etmələri |

| | |
|---|---|
| e.ə.VIII-VII əsrlər | – Qədim erməni tayfalarının Urartu ərazilərinə, Van ətrafı bölgələrə doğru yayılması |
| e.ə. 785-ci il | – Urartu hökmdarı I Argiştinin Diauxi ölkəsinə hücum etməsi |
| e.ə. 782-ci il | –Urartu hökmdarı Argiştinin Arazdan şimala hücum edərək Azlar ölkəsini tutması |
| e.ə. 782-ci il | – Urartu hökmdarı Argiştinin Arazdan şimalda möhkəmlənmək üçün İrpuni qalasını inşa etdirməsi |
| e.ə. 777-ci il | – Urartu hökmdarı I Rusanın Göyçə bölgəsində yerləşən Etiuni ölkəsini tabe etməsi |
| e.ə. VIII əsr | – Kimmerlərin Şimali Qafqazın Qara dəniz sahili boyunda və onunla həmhüdud torpaqlarda yaşamaları |
| e.ə. VIII əsrin sonu | – İskit tayfalarının Şimali Qafqaz bölgələrinə axınları ilə əlaqədar kimmerlərin cənuba doğru köç etmələri |
| e.ə. VII əsr | – Saspirlərin Çorox, Fərat və Araz çaylarının yuxarı axarı boyundan şərqə doğru irəliləyərək mosx tayfalarının yaşadıqları torpaqlara köçmələri |
| e.ə. 716-680-ci illər | – Manna hökmdarı Ullusunun hakimiyyəti |
| e.ə. 716-cı il | – Assuriya hökmdarı II Sarqonun Mannaya yürüşü |
| e.ə. 714-cü il | – Assuriya hökmdarı II Sarqonun Mannaya və digər şərq ölkələrinə böyük yürüşü |
| e.ə. 714-cü il | – Kimmer tayfalarının urartuları ağır məğlubiyyətə uğratmaları |
| e.ə. 675-650-ci illər | – Manna hökmdarı Ahşerinin hakimiyyəti |
| e.ə. 674-cü il | – İskitlərin Manna ölkəsinin şimal və qərb vilayətlərində məskunlaşmaları |





| | |
|---|---|
| e.ə. 674-cü il | – Manna, iskit və midiyalıların Assuriyaya qarşı ittifaqı |
| e.ə. VII əsrin 70-ci illəri | – Cənubi Qafqazda İskit şahlığı və ya Kimmer-iskit-sak dövlətinin yaranması |
| e.ə. 673-cü il | – Midiyada Assuriya ağalığına son qoyulması və müstəqil dövlətinin yaranması |
| e.ə 650-ci il | – Assuriya hökmdarı Aşşurbanipalın Manna qoşununu məğlub etməsi |
| e.ə. VII əsrin 50-20-ci illəri | – İskitlərin Midiyada və Ön Asiyanın digər ölkələrində 28 il hökmranlıq etmələri |
| e.ə. VII əsrin 20-ci illəri | – Midiya hökmdarı Kiaksarın (e.ə. 625-585) iskit ağalığına son qoyması |
| e.ə. I minilliyin ortaları | – Cənubi Qafqazın mərkəz hissəsində buntürklərin qədim gürcü tayfaları ilə qonşuluqda yaşamaları |
| e.ə. VII-VI əsrlər | – Milet şəhərindən çıxmış yunanların Fasis (indiki Poti) və Dioskuria (indiki Suxumi) koloniyalarının əsasını qoymaları |
| e.ə. 605-ci il | – Assuriyanın süqut etməsi |
| e.ə. 593-cü il | – İskit şahlığının (ŞKNZ), Urartu (RRT) və Manna (MNN) dövlətlərinin adlarının tarixi mənbələrdə sonuncu dəfə çəkilməsi |
| e.ə. 590-cı il | – Manna, İskit şahlığı və Urartu dövlətlərinin Midiyanın tabeliyinə keçməsi |
| e.ə. 584-550-ci illər | – Midiya hökmdarı Astiaqın hakimiyyəti |
| e.ə. 550-ci il | – Midiyanın süqut etməsi |
| e.ə. 550-330-cu illər | – Əhəmənilər sülaləsinin İranda hakimiyyəti |
| e.ə. 530-cu il | – Əhəməni hökmdarı II Kirin massagetlərin üzərinə yürüşü və məğlub olması |

| | |
|---|---|
| e.ə. 522-ci il | – Qaumatın başçılığı altında Əhəməni ağalığına qarşı böyük üsyan |
| e.ə. 512-ci il | – Qara dənizin şimalında yaranmış İskit şahlığı üzərinə Əhəməni şahı I Daranın böyük yürüşü |
| e.ə. V əsrin 80-ci illəri | – Kimmer Bosporu sahili boyundakı şəhərlərin birləşərək Bospor padşahlığı yaratmaları |
| e.ə. V əsrin ortaları | – Şimal-qərbi Qafqazda müstəqil Sindika dövlət qurumunun yaranması |
| e.ə. V-IV əsrlər | – Saspirlərin Kür çayının orta axarları boyunda daimi məskunlaşmaları |
| e.ə IV əsr | – Albanlar haqqında qaynaqlarda ilk məlumat |
| e.ə. 336- 323-ci illər | – Makedoniyalı İsgəndərin hakimiyyəti |
| e.ə. 334-324-cü illər | – Makedoniyalı İsgəndərin Şərqə yürüşü |
| e.ə. 331-ci il 1 oktyabr | – Qavqamel doyüşü |
| e.ə. 330-cu il | – Əhəməni imperatorluğunun süqut etməsi |
| e.ə. 328-ci il | – Atropatın yenidən Midiya satrapı vəzifəsinə qaytarılması |
| e.ə. 321- ci il | – Atropatena dövlətinin yaranması |
| e.ə. IV əsrin sonu | – Albaniya dövlətinin yaranması |
| e.ə. IV əsrin sonu | – Kartli (İberiya) dövlətinin yaranması |
| e.ə. IV əsrin sonu | – Gürcüstanın qərbində Eqresi (Kolxida) dövlətinin yaranması |
| e.ə. IV əsrin sonu-III əsrin əvvəlləri | – Van ətrafı bölgədə Erməni dövlətinin yaranması |
| e.ə. 321-ci il | – Selevkilər sülaləsinin hakimiyyətə gəlməsi |
| e.ə. III əsrin başlanğıcı | – İberiya hökmdarı Farnavazın Kürün sağ sahilində Armazi qalasını saldırması |





| | |
|---|---|
| e.ə. III əsr | – Sarmat tayfaları aorsların Şimali Qafqazın düzənlik hissəsində yaşayan digər sarmat tayfaları ilə – siraklarla toqquşmaları |
| e.ə. 220-ci il | – Cənubi Qafqazın selevkilərdən asılılı hala düşməsi |
| e.ə. III əsrin sonu | – Selevki hökmdarı III Antioxun Böyük Ermənistanı özünə tabe etməsi və öz sərkərdəsi Arteksini ora hakim təyin etməsi |
| e.ə. 190-cı il | – Maqneziya yaxınlığında döyüşündə Roma legionerlərinin Selevki qoşunlarını ağır məğlubiyyətə uğratması |
| e.ə. 189-cu il | – Artaksinin (erməni variantı Artaşes) Böyük Ermənistanda müstəqil hökmranlıq etməyə başlaması (e.ə. 189-160) |
| e.ə. II əsrin 80-60-cı illəri | – Böyük Ermənistanın qonşularına qarşı fəal qəsbkarlıq siyasəti yeritməsi |
| e.ə. II əsrin ortaları | – Böyük Ermənistanın qonşularından işğal etdikləri torpaqları itirməsi |
| e.ə. II əsrin sonu | – Çindən Mərkəzi Asiyaya və Aralıq dənizi sahillərinə doğru Böyük İpək yolu ilə ticarət əlaqələrinin yaranması |
| e.ə. 107-ci il | – Savmakın başçılığı ilə iskitlərin üsyanı |
| e.ə. I minilliyin sonu | – Şimal-şərqi Qafqaz tayfalarının qəti şəkildə Albaniyaya tabe edilməsi |
| e.ə. 95-55-ci illər | – Erməni hökmdarı II Tiqranın (Böyük Tiqran) hakimiyyət dövrü |
| e.ə. 83-cü il | – Böyük Ermənistanın Seleviki dövlətinin paytaxtı Antioxiyanı tutması ***Finikiya və Kilikiyanı*** özünə tabe edə |
| e.ə. 83-cü il | – Böyük Ermənistanın Finikiya və Kilikiyanı özünə tabe etməsi |

| | |
|---|---|
| e.ə. 69-cu il | – Tiqranakert yaxınlığında Nikeforion çayı sahilində Roma legionerlərinə qarşı erməni, Atropaten, Albaniya və İberiya qoşunlarının birlikdə döyüşmələri |
| e.ə. 68-ci il | – Aratsan çayı yaxınlığında baş verən döyüşdə erməni, Pont və Atropaten qüvvələrinin romalıları məğlub etmələri |
| e.ə. 67-ci il | – Bala Tiqranın atası II Tiqrana qarşı qiyam qaldırması |
| | – ***Erməni şahlığı arasında sülh bağlandı.*** di, böyük məbləğdə – *6 min talant gümüş* həcmində təzminat ödədi. Əvəzində II Tiqran hakimiyyətdə saxlandı və *"Roma xalqının dostu və müttəfiqi"* elan edildi. Qədim Roma silah gücünə tabe etdiyi |
| e.ə. 66-65-ci illər | – Pompeyin başçılığı ilə Roma legionerlərinin Cənubi Qafqaza yürüşləri |
| e.ə. 66-cı il | – Böyük Ermənistanın Roma ilə sülh bağlayıb tabe olması, II Tiqranın bütün işğal etdiyi ərazilərdən imtina etməsi |
| e.ə. 66-cı il | – İberiya və Albaniyanın Romanın təsirinə düşməsi |
| e.ə. 65-ci il | – Kolxidanın Romaya tabe edilməsi |
| e.ə. 53-cü il | – Karr şəhəri yaxınlığında baş verən döyüşdə romalıların parfiyalılar tərəfindən məğlub edilməsi |
| e.ə. 36-cı il | – Mark Antoninin başçılığı ilə Roma legionerlərinin Şərqə böyük yürüşə başlaması |
| e.ə. I əsrin 30-cu illəri | –Atropaten hökmdarı Artabazanın Roma ilə yaxınlaşması, onunla hərbi ittifaq yaratması |
| e.ə. I əsrin 20-ci – y.e.-nın ilk illəri | – Ermənistanın idarəsinin Atropaten hökmdarı Artabazana və oğlu II Ariobarzana həvalə edilməsi |





| | |
|---|---|
| y.e.-nın 20-ci illəri | – Ermənistanda Artaşeslər sülaləsinin hakimiyyətinə son qoyulması |
| y.e.-nın 20-ci ili | – Atropatenin Parfiya əyalətinə çevrilməsi, Arşaki nümayəndəsi tərəfindən idarə edilməyə başlanması |
| 51-ci il | – Parfiya şahı I Valaqesin qardaşı Trdatı Ermənistana hökmdar təyin etməsi və Ermənistanda yeni sülalənin – Arşakilərin hakimiyyətə gəlməsi |
| I əsrin ortaları | – Albaniya və İberiyada yeni sülalənin – Arşakilərin hakimiyyətə gəlməsi |
| I-II əsrlər | – Xristianlığın meydana gəlməsi. Xristianlığın ilk təmsilçilərinin Qafqaza gəlmələri |
| I-III əsrlər | – Cənubi Qafqaz uğrunda Roma – Parfiya qarşıdurması |
| 63-cü il | – Kolxidanın Pontla birlikdə Roma əyalətinə çevrilməsi |
| 72-74-cü illər | – Alanların Atropatena, Albaniya və digər Cənubi Qafqaz torpaqlarına basqınları |
| 115-ci il | – Roma imperatoru Trayanın Şərqə böyük yürüş etməsi |
| III-IV əsrlər | – Cənubi Qafqazda feodal münasibətlərinin yaranması |
| III əsr | – İran, Cənubi Qafqaz və başqa qonşu ölkələrdə Sasani ağalığının bərqərar olması |
| 298-ci il | – Nisibin sülhünün imzalanması, Ermənistanın qərb əyalətləri Romanın, Şərq əyalətləri isə Sasanilərin tabeliyinə keçməsi |
| III-IV əsrlər | – Hun, basil və başqa türk tayfalarının Dərbənd keçidi ilə Cənubi Qafqaza yürüşləri |

| | |
|---|---|
| IV əsr | – Cənubi Qafqaz dövlətlərində xristianlığın rəsmən qəbul edilməsi |
| 387-ci il | – Cənubi Qafqazın Sasani və Roma dövlətləri arasında bölüşdürülməsi |
| V əsrin 50-60-cı illəri | – Şimali Qafqazda Bulqar dövlətinin yaranması |
| V-VI əsrlər | – Şimali Qafqazda feodal münasibətlərinin yaranmağa başlaması |
| 450-451-ci illər | – Cənubi Qafqazın xristian əhalisinin Sasani zülmünə qarşı üsyanları |
| 457-ci il | – Albanların hökmdar II Vaçenin başçılığı ilə Sasani zülmünə qarşı üsyanı |
| 481-484-cü illər | – Cənubi Qafqaz xalqlarının Sasani zülmünə qarşı üsyanı |
| 493-510-cu illər | – Alban hökmdarı III Vaçaqanın hakimiyyəti |
| 571-571-ci illər | – Cənubi Qafqaz xalqlarının Sasani zülmünə qarşı üsyanları |
| V əsrin 80-ci illəri - 529-cu illər | – Məzdəkilər hərəkatı |
| 571-572-ci illər | – Albaniya, Gürcüstan və Ermənі vilayətində Sasani zülmünə qarşı üsyan |
| VI-VII əsrlər | – Xəzərlərin Alban torpaqlarına yürüşü və orada məskunlaşması |
| 604-628-ci illər | – Sasani-Bizans savaşları |
| VII əsrin 30-cu illəri | – Dağıstanın düzənlik hissələrində Xəzər xaqanlığının güclənməsi |
| 638-681-ci illər | – Alban hökmdarı Cavanşirin hakimiyyəti |
| 640-cı il | – Ərəb ordularının Erməni vilayətinə ilk basqını |
| 642-ci il | – Nəhavənd döyüşü |





| | |
|---|---|
| 642-ci il | – Ərəb sərkərdəsi ilə Azərbaycan mərzbanı arasında Ərdəbildə sülh bağlanması |
| 644-cü il | – Ərəb sərkərdəsi ilə Şirvanın və Dərbəndin hakimi arasında sülh bağlanması |
| 651-ci il | – Sasani imperiyasının çökməsi |
| 652-ci il | – Erməni vilayətinin Xilafətin ali hakimiyyətini qəbul etməsi |
| 653-cü il | – Bələncər döyüşü |
| 654-cü il | – Kartli və Albaniya hökmdarlarının birlikdə Bizans imperatoru II Konstantla ittifaq yaratmaları |
| 654-cü il | – Kartli hökmdarının Xilafətlə müqavilə bağlayıb tabe olması |
| 661-ci il | – Cavanşirin Albaniyaya soxulan Xəzər qoşunlarını məğlub etməsi |
| 667-ci və 670-ci illər | – Cavanşirin Xilafətin mərkəzinə – Dəməşqə gedərək xəlifə Müaviyə ilə münasibətləri nizama salması |
| 685-ci il | – Ərəb Xilafəti ilə Bizans arasında xəzərlərə qarşı saziş bağlanması |
| 703-cü il | – Erməni vilayətinin daxili müstəqilliyinə son qoyulması |
| 704-705-ci il | – Albaniyanın daxili müstəqilliyinə son qoyulması |
| 736-738-ci illər | – Gürcüstanda ərəb ağalığının qəti şəkildə bərqərar olması |
| 737-ci il | – Ərəb sərkərdəsinin Şimali Qafqazı fəth etməsi |
| 748-ci il | – Beyləqanda üsyan |
| VIII əsrin 70-ci illəri | – Erməni vilayətində Pavlikianlar hərəkatı |
| 778-ci il | – Xürrəmilərin ilk üsyanı |
| 808-ci il | – Xürrəmilərin başçısı, Bəzz qalasının sahibi Cavidanın başçılığı ilə üsyan |

| | |
|---|---|
| 816-cı il | – Babəkin xürrəmilərə başçılıq etməsindən sonra bu hərəkatın böyük xalq azadlıq müharibəsinə çevrilməsi |
| IX əsrin 20-ci illəri | – Tao-Klarceti knyazlığının yaranması |
| 838-ci il, 4 mart | – Babəkin edam edilməsi |
| 861-ci il | – Şirvanın müstəqillik qazanması |
| 866-cı il | – Müstəqil erməni dövlətinin yaranması |
| 869-cu il | – Dərbənd əmirliyinin yaranması |
| 879-941 ci illər | – Saçilər dövləti |
| 909-cu il | – Rusların Xəzərin cənub sahili boyuna basqını |
| 914-cü il | – Rusların Azərbaycanın Xəzər sahili yaşayış məntəqələrini qarət etməsi |
| 941-981-ci illər | – Salarilər dövləti |
| 941-957-ci illər | – Salari Mərzban ibn Məhəmmədin hakimiyyəti |
| 944-cü il, 12-24 avqust | – Rusların Bərdəni qarət etməsi |
| 971-1081-ci illər | – Şəddadilər dövləti |
| 975-ci il | – Uplis-Tsixdə Kartli, Kaxeti və Tao-Klarceti aznaurlarının yığıncağında Gürcüstanın birləşdirilməsinə qərar verilməsi |
| 981-1054-cü illər | – Rəvvadilər dövləti |
| 988-ci il | – Dərbənd əmirliyinin Şirvanşahlar dövlətinə birləşdirilməsi |
| 985-1030-cu illər | – Şəddadi hakimi Fəzl ibn Məhəmmədin hakimiyyəti |
| 1027-ci il | – Xudafərin körpüsünün tikilməsi |
| 1030-cu il | – Ruslar Xəzər sahillərinə basqını |
| 1032-1033-cü illər | – Alan, sərir və rusların Şirvana dağıdıcı basqınları |
| 1038-1063-cü illər | – Səlcuq imperatoru sultan Toğrulun hakimiyyəti |





| | |
|---|---|
| 1038-1157-ci illər | – Səlcuq imperiyası |
| 1040-cı il | – Dəndənəkan vuruşması |
| 1045-ci il | – Qafqaz hüdudlarında müstəqil erməni dövlətinin varlığına son qoyulması |
| 1048-ci il, 18 sentyabr | – Ordro döyüşü. Səlcuqların Bizans, erməni və gürcü qoşunlarını məğlub etməsi |
| 1063-1072-ci illər | – Sultan Alp Arslanın hakimiyyəti |
| 1064-cü il | – Gürcüstanın Səlcuq imperatoruna tabe olması |
| 1064-cü il | – Səlcuqların Bizans qüvvələrini məğlub edib, erməni feodal mülklərini və Ani şəhərini ələ keçirmələri |
| 1066-cı illər | – Şirvanın Səlcuqlar tərəfindən tutulması |
| 1071-ci il, 26 avqust | – Məlazqird vuruşması |
| 1089-1125-ci illər | – Gürcü şahı IV Davidin hakimiyyəti |
| 1096-1099-cu illər | – Birinci səlib yürüşü |
| 1117-ci və 1120-ci illər | – IV Davidin Azərbaycan torpaqlarına qarətçi yürüşləri |
| 1121-ci il | – Didqori vuruşması |
| 1122-ci il | – Tiflis müsəlman əmirliyinin ləğvi |
| 1123-1124-cü illər | – Gürcü qoşunlarının Şirvana basqınları |
| 1125-1156-cı illər | – Gürcü şahı I Demetrenin hakimiyyəti |
| 1136-1225-ci illər | – Atabəylər (Eldənizlər) dövləti |
| 1136-1175-ci illər | – Şəmsəddin Eldənizin hakimiyyəti |
| 1139-cu il | – I Demetre Gəncəyə hücum etməsi və qala qapılarını qənimət kimi Gürcüstana aparması |
| 1156-1184-cü illər | – Gürcü hökmdarı III Georginin hakimiyyəti |
| 1161-ci il | – Gürcü hökmdarı III Georginin Dəbili qarət etməsi |

| | |
|---|---|
| 1163-cü il | – Atabəy Eldənizin Gürcüstana yürüşü |
| 1174-cü il | – Gürcü-Şirvan qüvvələrinin Qafqaza soxulmuş rus quldurlarını və Şabrana hücum etmiş qıpçaqları məğlub etməsi |
| 1184-1213-cü illər | – Gürcü hökmdarı Tamaranın hakimiyyəti |
| 1203-cü il | – Dəbil şəhərinin gürcü feodalları tərəfindən qarət olunması |
| 1204-1461-ci illər | – Trabzon hakimliyi |
| 1206-1227-ci illər | – Çingiz xanın hakimiyyəti |
| 1210-1211-ci illər | – Gürcü qoşunlarının Azərbaycana basqınları |
| 1210-1225-ci illər | – Atabəy Özbəyin hakimiyyəti |
| 1215-ci il | – Cənubi Qafqaza Xarəzmşahlar dövlətinin böyük hücumu |
| 1220-1222-ci illər | – Monqolların Cənubi Qafqaza birinci yürüşü |
| 1221-cı il | – Monqolların Gürcüstana hücumu |
| 1222-ci il | – Monqolların Şamaxını tutması |
| 1225-ci il | – Xarəzmşah Cəlaləddinin Cənubi Qafqaza soxulması |
| 1225-1231-ci illər | – Cənubi Qafqazda Xarəzmşah Cəlaləddinin ağalığı |
| 1225-ci il | – Eldənizlər dövlətinin çökməsi |
| 1225-1243-cü illər | – Şirvamşah III Fəriburzun hakimiyyəti |
| 1230-1294-cü illər | – Səfiəddin Ürməvi |
| 1231-ci il | – Gəncədə usta Bəndərin başçılığı ilə üsyan |
| 1231-1239-cu illər | – Monqolların Cənubi Qafqaza ikinci yürüşü |
| 1237-1239-cu illər | – Monqolların Şimali Qafqazı tutması |
| 1239-cu il | – Dərbəndin Moğollar tərəfindən tutulması |





| | |
|---|---|
| 1252-1334-cü illər | – Şeyx Səfiəddin |
| 1256-1258-ci illər | – Hülaku xanın Ön Asiyaya yürüşü |
| 1258-1265-ci illər | – Hülaku xanın hakimiyyəti |
| 1259-cu il | – Marağa rəsədxanasının tikilməsi |
| XIII əsrin 60-cı XIV əsrin 30-cı illəri | – Qafqaz uğrunda Elxani Qızıl Ordu müharibələri |
| 1295-1304-cü illər | – Qazan xanın hakimiyyəti |
| 1303-cü il | – Təbriz rəsədxanasının tikilməsi |
| 1311-ci il | – Təbrizdə Əlişah camisinin ucaldılması |
| 1317-1335-ci illər | – Elxani Əbu Səidin hakimiyyəti |
| 1338-1357-ci illər | – Cənubi Qafqazda Çobanilərin ağalığı |
| 1358-1410-cu illər | – Cənubi Qafqazda Cəlayirilərin ağalığı |
| 1358-1372-ci illər | – Cəlayirilərin hakimiyyəti |
| XIV yüzilin 80-90-cı illəri | – Hürufilik təliminin güclənməsi |
| 1370-1405-cı illər | – Əmir Teymurun hakimiyyəti |
| 1382-1417-ci illər | – I İbrahimin hakimiyyəti |
| 1385-ci il | – Toxtamış xan Şimali Qafqazı yenidən Qızıl Orduya tabe etməsi |
| 1386-cı il | – Əmir Teymurun Qafqaza yürüşü |
| 1387-1399-cu illər | – Əlincə qalasının müdafiəsi |
| 1389-1420-ci illər | – Baharlı Qara Yusifin hakimiyyəti |
| 1395-ci il | – Terek çayı üzərində döyüş |
| 1402-ci il | – Ankara yaxınlığında döyüş |
| 1405-ci il | – Teymuri qüvvələrinin Kür sahilində məğlub edilməsi |
| 1406-cı il, may-iyun | – Şirvanşah I İbrahimin Təbrizə gəlməsi |
| 1408-ci il, 21 aprel | – Sərdrud döyüşündə Teymuri qüvvələrinin məğlub edilməsi |

| | |
|---|---|
| 1410-cu il, 30 avqust | – Şənbi Qazan yaxınlığında döyüş |
| 1410-1468-ci illər | – Baharlı dövləti |
| 1412-ci il, dekabr | – Kür sahilində I İbrahim və Qara Yusif arasında savaş |
| 1417-1462-ci illər | – Şirvanşah I Xəlilullahın hakimiyyəti |
| 1438-1467-ci illər | – Baharlı Cahanşahın hakimiyyəti |
| 1441-ci il | – Erməni katolikosluğunun mərkəzinun Kilikiyanın mərkəzi şəhəri Sisdən İrəvan bölgəsinə – Eçmiədzinə (Üçkilsəyə) köçürülməsi |
| XV yüzilliyin ikinci yarısı | – Şirvanşahlar sarayı kompleksinin tikilməsi |
| 1453-1478-ci illər | – Uzun Həsənin hakimiyyəti |
| 1457-ci il | – Adıq feodallarının Genuyanın bölgədəki başlıca ticarət faktoriyasını – Matreqanı dağıtması |
| 1462-1501-ci illər | – Şirvanşah Fərrux Yasarın hakmiyyəti |
| 1465-ci il | – Təbrizdə "Göy məscid"in tikilməsi |
| 1467-ci il, noyabr | – Muş düzündə savaş |
| 1468-ci il | – Uzun Həsənin Təbrizə daxil olması, Bayandur sülaləsinin hakimiyyətə gəlməsi |
| 1472-ci ilin yazı | – Venesiyanın Bayandur dövləti ilə hərbi ittifaq bağlaması |
| 1473-ci il, 1 avqust | – Malatya savaşı |
| 1473-cü il, 11 avqust | – Otluqbeli savaşı |
| 1478-1490-cı il | – Yaqubun Mirzənin hakimiyyəti |
| 1483-cü il | – Təbrizdə "Həşt behişt" saray kompleksinin tikilməsi |
| 1488-ci il, 9 iyul | – Şahdağın ətəyində şirvanşahılarla qızılbaşlar arasında savaş |
| XV yüzilin sonu | – Avropadan Hindistana gedən okean yolunun açılması |





| | |
|---|---|
| 1500-ci ilin sonu | – İsmayılın Cabani yaxınlığında Fərrux Yasarı məğlub etməsi |
| 1501-ci ilin yazı | – Bakının Səfəvi ordusu tərəfindən tutulması |
| 1501-ci ilin yayı | – Şərur düzündə İsmayılın Əlvənd Mirzəni məğlub etməsi |
| 1501-1524-cü illər | – Şah İsmayılın hakimiyyəti |
| 1503-cü il, 21 iyun | – Həmədan yaxınlığında Şah I İsmayılın Murad Mirzəni məğlub etməsi |
| 1504-cü il | – Osmanlı sultanı II Bəyazidin Səfəvi dövlətini tanıması |
| 1510-cu il | – Şah I İsmayılın Bağdadı tutması |
| 1510-cu il, 1 dekabr | – Mərv yaxınlığında şah I İsmayılın özbək hökmdarı Şeybani xanı məğlub etməsi |
| 1512-1520-ci illər | – Sultan I Səlimin hakimiyyəti |
| 1514-cü il, 23 avqust | – Çaldıran savaşı |
| 1516-cı il | – Səfəvilərin Gürcüstana ilk yürüşü |
| 1520-1566-cı illər | – Sultan I Süleyman Qanuninin hakimiyyəti |
| 1521-cı il | – Gürcü çarlarının Səfəvilərdən asılılığı qəbul etmələri |
| 1524-1576-cı illər | – I Təhmasibin hakimiyyəti |
| 1534-cü il | – Sultan I Süleyman Qanuninin Təbrizi tutması |
| 1535-cı ilin yazı | – Sultan I Süleymanın Təbrizə ikinci yürüşü |
| 1538-cı ilin yayı | – Səfəvi dövlətininŞirvanı qəti tabe etməsi |
| 1541-ci il | – I Təhmasibin Tiflisi tutması |
| 1547-1549-cu illər | – Şirvanda Səfəvilərə qarşı üsyanlar |
| 1548-ci il | – Sultan I Süleymanın Azərbaycana üçüncü yürüşü. Təbrizin tutulması |

| | |
|---|---|
| 1551-ci il | – Şəkinin Səfəvi dövlətinə tam tabe etdilməsi |
| 1551-1554-cü illər | – Səfəvilərin Osmanlı ərazisinə yürüşü |
| 1554-cü il | – Sultan I Süleymanın Azərbaycana dördüncü yürüşü |
| 1555-ci il, 29 may | – Amasiyada Osmanlı və Səfəvi dövlətləri arasında sülh müqaviləsi imzalanması |
| 1561-1563-cü illər | – Entoni Cenkinsonun Azərbaycanda olması |
| 1568-1569-cu illər | – Volqa-Xəzər yolu ilə İngiltərə ticarət nümayəndəliyinin Azərbaycana gəlməsi |
| 1574-1596-cı illər | – Sultan III Muradın hakimiyyəti |
| 1578-1587-ci illər | – Şah Məhəmməd Xudabəndinin hakimiyyəti |
| 1578-ci il | – Çıldır savaşı |
| 1578-1583-cü illər | – Krım tatarlarının Şirvan və Qarabağa hücumları |
| 1587-1629-cu illər | – Şah Abbasın hakimiyyəti |
| 1590-cı il | – İstanbul sülhü |
| 1603-cü il, 21 oktyabr | – Şah I Abbasın Təbrizə daxil olması |
| 1604-cü il, 8 iyun | – Şah I Abbasın İrəvan qalasını tutması |
| 1606-cı il, 5 iyul | – Gəncənin geri alınması |
| 1612-ci il | – Səfəvi və Osmanlı dövlətləri arasında sülh bağlanması |
| 1613-cü il | – Şah I Abbasın Gürcüstana və Şimali Qafqaza yürüşü |
| 1618-ci il, 10 sentyabr | – Sınıq körpü döyüşündə Səfəvi qoşunlarının Osmanlı-Krım qüvvələrini məğlubiyyətə uğratması |
| 1618-ci il | – Mərənddə Səfəvi və Osmanlı dövlətləri arasında sülh bağlanması |





| | |
|---|---|
| 1621-ci il | – İngiltərə-Səfəvi müqaviləsi |
| 1623-1640-cı illər | – Sultan IV Muradın hakimiyyəti |
| 1625-ci il, 30 iyun | – Marabda döyüşü. Şah I Abbasın gürcü üsyançılar üzərində qələbəsi |
| 1628-ci il | – Samsxeti torpaqlarının Osmanlı dövlətinə birləşdirilməsi və orada Ahalsıx paşalığı yaradılması |
| 1629-1642-ci illər | – Şah I Səfinin hakimiyyəti |
| 1634-cü il | – Osmanlı qoşunları Cənubi Qafqaza böyük yürüşü |
| 1634-cü il | – Sultan IV Muradın İrəvanı tutması |
| 1639-cu il | – Qəsri-Şirində Səfəvi və Osmanlı dövlətləri arasında sülh bağlanması. Osmanlı-Səfəvi müharibələrinə son qoyulması |
| 1653-cü il | – Şirvan və Dağıstandakı Səfəvi qüvvələrinin Rusiyanın Terek çayı boyunda yaradılan hərbi məskənlərini dağıtması |
| 1658-ci il | – Səfəvi ağalığına qarşı Dağıstanda üsyan |
| 1659-cu il | – Səfəvi ağalığına qarşı Kaxetidə üsyan |
| 1703-1730-cu illər | – Sultan III Əhmədin hakimiyyəti |
| 1703-cu il | – Osmanlı dövlətinin Azov sahilində Yeni-qala inşa etməsi |
| 1711-ci il | – A.Bekoviç-Çerkasskinin başçılığı ilə Şimali Qafqaza rus qoşunu göndərməsi |
| 1720-1721-ci illər | – Şirvanda və Dağıstanda Səfəvi ağalığına qarşı Hacı Davudun başçılığı ilə üsyan |
| 1722-ci il | – Əfqan qiyamçılarının İsfahanı tutması |
| 1722-1732-ci illər | – II Təhmasibin hakimiyyəti |
| 1722-cı il, 18 iyul | – I Pyotrun Xəzəryanı bölgələrə yürüşünün başlaması |

| | |
|---|---|
| 1723-cü il, 26 iyul | – Bakının ruslar tərəfindən işğalı |
| 1723-cü il, 12 sentyabr | – Peterburqda Rusiya və Səfəvi dövlətləri arasında sülh bağlanması |
| 1724-cü il, 24 iyun | – İstanbulda Rusiya və Osmanlı dövlətləri arasında sülh bağlanması |
| 1724-cü il, 10 noyabr | – I Pyotrun ermənilləri Xəzəryani vilayətlərə yerləşdirmək haqqında təlimatı |
| 1725-ci il, 11 fevral | – Erməniləri Xəzəryani vilayətlərdə yerləşdirmək haqqında Rusiya Xarici işlər kollegiyasının fərmanı |
| 1723 1725-ci illər | – Osmanlı qoşunlarının Cənubi Qafqazın çox hissəsini ələ keçirməsi |
| 1728-1729-cu illər | – Nadir xanın əfqanları İrandan çıxarması |
| 1732-ci il, 16 yanvar | – Kirmanşah barışığı |
| 1732-ci il, 21 yanvar | – Rəşt müqaviləsi |
| 1733-cü il | – Bağdad müqaviləsi |
| 1735-ci il, 10 mart | – Gəncə müqaviləsi |
| 1736-cı il, yanvar-fevral | – Muğan qurultayı |
| 1736-1747-ci illər | – Nadir şahın hakimiyyəti |
| 1738-ci il | – Car üsyanı |
| 1743-1746-cı illər | – Şəkidə Hacı Çələbinin başçılığı ilə üsyan |
| 1744-cü il | – Gürcüstanda xristian hökmdarların idarəçiliyinin bərpa edilməsi. II Teymurazın Kartli şahı, oğlu II İraklinin Kaxeti şahı təyin olunması |
| XVIII yüzilin ortaları | – Qafqazda müstəqil və yarımmüstəqil dövlətlərin yaranması |
| 1751-cı il | – Carda Hacı Çələbi ilə Kartli çarı Teymuraz və Kaxeti çarı İrakli arasında savaş |





| | |
|---|---|
| 1752-ci il | – Gürcü çarları ilə Azərbaycan xanları arsında savaşlar |
| 1755-ci il | – Hacı Çələbi xanın ölümü |
| 1758-1789-cu illər | – Qubalı Fətəli xanım hakimiyyəti |
| 1759-1806-cı illər | – Qarabağ xanı İbrahim xanın hakimiyyəti |
| 1759-cu il, noyabr | – Dərbəndin Qubaya birləşdirilməsi |
| 1762-ci il | – Şəki xan sarayının tikilməsi |
| 1763-cü il | – Osetin və inquşların dağlıq bölgələrdən Mozdok və Meken məskənlərinə köçürülməsi və burada qala inşasına başlanması |
| 1764-1772 | – Rusiya Elmlər Akademiyasının həqiqi üzvü S.Q.Qmelinin gizli məlumat toplamaq üçün Xəzər sahili bölgələrə səfəri |
| 1768-1774-cü illər | – Rusiya- Osmanlı müharibəsi |
| 1774-cü il | – Xudat yaxınlığında Gavduşan döyüşü |
| 1777-1780-cı illər | – Mozdokdan Azova kimi qala və istehkamlar silsiləsindən ibarət Qafqaz xəttinin yaradılması |
| XVIII əsrin 80-90-cı illəri | – Şimali Qafqazda rus və kazakların köçürüb yerləşdirməsi |
| 1783-cü il, 24 iyul | – Georgiyevsk traktatının imzalanması |
| 1783-cü il | – Rusiyanın Krımı ilhaq etməsi |
| 1785-ci il, mart | – Çeçenistanda Şeyx Mənsurun başçılığı altında üsyan başlanması |
| 1786-cı il | – Qafqaz canişinliyinin yaradılması |
| 1785-1804 | – Cavad xanın xanlıq illəri |
| 1785-ci il | – Fətəli xanın Şəkini tutması |
| 1787-1891-cı illər | – Rusiya-Osmanlı müharibəsi |
| 1791-ci il, iyun | – Şeyx Mənsurun əsir alınması. Azadlıq mübarizəsinin məğlub olması |

| | |
|---|---|
| 1791-ci il, 29 dekabr | – Yassıda Osmanlı və Rusiya dövlətləri arasında sülh müqaviləsi bağlanması |
| 1791-1810-cu illər | – Şeyxəli xanın hakimiyyəti |
| 1795-ci il | – Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşü |
| 1795-ci il, iyun-avqust | – Şuşanın mühasirəsi |
| 1795-ci il, sentyabr | – Qacarın qoşununun Tiflisi tutması |
| 1796-1925-ci illər | – İranda Qacarlar sülaləsinin hakimiyyəti |
| 1796-cı il | – Rus qoşunlarının V.Zubovun başçılığı ilə Cənubi Qafqaza yürüşü |
| 1796-1801-ci il | – I Pavelin hakimiyyəti |
| 1797-ci il | – Ağa Məhəmməd şah Qacarın Qafqaza yürüşü |
| 1797-ci il | – Ağa Məhəmməd şahın Şuşada öldürülməsi |





## ƏDƏBİYYAT SİYAHISI

### *Azərbaycan dilində*

Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989
Azərbaycan tarixi. Üç cilddə. I c., Bakı, 1961
Azərbaycan tarixi. Yeddi cilddə. I-III c., Bakı, 1998-1999
Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. Bakı, 1993
Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, 1996
Azərbaycan etnoqrafiyası. I c., Bakı, 2007
Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951
Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Bakı, 2003
Baxşaliyev A.B. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI-XVII yüzilliklər). Bakı, 2003
Baxşaliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı, 2009
Baxşaliyev V.B. Azərbaycan arxeologiyası. Bakı, 2007
Bayramlı Z., Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində. Bakı, 2000
Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı, 1986
Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989
Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964
Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, 1969
Cəfərov Ə.Q. Quruçay dərəsində. Bakı, 1990
Cəfərov Ə.Q. Azərbaycanın ilk sakinləri. Bakı, 2004
Evliya Çələbi. Səyahətnamə. Bakı, 1997
Əliyev Q.Ə. Qafqaz xalqları monqol işğalları və ağalığı dövründə. – Türk və Qafqaz xalqları tarixinin bəzi məsələləri (Məqalələr toplusu). Bakı, 1997

Əliyev Q.Ə. Qafqaz ən qədim çağlarda. – «Azərbaycan arxeologiyası», 1999, №3-4
Əliyev Q.Ə. Qafqazın feodal dövlətləri IX əsrin ikinci yarısı – XI əsrin ortalarında. – «Tarix və onun problemləri», 2001, №3-4
Əliyev Q.Ə. Cənubi Qafqaz Səlcuq ağalığı dövründə. – «Tarix və onun problemləri», 2002, №2
Əliyev Q.Ə. Qafqazın ən qədim sakinləri. – Azərbaycanın mühüm tədris və tədqiqat mərkəzi. Məqalələr toplusu. Bakı, 2002
Əliyev Q.Ə. Qafqazın feodal dövlətlərinin qarşılıqlı münasibətləri (XII əsr – XIII əsrin ilk onillikləri). – «Tarix və onun problemləri», 2003, №2
Əliyev Q.Ə. Qafqaz XVII əsrin birinci yarısında. – «Tarix və onun problemləri», 2004, №1
Əliyev Q.Ə. Qafqaz XVII əsrin ortaları və ikinci yarısında. – «Tarix və onun problemləri», 2005, №3.
Əliyev Q.Ə. Qafqaz XVIII əsrin birinci yarısında. – «Tarix və onun problemləri», 2006, №4
Əliyev Q.Ə. Tarixi oçerk. (akad. T.Ə.Bünyadov, akad. İ.Ə.Əliyev ilə birlikdə) – Azərbaycan etnoqrafiyası. Üç cilddə. I c., Bakı, 2007
Əliyev Q.Ə. Qafqaz tarixi (Ən qədim çağlardan bizim günlərədək). Bakalavr hazırlığı üçün metodik göstərişlər. Bakı, 2008
Əliyev R.İ. Azərbaycan VII-XIV əsrlərdə. Bakı,1980
Əliyev V.H. Boyalı qablar mədəniyyəti. Bakı, 1977
Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
Fazili A.H. Atropatena (e.ə. IV- y.e.-nın VII əsri). Bakı. 1992
Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası. Bakı, 1995
Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-tavarix" əsəri üzrə). Bakı, 1983
Fəzlullah Rəşidəddin. Cami ət-tavarix. (Elmi-tənqidi mətn akad. Ə.Ə.Əlizadənindir). III c., Bakı, 1957
Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, 1986
Həmdullah Qəzvini. Zeyle tarix-e qozide. Bakı, 1986
Həsənəliyev Z.M. Səfəvi dövləti (XVII əsrin I yarısı). Bakı, 2000





Həsənəliyev Z.M. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı, 2007
Hüseynov M.M. Azərbaycan arxeologiyası (daş dövrü). Bakı, 1975
İrəvan əyalətinin müfəssəl dəftəri. Bakı,1997
Qaşqay S. Manna dövləti. Bakı, 1993
Qarayev E.T. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2005
Qeybullayev Q.Ə. Qədim türklər və Azərbaycan. Bakı, 1992
Qədirzadə H.Q. Cəhriçay vadisi: m.ö. IV minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). Naxçıvan, 2007
Qurbanov R.O. Dağıstan tarixi. Bakı, 2007
Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələrilə əlaqələri. Ağqoyunlu dövrü (XV əsrin II yarısı). Bakı, 1986
Mahmudov Y.M. Azərbaycan tarixi. İntibah dövrü (IX əsrin ikinci yarısı – XIII əsrin əvvəlləri). Bakı, 1996
Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələrilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, 1996
Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985
Mehmet Solakzadə. Tarix (Azərbaycanın tarixinə dair iqtibaslar). Bakı, 1992
Məmmədov K. Antropologiyanın əsasları. Bakı, 2006
Məmmmədova Ş.R. Mənbəşünaslığa giriş. Bakı, 2008
Məmmədli A.A. Ermənilərin gerçək tarixi. Bakı, 2005
Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi. Bakı,1993
Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, 1965
Muxtarova Ə.İ. Türk xalqlarının tarixi. Bakı, 2003
Nəcəfli G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması səhdləri. Bakı, 2007
Nəfisi S. Babək. Bakı, 1987
Nizaməddin Şami. Zəfərnamə (Azərbaycanın və qonşu ölkə-

lərin tarixinə dair iqtibaslar). Bakı,1992
Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (Sosial-iqtisadi tarixi). Bakı, 1982
Paşazadə A.Ş. Qafqazda islam. Bakı, 1991
Şarden J. Səyahətnamə (fransız dilindən tərsümə edən V.Aslanov). Bakı, 1994
Şklovski V.B. Səyyah Marko Polo. Bakı, 1973
Vamberi G. Əmir Teymur. Bakı, 1991
Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı, 1974
Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993
Yesai Həsən-Cəlalyan. Alban ölkəsinin qısa tarixi (1702-1722-ci illər). B., 1992
Zeynəddin bin Həmdullah Qəzvini. Zeyle tarix-e qozide («Seçilmiş tarix»ə əlavə). Bakı, 1990

### *Rus dilində*

Адыги, балкарцы и карачаевцы в известиях европейских авторов. XIII-XIX вв. Нальчик, 1974
Акты, собранные Кавказской археографической комиссией, т. I-XII, Тифлис, 1867-1904
Античные источники по истории Азербайджана (Подготовил к печати К.Г.Алиев). Баку, 1987
Армяно-русские отношения в XVII-XVIII вв. Сб. документов. Ереван, 1953-1967
Вахушти Багратиони. Описание царства Грузинского. Тбилиси, 1941
Восточные источники по истории Дагестана. Махачкала, 1980
Даврижеци Аракел. Книга историй. М., 1973
Документы по взаимоотношениям Грузии с Северным Кавказом в XVIII в. Подготовил к печати Гамрекели В.Н. Тбилиси, 1968
Документы по истории Грузии. Тбилиси, 1954-1955





Жизнеописание царя царей Давида. Сведения об Азербайджане и тюрках-сельджуках (перевод с древнегрузинского, введения, комментарии и примечания Ю.М.Насибова) - Средневековый Восток: история и культура. Баку, 1990
Источниковедение средневекового Дагестана. Махачкала, 1986
История Осетии в документах и материалах, т. 1, Цхинвали, 1962
Канакерци Захария. Хроника. М., 1969
Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе. ВДИ, 1947, №1-4; 1949, №1-4; 1952, №2
Летопись Картли. Тбилиси, 1982
Материалы по истории СССР, вып. I, М., 1985
Межкавказские политические и торговые связи Восточной Грузии (конец 60 – начало 90-х гг. XVIII в.). Тбилиси, 1980
Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья. Тбилиси, 1954
Муравьев А.В. Источники по истории Закавказья и Средней Азии. – В кн.: Источниковедение истории СССР. М., 1981
Осетины глазами русских и иностранных путешественников (XIII - XIV вв.) Орджоникидзе, 1967
Памятники древнегрузинской агиографической литературы. Тбилиси, 1964.
Печеви И. История. Баку, 1988
Полиевктов М.А. Европейские путешественники XIII – XVIII вв. по Кавказу. Тифлис, 1935
Путешественники об Азербайджане. Под ред. Э.М. Шахмалиева, т.1, Баку, 1961
Сборник сведений о Кавказе, т. I-IV; Тифлис, 1871-1874
Хрестоматия по истории Кубани. Документы и материалы, ч.1, Краснодар, 1975

* * *

История армянского народа. Ереван, 1980
История Грузии, т. 1, Тбилиси, 1962
История Дагестана, т.1, М., 1967
История Кабарды с древнейших времен до наших дней. М., 1957
История Кабардино-Балкарской АССР, т. 1, М., 1967
История народов Северного Кавказа. С древнейших времен до конца XVIII в. М., 1988
История СССР. С древнейших времен до наших дней, т. I-III, М., 1966-1968
История Северо-Осетинской АССР, т. 1., М., 1959
Очерки истории Адыгеи, т. 1, Майкоп, 1957
Очерки истории балкарского народа. Нальчик, 1961
Очерки истории Карачаево-Черкесии, т.1. Ставрополь, 1971
Очерки истории Ставропольского края, т.1, Ставрополь, 1971
Очерки истории Чечено-Ингушетии, т. 1, Грозный, 1965

* * *

Абаев В.И. К вопросу прародины и древнейших миграций индоиранских народов. – Древний Восток и античный мир. М., 1972
Абаев В.И. Скифо-европейские изоглоссы. На стыке Востоке и Запада. М., 1965
Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, 1965
Абдушелишвили М.Г. Антропология древнего и современного населения Грузии. Тбилиси, 1964
Абегян М. История древнеармянской литературы. Ереван, 1975
Авдусин Д.А. Основы археологии. М., 1989
Аверченкова Г.А. «Круглый стол» по проблемам древнейшего Закавказья. – «Вопросы истории», 1988, №8





Агаджанов С.Г. Государство Сельджукидов и Средняя Азия в XI-XII вв. М., 1991
Адонц Н. Армения в эпоху Юстиниана. Ереван, 1971
Айтберов Т.М. Древний Хунзах и хунзахцы. Махачкала, 1990
Алиев И.Г. История Мидии. Баку, 1960
Алиев И.Г. Очерк истории Атропатены. Баку, 1989
Алиев Ф.М. Миссиия посланника русского государства А.П.Волынского в Азербайджане (1716-1718 гг.). Баку, 1979
Алексеев Е.А. Древняя и средневековая история Карачаево-Черкесии. М., 1971
Алексеев В.П. Происхождение народов Кавказа. М., 1974
Алиев Б.Г. Из истории средневекового Дагестана. Махачкала, 1970
Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956
Анчабадзе З.В. Из истории средневековой Абхазии (VI-XVIII вв.). Сухуми, 1959
Анчабадзе З.В. Кыпчаки Северного Кавказа, по данным грузинских летописей XI-XIV вв. – О происхождении балкарцев и карачаевцев. Нальчик, 1960
Анчабадзе З.В. Очерк этнической истории абхазского народа. Сухуми, 1976
Арутунян Н.В. Биайнили. Ереван, 1970
Артамонов М.И. История хазар. Л., 1962
Артамонов М.И. Киммерийцы и скифы Л.,1974
Аутлев М.Г. Адыги. Историко-этнографический очерк. Майкоп, 1957
Атаев Д.М. Нагорный Дагестан в раннем средневековье. Махачкала, 1963
Ахмедов Ш.Б. Народно-освободительное движение горцев Северного Кавказа под предводительством Мансура в 1785-1791 гг. Ростов на Дону, 1992

Ахундова Н.Ч. Тюрки в системе государственного управления Арабского Халифата (VIII – сер. X веков). Баку, 2004
Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку, 1983
Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку, 1990
Бабаев И. Кавказская Албания. Баку, 1990
Багратиони В. История царства Грузинского. Тбилиси, 1976
Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку,1925
Берже А.П. Чечня и чеченцы. Грозный, 1991
Блиев М.М. Присоединение Северной Осетии к России. Орджоникидзе, 1959
Блиев М.М. Россия и горцы Большого Кавказа. На пути к цивилизации. М., 2004
Болтунова А.И. Античные города Грузии и Армениии. – Античный город. М., 1963
Болтунова А.И. Описание Иберии в «Географии» Страбона. – «Вестник древней истории», 1946, №2
Бонгард-Левин Г.М., Грантовский Э.А. От Скифии до Индии. М., 1983
Бонгард-Левин Г.М., Кошеленко Г.А. От Индии до Скифии. – «Вестник древней истории», 2004, №2
Буниятов З.М. Обзор источников по истории Азербайджана. Источники арабские. Баку, 1964
Бунятов Т.А. К истории молотьбы в Закавказье. – Кавказ и Восточная Европа в древности. М., 1973
Вердиева Ч., Гусейнзаде Р. «Родослвная» армян и их миграции на Кавказ с Балкан. Баку, 2003
Взаимоотношения народов Чечено-Ингушетии с Россией и народами Кавказа в XVI – начале XX вв. Сб. статей, Грозный, 1981
Виноградов В.Б. Центральный и Северо-восточный Кавказ





в скифское время. Грозный, 1972
Виноградов В.Б. Аланы в Европе. – «Вопросы истории», 1974, №8
Виноградов В.Б., Шапова С.Д. Кабардинцы и вайнахи на берегах Сунжи (XVI– середина XVIII в.). Армавир-Майкоп, 2003
Волкова Н.Г. Этнонимы и племенные названия Северного Кавказа. М., 1973
Волкова Н.Г. Этнический состав населения Северного Кавказа в XVIII – начале XX в. М., 1974
Габуев Т.А. Ранняя история алан. Владикавказ, 1999
Гаджиев А.Г. Древние население Дагестана. М., 1975
Гаджиева С.Ш. Кумыки. Историко-этнографическое исследование. М., 1961
Галоян Г.А. Россия и народы Закавказья. М., 1976
Галоян Г.А. Исторические корни русской ориентации армянского народа и прогрессивное значение присоединения Восточной Армении к России. – «Вопросы истории», 1978, № 9
Гамкрелидзе Т.В., Иванов В.В. Индоевропейский язык и индоевропеццы, т. 1,2. Тбилиси,1984
Гордеев А.А. История казаков. М.,1992
Горгиджанидзе П. История Грузии. Тбилиси, 1990
Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. М., 1970
Граков Б.Н. Скифы. М.,1971
Гусейнов Р.А. Сельджуки и Закавказье. Автореферат док. дисс., Баку, 1969
Дандамаев М.А. Проблемы истории древновосточных обществ в трудах советских востоковедов (1967-1977 гг.). – «Вестник древней истории»,1977, №4
Джапаридзе О.М. К этнической истории грузинских племен и проблема древнейшего населения Закавказья и Ма-

лой Азии. Тбилиси, 1976
Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку, 1985
Дружинина Е.И. Кучук-Кайнарджийский мир. М., 1955
Дьяконов И.М. Ассуро-вавилонские источники по истории Урарту. – «Вестник Древней Истории». 1951, №2
Дьяконов И.М. Языки древней Передней Азии. М., 1967
Дьяконов И.М. Предыстория армянского народа: (История Армянского нагорья с 1500 по 500 гг. до н. э.: Хурриты, лувийцы, протоармяне). - Ереван, 1968.
Дьяконов И.М., Старостин С.А. Хуррито-урартские и восточно-кавказские языки. – Древний Восток. Этнокультурные связи. М., Наука, 1988, стр. 164-207
Заходер Б.Н. История восточного средневековья (Халифат и Ближний Восток). М., 1944
Езов Г.А. Сношения Петра Великого с армянским народом. СПб, 1898
Еремян С.Т. Опыт периодизации истории Армении периода феодализма. – «Вопросы истории», 1951, №7
Еремян С.Т. О рабстве и рабовладении в древней Армении. – «Вестник древней истории», 1950, №1
Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, 2008
Кавказ и Средняя Азия в древности и средновековье (история и культура). М., 1981
Кавказ и Средиземноморье. Тбилиси, 1981
Кавказ и Византия. Вып. 3, Ереван, 1982
Капанцян Г.А. Хайаса - колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947
Карпов С.П. Итальянские морские республики и Южное Причерноморье в XIII-XV вв. Проблемы торговли. М., 1990
Керимов К. Султан Мухаммед и его школа. М.,1970
Кикнадзе Р.К. И.А.Джавахишвили и источниковедение истории Грузии. Тбилиси, 1976





Клычников Ю.Ю. Российская политика на Северном Кавказе (1827-1840 гг.). Пятигорск, 2002
Крупнов Е.И. Древняя история Северного Кавказа. М., 1960
Крупнов Е.И. Средневековая Ингушетия. М., 1971
Кудашев В.И. Исторические сведения о кабардинском народе. Нальчик, 1991
Кудрявцев А.А. Дербентский проход. – «Вопросы истории», 1976, №8
Кузнецов В.А. Алания в X-XIII вв. М., 1971
Кутелиа Т.С. Взаимоотношения Грузии с Сефевидским государством по нумизматическим данным (1501-1736). Тбилиси. 1977
Куценко И.Я. Кубанское казачество. Краснодар, 1993
Куция К.К. Города Восточного Закавказья в XVI-XVII вв. Тбилиси, 1976
Кушева Е.Н. Народы Северного Кавказа и их связи с Россией в XVI-XVII вв. М., 1963
Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. М.,1970
Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе. – «Вестник Древней Истории». 1947, №1-4, 1949, №1-4
Лордкипанидзе М.Д. История Грузии XI – начале XIII вв. Тбилиси, 1988
Лысцев Б.П. Персидский поход Петра I. М., 1951
Магомедов Р.М. Общественно-экономический и политический строй Дагестана в XVIII – нач. XIX вв., Махачкала, 1957
Магомедов Р.М. История Дагестана. С древнейших времен до начала XIX в. Махачкала, 1961
Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVII вв. Баку, 1993
Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. Баку, 1993

Мамедова Г.Н. О походе В.Зубова в Азербайджан в 1796 г. Баку, 2003
Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII в. н.э.). Баку, 1986
Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991
Махмудов Ф.Р. Культура Юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, 2008
Маркова О.П. Россия. Закавказье и международные отношения в XVIII в. М., 1966
Меликишвили Г.А. К вопросу о характере древнейшего населения Грузии, Кавказа и Ближнего Востока. Тбилиси, 1965
Меликишвили Г.А. К вопросу о характере древневосточного классового общества . – «Вопросы истории», 1966, №11
Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси, 1959
Меликишвили Г.А. Урартские клинообразные надписи. М., 1960
Меликишвили Г.А. Политические объединения феодальной Грузии и некоторые вопросы развития феодальных отношений в Грузии. Тбилиси, 1973
Меликишвили Г.А. К вопросу о характере древних закавказских и средневековых горских северекавказских обществ. – «История СССР», 1975, №6
Меликсет-беков Л.М. Обзор источников по истории Азербайджана. Вып. II. Источники грузинские. Баку,1939
Месхиа Ш.А. Дидгорская битва. Тбилиси, 1981
Месхиа Ш.А. и Цинцадзе Я.З. Из истории русско-грузинских взаимоотношений (X-XVIII вв.). Тбилиси,1958
Мизиев И.М. Шаги к истокам этнической истории Центрального Кавказа. Нальчик,1986
Минорский В.Ф. История Ширвана и Дербента. М., 1963
Михнева Р. Россия и Османская империя в международных отношениях в середине XVIII в. М.,1985





Мунчаев Р.М. Кавказ на заре бронзового века. М., 1977
Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII – начало XIX в.). Баку, 1989
Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993
Мушегян Х.А. Денежное обращение Армении (В III в. до н.э. – XIV в. н.э.). Ереван, 1983
Насибов Ю.М. Азербайджан в В – первой половине XII вв. (по древнегрузинским источникам). Автореферат канд. дисс., Баку, 1985
Невская В.П. Присоединение Черкесии к России и его социально-экономические последствия. Черкесск, 1956
Некрасов А.Н. Международные отношения и народы Западного Кавказа, последняя четверть XV – первая половина XVI в. М., 1990
Новосельцев А.П. Города Азербайджана и Восточной Армении в XVII-XVIII вв. – «История СССР», 1959, №1
Новосельцев А.П. Генезис феодализма в странах Закавказья. М., 1980
Ногмов Ш.Б. История адыгского народа. Нальчик, 1968
Ольдерогге Д.А. Из истории армяно-эфиопских связей (алфавит Матоца). – Древний Восток, сборник 1, М., 1975
Орешкова С.Ф. «Турецкое озеро»: Черное море в XV-XVII вв. – «Восток», 2005, №3
Пайчадзе Г.Г Русско-грузинские отношения в 1725-1735 гг. Тбилиси, 1965
Пайчадзе Г.Г. Георгиевский трактат. Тбилиси, 1983
Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX в. Л., 1949
Пигулевская Н.В. Византия и Иран на рубеже VI – VII вв. М.-Л., 1946
Пиотровский Б.Б. Археология Закавказья. Л., 1956

Пиотровский Б.Б. Ванское царство (Урарту). М., 1959
Плетнева С.А. Половцы. М., 1990
Погребова М.И. Иран и Закавказье в раннем железном веке. М., 1977
Пропенко Ю.А. История северокавказских торговых путей IV в. до н.э. – IX в. н.э. Ставрополь,1999
Развитие феодальных отношений и народов Северного Кавказа. Махачкала, 1988
Ростовцев М.И. Скифия и Боспор. Л., 1925
Рахмани А.А. Азербайджан в конце XVI-XVII веке. Баку, 1981
Сейфаддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. Баку, 1981
Семенов И.Г. Этнополитическая ситуация в Хазарии в 830-850-х гг. – «Восток», 2008, №3
Смирнов К.Ф. Савроматы. Ранняя история и культура сарматов. М., 1964
Смирнов Н.А. Мюридизм на Кавказе. М., 1963
Смирнов Н.А. Шейх Мансур и его турецкие вдохновители. - «Вопросы истории», 1950, № 10
Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX вв. М., 1958
Сопов А.В. Проблема этнического происхождения иее современное прочтение. – «Вестник Московского университета», 2008, №4
Сотавов Н.А. Кавказ в политике России, Ирана и Турции в XVIII веке. М.,1984
Сотавов Н.А. Кавказская проблема в русско-иранских, русско-турецких и ирано-турецких отношениях XVIII в. (зарубежная историография). «Научная мысль Кавказа», 1998, №2
Сотавов Н.А. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях в XVIII в. М., 1991
Сукиасян А.Г. Общественно-политический строй и право





Армении в эпоху раннего феодализма. Ереван, 1963
Старостин С.А. Индоевропейско-севернокавказские изоглоссы. – Древний Восток. Этнокультурные связи. М., Наука, 1988, стр. 112-163
Струве В.В. Этюды по истории Северного Причерноморья, Кавказа и Средней Азии. Л., 1968
Табатадзе К.Г. «Тазкире» шаха Тахмасипа I как источник для истории народов Закавказья. Тбилиси, 1979
Тверитинова А.С. О турецких документальных материалах в рукописных коллекциях Ленинграда. М., 1966
Тер-Гевондян А.Н. Армения и арабский халифат. Ереван, 1977
Тереножкин А.И. Киммерийцы. Киев,1976
Техов Б.П. Скифы и Центральный Кавказ в VII-VI вв.до н.э. М.,1980
Тивадзе Т.Г. Иранский вопрос во внешней политике Московского государства в конце XV и в начале XVII вв. Тбилиси,1966
Тревер К.В. Очерки по истории Кавказской Албании. М., 1960
Федоров Я.А. Ранние тюрки на Северном Кавказе. М., 1978
Федоров Я.А. Историческая этнография народов Северного Кавказа. М., 1983
Хотко С.Х История Черкесии в средние века иновое время. СПб., 2001
Чеучева А.К. Северо-западный Кавказ в политике Великобритании и Османской империи в последней четверти XVIII – 60-х гг. XIX в. Майкоп, 2007
Шенгелия Н.Н. Сельджуки и Грузия в XI в., Тбилиси, 1968
Шихсаидов А.Р., Гаджиев М.Г., Давудов О.М. История Дагестана с древнейших времен до конца XV в. Махачкала, 1996
Эвлия Челеби. Книга путешествия (Извлечения из сочинения турецкого путешественника XVII в.). Перевод и комментарий. Вып. 2. Земли Северного Кавказа, Поволжя и

Подонья. М., 1979; Вып.3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. М., 1983
Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI вв., М., 1988
Юнусова Л.И. Торговая экспедиция Англии в бассейне Каспия в первой половине XVIII в. Баку, 1988
Языки Дагестана. Под ред. Г.Г.Гамзатова. Махачкала, 2000
Яковлев Н.Ф. Древние связи языков Кавказа, Азии и Америки. – Труды института этнографии АН СССР, т.2, М., 1947, с.196-204
Якубова И.И. Кабарда в русско-турецких отношениях середины XVIII века. – « Вопросы истории», 1987, №9

## XƏRİTƏLƏRİN SİYAHISI

Xəritə 1. Qafqaz e.ə. III-II minilliklərdə ........................ 70
Xəritə 2. Qafqaz e.ə. I minilliyin ilk əsrlərində ................ 73
Xəritə 3. Qafqazın cənubuna kimmer, iskit və sak tayfalarının yürüşləri ........................................ 82
Xəritə 4. Qafqaz e.ə. I minilliyin ortalarında ................. 102
Xəritə 5. Qafqaz e.ə. IV əsrin sonu – III əsrlərdə. .......... 122
Xəritə 6. Şimali Qafqaza IV-VI əsrlərdə türk tayfalarının yürüşləri ........................................ 193
Xəritə 7. Qafqaz XVI-XVII əsrlərdə ............................ 310





## MÜNDƏRİCAT

**Giriş** ........................................................................ 3

Kursun mövzusu - 3. Qafqaz terminin etimologiyası haqqında - 3. Qafqazın hüdudları, müasir etnik mənzərəsi və inzibati quruluşu - 5. Kursun öyrənilməsi əhəmiyyəti - 7.

**Qafqaz tarixi üzrə əsas mənbələr** ..................................... 9

Daş kitabələr və mixi yazılar - 10. Antik mənbələr-10. Şərq qaynaqları - 12. Orta əsr Avropa müəlliflərinin əsərləri - 14. Yerli tarixi əsərlər və digər mənbələr - 15. Arxeoloji və etnoqrafik materialların əhəmiyyəti - 18. Antropologiya, numizmatika və linqvistika üzrə araşdırmaların mənbə kimi dəyəri - 19.

**Qafqaz tarixinin öyrənilməsi vəziyyəti** ............................ 20

Qafqaz tarixşünaslığında yeni dövr - 21. Erməni müəllifləri tərəfindən Qafqaz tarixinin saxtalaşdırılması - 21. Qafqaz tarixinin öyrənilməsinin müasir vəziyyəti - 22.

### QAFQAZ ƏN QƏDİM ÇAĞLARDA

**Qədim daş dövrü abidələri** ............................................... 27

Qafqaz dünyada ilk insan məskənlərindən biridir - 27. Alt Paleolit abidələri - 29. Orta Paleolit dövrü - 33. Nəsil icmasının yaranması - 37.

**İlkin əkinçilik və sənətkarlıq məskənləri** ......................... 37

Mezolit dövrünün əsas yenilikləri - 37. «Neolit inqilabı» - 40. Eneolit dövrü abidələri - 42. Metaldan istifadə edilməsinə başlanması - 45. Qonşu regionlarla qarşılıqlı əlaqələr - 47.

**Tunc dövrünün əsas yenilikləri** ......................................... 49

Tuncun kəşfi - 49. Kür-Araz mədəniyyəti - 51. Orta Tunc dövründə təsərrüfat həyatında əsas yeniliklər - 56.
**İbtidai icma cəmiyyətinin dağılması ....................................60**
Son Tunc və Erkən Dəmir dövrlərində ictimai bərabərsizliyin dərinləşməsi - 60. Hərbi demokratiya - 62. Qafqaz sakinlərinin Ön Asiya ölkələri ilə əlaqələrinin geniş miqyas alması - 64.

## QAFQAZ QƏDİM DÖVRDƏ

**Ən qədim tayfa birlikləri və dövlət qurumları ....................67**
Kuti tayfa birliyi - 67. Lullubilər - 68. Mitanni dövləti - 69. Kassi tayfaları - 70. Buntürklər - 71. Şimali Qafqazın qədim sakinləri - 72. Ermənı tayfalarının Balkan yarımadasından Şərqə doğru köçü - 74.
**Cənubi Qafqaz Assuriya və Urartu yürüşləri dövründə.....76**
Uratru, Nairi dövlət qurumları - 76. Urartu dövlətinin yaranması - 76. Manna dövlətinin Assuriya və Urartu hücumlarına qarşı mübarizəsi - 79. Kulxa - 80. Qədim cəmiyyətlərin ictimai quruluşu - 81.
**Kimmer, iskit və sak axınlarının Cənubi Qafqaz tarixində rolu ...............................................................81**
Kimmer tayfaları - 81. İskitlərin Qafqazın cənubuna yürüşü - 84. İskit şahlığı - 85. Kimmer, iskit və sak (massaget) tayfalarının etnik mənsubiyyəti məsələsi - 88.
**Qədim erməni tayfalarının Qafqaz hüdudlarına köçməsi ...........................................................................89**
Erməni tayfalarının mənşəyi - 89. Erməni tayfaları Assuriya və Urartu ağalığı dövründə - 91. Qafqazın cənub-qərb hüdudlarına köçün başlanması - 93.
**Qafqaz Midiya və İran ağalığı dövründə ..........................93**
Midiya dövlətinin Cənubi Qafqazı tutması - 93. Qara dənizin Qafqaz sahillərində ilk yunan məskənləri - 95. Şərqi Gürcüstanın qədim sakinləri - 97. Cənubi Qafqazın İran (Əhəməni) imperiyasına tabe edilməsi - 98.





Cənubi Qafqaz tayfalarının Əhəməni əsarətinə qarşı çıxışları - 106.
**Makedoniyalı İsgəndərin Şərqə yürüşü və Qafqaz ...........108**
Şərqə böyük yürüşün başlanması - 108. Qavqamel döyüşünün Qafqaz üçün nəticələri - 112. Atropatın Cənubi Qafqazda mövqeyinin güclənməsi - 114.
**E.ə. IV əsrin sonu – III əsrin əvvəlində Cənubi Qafqazda müstəqil və yarımüstəqil dövlətlərin yaranması ......120**
E.ə. IV əsrin sonunda Cənubi Qafqazda ictimai-siyasi vəziyyət - 120. Selevkilər dövləti və Cənubi Qafqaz - 123. Albaniya dövlətinin yaranması - 124. Erməni dövlətinin yaranması - 126. Kolxida və İberiya dövlətləri - 128.
**Cənubi Qafqaz və Ellinizm dünyası ...................................130**
Yunan dili və mədəniyyətinin Qafqazda yayılması - 130. Şəhər həyatında yeniliklər - 132. Sənət sahələrinin yüksək inkişafı - 133. Cənubi Qafqazda Ellinizm ayinləri - 136.
**Qədim erməni dövlətləri e.ə. IV əsrin sonu – y.e.-nın ilk əsrlərində. "Böyük Ermənistan" məsələsi............................138**
Ermənilərin ilk siyasi birliyi - 138. Ervandilər sülaləsi 140. Erməni dövlətinin qonşuları hesabına ərazilərini genişləndirməsi - 141. "Böyük Ermənistan"ın hüdudları - 143.
**Gürcüstanın qədim dövlətləri e.ə. IV əsrin sonu – y.e.-nın ilk əsrlərində.......................................................146**
Eqresi (Kolxida) dövlətinin Roma ilə münasibətləri - 146. Kartli (İberiya) dövlətinin güclənməsi - 148.
**Qafqaz uğrunda Roma-Parfiya rəqabəti ...........................150**
Cənubi Qafqaz ölkələrinə Roma yürüşlərinin başlanması - 150. Parfiyanın Cənubi Qafqazda möhkəmlənmək cəhdləri - 152. Cənubi Qafqaz dövlətlərində Arşakilər sülaləsinin nümayəndələrinin hakimiyyətə gəlməsi - 155.

**Şimali Qafqaz qədim dövrdə** ........................................157
Dəmir dövrünə keçidin sosial-iqtisadi nəticələri - 157. Kimmerlər və iskitlər - 159. Meotlar və sindlər - 161. Yunan koloniyaları - 163. Bospor şahlığı - 163. Sarmatların Şimali Qafqazda məskunlaşması - 165. Şimal-şərqi Qafqaz tayfaları və Albaniya - 167.
**Qafqazın qədim dövlətlərinin ictimai-siyasi quruluşu**.........170
İlkin dövlət qurumları və qədim cəmiyyətlərdə əsas sosial qruplar – 170. Qədim dini təsəvvürlər - 173. Din xadimlərinin dövlət işlərində iştirakı - 173. Hərbi qüvvələrin qədim cəmiyyətlərdə rolu - 174. Asılı adamlar və qullar - 175. "Avesta" qədim cəmiyyətlərinin ictimai quruluşu haqqında - 175.

## QAFQAZ ERKƏN ORTA YÜZİLLİKLƏR DÖVRÜNDƏ

**Qafqazda feodal münasibətlərinin yaranması** ................177
Feodal münasibətlərinin təşəkkülü və xarakterik cəhətləri - 177. Torpaq sahibliyi formaları - 178. Feodal təbəqəsinin formalaşması - 178. Kəndli kütləsi - 180. Əsas vergi və mükəlləfiyyətlər - 180. Erməni dövlətində naxararların hakimiyyət uğrunda mübarizəsi - 181. Qafqaz uğrunda Sasani-Roma (Bizans) rəqabəti - 183. Sasani əsarətinə qarşı xalq hərəkatı - 188.
**Türk axınlarının Şimali Qafqazda etnik-siyasi proseslərə təsiri** ..................................................................191
Hun axınları - 191. Böyük Bulqar dövləti - 193. Sabir türkləri - 195. Göytürk xaqanlığının Şimali Qafqazı özünə tabe etməsi - 195. Bizans və Sasani dövlətlərinin Şimali Qafqazda yaranmış türk xaqanlıqları ilə münasibətləri - 196.
**Qafqazda xristianlığın yayılması** ....................................197
Xristianlıq təliminin yayılmağa başlaması - 197. Xristianlığın rəsmən qəbulu - 198. Kilsənin orta əsr cəmiyyətində yeri - 200. Şimali Qafqazda xristianlığın yayılması - 202.
**Mədəniyyətin inkişafı** ....................................................203
Yerli ədəbi dillərin formalaşması - 202. Erməni, gürcü və alban əlifbalarının yaradılması - 202. Memarlıq - 202.
**Qafqaz ərəb işğalları və ağalığı dövründə** ........................207
Ərəb işğalları ərəfəsində Qafqazda ictimai-siyasi vəziyyət - 207. Qafqaza ərəblərin ilk yürüşləri - 208. Cənubi Qafqazın Xilafətə tabe edilməsi - 211. Qafqaz uğrunda Ərəb-Xəzər müharibələri - 214. Qafqazda ərəb idarəçiliyi - 216. Köçürmə siyasəti - 216. Vergi və mükəlləfiyyətlər - 219. Xilafətin əsarətinə qarşı xalq çıxışları - 222. Xürrəmilər hərəkatı - 222.
**Qafqazın feodal dövlətləri IX əsrin ikinci yarısı – XI əsrin ortalarında** ....................................................225
Qafqazın şərqində müstəqil feodal dövlətlərin yaranması - 225. Erməni feodal dövlətinin Bizansa tabe edilməsi - 227. Vahid gürcü dövlətinin yaranması - 228. Baqratilər - 228. Şimali Qafqazın feodal hakimləri - 231. Qafqaza rus basqınları - 232.

## QAFQAZ KLASSİK FEODALİZM DÖVRÜNDƏ

**Cənubi Qafqazda Səlcuq ağalığı** ......................................234
Əsas qaynaqlar - 234. Tarixşünaslıq icmalı - 236. Səlcuq türklərinin yürüşlərinin başlanması - 237. Cənubi Qafqazın Səlcuq imperiyasına qatılması - 239. Qafqazda və Ön Asiyada Səlcuq ağalığının nəticələri - 242.
**Qafqazın feodal dövlətlərinin qarşılıqlı münasibətləri (XII əsr – XIII əsrin ilk onillikləri)** ....................................244
Gürcü dövlətinin güclənməsi - 244. Gürcü-Şirvan münasibətləri - 246. Atabəylər dövlətinin Gürcüstanın işğalçı siyasətinə qarşı mübarizəsi - 247. Şimali Qafqazda etno-siyasi proseslər - 252. Qıpçaq xaqanlığı -

252. Alaniya - 252. Qafqaz və Müsəlman intibahı - 253.
**Qafqaz monqol işğalları və əsarəti dövründə ....................256**
Monqolların Qafqaza birinci yürüşü - 256. Qafqaz Cəlaləddinin hakimiyyəti dövründə - 260. Qafqazın Böyük Monqol imperiyasına tabe edilməsi - 262. Monqol idarəçiliyinin yaradılması - 265. Qafqaz uğrunda Elxani-Qızıl Ordu dövlətlərinin mübarizəsi - 266. Monqol ağalığına son qoyulması - 270. Monqol ağalığının nəticələri - 272.
**Qafqaz XIV əsrin ortaları – XV əsrdə ..........................277**
Müstəqil dövlətlərin yaranması - 277. Toxtamış xanın və Əmir Teymurun yürüşləri - 278. Teymurilərin ağalığına son qoyulması - 282. Gürcüstanın parçalanması - 284. Azərbaycanın Baharlı və Bayandur sülalələrinin Cənubi Qafqaz uğrunda mübarizəsi - 286. Erməni katolikosluğunun Eçmiədzinə köçürülməsi - 289. Şimali Qafqazda etno-siyasi proseslər - 290. XIII-XV əsrlərdə Qafqazda mədəniyyətin inkişafı - 292.

QAFQAZ SON ORTA ƏSRLƏRDƏ

**Qafqaz XVI əsrdə. Region uğrunda Səfəvi-Osmanlı müharibələri ..........................................................295**
Azərbaycan Səfəvi dövlətinin Cənubi Qafqazda möhkəmlənməsi - 295. Gürcüstanın Səfəvi dövlətinə tabe edilməsi - 298. Səfəvi dövlətinin daxili siyasəti - 300. Torpaq sahibliyi və vergilər - 300. Qafqaz uğrunda Səfəvi-Osmanlı müharibələrinin başlanması - 302. XVI əsrin ortalarında ictimai-siyasi vəziyyət - 307. XVI əsrin 70-80-ci illərində hərbi əməliyyatlar - 309. İstanbul sülhü - 309.
**Qafqaz XVII əsrin birinci yarısında ..............................312**
XVI əsrin sonu-XVII əsrin başlanğıcında Qafqazda əhalinin vəziyyəti – 312. Cəlalilər hərəkatı - 313. Şah I





Abbasın Cənubi Qafqazı osmanlılardan geri alması - 314. Georgi Saakadzenin başçılığı ilə üsyan - 316. Səfəvi və Osmanlı müharibələrinin sona çatması - 317.

QAFQAZ YENİ DÖVRÜN ASTANASINDA

**Qafqaz XVII əsrin ortaları və ikinci yarısında .................319**
İqtisadi həyatın canlanması - 319. Əhalinin vəziyyəti - 319. Kaxetidə və Dağıstanda Səfəvi ağalığına qarşı üsyanlar - 322. Şimali Qafqazda etno-siyasi proseslər - 323. Qafqazın şimalında Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizə - 324. Ermənilərin Avropa ölkələri ilə və Rusiya ilə əlaqələri - 326.
**Qafqaz XVIII əsrin birinci yarısında. Qafqaz uğrunda Osmanlı, Rusiya dövlətlərinin və Nadir şahın mübarizəsi ..........................................................................327**
XVIII əsrin əvvəlində Qafqazda iqtisadi və ictimai-siyasi vəziyyət - 327. Səfəvi rejiminə qarşı xalq hərəkatı - 329. Osmanlı dövlətinin Qafqazda öz təsirini genişləndirmək cəhdləri - 331. I Pyotrun Xəzərsahili bölgələrə hərbi yürüşü - 331. Səfəvi dövlətinin süqutu - 334. Nadir şahın Qafqazda mövqeyini möhkəmləndirməsi - 337.
**Qafqaz XVIII əsrin ikinci yarısında. Rusiyanın Qafqazda işğalçılıq siyasəti ..........................................341**
Müstəqil dövlətlərin yaranması - 341. Şimali Qafqazın Rusiya imperiyasına birləşdirilməsi prosesinin başlanması - 344. Osmanlı dövlətinin Qafqazda mövqeyini möhkəmləndirmək cəhdləri - 349. 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi və Qafqaz - 351. Şimali Qafqazda Rusiya müstəmləkə rejiminin yaradılması cəhdləri - 357. Georgiyevsk traktatı - 362. Rusların və kazakların Şimali Qafqazda kütləvi məskunlaşdırılması - 365. Şimali Qafqaz əhalisinin rus ağalığına qarşı ilk çıxışları - 371. Şeyx Mənsurun başçılığı ilə üsyanın

başlanması - 375. 1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsi və Qafqaz - 381. Şeyx Mənsurun başçılıq etdiyi mübarizənin başa çatmas - 386. XVIII əsrin sonunda Qafqaza Qacarın və Rusiyanın yürüşləri - 390.
**XVII-XVIII əsrlərdə Qafqaz xalqlarının mədəniyyəti ......393**
Ədəbiyyat - 393. Məktəb və elm - 395. İncəsənət - 397.

**Ən mühüm hadisələrin xronologiyasi ................................401**

**Ədəbiyyat siyahısı ........................................................423**

**Xəritələrin siyahısı........................................................438**



**Габиль Али оглу Алиев**
**История Кавказа**
**Часть I**
**(С древнейших времен до конца XVIII в.)**
**Учебник для вузов**
**Баку, "Элм", 2009**

| | |
|---|---|
| Korrektoru: | *Könül Əliyeva* |
| Kompüter tərtibçisi: | *Azadə İmanova* |
| Kompüterdə mətninin yığılması: | *Aqşin Əliyev*<br>*Elçin Əliyev* |
| Xəritə və şəkillərin dizaynı: | *Sahib Ədilov* |

*Müəllif dərsliyin çapa hazırlanmasında və nəşrində əməyi keçən hər kəsə öz dərin minnətdarlığını bildirir.*

| | |
|---|---|
| Direktor: | *Şirindil Alışanlı* |
| Baş redaktor: | *Teymur Kərimli* |
| Mətbəənin müdiri: | *Əhməd Məmmədov* |

---

Çapa imzalanmışdır: 14. 05. 2009-cu il.
Formatı: 60x90 1/16. Həcmi: 28 ç.v.
Tirajı: 500. Sifariş № 131.
Qiymәti müqavilә әsasında

«Elm» RNPM-nin mətbəəsində çap edilmişdir
(İstiqlaliyyət, 8).